Nizami Cəfərov

# *Hüseynbala Mirələmovun yaradıcılığı və ya ədəbi-tərcümeyi halı*

Elmi redaktoru: akademik İsa Həbibbəyli

## Cəmiyyətin və mənəviyyatın bədii dərki

Yazıçı Hüseynbala Mirələmova tənqidçi-yazıçı cəmiyyətitnin münasibəti birmənalı deyildir. Nədənsə bəzi tənqidçilər və yazıçılar Hüseynbala Mirələmovun yaradıcılığını arxa plana çəkir, məsələyə onun özünün cəmiyyətdəki mövqeyi nöqteyi-nəzərini əsas götürməklə yanaşırlar. Amma illər keçir, Hüseynbala Mirələmovun «karyerası» dəyişsə də, bədii yaradıcılıq sahəsindəki tutduğu xətt inkişaf etməkdə davam edir. Artıq de-fakto Hüseynbala Mirələmov adlı bir yazıçı Azərbaycan cəmiyyətinin gözü qarşısında böyük ədəbiyyata sədaqətini ifadə edən cəlbedici, oxunaqlı, düşündürücü əsərlər yazmaqda, pyesləri tamaşaya qoyulmaqda davam edir. Həm də ən maraqlısı odur ki, janrından asılı olmayaraq Hüseynbala Mirələmovun, demək olar ki, bütün əsərlərini vahid bir üslub: bədii-publisist üslub birləşdirir. O, artıq hansı mövzuda yazırsa-yazsın, cəmiyyət miqyasında düşünən, həyat materialını cəlbedici ədəbiyyat mətninə çevirməyi bacaran, son nəticədə vətəndaş-publisist sözünü ən müxtəlif tərzdə deməyi ilə fərdiləşən sistemli bir yazıçıdır. Hüseynbala Mirələmovun bədii-publisistik yaradıcılıqla çox aktiv məşğul olması onun həyatında ədəbiyyat amilinin qarşıalınmaz bir faktora çevrildiyini göstərir. Bütün bunlara görə Hüseynbala Mirələmovun həyatı və yaradıcılığı haqqında Azərbaycan cəmiyyətinə aydın-açıq və obyektiv elmi təsəvvür yarada bilən ümumiləşdirici bir tədqiqat əsərinə ciddi bir ehtiyac var idi. Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü Nizami Cəfərovun «Hüseynbala Mirələmovun yaradıcılığı, yaxud ədəbi tərcümeyi-halı» monoqrafiyası həm konkret olaraq tanınmış bir yazıçının yaradıcılıq yoluna sistemli və əhatəli şəkildə işıq salmaq, həm də ədəbi-elmi mühitin suallarını, yaratdığı «ikitirəliyi» aradan qaldırmaq üçün mühüm əhəmiyyətə malikdir.

Bir tənqidçi- ədəbiyyatşünas olaraq Nizami Cəfərov ədəbi proses, yaxud da konkret yazıçı və onun əsəri haqqında daha çox analitik təfəkkürdən doğan ümumiləşdirici elmi-nəzəri qənaətləri ilə səciyyələnir. Hüseynbala Mirələmovun yaradıcılığına həsr olunmuş monoqrafiyada da Nizami Cəfərovun ümumiyyətlə ədəbiyyat prinsiplərindən çıxış edərək, yaxud da tədqiqat obyektindən söz açaraq ifadə etdiyi kifayət qədər elmi-nəzəri müddəalar vardır. Məsələnin bu cəhəti Hüseynbala Mirələmovun yaradıcılığına geniş mənada ədəbi prosesin axarında baxmaq, ya da yekun qənaətləri ümumiləşdirmək məqsədi daşıyır. Əksər hallarda isə Nizami Cəfərov monoqrafiyada Hüseynbala Mirələmovun əsərlərini janrlar üzrə, həm də konkret əsərlər əsasında təhlil edib dəyərləndirmişdir. Bədii mətnin daxilinə nüfuz etmək, ideya-məzmununu meydana çıxaran strukturu açmaq, obrazlar aləminin özünəməxsusluqlarını aydınlaşdırmaq istiqamətində aparılan tədqiqatlar Hüseynbala Mirələmovun yaradıcılıq təkamülünün reallıqlarını izləməyə və inkişafın səviyyəsini müəyyən etməyə əsas verir. Aparılmış müqayisələrdən görünür ki, Hüseynbala Mirələmov bədii nəsrin povest janrında özünü ifadəyə daha çox üstünlük vermişdir. Həqiqətən də, yazıçının yaradıcılığında həyatın povest miqyasında qavranılması və təqdim edilməsi cəmiyyət həyatının seçilmiş həqiqətləri əsasında nisbətən yığcam halda, lakin dərin və əsaslı fikirlər irəli sürməyə şərait yaradır. Hüseynbala Mirələmovun indiyə qədər oxucuya çatdırılmış 10 povestində Azərbaycan cəmiyyətinin ən müxtəlif məqamlarına işıq salınmışdır.

Bu əsərlər bütövlükə yaşadığımız epoxanın daxili gərginliklərini  və mənəvi dərinliklərini tam halda özündə əhatə edir, oxucuya söz deyir. Görünür, Hüseynbala Mirələmov povest janrına daha çox sədaqətlidir. Onun «Coğrafiya çubuğu» (1982), «Həyat eşqi» (1995), «Təmizlənmə» (2002), «Tənha lalə» (2002), «Xəcalət» (2004), "Qumru yumurtaları", «Gecə sürünən ilanlar» (2010) povestinin hər birində müasir cəmiyyətin meydana çıxardığı aktual bir problem, yeni yanaşma öz əksini tapmışdır.

Hüseynbala Mirələmovun bir sıra hekayələrində povest məzmunu ifadə olunmuşdur. Bundan başqa, onun «Gəlinlik paltarı», «Qırxıncı otaq» kimi

romanları məzmunca bu janrın tələblərinə cavab verən əsərlər olsa da, forma etibarilə povestə yaxındır. Nizami Cəfərovun janrlar üzrə tədqiqatlarında həmin təkamül prosesləri və müəyyən olunmuş miqyas çərçivəsində ifadə olunmuş həyat materiallarının bədiiləşdirilməsi, bədii formanın məzmunla uyğunluğu kimi məsələləri diqqət mərkəzində saxlanılmışdır. Bütün bunlar Hüseynbala Mirələmovun yaradıcılıq yolunu tam qavramaq və bütün özünəməxsusluqları ilə təqdim etmək üçün «açar» funksiyasını yerinə yetirir. Nizami Cəfərov Hüseynbala Mirələmovun bədii yaradıcılığının nəinki açarını, necə deyərlər, qıfılını da tapmışdır. Təqdim olunan yanaşma tərzi Hüseynbala Mirələmovun yaradıcılığı haqqında obyektiv və ümumiləşdirilmiş elmi qənaətlərin formalaşdırılmasına uğurla xidmət edir. Bu isə öz növbəsində oxucunun da Hüseynbala Mirələmovun yaradıcılıq aləminə daha münasib şəkildə daxil olmasına, gəzişlər etməsinə, daha çox isə ifadə olunan mənanın, mətləbin qabarıq surətdə oxucunun diqqətinə çatdırılmasına şərait yaradır. Oxucuya göstəriş vermək fikrindən uzaq olan Nizami Cəfərov daha çox bələdçilik etmək üçün mümkün olan qədər elmi cəhətdən izahlı aydınlaşdırmalar aparmışdır. Beləliklə, Hüseynbala Mirələmovun yaradıcılığındakı əsərdən-əsərə inkişaf edən və sistem şəklində formalaşan özünəməxsusluqlar elmi cəhətdən müəyyən olunub ümumiləşdirilmişdir.

Yaradıcılıq ideallarını örnək kimi qəbul etdiyi Cəfər Cabbarlı və Çingiz Aytmatov Hüseynbala Mirələmov üçün ilk növbədə böyük ədəbiyyat məktəbidir. Yazıçının həmin ədəbi məktəblərin ənənələrindən yaradıcı şəkildə bəhrələndiyi müşahidə olunur. Geniş mənada isə Cəfər Cabbarlı da, Çingiz Aytmatov da Hüseynbala Mirələmov üçün sənət idealıdır. Nizami Cəfərov da haqlı olaraq yazır ki, yüksək sənət meyarlarının olması yazıçının özünü də böyük ideallar uğrunda mübarizəyə istiqamətləndirir. Hüseynbala Mirələmovun sənət idealının əsasında Azərbaycan insanının mənəvi zənginliyini uca tutmaq, onun inkişafına, «təmizlənməsinə» müsbət mənada daim bədii söz vasitəsilə təsir göstərmək, ictimai mühitin daha da sağlamlaşmasına işıq salmaq əsas yer tutur. Hüseynbala Mirələmov bu böyük ideallara sədaqətini bütün hekayə və povestlərində, romanlarında, nəhayət, «Sonuncu fateh» tarixi romanında isbat etmişdir.

Azərbaycan tarixində böyük yer tutmuş Nadir şah Əfşar haqqında ədəbiyyatda xeyli dərəcədə əsər yazılsa da, Hüseynbala Mirələmovun meydana qoyduğu «Sonuncu fateh» tarixi romanı təkcə xalq hakimiyyəti ideyasını yox, həm də milli birlik idealını ifadə etdiyi üçün əhəmiyyətlidir. Nizami Cəfərovun «Sonuncu fateh» haqqında yazdıqlarında da tarixi romanın fəlsəfəsi və müasirliyi elmi şəkildə açılmışdır.

Azərbaycan ədəbiyyatında JZL janrının, görkəmli adamların həyatı seriyasından olan əsərlərin özünəməxsus ənənəsi olsa da, Hüseynbala Mirələmovun bu janrda yazdığı qiymətli əsərlərin xüsusi yeri vardır. Yazıçının görkəmli dövlət xadimi Heydər Əliyevə həsr etdiyi JZL mahiyyəti və səviyyəsi etibarilə mükəmməl bir tarixi roman təsiri bağışlayır. Bu əsərin artıq dünyanın bir çox xalqların dillərində nəşri, böyük maraqla qarşılanması Hüseynbala Mirələmovun JZL-çilikdəki professionallığından söz açılmasına imkan yaradır. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə həsr olunmuş JZL-də də tarixilik və müasirliyin vəhdətdə qələmə alınması əsasında yeni Azərbaycanın ümumiləşmiş bədii mənzərəsi canlandırılmışdır. Görkəmli alim və ictimai xadim, məşhur göz həkimi Zərifə xanım Əliyevadan bəhs edən JZL-də isə həyat hadisələrinin, ictimai motivlərin dramatizmi ilə lirizmin növbələşməsinə diqqət yetirməklə yazıçı eyni janrda və yaxın mövzuda yeni və əhəmiyyətli bir əsərin yaradılmasına nail ola bilmişdir.

Eyni zamanda, monoqrafiyada Hüseynbala Mirələmovun publisistikası, xüsusən də onun yaradıcılığında nisbətən geniş yer tutan ictimai-siyasi publisistikası haqqında aparılmış təhlillər və ümumiləşdirmələr yazıçının bu yaradıcılıq istiqamətindəki fəaliyyəti barədə də təsəvvürlərin formalaşmasına kömək edir.

Bütövlükdə Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü Nizami Cəfərovun «Hüseynbala Mirələmovun yaradıcılığı, yaxud ədəbi tərcümeyi-halı» monoqrafiyası mükəmməl və ümumiləşmiş elmi əsər səviyyəsində meydana çıxmışdır. Bu kitab Hüseynbala Mirələmovun 1962-ci ildə Lənkəran rayon qəzetində çıxan «Bir parça çörək» adlı ilk hekayəsindən başlanan və yarım əsrdən

artıqdır ki, davam etməkdə olan bədii yaradıcılığının təkamül prosesləri, bütöv mənzərəsi və yazıçının özünəməxsus sənət aləmi ətrafında geniş, aydın və ümumiləşmiş qənaətləri formalaşdıraraq çox suallara real olaraq cavab verir.

Təqdim olunan tədqiqat əsəri - monoqrafiya Azərbaycan ədəbiyyatının ayrı-ayrı faktları və hadisələrinə bir çox sanballı məqalələr və kitablar həsr etmiş Nizami Cəfərovun ədəbiyyatşünaslıq üzrə birinci geniş həcmli monoqrafiyası kimi də əhəmiyyətlidir.

**İsa HƏBİBBƏYLİ,**
**akademik**
**30 sentyabr 2014-cü il.**

# GİRİŞ

«…Azərbaycanın tanınmış yazıçı- dramaturqu Hüseynbala Mirələmovla bir yerdəyik… Mən dostluqda dəqiqliyə, həssaslığa və təmənnasız münasibətlərə xüsusi qiymət verən adamam. Bu mənada Hüseynbala Mirələmovla oxşarlığımız çoxdur. Həmfikir olduğumuza görə tale bizi qovuşdurub. Biz hər bir mövzuda fikir mübadiləsi aparanda eyni məxrəcə gələ bilirik… Hüseynbala ilə hər görüşəndə ondan müsbət enerji qəbul edirəm, ruhən bəhrələnirəm»…

Bu sözlər türk dünyasının (və ümumən dünyanın!) böyük yazıçı-mütəfəkkiri Çingiz Aytmatova aiddir…

*

* *

Hüseynbala Mirələmov müasir Azərbaycan ədəbiyyatının ən parlaq, ən məhsuldar simalarından biridir. Onun hekayə, povest, roman, dramaturgiya və publisistikasında qaldırılan kifayət qədər ciddi sosial- mənəvi problemlər yalnız Azərbaycanda deyil, əsərlərinin tərcümə olunub yayıldığı ölkələrdə də böyük maraq doğurur, Azərbaycan ədəbiyyatının, ədəbi- ictimai təfəkkürünün səviyyəsi barədə aydın təsəvvür yaradır.

Yazıçının yaradıcılığının ən mühüm xüsusiyyətlərindən birincisi, heç şübhəsiz, müasirliyi, günümüzün mürəkkəb hadisələrinə, analitik təhlilə (və ümumiləşdirməyə) çətin gələn ictimai proseslərə, get- gedə daha da çətinləşən, gözlənilməz mənəvi- əxlaqi anomaliyalarla qəlizləşən insan münasibətlərinə fəal ədəbi- fəlsəfi müdaxiləsidir. Ümumiyyətlə, hansı mövzuda yazırsa yazsın Hüseynbala Mirələmovu bir yazıçı- mütəfəkkir kimi maraqlandıran əsas məsələ

bugünün insanı, onun düşdüyü mürəkkəb sosial- psixoloji vəziyyətlər və ondan optimal çıxış yollarının axtarılıb tapılmasıdır.

Məlum olduğu kimi, XX əsrin sonu XXI əsrinəvvəllərindən etibarən dünya insan həyatına həm siyasi, həm iqtisadi, həm də mədəni- mənəvi sahələrdə öz «sürprizlər»ini diqtə etməyə başladı. Və bu «sürprizlər» o qədər çox, o qədər intensiv oldu ki, zəmanəmizin ən nikbin filosofları belə insanın (və dünyanın!) taleyi barədə xeyli bədbin fikirlərə düşdülər… Vəziyyət o həddə çatdı ki, yeniləşmə, inkişaf fəlsəfi təfəkkürdə nəinki alqışlanmalı, hətta etiraz doğurmalı oldu. Əgər əsrlər boyu nümunəvi sayılan, həyat proseslərini tənzimləyən kanonlar pozulursa, həmin kanonlara bu və ya digər səviyyədə riayət etmək insanı həyatın özünün proqresslərindən kənarda qoyursa, müasir (və hər gün müasirləşən!) dünyanı necə izah etməli? Yalnız paradokslarlamı?..

Bir vaxtlar dünyanı hərbçilər- sərkərdələr idarə edərdilər… Makedoniyalı İsgəndər, Atilla, Çingiz xan, Əmir Teymur, I Pyotr, Napaleon… Və tarix yüzlərlə bu cür qəhrəmanı öz yaddaşında qəribə bir məhəbbətlə, ehtiramla və çox maraqlıdır ki, xüsusi təəssübkeşliklə qoruyub saxlamışdır. Bütünlüklə fiziki- hərbi gücə əsaslanan həmin dünya üçün insan həyatı o qədər əhəmiyyətsiz idi ki, hətta az- çox fatehlərin ətrafındakı filosoflar, tarixçilər, şairlər belə onların yüz minlərlə insanın məhvinə hesablanmış qələbələrini tərənnüm edirdilər.

Dünyanın həm hərbçi- sərkərdə, həm də siyasətçi- ideoloq olmaq iddiasına düşən son qəhrəmanları Hitlerlə Stalin oldular.

Sonra siyasətçilər, ideoloqlar gəldilər… Onlar əllərində silah orduların önündə getmək, qanlarına bulaşmış cəsədləri bilavasitə görmək əzabından xilas oldular… Və təbii ki, qalib gəlmək üçün yenə də öldürmək lazım idi, lakin gözə görünmədən, günahı naməlum (heç bir vəchlə tapılmayacaq!) bir qüvvənin, ya da ölənin boynuna atmaqla…

XX əsrin sonlarına doğru sülh uğrunda mübarizənin ümumdünya hərəkatına çevrildiyi, insan hüquqlarının müqəddəsliyi beynəlxalq münasibətlərin əsasında dayandığı bir dövrdə terrorizm ( günahkar yox, məhz günahsız insanlara qəsd!)

hərəkatı elə bir miqyas aldı ki, həyatın fəlsəfəsi barədə düşünmək artıq xeyli dərəcədə mübahisəli görünməyə başladı.

Elə isə nəinki insan beyninin (intellektinin!) hətta insan qəlbinin (hisslərinin!) mexanikləşdiyi müasir dünyada yazıçının, sənətkarın, mütəfəkkirin müasir olması nə deməkdir?.. İnsanın necə yaşadığı, gündəlik fəaliyyətinin nədən ibarət olduğu, necə ailə qurduğu, bu dünyada nə qoyub getdiyi barədə daha çox iqtisadi statistikanın, yaxud hüquq- mühafizə orqanlarının verdiyi məlumatlara əsaslanıldığı müasir dövrdə yazıçının (ədəbiyyatın!) müasirliyi nəyə əsaslanır?..

Fikrimizcə, konyuktursuzluğa və ya tərəfsizliyə!.. Ədəbiyyat, yaxud əsl yazıçı (sənətkar) ona görə həmişə müasirdir (və onun dövranı heç zaman qurtarmır) ki, onun, sözün dar mənasında, məqsədi yox, sözün geniş mənasında, məramı var… Bu məram isə insanın daxilinə hansı ilahi qüvvəninsə qoyduğu insanlığın ölməsinə imkan verməməkdən, onu (insanı), birinci növbədə, öz gözündə yüksəltməkdən ibarətdir.

Və Hüseynbala Mirələmov, hər şeydən əvvəl, ona görə müasirdir ki, təbii-tarixi bir inersiya ilə öz böyük xələflərinin yoluyla gedir…

Yazıçının yaradıcılığının ikinci mühüm xüsusiyyəti onun mütəfəkkir məsuliyyətidir. Bu isə o deməkdir ki, Hüseynbala Mirələmov əlinə qələm alandan nə yazıbsa onun həqiqət olduğuna ürəkdən inanıb, bir şey düşünüb başqa şey yazmayıb… Həyatı bəzəməkdən, bəlağətdən, gözə (və ürəyə!) xoş gələ biləcək bədii konstruksiyalar uydurmaqdan həmişə qaçıb… Və imkan verməyib ki, nə zamansa sıravi, yaxud intellektual bir oxucu onun əsərini oxuduqdan sonra «yox, düz yazmamısan!» desin.

Yazıçı sözünün, çox təəssüf ki, nüfuzunun o qədər də yüksək olmadığı bir dövrdə ona (yazıçı sözünə!) nüfuz qazandırmağın əsas yolu məhz bu tərəfsiz, konyuktursuz məsuliyyətdir – həyatı necə varsa o cür, bütün harmoniyası (və kəm-kəsiri) ilə göstərmək, təsvir etməkdir. Həqiqəti deməkdən qorxmamaqdır.

Nəhayət, Hüseynbala Mirələmov yaradıcılığının üçüncü mühüm xüsusiyyəti onun humanizmidir.

Yazıçı üçün müasirlik, məsuliyyət nə qədər əhəmiyyətlidirsə, humanizm də o qədər vacibdir. Dünyada insana həyat verə biləcək, onu müdafiə edə, yüksəldə biləcək nə varsa, yazıçı ona həssas olmalıdır. Və əksinə, insanı insanlıqdan çıxaran nə varsa, ona qarşı çıxmalıdır. Xüsusilə bizim günlərdə – insanlığın ən munis, ən səmimi hisslərinə total (və qaba!) müdaxilənin gücləndiyi bir dövrdə yazıçı humanizmi ən böyük sosial- ideoloji münsif ola bilər. Və olmalıdır…

Hüseynbala Mirələmov yaradıcılığında müasir olduğu qədər məsuliyyətli, məsuliyyətli olduğu qədər humanist sənətkardır… O, ən «mənfi» qəhrəmanının belə təbiətindəki insani keyfiyyətləri görür, qiymətləndirir, «qətran qaranlığı»ndakı kiçik bir işıq cücərtisinin parlamasına, yatmış vicdanın oyanmasına, solmaqda olan hisslərin çiçəklənməsinə elə ehtirasla çalışır ki, bunu ancaq böyük ürək sahibləri edə bilər.

*

* *

Hüseynbala Mirələmov 25 iyun 1947- ci ildə Lerik rayonunun Nuravurd kəndində dünyaya gəlsə də, kiçik yaşlarında ailəliklə Lənkəran şəhərinə köçdüklərinə görə burada boya- başa çatmışdır. Lənkəranda orta məktəbi gümüş medalla bitirmiş müxtəlif elm sahələrində istedada malik yeniyetmə ali təhsilini Azərbaycan Politexnik İnstitutunun inşaat fakültəsində davam etdirmişdir (1965-1970).

Uzun illər həm istehsalatda çalışan, həm elmi tədqiqatlarla məşğul olan, həm də ictimai xadim kimi formalaşan Hüseynbala Mirələmovun genişmiqyaslı yaradıcılıq imkanlarının, tale (və həyat) göstərdi ki, bir mühüm sahəsi də ədəbiyyat imiş.

Orta məktəbdə oxuduğu illərdə yazıb Lənkəranın «Leninçi» qəzetində çap etdirdiyi «Bir tikə çörək» hekayəsi, hər şeydən əvvəl, o demək idi ki, Hüseynbala Mirələmov çox gənc yaşlarında ədəbiyyat dünyasına daxil olmaq üçün artıq «vətəndaşlıq pasportu» almışdı. Və tale onu sonralar haraya göndərsə də, hansı yüksək mövqelərə qaldırsa da, o, bu «vətəndaşlıq»dan imtina edə bilməzdi.

Ümumiyyətlə, təcrübə göstərir ki, həyatın hər üzünü görməyən, onu sözün böyük mənasında (və bütün mürəkkəb tərəfləri ilə birlikdə) yaşamayan, dünyaya yalnız yazı masasının arxasından baxan yazıçı sənətkarlıq texnologiyalarına nə qədər dərindən yiyələnsə də oxucu ilə sona qədər səmimi ola bilməz. Həyatdan gələn yazıçı isə hətta sənətkarlıq baxımından müəyyən mənada mübahisəli görünsə də, əsərlərində həyat həqiqətlərini bütün təbiiliyi ilə təqdim etdiyinə görə, oxucunu cəlb edir, hisslərinə hakim kəsilir, onu həyəcanlandırır, düşündürür…

Orta məktəbin yeddinci sinifində oxuyarkən – 1961- ci ildə çap olunan ilk hekayəsindən iyirmi beş il sonra ilk hekayələr kitabı – «Tənha durna uçuşu» (1986) nəşr olunana (və ondan da on beş il sonraya) qədər Hüseynbala Mirələmov çoxlarının qibtə edəcəyi dolğun (hadisələrlə zəngin!) bir həyat yaşamışdı. Özü də kabinetlərdə yox, istehsalatın imkan verdiyi geniş ictimai miqyaslarda, müxtəlif təbəqələrdən olan insanlarla çiyin- çiyinə, kürək- kürəyə, göz- gözə… Dünyanın ən ağıllı, müdrik, hər hərəkəti bir tərbiyə məktəbi olan insanlarını da görmüşdü, hər hərəkəti insan adına ləkə olan məxluqlarını da…

Hüseynbala Mirələmovun çap olunan ilk hekayəsindən iyirmi beş il sonra nəşr olunmuş ilk hekayələr kitabına ön söz yazmış məşhur yazıçı, tənqidçi-ədəbiyytşünas Elçin özünəməxsus üslubla qeyd edirdi ki, «mən bu kiçik kitaba toplanmış hekayələri oxuduqdan sonra birdən- birə Lerik, Yardımlı dağlarını xatırladım, o dağların təmiz, şəffaf ab- havasını xatırladım, Lənkəranın, Astaranın, Masallının – doğma Azərbaycanımızın bu gözəl, ürəkaçan guşəsinin limonlu, narınclı, portağallı bağ- bağatını, qatarla sıralanan düzləri, təpələrin döşlərini bəzəyən çay plantasiyalarını xatırladım, Xəzərin heç yerdə yox, məhz Lənkəran, Astara sahillərində əsən mehini duydum…

Yox, ona görə yox ki, Hüseynbala başı qarlı o dağları, o gözəl Lənkəran bağ- bağatını təsvir etmişdir; ona görə ki, bu hekayələrdəki səmimiyyət, doğma yurda məhrəmlik, hiss etdiklərini öz imkanları daxilində söyləmək, yaxşıya sevinmək ilə, xeyirxahlıq ilə o dağların, o bağ- bağatın, o dəniz mehinin arasında nəsə üzvi bir bağlılıq var».

Hər cür uğurlu, istedadlı əsəri (və yazıçını) ürək genişliyi ilə yanaşı son dərəcədə məsuliyyətlə dəyərləndirən Elçin əlavə edir: «Hüseynbalanın bu hekayələr kitabı «Tənha durna uçuşu» ilə başlayır, «Qayıtdı durnalar…» hekayəsi ilə sona yetir.

Nə yaxşı ki, o durnalar, o azad quşlar yenə də doğma torpağa qayıdırlar və mən çox istəyirəm ki, hansı janrda, hansı həcmdə yazmasından asılı olmayaraq Hüseynbalanın qələmi də zəhməti kimi (Hüseynbala Mirələmov o zamanlar qaz kəməri inşaatı mühəndisi idi – N.C.) doğma torpağa, doğma yurda beləcə bağlı olsun».

«Tənha durna uçuşu»ndan on beş il sonra nəşr olunmuş ikinci hekayələr kitabına – «Qayada çiçəy»ə (2002) yazdığı «Müəllifdən qeydlərində Hüseynbala Mirələmov ilk hekayəsinin çapından qırx ildən də artıq vaxt keçdiyini yada salır. Və yaradıcılıq tarixçəsinə işıq salan maraqlı fikirlər söyləyir: «…İndi nə yaş o yaşdır, nə də zaman, dövran…

Ancaq ilk gəncliyimdən içimə düşən közün yandırdığı yerin göynərtisi ötmədi. Zaman- zaman məni yandırdı, ara- sıra qələmə aldığım hekayələrdə daxilimdə baş qaldıran tufanları sakitləşdirməyə cəhd göstərsəm də, zaman keçdikcə bu hisslər qarşısıalınmaz bir həvəs və istəklə üzə çıxır, hətta vaxtilə mənəviyyatımda yığılıb qalmış həyat həqiqətlərini bədii sözün donunda üzə çıxarmağa məni məcbur edir. Əlbəttə, bu kitabda toplanmış hekayələrin qüsursuz sənət nümunələri olması iddiasında da deyiləm. Ancaq diqqətli oxucu üçün bu yazıların zorən yazılmadığını təyin etmək o qədər də çətin olmaz.

…Az yazmağımı da sözə arxa çevirmək, sözdən uzaq düşmək kimi qəbul etmirəm. Əlbəttə, yazılarım haqqında ən ədalətli hökmü şəffaf oxucu özü verəcəkdir. Ancaq nikbinlik duyğusu ilə deyirəm, hansı könülsə nə vaxtsa bu sözlərin hərarətindən istilik alsa, məmnun olaram».

Hüseynbala Mirələmovun bədii yaradıcılığa çox gənc yaşlarında başlamasından xəbəri olmayan, yaxud 2000- ci illərin əvvəllərindən etibarən çox böyük məhsuldarlıqla yazıb yaratmasından və ya qəflətən ədəbi prosesdə bütün parlaqlığı ilə görünməsindən «təşvişə düşən» tənqidçilər yazıçını

qiymətləndirməkdə də müəyyən tərəddüdlər keçirdilər. Necə oldu ki, 60- cı, 70- ci, 80- ci, hətta 90- cı illərdə «susan», «görünməyən» bir yazıçı 2000- ci illərin əvvəllərindən başlayaraq «inqilab» elədi, həm nəsrdə, həm dramaturgiyada, həm də publisistikada bu qədər böyük uğurlar qazandı?..

Ədəbi yaradıcılığın (istedadın!) özünəməxsusluqlarını, gözlənilməz sürprizlərini və subyektivlərini bir yana qoysaq, fikrimizcə, bunun üç məlum səbəbi vardı:

1) Hüseynbala Mirələmov çox gənc yaşlarından, əgər belə demək mümkünsə, yazıçılıq eləmiş, ilk hekayəsini çap etdirmiş, sonralar da «ədəbiyyatdan xeyli uzaq sahələrdə» çalışsa da vaxtaşırı yazmaqdan qalmamış, ədəbiyyatla yaşamışdı;

2) 60, 70, 80, 90- cı illərdə hər onilliyi bir mərhələ olan, xüsusilə mənən-ruhən zəngin bir həyat yolu keçmiş, böyük bir intellekt, ideya- fikir adamı, cəmiyyətin qəbul etdiyi şəxsiyyət olaraq formalaşmışdı, deməyə sözü vardı;

3) dünyanın dəyişməsi (demokratikləşməsi!), xüsusilə Azərbaycanda ümummilli lider Heydər Əliyevin yaratdığı humanist şərait imkan vermişdi ki, daxilində yanğı (və insan sevgisi!) olan, həyatı dərindən bilən bu şəxs (şəxsiyyət!) bütün gücü, miqyası və məhsuldarlığı ilə ədəbiyyata (yenidən!) gəlsin.

Və çox keçmədi ki, Hüseynbala Mirələmovun istedadını qiymətləndirməkdə ədəbiyyatın xeyirxahı (və uzaqgörəni!) Elçin tək qalmadı… Çingiz Aytmatov, Bəkir Nəbiyev, Əlirza Xələfli, Nizaməddin Şəmsizadə, Vaqif Yusifli, Nizami Cəfərov kimi onlarla ədəbiyyat adamı da böyük yazıçının, ictimai xadimin, «insan qəlbinin mühəndisi»nin (Maksim Qorki) istedadını etiraf etdilər.

*

*   *

Yaradıcılıq miqyası çoxşaxəli olan yazıçı, artıq qeyd etdiyimiz kimi onlarla gözəl hekayələrin, povestlərin, romanların, dram əsərlərinin, publisistik məqalə və kitabların (xüsusilə Heydər Əliyev, Zərifə Əliyeva və İlham Əliyev haqqında «Görkəmli adamların həyatı» seriyasından dünyanın müxtəlif dillərinə tərcümə olunaraq nəşr edilmiş kitabların), ədəbi- tənqidi yazıların, tərcümələrin müəllifidir.

Müraciət etdiyi mövzulara gəldikdə isə onların da miqyası kifayət qədər genişdir: məhəbbət mövzusundan başlamış Qarabağ mövzusuna qədər…

Əgər sual olunsa ki, Hüseynbala Mirələmov yaradıcılığının baş qəhrəmanı kimdir və ya nədir, cəsarətlə cavab vermək olar ki, «Mənəviyyat!..» Ümumiyyətlə, yazıçının elə bir əsərini təsəvvür etmək mümkün deyil ki, mənəviyyat, insanlıq və ya mənəvi məsuliyyət məsələsinə toxunulmasın, özü də məhz dərindən, məsələni hərtərəfli əhatə edəcək bir şəkildə toxunulmasın… Maddiyyatın mənəvi dəyərləri (insanlığı!) çox hallarda sıxışdırıb ikinci və ya üçüncü plana keçirdiyi müasir dünyada bu, əlbəttə, donkixotluq deyil, böyük yazıçı missiyasıdır, insanlıq tarixi qarşısında əbədi cavabdehlikdir…

Sevgi!.. Hüseynbala Mirələmovun qəhrəmanlarının mənəvi dünyasını, hətta xarakterini, şəxsiyyətini (və taleyini!) müəyyənləşdirən ilahi qüvvədir. Bir kişinin bir qadına, yaxud bir qadının bir kişiyə münasibətinin ən parlaq təzahürü olan bu qüvvə, yazıçıya görə, o zaman təbii, məsuliyyətli və humanistdir ki, həyatın özünü yenidən yaradır. Çünki dünyada həyatın özünün özünü yenidən yaratmasından müqəddəs heç nə yoxdur.

Əgər buna alternativ olan hər hansı cəhd, yaxud «qüvvə» olmaq fikrinə düşən bir refleks və ya iddia varsa, o, anlaşılmazlıqdır, antihəyatdır, qaranlıqdır…

Və cəsarətlə demək olar ki, yazıçının nəinki bədii əsərlərində, hətta publisistikasında da sevgi, məhəbbət hissi özünüifadədən çox- çox kənara çıxıb dünyagörüşü (fəlsəfə!) səviyyəsinə, insanın həyatda, cəmiyyətdə, mühitdə özünütəsdiqi, şəxsiyyətin mükəmməlliyinin atributu səviyyəsinə yüksəlir.

Hüseynbala Mirələmovun, demək olar ki, bütün əsərlərində hadisələr, münasibətlər (ümumiyyətlə həyat!) əvvəlcə qatı qaranlıqlar, tufanlar içərisində təsvir olunur, əsərin qəhrəmanı bu qatı qaranlıqlardan işığa, tufanlardan hüzura, sakitliyə can atır.

Və qəhrəmanlarını həmişə həyatın ən dərin girdablarına salmaqdan, ən çətin vəziyyətlərdə təsvir etməkdən ona görə çəkinmir ki, onların həmin girdablardan, həmin çətinliklərdən çıxacaqlarına tamamilə əmindir.

Hüseynbala Mirələmov yaradıcılğı, ədəbi tərcümeyi- halı ilə Azərbaycan ədəbiyyatına, ümumən mədəniyyətinə kifayət qədər böyük nüfuz, hörmət gətirən mütəfəkkir yazıçıdır.

# I. HEKAYƏLƏR

Hüseynbala Mirələmov ədəbiyyata çox gənc yaşlarında ilk mətbu əsəri olan «Bir tikə çörək» hekayəsi (1961) ilə gəlmişdi. Orta məktəb şagirdinin qələmindən çıxmasına baxmayaraq hekayə olduqca həyati bir mövzuya həsr olunmuş, yeniyetmə müəllif kifayət qədər maraqlı süjet- kompozisiya qurmuş, dil- üslub nümayiş etdirmişdi.

…Söhbət kasıb bir ailədən gedir. Ərini itirmiş qadın oğlu Məmmədlə öz komasına sığınıb. Qışdır. Yeməyə heç nələri yoxdur. Bir tərəfdən də qadını- Kübra xalanı xəstəlik tutub…

Gənc müəllif acınacaqlı vəziyyəti, demək olar ki, peşəkarcasına təsvir edir…

«…Onun bədəni qızdırma içərisində yanır… Ana sanki öz qızdırmasının hərarəti ilə bu ocaqsız komanı qızdırmaq istəyirdi. Onun başı üstündə iri qulaqlı papağını gözlərinə qədər basan 12- 13 yaşlarında bir oğlan durmuşdu. Uşağın çuxura düşmüş kiçik qara gözləri, soyuqdan tir- tir əsən nazik barmaqları, xəzan vurmuş payız yarpağı tək saralmış bənizi ona həddindən artıq yazıq bir görkəm verirdi. Anasına baxdıqca ürəyindən qara qanlar axırdı».

Evin 12- 13 yaşlı kişisinə – Məmmədə elə gəlir ki, bir tikə çörək olsa, anası yesə, xəstəlik ötüb keçəcək. Ona görə də qışın qarlı günündə özünü nisbətən varlı bir evin həyətinə atır ki, ev sahibinə yalvarıb bir az çörək istəsin. Ancaq heç kəsi tapmır…

Və gənc müəllif klassik Azərbaycan hekayəsi üçün səciyyəvi olan bir səviyyədə bədii təzad yaradır…

«Hamısı evlərinə girib isti sobanın qırağında xumarlanırdılar.

Onun nəzərləri həyətin yuxarı başındakı kiçik it yuvasına sataşdı. Lakin it gözə dəymirdi. Deyəsən o da sahibi kimi qarnını doyurmuş və yatmışdı. İtin yuvası ağzında bir tikə çörək vardı».

Məmməd həmin bir tikə çörəyi götürüb getmək istərkən it onun əlini dişləyir. Anasını sağaltmaq üçün hər cür fədakarlığa hazır olan uşaq buna məhəl qoymadan qaçır. Və yolda borana, qasırğaya düşür.

Gənc müəllif əhvalatı yekunlaşdırır:

«Kənd yoxsulları axşam obaya qayıdarkən Məmmədi də gətirdilər. İtin qabağından götürdüyü bir tikə çörək parçası hələ də onun donmuş əlində idi. Yaralı əlindən sızan qan çörəyi al qırmızı rəngə boyamışdı».

…İllər keçir. Dünya dəyişir. Çörək bol olur. Və təsadüfən nəvəsi - Məmmədin oğlu ilə bazarlığa gedən Kübra xala mağazada növbənöv çörəkləri

görəndə keçmiş günlər yadına düşür, xəyallanır və özündən asılı olmayaraq satıcıya deyir ki, onun zənbilini çörəklə doldursun…

Olduqca insani, səmimi hisslər, duyğularla yazılmış bu hekayənin əsas mahiyyəti birinci növbədə ondan ibarət idi ki, çox gənc, hələ püxtələşməmiş bir qələmin məhsulu idi. Və müəllifə böyük yaradıcılıq perspektivləri vəd edirdi.

*

*   *

60- cı illərdə Hüseynbala Mirələmov daha bir neçə hekayə yazdı: «İzlər», «Qasırğa tez keçdi», «Qara xal», «Son arzu»…

«İzlər» (1967) hekayədən çox mənsur şeiri xatırladır…

«Sahil kimsəsiz idi. Ətrafda heç kəs görünmürdü. Fikirlərim sanki ayaq izlərilə bir addımlayırdı. İzlər… Sahil gedir, izlər gedir… Sahil gedir, izlər itir… Bu sahilə neçə- neçə izlər düşüb, bu sahilin sinəsindən neçə- neçə izlər silinib. Bəli, izlər düşür, izlər itir…»

Müəllif üç cür izdən danışır: birincisi, normal ikiayaqlı insanın izləridir; ikincisi, qoltuq ağacı ilə gəzən, büdrəyib avtobusdan yıxılan Azər müəllimin təkayaqlı izidir; üçüncüsü isə, müharibədə hər iki ayağını itirmiş atanın «izi»dir…

«Qatardan axırıncı adamlar düşür. Atam isə hələ yoxdur. Elə bu an anamın çığırtısı eşidilir. İrəliyə – qatara tərəf yüyürür. Ətəyi əlimdədir. Mən də onunla qaçıram. Atamı görürəm. Atamı… Enlikürək, ucaboylu atamı yox; müharibənin bizə qaytardığı atamı… İki qıçı dizdən kəsilmiş, balacalaşmış atamı…»

Atanın fiziki izi yoxdur, heç «Azər müəllimin saldığı tənha izi qoşalaşdıra bilən» izi də… Ancaq mənəvi izləri var…

«Sənin izin hər yerdə görünür. Anamın saçlarında da, ürəyində də, evimizdə də, eyvanımızda da, çinarlarda da, çiçəklərdə də… Yollarda da! Bəli, tozlu yollarda, asfalt yollarda… Atacan, axı sən yol ustası idin. İnsanların rahatlığı üçün yollar çəkirdin. Dağlardan, dərələrdən, düzənlərdən keçən yollar…»

Rəvan üslub, aydın cizgilərlə, konkret bədii ştrixlərlə yaradılmış obrazlar, canlı təbiət təsvirləri (və onların mənalandırılması), etnoqrafik həssaslıq,

«qaranlıq- işıq» kolliziyalarının qabarıq verilməsi, müəllif məramının açıq ifadəsi Hüseynbala Mirələmovun ilk hekayələri üçün səciyyəvi idi.

«Qasırğa tez keçdi» (1967) hekayəsində ailə- məişət probleminə gənc yazıçı özünəməxsus təhlil verirdi. Uşaqları olmadığına görə mənəvi iztirablar keçirən ailə dağılhadağılda daha bir çətinliklə üz- üzə qalır, evin kişisi qasırğalı havada dənizə balıq ovuna gedir, batmaq təhlükəsi ilə qarşılaşır… Lakin taleyi üzünə gülür, sağ- salamat qurtarır… Və hamı həyəcan içində anlayır ki, ən çətin problemlər ortaya çıxsa belə ailənin müqəddəsliyinə xələl gətirmək olmaz.

«Qara xal» (1968) hekayəsində isə söhbət ailə problemindən daha çox ailə faciəsindən gedir.

Yetimliklə, nənəsinin himayəsində böyümüş gənc tibb təhsili alır, qara xallı özü kimi yetim gözəl bir qızla evlənir. Müharibə başlayır, həkim gənc qadını Nahidəni evdə – nənəsinin yanında qoyub cəbhəyə getməli olur. Nənə vəfat edir. Gənc qadın isə dözməyib başqa birisinə ərə gedir.

Müharibədən qayıdan həkim Ümid Bədirov arvadının xəyanətindən sarsılır.

Və tale elə gətirir ki, Nahidə ağır xəstə halda Ümidin cərrah işlədiyi xəstəxanaya gətirilir. Bütünlüklə solub- saralmış Nahidəni həkim qara xalından tanıyır. Onu əməliyyat etməli olan Ümid dərin iztirablar keçirir. Hisslərinin təsiri altında əvvəl belə qərara gəlir ki, Nahidədən intiqam alsın, ancaq sonra bütün gərginliyə baxmayaraq daha düzgün qərar çıxarmağı, daha doğru hərəkət etməyi bacarır:

«Axı hər şeyi, hər şeyi müharibə dəyişdi. Qəti qərarım, qəti hökmüm Nahidə üçün yox, müharibə törədən cəlladlar üçün çıxarılmalıdır. Bir də Nahidə mənə xəyanət edib. Mənə, yəni əri Ümidə. Bu ağ xalatın altındakı Ümid isə xəstə Nahidənin keçmiş əri yox, dünyadakı hər cür xəstəliyə düşmən kəsilən həkim Ümiddir.

…Əməliyyat uğurla keçdi».

«Son arzı» (1968), bir növ, psixoloji hekayədir.

«Xəstə bilirdi ki, son mənzilin astanasındadır. Ancaq buna inanmaq istəmirdi. Özünü zorlayırdı ki, buna inansın. Xəstəyə elə gəlirdi ki, əgər dostları

ona baş çəkməyə gəlsələr, mütləq sağalacaq, ağrıları azalacaqdır. Birdən gəlməsələr… Bu soyuq, bu acı sual beyninin tutqunlaşmış və qaranlıq bir küncündə zəif bir əks- sədaya, sanki yeni bir suala dönərək onun xəstə, zəif vücudunu titrədir, həyəcanlandırırdı».

Sağlam, qüvvəli, hətta səlahiyyətli vaxtlarında görmüş olduğu qəbahətli işlər, heç bir günahı olmayan insanları incitməsi gəlib durur gözlərinin qabağında. Və xəstənin ürəyində belə bir arzu (son arzu!) baş qaldırır: «Kaş ömür bir az möhlət verəydi! Onda özüm bilərdim ki, necə yaşayaram!..»

Hekayədə kamil yazıçı qələminə məxsus maraqlı, düşündürücü və təsirli bir qəbristanlıq təsviri var…

«Ona elə gəlirdi ki, minlərin səssiz- səmirsiz yatdığı şəhər qəbristanlığında - insanların son mənzil adlandırdıqları, qara, boz, sarı daşların nizamlı- nizamsız duruşu, xırda təpəciklərin soyuq lallığı olan bu yerdə torpaq da ölüb və bu sarı torpağın, bu saralmış otların altından minlərlə saralmış üz, saralmış bəniz, saralmış kədər, saralmış təbəssüm boylanıb üstündə qaynaşan bu canlı insan selinə (söhbət dəfnə gələnlərdən gedir – N.C.) baxır. Sanki başdaşları ağır- ağır nəfəs alırdı. Ağır- ağır düşünürdü»…

Hüseynbala Mirələmovun 60- cı illərdə yazdığı hekayələrin, demək olar ki, hamısı müəllifin ciddi ədəbi istedadı ilə yanaşı ictimai müşahidələrinin kifayət qədər dolğunluğundan, «həyat mənzərələri»nə həssas münasibətindən xəbər verir. Kiçik həcmli bu əsərlərin çoxunda ideya- məzmun etibarilə az qala bir povestin materialı mövcuddur.

Yazıçının ilk hekayələrinin də yer aldığı «Qayada çiçək» kitabına ön sözündə şair- publisist Əlirza Xələfli tamamilə doğru olaraq yazır:

«H.Mirələmovun hekayələrindəki azadfikirlilik, sərbəst bədii manevrlər, habelə cəmiyyətin ən müxtəlif təbəqələrindən, zümrələrindən «xammal» götürmək istər- istəməz ədəbiyyatımızın məşhur 60- cılar fenomenini yada salır.

Onun ilk mətbu hekayəsinin tarixinə baxıram: «Bir tikə çörək» Lənkəranda çıxan «Leninçi» qəzetində 7 noyabr 1961- ci ildə dərc olunub.

Hüseynbala müəllim bu hekayəni yazanda 15- 16 yaşları olub. Həmin yeniyetmə sonrakı 35- 40 il ərzində özünün mənəvi dünyasına daxilən sadiq qalıb. Qələm onun mənəviyyatında yaşayıb; qeyri- məhsuldar olsa da (bu, əlbəttə, çap olunmuş əsərlərin kəmiyyət ölçüsü baxımından şərtidir), birmənalı şəkildə yazıram ki, onun hekayələri artıq yazmaya bilməyəndə qələmə alınan hissin bəhrəsidir».

*

* *

Ürəyi dolu, qələmi sürətlə püxtələşən gənc yazıçı, heç şübhəsiz, 70- ci illərdə də boş dayanmamışdı… Ancaq 70- ci illərdə yazdığı hekayələrini nədənsə nə o illərdə, nə də sonralar çap etdirməmişdir.

Hüseynbala Mirələmov 80- ci illərdə «Dəyirmana gedən yol», «Ulduza doğru», «Tənha durna uçuşu», «Qayıtdı durnalar», «Simuzər», «Qartal» hekayələrini qələmə almışdır.

«Dəyirmana gedən yol» (1982) ideya- məzmunu etibarilə ilk hekayəsi «Bir tikə çörək»lə səsləşir…

«…Bir gün ağsaqqallar kəndimizin çayı üstündə tikilən dəyirmana yol çəkməyi qərara aldılar. Təzə yol. Bərəkət yolu… Çörək yolu… Günlər ötdükcə o da uzanırdı. Ancaq bir dəfə soyuq bir xəbər sanki hər şeyi buza çevirib dondurdu. Yol yarımçıq qaldı.

Müharibə başlamışdı.

…Kişilər gedəndən sonra yol da yaddan çıxdı, təzə dəyirman da».

Ərini müharibəyə yola salan ana, azyaşlı oğlu və qızı ilə çörəksiz qalır, böyük maddi, mənəvi məhrumiyyətlərlə üzləşir. Aclıqdan qızı xəstələnib ölür. Onu yarımçıq dəyirman yolunun başlanğıcında basdırırlar…

«Müharibə qurtardı. Salamat qalanlar qayıtdı. Ölənlərin ancaq bir parça «qara kağız»ı gəldi. Müharibə qurtaran ili dəyirmana gedən yol da kol- kosdan, alaqdan təmizləndi. Yolu çəkib axır mənzilə çatdırdılar».

Təzə aldığı fotoaparatla anasının şəklini çəkmək istəyən oğul ondan xahiş edir ki, gülümsünsün. Ağrılı bir həyat yaşamış ana gülümsünə bilmir. Oğul onun

dərdli gözlərindəki arzularını çəkir: «Qoy dəyirmana gedən yollara heç vaxt alaq, kol- kos ayaq aça bilməsin. Qoy o yollarda işıqlar yansın, salxım- salxım işıqlar… Çinarlar ucalsın. Qatar- qatar çinarlar… Maşınlar ötüşsün. İçi çörək dolu maşınlar, taxıl dolu maşınlar»…

«Ulduza doğru (1984) hekayə- miniatüründə ilk dəfə ata olan gəncin hissləri qələmə alınmışdır. O, «görüş»ə gedir, doğulacaq ilk övladının – qızının (ulduzunun!) görüşünə…

«Tənha durna uçuşu» (1984) Hüseynbala Mirələmovun ilk irihəcmli hekayələrindəndir. Və yazıçı ilk hekayələr kitabını da həmin adla adlandırmışdı.

Orta məktəb illərinin dostlarına həsr olunmuş hekayəni müəllif belə başlayır:

«Tənha durna tələsir, tələsirdi… O dayanmadan ayrıldığı durna qatarına doğru can atırdı. Erkən ayrı düşdüyü durna qatarına…

Hardasa uzaqlarda bənövşə ətirli, unudulmuş bir məhəbbət mahnısının qəmli nəqaratı oxunurdu»…

Hekayənin süjet- kompozisiyası olduqca sadə, ancaq maraqlıdır. Detallar, təfərrüatlar təsirlidir. Və başlıcası, hekayədə diqqəti dərhal cəlb edən, hissləri modelləşdirən, qəhrəmanın əhval- ruhiyyəsini, mənəvi- ruhi tərcümeyi- halını tarazlaşdıran mükəmməl bir estetik- poetexnoloji simmetriya, təsirli dil var…

«O yumşaq, o ılıq may günündə çalınan titrək zəng səsləri elə bil uşaqlığımızla bu günümüz, dəcəlliklərlə dolu bir aləmlə müdriklik adlanan bu zirvə arasında bir sərhəd oldu, bir sədd oldu. Elə bil bu zəng səsləri saysız- hesabsız, irili- xırdalı qayğılara çağırış kimi səsləndi. Və bu irili- xırdalı qayğılar bəzən damla- damla, aramla, bəzən də sel təki şiddətlə həyatımıza daxil oldu»…

Orta məktəbin son siniflərində oxuyarkən bir partada əyləşdiyi Gülgəzə öz məhəbbətini bildirmək üçün ona utana- utana, çəkinə- çəkinə bir dəstə bənövşə təqdim edən Nəsib qızın qardaşı Əşrəfin «hücum»una, «Yetim küçük… Əclaf…» təhqirlərinə məruz qalır. Ortaya dava düşür… Və bu dava saf bir sevginin qətlinə fərman verir.

Aradan iyirmi il ötür. Yüksək elmi mövqe qazanmış Nəsib iyirmi ildən sonra doğma məktəblərinə – məzunların görüşünə gəlir. Və iyirmi il məktəb

yoldaşlarından ayrı düşmüş «tənha durna» burada yenidən Gülgəzlə qarşılaşır. Yenə də bir partada oturmalı olurlar…

«Gözlərim qeyri- ixtiyari Gülgəzə sataşdı. Üst- başı bərq vururdu. Qulaqlarında, barmaqlarında brilyantlar göz qamaşdırırdı. Dişləri başdan- başa qızıllanmışdı. Bütün gözəlliyini qoruyub saxlamışdı. Bircə gözlərindən başqa. Sanki gözlərinin alovu, işığı qulaqlarına, barmaqlarına axmışdı. O gözlərdəki qüvvət, o gözlərdəki qüdrət sanki qeyb olmuşdu, alovu- odu sönmüşdü».

Məktəbdəki görüşdən sonra məzunlar təbiətin qoynuna – Xanbulançay gölünün sahillərinə gəzməyə gedirlər. Nəsibin yadına Gülgəzə bir dəstə bənövşə verdiyi məsum uşaqlıq anları düşür…

«Bu gözəlliklər diyarında bir bənövşə həsrəti ürəyimi göynərtdi. Qeyri- ixtiyari uşaqlardan ayrıldım. Bənövşə sorağı ilə kolların dibini gəzdim. Bir dəstə bağladım. Bu bənövşə dəstəsini Gülgəzə uzatdım. O vaxt olduğu kimi daha əlim əsmirdi. Əşrəfdən də qorxmurdum. O da bənövşə dəstəsini gülə- gülə məndən aldı. Burnuna tutdu. Ciyər dolusu bənövşə ətrini içinə çəkdi… Və bu zaman hiss etdim ki, gözləri yol çəkdi.

Bu yolun uzunluğu gözlərindən oxundu. Uzunluğu düz beşdə bir əsrə bərabər idi, bu yolun»…

Nəsib əvvəlki anlarla indiki anları müqayisə edir… Sən demə həmin anlar Xanbulançay gölünün «güzgü səthi»nə də əks olunurmuş…

«O vaxt bu gölün güzgü səthində məsumluq, bakirəlik və paklıq gördüm. İndi isə nədənsə bu gölün üzərini sanki gizli bir təbəssüm də örtmüşdü. Bu təbəssüm bir az xəfif , bir az da istehzalı kimi görünürdü.

Bu təbəssüm elə bir təbəssüm idi ki, məhəbbət çalarları ilə rənglənmişdi, boyanmışdı. Ancaq bu rənglər bir az solğun, bir az boyat, bir az da nimdaş kimi görünürdü»…

Və «Tənha durna uçuşu» hansı ladla, hansı təəssürat- emosiya ilə başlamışdısa həmin ladla, həmin təəssürat- emosiya ilə də başa çatır…

«Elə bu vaxt gölün bu təbəssümləri, bu rəngləri üzərindən bir durna şimaldan cənuba doğru yorğun- yorğun qanad çalıb uçurdu. Uçduqca da tələsirdi.

Bu gecikmiş tənha durna sanki qanadları ilə haradansa 20 il adlanan beşdə bir əsrin boyatlığını, rəngi solmuş xatirələr yükünü daşıyırdı. Tənha durna tələsir, tələsirdi…

Haradansa uzaqlarda bənövşə ətirli unudulmuş bir məhəbbət mahnısının qəmli nəqaratı oxunurdu»…

Hekayədə hisslərin, həyəcanların analitik təhlili, demək olar ki, yox səviyyəsindədir, ən gərgin psixoloji məqamlar da olduqca lirik, «yumşaq», «təmkinli» bir intonasiya ilə təsvir olunur, xüsusi (və süni) gərginlik yaradılmır… Bununla belə situasiyaların təbiiliyi, təsvirin səmimiliyi, nəticənin (əslində, nəticələrin) gerçəkliyə uyğunluğu, məntiqiliyi heç bir şübhə doğurmur…

«Qayıtldı Durnalar» (1984) hekayəsi müharibə mövzusuna, daha doğrusu, müharibənin kənddə, obada əks- sədasına həsr olunmuşdur.

Sürəyya nənə cəbhəyə göndərdiyi övladlarının qara xəbərini alır, ağlamaqdan gözləri tutulur. Müharibə başlanandan hər il baharda gələn durnalar da səmada görünmür.

«İl qurtardı. Ağrılı- acılı il. Təzə ilin baharı gəlmişdi. Eh, durnasız nə bahar…Analarımız o il də durnaların yolunu gözlədi. Ancaq durnalar gəlmədi. Sanki küsüb getmişdi durnalar».

Müharibə qurtarır. Durnalar qayıdır… Nəvəsini digər kənd uşaqları ilə birlikdə əsgərliyə yola salan Sürəyya nənə xahiş edir ki, bir «Vağzalı» çalsınlar. «Vağzalı» çalınır, göydə durna qatarı görünür…

«Vağzalı» havasının bəstəkarı kim bilir, bəlkə də, durna qatarları olub. Kim bilir, bəlkə də, narın bir qüssə, həzin bir ayrılıq, titrək bir kövrəklik gətirən bu durna qatarlarının qərib- qərib ötməsindən yaranıb «Vağzalı» havası».

Müəllifin digər əsərləri üçün də səciyyəvi olan bir cəhət «Qayıtdı durnalar» hekayəsində də özünü göstərir ki, bu da milli adət- ənənələrdə «daşlaşmış», modelləşmiş populyar hadisələrin, münasibətlərin kökünü, «etimologiya»sını açmağa güclü maraqdan ibarətdir. Və məsələ yalnız onda deyil ki, yazıçı oxucunu öz etnoqrafik- bədii interpretasiya versiyasına inandırmağa çalışır, həm də ondadır

ki, onu (oxucunu) ustalıqla vadar edir ki, ən adi hadisələrin belə daxili məzmunu, mündərəcəsi, «sirri- sehri» barədə düşünsün…

«Simuzər» (1985) hekayəsi ekologiya probleminə həsr olunmuşdur. Müəllif necə gəldi balıq ovunun aparılmasına, təbiətin bu gözəl nemətinə düşmən münasibətinə qarşı çıxır.

Qoca keşikçi – balıq ovuna nəzarət etməli olan insan bir gün yuxuda görür ki, özü də dönüb qoca, dişsiz bir balıq olub. Digər balıqlarla bir yerdə tora düşüb… və balıqlara necə zülm edildiyini öz gözləri ilə görən qoca keşikçi- balıq yuxudan ayıldıqdan sonra necə gəldi balıq ovuna imkan vermir.

«Kim bilir, bəlkə də, balıqların göz yaşıdır dənizlərin suyunu şor edən, duzlu edən»…

Hekayədəki bu «çevrilmə» bədii priyom- üsulundan yazıçı sonrakı əsərlərində – hekayə, povest və romanlarında da geniş istifadə etmişdir.

«Qartal» (1987) hekayəsində müəllif dostu yazıçı Toğrul Aydəmirin şəxsiyyətinin mükəmməlliyindən, xaraktercə möhkəmliyindən, müstəqilliyindən, maddi məhrumiyyətlərə məruz qalsa da, heç kəsə boyun əyməməsindən danışır. Və onu Lerik göylərində süzən qartala bənzədir…

«Bəli, o da qartal idi. Ancaq cismən yerdə sürünməyə məcbur olan, ruhən isə daim zirvələrdə süzən… bir qartal».

*

* *

90- cı illərdə Hüseynbala Mirələmov «Vicdanın cəzası», «Ağıl, ya Bəxt» hekayələrini yazır.

«Vicdanın cəzası» (1994) hekayəsi aktual bir mövzuya – Qarabağ mövzusuna həsr olunmuşdur. Və hekayənin maraqlı süjet xətti vardır.

Həyat yoldaşını itirmiş Rəhim adlı azərbaycanlı kasıb bir gənc Rusiyaya gedib bazarda kiçik alverlə məşğul olur ki, qəpik- quruş qazanıb vətəndəki anasına və iki körpə uşağına göndərsin. Bazarda reketçilik edən həmyerlisi Fedya (Firudin) onu bir kafeyə özünün ad gününə dəvət edir. Ürəyincə olmasa da getməli olur. Əxlaqsız, yüngül həyat keçirən Fedyanın məclisində müxtəlif millətlərdən olan

qonaqlar, eləcə də bir erməni özlərinəməxsus şəkildə şənlənir, fahişə qadınlarla əylənirlər. Vaxtilə Fedyanın arvadı olmuş, hazırda isə fahişəliklə məşğul azərbaycanlı bir qadınla erməni dığasının qucaqlaşıb rəqs etdiklərini görən Rəhim dözə bilmir…

«…Erməni dığasının azərbaycanlı qızı bağrına basaraq yarımqaranlıq otaqda həzin musiqi sədaları altında rəqsə çəkməsi, onu lap hövsələdən çıxartdı. Rəhimin hikkədən qıpqırmızı qan çəkən gözləri sanki bütün otağı işıqlandırırdı. Erməni dığasının bu hərəkətini öz namusuna edilən təcavüz kimi qiymətləndirən Rəhim qeyri- ixtiyari olaraq masanın üstündəki bıçağı götürüb onun üstünə atıldı».

Bu zaman Fedya araya girir və büçaq onun ürəyinin başına sancılır.

Məclisi tərk edən Rəhim canını qurtarmaq, gizlənmək üçün Rusiyanın başqa bir şəhərinə, həmyerlisi Əhədin yanına qaçır. Və onlar razılaşırlar ki, vətənə qayıdıb birbaşa cəbhə bölgəsinə getsinlər.

Fedyanın atası, ixtisasca həkim olan Aslan kişi, bacısı Aygün də dərdlərini dağıtmaq üçün cəbhəyə qospitalda işləməyə gəlirlər. Ağır yaralanmış, hətta öldüyü güman edilən Rəhim Aslan kişinin, eləcə də Aygünün köməyi nəticəsində sağalır. Və onunla Ayğün arasında yaranan yaxınlıq məhəbbətə çevrilir. Lakin məlum olur ki, Rəhim Fedyanın qatilidir.

Aygün onu öldürmək qərarına gəlir. Cəbhədə yenidən ölümcül yaralanan Rəhim isə qospitala gətirilərkən artıq onu bağışlamış Aygünün qolları arasında əbədi olaraq gözlərini yumur.

Yazıçının «Vicdanın cəzası» (Bakı, 2005) kitabına yazdığı son sözdə tənqidçi Vaqif Yusifli göstərir ki, «hekayədə H.Mirələmovun yaradıcılığında mühüm yer tutan iki mövzu vəhdət halında diqqəti cəlb edir. Belə ki, mənəvi-əxlaqi problem vətənpərvərlik mövzusu ilə qaynayıb qarışır. Əvvəlcə birinci mövzu üstünlük təşkil edir. Lakin sona yaxın vətənpərvərlik xətti ön mövqeyə keçir».

Görünür, mövzunun xarakteri ilə əlaqədardır ki, Hüseynbala Mirələmovun, demək olar ki, bütün hekayələri üçün səciyyəvi olan romantika və ya lirizm

«Vicdanın cəzası»nda yoxdur. Və burada sərt realistlik, hətta publisistik intonasiya aparıcıdır.

Yazıçının Qarabağ mövzusuna müraciəti tamamlə təbii idi. Və bu onun vətəndaşlıq (vətənpərvərlik!) mövqeyindən irəli gəlirdi… Lakin Hüseynbala Mirələmovun vətəndaşlığı (və vətənpərvərliyi!), xüsusi qeyd etmək istərdik ki, nə bu hekayəsində, nə də Qarabağ mövzusuna həsr etdiyi digər hekayə, povest, roman və dram əsərlərində deklorativ, populist şəkildə deyil, həqiqi (sağlam) milli təəssübkeşliklə yanaşı, yüksək insanpərvərliklə, humanist səmimiyyətlə təqdim olunur.

«Ağıl, ya Bəxt» (1999) hekayə- rəvayətində söhbət insan taleyində, xoşbəxtliyində ağılın, ya bəxtin aparıcı olmasından gedir.

Gənc şahla gənc vəzir ölkəni əmin- amanlıqla idarə edirlər. Bir gün ovda olarkən yeyib- içəndən sonra yan- yana uzanıb yatırlar.

Vəzir yuxuda görür ki, onun Ağlı ilə Bəxti mübahisə edirlər. Ağıl ötkəmlik edir, Bəxt küsüb gedir… Vəzir yuxuda Bəxti tutub saxlamaq istəyir. Lakin sən demə özü də bilmədən şahın boğazından tutubmuş. Şah oyanır, boğazını vəzirin əlindən güclə qoparır. Və elə bilir ki, vəzir onu öldürüb hakimiyyəti ələ keçirmək istəyir.

Qəzəblənmiş şah vəziri edam etdirmək qərarına gəlir. Müdrik bir əyan məsləhət bilir ki, keçmiş xidmətlərini nəzərə alıb ölkədən sürgün etməklə kifayətlənilsin. Belə də edirlər.

Vəzir uzaq bir məmləkətdə təsadüfən rastlaşdığı qoca bağbanın yanında köməkçi olur. Bağban hansı ağacları vəzirə bağışlayırsa, həmin il o ağaclar bir dənə də olsa meyvə gətirmir. İllər keçir… Vəzirin saç- saqqalına dən düşür.

«Və gecələrin birində köhnə yorğanına bürünüb yatmış vəzir bir də gördü ki, yuxuda Bəxti ilə Ağlı yenə üz- üzə dayanır. Bəxt Ağıla deyirdi:

- Hə, nə oldu, o cür kişini gör nə günə qoymusan. De görüm yenə inad edirsən ki, onu ucaldan sən idin?»

Ağıl təslim olur. Elə o vaxt şah öz sədaqətli vəzirini xatırlayır. Onu tapıb gətirilər.

«Vəzir əvvəlcə yuxusunu, sonra da başına gələnləri danışdı. Hamı çox mütəəssir oldu. Şah yenə onu baş vəzir təyin edib bütün səlahiyyətlərini özünə qaytardı».

Yazıçının belə bir rəvayət «danışmasında» məqsəd insan taleyini idarə edən «gözəgörünməz» qüvvələrin nə qədər böyük gücə malik olduğunu göstərməkdir. Və bir də onu göstərməkdir ki, min illərin rəvayətləri, əsatirləri, əfsanələri bugün də insan (və cəmiyyət) həyatının təhlilində (və dərk olunmasında!) etibarlı mənbədir…

*

* *

2000- ci illərdə Hüseynbala Mirələmov müxtəlif mövzulara həsr olunmuş «Yeni həyat», «Çimərlikdə», «Zurnaçalan Behbud», «Casus», «Qarınqulu», «Qayada çiçək», «Elbrusun səhvi», «Meşədə tənha ev», «Pərviz və Gülgəz», «Xəzər», «Yuxu», «Mərufun qələmi», «Hesab çatıb», «Maşallahın paneli», «Qatarda», «Bir gecənin sehri», «Qaraçı gözəli Dorito» hekayələrini yazır.

«Yeni həyat» (2000) hekayəsi yazıçı üçün həmişə aktual olan bir mövzuya- məişət mövzusuna həsr edilmişdir. Hekayənin qəhrəmanı jurnalist Marat arvadı Gültəkinin (Gulyanın) sərbəst hərəkətlərinə, açıq- saçıq geyiminə dözə bilmir, lakin «evi saxlayan» xanıma etiraz etmək də onun iradəsi daxilində deyil.

«Marat iri, qaymaqlı tikəni zorla udub fikirləşdi ki, işə bax ha, keçmişdə, hətta sovet dövründə qadınlar işə örtülü, abırlı geyimdə gedər, evdə isə, əksinə, açıq- saçıq geyinərdilər. İndi isə tərsinədir, evdə abırlı geyinir, işə demək olar ki, lüt- çılpaq gedirlər. Allah bu modanı qoyanın atasına lənət eləsin!..»

Marat köhnə fikirli adam da deyil. Ancaq bu açıq- saçıqlığın, lüt- çılpaqlığın arxasında dayanan mənəvi- əxlaqi disharmoniya, yüngül həyat tərzi, neomeşşanlıq ona rahatlıq vermir. Və yazıçı qəhrəmanın dili ilə yalnız «yeni həyata» öz münasibətini bildirməklə qalmır, həmin həyat tərzinin, sosial inersiyanın olduqca ağır, mürəkkəb psixoloji vəziyyətə saldığı iradəsiz qəhrəmanın halına da acıyır.

«Çimərlikdə» (2000) hekayəsində Elbəy adlı bir gəncin məhəbbət tarixçəsindən danışılır.

Elbəy orta məktəbin son siniflərindən başlayaraq Röya, Ayçiçək və Nəzrin adlı qızlara vurulur, ancaq bu sevgilər o qədər də dərin olmadığına görə gənc oğlan tərəddüd edir və ürəyini heç kimə açmır… İllər keçir. Elbəy ali məktəbi qurtarıb atasının köməyi ilə yaxşı bir işə girir.

Bir gün səhər- səhər evlərinə zəng edib əvvəl Röyanı, sonra Ayçiçəyi, sonra isə Nəzrini soruşur. Heç biri evdə olmur.

İsti yay günləri olduğundan fikrini dağıtmaq, dincəlmək üçün çimərliyə gedən Elbəyin gözünə avtobusda bir qız dəyir. Görür ki, bu qız bir az Röyaya, bir az Ayçiçəyə, bir az da Nəzrinə oxşayır.

Çimərlikdə sakit bir yer axtaran Elbəy Röyanı görür…

«Röya başını Nahidin tüklü sinəsinə qoymuşdu… Elbəyi görəndə heç qımıldanmadı da…

…Nahidlə Röyadan bir qədər aralıda Ayçiçək – fındıqburun bir oğlanla söhbət edirdi. Kim bilir, bir az gəzsə, bəlkə, elə Nəzrinə də rast gələcəkdi?

Amma, nədənsə, Elbəy onları qınamadı.

Axı, onlardan heç birinə heç nə deməmişdi. Oturub onu gözləməyəcəkdilər ki»…

Elbəy çimərlikdə avtobusda gördüyü qızla yenidən rastlaşır. Tanış olurlar…

«Elbəy mənalı- mənalı sarışın qızın üzünə baxdı və hiss etdi ki, deyəsən, həyatında nəsə ciddi bir dəyişiklik baş verir»…

Gəncliyi sevgisində məsuliyyətli, davamlı, etibarlı olmağa çağıran müəllif bunun gələcək ailə həyatı üçün nə qədər önəmli olduğunu bir daha xatırladır.

Yazıçı sonralar «Yuxu» hekayəsində Elbəy obrazına Azərbaycan ədəbiyyatının müvafiq səciyyəvi obrazları ilə müqayisədə bir daha qayıtmalı, yaratdığı tip- xarakterin məzmun- mündərəcəsini geniş miqyasda yenidən şərh etməli olur…

«Zurnaçalan Behbud» (2000) hekayəsində kiçik məzəli bir əhvalat verilmişdir… Masallıdan gəlib Bakıda bazarda düyü satan kasıb cavan bir oğlan tanımaza- bilməzə düyü almaq üçün gələn gəlinin arxasınca düşüb onun yaşadığı həyətə gəlir… Çünki «Talıb eşitmişdi ki, bəzi təcrübəli həmyerliləri burada arvad

tapıb, necə deyərlər, həm yaşayır, həm də  pulsuz rahat evdə yatırlar. Özünə qulluq eləməkdən, yemək bişirməkdən bezikən Talıb daim bir beləsini arzulayırdı».

Qadın həyətdəki evə girir. Talıb bilmir ki, neyləsin. Bu zaman «evdən ortaboy, qarabığlı, dolubədənli, 40 yaşlarında bir kişi» çıxıb barmağının işarəsi ilə Talıbı içəri çağırır.

Talıb qaçmaq istəsə də, ayaqları sözünə baxmır. Və qeyri- iradi içəri girir. Onun qorxudan əsdiyini görən kişi arvadını  çağırır ki, su gətirsin. Talıbın arxasınca düşdüyü qadın su gətirir.

«- Haralısan?

- Masallıdan.

- Zurnaçalan Behbudun tanıyırsan?

- Bəli.

- Yalan demirsən ki?

- Yox, vallah, tanıyıram.

Kişi bir xeyli  fikrə getdi, başının işarəsiylə qapını  ona göstərib dedi:

- Yaxşı, dur get, səni o kişiyə  bağışlayıram.  Bir də belə oğraşlıq eləmə».

Hekayədə (əslində, o, novella səciyyəlidir) təsvir olunan əhvalat müəyyən qədər gülməli, zarafatyana olsa da, kifayət qədər də  ibrətamizdir. Və ümumiyyətlə, Hüseynbala Mirələmovun hekayə yaradıcılığında Şərq müdrikliyinin təzahürü olan  rəvayət- pritça  tipindəki süjetlərə tez- tez müraciət edilir. Ancaq bu hallarda da  yazıçı sözün mənfi mənasında  didaktikaya  qapılmır, canlı, müasir, aktual (və konkret- həyatdan, günümüzün gerçəkliklərindən gələn!)  hadisələri əbədi (metafizik!)  bir məntiqlə  interpretasiya etməyə çalışır.

«Casus» (2000), həcmcə kiçik  olsa da, həsr edildiyi mövzu üzrə müasir Azərbaycan ədəbiyyatında ən maraqlı hekayələrdən biridir.

II Dünya müharibəsində iki azərbaycanlı əsir düşür…

«Məsələ bunda idi ki, onların ikisi də əsir ikən almanlar tərəfindən vuruşan könüllü Azərbaycan diviziyasına dəvət  olunmuşdular. Ancaq Yavuz orada bir sovet agenti kimi hamını tanıyıb yadda saxlamaq niyyətilə, Zülfüqar isə bir

vətənpərvər kimi, Azərbaycanın bolşeviklərdən azad olunmasını istəyən bir cavan kimi çalışmışdı»…

1952- ci ildə Balakəndən Bakıya bir həftəlik seminara gələn tanınmış fizika müəllimi Zülfüqarla «tanınmış» cəsus Yavuz təsadüfən rastlaşırlar. KQB- nin agenti Yavuz almanlara «satılmış» Zülfüqar müəllimi həbs etdirib güllələtdirir. Və Azərbaycanın azadlığı uğrunda mübarizə aparanların hamısını satan (əsil satqın!) Yavuz isə bunun əvəzində mükafat (və çoxdan gözlədiyi general rütbəsini) almağa çalışır.

«Balakəndə isə dörd oğlan uşağı («Çox gec, 41 yaşında evlənsə də, indi 53 yaşında ikən dörd balaca uşaq atası idi»…) və məktəbin müəllim- şagird kollektivi sevimli fizika müəllimlərini, onların adlandırdıqları kimi, Fiqaronu səbirsizliklə gözləyirdilər»…

Hekayədə yad siyasi qüvvələrin yaxın keçmişdə Azərbaycan ziyalılarını üz-üzə qoymasından, daim qorxu içərisində saxlamasından, onların günahsız yerə güdaza verilməsindən irəli gələn faciələrə etiraz ürəkdən gələn bir ağrı olaraq təzahür edir…

«Qarınqulu» (2000) hekayəsi hansısa qeyri- insani hissin təsiri altında bütün həyatı, işi- gücü (və yaşamaq ehtirası!) yeməyə hesablanmış, ətrafında baş verən hadisələrə - işlədiyi «böyük bir müəssisənin» gündəlik qayğılarından başlamış beynəlxalq problemlərə qədər hər şeyə biganə olan bir tipdən bəhs edir. Onun insanlara qarşı münasibətini yalnız bu meyar müəyyənləşdirir. Və düşüncələri də bundan ibarətdir…

«Bəs bu gün kimin qulağını kəsim? Vəli hədsiz dərəcədə xəsisdir. Henrix məndən də iştahlıdır, özü də əsrin əvvəllərində babasının macəra arxasınca Azərbaycana gəlməsindən danışa- danışa qəpiklərini hesablayacaq, and- aman edəcək ki, ondan artıq pulu yoxdur. Zehtabidən uzağı bir yumurta qoparmaq olar. Andına da ki söz yox: seyid babasının cəddindən tutmuş peyğəmbəri, imamı çəkəcək ortalığa, ayaqüstü namaz qılırmış kimi qoşa əllərini açacaq göyə… Hə, yenə cavanlar yaxşıdır, qonaqlıq vermək ürəklərindən olmasa da, etiraz etməyə üzləri gəlmir»…

«Böyük bir müəssisənin məsul işçisi» olan Zaminin bu vəziyyəti, təbii ki, adi xəstəlik, yaxud fizioloji tələbat deyil. Və Hüseynbala Mirələmov kimi həssas, cəmiyyətin «anatomiya»sına bələd bir yazıçı həmin xüsusiyyətlərinə görə öz «qəhrəman»ına  qarşı çıxmazdı. Mələb burasındadır ki, «yeni həyat»ın bir sıra idbar mənəvi- əxlaqi «dəyərlər»i kimi «qarınqululuq» da fizioloji olmaqdan daha çoxsosial- psixoloji problem kimi günümüzün ictimai «menyü»sünə daxil olmuşdur.

«Qayada çiçək» (2001) yazıçının ən gözəl, ən fəlsəfi hekayələrindən biridir…

İnsan həyatının, insani münasibətlərin təbii harmoniyasının insafsızcasına pozulması, təsadüflərin (hoqqabazlıqların!) əbədi dəyərlər üzərinə ayaq açması nəticəsində ortaya çıxan mənəvi aşınmalar, anomaliyalar, iztirablar hekayədə təfərrüata varılmadan konkret detallarla göstərilir.

Məftun çoxdan arzuladığı «Zində dağa» gedir. Bu müqəddəs məkanın – ziyarətgahın müqəddəs, ancaq çətin, axıracan maşın qalxmayan yolları ilə gedə-gedə keçmiş  günlərini xatırlayır. Uşaqlıq, gənclik… Və…

«Belə çıxırdı ki, ömrünün zirvəsinə doğru həyat daha mürəkkəb, daha çətin idi. Axı  nə üçün belə olmalıdır? İnsanlar həyatı başa düşdükcə, həyat təcrübəsi topladıqca, həyatın  qanunlarını öyrəndikcə yaşamaq asan olmalıdır»…

Məlum tarixi hadisələr yada salınır…

«…Neçə il əvvəl cəmiyyətdə baş verən fırtınanın dalğası onun da iş yerinə gəlib çatdı. Vəzifə görməmişin biri iş başına keçib alovlu nitqlər, hökmlər irad eləyə- eləyə idarələri gəzir, hər hansı məsələni özü bildiyi kimi həll eləyirdi»…

«Növbə» Məftuna da çatır… Və yeganə xahişi bu olur ki,

« - …imkan verin, işçilərlə xudahafizləşim, halallaşım, neçə illər bir yerdə işləyirik.

Elə bil qonağı ilan çaldı: - Qurtardı, sizin kitabınız bağlandı…

…Xeyir, insanların mənəviyyatına yol tapan kitabı birdəfəlik bağlamaq mümkün deyil…

Vəziyyət dəyişən kimi Məftunu axtarıb tapmış, iş bacaran mütəxəssis kimi rəhbər vəzifəyə təyin etmişdilər»…

Haqq nazilmişdi, ancaq üzülməmişdi… Axı, bu haqq əgər üzülməyəcəkdisə, niyə nazilmişdi? Və ümumiyyətlə, bu cür oyunlar nəyə gərək imiş?..

Məftun qayalarda bitən çiçəkləri seyr edə- edə sürücüsü – bacısı oğlu ilə düz dağın başına qalxıb oradan aşağıya baxır…

«…Buradan hər şey – lap mazutlu gölməçələr də, çirkab bataqlıqları da, urbanizasiyanını ucqar dağ kəndlərindən qovub gətirdiyi adamların tikdiyi gecəqondu, eybəcər evlər də gözəl görünürdü»…

Və hekayə olduqca geniş (və dərin) simvolik məna daşıyan cümlələrlə bitir…

«Zində» sözünün mənası «canlı, diri» deməkdir. Canlı, diri olan qayalar isə zamanın keşməkeşlərinə göz yaşı ilə cavab verir. Demək, elə «zində» həm də ağlayan deməkdir. Bu çiçəklər qayaların göz yaşından su içib göyərmişdi»…

«Qayada çiçək» hekayəsi də verdiyi ideya- bədii təəssürat etibarilə o qədər canlıdır ki, onun avtobioqrafik məzmuna malik olduğunu, hansısa mənada yazıçının tərcümyei- halını əks etdirdiyini deməyə, fikrimizcə, hər cür əsas vardır. Və təsadüfi deyildi ki, Hüseynbala Mirələmov həm birinci, həm də ikinci hekayə kitabını məhz avtobioqrafik məzmunlu (könlünə daha yaxın olan!) hekayələrinin adları ilə adlandırmışdı: «Tənha durna uçuşu»… Və «Qayada çiçək»…

«Qayada çiçək» kitabına ön sözündə Əlirza Xələfli göstərir ki, yazıçının «hekayələrində insanı cidd- cəhdlə, lap fədakarlıqla qorumaq istəyi var. İnsanın yaşamaq haqqını özünə təlqin hissi var. Cəmiyyətin günahı üzündən insan bədbəxt olursa, müəllif bunu cəmiyyətə bağışlamır. Və cəmiyyəti ittiham edir».

Bizə elə gəlir ki, bu mülahizələrində müəllif heç də sona qədər haqlı deyil. Çünki Hüseynbala Mirələmov heç bir əsərində cəmiyyəti ittiham etmir… Və Əlirza Xələflinin aşağıdakı fikri, bütün emosionallığına baxmayaraq, bizə daha doğru, daha məntiqli və yazıçının cəmiyyətlə bağlı fəlsəfi mövqeyini izah etmək baxımından daha uyğundur:

«Müəllifin yaradıcılığını izləyəndə, onun ayrı- ayrı vaxtlarda qələmə aldığı hekayələrini təhlil edəndə cəmiyyətin taleyi üçün daim narahat olan, binayi-qədimdən aram olmayan dünyadan nigaran qalan, eyni zamanda bu narahatçılığın da, nigarançılığın da məsuliyyətini dərk edən bir ziyalı mövqeyi görürük»…

«Elbrusun səhvi» (2001) hekayəsi kənd sakini, uzun zaman Rusiyada yaşamış, KQB- də çalışmış Əbdülcabbarın boğulub öldürülməsi xəbərinin yayılması ilə başlayır. Hər yerdən – Bakıdan, rayon mərkəzindən tökülüb gəlirlər. İstintaq başlasa da, güman çox yerə gedir. Heç kəs inanmır ki, Əbdülcabbarın qatili öz kəndlərindən olsun. Çünki o, Rusiyadan qayıdandan sonra kənd üçün çoxlu xeyirxah işlər görmüşdü…

Sonda məlum olur ki, Əbdülcabbarı ona Rusiyaya getməkdən ötrü nə pul, nə də icazə vermədiyinə görə bacısı oğlu Elbrus balıq tilovu düzəltmək üçün cibində saxladığı jilka ilə boğub öldürübmüş.

Hekayə nə qədər hörmət, nüfuz qazansa da ailə- məişətini düzgün qurmamış insanın qaçılmaz faciəsini əks etdirir…

«Meşədə tənha ev» (2001) hekayəsi, müəyyən mənada, ekologiya probleminə həsr olunsa da, daha çox təbiətlə iç- içə yaşayan insan- ailə haqqındadır. Meşədəki tənha evdə yaşayan Qasımın ailəsi onlara gələn qonaqlarda qeyri- adi təəssürat yaradır.

«Mən səhərdən bəri arvadın da, oğlanların da, qızların da bir kəlmə danışmadığını gördüm. Bu adamlar necə də ətrafdakı ağaclara, kollara təbiətə oxşayırdılar. Ataları nə deyirdisə, səssiz- səmirsiz yerinə yetirirdilər»…

Söhbət təkcə ondan getmir ki, insan təbitələ iç- içə olmalıdır… Hekayədə yazıçını narahat edən məsələ (həmin məsələ onun sonrakı əsərlərində daha müfəssəl əks olunur) insanın təbiətdən ayrılmasının, daha doğrusu, tamamilə təcrid olunmasının doğurduğu faciədir…

«Pərviz və Gülgəz» (2001) hekayə- rəvayətində söhbət ondan gedir ki, Pərviz adlı kasıb bir gənc Qəzvindən Şimali Azərbaycana gəlir ki, mövsüm işlərində çalışıb pul qazansın… Heç nə alınmır. Pərviz qəpik- quruşla vətənə qayıdır. Gecə yatanda üç ay görmədiyi gənc, sevimli xanımı Gülgəz onun altına

köhnə yorğan- döşək atır, özünə isə evin o başında ayrıca yer salır. «Gülgəz, bu nədir?» deyəndə «qaşları ilan kimi qıvrılmış» xanımı ona elə tərs- tərs baxır ki, Pərvizin deməyə sözü qalmır.

O, səhər tezdən durub yenidən Şimala üz tutur. Bu dəfə bəxti gətirir. Vətənə bir kisə qızılla dönür.

Gecə Gülgəz ipək yorğan döşək gətirir ki,  birlikdə yatsınlar.  Pərviz heç nə demədən gedib evin küncündəki köhnə yorğan- döşəkdə yatır. Və Gülgəzin bütün üzürxahlıqlarına, yalvarışlarına baxmayaraq onu atası evinə göndərir.

Hekayə- rəvayətdən ən azı iki ideya hasil olur. Birincisi ondan ibarətdir ki, var- dövlət qazanmaq üçün hər cür əziyyətə qatlaşmaq lazım gəlir. İkincisi (və daha mühümü!) ondan ibarətdir ki, yaman günündə səni anlamayan adam yaxşı günündə anlasa, nə fayda?..

«Xəzər» (2001) hekayə- miniatürü (mənsur şeiri) təbiətin mübarək möcüzəsi olan Xəzər dənizini tərənnüm edir…

Xalq yazıçısı Anara həsr olunmuş «Yuxu» (2001) hekayəsi orjinal bədii struktura malikdir.

Xarici səfərdən Bakıya gəmi ilə qayıdan Ziya müəllim təsadüfən gəmi- restoranda müasir Azərbaycan ədəbiyyatının qəhrəmanları ilə rastlaşır…

«Zaur əlini qaldırıb, onu dəvət etdi, özü də ürəklə, ağayana. Yanındakılar kimdir? Onları da tanıdı…

Zaurla «Beşmərtəbəli evin altıncı mərtəbəsi»ndən düşəndə tanış olub. Bu tanışlıq sonralar yaxınlığa çevrilib. Qədiri bir yay «Kür qırağının meşələri»nə gəzməyə gedəndə görüb. Elbəyə də «Çimərlik»də rast gəlib»…

Ziya müəllim onlara qoşulur.

Məşhur ədəbi qəhrəmanlar öz xarakterlərinə, tərcümeyi- hallarına uyğun söhbət (əslində, mübahisə) edir, bir- birinə qarşı itihamlar irəli sürürlər.

Qədir daha aqressivdir…

«Əvvəl Elbəyə, sonra Zaura, özü də düz gözlərinin içinə baxdı. Zaurun ikrahla yuxarıdan aşağı onu süzməyi beyninin qurdunu tərpətdi – bir də təkrar etdi:

«Hamınız dəyişmisiniz, ancaq elə köhnə qurumsaqlarsınız, ilbizlər, soxulcanlar, kərtənkələlər»…

Zaur ona cavab verməli olur…

«Sən düz adam idin, yerində- yurdunda yaşayaydın. Kəndində, el- obanda dil tapaydın. Camaata qurumsaq adı verəndə, hərənin vedrəsinə bir təpik vuranda bilmirdin ki, camaat səni görəndə üzünü yana çevirəcək?..»

Qarşılıqlı ittihamlar ara vermir… Və Ziya müəllim (elə oxucu da) öz- özünə düşünməli olur…

«Axı, bu söhbətlərin yeri idimi? Bütün bunlar keçmişdə qalmamışdımı? İndi təkcə onlar yox, bu gəmidəkilərin elə hamısı qürbətdən gəlmirdimi?..»

Əlbəttə, bu «postmodern» suallar cavab vermək üçün deyil, yalnız üzərində sonsuza qədər düşünmək üçün idi…

Gəmi sahilə yaxınlaşır… Ziya müəllim yuxudan ayılır… Və məlum olur ki, «tarix»dən gəlmiş ədəbi qəhrəmanların məclisi, mübahisələri, qarşılıqlı ittihamları bir yuxu imiş… Hətta Azərbaycan üçlüyünün «rast» üstündə Nizamidən oxuduğu qəzəl də…

Nizami, varsa eşqin coş nəvayi- ərğənun ilə,

Əlində saqinin, gəlsin, şərabi- ərğəvan keçsin…

Hekayənin ideya- məzmunun anlamaq baxımından professor Nizaməddin Şəmsizadənin şərhi olduqca əhəmiyyətlidir…

Hekayədə «hər obraz öz estetik- poetik mövqeyindən çıxış edib biri digərini ittiham edir. Zaur elə həmin meşşan laqeydliyində qalır, Qədir yenə heyvərə- heyvərə hamını söyüb saplayır, meşşanlığın gənc nümayəndəsi Elbəy hələ də düşdüyü vəziyyəti dərk etməyərək ailəli adamları yük daşıyan heyvana bənzətməkdən çəkinmir. Bu, üç övladını görmək həsrəti ilə Parisdən vətən qayıdan Ziya müəllimi hiddətləndirir. Bu söhbətin dramatizmini artıran, ona kolorit gətirən bir cəhət də var: bu da xanəndənin dahi Nizaminin qəzəli üstə oxuduğu muğamdır.

Bu surətləri fərqləndirən cəhətlər çoxdur, fəqət onları birləşdirən bir mühüm cəhət var və əslində, yazıçını məhz o məşğul edir: onların hər üçü hansı zəmanədə

yaşamasından asılı olmayaraq patriarxal insanın təkidini həyat prinsipi seçmişlər. Təkcə Qədir yox, Zaur yox, gənc Elbəy də öz içində iddialıdır. Lakin faciə bundadır ki, bu qəhrəmanların heç biri həmin iddianı reallaşdıra bilmir. Odur ki, şüur çaşqınlığı içərisində səhvlərə, faciələrə yol verirlər. «Yuxu» ümid sahili ilə tamamlanır, Ziya müəllimin gəmisi səmimi bir ailənin işığına doğru üzür: «Hələ dumanlı olsa da, uzaqda olsa da, sahil görünürdü. Adamların üzündə həyat sevinci, yeni günü yaşamaq həvəsi vardı. …Ziya müəllimə elə gəldi ki, hələ heç kimin görünmədiyi o sahildə çoxlu adamlar var və o adamların arasında Güləzəri də, Fəhmini də, Farizi də, Laləzəri də apaydın görür». Və oxucu inanır ki, yuxu kimi duman da çəkilib gedəcək, Ziya müəllim günəş işığı ilə dolu o sahildə ayağını doğma torpağa basacaq, öz ailəsi ilə birlikdə ambisiyasız bir insan ömrü, söz əzabını tale yolu seçən bir ziyalı ömrü yaşayacaq»…

«Mərufun qələmi» (2002) hekayəsində Hüseynbala Mirələmovun yazıçı-mütəfəkkir üslubunu müəyyən edən çox mühüm bir üsul- metod əvvəlki hekayələrindən daha qabarıq şəkildə əks olunmuşdur (Onun bir sıra ünsürləri «Qayada çiçək» hekayəsində də mövcud idi). Həmin üsul- metod ondan ibarətdir ki, insanın (şəxsiyyətin) taleyi, tərcümeyi- halı bütövlükdə cəmiyyətin, eyni zamanda bütövlükdə cəmiyyətin taleyi, tərcümeyi- halı insanın (şəxsiyyətin) taleyində, tərcümeyi- halında elə ehtiva olunur ki, hansının hansından törədiyini, hansının hansı üçün əsas təşkil etdiyini ayırd eləmək ya çətin olur, ya da heç mümkün olmur.

Xüsusilə Azərbaycan cəmiyyətinin (və insanının) XX əsrin sonlarına təsadüf edən (və «hərc- mərclik dövrü» adlanan) tarixini araşdırmağa, həmin dövrdəki insan münasibətlərinin fəlsəfəsini açmağa həmişə ciddi maraq göstərən yazıçı «Mərufun qələmi»ndə bunu, fikrimizcə, daha cəsarətlə, daha böyük ustalıqla edir. Və şübhə etmirsən ki, «Qayada çiçək»dəki Məftun kimi, «Mərufun qələmi»ndəki Məruf Ələmdarlı da müəllifin «avtoportret»idir.

Məruf Ələmdarlı istehsalat adamı, nüfuzlu idarəçi- təşkilatçı olduğu qədər də istedadlı yazıçı- mütəfəkkirdir. Və o, bu cəmiyyətin həm bir fərdidir, həm də onun tərcümeyi- halını, əhvali- ruhiyyəsini, tabe olduğu (və tabe etdiyi!) qanunları

dərk etməyə çalışan həssas düşüncə adamı, analitik, filosofdur. «Cəza quyusu» adlı yeni bir əsər yazmış, cəmiyyət barədəki mülahizələrini ifadə etmişdir…

«…İnsan cəmiyyəti formalaşandan bəri – min illər boyu qanunlar, qadağalar yaratsa da, fərdləri cinayətlərdən, yalanlardan çəkindirə bilməyib. Zaman- zaman inqilablar baş verir, bir quruluşdan imtina olunur, daha yaxşı olacağı ümidi ilə yeni qanunlar, qurumlar yaradılır. İnsanlar yenə də arzuladıqları ideal cəmiyyətə qovuşa bilmirlər. Cəzalar, cəzalar»…

Məruf tarixdən ona məlum olan «rəngarəng» cəza növlərini xatırlayır. Ancaq onun fikrincə, cəzaların – «edam növlərinin ən dəhşətlisi günahkarın cəza quyusuna atılmasıdır»…

«Qələmimlə qazdığım quyu, əslində, əclafın birinə kəsdiyim cəzadır. Əslində, hər insan ömrü boyu özü üçün bir quyu qazır. Öz istəyinin ziddinə getməklə… Mənim tənqidçilərim mənimlə mübahisəyə qalxacaqlar… Bu qeydlərin janrının üstündə… Biri deyəcək fəlsəfi essedir, o biri deyəcək yox, avtobioqrafik hekayədir (Yeri gəlmişkən, «Mərufun qələmi»nin janrı barədə belə bir mübahisə maraqlı olardı – N.C.). Doğrudur, bu «Cəza quyusu»nda özümün şahidi olduğum məqamlar var. Ancaq bu, o demək deyil ki, bu yazı adi tərcümeyi-haldır. Qoy kim nə istəyir desin. Mən öz qəlbimdən keçənləri qələmə alıram»…

Mərufun naşir dostuna ünvanladığı məktub, əslində, hekayə müəllifinin oxucularına ünvanladığı mülahizələrdir…

«…Heç nəyi demək istəmirəm. Elə öz həyatını saf- çürük elə. Əslinə qalsa, sənin bütün həyatın gəncliyində buraxdığın bir səhvdən, yaxud getməli olduğun, ancaq getmədiyin bir yola qayıtmaq uğrunda mübarizədən ibarətdir. Bu sənin özünün özünə qazdığın bir cəza quyusudur…

…Hər halda mənim qələmimin «qazdığı» «Cəza quyusu» rəmzi xarakter daşıyır. Əslində, insanları ayıq olmağa çağırır. Hamar, rahat xalça döşənmiş yoldan addım atanda bilməlisən ki, bu xalçanın altında da quyu ola bilər»…

…Azərbaycan tarixinin «hərc- mərclik» dövrü Nakəs Bədnamlını vəzifə başına gətirir. Və təbii ki, o da «əlinin altına düşmüş» mütəxəssisləri, iş

bacaranları, vicdanlı adamları işdən çıxarmaqla özünü «təsdiq» edir. Birinci növbədə «dikbaş» Məruf Ələmdarlını…

«…Elə bil ki, hər şey Mərufa özünün iş yerini (artıq tərk etdiyi iş yerini – N.C.) xatırladırdı: Hazırda «Jiquli»nin getdiyi yol vaxtilə hamar və rahat şosse olub, indi yaddan çıxmış, dağılmış, yağışdan, çirkab gölməçələrindən axıb arabir yolu basmış göllərdən keçmək olmurdu. İnsanların, - maşın yavaş keçdiyindən üzlərinin ifadəsi aydın görünürdü, - sifətindən bir ümidsizlik yağırdı. Bu ölkəni, bu insanları kim bu günə saldı?..»

Və bütün hallarda, yazıçı- mütəfəkkirin dərin inamına görə, hər bir günahın (və günahkarın) qarşısında gec- tez düşəcəyi bir cəza quyusu var…

«…Zaman bütün qaranlıqların üstündən pərdəni götürmüşdü. Qaldı ki, «Cəza quyusu»na atılmış Nakəs Bədnamlının sonrakı taleyinə, onu sonralar işdən biabırçılıqla qovdular. Səbatsız adam olduğundan dözməyib havalandı. Ruhi xəstəxanada müalicə olunsa da tam sağala bilmədi. İndi havalı- havalı küçələrdə veyllənir. Zibilliklərdə eşələnir. Çimərliklərdən boş butulka yığır»…

Heç kim deyə bilməz ki, Nakəs Biləndərlinin taleyi cəmiyyətin – «hərc-mərclik» dövrünün günahıdır, yəni bu taleyi ona ictimai həyat təlqin etmişdir… Əgər elə olsaydı, həmin tale hamı üçün qaçılmaz olardı.. Bununla belə Nakəs Bədnamlı məhz «hərc- mərclik», qeyri- insani (vicdansız!) bir mühit üçün yetişmiş, «formalaşmışdı» ki, həmin mühitdən kənarda onu yalnız cəza quyusu gözləyirdi.

«Hesab çatıb» (2003) Hüseynbala Mirələmovun novellavari hekayələrindəndir…

Universitetin jurnalistika fakültəsini bitirmiş Şakir adlı gənc təyinatla uzaq dağ rayonuna gedir. Qalmağa yeri olmadığından onu xahiş- minnətlə rayon mərkəzindəki köhnə mehmanxanada yerləşdirirlər. Güya «lüks» nömrə verirlər… Dağ kəndlərindən birinə ezamiyyəyə gedən müxbir orada yubandığından mehmanxana müdiri fikirləşir ki, yəqin gecəni orda qalacaq. Odur ki, qərara gəlirlər ki, «uzaq kənddən gələn, hər gün bazarda mer- meyvə, göy- göyərti satan» Qızyetər bir gecəlik həmin nömrədə qalsın.

Gecə yarısı Şakir sərxoş vəziyyətdə mehmanxanadakı otağına qayıdır. Və içkinin təsiri, qaranlıqda üzünü görmədiyi Qızyetərin təşvişli, ehtiraslı səsi onu yatağa yıxır. Günorta yuxudan oyananda isə hər şey ona yuxu, xəyal kimi gəlir.

Yeni il qabağı Şakir bazara gedir ki, mer- meyvə alsın…

«…Hər iki gözünün yarıdan çoxunu qırmızı qan örtmüş, əlləri çat- çat olmuş, üzündə dərin şırımlar açılmış qadın, nədənsə, tez əl- ayağa düşdü:

- Bazarda mənim mallarımdan təzə- təri, dadlısı, ləzzətlisi yoxdur…

Səs, elə bil Şakirə tanış gəldi. Diksindi»…

Şakir hesabı istəyəndə isə…

«Qadın astadan, səsi titrəyə- titrəyə, həyəcanla dilləndi:

- Hesab çatıb, başına dönüm»…

Şakirin hesabı kimin verdiyini soruşanda isə…

«Qadın altmış- altmış beş yaşını sanki unudaraq, üzünə zərif və utancaq bir ifadə verərək:

- Hesabı yayda… O gecə… Mehmanxanada… - dedi… Sonra səsi qırıldı, gözləri yol çəkdi»…

Hekayədə, bəlkə də, ənənəvi qayda ilə müsbət və ya mənfi qəhrəmanlar axtarmaq olar, ancaq bu, yazıçının ideya- estetik məramına müğair olmazdı… Burada, əslində, müsbət və mənfi tərəflərilə birlikdə, bir- birinə qovuşmuş canlı həyat, real insan münasibətləri mövcuddur ki, müəllifin ustalığı onu (onları) zədələmədən, süni müdaxilə obyekti etmədən təqdim eləməsidir.

«Maşallahın paneli» (2004) hekayəsi Azərbaycan tarixi üçün faciəli olan hadisələrin təsviri ilə başlayır…

Laçının Quşqulaq kəndi erməni- rus ordusunun qrad yağmuruna tutulur. Kənd camaatı, o cümlədən Maşallahın ailəsi yurd- yuvasını tərk edib Bakıya köçməyə məcbur olurlar. Ailəsinə müvəqqəti sığınacaq, özünə fəhləlik işi belə tapmaqda çətinlik çəkən Maşallah sarsılır…

«…Uşaqlar perik düşmüş quşlar kimi nənələrinin qucağına sığınmışdılar. Maşallah nə qədər yorğun olsa da, gözünə yuxu getmirdi. Qəhər onu boğur, için- için ağlayırdı… Tanrıdan özünə ölüm dilədi. Bu vaxt, elə bil, uşaqlardan kimsə

yuxuda zarıdı. Maşallah özünə gəldi. Bəli, bu zarıltı körpə səsi idi, onun bu körpə qarşısında borcu çox idi. O yaşamalı, mübarizə aparmalı, doğma torpaqlarını düşməndən geri almalıydı. Sonra isə rahat ölə bilərdi»…

Maşallah müəyyən mənəvi sarsıntılara məruz qalsa da ruhən, möhkəm olduğu kimi fiziki cəhətdən də güclüdür.

«…Sement kisəsini rahatca qaldırıb çiynində apara bilərdi. Ancaq onun bu gücünə hələ ehtiyac yox idi. Çətinlik də bunda idi. Lakin onun dayanmağa, geri çəkilməyə və məğlub olmağa haqqı yox idi»…

Maşallahı həmyerliləri ilə birlikdə heç vaxt ayrılmayacağı doğma ocağından qaçqın, didərgin salan hansı qüvvə idi?.. Yalnız erməni- rus iddiaları, işğalı, qəsbkarlığımı?.. İddia, işğal, qəsbkarlıq cəhdləri, ehtirasları dünya tarixində həmişə olub… Axı, bununla yanaşı insanın, cəmiyyətin, millətin müqavimət enerjisi də olub… Maşallah (və onun həmyerliləri) daha çox ona görə doğma ocaqlarından qaçqın, didərgin düşdülər ki, onların (millətin!) müqavimət enerjisi parçalandı. Və onu bir yerə cəmləyən, bir istiqamətə yönəldən güclü (və milli!) qüvvə uzun müddət olmadı.

Hekayə nə qədər ağrılı mətləblərlə başlayıb davam etsə də, professor Nizaməddin Şəmsizadənin ifadəsilə desək, «novellavari, gözlənilməz və çox mənalı, həm də tragik (biz «tragikomik» deyərdik- N.C.) bir sonluqla bitir».

Yerliləri Maşallaha xəbər verirlər ki, Yeni Yasamalda tikilən doqquzmərtəbəli bina payızda ucuz, özü də nisyə qaçqınlara paylanacaq. Sadəcə, gedib hələ quraşdırılmamış panel divarlardan birinin üzərinə adını yazmaq kifayətdir. Panel divar hansı mənzilə düşsə, o, sənindir.

Maşallah belə də edir…

«Nəhayət, sentyabrın ortalarında binanın tikintisi başa çatdı. Maşallah sübh tezdən bir- bir bloklara girib öz panelini axtarmağa başladı – ikinci blokda yeddinci mərtəbədən azacıq aşağıda - divarda «Maşallah» sözünü oxuyanda nə edəcəyini bilmədi. Əsl möcüzə baş vermişdi: onun adını yazdığı panel liftə düşmüşdü»…

Bu isə o demək idi ki, doğma ocaqdan ayrı düşmüş Maşallah bu dünyanın eninə- uzununa yolları ilə bir məqam- məskən tapmaq üçün hələ çox gedib gələcək, çox qalxıb enəcəkdi…

«Qatarda» (2004) hekayəsi hər bir az və ya çox dərəcədə intellektual gəncin həyatının, yaxud tərcümeyi- halının ən həssas məqamının – ali məktəbə qəbul imtahanı günlərinin həyəcanlarına həsr olunmuşdur.

Qatara minib sənədlərini vermək üçün Bakıya gedən orta məktəb məzunu Həmidi dostlar yola salırlar. O, əslində, qəbul imtahanlarından qorxmur, ancaq bu, o qədər məsuliyyətli məqamdır ki, hər baxış, hər söz ona təsir edir.

Və onu qəbula qatar aparır…

«Həmid fikirləşdi ki, bu qatar çox qəribə nəqliyyat vasitəsidir: öz yolu var və heç vaxt heç kəsin, yəni heç bir canlının, deyək ki, itin, pişiyin, qarışqanın və s. yoluna çıxmır…

Dünyanın müxtəlif səmtlərindən – şimaldan cənuba, cənubdan şimala, şərqdən qərbə, qərbdən şərqə bir- birinə doğru qatarlar şütüyür. Onlar təkcə insanları yox, həm də onların arzularını aparır. Və birdən Həmidə elə gəldi ki, o özü də qatardır, muradına yetmək üçün səfərə çıxan qatar»…

Əslində, Həmid də heç kimin yoluna çıxmaq və ya yolunu kəsmək fikrində, yaxud iddiasında deyil. Ancaq o da qatarlar kimi öz dümdüz (heç kimə mane olmayan!) yolunu axtarır.

Təsadüfən yoldaş olduğu, ilk tanışlıqdan o qədər də xoşlamadığı, hətta ona mərdimazarlıq etdiyini düşündüyü (çünki o, «esve»də deyil, əvvəldən bilet aldığı «plaskart» vaqonda «gözünün ilk ovu» Şərqiyyə ilə də gedə bilərdi) Xanlar ona məsləhət görür ki, sənədlərini ADU- ya yox, politexnikə versin…

«…Həm gələcəyi var, həm də gedən azdır. Müsabiqə böyük olmur, kənd uşaqlarına güzəşt də edirlər… Rayonlara qaz çəkilir. Mütəxəssis çatışmır. Get gir qaz mühəndisliyinə. Qız da ki, başının altında»…

Həmidin ağlına batır, əhval- ruhiyyəsi yaxşılaşır. Çünki o, qəbul olmamaqdan daha çox qəbul olmasa Şərqiyyəni itirəcəyindən qorxurdu…

«İndi qatarın yeknəsəq taqqıltısı həzin, kövrək musiqini xatırladırdı. Həmid bu bihuşedici nəğmənin sədaları altında xumarlana- xumarlana yatdı. Yuxuda gördü ki, qatar Bakı vağzalında yox, düz Politexnik institutunun qarşısında dayanıb. Xanlar qarşı tərəfdən gələn qatardan ona əl eləyir. Perronda dayanan Şərqiyyə isə süzgün baxışlarla onu axtarır»…

Tənqidçi- ədəbiyyatşünas Nizaməddin Şəmsizadə bu hekayənin hansı mənadasa avtobioqrafik səciyyə daşıdığını göstərməklə yanaşı, tamamilə doğru olaraq, ümumiləşdirmədən məhrum olmadığını da qeyd edir.

Həyat həqiqətlərinə, xüsusilə təbii «həyat mənzərələri»nə həmişə sadiq qalan yazıçı onu sadəcə «köçürmür», daha çox mənəvi- estetik modelləşmə aparır, əsas cizgilərini verir.

«Bir gecənin sehri» (2005) hekayəsinin qısa məzmunu bundan ibarətdir ki, II Dünya müharibəsinin və ya sovet dövründə deyildiyi kimi, Böyük Vətən müharibəsinin son illərində Azərbaycan Dövlət Konservatoriyasının iki istedadlı tələbəsi – Qara Qarayevlə Cövdət Hacıyev «Vətən» adlı opera yazırlar. Onların müəllimi, Konservatoriyanın rektoru Üzeyir Hacıbəyov Mircəfər Bağırovun qəbuluna gedir ki, operanın tamaşaya qoyulmasına icazə alsın.

Dahi bəstəkarı zahirən də olsa hörmətlə qəbul edən Bağırov onu qabaqlayır, «Vətən» operasının biabırçılıq olduğunu, içərisində «sosializm realizmindən bir not da olmadığını» deyir.

… «Üzeyir bəy Mircəfər Batcğırovun yanından çıxandan sonra hara getdiyini, deyəsən, heç özü də bilmirdi. Sanki qeyri- ixtiyari addımlayırdı: bəzən yavaş- yavaş, bəzən də bərk- bərk… O, ömründə bu cür hala düşməmişdi… Ona görə yox ki, risqi baş tutmamışdı, ona görə ki, hansı bir çuğulsa şeytanlıq eləmişdi»…

Əhvalatı biləndə Bülbül opera ilə tanış olur, həm Üzeyir bəyə, həm də gənclərə məsləhət görür ki, operanı teatrda deyil, Konservatoriyada gizlincə məşq eləsinlər.

Mircəfər Batğırovun da iştirak etdiyi mötəbər bir tədbirdə gözlənilmədən «Vətən» operasından Mərdanın ariyasını ifa edir…

«O axşam Bülbül başqa Bülbül idi – sənətin ən uca zirvəsində də yer- göyə sığmırdı! Onun bu zəfəri Üzeyir bəyin zəfəri idi. Qaranın zəfəri idi. Cövdətin zəfəri idi»…

Və Bülbül yalnız məlahətli səsi ilə deyil, mərdliyi, mübarizliyi, cəsarəti ilə hamını heyran qoymuş, başlıcası isə, tələbələrini, gələcəyin böyük sənətkarlarını ilk addımlarından həvəsdən düşməyə, sınmağa, namərd çuğul- xəbərçi maraqlarının günahsız qurbanları olmağa imkan verməmişdi.

Hekayə, demək olar ki, tamamilə olmuş (sənədli) hadisəyə həsr edilsə də, müəllif həmin hadisəni sənətkarlıqla qələmə almışdır.

«Qaraçı gözəli Dorito» (2009) hekayəsi yazıçının işıqforda təsadüfən gördüyü qaraçı qızı gözəl Doritaya sövqi- təbii bir marağı ilə başlayır. Və onu bir daha görmək üçün həmin yerə – maşınını təsadüfən saxladığı işıqfora qayıdır, bir daha onun diləndiyini görür…

«…Məni görən kimi diksindi. Deyəsən tanımışdı.

Sakit tərzdə:

- Salam, - dedim.

O, dinmədi. Çaşqın- çaşqın üzümə baxdı. Bu zaman baxışlarından demək istədiyini oxumaq mümkün idi: «Sənə nə lazımdır?»

Handan- hana kilidlənmiş dil- ağzı açıldı:

- Polissən?

Mən güldüm:

- Yox, qorxma, polis deyiləm.

- Bəs onda məndən nə istəyirsən?

- Heç nə. Xoşuma gəldin, dedim tanış olum.

- Tanış olmağa adam tapmırsan?

- Səndən yaxşı adam? Adın nədir?

O, mənim təhlükəli adam olmadığımı göydəcə tutdu, zərif dodaqlarını azacıq dartaraq gülümsədi:

- Dorito»…

Yazıçı mətləbə keçir…

«Söhbətin mövzusunu dəyişdim:

- Dorito, belə çıxır  sən bizim yerli qaraçılardan deyilsən, haradansa gəlmisən.

O, vəcdə gələrək həvəslə dedi:

- Hə… Biz lap keçmişdə İspaniyada olmuşuq. Oradan Rumıniyaya, Rumıniyadan Moldovaya, daha sonra Azərbaycana köçmüşük.

- Yəqin bir neçə əsr ərzində baş verib?

- Hə, mən Azərbaycanda doğulmuşam.

- Axı mən bilən, qaraçılar çörək pullarını sədəqə toplamaqla yox, rəqs eləməklə, fala baxmaqla çıxarırlar.

- Hə, elədir. Taborda vaxtilə ən gözəl rəqqasə mənim anam olub. Amma indi rəqsə pul verən yoxdur. Son vaxtlar peyda olmuş ekstrasenslər, baxıcılar, görücülər öz yalanları, aldadıcı oyunları ilə falabaxmanı gözdən tamam salıblar. İndi yazıq qaraçılar qalıblar dilənməyin ümidinə»…

Yazıçı xahiş edir ki, Dorito onun falına baxsın… Dorito baxır və sövqi- təbii ilə hiss eləyir ki, «müştəri» ona vurulub…

«…Birdən sifəti tutuldu, təlaş və qorxu dolu bir həyəcanla:

- Amma əbəs yerə. Bu yalnız boş xülyadır.

Gözlənilmədən üzü də, səsi də sərtləşdi:

- Gedin, çıxın gedin burdan! Bir də gəlməyin! Xahiş edirəm. Yalvarıram. Elə etməiyn ki, yerimi dəyişim.

Biz ilk gündən bir- birimizə nədənsə «sən»lə müraciət edirdik.

Mən əlimi cibimə saldım ki, pul çıxarım. O, etirazını bildirdi. İndi səsi birdən- birə daha da ciddiləşdi və mənə rəsmi şəkildə «siz» deyə müraciət etdi:

- Lazım dyeil. İstəmirəm. Mən sizin falınıza pulsuz baxdım. Bir də axı hər şeyi demədim. Gedin, çıxın gedin! Çəkilin yanımdan!

Mən hiss etdim ki, o, nəyə görəsə bərk əzab çəkir. Odur ki, tərslik etmədim.

- İndi gedirəm, - dedim. Amma sabah mütləq gələcəyəm.

O dinmədi, başını aşağı saldı»…

Səhərisi gün Doritanın yanına- işıqfora əlində güllə gələn yazıçı onu görüşə – dostunun bağına dəvət edir…

«Bütün hallarda mənim üçün ailə qanunları hər şeydən üstündür» deyən Dorito «müştəri»sinə etiraz edir…

« - Xahiş edirəm, bir də bu barədə danışma. Baxmayaraq ki, səni görəndə elə bil doğma adamımı görürəm, ancaq üz vurma, yoxsa buradan birdəfəlik gedəcəyəm.

Doritonun «birdəfəlik gedəcəyəm» sözündən sonra məni fikir götürdü; bəlkə doğrudan da heç yaxşı iş görmürəm? Bütün günü küçədə sədəqə toplamaqla çörək pulu qazanan bir insanı incidirəm. Axı o kim, mən kim? Qəhərləndim, ürəyim sıxıldı. Özümü danladım, söz verdim ki, bir də o istiqamətə hərlənməyim, bu sevdadan biryolluq əl çəkim.

Düz bir həftə yolumu başqa yerdən saldım, yox, dözə bilmədim. Yenidən onu görmək arzusu ixtiyarımı əlimdən aldı, iradəmi sarsıtdı. Bir də baxıb gördüm ki, yenə həmin işıqforun yanındayam. Qaraçı gözəli də öz yerində dayanmışdı»…

…Dorito bu dəfə yazıçını – «müştəri»sini təzə geyimlə, qəribə bir həsrətlə, nigarançılıqla və həyəcanla qarşılayır, indiyə qədər harada olduğunu soruşur, «sənə nə olmuşdu, xəstələnməmişdin?» deyə soruşur, «sehirli təbəssümü üzünü qeyri-adi nura boya»yır…

Yazıçı- «müştəri» bir daha görüş təklifini edir. Və «baxaraq» cavabını alır…

Nəhayət, «görüş» baş tutur…

«…Gözlərim yolda qalmışdı. İntizarla gözləyirdim. O, yox idi. Nəhayət, saat dördə on beş dəqiqə işləmiş Doritonun ağır- ağır, ovçu hənirini almış maral kimi səksəkəli halda maşınıma tərəf addımladığını yan güzgüdə gördüm. Çox yorğun, əsəbi və dalğın görünürdü. Elə bil səhərəcən yatmamışdı. Görəsən bir gecənin içində niyə belə solmuşdu? Nə gözlənilməz hadisə baş vermişdi? Hiss etdim təravətli, zərif dodaqları asta- asta tərpənir, pıçıltıyla öz- özünə nəsə deyirdi. Dua oxuyana bənzəyirdi. Başını aşağı dikib zorla irəliləyirdi – sanki edam kürsüsünə doğru yeriyirdi. Ciddi və qaşqabaqlıydı. Qəlbimdən qara qanlar axdı. Nəfəsim tıncıxdı, darıxdım. Qapını açıb maşından düşdüm. Doritoya sarı bir neçə addım

atdım. Birdən… sanki möcüzə baş verdi. Yer ayağımın altından qaçdı. Qaranlığa, nəhayətsiz bir boşluğa düşdüm. Bu qaranlıq, bu nəhayətsiz boşluqda mənə elə gəldi ki, sanki naməlum bir qüvvə zərblə onun gül çöhrəsini sındıraraq çilik- çilik elədi. Bu çiliklənmiş gül çöhrə yanaraq eybəcər hala düşdü, qapqara qaraldı.

O, mənə baxaraq için- için ağladı. Gördüklərim ilğımıydı, ya həqiqət, deyə bilmərəm»…

Və yazıçı- «müştəri» Doritonun yüzillərlə davam etmiş həyat ritmini, əxlaqi-mənəvi «uklad»ını itirmək təhlükəsi altında söndüyünü, qapqara qaraldığını görüb özünün amansızlığını dərk edir… Və oradan qaçır…

«- Sənə nə olub? Bu nə haldı düşmüsən, Dorito?

- Dedim axı… Olmaz… Bütün gecəni yatmamışam. Səhərəcən Allaha yalvarmışam ki, keçsin günahımdan. Qorxuram, yaman qorxuram. Elə bilirəm maşına otursam, nəsə bir faciə baş verəcək- - deyərək ürkək- ürkək ətrafı süzdü, sanki indilərdə dəhşətli bir hadisənin baş verəcəyini gözləyirdi.

Yerimdə donub qalmışdım. «İlahi, mən necə də amansızam», - deyə düşündüm.

Artıq nə etdiyim məndən asılı olmadı, qəfildən maşına oturdum. Gözümə heç nə görünmədi. Dorito sanki qatı bir zülmətdə yox oldu. Maşını yerdən elə sürətlə götürdüm ki, təkərlərin səsindən diksindim.

Doritonun mavi gözləri böyümüşdü, təəccüblə mənə baxırdı. Zorla gülümsədim, yanından ötəndə qeyri- ixtiyari əl elədim. O, heç nə başa düşməyib, küt nəzərlər, üzündəki təəccüb və maraqla yenə mənə baxdı.

Onu güzgüdən seyr etdim, sonra bir anlıq geri çevrilib o tərəfə baxdım. Dorito heykəl kimi dayanmışdı. Müqəddəs bir sevgiyə, ilahi bir gözəlliyə qərq olmuş heykəl kimi. Bəlkə bu qəribə, ağlasığmaz hərəkətlərimə görə çaşıb qalmışdı? Bəlkə də elə xoşbəxtlikdən donaraq heykələ dönmüşdü? Bilmirəm.

Oradan uzaqlaşdıqca hiss edirdim ki, gülümsəyir, üzündəki təlaş, səksəkə çəkilirdi. Gülümsədikcə də üzünün cizgiləri cilalanır, içindəki xof, hürkü itir, əvvəlki gözəlliyi yenidən rövnəqlənirdi»…

«Qaraçı gözəli Dorito» bu sözlərlə bitir:

«…Uzun illər Dorito yadımda elə o cür də qaldı; qumral saçları, mavi gözləri, sehrli təbəssümü ilə könül oxşayan, həyatında ilk və bəlkə də, son dəfə qızılgül qönçəsi bağışlanan zərif bir qaraçı gözəli kimi»…

Ürəyi sevgi (bir dənə qızılgül!) istəyən qaraçı qızının məhəbbətinin nə qədər əxlaqi (və tarixi- etnoqrafik) qanunlara tabe olduğunu göstərən hekayə əbədi dəyərlərin günümüzün «azad sevgi» fəlsəfəsinə mütəvaze bir etirazıdır…

*

*   *

2010- cu illərdə Hüseynbala Mirələmov «Gecə bənövşələri», «Məhəbbət hekayəti» hekayələrini qələmə alır.

«Gecə bənövşələri» (2010), müəyyən qədər sentimental üslubda yazılsa da, məzmunca tamamilə müasirdir.

«…Rəhmətlik nənəm nə vaxtsa Məkkədən gətirilmiş sapsarı sünbül rəngli kəhrəba təsbehini çevirə- çevirə deyərdi: «Eh, ay bala, qəzavü- qədərdən qaçmaq olmaz. Qismət nədirsə odur. Özünü ha oda- közə vur, ha çalış- vuruş, xeyri yoxdur.

Mən bu sözlərə etiraz edər, dünyanın hər üzünü görmüş, bir- birinə bənzəməyən talelərin şahidi olmuş qarını avam sayardım. Deyərdim, yox, ay nənə, elə deyil, hər şey insanın özündən asılıdır. Bax, mən oxuyuram, «beş» alıram, başqası oxumur, «iki» alır.

Nənəm başını bulayardı: «Yox, ay bala, mən gördüyümü görmüşəm; nə qədər əlləşirsən- əlləş, nə qədər vuruşursan- vuruş, yenə qismət var, alın yazısı var. Yazıya da pozu yoxdur».

Daha heç nə deməz, maddım- maddım üzünə baxardım. Fikirləşərdim, yaşlı arvaddır, qoy danışıb ürəyini boşaltsın»…

Hekayənini qəhrəmanı kitabxanada təsadüfən tələbə bir qızla tanış olub ona kitab almaqda kömək edir. Və birdən hiss eləyir ki, qəlbində nə isə indiyə qədər bilmədiyi xoş duyğular baş qaldırır…

«…Sən əyləşən kimi kitablardan birini açıb oxumağa, hərdən də qeydlər etməyə başladın. Oxumağa elə aludə olmuşdun ki, ətrafdakıları, məni tamam unutmuşdun. Mən sənin nazik, uzun barmaqlarına, üz- gözünə, açıq xurmayı

saçlarına həsədlə baxırdım. Saçların bir dəstə bənövşəyə bənzəyirdi… Bütün diqqətim sənin yanındaydı. Özüm də bilmirdim ki, ilk dəfə gördüyüm bu qız necə oldu qəlbimə hakim kəsildi? Özümü inandırmağa çalışırdım, bu sevgidir, ürəyimin qapısın döyür. Qəlbimdə alışıb- yanan sevgi şamıymış… Onu qaynar baxışlarınla sən yandırmışdın! İçimdə bir dünya işıq şölələnirdi. Nənəmin vaxtilə dediyi, mənim inadla inkar etdiyim «qismət» sözünə də haqq qazandırmağa başladım. Axı, bu təsadüflərin heç biri olmaya da bilərdi… Və biz görüşməzdik də. Həə, qismət deyilən şey varmış!..»

Sənubər təklif edir ki, «Yaşıl teatr»a, çox sevdiyi müğənni qızın konsertinə getsinlər. Və əlavə edir ki…

«Bir dəfə konsertinə televiziya ekranından baxmışam. Yadımdadır, tamaşaçılar ona qucaq- qucaq gül bağışladılar, amma o qız yalnız bircəciyini – gecə bənövşələrinin dəstəsini götürdü»…

Adil sevgilisinin könlünü oxşamaq üçün adını birinci dəfə eşitdiyi gecə bənövşəsi axtarır. Və tapır… Məlum olur ki, dağ yerlərində bitən bu bənövşənin elmi adı «orxideya» imiş.

Konsert bitir. Ancaq Sənubər gecə bənövşələrini mügənniyə vermir…

«- Yaxşı konsert oldu. Lap ürəyimcə idi.

_ Hə. Məni də məftun elədi. Sənubər, bəs bənövşəni müğənniyə niyə vermədin?

Sən başını azca yana əydin:

- Adil, bu sənin mənə uzatdığın ilk gül dəstəsidi, istəmədim başqasına qismət olsun. Bilirsən ki, mənim də gecə bənövşəsindən çox xoşum gəlir. Axı, deyirlər, bənövşə bir- birinə bağlılığın nişanəsidir. İnanca görə mavi bənövşələr «Sənə ömrüm boyu sadiq qalacağam», bənövşəyi rəngə çalanlar isə «Düşüncələrimə hakim oldun» deməkdir.

Sonra dayanıb susdun»…

Adil Sənubərin bu hərəkətindən təsirlənir…

«…Mən özümü saxlaya bilmədim. Qucaqlayıb səni sinəmə sıxdım, saçlarından, üz- gözündən, yanaqlarından öpdüm.

- Qorxma, mən səni hər çətinlikdən qoruyacağam. Sən xoşbəxt olmağa layiqsən, Sənubər! Axı sən mənim bənövşə ətirli mələyimsən…

Sən elə bil bu sözlərə bənd idin. Çöhrəndəki bulud çəkildi.

- Əfsanədə deyildiyinə görə, gecə bənövşəsi hava buludsuz olanda, ulduzlar görünəndə açılır»…

…Onlar ailə qururlar. Və bir gün Adili xarici ölkələrin birinə diplomatik işə göndərirlər. Sənubərə də həkim kimi orada iş verirlər…

Sənubər xəstələnir. Həkimə müraciət edəndə məlum olur ki, artıq iş işdən keçmişdir.

Sənubərin etirazlarına baxmayaraq Adil onu müalicə üçün Təl- Əvivə aparır…

«…Yad ölkə, qərib şəhər. Sənin sağalacağına dünyalar qədər ümid bəslədiyim Təl- Əviv. Qəribədir, İsrailə ayaq basan gün İsa peyğəmbər haqqında çəkilən məşhur film yadıma düşdü. Ağır xəstələrə şəfa verən, ölünü uyuduğu məzardan dirildib ayağa qaldıran İsa- Məsihin ruhu elə bil göydən – Tanrı dərgahından mərhəmət dolu təbəssümünü üstümüzə yağdırdı. Bəlkə o məqamda gözlənilmədən isalaşdım, təbiətin də, cəmiyyətin də gözünə cəfakeş aşiq, əzabkeş insan qiyafəsində göründüm? Bəlkə səni əbədi itirmək qorxusu üz- gözümdə, görkəmimdə yazılmışdı? Elə o zaman nikbin ovqatla düşündüm ki, Allah mərhəmətini səndən əsirgəməyəcək!»

Lakin Sənubərin vəziyyəti get- gedə pisləşir…

«…Bir axşam xəstə səsinlə mənə:

- Adil, əzizim, - dedin. – Əgər istəyirsən məzarımda rahat uyuyum, apar məni buradan. Qoy Allah- təala səni taleyindən yarıtsın! Arzum budur ki, oğullu-qızlı olasan! Bir də qəbrimin üstündə gecə bənövşəsi əkməyi unutma…

Elə həmin gün həkim məni kabinetinə çağırdı. O, elə bil sir- sifətini bəd xəbər vermək üçün qabaqcadan hazırlamışdı. Mən ilk dəfə idi ki, qadının, cərrah-onkoloqun qəlyan çəkdiyini görürdüm. Otaq tüstüyə qərq olmuşdu. Yavaş- yavaş tüstü- duman çəkilib getdi…»

Sənubər onun üçün hər cür fədakarlığa hazır olan gənc həyat yoldaşına vəsiyyət edir ki, ondan sonra tək qalmasın, evlənsin ki, o da məzarında rahat yatsın.

«…Dəfnindən bir neçə gün sonra maşına oturub ikimizin yaxşı tanıdığı dağ kəndinə getdim. Bel götürüb köklü- köməcli xeyli bənövşəni qazıb ustufca maşının arxasındakı yeşiyə yığdım. Hər kolun üstündə əsirdim. Axı bu sənin bənövşələrin idi. Şəhərə qayıdanda aparıb gecə bənövşələrini qəbrinin dörd bir yanında əkdim.

Həmin gecə səma buludsuz idi, ulduz- ulduzu çağırırdı. Göy üzü nəhəng xırmana bənzəyirdi. Mənə elə gəlirdi ki, gecə bənövşəsini təzəcə əksəm də, göz açıb- yumunca çiçəkləyib, sənin məzarını sevindirəcək…»

Vaxtilə Özbəkistanın Azərbaycanda səfiri işləmiş İçmətulla ağanın söhbətindən – tərcümyei- halından alınmış hekayə- əhvalat nisgilli bir nəğmə təsiri bağışlasa da, insan hisslərinin bütün rəngarəngliyi ilə təsviri. Həqiqi məhəbbətin tərənnümü baxımından maraq doğurur… Və yazıçı bu hekayəsində də bir çox əsərləri üçün səciyyəvi olan «taledən qaçmaq olmur» fəlsəfəsinə sadiq qalmaqla yanaşı insan iradəsinin gücünə inanır…

«Məhəbbət hekayəti» (2011) Hüseynbala Mirələmovun Qarabağ mövzusunda yazdığı ən təsirli əsərlərdən biridir.

Hekayə Günayın dəhşətli bir yuxu görməsi ilə başlayır…

« - Qızım, nə olub, yuxu görürdün? – deyə soruşdu.

Günay körpə uşaq kimi başını anasının sinəsinə qoydu:

- Yuxu yox, ana, mən dəhşət görürdüm… Dəhşət! – deyə pıçıldadı. – Hər tərəf qaranlıq, qatı zülmət idi. Uzaqdan Xəyalın səsi gəlirdi, elə bil dara düşmüşdü… Bəlkə də ağır yaralanmışdı. Zarıya- zarıya məni köməyə çağırırdı. Səsi dağa- daşa çırpılıb əks- səda verirdi. Mən qaranlıqda hansı səmtə gedəcəyimi bilmirdim. «Xəyal, Xəyal, haradasan?» - deyə, dəli kimi onu axtarırdım»…

Günay Qarabağ cəhbəsində olan nişanlısı Xəyalın həsrətini çəkir… Bu o Xəyaldır ki…

«…Müharibəyə qədər az qala hər gün görüşür, gecələr zəngləşib doyunca danışırdılar. Bir- birlərini sevsələr də, Günayın valideynləri Xəyalın elçilərinə

yalnız uzun get- gəldən sonra razılıq vermişdilər. Nişanlılar toya hazırlaşanda Qarabağı müharibə alovu bürüdü… Gəncənin Nizami parkında son görüşləri zamanı Xəyal onun əllərindən tutub könüllü müdafiə alayına qoşularaq düşmənlə savaşa gedəcəyini söyləyəndə «Mən də səninlə gedirəm», - deyib Günay ona sarıldı.

Xəyal onun bu sözləri ürəkdən söylədiyinə zərrə qədər də şübhə etmirdi»…

Xəyalın ağır yaralandığını – hər iki gözünü itirdiyini eşidəndə Günayın valideynləri əvvəldən razı olmadıqları bu izdivacı pozmağa, qızlarını «adlı- sanlı bir ailənin oğluna vermək» istəyirlər…

Xəyal isə xəstəxanada həm Günayın, həm də müdafiə edə bilmədiyi torpağın – vətənin dərdini çəkir…

… «Günay əgər bilsə ki, mən buradayam, quş tək uçub gələr», - Xəyal öz-özünə düşündü. Birdən- birə elə bil ki, o çətin günə qayıtdı: mərmi partlayışından sonra gözlərimin işığını itirdim. İkinci partlayış dalğası məni yaxınlıqdakı qayaya çırpanda ayıldım. Güllələr yağış kimi dörd yanıma yağırdı. Kürəyimi qayaya söykəyib ağlaya- ağlaya dedim ki, bağışla məni, qalxan qayam, büllur bulaq… Siz məni qorusanız da, mən sizi qoruya bilmədim! Bağışla məni, vətən torpağı, bağışla məni, ana!

Bəlkə də Allah mənə rəva bilmədi ki, gözlərim görə- görə topağımda düşmən yerisin. Qalxan qaya, büllur bulaq mənim son sığınacağım, döyüş meydanım oldu. Bağışla məni ana, mən sənə də, atama da layiqli övlad olmaq istəyirdim»…

Valideynlər, qohum- əqraba yığışıb Günayı «başa salmaq» istəyirlər ki, gül kimi oğlanları qoyub bir kora getməyi ağlından çıxarsın, «kor sevda»dan əl çəksin… Ancaq bu «qərib» təkliflər Günayı öz nişanlısından – sevgilisindən ayırmaq iqtidarında deyil… Öz meşşan düşüncəli qohumlarını ittiham edən Günay onlara aşağıdakı sözləri deməkdən çəkinmir:

« - Heç nə başımı xarab eləməyib! – Günay da səsinin tonunu qaldırıb bibisinin par- par yanan daş- qaşlarını kinayə ilə süzdü, - mən oxuduğum kitablardan, baxdığım kinolardan heç kimi təqlid etmirəm. Bir şeyi dəqiq bilirəm.

Əgər Xəyal kimi oğlanlar silaha sarılıb düşmən qabağına çıxmasaydı, bəlkə indi Gəncə də əldən getmişdi. Nə siz qalmışdınız, nə mən… Boyun- boğazınızdakı ləl- cəvahirat da harayınıza, dadınıza yetməyəcəkdi! Müharibə isə hələ bitməyib, ay xanım- xatın bibilər, xalalar! Düşmənin gülləsi Xəyalı öldürə bilmədi, amma mənim dönüklüyüm, nişan üzüyünü qaytarmağım onu öldürə bilər. Deyirsiniz, onu da, onun kimi vətəni qoruyan oğulların döyüş ruhunu da, onların vətənə, anaya, qıza etibarını, sevgisini, inamını da öldürək?!»

Xəyal ata- anasının etirazına baxmayaraq onları məcbur edir ki, Günaygilə gedib gəlini gətirsinlər…

«…Bir azdan Günaygilin darvazasının qarşısında üç- dörd maşın dayandı, birindən Xəyal ilə ata- anası, o birilərindən çalğıçılar, atasının sürücü yoldaşları düşdü. Əvvəlcə küçədə «Ayrılıq» mahnısı eşidildi. Deyəsən, maqnitofon idi. Bu, onların mahnısıydı. Özü də Ququş oxuyurdu. Ququş sehrli səsiylə fəryad qoparırdı: «Aman ayrılıq… Aman ayrılıq…»

Günay mahnını eşitcək yatağından qalxıb pəncərəyə yaxınlaşmaq istədi. Amma bacarmadı. Yerə yıxıldı…

«İnşallah, toyumuzda əvvəlcə bu mahnını, dalınca da «Vağzalı» havasını çaldıracağam», - Xəyalın sözləri qulaqlarında çingildədi. Günay mahnını eşidərkən çox şeyləri xatırladı. Bu xatirələr qolundan tutub onu ayağa qaldırdı…

Sonra «Vağzalı» gəldi. Çalğıçılar şövqlə çalırdılar. Qara zurna elə bil cuşa gəlmişdi. Qonşular bir- bir səsə yığışdılar.

Göy üzü getdikcə açılır, buludların arasından günəş də boy göstərib öz qızılı şəfəqlərini aləmə yayırdı. Elə bil Tanrı günün, ayın vədəsini bu qeyri- adi toy- büsat havası üstündə kökləmişdi…

Gəncənin təzə məhəlləsi… Günəşli payız günü… «Vağzalı» Günayın əzgin ruhunu yavaş- yavaş dirçəldir, qəlbi sevinc hissiylə döyünürdü. Birdən Xəyalın gur səsi musiqi sədasını yardı:

- Gün…ay!!!

Elə bil Günayın canına can gəldi. Uşaqlıq illərində olduğu kimi pəncərəyə yaxınlaşdı:

- Gəlirəm!- dedi…

Paltar dolabına sarı getdi.

Anası heykəl kimi yerində qurumuşdu. Həkimlər son dəfə Günayı müayinə edəndə: «Bu qız özünü ölümə məhkum edib, yatağından bir daha qalxa bilməyəcək!» - demişdilər. İndi isə Günya onun gözü qarşısında dolabdan ən çox sevdiyi donunu çıxarıb geyindi. Üzünü anasına tutub:

- Mənə xeyir- dua ver!- dedi.

Lətafətin dili söz tutmurdu.

Küçədə hamı mat- məəttəl qalmışdı. Günlərlə dilinə bir qurtum su vurmayan qız quş kimi uçurdu…

Xəyal onu əsgər qiyafəsində gözləyirdi. Bu mənzərəni seyr edən qonşuların göz yaşları yanaqlarından axırdı… Günay özünü Xəyalın üstünə atıb, qollarını onun boynuna doladı.

Onlar həyət qapısından çıxar- çıxmaz atası özünü yetirdi:

- Günay, qızım, sən… sən…

Qızını sağ- salamat görəcəyinə ümidini itirmiş kişi nə deyəcəyini bilmədi.

Günya Xəyalın qoluna girib qamətini şax tutdu:

-Bizə xeyir- dua ver, ata! – dedi.

Ata dörd dövrəsindəki adamlara baxdı. Hamı elə bil atanın ağzından çıxacaq sözləri gözləyirdi. O, ətrafına baxdı. Hamı gülümsər baxışlarla başını tərpətdi: «Allah xeyir versin! Xeyir versin!» Ata da onlara qoşuldu: «Allah xeyir versin!»

Alqış səsləri göyə ucaldı.

- Get, qızım!.. Xoşbəxt olun!..

Qonşuların xeyir- dualarına qarışıb ona qanad verən «Vağzalı» sədası vüsal marşı kimi Gəncənin geniş prospektindən keçib Xəyalgilin məhəlləsinə yaxınlaşırdı»…

Hekayə olduqca enerjili bir dillə, vətənpərvər Azərbaycan gəncliyinin hisslərini ifadə edən zəngin bir intonasiya ilə qələmə alınmışdır.

# II. POVESTLƏR

Hüseynbala Mirələmovun 60- cı, 70- ci illərdə qələmə aldığı elə hekayələri vardır ki, məzmun- mündərəcə, süjet- kompozisiya baxımından povestə yaxınlaşır, lakin janrın tələblərinə daha dolğun cavab verən ilk povesti 80- ci illərin əvvəllərində yazılmışdır.

«Coğrafiya çubuğu» (1982) povesti belə bir epiqrafla başlayır:

«Allah sənə rəhmət eləsin, Cəfər Cabbarlı!»

Müəllif böyük yazıçı- dramaturqu ona görə xatırlayır, yad edir ki, əsərin qəhrəmanı «Bəhmən müəllimin bəzi hərəkətləri, iş üslubu «Almaz» pyesindəki Mirzə Səməndəri xatırladırdı. Amma bəzi məsələlərdə Bəhmən müəllim Mirzə Səməndəri çaya susuz aparıb, çaydan susuz gətirərdi»…

Və povestin elə ilk cümlələrindən Kürəkçi kəndinin məktəbi, xüsusilə məktəb direktoru Bəhmən müəllim haqqında kifayət qədər aydın təsəvvür yaranır…

«Əgər, işdi- şayət, kimsə dərsə gecikirdisə, yaxud icazəsiz- filansız bircə saat dərs buraxırdısa, həmin gün məktəbin direktoru Bəhmən müəllim yaşını unudaraq cin atına minir, əlindəki «coğrafiya çubuğu»nu… oynada- oynada şirə- pələngə dönür, əsim- əsim əsir, hirsindən bığlarını çeynəyir, gah dəhlizə çıxır, gah məktəbin səliqə- səhmanlı həyatində pəhləvan kimi var- gəl edir, heç kimə məhəl qoymadan, səbrini basmadan «günahkar»ın dalınca deyinirdi. Əlbəttə, məşhur «nizam- intizama partbiletimlə cavabdehəm» kəlamını işlədə- işlədə»…

Bəhmən müəllimin həm özünəməxsus, həm də bu tipli adamlar üçün ümumi (hətta tarixi!) xarakter daşıyan bioqrafiyası var. O məktəbdə ki direktorluq edir, onu zəhmətkeş atası Həsən müəllimdən «irsən» almışdı… Doğrudur, bu, onun arzuladığı qədər də asan olmamışdı, ancaq kişinin «bacarığ»ı ilə yanaşı bəxti də varmış.

Əvvəla, onunla birlikdə oxuyan yuxarı sinif yoldaşları «təntənəli» şəkildə elə məktəbdən müharibəyə- cəbhəyə yola salındığı halda Bəhmən, «tədbirli» atasının məsləhəti ilə, özünü xəstəliyə vurub getməmişdi… İkincisi, heç bir biliyi- filanı olmasa da, bir təhər yol tapıb pedaqoji institutun qiyabi şöbəsinə girmiş, bütün «maneələr»ə baxmayaraq oranı «bitirməy»ə nail olmuşdu… Və nəhayət, gəlib kəndlərində böyük bir məktəbin direktoru vəzifəsini atasından sonra ələ keçirməyi hələ bir yana, rayonda da «yuxarılar» arasında hörmət- izzət sahibi olmağı bacarmışdı.

Hamısını da miskinliklə, şərəfsizliklə və əyri yollarla…

Bəhmən müəllimin «coğrafiya çubuğu» ilə yalnız özü kimi miskinləri, şərəfsizləri və əyri yolla gedənləri idarə etmək olar. Çünki bu, o dirijor çubuğuna oxşayır ki, insanlığı mənəvi zənginliyə, müasir dünyadan baş çıxarmağa, həyata səsləyən musiqini yox, rəzilliyi, kütlüyü idarə edir. Və bu çubuqla məktəbə böyük arzularla gəlmiş, müasir dövrün övladı olan Xatirə müəlliməni idarə etmək heç cür mümkün deyil.

Məsələ burasındadır ki, illər boyu Bəhmən müəllimin «idarəçilik təcrübəsi»nə, «stroqi rejim»inə alışmış, ondan o qədər də fərqlənməyən kənd adamları da artıq cana doymuşlar…

Qızı qəbul imtahanından kəsilən ambardar Salman bir dəfə Bəhmən müəllimin üzünə «qırmızı- qırmızı» demişdi:

«Ay müəllim, ot istədin verdim, mal- qara üçün saman, jmıx istədin, əsirgəmədim, dedim, müəllim adamsan, niyə gedib başqasına ağız açasan. Sonra uşağın üç- dörd fəndən qiymətini düzəltmək üçün yuxarılar üçün eyhamla xərclik istədin, ay pir olmuş, işarəni anladım. Fəxri fərmanın pulunu əlüstü ovcuna basdım. Başımı piyləyib, məni aldatdın, dedin, bağ belə- bostan belə, pedinstitutun qapıları qızının üzünə açıqdı. Ləngimə, get sənədlərini ver. Bu da axırı, indi neyləyirəm o verdiyin yalançı, saxta «beş»ləri? Niyə məni vaxtında ayıltmadın?».

Bəhmən müəllim məktəbi qorxu ilə, şantaj ilə idarə edir… Və bunun köhnədən qalmış məktəb zəngi ilə bağlı maraqlı (və mistik!) bir tarixçəsi də var.

«…Bir azdan zəngin səsi bütün Kürəkçi kəndini bürüdü. Qəribədir, bu səsdə dərsə çağırışla yanaşı, bir zəhm, xof, qorxu, nigarançılıq hiss olunurdu. Bunun çox qəribə, həm də hafizələrdə dərin kök salmış bir tarixçəsi vardı. Deyilənə görə, Böyük Vətən müharibəsi başlayandan bir neçə gün sonra hərbi komissar Rayon Partiya Komitəsinin katibi ilə məktəbə gəlir, yay tətili olmasına baxmayaraq, Kürəkçi kəndinin məktəbinin o vaxtkı direktorunu zəngi çalmağa, bütün camaatını yuxarı sinif şagirdləri ilə bir yerdə həyətə yığmağa məcbur edir. O zaman Kürəkçi kəndində elektrik olmadığından, məktəb zəngini – ucadan səs çıxarsın deyə – dəmir çubuqla bərkdən döyürdülər»…

Dəmir çubuqla bərkdən döyülən zəng (və onun səsi) obrazlaşır…

«Beləcə, o gün dəmir çubuqla döyülən o məktəb zəngi ürəklərə bir qorxu, bir xof salmışdı və bu qorxu, bu xof uzun müddətdən bəri adamların qəlbində qalmışdı. Çünki o zəng səsindən sonra Kürəkçi kəndindən davaya gedənlərin heç biri qayıtmamışdı»…

Bəhmən müəllim isə ümumiyyətlə müharibəyə getməmişdi…

«…Kürəkçi kəndinin camaatı rayonun ağalarının – katiblə hərbi komissarın yeniyetmələri yığıb cəbhəyə apardığı həmin günü heç vaxt unutmamışdı. O zaman Kürəkçi kəndinin məktəbinin direktoru Bəhmən müəllimin atası Həsən müəllim idi. O qorxu, o zəhm elə hamıdan çox Həsən müəllimin iliyinə, qanına işləmişdi. Bəlkə elə buna görə də o ehtiyatlı tərpənmiş, on doqquz yaşlı oğluna – Bəhmənə xəstəlik kağızı düzəltmiş, onu ümumi səfərbərliyin caynağından qurtarmışdı. Yeddinci sinfi «üç»lə bitirən Bəhmən iki il çöl işlərində çalışmış, sonra atasının əmri ilə məktəbdə təsərrüfat işləri üzrə müdir vəzifəsinə götürülmüşdü.

Sonra Bəhmən gecə məktəbində oxumuş və orta təhsil barədə kamal attestatı almışdı. Amma sonra, nə illah eləmişdisə, ali məktəbə qəbul ola bilməmişdi»…

Ancaq elə gəncliyindən təbiətən çevik, işini (və xeyrini) bilən adam olan Bəhmən müəllim yol tapıb pedaqoji institutun coğrafiya fakültəsinə – qiyabi şöbəyə düzəlmiş, bütün «maneə»ləri aşıb oranı bitirmişdi.

Və atasının yerini tutmuşdu…

Təyinatla məktəbə gəlmiş Xatirə müəllimənin hərəkətləri, əlbəttə, Bəhmən müəllimi narahat etməyə bilməzdi. «Köhnə bazara təzə nırx qoymağa» çalışan bu qızı ram etmək lazım gəlirdi.

Müxtəlif eyhamları «qulaq ardına vuran», mövcud «qayda- qanunlar»la hesablaşmayan Xatirə müəlliməni yerində oturtmaq isə elə də asan deyildi.

«…Bəhmən müəllim kabinetində, Nuh əyyamından qalma kətilində əyləşmişdi, pərt idi – çırtma vursan, qanı çıxmazdı; çünki adını dilə- dişə salmışdılar, başını aşağı eləmişdilər. Həmişə başqalarına nümunə göstərilmiş Kürəkçi kəndinin məktəbinin adı, əgər, pislikdə hallanırdısa, onda, gərək o, heç kənddən qırağa çıxmayaydı, qabaqcılların, fəalların yığıncağında iştirak etməyəydi, hamının yanında gözükölgəli olaydı. «Yox, Xatirə müəllimənin əməllərini ört-basdır etsəm, yumurtadan yenicə çıxmış bu cücəni yerində oturtmasam, başım çox ağrıyacaq» - deyə o düşündü»…

Xatirə müəlliməyə öz yerini başa salmaq üçün direktor köhnə (və onun fikrincə, ən təsirli) üsulların birindən istifadə etməyi qərara alır. Məktəbin

pedaqoji şurası çağrılır… Bəhmən müəllimin təlimatı ilə onun (ələkçinin) «qıl verəni» - təlim- tərbiyə işləri üzrə direktor müavini Fəzail müəllim öz iradlarını bildirdikdə Xatirə müəllimə, faktiki olaraq, onların iç üzünü ifşa edir. Məsələnin mürəkkəbləşdiyini görən «təcrübəli» direktor şantaja əl atır.

« - Bu xarabanın bir yiyəsi var, ya yox? Xatirə müəllimə, sabah rayon rəhbərliyinə partbiletimlə mən cavab verəcəyəm, ya sən? Əlbəttə, mən! Səni məhşər ayağına çəkəcəklər, yə məni? Əlbəttə, məni! Bizim bu kolxoz sədri Niyaz müəllim adlı- sanlı adamdı, rayonda böyük hörməti var, nə qədər orden- medal alıb, oğluna «iki» yazmısan, bu heç, cəhənnəm, bağışlamaq olar. Bəs, dağ boyda kişi səni telefona çağırır, niyə getmirsən? Deyirsən ki, «dərsi poza bilmərəm», tənəffüsdə zəng eləsin. Kişi dünən mənə soyuq- soyuq əl uzatdı, xəcalət çəkdim, utandığımdan, yer ayrılsaydı, yerə girərdim. Axı, bizim qadınlar hər zaman ismətiylə, həyasıyla, zərifliyi ilə başqa millətlərin qadınlarından fərqləniblər»…

Lakin nə bu cür «müdrik» sözlər, nə də hədə- qorxular yerimir. Hətta Xatirə müəlliməni ya məqsədli, ya da məqsədsiz – ürəkdən müdafiə edənlər də tapılır.

«…İlk dəfə idi ki, Kürəkçi kəndinin məktəbində çağrılmış «növbədənkənar şura»da istehza və eyham dolu atmacalardan ağız deyəni qulaq eşitmirdi.

«Ya zəmanə dəyişib, ya da mən, həqiqətən, bəzi mətləbləri başa düşmürəm» - Bəhmən müəllim tərəddüd içində qalsa da, qanqaraldan, acı bağırsaq kimi uzanan bu xoşagəlməz söz- söhbətə yekun vurdu:

- Yaxşı, mübahisələrə son qoyaq. Deyilənlər burda qalsın, kənara çıxmasın, ev bizim, sirr bizim. Daha danışmaq istəyən yoxdursa, qurtaraq.

Bəziləri çiyinlərini çəkdi, bəziləri dodaqlarını büzdü, bir- bir, iki- bir gəldikləri kimi, elə bir- bir, iki- bir də qalxıb otaqdan çıxdılar»…

Yazıçı öz mənəvi ömrünü artıq başa vurmaqda olan Bəhmən müəllimin «həyəcanlar»ını olduqca dəqiq ifadə edir:

«…Bəhmən müəllim cavanlıqda olduğu kimi, indi də qazdan ayıq idi. Yaşa dolsa da, çuxura düşmüş, balacalaşmış, sulanmış gözlərindən heç nə yayınmırdı. Üstəlik, kənddə biri «pıç» eləyəndə Fəzail müəllim əlüstü gətirib ovcuna qoyurdu. İndi, budur, düz işləri əyməkdə, ağa qara deməkdə saç- saqqal ağartmış Bəhmən

müəllim, necə deyərlər, ağzından süd iyi gələn bir qızcığazın əlində aciz qalmışdı. Gicgahlarını, çənəsini ovuşdura- ovuşdura bayaqdan bəri bir cümləni saqqız kimi çeynəyirdi: «Bu qız məni «baqaja» qoydu, hörmətdən saldı, axırıma çıxdı…» Ha fikirləşirdisə, çıxış yolu tapa bilmirdi»…

Lakin, fikrimizcə, «keçmiş»in timsalı olan Bəhmən müəllimlə «yeniliy»i nümayiş etdirən Xatirə müəllimənin mükalimələrində bədii- estetik baxımdan o qədər də uğurlu olmayan məqamlar da vardır. Məsələn:

«…Müəllimlər bir- bir, iki- bir Bəhmən müəllimin kabinetinə yığışırdılar. İçəri girənlərdən kimi salam verir, kimi də, elə- belə həmişəki kimi, adi qaydada, keçib sakitcə əyləşirdi. Qəribə də olsa, Bəhmən müəllim hərəkətlərinə daima göz qoyduğu müəllimlərə bu gün heç məhəl qoymurdu. Ovqatı təlx idi – hələ bir neçə gün bundan əvvəl məktəbin həyətində Xatirə müəllimə ona qəribə tərzdə salam vermişdi:

- Salam, Mirzə Səməndər, necəsiz?

Bəhmən müəllim bu qəfil və gözlənilməz müraciətdən əvvəlcə özünü itirmiş, amma həmin naqolay suala naqolay da cavab vermişdi:

- Çox sağ olun, Almaz xanım… - Və bu qısa dialoqda, müəllimlərin yanında yenə də Xatirə müəlliməyə uduzduğunu anlamışdı»…

Əvvəla, Bəhmən müəllim, ona nə qədər bənzəsə də, müəllifin özünün də etiraf etdiyi kimi Mirzə Səməndər deyil, daha naqis adamdır, daha təhlükəlidir… İkincisi (və başlıcası!) Xatirə müəllim kimi mədəni, tərbiyəli, yüksək mənəviyyatlı bir gənc xanım babası yaşda adamın gözünün içinə, nə qədər naqis, nə qədər təhlükəli olsa da, bu cür müraciət etməzdi… Və, nəhayət, üçüncüsü, Bəhmən müəllim də «yumartadan yenicə çıxmış bu cücə»nin «salam»ına, «əhval-pürsanlığı»na, nə qədər tədbirli, «təmkinli» olsa da, belə «rahat» cavab verməzdi.

Xatirə müəllimənin kənd məktəbində, bəlkə də, yeganə layiqli müəllim olan Kamillə rastlaşması, onun biliyini, mədəniyyətini qiymətləndirməsi, uğursuz olan ilk sevgisi ilə hazırki hissləri arasında müqayisələr, paralellər aparması (və nəhayət, onun evlənmək təklifinə «hə» deməsi), idman müəllimi «zırrama» Zakirin ağzından vurması, anasını itirmiş məktəbli qıza himayə durması və s. əhvalatlar və

ya epizodlar Xatirə müəllimə obrazının bütövlüyünü təmin etməklə yanaşı, əsərin ideya- məzmununun mükəmməl bir şəkildə əks olunmasına, yazıçı- müəllif mövqeyinin daha miqyaslı ifadəsinə əhəmiyyətli təsir göstərir.

Və hadisələr (konfliktlər) kifayət qədər nikbin (və məntiqli) sonluqlarla bitir.

Birincisi…

«…Son rüb başa çatdı. Bu ərəfədə rayonda heç kəsin gözləmədiyi ciddi dəyişikliklər baş verdi. Maarif şöbəsinin müdiri Xəzail Həsənəliyev işdə yol verdiyi nöqsanlara görə vəzifəsindən azad edildi. Bir neçə məktəb direktoru da işdən uzaqlaşdırıldı. Bəhmən müəllimin yenə də bəxti gətirdi. Kişi 70 yaşın astanasındaydı, təhsil cəbhəsində «Fərhadsayağı külüng çaldığına» görə səhvləri bağışlandı. Təntənəli şəkildə təqaüdə göndərildi. Kürəkçi kəndinin məktəbinin təlim- tərbiyə işləri üzrə direktor müavini – Fəzail müəllim də vəzifəsilə vidalaşdı. Rayon maarif şöbəsinə rəhbərlik edən yeni şəxs Kürəkçi kəndinin məktəbində direktorluğu müvəqqəti olaraq Qüdrət müəllimə, təlim- tərbiyə işləri üzrə direktor müavinliyini də Kamil müəllimə tapşırdı»…

İkincisi…

«…Kürəkçi kəndinin məktəbində artıq «iki»yə bilənin «iki», «üç»ə bilənin «üç», «dörd»ə bilənin «dörd», «beş»ə bilənin «beş» almasıydı, şübhəsiz ki, müəllimlik sənətinin dadı- duzu, ləzzəti də elə bunda idi»…

Üçüncüsü…

«…Qəribə də olsa, məktəb zənginin səsindəki o zəhm, o qoxu, o xof yoxa çıxmışdı. Elə bil bu dünyada nə müharibə olmuşdu, nə bu kəndə hərbi komissar gəlmişdi, nə də bu kənddən cavan uşaqları yığıb cəbhəyə aparmışdılar»…

Və, nəhayət, dördüncüsü…

«…Hə, bir də, Bəhmən müəllimin, hətta, xəritədə Kürəkçi kəndini, bu kəndin məhəllələrini, məktəbini, idarəsini, klubunu, kövşən yerlərini göstərən «coğrafiya çubuğu»nu rayon mərkəzindəki Tarix və Diyarşünaslıq muzeyinə vermişdilər…

Vəssalam- şüttamam»…

«Coğrafiya çubuğu» povesti maarifçi- demokratik ədəbiyyatın ən yaxşı ənənələrinin davamı olan, öz aktuallığını bizim günlərdə də saxlayan bir əsərdir. Orta ümumtəhsil məktəblərində bizim günlərə qədər bu və ya digər dərəcədə davam edən idarəçilik amiranəliyi, qiymət şişirtmələri, pedaqoji intizamsızlıq təzahürləri hələ də davam etməkdədir. Bununla belə son illər tədris sahəsində aparılan islahatlar, görülən proqressiv tədbirlər, dünya təhsil sisteminə inteqrasiya prosesləri həmin naqis hallara qarşı mübarizəni xeyli gücləndirmişdir.

*

*   *

90- cı illərdə Hüseynbala Mirələmov dünya ədəbiyyatında geniş rezonans doğurmuş bir mövzuda «Həyat eşqi» povestini qələmə aldı…

«Həyat eşqi» (1995) povesti xalq şairi Bəxtiyar Vahabzadəyə həsr olunmuşdur.

Şairin aşağıdakı misraları əsərə epiqraf verilmişdir:

Səndən doymaq olarmı,
həyat, sən nə şirinsən!
Ancaq hamının deyil
sən həyatın qədrini yalnız bilənlərinsən!..

Müəllif povestə yığcam, ancaq məzmunlu bir esse- ön söz yazmışdır…

*«…Geniş, çoxşaxəli yaradıcılıqdakı dərin, obrazlı, mənalı və qanadlı misraları uçaraq dünyanın bir çox yaxın və uzaq məmləkətlərinə çatmış Bəxtiyar Vahabzadə şeirindən, poeziyasından, dramaturgiyasından hər kəs gördüyü, duyub dərk etdiyi, bacardığı ölçüdə açıqlamağa, yazmağa, söz deyib dəyərləndirməyə çalışıb. Sözündə, yaradıcılığında, əməlində bir, insanlığın qəbul etmədiyi naqis cəhətlərə qarşı ömrü boyu üsyankar və barışmaz olan,*

*mənalarla, hikmətlərlə yüklü yaradıcılığı günün, ayın, mövsümün içində çeşidli, al- əlvan boyalı, bəzən sakit, həzin, bəzənsə çılğın, coşqun dalğaları şahə qalxmış, dibi görünməyən sirli bir dənizə bənzəyən,*

*gənclik illərindən bu günəcən xalqımızın çətin, sınaq günlərində həmişə öz vətəndaş qətiyyətini, sənətkar mövqeyini bildirən, kəsərli sözünü cəsarətlə deyən, əqidəsindən dönməyən bütöv şəxsiyyət,*

*bir sənətçi kimi mənanın, fikrin cövhərinə, mayasına, toxumuna can atan,*

*oxucusunu yatmağa qoymayıb vətənin, vətən içində haqqın, ədalətin, insafın və insanlığın keşiyində ayıq- sayıq dayanmağa səsləyən,*

*yaradıcılığı təbiət kimi zəngin, bəhrəli olmasına baxmayaraq həmişə axtarışda, həmişə narahat, özündən narazı,*

*fəlsəfi fikirlərlə yanaşı adi hadisələri, sadə mövzuları ruhundakı tükənməz lirika qatından, poetik duyğusundan keçirərək şeriyyətə, mahnıya çevirməyi bacaran,*

*ənənəvi və milli olduğu qədər bəşəri olan canlı klassikimiz sevimli, doğma və əziz Bəxtiyar Vahabzadə...*

*...Mən orta məktəbdə oxuyanda Bəxtiyar Vahabzadə şeirinin cazibəsinə düşərək, bugünəcən onun sehrindən qurtara bilməmişəm. Gənclik illərində əzbərlədiyim «Dağda şəlalə kimi», «Həyat, sən nə şirinsən» şeirləri nöqtə, vergülünəcən bu gün də yadımdadır. Yorğun, ümidsiz çağlarımda tək olanda ucadan, yanımda adam olanda qəlbimdə bu şeirləri özüm üçün dönə- dönə söyləmiş, onlardan güc, qüvvət, enerji almışam. Son vaxtlar yazdığım «Həyat eşqi» povestim məhz böyük şairimizin «Həyat, sən nə şirinsən» şeirinin illərdən bəri mənə gizlincə verdiyi impulsun, enerjinin nəticəsidir. Elə mənim bu etirafım da böyük olduğu qədər sadə, qayğıkeş həssas, paxıllıqdan uzaq, geniş qəlbli Bəxtiyar müəllimdən gəlir. Böyük sənətçimiz görməyən adamı sözlə yola salmır, qoluna girərək mənzil başına ötürməyə çalışır, ağır eşidənin yanında qışqırmır, əyilərək onun qulağına pıçıldayır, özündən gənc, sənətdə yeni addımlar atan qələmdaşlarının balaca uğurunu görəndə özünü bəziləri kimi görməzliyə vurmur, qısqanclıq etmir, əksinə sevinir, alqışlayır, mətbuatda münasibətini bildirir.*

*Layiq olub olmadığını bilməsəm də müdrik atalarımızın söylədiyi «Varın verən utanmaz» sözünə arxalanaraq yazdığım «Həyat eşqi» povestini şairimiz Bəxtiyar Vahabzadənin səksən illik yubileyinə bağışlayıram.*

*Yubileyiniz mübarək, Bəxtiyar müəllim! Yüzilliyinizi Sizinlə birgə qarşılamaq arzusuyla!..»*

Əsər müdrik bir insan, onun hissləri, düşüncələri haqqında söhbətlə başlayır…

«…Qırx yaşlı Müdrik bilirdi və bütün varlığı ilə əmin idi ki, oradan – o doğma yurddan, Tanrıya üz tutsa, ona mütləq cavab veriləcək. Qəlbinə dammışdı ki, dünyada onun kimi Tanrıya sidq- ürəklə bağlı, halal, mübarək varlığını dərk edib inanan adam çox azdır. Guya başqa yerdə yox, məhz bu dağlar diyarında Tanrı bu biçarənin çağırışına cavab verməyə borcludur. O yerdə ki, qırqovullar, kəkliklər, turaclar səs- səsə verir, bütün quşlar adamdan perikib uçmur, ceyran- cüyür hürküb qaçmır, arılar ağacların koğuşlarını təbii pətək sayıb balla doldurur, deməli, hələ dünyanın axırı çatmamışdı, hələ Tanrı ilə insan arasında gözəgörünməz körpülər qırılmamışdı…

Qırx yaşlı Müdrik taleyindən, qismətindən rüsxət alıb düz ora – Qrand dağlarının doğma qoynuna tələsirdi. Görəsən, onu ahənrüba gücünə malik dağlarmı, doğulduğu torpaqmı özünə sarı çəkirdi? Heç nə dərk eləyə bilmirdi. Heç nə, heç nə… Çünki bu anlarda hissləri, duyğuları donmuş, pas atmış kimiydi, yalnız özünə bəlli olmayan daxili güc buxovdan qurtulub yüyənsiz at kimi onu irəli dartırdı»…

Müdrik insan dağları, düzləri, meşələri, çayları… keçib gəlib doğma yurduna çıxır…

«…Aha, bu da yurd yeri, sönmüş ocaqlarının qaralan yeri, xaraba evlərinin uçuq- sökük divarları. Anasının tumanından yapışıb, sabah- axşam qapı-bacasında dolaşdığı həyəti ot- ələf basmış, baharın ilk günlərində bənövşə yığdığı, qonşu uşaqları ilə gizlənpaç oyununda ən çox güvəndiyi ardıc topaları, qaratikan, böyürtkən kolları əməlli- başlı qol- budaq atıb böyümüş, dörd bir yana şaxələnmişdilər. Dünyanın həm sevincli, həm də ürək dağlayan xəbərlərini eşitdiyi, onun aləmində bütün yolların, cığırların başlanğıcı və sonu olan doğma həyət. Onu məktəbə, əsgərliyə yola salan və qarşılayan doğma ocaq. Arxasınca dualar yağdırılan, göz yaşı kimi dupduru su atılan, xeyrili- bərəkətli, qonaqlı- qaralı,

çaylı- çörəkli köhnə ev- eşik, həyət- baca. Bütün bunları düşündükcə ürəyi daha sürətlə döyünür, həsrətin ağrıları dırnağının ucundan tutmuş, başının tükünəcən bütün bədənini göynədirdi»…

İnsan çox yaşamaq, dünyanı bütün genişliyi, möhtəşəmliyi ilə görmək üçün qartal olmaq eşqinə düşür… Və olur…

«…Günün günorta çağında qəflətən elə bil güclü zəlzələ qopdu, dağlar nəriltiylə yarıldı. Və ildırımlı bir səs sanki mis kimi cingildədi, ovulub, parçalanıb üstünə töküldü. Bu hökmlü nida mərhamanə qəzəblə və bir qədər də ərklə qəlbini riqqətə gətirdi, beyninin min bir müəmmalar tumurcuqlayan dərinliklərinəcən işlədi:

- Nə istəyirsən?

Onun boğazı qurudu. Gözləri az qala hədəqəsindən çıxdı. Üzü üstə torpağa yıxıldı. Səmti, tufanı məlum olmayan səs qulaqlarında bir də cingildədi. Sözlər bir-birini qılınclaya- qılınclaya təkrarlandı və qayalarda vahiməli əks- səda verdi. O sanki ayıldı. Özündə yalnız cəsarət tapdı və ehmalca başını qaldırıb titrək səslə:

- Qartal olmaq istəyirəm… - dedi.

Və həmin anda ayaq dırnaqlarından tutmuş tükünəcən bədənindən dəhşətli bir ağrı və gizilti keçdi. Bu anda yermi ayrıldı, göymü çökdü? Sanki rezin kimi dartılıb, yay kimi gərildi. Bütün varlığının sarsıldığını, göy qübbəsinin yerə bitişdiyini güman elədi. Sanki göy başından basdı, yer ayağından... Amansız qorxu və xof bütün varlığını sardı. Və axır ki, bədənində yüngüllük, soyuq tər hiss etdi, göz qapaqlarını qaldırdı. İlahi, yuxu idimi bu gördükləri – o göylər səltənətində qartal kimi süzürdü»…

İnsan yaddaşını itirmədən qartal həyatı yaşamağa başlayır…

«…O ən uca, ən qolu- budaqlı, şaqqavatlı aziman bir palıd seçib, təpəsində qərar tutdu. Və bu ağacı özünə əbədi yurd yeri seçdi, əhd bağladı. Dincəlmək istəyəndə, uçub gəlir, palıdın şah budağına qonurdu. Ağacla dərdləşir, əvvəlki insan qayğısı ilə onun sevincinə- kədərinə şərik olurdu»…

Qartal- insan təbiətin tərkib hissəsinə çevrilir…

«…İndi bütün quşların dilini başa düşürdü. Lap Süleyman peyğəmbərin özü kimi. Doğrudur, o hələ insan ömrünü yaşayanda da bu barədə öyünə bilərdi. O zamanlar yaşıdlarından fərqli olaraq quşların davranışından, onların hansı səslə nə istədiyini anışdıra bilirdi. Ancaq indi onların dilini özlərindən kamil öyrənmişdi.

Bu dillər insanların ana dilləri kimi mürəkkəb və qəliz deyildi. Əvvəllər ibtidai insanların da dilləri sadə imiş, ancaq sayları artdıqca, işlətdikləri əşyalar çoxaldıqca, bu əşyalara verilən adların müxtəlifliyi nəticəsində dilləri ayrılmış, qol-budaq atmış, çətinləşmişdi.

Quşların isə başqa heç bir qəliz, gizli və aşkar niyyətləri, mövzuları olmadığından onlar bütün günü havadan və qidadan danışırdılar. Bu, qartala xoş gəlirdi. Quşlar səslə, hərəkətlə anlaşırdılar. Bir də görürdün, qoca qartal dəstəyə qəribə tərzdə təzim elədi. Yəni, nə durmusunuz, yem yeri bilirəm. Ardımca gəlin»…

Qartal- insan tez tez anasını, bacı- qardaşlarını görmək istəyirdi.

Bir gün…

«…Səhər ertədən səssizcə uçub, həyətlərindəki armud ağacının sıx budaqları arasından ürəyi döyünə- döyünə evlərinə xeyli tamaşa elədi. Anası xeyli qocalsa da, yenə həmişəki kimi, hamıdan tez durmuşdu, eyvanı, həyət- bacanı səliqəyə salırdı. Sonra qardaşının uşaqları oyandı. Və gözlənilmədən onlardan ən dəcəli və diribaşı qartalı görüb çığırdı:

- Nənə, nənə, armud ağacına gör nə boyda quş qonub?!

Nənəsi bu sözlərə heç fikir də vermədi, uşaqlarda belə ərköyünlükləri çox gördüyündən işiylə məşğul oldu.

- Hanı, hanı? – deyə o biri uşaqlar da xorla ona qoşuldu. Oğlan barmağı ilə quşu nənəsinə göstərib dedi: - Bax, odur, bayaqdan gözünü bizə zilləyib.

Qoca qarı əyridimdik qartalı görüb, təəccüblə əlini dizinə çırpdı: - Bıy, başıma xeyir, o ki, lap adama oxşayır.

Yenə həmin diribaş oğlan: - Hə, nənə, lap Sərhəng əmiyə oxşayır, - dedi.

Yer- göy ananın başına fırlandı. Yuxarıda bir topa gur işıq seli sanki donaraq ağacın budağından sallanmışdı. Bu donmuş gur işıq seli ananın ürəyini dəlib- deşir,

beynini dumanlandırır, gözünü qamaşdırır, sifətini alov dilimləri qarsıdırdı. Ana həyəcandan titrəyirdi. İricaynaqlı, əyridimdik quş Sərhəngə oxşayır? Uşaqların ağlı çaşıb, yoxsa həqiqətən oğlu Sərhəng anasını yoluxmaq üçün kəndə gəlib? O bütün cəsarətini topladı, işıqdan qorunmaq üçün yenə əlini qaşının üstünə qoydu. Və anaya agah oldu ki, qartal- zad bəhanədir. Quş elə Sərhəngin özüdü. Həm tərs, həm üzüyola, həm də mülayim, Sərhəng…

Yırtıcı quş da narahat- narahat qurcalanır, sanki iki ayağını bir başmağa geyib yerindən qopmaq istəmirdi. O da müvəqqəti kökündən, zatından qopur, quş qiyafəsində adamlaşır, fikirli- düşüncəli nəzərlərini anasına zilləməklə mehr-məhəbbətini ifadə eləyir, deyilənləri eşidir, ürəyinə, beyninə köçürürdü…

Bu həyəcanlı, bu nisgilli, bu həsrətli anlar xeyli davam elədi.

Və bu unudulmaz anları hamı içinə çəkdi, hamı səksəkə ilə yaşadı»…

Yazıçı, doğrudan da, təsirli, maraqlı bir obraz- situasiya yaradır ki, onun daxili (psixoloji- mənəvi!) dramatizmi insanın həyat eşqi barədəki təsəvvürün yalnız miqyasını gücləndirmir, həm də olduqca ciddi (qabarıq!) kolliziyalarını ortaya çıxarır. Belə ki, insan nəyə çevrilirsə çevrilsin, insan olmağın ən ibtidai müəyyənliklərindən belə xilas ola bilmir…

Qartal- insan düşünür ki, bu həyat da onun istədiyi deyil…

«…Günlər, aylar ötürdü, qartal səhərdən axşamacan mavi ənginliklərdə qanad çalmaqdan yorulmur, hələ heç bir insan övladına nəsib olmayan azadlıq və məğrurluq taxtındaca hiss edirdi ki, onun ali istəyi heç də bunlar deyilmiş. Onun məramı azadlıqdan və məğrurluqdan daha ucaymış. Bəs nəydi bu böyük məram, ali istək? Hələ bəzi mətləblər özünə də əməlli- başlı aydın deyildi. Amma şüurunun dərinliklərində nəsə kök salmışdı və gecə- gündüz ona rahatlıq vermirdi. Nəhayət, başa düşdü, dərk elədi ki, onun böyük məramı heç də bir ömür çərçivəsinə sığışmır»…

Yenidən üzünü Tanrıya tutur…

« - Ulu Tanrı, mənə uzun ömür ver… İstəyirəm ki, ayrı- ayrı insanların yox, bütövlükdə Yer üzündəki bütün millətlərin neçə- neçə yüzillərdən sonrakı taleyini görüm. Bəşər gəmisinin hansı limana tərəf yan aldığının şahidi olum.

- Yaxşı, hansı canlıya çevirim səni, razı qalasan?

- Ulu Tanrı, palıda, min il ömür sürən palıda çevir məni.

Göylə rabitə həmin andaca kəsildi. Ani sükut çökdü. Qartala elə gəldi, göylərin lacivərd üzündən bir təbəssüm yarandı. Və bu zaman o, ağlagəlməz, dözülməz ağrıdan bağırdı, hüşünü itirib torpağa sərildi. Elə bil dırnaqlarını çəkib ətindən qopartdılar. Vaxtilə qartala çevriləndə hiss elədiyi ağrı indiki ağrının yanında yalan oldu. Bir də ayılıb gördü, doğma yerdən azca aralıda göylərə baş çəkən nəhəng dağın dənizə baxan tərəfində, hələ dəhrə- balta səsi eşitməyən sıx meşəlikdə min- min yarpaqlı, yüzlərlə qollu- budaqlı cavan palıda çevrilib. İrili-xırdalı, saysız- hesabsız budaqlarında isə quşlar civildəyir, cəh- cəh vurur, bütün düzü- dünyanı, göy üzünü xırdaca qanadlarının üstünə götürüb uçurur»…

Palıd- insan bu dünyada baş verənləri filosofcasına təhlil etməyə, nəticələr çıxarmağa çalışır…

Dünyada isə qəribə işlər olurdu…

«…Bütün bunlar gənc palıdı qorxudur, tədbir tökməyə səsləyir, əlindən isə heç bir iş gəlmirdi. Onun əqidəsinə görə, Yaradanın qoyduğu qanunlar pozulur, insan təbiətin bütün gizli sirlərinin üstünü açır, Allahın işlərinə qarışırdı. Bu isə onun fikrincə, düzəldiləsi mümkün olmayan səhvlərə aparırdı.

Artıq Yer üzündə süni yaradılan heyvan cinsləri, düzəltmə, əldəqayırma aparat- adamlar peyda olmuşdu. Kəşfi sensasiya doğuran atasız- anasız bic, köksüz, nəsilsiz robot- adamlar süni yaradılmış heyvanlardan çox azca fərqlənir, bəlkə də, heç fərqlənmirdi»…

Ancaq palıd- insanı sevindirən, fərəhləndirən hadisələr də az deyildi… «…Hər il şax palıdın barı- bəhrəsi tökülüb ətrafa səpələndikcə, torpaqdan yeni-yeni fidanlar boy atırdı. Palıd toxumundan yaranan şivlər günəşə çatmaq üçün bir-biri ilə yarışır, meşənin işıqlı münbitliyinə baş vurub səmanın ənginliklərinə yüksəlirdilər. O, ən gənc nəslə baxıb iftixar hissi keçirirdi. Bəzən göyün gözişləməz, haray, ünçatmaz ucalığından qəribə səslər gəlib qulaqlarına dolurdu. Az qala kəhkəşanın ürək döyüntülərini eşidirdi. Gecələr göyün sonsuzluğunda bərq

vuran, sayrışan ulduzlar aləminin vahid bir orqanizm olduğuna şəkk- şübhəsi qalmırdı»…

Palıd- insan lap min il yaşasa da bir gün bu dünyada – həyatda olmayacağını düşünəndə onu dərd götürür…

«…Adam kimi, qartal kimi, min ilin dizini yerə vurmuş, bir zamanlar möhtəşəmliyi, əzəməti, uzun ömürlü olması ilə bütün canlılara meydan oxuyan palıd yox olmağı, izsiz- tozsuz bu dünyadan həmişəlik silinib getməyi ağlına gətirəndə dərinliklərə işləmiş köklərindən, nəhəng gövdəsindən budaqlarına, yarpaqlarınacan titrəyir, əsim- əsim əsirdi…

…Minillik palıdın genetik yaddaşına ötürülmüş ancaq və ancaq hər şeydən güclü bir arzu, istək, sönməyən bir duyğu çırpınmaqdaydı – nəyin bahasına olursa olsun, yaşamaq, bu dünyada əbədi var olmaq eşqi!

…Ömrünü başa vurmaqda olan palıd içindən tükəndiyinə görə təpəsindən başlayaraq yan- yörəsindəki budaqlarınacan yavaş- yavaş quruyub, amansız küləklərə, şıdırğı leysan yağışlara davam gətirməyib qopub tökülür, illər ötdükcə uca, vüqarlı boyu qısalır, əvvəlki əzəmətini itirirdi»…

Qəhrəmanın həyat (yaşamaq!) eşqi barədəki təsəvvürü tədricən kosmik miqyas almağa başlayır ki, bu antropoloji baxımdan nə qədər absurd görünsə də, insan təbiətini dərk eləmək baxımından mənəvi- ruhi «pressinq» səviyyəsində tamamilə anlaşılan, hətta təbiidir…

İnsan daha uzunömürlü (əbədi!) olmaq üçün qayaya çevrilmək istəyir…

«…Ulu Tanrı olmuşları və olacaqları duyan, hər şeyi bilən, həm də son dərəcə səxavətli və mərhəmətli olduğundan insanın, qartalın, palıdın bir- birinə qarışmış, yoğrulmuş istəyini dərhal duydu, onların ömrünü təpənin başındakı həmin boz qayaya köçürdü»…

Ancaq sən demə qaya ömrü də, nə qədər uzun olsa da, əbədi deyilmiş… Və bu dünyada kortəbii iddianın əbədiliyi yoxmuş…

«…Coşğun sular axıb gedəndən, sellər yatandan sonra baş- gözü əzilmiş, parçalanıb qopub- ovulmuş qayalar lal- dinməz, kədər içində peşmançılıqla bir- birinə baxaraq elə bil bir- birindən utanaraq üzr istəyir, «vallah, billah, mənim

səninlə nə işim qalmışdı, min il, milyon il də ötsəydi, sənə toxunmaz, işinə qarışmaz, güldən ağır söz deməzdim, bizi qızışdıran, qabağına qatıb bir- birimizin üstünə qısqırdan oldu, aranı qarışdıranlar…» - deyirdilər. Qaya- insanın böyür- başı əzilmiş, özündən böyük qayalarla toqquşanda bir hissəsi quma çevrilmiş, qumlarsa bir- birinə sürtülə- sürtülə narınlaşaraq başqa daşlardan qopmuş qumlara qarışaraq böyük çaylara axmış, bəziləri ləpələrlə sahilə səpələnmiş, bəziləri axıb dənizlərə çatmış, dalğaların qoynunda yellənə- yellənə bir hissəsi dənizin qırağına atılmış, quruyaraq min ilin, milyon ilin qumlarına qarışmış, başsız küləklər onları qova- qova, sovura- sovura səhra boyunca belədən eləyə, elədən beləyə aparmış, bəzənsə səhra fırtınası burula- burula onları göyün yeddi qatındakı buludlaracan qaldırmışdı»…

Povest ibrətamiz (və bədii olduğu qədər də fəlsəfi!) bir sonluqla tamamlanır…

«…Böyük Allahım, belə yaşamaqdan yorulub bezmişəm, böyüklüyünə bağışla məni, mən artıq Sənin xoşlamadığın, bəyənmədiyin tamahı, nəfsi, acgözlüyü, xəyanəti, paxıllığı, satqınlığı, riyakarlığı, insana rəva bilmədiyin bütün pis, naqis cəhətləri özümdə öldürmüşəm, ulu Tanrı, bəlkə mənim son xahişimdə yenə bir tamahkarlıq, biclik işartısı seziləcək, belə olarsa, böyüklüyünə bağışla məni, mən indən belə milyon, milyard il ömür diləmirəm, bir su içim müddəti qədər, əgər bu çoxsa, bir göz qırpımı qədər yaşamaq üçün mənə görməyə göz, eşitməyə qulaq, dil, bircə udum nəfəs, duymağa – hiss etməyə bircə an ver. İstəyəndə bütövü parçalayıb toza- zərrəyə, zərrələri birləşdirib bütövə- tama çevirən qüdrətli Allahım, Səndən son diləyim – yenidən bircə anlıq insan olmağımdır…»

…Dan yeri sökülürdü. Günəşin nurlu, dürlü təbəssümü düzü- dünyanı öz bakirəliyinə, öz sehrinə bələyəndə toz- zərrəcik bu nurun, bu saflığın, bu paklığın içində xoşbəxt- xoşbəxt üzürdü…

Günəşin bu mehriban, bu hərarətli, bu təbəssümlü təması onu sevindirirdi. Üzü gülürdü»…

Hüseynbala Mirələmovun «Həyat eşqi» povesti haqqında «Əbədi həyat arzusu» adlı ayrıca esse- monoqrafiya (ədəbi- fəlsəfi düşüncələr silsiləsi) yazıb çap etdirmiş (2014) Əlirza Xələfli göstərir ki…

«…H.Mirələmovun «Həyat eşqi» əsəri, çoxlarına elə gələ bilər ki, bir fantastikadır, illüziyadır. Ancaq mənə elə gəlir ki, bu, tam real həyatdır. Ancaq əsl kökü, rişələri insan beyni ilə, insan təxəyyülü ilə, insan mənəviyyatı ilə bağlı həyatdır. İnsanın gündəlik qarşılaşdığı ağ- qara, pis- yaxşı, yalan- doğru… bütün bunların heç birisi bu əsərdə yoxdur. Doğrudur, əsər boyu qəhrəmanın düşüncələrində onun həyatda gördüklərinə etirazları əks- səda kimi görünür. Amma əslinə qalsa, biz təbiəti görürük və o təbiətlə təmasda olan, təbiətin əbədiliyində özünü axtarmağa gedən insanı görürük. Bəs bu insan kimdən qaçır, nədən qaçır? Əslinə qalsa, bu insan həyatın şirinliyini dərk etdiyindən və bu şirin həyatın bir gün onun əlindən çıxacağından vahiməyə düşdüyü üçün – qorxduğu üçün deməzdim – baş götürüb qırx yaşına qədər yaşadığı aləmdən gedir»…

«Həyat eşqi»ni həm Azərbaycan, həm də dünya ədəbiyyatının bir sıra məşhur əsərlərilə idyea- mövzu baxımından geniş müqayisə edən müəllif qeyd edir ki…

«…Hüseynbala Mirələmovun «Həyat eşqi» əsərində sanki hər bir təsvirdən sonra əsər bitir. Amma adicə bir səs, təbiətin daşı, qayası, ağacı, insanların baxışı – bütün bunların hamısı müəllifə stimul verir. Sanki əsərin qəhrəmanı kimi onun özü də həyatın döyünən nəbzindən enerji alır, güc alır. Enerjinin saxlanması və itməməsi, yalnız bir formadan başqa formaya keçməsi haqqındakı məlum qanunauyğunluq «Həyat eşqi» əsəri boyu sözün içincə təfəkkürün dumanlıqları arasından dolanıb keçir»…

Və belə bir qərara gəlir…

«…Hüseynbala Mirələmovun «Həyat eşqi» povestinin qəhrəmanı milyon illər ərzində formalaşmış qanunauyğunluqdan imtina edir. Və imtina etdiyi üçün insanlardan qaçmaq yolu tutur. Onun getdiyi yer, ünvan məlumdur. Mənəvi olaraq bu ünvanı biz Tanrı dərgahı adlandırırıq. Amma əslində, o, təbiətə üz tutmuşdur. İnsan cəmiyyəti bu gün də təbiətlə müəyyən mənada qovuşuqdur. Bu qovuşuq

əbədi təmas yaradır. Ancaq bu təmas xüsusi şərtlərlə, sərhədlərlə müəyyənləşir. Əslində, insan təbiətən ibtidai icma dövründən ayrılmışdır. İnsan şüur kəsb etdikcə özünün həyat tərzini yaratmış, özü müəyyən qanunauyğunluqlar formalaşdırmış və həm də bu qanunauyğunluqlara tabe olmuşdur. Məsələ burasındadır ki, insan nə vaxt o qanunauyğunluqları pozursa, fəlakətlə qarşılaşır; ya təbiət onu cəzalandırır, ya da cəmiyyət tərəfindən qanunla cəzalandırılır»…

Tamamilə doğru olan bu mülahizələrə yalnız onu əlavə etmək mümkündür ki, yazıçı – Hüseynbala Mirələmov orjinal bir süjet- kompozisiya seçərək, ədəbiyyatda (eləcə də öz yaradıcılığında) çox işlənən «çevrilmə» bədii priyom-üsulundan istifadə edib ideya- məzmunca dəyərli, fəlsəfi bir əsər yaratmışdır ki, burada ədəbiyyatın əsas predmeti olan insan, demək olar ki, bütün qlobal tərəfləri ilə görünür.

*

* *

2000- ci illərdə Hüseynbala Mirələmov «Təmizlənmə», «Tənha lalə», «Xəcalət», «Cəza», «Əclaf», «Gecə sürünən ilanlar», «Qumru yumurtaları», «Taledən qaçmaq olmur» povestlərini qələmə alır.

*

* *

«Təmizlənmə» (2002) povestinin qəhrəmanı – neçə illər orta məktəbdə vicdanla işləmiş Göyüş müəllim dövranın dəyişməsi, ailə ehtiyacının artması ucbatından təsərrüfatla məşğul olmağa qərar verir. Və nəticədə, müəyyən problemlərlə üzləşsə də həyatını az- çox qaydaya salmış olur.

Povest Göyüş müəllimin Bakıya getmək istəyi ilə başlayır. Və məlum olur ki, bu, o qədər də böyük olmayan istəyini həyata keçirməkdə də problemlər var…

«Göyüş hər dəfə Bakıya getmək istəyəndə ortaya hökmən bir iş çıxırdı: ya qohum- əqrabadan bir xəstələnəni olurdu, ya xalası qızının bibisi oğluna toy

eləyirdilər, ya da böyük dayısının əsgərlikdən yenicə qayıtmış kiçik nəvəsinin ad günü keçirilirdi. Ya da  kənddə bir hüzr düşürdü. Hamı da əlüstü qaçırdı bu binəvanın üstünə. O da insafən, borc üçün gələnləri naümid qaytarmırdı – əyin-başlarından, boğazlarından kəsib səliqəylə üst- üstə yığdıqları beş- on manatı çıxarıb verirdi. Buna görə arvadı ilə tez- tez üz- göz olur, aralarında narazılıq, giley- güzar əmələ  gəlirdi, - özü də məhz ona görə yox ki, əllərində- ovuclarında olan beş- on manatları gedirdi və yaxud borc alanlar borclarını gec, ya da hissə-hissə qaytarırdılar, ya da heç qaytarmırdılar; ona görə ki, bu Bakı səfəri – hansı ki, məhz puldan və münasib vaxtdan asılı idi,  ailə üçün mühüm əhəmiyyət kəsb edirdi – elə bil, tilsimə düşürdü, baş tutmurdu ki, tutmurdu…

Əlbəttə, bu səfərdən hərənin bir umacağı vardı. Məsələn, arvadı – evləndikləri gündən indiyəcən bir dənə də bəzək- düzək əşyası olmayan Gözəl istəyirdi ki, heç olmasa, indi, yaşının bu vaxtında barmaqları üzük, qulaqları sırğa, boynu boyunbağı, biləkləri bilərzik görsün. Həm də o, bunları elə- belə yox,  uzun illərdən bəri içində yığılıb qalmış hikkə ilə istəyirdi…

…Qızı Turac don  istəyirdi, özü də qırmızı rəngdə, ətəyi də  qırçınlı və saçaqlı. Oğlu Qaranın könlündən – uşaq olduğuna görə onu yaxınına buraxmayan kəhər atlarının acığına – velosiped keçirdi, faralı, zəngli…

Əslinə qalsa, Göyüşün özü də pis kökdə idi: utana- utana başına qoyduğu papağın qulaqlarının tükü didilib tökülmüşdü. Paltosunun da boynu tamam yeyilmiş, astarı çıxmışdı»…

Göyüş müəllim təsərrüfatla məşğul olmağa girişəndən sonra ayrı bir Göyüşə çevrilməyə, daha doğrusu, xarakter və ya mənəviyyatca ikiləşməyə başlayır ki,  bu da tamamilə təbii idi…

«…Qəribədir, çöllə təmasdan sonra Göyüşün xarakterində çox ciddi dəyişikliklər əmələ gəlmişdi; o, hələ cavan vaxtlarından kənd camaatı arasında öz dərrakəsi, səbr və təmkini ilə «ağsaqqal» imici qazanmasına baxmayaraq, son vaxtlar hər xırda şeydən ötrü kəmhövsələlik göstərir, hətta, qonum- qonşu ilə üz-göz də olurdu, gah örüş, gah da bostan yeri üstündə  qalmaqal salırdı. Onun birdən-birə bu cür dəyişməsi, demək olar ki, hamının qəlbində narazılıqla yanaşı, bir

təəssüf hissi də doğurmuşdu. Orda- burda danışırdılar ki, Göyüş, əli qalınlayandan, qapısı toyuq- cücə, mal- qara görəndən sonra adamlıqdan çıxıb. Qulağına bu cür söz- söhbətlər çatan məktəb direktoru da bir- iki dəfə onu çağırıb danlamış və xəbərdarlıq etmişdi: «Ya müəllimliyin daşını at, ya da təsərrüfatın. Bir əldə iki qarpız tutmaq olmaz. Dərsə hazırlıqsız gəlirsən. Geyim- keçiminə fikir vermirsən. Elə tövləyə girdiyin paltarla da məktəbə gəlirsən – əyin- başın peyin iyi verir».

Göyüş məktəb direktorunun bu danlağından sonra hirsini- hikkəsini arvadının üstünə tökmüşdü. Hətta özünü saxlaya bilməyib, ona bir- iki ağır söz də demişdi, mərəkə kəllə- çarxa çıxmışdı, evdə mehribançılıqdan əsər- əlamət qalmamışdı. Bu dava- dalaşın xeyri o olmuşdu ki, Gözəl Göyüşün məktəb paltarını çöl paltarından ayırmış və səliqə- səhmana salmışdı»…

Nəhayət ki, Göyüş müəllim, bəlkə, neçə illərdir, ona verilən ailə sifarişləri ilə gəlib Bakıya çıxır. Ancaq burada gözlənilməz (əslində isə, Bakı- şəhər mühiti üçün, demək olar ki, təbii olan!) sürprizlərlə qarşılaşır. «Təsadüfən» qohumu «müğənni» Tuqayla rastlaşan Göyüş özü də istəmədən onun (Tuqayın) tanışları olan pozğun qadınların məclisinə düşüb gecəni orada qalası olur…

Böyük bir günah elədiyini dərk edən Göyüş müəllim sonsuz vicdan əzabı içərisində univermağa gəlir ki, heç olmasa ailə üzvlərinin ona tapşırdığı (əslində, Bakıya buna görə gəlmişdi) şeyləri alsın…

«…Univermaqda qələbəlaik idi – iynə atsan, yerə düşməzdi. Burada nələr yox idi? Cürbəcür kostyumlar, üzüklər, sırğalar, boyunbağılar, hətta böyüklər və balacalar üçün velosipedlər… Nədən başlasın? Gəzə- gəzə gəlib bir qadın kostyumunun yanında dayandı, baxdı və qəribə də olsa, elə bil ki, arvadı – Gözəl kostyumun içində canlandı. İlahi, Gözəl necə də cazibədar, necə də qəşəng idi! Lap toy günlərindəki kimi! Elə məsum- məsum baxırdı ki… Kirpiklərini qırpmadan, zəndlə, sınayıcı nəzərlərlə…

Birdən Göyüşə elə gəldi ki, Gözəl dünən axşam bu böyük, bu təlatümlü, bu sirli- soraqlı şəhərdə baş verənləri öz gözləri ilə görüb. Dözmədi, üzünü yana çevirdi. Yox, nə olursa- olsun, bu kostyumu alacaq. Satıcı qızı səslədi. Kostyumun

qiymətini soruşdu və pencəyinin döş cibindəki pulu çıxardanda heyrətindən yerindəcə donub qaldı – kağızın arasında pul əvəzinə bir dəstə kart var idi…

Göyüş nə edəcəyini bilmədi. Ah, Şeyla…Bəlkə o biri qadın?.. Bəlkə Tuqay?.. Bəlkə üçü bir yerdə?.. Kim bilir… Məsəl var, deyir, mal bir yerə gedər, güman min yerə… Bir də ki, indi heç kimə heç nə sübut etmək olmazdı…

Göyüş univermaqdan çıxanda bərk dilxor idi; başa düşürdü ki, onu aldadıblar, tələyə salıblar, evdə böyük qanqaralığı olacaq. Gözəli, uşaqları sakitləşdirməkdə çətinlik çəkəcək, amma, bununla belə, tamam sarsılmamışdı, bilirdi ki, bir işdi- başına gəlib, bura bir də qayıdacaq və daha çoxlu pul ilə, hər şey də alacaq- kostyum, üzük, sırğa, boyunbağı, ətəyi qırçınlı qırmızı don, zəngli, faralı velosiped… Təki təmizlənsin, təki pak olsun»…

Bu təmizlənmə hissi (istəyi) – motivi heç də bütünlüklə müəllifin kəşfi deyil, ancaq ənənəvi motiv kifayət qədər orijinal (və milli) kontekstdə, kifayət qədər ustalıqla təqdim olunmuşdur ki, bunları yazıçının uğuru saymaq üçün hər cür əsas vardır.

Göyüş müəllim kəndə qayıdır…

«…Kənddən xeyli aralıda – sıldırım qayalardan süzülən gur şəlalənin yanında Göyüş avtobusdan düşdü. Ətrafa baxdı. Heç kim yox idi. Paltarlarını soyunub yaxınlıqdakı armud ağacının budağından asdı və bumbuz suyun altına girdi. Hiss elədi ki, soyuq sümüyünə işləyir, dözdü, fikirləşdi ki, belə yaxşıdır, qoy, bir şəlalə o biri Şəlalənin onun canına hopmuş (Şeylanın əsl adı Şəlalə idi) kirini- pasını yusun, ruhu- qanı, iliyi təmizlənsin, arvadının, uşaqlarının yanına pak getsin, o ki qaldı pul məsələsinə, onu yenə qazanacaqdı…

Qaş qaralanda suyun altından çıxdı, paltarlarını geyindi, birdən köksündə bir ağırlıq hiss elədi, əlini döş cibinə saldı, kağıza bükülü kartları çıxartdı və ətrafa səpələdi, sancaqları isə, Gözəlin dediyi kimi, atmadı, cibinə qoydu və heç nə olmayıbmış kimi, kəndə sarı addımladı»…

Tənqidçi- ədəbiyyatşünas, professor Nizaməddin Şəmsizadə «Təmizlənmə» povestini təhlil edərkən yazır:

«…Göyüşün Bakı arzuları bir gecədə puça çıxır. O, səhər univermaqda arvadına paltar almaq üçün əlini cibinə atır və görür ki, pulunu oğurlayıb, əvəzində kart qoyublar. Dilxor olmuş Göyüş müəllim kəndə qayıdıb gur şəlalənin altında çimib təmizlənir. Yazıçı, Göyüşə ibrət dərsi verir, amma oxucu onun təmizləndiyinə tam inana bilmir. Diqqətini və narahatlığını daha çox Göyüşün mühiti üzərində saxlayır: həm kənd mühiti, həm də onun təmasda olduğu şəhər mühiti. Əslində, yazıçının uğuru məhz bu mühitləri psixoloji təhlil etməsindədir. Hər iki müstəvidə Göyüş müəllim – kənddə ziyalının əsas nümayəndəsi son dərəcə miskin görünür. Bəs buna səbəb nədir, niyə təhsil, müəllim bu günə düşüb? XX əsrin əvvəllərindəki milli ziyalıların – C.Məmmədquluzadənin, Ə.Hüseynzadənin, M.Ə.Rəsulzadənin, M.Ə.Sabirin, N.Nərimanovun, Ü.Hacıbəyovun  və başqalarının dili ilə desək, «kimdir müqəssir, nədədir nicat?»

Fikrimizcə, Nizaməddin Şəmsizadənin ədəbiyyatda bu cür halları «azmış şüurun faciəsi» sayması, bütün mübahisəli tərəfləri ilə birlikdə, nə qədər maraqlıdırsa, Göyüş müəllimin təmizlənəcəyinə axıra qədər «inanmaması» o qədər, əgər belə demək mümkünsə, maraqsızdır… Hər şeydən əvvəl ona görə ki, Göyüş müəllimin mənəviyyatı təbiətən təmizdir. Və o, şəlalənin altında yuyunanda da mənəviyyatını, ruhunu  yox bir gecəlik əməllərini təmizləyirdi…

Yeni iqtisadi, mənəvi- ideoloji uklada keçidlə bağlı olaraq kənddə müəllimin düşdüyü mürəkkəb psixoloji duruma gəldikdə isə Nizaməddin Şəmsizadə, görünür, bütünlüklə olmasa da, hər  halda haqlıdır ki, bu da yazıçının  həyat hadisələrinə münasibətdəki obyektivliyini bir daha təsdiq edir.

*

*   *

Hüseynbala Mirələmovun «Tənha lalə» (2002) povesti bir sıra ideya-məzmun və struktur- poetexnologiya xüsusiyyətlərinə görə roman keyfiyyətlərinə də malikdir. Hər şeydən əvvəl ona görə ki, üç müxtəlif ailənin (sevginin!) taleyinin müqayisəsi əsasında, «əsər içərisində əsər» prinsip- modeli ilə yazılmış povestdə hadisələrin epik çoxşaxəliliyi janrın (povestin) miqyasından müəyyən qədər kənara çıxır.

Əsər qəhrəmanın – Xatirənin daha çox məhz roman üslubuna məxsus bədii-fəlsəfi düşüncələri ilə başlanır…

«…Külək nəhəng dalğaları Sahil bağının dənizə «söykənən» beton divarlarına çırpırdı. Nəhəng dalğaların yorulmadan bir- birini qova- qova, özünü hirslə- hikkəylə beton divarlara çırparaq parçalandığını görəndə Xatirə «Bəzən insan ölçüyəgəlməz gücə- qüvvəyə malik olan dənizi də ram edir. Bu bəndlər, divarlar olmasaydı, dalğalar bəlkə də Neftçilər prospektinəcən gedəcək, şəhər ərazisinin müəyyən hissəsini tutacaqdı. Bəlkə insanlar düz eləmir, dənizin, dalğaların qarşısını almaqla onların azadlığını əlindən almış olur. Dənizlə insan əbədi savaşdadır. Görəsən, hansı haqlıdır? Dəniz, yoxsa insan?!» düşünür… «Bu yerlər əvvəlcə dənizinmi olub, yoxsa insanın? Əgər dünyanın əşrəfi insandırsa, deməli haqlı odur. Bəlkə bu fikri, bu məntiqi də insan öz xeyri, mənafeyi üçün yaradıb», - deyə fikirləşdikcə qəti qərara gələ bilmirdi…

Sahil bağı ilə addımlayan Xatirə, anasının laylasını dinləyə- dinləyə yırğalanan beşiyi həsrətlə arzuladı: «Kaş asta- asta yırğalanan o beşikdə şirin- şirin yuxuya gedəydim»…

Xatirənin – qəhrəmanın xarakterini müəyyənləşdirən bu düşüncələr elə povestin əvvəlindən onun hansı tale yaşadığını, nə dərəcədə mübariz olduğunu, yaxud həmin mübarizələrdə nə dərəcədə, nə üçün tərəddüdlər keçirdiyini təsəvvür etməyə imkan verir.

Xatirə qarlı bir gündə Sahil bağında onu «izləyən» oğlanla təsadüfən tanış olur. Və elə ilk söhbətdən gənclər arasında isti münasibət yaranır…

«- Mənim adım… Bilirsən… - sözünün dalısını gətirə bilmədi.

Xatirə özünü cəmləşdirdi:

- Axı səni birinci dəfədi görürəm. Hardan bilim adını?..

-… Yox, adımı səndən soruşmaq yox, sadəcə tanış olmaq istədim. Mənim də yolum bu tərəfdəndi. Çoxdandı sənin buradan keçdiyini görürəm. Bəlkə də fikir verməmisən. Çox vaxt elə birgə gedirik. Amma mənə heç vaxt əhəmiyyət vermirsən. Yadındadısa… fikirli- fikirli küçəni keçmək istəyirdin. Qolundan tutdum… Maşın qəfil siqnal verdi, sən də qəfil geri çəkildin. Arxadan sürətlə gələn

maşın sənə dəyə bilərdi. Təşəkkür eləyib, tez küçəni adlayıb getdin. – Oğlan güldü. – Belə çıxır ki, bizim tanış olmağımız üçün Bakıya qar yağmalı imiş. Bundan sonra qarlı havalar mənim üçün daha əziz olacaq.

- Deyirəm, güclü yağış yağaydı… Sən də məni selin əlindən alıb xilas etsəydin, daha yaxından tanış olardıq, - Xatirənin dodaqlarından səmimi gülüş qopdu. Bu gülüşün, bu təbəssümün, par- par yanan gözlərin işığı oğlanı büsbütün sehrlədi.

- Yox, gərək elə edəm ki… heç vaxt sel qabağına düşməyəsən»…

Xatirə ilə təsadüfən tanış olduğu oğlan – Xəzər arasındakı münasibətlər dərinləşir: tez- tez görüşürlər, bir- birini görməyəndə darıxırlar… Ancaq Xəzər iş yerinin yaxınlığındakı özəl xəstəxanada çalışan, demək olar ki, hər gün «nəzarətdə saxladığı» sevgilisinə hələ ki ciddi bir təklif eləmir…

Və yazıçı təfərrüata varır…

«…Tanımadığı oğlanla qızının qeyri- müəyyən münasibətilə barışmayan ana Xatirəni danlamış, Xəzərin dalınca artıq- əskik sözlər demiş, «o səninlə gün keçirir, bunu niyə anlamırsan?» - söyləmişdi. Qızının bununla razılaşmadığını görən ana səsinin gur yerinə salıb: «Allah bilir hansı yuvanın quşudur? Yetimin biri gəlib qabağına çıxıb, nə sözünü bildirir, nə də istəyini»,- demişdi. Xatirə ürəyində söz altında qalmamış: «Ana, mənim özüm kiməm? Mən də yetim deyiləmmi? Nə olsun ki, pasportumda ata adı var. İndi hanı o ata? Mən onun üzün də görməmişəm. Sənin əzizləyə- əzizləyə saxladığın o şəkil mənim üçün ata ola bilərmi?» - demək istəsə də, özünü ələ alıb bunları anasının üzünə vurmamışdı.

Anası onu böyütmək üçün çox əziyyətlər, məşəqqətlər çəkmişdi. Neçə illər evlərinin yaxınlığındakı qədim tikiş fabrikində işləmişdi, məharətli usta idi. Fabrik bağlanandan sonra bazarın bir küncündə balaca bir otaq kirayələyib oraya tikiş maşını qoymuşdu. Kiminin şalvarı, pencəyi, kiminin donu, yubkası əyninə düz gəlməyəndə geyimlərin əyər- əskiyini səriştəylə düzəldir, aldığı qəpik- quruşla özünü və balasını bir təhər dolandırırdı»…

…Xəzər heç bir xəbərsiz- ətərsiz yoxa çıxır, görüşlərə gəlmir, mobil telefonu həmişə əhatə dairəsindən kənarda olur. Və Xatirə bu müəmmalı vəziyyətdən özünü itirir, kömək üçün kimə müraciət edəcəyini bilmir…

«…Düşüncələr qızın canını qızdırmışdı. Həya- ismət hissindən təsirlənir, kiminsə onu izlədiyindən, ona göz qoyduğundan ehtiyatlanaraq şübhəylə yan-yörəsinə baxırdı. İlk dəfə Xəzər onun əlindən tutanda, sanki bədənindən bir atəş keçmiş, ürəyi şiddətlə döyünmüşdü. Başını onun çiyninə qoyub sakitcə dayanmaq, ürək döyüntüsünü eşitmək istəsə də, bacarmamışdı. Cəsarətsizliyinə görə indi özünü qınayırdı: «Kaş Xəzərin çiyinlərindən tutaydım. Onun gözlərinin içinə baxıb, nəfəsini duyaydım. Görəsən, qarşıma çıxsaydı bunları bacaradımmı?..»

İndi ona tam aydın idi ki, insanın qəlbində, düşüncəsində heç kimin görə bilmədiyi bir «hakim» əyləşib. O «hakim» insanın varılğında peyda olduqca, özündə güc tapdısa, daha qarşısında heç bir qüvvə dayana bilməz. O gücün qarşısını heç bir qanun, qadağa kəsə bilməz…

Xatirə artıq anlamışdı ki, varlığındakı «hakim» çox güclü, qüdrətlidir. Özündən də, anasından da, ətrafdakılarlardan da güclüdür! Xəzər yenidən qarşısına çıxsaydı, tərəddüd etmədən üstünə yürüyər, onu qucaqlayıb köksünə sıxardı, bəd nəzərlərdən qorumaq üçün onun əlindən tutub sahilboyu, gözəgörünməyən ənginliyə qaçardı. Həmin o uzaqlıqda yalnız dəniz olaydı, bir də Xəzərlə Xatirə. Həmin kimsəsizlikdə ömürlərinin ən şirin anlarını yaşayaydılar»…

Yazıçı yeni bir süjet başlamaq üçün təbii keçid edir…

Xatirə dərdini işlədiyi xəstəxana – klinikanın sahibi, məşhur həkim Əsmər Sultanlıya demək, ondan məsləhət almaq qərarına gəlir. Çünki dünyagörmüş bu xanım Tibb Universitetində Xatirənin müəllimi olmuş, klinikanı yaratdıqda isə sevimli, istedadlı tələbəsini öz yanında işləməyə dəvət etmişdi.

Ancaq gərgin iş rejimi, xəstələrin çoxluğu, əməliyyatların ağırlığı imkan vermir ki, Xatirə Əsmər Sultanlı ilə məsləhətləşsin… Anası ilə danışmağın da əhəmiyyəti yoxdur… Odur ki, bədbinliyə, xəyal qırıqlığına qapılır…

«…Xatirə özünü tənha hesab edirdi. Anası Xəzərin qarasınca deyindiyindən qızıyla özü arasında uçurum yaratmışdı. Xatirə bircə dəfə də olsun, anası ilə

məsləhətləşməyi ağlına gətirmirdi. Anasının deyəcəyi: «İndi nə zamandır ki, sevgi dərdi çəkirsən? Görmürsən camaat telefonda, internetdə, televiziya kanallarında tanış olur? Hər kəs gözləsəydi ki, onun ağ atlı şahzadəsi gələcək, onda bu dünyada ailə quran olmazdı. Guya dünyaya gələn uşaqların hamısı sənin dediyin o müqəddəs sevgilərin bəhrəsidir?» - sözlərini əvvəlcədən bilirdi.

Anasından soruşmaq istəyərdi: Bəs insanlar bir- birilə doğmalaşmasalar, bir- birini yaxından tanımasalar, ömürlük bir- birlərinə necə bağlanarlar?

Təbii, anası yenə deyəcəkdi: «Evlənəndən sonra da sevgi yaranır. Amma Xatirə bütün bunların heç birini qəbul etməyəcəkdi»…

Xatirənin anası Laləzar xanım tək qalsa da heç bir kişinin evlənmək, yaxud elə gününü xoş keçirmək təklifini qəbul etmirdi. Bu isə sevginin, xoş hisslərin insan həyatı üçün nə qədər əhəmiyyətli olduğunu yaxşı bilən Xatirədə suallar doğurur…

«…Bir axşam evə zəng olur. Zəng edənin kimliyi məlum olmasa da, hiss olunur ki, xəttin o başındakı adam Laləzarla könül xoşluğu ilə danışmaq istəyir. Xatirə öz otağından həmin yad adamın sözlərini eşidir. Anasının dərhal sərt cavablarından başa düşür ki, həyatına heç bir kişinin daxil olmasını ağlına belə gətirmir. Şirin, ağlagəlməz xoş vədlərə baxmayaraq, zəng vuran adam Laləzar xanımı inadından döndərə bilmir.

Xatirə bəzən nigaran- nigaran düşünürdü: «Axı nə üçün belə edir? O da insandır, qəlbi, ruhu var. Onun da insan kimi ömür sürməyə haqqı var. Niyə kiminsə günahı üzündən anam öz ömrünü yandırıb- yaxmalıdır, axı insan həyata bir dəfə gəlir, yalnız bircə dəfə».

Hərdən televiziya kanallarında nümayiş etdirilən xarici filmlərdə qadınların övladlarının yaşından asılı olmayaraq, necə sevgi məcaraları yaşadıqlarını çox görmüşdü. Xatirə onların bu yaşam tərzini, adətlərini, vərdişlərini heç cür qəbul etmirdi. Amma ona xoş gələn bir cəhət də var idi: həmin o xarici filmlərin qəhrəmanları öz ömürlərini heç nəyə, heç kimə qurban vermirdilər. Görəsən, bu yaxşıdır, yoxsa pis? Xatirə çox düşünüb- daşınsa da bu suala cavab tapa bilmirdi. O, nə edəydi ki, anasının da, onun da taleyinə belə bir həyat qismət olmuşdu»…

Müəllifin sənətkarlığı (və obyektivliyi!) ondan ibarətdir ki, ziddiyyətləri nə çox qabardır, nə də neytrallaşdırır, daha çox oxucunu düşündürməyə çalışır… Ona görə də bədii suallar verir, mövcud (və səciyyəvi!) situasiyalardan oxucusu ilə birlikdə çıxış yolları axtarırmış kimi onu (oxucu- müsahibi) «polemika»ya dəvət edir…

Povestdə Xatirənin «xəbərsiz- ətərsiz onu atıb getmiş» Xəzərə, demək olar ki, intəhasız məhəbbətini, inamını, etibarını göstərən böyük bir təfərrüat var. Və bu məsələyə çoxlu səhifələr həsr olunmuşdur… Lakin, fikrimizcə, həmin «nəticə»nin sosial- psixoloji (insani!) «səbəblər»i Xatirə ilə Xəzərin görüşlərinin təsvirində daha mükəmməl bir şəkildə göstərilməli, əsaslandırılmalı idi.

Çünki «sevginin qəfildən gəlməsi» motivi nə qədər təbii, emosional- estetik baxımdan nə qədər maraqlı (milli bədii təfəkkür üçün ənənəvi, eləcə də yazıçının - Hüseynbala Mirələmovun yaradıcılığ üçün səciyyəvi!) olsa da, heç nəyin mübahisəsiz qəbul edilmədiyi müasir dünyada onun (sevginin!) analitik- fəlsəfi (rassional) əsaslandırılmasına ehtiyac duyulur…

…Əsmər Sultanlı Xatirənin həyəcanlarını, pəjmürdəliyini görüb ona yaxınlaşır. Dərdini soruşur.

Xatirə başına gələnləri danışır. İzsiz- soraqsız yoxa çıxmış Xəzərə inandığını, onun yolunu gözlədiyini deyir. Və bu zaman professorun haldan- hala düşdüyünü görür…

«- Sizə nə oldu, Əsmər xanım, bəlkə su gətirim?

- Yox, heç nə lazım deyil, keçib gedər.

Xatirənin daha heç bir söz deməyə cəsarəti çatmadı, sakitcə dayanıb gözlədi.

- Bilirsən, qızım, insan həyatda yoxsul yaşamağa da, illərlə kirayələrdə əzab- əziyyətlər çəkməyə də, hər cür çətinliyə dözməyə güc tapar. Ancaq sevgisiz, sevdiyin adamdan aralı yaşamaq çətindir, böyük dərddir.

Xatirə hiss elədi ki, Əsmər Sultanlının qəlbinin sarı siminə toxunub.

Bu mərkəz, müalicə ocağı, ad- san, şöhrət, pul, imkan - bunların hamısı Əsmər Sultanlıya məxsus idi. Bəs onun dərdi nə idi? O, nə üçün birdən- birə belə iztirab keçirdi? Nə idi Əsmər Sultanlıya belə əzab verən?..»

Zahirən həyatını yalnız iş- gücə, kifayət qədər məsul vəzifəsinə həsr etdiyi güman edilən Əsmər Sultanlı keçmiş tələbəsinə (indiki assistentinə) əsl həyatının (məhəbbətinin!) təfsilatlarını danışmalı olur.

Və süjet (əsər) içində süjet (əsər) başlayır… Məlum olur ki…

…Əsmər Sultanlı orta məktəbin son sinfində Samir adlı bir oğlanı sevir. Anası türk sultanı nəslindən olan qızının bu kasıb, üzündə çapıq olan bu oğlanla hər hansı yaxın münasibətinə qarşı çıxır, hətta qızını ayrı bir məktəbə çevirmək istəyir… Özü də bilmir ki, Samir həmin çapığı Əsməri müdafiə edərkən qazanıb… Məhəbbətinin cavabsız qaldığını görən Samir Əsmərə xatirə olaraq rəngli bir qutu verir. Və deyir ki, rahatsız olmasın, biz ailəlikcə xaricə köçürük…

Əsmər Tibb Universitetinə daxil olur…

«…İllər ötüb keçsə də, Əsmər universiteti bitirsə də, ürəyindəki ilk sevgi yarası sağalmırdı. İstəkli övladının qəlbində hələ də qövr edən yaradan xəbərsiz ana qızına:

- Bax ha, eləsinə könül ver ki, nəslimizə layiq olsun! – dönə- dönə təkrarlayırdı.

Əsmər anasına etirazını bildirmir, onu başa düşməyə çalışırdı. Anlayırdı ki, həmişə nəsli ilə öyünən anası onun xoşbəxtliyi üçün çalışır, ad- sanlarına yaraşan kürəkən arzulayırdı.

Anasının dediyinə görə, Əsmərgilin babası vaxtilə erməni qırğınlarından insanları xilas etmək üçün Bakıya köməyə gəlmiş Türk ordusunun zabiti Sultan Əbdül Həmidin nəslindən imiş. Anası uşaq ikən türk zabiti onu qucağında atıb-tutar və deyərmiş: «Mənim nəvəm, inşallah, nəslimizi burada davam etdirəcək! Bax, soyadını dəyişməzsən ha…»

Əsmərin anası ərə gedib ailə qurandan sonra da soyadını dəyişmədi.

Sultan nəslinin övladı olan anası əri ilə yola getmirdi. Aralarındakı mübahisələrdən biri də Əsmərin soyadını «Sultanlı» yazdırması üstündə oldu. Arası kəsilməyən mübahisələrin, dedi- qoduların sonu onların ayrılması ilə nəticələndi. İçərişəhərdə türk zabitindən yadigar qalan ikimərtəbəli mülkdə Əsmər və anası yaşamalı oldu»…

…İddialı ana özünə «münasib» bir kürəkən tapır… Samiri yaxşı tanıyan, Əsmərin ona sevgisindən də xəbəri olan kürəkən – Balaş ilk günlər iddia edir ki, öz isti münasibətləri, məhəbbəti, ailə həyatının məhrəmliyi ilə Əsmərə ilk sevgisini uunutduracaq…

Əsmər özünü həyat (və ailə) normativlərinin ağuşuna atsa da, ilk günlərdən hiss edir ki…

«…Balaşın anası yaxınlaşıb Əsməri də, anasını da qucaqlayıb öpdü. Bir-birlərinin bayramını təbrik etdilər. Hər iki ananın üzündəki təbəssüm, doğmalıq ürək arzularının ifadəsi kimi nur saçırdı. Əsmər hər iki ananı diqqətlə süzür, onların gələcək qohumluqla bağlı fikirlərini, niyyətlərini duymağa çalışırdı. Ona elə gəlirdi ki, zərgərlik dükanında sövdələşənlərin biri satıcı, digəri alıcıdır. Anası onun sağında, Balaşın anası isə solunda dayanmışdı. Əsmərin anası tez- tez əlini qızının saçlarında gəzdirir, çiyninə, belinə tumar çəkirdi. Gələcək qaynana hərdən Əsmərin əlini əlinə alır, ovcunda saxlayır və canıyananlıqla:

- Bu nədir, qızım, əlin niyə soyuqdur? – soruşurdu.

- Bilmirəm, yəqin havadandır.

- Eybi yox, sənin də günəşin tezliklə doğar. Ömrünü nura, işığa bürüyər.

Əsmər Sultanlı iki ananın arasında yenə özünü zərgərlik dükanındakı əşya kimi görürdü»…

Ancaq onsuzda Samiri əbədilik «itirmiş» Əsmər Balaşın təmkinli jestlərinə, düşüncəli hərəkətlərinə, anlayışlı münasibətinə istər- istəməz laqeyd qalmır…

Həm də bu, həyatdır. Və həyatın ayrı- ayrı insanların subyektiv hissləri, arzuları ilə hesablaşmayan öz universal axarı (fəlsəfəsi!) var ki, ona ancaq müəyyən mənada (və hüdudda!) qarşı çıxmaq olar…

«…Balaş istehsalatda bişmişdi. Bizneslə məşğul olur, sahibkarlıq fəaliyyəti göstərirdi. İstər- istəməz müxtəlif insanların psixologiyasını öyrənmişdi. Qarşılaşdığı adamların dediklərindən başqa, nə düşündüklərini də öyrənməyə çalışırdı. Balaş biznes müqavilələrində həmişə özünəməxsus ustalıqla insanların daxili dünyalarında gizlənmiş fikir və məqsədlərini öyrənməyə çalışırdı. Buna görə əli çox vaxt gətirirdi. Tay- tuşları, sahibkarlıqla məşğul olan cavan həmkarları ona

qibtə edir, hətta çətin sövdələşmələr zamanı onu da özlərinə şərik götürürdülər. Həmkarları Balaşın məsləhəti, tövsiyələri ilə qazandıqları uğurlara görə ona minnətdarlıqlarını bildirməklə, paxıllıqlarını, həsədlərini də gizlədə bilmirdilər.

Əsmər «Mənim gözlərimdə o işıq yanmır» deyəndə, ürəyindəkiləri səmimiyyətlə etiraf edirdi. Bu adamın biznes təfəkkürü, qazanc götürmək mühakiməsi ilə davrandığını hiss etməsə də, onun götür- qoy etmək, nəticə çıxarmaq məharətini də görürdü. Ona görə də Samirin hələ də qəlbində hakim olduğunu etiraf etmək dərinliyinə getmədi. Bu, Əsmərin qeyri- səmimi olması deyildi, o, sadəcə etirafları ilə Balaşın heysiyyətinə toxunmaq istəmirdi»…

Dəbdəbəli toy olur… Və onlar evlənirlər…

Evliliyin ilk günlərindən məlum olur ki, yeni ailə nə Əsmərin, nə də Balaşın ürəyincədir. Əsmər aspiranturaya daxil olmaq istəyir, Balaşın fikri isə ondan ibarətdir ki, arvadı evdə otursun, onun yolunu gözləsin… Və Əsmərin anasının dediklərini də unutmamışdı: «Nəslimizin nəyi varsa, hamısı Əsmərə çatacaq»…

İki nəfərdən ibarət bir «ailə»də maraqlar, istəklər, əhval- ruhiyyələr toqquşur. Və hərə öz marağının, istəyinin, əhval- ruhiyyəsinin arxasınca getməli olur…

Yazıçı tamamilə obyektiv (və səmimi) olaraq «neytral» qalır…

«…Əsmər aspiranturanı bitirib tibb elmləri namizədi oldu, kafedrada ona iş verdilər. Tələbələrə mühazirə oxumağa başladı. Ailə şəhərətrafı villalardan birinə köçdü…

Əsmərin öz maşını var idi. Bir dəfə maşınla qəzaya düşdü. Yüngül zədə aldı. Daha maşın sürməyəcəyini Balaşa bildirəndə o laqeydcəsinə:

- Kimi istəyirsən, sürücü götür, - dedi».

…Və bu laqeydlik Əsmərin həyatına ikinci, Samiri də nəzərə alsaq, üçüncü kişinin gəlməsinə səbəb olur… Əsmər köhnə «Jiquli»si ilə «xaltura» edən Zahirə bağlanır…

«…Əsmər Zahirə elə isinişmişdi ki, təsadüfən bir dəfə onu işə aparmayanda narahat olur, dərhal zəng edib hal- əhval tutur. Çətinliyi olub- olmadığını soruşurdu. Əslində Zahir də ona bağlanmışdı. O, əvvəllər Əsmər Sultanlının şəxsi

həyatı ilə bağlı nəsə soruşmağa cəsarət etməzdi. Amma Əsmər Zahirin gözlərindən oxuduğu kədərin nə ilə bağlı olduğunu bilməyə çalışırdı. Bəlkə də Samirdən sonra ilk dəfə idi, onda kişiyə belə bir hiss, maraq oyanmışdı. Əvvəllər ona elə gəlirdi ki, Samirdən sonra ürəyində dəfn etdiyi o qəribə, kövrək duyğuları bir daha yaşaya bilməyəcək. Bəzən tənha anlarında özü- özünü cəllada bənzədirdi. Getdikcə kobudlaşdığını, sərtləşdiyini hiss edirdi. İşdə də həddindən artıq tələbkar olmuşdu. Bunun işə aid olmayan başqa səbəbdən yaranmış psixoloji hisslərin təsirindən baş verdiyini başa düşürdü. Tənhalıq onun bütün mənəvi aləmini bürümüş, ruhuna hakim kəsilmişdi. Bəlkə də həyatın ona bəxş etdiyi bu daxili əzabların, iztirabların ağrısından əzildiyinə görə, bəxtinə, taleyinə etirazını bu yolla bildirirdi»…

Və Əsmər Sultanlı Zahirin həyatı, tərcümyei- halı ilə maraqlanır. Məlum olur ki, Zahirin də hamar olmayan bir taleyi var imiş.

Bir əsər daxilində birinci, ikinci süjetdən (əsərdən) sonra üçüncü süjeti (əsəri) başlayan yazıçı belə bir qənaətə gəlir ki…

«…İnsanları bir- birinə onların mənəvi doğmalığı ilə yanaşı, həm də dərdləri və acıları yaxınlaşdırır. Zahir həyat hekayətini Əsmər Sultanlıya danışandan sonra xeyli yüngülləşmiş, varlığında çox şey dəyişmişdi. Elə bil Zahir uzaq səfərə çıxan gəmiyə bənzəyirdi. Ünvan bəlli, yol aydın. Bəs bu nigarançılıq haradan yaranmışdı?..»

…Zahir texniki universitetdə oxuyurmuş. Bir gün rayonlarına toya gedəndə Zərnigar adlı nişanlı bir qızla rastlaşır, bir- birinə aşiq olurlar. Və məlum olur ki, qızı istəmədiyi bir oğlana nişanlayıblar…

«…Qız yavaşca əlini Zahirin əlindən çəkmək istədi. Nişan üzüyü qızın barmağından sürüşüb Zahirin əlində qaldı. Bir anlığa Zahirə elə gəldi ki, əlini od yandırdı. Diksindi, üzük əlindən yerə düşdü. Üzüyü götürüb, qıza qaytaranda:

- Yox, mən o üzüyü bir daha barmağıma taxa bilmərəm. – Zərnigar qətiyyətlə dedi.

- Elə isə onda bu gün yığış!..

Onlar həmin gün axşam yola çıxdılar. Zərnigar ata- anasına məktub yazıb qoydu: «Siz məni istəyimlə hesablaşmadan nişanladınız. «Nişanlıma» da dəfələrlə onu istəmədiyimi demişəm. Başa düşürəm ki, sevgisiz yaşamaq çətindir. Məndən nigaran qalmayın. Mən Zahirə inanıram. Həyatımı onunla bağlamaq istəyirəm. Üzüyü sahibinə qaytarın. Tanrı sevən ürəkləri bağışlayır. Siz də məni bağışlamağa çalışın. Salamat qalın. Zərnigar».

Zahirlə Zərnigarın evlilik həyatı başladı. Zərnigar onların evinə gələndə, Zahirin anası həyəcanlanmış, bu işin necə qurtaracağından, nələrin ola biləcəyindən qorxmuşdu. Xoşbəxtlikdən elə bir gərginlik yaranmadı. Oğlan da hadisəyə soyuqqanlılıqla, təmkinlə yanaşdı: «Bizi istəməyən qıza yalvarıb arxasınca gedəsi deyilik ki?!» - dedi»…

Rayondan qayıdanda Şıx çimərliyinə az qalmış qum- çınqıl yüklü KamAZ Zahirin, Zərnigarın və körpə uşaqları Zahizərin olduqları mikroavtobusla toqquşur. Uşaq həlak olur. Zərnigarsa ağır yaralanır, ana olmaq qabiliyyətini itirir… Yenidən evlənmək təkliflərinə baxmayaraq Zahir nişanlısını ataraq onunla qaçmış sevgilisini atası evinə göndərməkdən qəti imtina edir.

«…O, Zərnigarın fikirləri ilə razılaşmırdı. El- obasını Zahirə görə atıb gələn Zərnigarı necə xəcil edə bilər, onu necə tənha qoya bilərdi? Yox, yox! Bu, Zahir tərəfdən namərdlik olardı. Zərnigarın saçları sürətlə ağarırdı. Zahirin də saçlarına dən düşmüşdü. Hər il Zahizərin ad gününün dərd- qəm içində, səssiz- səmirsiz, keçirirdilər»…

Əsmər Sultanlı ərinin tamamilə laqeydliyini, evə çox gec gəldiyini, başqa qadınlarla çox geniş əlaqələrini ədəbi xatirinə belə gizlətmədiyini görüb ondan ruhən ayrılır, özünü zahirən Samirə oxşayan, problemləri başından aşan Zahirə təslim edir.

Xatirənin «bəs bu məsələlərə Balaş necə baxırdı?» sualına Əsmər Sultanlının verdiyi cavab yalnız bir ittihamnamə, yaxud «ailə»sini itirmiş qadının özünə «təskinlik» verməsi deyil, normativ ailə münasibətləri ilə günümüzün «ailə eksperimentləri» arasındakı ziddiyyətlərin «proyeksiya»sıdır…

«Balaş, az qala, hər gün evə gecədən  xeyli keçmiş, özü də sərxoş gəlirdi. Yataqda nəvazişindən qalmırdı. Mən onunla mülayim davranırdım, o da «özünə aid olan işi» görür, çəkilib gedirdi. Bilirsən, insan həyatı münasibətlərində tək özünü yox, qarşısındakını da düşünməlidi. Balaş yalnız özünü düşünürdü. O, əsla düşünmürdü ki, axı mən qadınam, mənim də özümə görə həssas duyğularım var. Yaşadığımız müddət ərzində bircə dəfə də olsun, mənim hisslərimi oyatmağa cəhd etmədi. Sevib- sevməməyim də onun vecinə deyildi. Amma  hər halda mənim qadın olaraq öz həyatımı yaşaya bilmədiyimi  bir kişi kimi bilməliydi. O, mənim hamiləliyimi his edəndə, özünü sevinən kimi göstərdi. Onun aləmində həyatın mənası yalnız pul idi. Hətta «mənim Balaşım» məhəbbətə də qazanc kimi baxırdı. Ona elə gəlirdi hamı onu sevməli, nazı ilə oynamalıdır. Amma o, fəsil- fəsil dəyişdiyi qadınların demək  olar, heç birini sevməmişdi. Onun leksikonunda yalnız qadınların təsnifatı vardı; yaşına görə, milliyyətinə görə. Düzdür, həyasızlıq edib, açıq- aşkar neçə yaşdan neçə yaşa qədər, neçə qadınla yaxın olduğunu, hansı millətdən olan qadınları necə qiymətləndirdiyini demirdi, amma unudurdu ki, mən həkim olaraq bu məsələlərin psixoloji köklərini kifayət qədər yaxşı bilirəm.  O, bu rəftarı ilə mənə, sadəcə meydan oxuyurdu. Mən  də yaxşı anlayırdım ki, əgər ötən yayı Hindistanda keçiribsə, alnının ortasında xalı olan qızla birlikdə çəkdirdiyi şəkillə nə demək istəyirdi? Türkiyədə, İranda, Rusiyada, Avropa  ölkələrində çəkilmiş belə şəkillərdən heyrətə gələcək dərəcədə kolleksiya yaratmışdı»…

Yazıçı qəhrəmanının – Xatirənin  sualı ilə Əsmər Sultanlının bu həyat- ailə fəlsəfəsinin mahiyyətinə enməyə çalışır…

« - Bəlkə, siz onu sevməyi özünüzə təlqin edə bilməmisiniz? Bəlkə, siz elə edə  bilərdiniz ki, o, başqalarını yox, məhz sizi sevərdi?

- Xatirə sən uşaqsan. Yəqin ki, belə məsələlərdən gələcəkdə baş çıxaracaqsan. Balaş kimi adamların başı daşdan- daşa dəyməyincə, həyatın zərbələrinə tuş gəlməyincə ağıllanmırlar.  Onlar yalnız həyatdan dəhşətli zərbələr alandan sonra ayılıb  özlərinə diqqət edirlər. Və təəssüf ki, bu zaman hər şeyi itirmiş olurlar…

…Mən Balaşa dedim ki, sənin üçün fərqi var ki, bu uşaq kimindi? Onun iyrənc, acı gülüşlərini təsəvvür etmək necə də dözülməz idi: «Hər halda bizim millətin övladıdır. Daha sən də mənim kimi ölkələri gəzib, ayrı- ayrı xalqların kişilərilə «dostluq» eləməmisən ki? – dedi.

Mən həmin andaca qət etdim ki, daha onunla birgə yaşaya bilmərəm. Amma ayrılmaq yolunu da tapa bilmirdim. O da məndən imtina etmir, rəsmi qəbullara, dövlət məmurlarının iştirak elədiyi tədbirlərə qoluma girib fəxrlə gedirdi.

Məclislərdə mənə yaxınlaşan, nəvaziş göstərənlər də olurdu. Bilirsən, məni nə əsəbləşdirirdi? Balaşda cüzi də olsa narazılıq, qısqanclıq hiss etmirdim. Görürdün, bir məmur mənə yaxınlaşır, məni rəqsə dəvət edir, rəqs zamanı xoş sözlər deyir və bütün bunların hamısını da Balaş kənardan görürdü. Hərdən qəzəbim aşıb- daşırdı»…

…Bir müddət Balaş görünmür. Sonra məlum olur ki, Mərkəzi Klinikadadır… Xaricdəngəlmə təhlükəli virus (AİDS) daşıyıcılarının yerləşdirildiyi şöbədə ölüm ayağında olan Balaşı görməyə gedən Əsmər onun etiraflarını eşidir…

«…Balaş əlini tərpədib Əsmərin əlindən tutmaq istədi. Damarları çıxmış, bir dəri- bir sümük qalmış əlləri cansız taxta parçasına dönmüşdü. Astaca Əsmərin əlini sıxdı.

- Yadındadır, Samirin sənə bağışladığı hədiyyə… Əlvan metaldan, laləyəbənzər fiqur… mücründə saxlayırdın. Həmin hədiyyə sonra yoxa çıxdı.

Əsmər başını silkələdi, gözlərindən qopan yaş damlaları Balaşın əlinin üstünə düşdü. Balaş kövrəldi. «Görəsən, niyə ağlayır? Samirin hədiyyəsini xatırladığına görəmi, yoxsa bugünəcən ağlına gəlməyən günahını anlatdığıma görə?»

- Hə, həmin həədiyyə iş yerimdə, seyfdədir. Seyfdə bir sənəd də var. Seyfi sənin iştirakınla açacaqlar. O hədiyyəni təkcə sizin məhəbbətinizin xatirəsi kimi yox, həm də uğursuz ailə həyatımın şahidi kimi saxlayırdım.

Balaş qalxmaq istədi. Əsmər əlini onun boynunun arxasına dayaq elədi.

- Bəlkə qalxmayasan?

Başının işarəsiylə qalxmaq istədiyini bildirib, Əsmərin qolundan yapışdı. Əsmər ona söykək olub, qaldırmaq istəyəndə qollarını sıxan barmaqların boşaldığını, gözlərindəki işartının söndüyünü gördü və ehmalca yatağa uzatdı. Həyəcanlanmışdı:

- Balaş, Balaş!..

O artıq eşitmirdi. Açıq gözləri tavana zillənmişdi»…

Əsmər Sultanlı Balaşın qəbri üstünə Zahirlə birlikdə gedir. Və görür ki, Balaşın fotoalbomunda gördüyü gözəl qadınlar da buradadır…

Yazıçı bu məsələdə dərinə getmir, ancaq onu qınamaq da mümkün deyil; hər şeydən əvvəl ona görə ki, «dərinə getmək» sonsuz sayda süjetlərlə əsərin şaxələnməyi demək olardı… Ancaq bunu ustalıqla (incəliklə!) hiss etdirir…

«…Balaşın çalışdığı şirkətin məsul işçiləri Dövlət Notariat İdarəsinin nümayəndəsi ilə birlikdə Əsmər Sultanlını da Balaşın kabinetinə dəvət etmişdilər. Gələnlərdən çoxunun kimliyi bilinməsə də, onlar özlərini Balaşın qohumları kimi qələmə verirdilər.

Hamının iştirakı ilə Balaşın ölümündən bir neçə gün əvvəl özünün xahişi elə möhürlənmiş qapı, sonra seyfin xüsusi açarla bağlanmış kassaları açıldı. Dövlət Notariusunun təsdiq etdiyi rəngli sənəd yuxarıda, üst gözdə qoyulmuşdu. Sənədə əsasən Balaş şirkətdə payına düşən bütün varidatını balaca Samirə vəsiyyət etmişdi. Kiçik bir məktub da yızılmışdı: «Əzizim Samir, şübhəsiz ki, sən böyüyəndən sonra ömrü faciə ilə bitən bir insanın taleyi ilə maraqlanacaqsan. Ola bilər, anan da nələrisə sənə deməyi unutsun. Bil ki, olub- keçənlərdə özümü günahkar hesab etsəm də, ömrümün belə sonluqla bitməsində təqsirkar tək özüm deyiləm. Kimsəni ittiham etmək məqsədim də yoxdur. Çünki adını daşıdığın Samirin müqəddəs sevgisi günaha dönüb qarabaqara məni izlədi. Mən dərk etdim ki, sevgi olmadığı yerdə əsl həyat yoxdur. Mən sənin ləyaqətli bir insan kimi böyüməyini istəyirəm. Unutma ki, sənin həyatında ömürləri boyu bir- birinə qısqanclıqla, hətta nifrətlə yaşamış üç insanın payı var. Birincisi, adını daşıdığın Samirdir. Sən o adın əsl sahibinin kimliyini öyrənməli, onu yaxşı tanımalısan. O, gəncliyindən, Vətəndən «didərgin» olsa da, uzaqda yaşasa da, ləyaqətli insan kimi

yurdunu unutmayıb. Bir rəsam kimi yaratdığı lövhələrin çoxunda nakam sevgisinin obrazını yaratmağa çalışıb. Onun rəsmlərinə baxsan, ananın cizgilərini aydın görəcəksən. Bu məktubu qoyduğum seyfdə rəsam Samirin yaradıcılığını əks etdirən kataloq da var. Bunu Samirdən və məndən xatirə kimi saxlayarsan. İkincisi, mənəm, zənnimcə, mənim iztirablarımı da yaxşı başa düşəcəksən. Hər halda səni dünyaya gətirən qadın mənim arvadımdır. Onun vaxtından əvvəl tələf etdiyi uşağın həsrəti, ağrısı mənimlə birlikdə haqq dünyasına gedəcək. Anan sənin adını qoyanda mənimlə məsləhətləşsəydi, mən bu addan imtina etməzdim. Üçüncüsü, sənin genlərini daşıdığın Zahirdir. Mən öyrənmişəm, tale heç onun da üzünə gülməyib. Əgər mən məhəbbətin nə olduğun bilməsəydim, çox asanlıqla Zahirə öz gücümü göstərərdim. Ancaq günahkar bilmədiyim üçün ona toxunmadım. Sənə də arzu edirəm ki, genlərini daşıdığın insanın hörmətini bir övlad kimi həmişə əziz tutasan.

İnsan belədir, onun dünyaya gəlişində özünün rolu olmasa da, gedişin necə olacağı özündən çox asılıdır. Hər halda gələcəyini təmin edəcək maddi vəsaiti sənə hallallıqla verirəm. Kimin haqqında nə düşünəcəksən, bu, sənin öz işindir. Ananı sevən, insanları sevən və sənə inanan Balaş».

Bu məktuba görə nə Balaşı qınamaq, nə də ona haqq qazandırmaq mümkün deyil. Fikrimizcə, yazıçının məqsədi də elə budur ki, onun, mahiyyət etibarilə (klassik standartlara görə!), mənfi sayılmalı olan «Balaşını» oxucu «yeni dövrün hadisəsi» kimi başa düşsün… Çünki Balaş (burada Cəfər Cabbarlının «Sevil»indəki Balaşı da yada salıb müqayisə aparmaq yersiz olmazdı!) təsadüfi qəhrəman- obraz deyil.

Və bir məktub da Əsmərə yazılmışdı:

«Əzizim Əsmər, bu hədiyyə sənə bağışlansa da, sən onun sirrini dərindən bilməmisən. Əslində, həyat sənin üçün həmişə ala- toran olub. Bilməmisən ki, Tanrı sənin taleyini günün əvvəli yazıb, yoxsa axırı. İncimə, mənə elə gəlir, bu məktubu oxuyana qədər sən öz ömrünü ala- toranlıqda yaşamısan. Bunu isə bilmək vacibdir ki, ala- torandan sonra axşam düşür, yoxsa səhər açılır? Sən Samirin bağışladığı hədiyyəyə də diqqətlə baxmamısan. Əgər diqqətlə baxsaydın, görərdin

ki, qiymətli metaldan hazırlanmış lalə heykəlciyinin altında güclə nəzərə çarpacaq bir düymə var. Həmin düyməni basmaqla lalənin ləçəkləri aralanır, balaca heykəl fiquru görünür, onun altında isə təmiz qızıldan hazırlanmış ürək görünür. Ürək elə incəliklə heykəlin postamentinə birləşdirilib ki, lalə ayrılan kimi ürək titrəməyə başlayır. Zənnimcə, həyatın mənasını anlaman üçün o titrəyişlərə baxmaq, onu dərk etmək bəs edərdi.

Mən Samirlə Avropada görüşdüm. Hətta onun sərgisinin təşkil olunmasında da iştirak etdim. Məncə, biz bir- birimizi başa düşmüşdük. Doğrusu, heykəlin sirrini də mənə özü danışdı.

Əzizim Əsmər, sən Samiri ağıllı, ləyaqətli və sədaqətli övlad kimi böyüt. Onun yaxşı təhsil almasına kömək et. Gələcəkdə şirkətin idarə olunmasında özünü inamlı və güclü bilsin. Unutma ki, hər kəs öz sevgisinə ölənəcən sadiq olmalıdır. Sənin Samirə olan münasibətin dumanlı olmasaydı, bizim həyatımızda da bu faciələr baş verməzdi.

Bu dünyada hər kəs öz ömrünü yaşayır. Sən həkimsən, həkimlər təbiətən humanist olmalıdır. Heç olmasa, bundan sonra məni başa düşməyə çalış. Sənin Balaşın».

Balaşı başa düşmək məsələsində obrazın (və müəllifin!) israrı, artıq qeyd etdiyimiz kimi, təsadüfi deyil. Bu təvazökar (və mürəkkəb!) qəhrəman, fikrimizcə, yazıçının çoxsaylı maraqlı bədii kəşflərindən biridir.

… «Bu insani, bu həssas münasibətin, bu böyük səmimiyyətin qarşısında tərk- silah olmuş» Əsmər Sultanlı həyatının sonrasını fikirləşir. Və Zahirin aşağıda onu gözlədiyini xatırlayır…

Çox keçmir ki, Zahirlə Əsmər Sultanlı başqa bir faciə ilə qarşılaşırlar…

Zərnigarı təcili xəstəxanaya çatdırsalar da, onu xilas etmək mümkün olmur…

Əsmər Sultanlı öz tale hekayətini qurtardıqdan sonra Xəzəri tapacağına söz verir. Və sözünün üstündə dayanır…

Məlum olur ki, Sahil bağında sevgilisini – Xatirəni gözləyən Xəzəri narkomanlar əhatə edir, qəflətən gələn polis işçiləri həmin narkomanların sözünə

inanıb onu həbs edirlər… Günahsız yerə bir müddət həbsxanada yatan Xəzər Xatirə ilə əlaqə saxlaya bilməmişdi…

Əsmər Sultanlının tanışı olan polkovnik işə qarışır və Xəzərin günahsız olduğunu müəyyənləşdirir…

«…Polkovnik Xəzərin keçirdiyi psixoloji gərginliyi diqqətlə izləyirdi.

- Xəzər, sən gənc, qürurlu oğlansan, səni başa düşürəm. Mən bunları kiminsə xahişinə görə yox, sənin kimi gənclərin sınmaması, həyata, insanlara nifrət etməməsi üçün edirəm.

- Çox sağ olun, polkovnik. Söhbət mənim təcridxanada itən vaxtımdan getmir. İtmiş ömrümdən danışmıram. Siz bilirsiniz mən nə itirmişəm? – Xəzər əsəbiliklə yerindən qalxdı. – Sizin işçilərinizin səhvi nəticəsində mən məhəbbətimi itirmişəm!..

Polkovnik yaxına gəldi. Xəzəri qucaqladı. Nəvazişlə onu bağrına basdı:

- Məhəbbət ürəkdə olur, oğlum, ürəkdən isə asanlıqla heç nə düşüb itmir!..»

Əsərin sonunda Xatirə ilə Xəzər kimi Əsmərlə Zahir də bir- birinə qovuşurlar…

«… Əsmər xanım təəccüb dolu bir maraqla Zahirə baxırdı… O baxışlarda ancaq hər ikisinin başa düşəcəyi bir məna oxunurdu…

Sonra balaca süfrə düzəltdilər. Badələrə şərab süzüldü.

Zahir:

- Söz sənindi, Əsmər, - dedi.

- Hə, sən sözünü artıq demisən, qalmışam mən.

Əsmər əvvəlcə Samirə, sonra da Zahirə baxdı:

- Zahir, Samir istəyir ki, sən həmişəlik bizimlə yaşayasan…

Zahirin əlində badə titrədi. O, bu təklifi çoxdan gözləyirdi. Həyəcanlı idi. Kövrəlmişdi. Əyilib məhəbbətlə Samirin başını qucaqlayaraq saçından öpdü. Sonra badəsini yuxarı qaldıraraq titrək səslə:

- İçək…

Badələr bir- birinə yüngülcə toxunaraq cingildədi»…

Povest xoşbəxt sonluqla başa çatır, ancaq bu xoşbəxtliyə çatana qədər qəhrəmanların nə qədər bədbəxtliklərdən keçdikləri də gizlədilmir… Üç sevgidən biri – laqeydliyin, digəri taleyin zavalına gəlir, üçüncüsündə isə inam, etibar və inad (mübarizə) qalib gəlir. Və müəllifin də inandığı əsas mətləb, fikrimzcə, məhz bundan ibarətdir ki, insan ürəyinin (istəyinin!) arxasınca yorulmadan, bezmədən, hər cür maneələrə sinə gərərək getdikcə mənən, ruhən güclənir, bütövləşir və özünü təsdiq edir.

*

*     *

«Xəcalət» (2002) povesti Azərbaycan ədəbiyyatında Qarabağ mövzusuna həsr olunmuş ən təsirli əsərlərdən biridir.

Əsər Vətən adlı bir ailə başçısının öz ailəsi ilə birlikdə namərd düşmən həmlələrindən güc- bəla ilə xilas olaraq (əslində, buna xilas olmaq da demək çətin idi, çünki, yolda anası düşmən gülləsinə tuş gəlib həlak olmuş, onu qrad mərmisinin açdığı çalada dəfn eləmişdi) Bakıya gəldikdən sonra məhrumiyyətli bir həyat yaşamasını göstərən epizodlarla başlayır.

Hüseynbala Mirələmovun «Maşallahın paneli» hekayəsinin qəhrəmanı kimi Vətən də isti ocağını, dədə- baba yurdunu itirərək adət etmədiyi şəhər yerində min bir əziyyətlə – həm maddi, həm də mənəvi sıxıntılarla ailə saxlamalı, övlad böyütməli idi…

«…Vətənin ailəsi Qarabağdan gələndən sonra Bakıda – altıncı mikrorayonda tikintisi yarımçıq qalmış xəstəxana binasında özünə yer tapmışdı. Binanın beşinci mərtəbəsi tikilmədiyindən damı yox idi. Arvad- uşaq suyu həyətdən götürürdü. Pilləkənlərin böyrü bağlı deyildi, eyvan əvəzinə açıq panel vardı. Vətəngil üçüncü mərtəbədə cərrah üçün nəzərdə tutulmuş otağa yığışmışdı. O, öyrəşə bilmədiyi bu yeni mənzilin divarlarını suvamış, döşəməsinə linelium sərmiş, köhnə dəmir çarpayı da tapıb qoydurmuşdu. Aranı da həyətdə tikinti zamanı tökülüb qalmış kərpiclə hörərək iki otaq və bir ayaqqabı yeri düzəltmişdi. Bu ayaqqabı yeri həm

də mətbəx idi. Qaz xətti olmadığına görə, elektirik pilətəsindən istifadə edir, çay-çörəyi burada hazırlayırdılar.

Binada kanalizasiya xətti yoxuydu. Yay olanda başgicəlləndirici iy, ürəkbulandırıcı qoxu aləmi başına götürürdü. Yağış yağanda isə daha dəhşətli mənzərə yaranırdı, su mərtəbələrdən süzülüb zirzəmiyə qədər axırdı. Mənzillərin daman yerlərinə qab- qacaq qoyulsa da, faydasız idi»…

Məlum olur ki, Vətənin ailəsinin Qarabağdan didərgin salınması həmin ailənin mənsub olduğu nəslin tarixində ilk belə hadisə – köç faciəsi deyil…

«…Vətən Özbəkistanda doğulmuşdu. Bunun səbəbi də o idi ki, otuzuncu illərdə babası, bütün ailə üzvləri, qohumları ilə birlikdə Orta Asiyaya sürülmüşdü. Elə Fərqanə də qürbətdə dünyaya göz açmışdı. Fərqanə nəslin ağsaqqalı, sürgünün əsas «günahkarı» Qızıllı İsgəndərin bacısı nəvəsiydi.

İsgəndər kişi ağıllı adamdı. Qürbətdə də özünə güzəran qura bilmişdi. Qohumlarına ağsaqqallıq eləmiş, oğlunu böyüdüb evləndirmişdi. İlk nəvəsinə Vətən adını o qoymuşdu; bacısının nəvəsini – Vətəndən bir- iki ay sonra dünyaya gələn Fərqanəni Vətənə ad eləmişdi. Vəsiyyət eləmişdi ki, uşaqlar böyüyəndə məcbur eləməsinlər. Ancaq bir- birini bəyənib sevsələr, yaxşı olar. Nəslimiz itməz, yadlaşmaz. Əgər qismət olsa, zamanı gələndə vətənə dönərlər.

İsgəndər kişi canını oğluna, nəvələrinə tapşırıb, dünyasını dəyişdi. Stalin öləndən sonra repressiya olunanlara bəraət verildi. Sürgün ömrü qurtardı. Vətənin üç yaşı olanda ailəsi, qohum- əqrabası Azərbaycana – Qarabağa qayıtdı. Dədə-baba yurdunu abad elədilər»…

Vətən təsadüfən yolda vaxtilə Qarabağa çox gəlib- gedən dostu Muradla rastlaşır. Və Murad çoxdan görüşmədiyi dostunu tanıyır…

« - Vətən! Vətən! Ay Vətən!

Bu səsə diksinən çox oldu. Bu çağırışın bir də təkrar olunması adamların diqqətini cəlb elədiyi kimi, müraciətin qəribəliyi də çoxlarını ayaq saxlamağa məcbur elədi. Bəlkə də onların ağılna gəlmirdi ki, kimsə öz tanışını, Vətən adlı dostunu çağırır. Bir anlığa Murada elə gəldi ki, səhv salır. O, heç on il əvvəl tanıdığı, xətrini çox istədiyi Vətən deyil. Ya bəlkə heç onun adı Vətən deyilmiş.

«Bəlkə də yuxudayam, məni qara basır», - deyə düşündü. Sonra da özünü qınadı; bu boyda zarafat olmaz, özüdür ki, var. Maşının arxasında əyləşmişdi. İşıqforun qadağasından istifadə edib keçənlərə diqqətlə baxdı. Elə bu an küçənin qırağı ilə, üzü ona sarı gələn adamı gözü yenidən aldı. Bəli, bu, oydu, sifət cizgiləri, qırışları artsa da, bu, elə o idi. Hündür boyu, qıvraq yerişi, par- par yanan işıqlı gözləri sübut edirdi, Vətəndir ki, var. Bəs, tək- tənha hara gedir? Murad sualı özünə verdi. Ancaq Vətənin yenidən gözdən itəcəyini güman edib təzədən ona diqqət kəsildi.

Doğrudur, Vətənin köhnə nişanələrini zaman tamamilə saxlamamışdı. Dümağ saç- saqqal onu vaxtından əvvəl ahıllaşdırmış, dərd adlı məngənədə kifayət qədər sıxışdırmışdı. Bu dar məngənədə əriyib çöpə dönmüş, arıqlamışdı. Arıqladığı üçün boyu bir qədər də uzanmışdı. Türmədən yenicə çıxmış adama oxşayırdı.

Murad sonuncu dəfə səsinə güc vedi:

- Vətən!..»

Vətənin Muradla tanışlığının xüsusi tarixi vardı…

«…Vətən yadına salmaq istədi: Kənddən neçə gündür çıxıb? Kiminlə, necə, hansı şəraitdə?

Axı, deyəsən, heç kənddən yox, elə Xankəndindən gəlirdilər, özü də tək deyildi. Bakıdan gələn dostu ilə birlikdə Təşkilat Komitəsindən çıxıb, elə o dostunun maşını ilə Şuşaya gedirlər. O, Muraddır. Mürad ondan üç- dörd yaş böyük olar. Qarabağın azərbaycanlılar yaşayan kəndlərinə yanacaq gətirir, ətraf yaşayış məntəqələrinə tez- tez güzar edir. Təşkilat Komitəsi siyahı verib. Ayrı- ayrı kəndlərə ağ neft, benzin və digər zəruri yanacaq məhsulları həmin siyahı əsasında paylanmalıydı. Yanacağı yerlərə çatdıracaq adamların adları siyahıda göstərilmişdi. Qaraqışlaq kəndinin nümayndəsi Vətən idi. Vətən Ötərxan oğlu. Bu ad onun diqqətini cəlb elədi.

Vətən sənədlərə qol çəkdirib getmək istəsə də, buraxmadılar. Dedilər ki, Murad müəllim səni görmək istəyir. İlk tanışlıq buradan başladı.

Muradı Qarabağa bağlayan incə tellər vardı. Hər şeydən öncə, bu yerlərin ecazkar təbiəti, havası, suyu, adamlarının saflığı Muradı yerindən oynadırdı. Ona

görə Qarabağa yollananda ata yurduna gedirmiş kimi, bir hiss onun varlığına hakim kəsilirdi»…

Azərbaycandan alınması ərəfəsində Qarabağdakı sosial- siyasi, mənəvi-ideoloji vəziyyətin təsviri povesdə geniş yer tutur… Və yazıçı hər şeyi yerli-yataqlı təsvir etməklə geniş təfərrüata varır…

«Söhbətləşə- söhbətləşə kənddən xeyli aralandılar. Meşənin dərinliyindəki nəhəng daş kurqanlarının yanında ayaq saxladılar. Qonaqlar buradakı mənzərəni görəndə heyrətdən donub qaldılar.

Alı müəllim izahat verdi:

- Vətənin tarixçi, yazıçı dostlarının, demək olar ki, hamısı görüb bu abidələri. Tarixi qaynaqlara görə, qədim türk sərkərdələri bu kurqanlarda dəfn olunarmış. Türklər üçün sərhəd, sədd anlayışı qəbirlərin toxunulmazlığı ilə ölçülərmiş. Eyni ərazidə qırx kurqan var. Gördüyünüz Qırxqız dağının adı da bu mənbədən götürülmüşdür. Qırx oğuz sərkərdəsinin məzarlığıdı Qırxqızın ətəkləri. Dağın adı ilə bağlı başqa rəvayətlər də var. Deyilənə görə, xanın zülmündən baş götürüb, dağlara sığınan qırx qız ələ keçəcəklərini hiss edib, Tanrıya yalvarır ki, onları daşa döndərsin. Eyvazlı və Keçili zirvələrinin arasındakı qız heykəllərinə bənzər qayalar əfsanənin inanc qaynağıdır.

Murad söhbətə sualla başladı.

- Heyrət doğurur ki, qədim insanlar sal qayaları necə məharətlə cilalayıb, keçilməz sıldırımların üstünə nə ilə qaldırıblar? Hər kurqan bitkin, bənzərsiz memarlıq abidəsidir.

Vətən söhbətə qoşuldu:

- Bir neçə il əvvəl donuzlarını palıdlığa gətirən erməni kurqanların birinin üstündə xaç işarəsi döymüşdü. Ancaq cavabsız da qalmamışdı. Bizim cavanlar otunu- suyunu vermiş, iti öldürənə sürütdürmüşdülər.

Alı müəllimlə dörd il filologiya fakültəsində oxumuşuq. Azərbaycan tarixini də bir fənn kimi keçmişik. Di gəl ki, çox şeydən xəbərsiz qalmışıq. Ermənilər saxta, uydurma, əfsanə və nağıllar əsasında yaratdıqları «tarixi» donuzçusuna da öyrədir, süpürgəçisinə də»…

Yazıçı Qarabağda gedən «separatizm» hərəkatının köklərini göstərir… Və kifayət qədər müfəssəl şərh verməklə «münaqişə»nin haradan qaynaqlandığını, erməni- rus iddialarının hansı tarixi mərhələlərdən keçdiyini, Qarabağda hansı alçaqlıqlara, şantajlara, siyasi fahişəliklərə rəvac verildiyini bədii detallarla yanaşı konkret (publisistik) faktlarla da yada salır, təsdiq edir…

«…1967- ci ilin payızı, Sovetin mürəkkəb dövrüyüdü. SSRİ soyuq müharibənin qızğın cəbhələrində vuruşur, yalançı xalqlar dostluğu bütün dünyaya nümunə göstərilirdi. Hələ o zaman sovet rejimi, DTK ermənilərə güzəştə gedirdi. «Daşnaksütyun» partiyasının fəalları və liderləri Ermənistana sərbəst gəlib gedirdilər. Bu iş əsasən erməni kilsəsi Eçmiədzinin katalikosu II Vazgenin rəhbərliyi ilə həyata keçirilirdi. Xankəndinə turist kimi gələn livanlı daşnak liderləri buradakı partiya üzvlərinin gizli müşavirəsini Vilayət Partiya Komitəsinin birinci kitibi Melkumyanın kəndində – Xanabadda keçirdi.

- Bu nədir? – deyə, yerli fəalların üstünə çığırdı, - Azərbaycan mahnısı sizi də məst edib? Bir az da belə davam etsə, erməni körpələrinin laylasını da bu mahnı əvəz edəcək. Bəs, hanı sizin işiniz? Bu neçə ildə neyləmisiniz? Bu qədər pullar nəyə, hara sərf olunub?

- Cənab Muradyan, vəziyyət əvvəlki kimi deyil. İndi bizdə də artıq Vilayət Partiya Komitəsinin ikinci katibi rusdur. O da ki, hər şeyə nəzarət edir.

- Ay yekəbaş, - Muradyan hirslə, su qrafinini götürüb, stola çırpdı, - unutmusunuz ki, vəzifəsindən asılı olmayaraq, rusların hamısı bizim gələcək planlarımızdan xəbərdardır»…

«Daşnaksütyun» lideri son göstərişlərini verir…

«- Stepanakertdə, gözünüzün içində azərbaycanlılar meydan sulayır, - deyə o, çeşməyini taxdı, cibindəki bloknotunu çıxarıb vərəqlədi. Sonra höcələyə-höcələyə oxudu. – Burada Ərşad Qasımov, Eldar Zalıyev, Toğrul Mənzili adında üç ziyalı xüsusilə seçilir. Bu boylu- buxunlu millətçi türklər qızımızdan, gəlinimizdən də keçmir. Doğrudur, proqramımızda erməni qızlarının türklərə getməsi təqdirəlayiq hal hesab olunurdu. Artıq bu mərhələ sona çatıb. Nəyin

bahasına olursa- olsun, adlarını çəkdiyim adamları tezliklə aradan götürmək lazımdır»…

Məsələ burasında idi ki…

«Xankəndində Ərşadı, Eldarı, Toğrulu az adam tapılardı ki, tanımasın. Öz iradələri, cəsarətləri, ağıllı və qətiyyətli hərəkətləri ilə ermənilərin gözünün odunu almışdılar. Bakıdan dəvət etdikləri alim və yazıçıları tarixi yerlərə aparır, poeziya məclisləri qurur, vilayətdə yaşayan azərbaycanlıların haqqını- hüququnu qoruyurdular»…

Azərbaycanlı ziyalıları gözü götürməyən ermənilər, xüsusilə daşnaklar onları şantaj edib həbs eləyirlər. Sonra isə daha qəddar bir hadisə baş verir…

«…Bir azdan səs- küy yenidən gurlaşdı. «Caniləri gətirirlər, kənara çəkilin», - bunu şişman polis mayoru dedi. Sonra nə baş verdiyini dərk edə bilmədik. Həbsxana maşınının alova büründüyünü görəndən sonra azərbaycanlıların daha sıx yaşadığı Sabir küçəsinə qədər qaçdıq. Ermənilər hakimin saxta çıxardığı ölüm hökmü ilə guya razılaşmayaraq Ərşad müəllimi, Eldarı və Toğrulu maşının içində, milisin, prokurorun, vilayət partiya komitəsinin gözü qarşısında, günün günorta çağı beləcə od vurub yandırdılar»…

Erməni daşnaklarının bu hərəkəti ona görə cavabsız qalmadı ki, Dövlət Təhlükəsizlik orqanlarında o zaman gənc olsa da, vətənpərvər, uzaqgörən, müdrik bir azərbaycanlı - Heydər Əliyev vardı…

«…O vaxt Heydər Əliyev artıq Dövlət Təhlükəsizlik Komitəsinin sədri kimi, ermənilərin törətdiyi bu cinayətin açılmasına bilavasitə özü rəhbərlik etdi, günahkarın cəzalandırılmasına nail oldu. Azərbaycan respublikasına rəhbər seçiləndən sonra isə plenum çağırdı, vilayətdə erməni daşnaklarının törətdiyi vəhşiliyə siyasi qiymət verdi. Az vaxtda Xankəndində təzə ab- hava yarandı. İki xalq arasında millətçilik toxumu səpənlərin əksəriyyəti cəzasını aldı. Bir çoxu isə Ermənistana qaçdı və orada təbii ki, yüksək vəzifələr qazandı»…

Yazıçı Qarabağda – Xankəndində gedən ictimai- siyasi proseslərin təhlilinə geniş yer verməklə ayrı- ayrı insanların taleyinə, həyatına, məişətinə təsir edən məşum, gərgin, dağıdıcı hadisələrin haradan qaynaqlandığını, hansı mənfur

«iddialar»dan törədiyini, kimlərin günahkar olduğunu göstərməyə çalışır. Və buna nail olur…

Arkadi Volskinin Qarabağdan oyuncaq deputat seçkisində çıxış edən azərbaycanlının dilindən verilən aşağıdakı mətn- çıxış məsələnin mahiyyətini dəqiq izah etməklə xalqın mövqeyini ifadə eləyir…

«…Xüsusi İdarəetmə Komitəsinə gəlincə isə o, bic doğulmuş uşaqdır. Azərbaycan Konstitusiyasını kobudcasına pozan mərkəzin xalqımıza qarşı törətdiyi qəsddir. Bu, Dağlıq Qarabağı Ermənistana ilhaq etmək yolunda rus imperiyasının məkridir, Qorbaçovun hiyləgərcəsinə seçdiyi «dinc» yoldur. Xüsusi İdarəetmə Komitəsinin fəaliyyəti tezliklə dayandırılmalı, siz deputat seçilməməli, qısa müddətdə Azərbaycanı tərk etməlisiniz. Azərbaycan hökuməti xalqın, torpağın taleyini sizin kimi fitnəkarlara tapşırmaqla tarix qarşısında məsuliyyət və cavabdehliyini itirmişdir. Mən hamını – burada iştirak edən Tərtər, Zəngilan, Laçın, Qubadlı və Dağlıq Qarabağ əhalisinin nümayəndələrini seçkiləri boykot etməyə, fitnəkar Volskiyə səs verməməyə çağırıram.

Vəziyyətin gərginləşdiyini görən Ayaz Mütəllibov tribunaya yaxınlaşdı:

- Çox böyük ürək ağrısı keçirirəm. Mən fikrimi ifadə edə bilmirəm. Böyük siyasi intriqaya düşmüşük. SSRİ kimi qüdrətli bir dövlətə, Azərbaycana zərbə vurmaq istəyirlər. Vəzirovla mən indi özümüzü çox qınayırıq. Təəssüflə deyim ki, doğma torpağa gələ bilməmişik, bəlkə də ağciyərlik etmişik. Mən xahiş edərm ki, indiki vəziyyətdə bizə inanın. Volskinin boynuna çox ağır bir yük düşmüşdür. Gərək ədalətli hərəkət edək.

…Mütəllibov adamlara mərhəmət hissi yaratmaq məqsədilə özünü ağlayırmış kimi göstərərək, dəsmalı ilə gözlərini silərək sözünə davam etdi:

- Volski Moskvada deputatımız kimi, xalqımızın, dövlətimizin də adından danışmağa ixtiyarı çatsa, problemi bizsiz də yoluna qoya bilər. İnanız ki, Əbdürrəhman Vəzirovun da mövqeyi belədir. Odur ki, onun da adından bir daha xahiş edirəm, Qarabağın bizdə qalmasını istəyirsinizsə, Volskiyə etimad göstərin.

Bu məntiqsiz, rabitəsiz çıxışı eşitmək istəməyən, qəzəbindən cilov gəmirən şuşalılar və ətraf rayonlardan gələn nümayəndələr iclası tərk etdilər. Arkadi Volski

də, Ayaz Mütəllibov da başlarını əllərinin arasında sıxmışdılar. Biri Qorbaçova, digəri isə Vəzirova nə deyəcəklərini düşünürdü»…

Bu da azmış kimi, süni yaradılmış «vəziyyət»ə erməni «dığa»sı Zori Balayan nəzarət, hətta rəhbərlik etməyə çalışır. Və məlum olur ki, Azərbaycan rəhbərliyinin Dağlıq Qarabağ üzərində, faktiki olaraq, heç bir səlahiyyəti yoxdur…

«…Meydanı alqış səsləri bürüdü. Balayan əlinin işarəsi ilə sakit olmağı tövsiyə edib, ətrafdakıların heç birini saya salmadan ermənicə dedi:

- Ermənilər Vilayət İcraiyyə Komitəsinin binasına yığışsın. Elə bilirəm ki, orda Boris Nikolayeviçlə bir qərara gələ bilərik. Görürsünüzmü, indiyədək bizim, sizin cəsarət edib, dilə gətirmədiyimiz sözü «Dağlıq Qarabağ Respublikası» ifadəsini də birinci o işlətdi. Deməli, hər şey planlaşdırdığımız kimidir. Deməli, dağdan ağır kişi Moskvadan Stepanakertə elə- belə gəlməyib.

İzdiham ruh yüksəkliyi ilə deyilən yerə üz tutdu. Ayaz Mütəllibov çiyinlərini çəkib, Yeltsinə tərəf döndü:

- Boris Nikolayeviç, bu nə deməkdir? Necə yəni siz bir yerə, biz bir yerə?

Yeltsin əli ilə onu sakitləşdirməyə çalışaraq:

- Darıxma, hər şey yaxşı olacaq, - dedi.

Lakin Ayaz Mütəllibov onunla razılaşmadı. Yeltsinlə eyni səmtə addımlasa da, ermənilər onun qabağını kəsdilər. Ayaz hirslənib:

- Boris Nikolayeviç, - deyə sanki Yeltsini köməyə çağırdı. Yeltsinin iri, ətli sifəti və girdə göy gözləri həmişəkindən fərqli olaraq, soyuq və hissiz idi. – Hələlik, belə lazımdır, - deyə amiranə tərzdə əlini Ayaz Mütəllibova tərəf silkələdi və onun yanında dayanmış «Batya»ya göz vurdu.

Mütəllibov quruyub qaldı. Kim bilir, onun ürəyindən nələr keçdi? Bütün bu səhnələrə tamaşa edən Vətənin elə bil ona yazığı gəldi. Prezidenti öz ölkəsində nəinki sayır, hətta cındır əskiyə döndərirdilər»…

Azərbaycan Respublikası «rəhbər»inin nə ermənilər, nə də ruslar- SSRİ rəhbərliyi tərəfindən saya salınmamasının bir səbəbi onların «mərkəz»dən tam asılılığı idisə, digər səbəbi mənsub olduqları (və guya rəhbərlik etdikləri) xalqdan

tamamilə ayrı düşmələri idi ki, yazıçı həmin məqamların hər ikisini tarixi obyektivliyə sadiq qalaraq əks etdirir.

Ermənilərin günahsız insanlara qarşı törətdikləri amansız, qəddar hərəkətlər povestdə ürək ağrısı ilə təsvir olunur…

«…Qarşıda yerə sərilmiş adamlar görünürdü. Canavar birinə yaxınlaşıb iylədi. Sonra dal ayaqları ilə qarı Vətənə sarı sovurdu.

İndi Vətənin şüuru bütün gücü ilə aydın işləyirdi. Bu səhər qəribə görkəmi, qeyri- adi gəlişi ilə onun gücünü, qüvvəsini də artırmışdı. Əvvəl Vətənə bir anlıq elə gəldi ki, bu adamlar uzanıb, səhərin açılmasını gözləyirlər. Yaxınlaşanda bir-birindən ayrı düşmüş uşaq, qadın və qocaların meyitləri onu dəhşətə gətirdi. Əksəriyyəti tanıdığı həmkəndliləri idi. Meyitlər arasında Ermənistandan qovularaq Qaraqışlağa pənah gətirmiş yurddaşlarımız, Vətənin doğulduğu Fərqanədən didərgin salınmış məshəti türkləri də vardı. Və o, dəqiqləşdirdi ki, həmin gecə, anasını çay qırağında dəfn elədiyi gecə, yağılar adamları yolda haqlayıb, gülləbaran etmişlər. Şübhəsiz, heç bircə nəfər də sağ çıxmayıb. Qobuaşağı çay daşı kimi düzlərə səpələnmiş meyitləri elə bil Tanrı göydən yağdırmışdı. Vətən bir meyitə baxır, sonra digərinin yanına sürünürdü: «Bax, bu yəqin Fərqanədir, qucağında da Qəmxar. Bəs Didar hanı? Allah eləyəydi, barı Didar da yaxında olaydı. Yox, axı bu Fərqanə deyil, heç uşaq da Qəmxara oxşamır. Odur, xeyli aralıda üç uşaq, bir qadın, iki uşaq Fərqanəyə yaxındır. Biri aralıdadır. Hə, vallah, onlardır»…

Yazıçı davam edir…

«…Beş- altı aylığında olan toppuş uşağa güllə dəyməyib. Bəlkə də anası son nəfəsdə onu əmizdirmək istəyib. Bəlkə də, uşaq anasının soyumuş sinəsindən istədiyini özü axtarıb tapıb. Deyəsən, Həmid kişinin gəlini Sonadı. Bəs, Cabbar hanı? Bu da Allahverdi kişidir. Səksən yaşlı qoca hər yerdən əli üzüləndən sonra son ümidini zoğal ağacından düzəltdiyi çəliyinə bağlamış, onu doğma, əziz yadigarı kimi sinəsinə sıxmışdı.

Qəddarlığın, insafsızlığın həddi- hüdudu yox idi. Meyitlərdən bəzisinin başı kəsilmiş, gözləri oyulmuş, bəzisinin sifətində bıçaqla şırımlar açılmışdı. Burada

heç kimə – nə qocaya, nə hamilə qadına, nə körpə uşağa, nə xəstə anaya rəhm olunmuşdu. Bu, XXI əsrin astanasında erməni vəhşiliyinin növbəti mənzərəsiydi»…

Erməni vəhşiliyinin nəticəsi o oldu ki…

«…Vertolyot cəsədləri yerə endirən kimi yer- göy qopdu, vay- şivən sədaları ürəkləri dağım- dağım elədi, haray- həşir ətrafı titrətdi. Göz yaşını sel kimi axıdan kim, «qardaş, vay, belimi sındıran oğul, vay» deyib, ah- nalə səsinə güc verən kim, ağı çəkib «çeşməli, sulu dağlar»ı oyadan kim. Ağlamayan, mat- məəttəl bu mənnzərəini seyr eləyənlər də vardı. Bunlar el dərdinə sızlamayanlar, heyfslənib təəssüflənməyənlər, biganələr deyildi, sadəcə, dərdi içinə çəkənlər, baş vermiş hadisələrin ağırlığından özlərini itirmiş, donmuş, keyimiş adamlardı. Dərd, qəm- qüssə bu adamların bütün varlığına işləmiş, qəlbinin dərinliklərinə gedib- çıxmışdı. Qarabağ boyda dərdin yükünü yüzlərlə vertolyot daşıya bilməzdi, bu yük yalnız ürəklərə sığardı. Allahın yaratdığı insan ürəklərinə. Məhz elə həmin gün, həmin saat ZAMANIN nəbzi dayanmışdı, yalnız sinələrdə asılmış ürəklərin nəbzi sürətini artırmışdı. O gün bu sürət işıq sürətiydimi, yoxsa reaktiv təyyarənin sürətinə bərabər idimi? Kim bilir? Bircə həqiqət oydu ki, izdihamın gözünün qabağında, elə bu camaatın içindəkilərdən bəziləri bayılır, sarsıntıdan xoflananların ürəkləri parçalanır, dayanırdı»…

Balalarını düşmən gülləsindən, əsir düşməkdən qoruyaraq xilas olmağa çalışan ananın – Fərqanənin hissləri, düşüncələri olduqca təsirli verilmişdir…

«…Fərqanə çay aşağı gedirdi. Özü də heç bir yol- riz görmürdü. Elə gedirdi ki, sanki qabaqda etibarlı bələdçisi vardı və çay adlı bu bələdçi mənzil başına çıxmağa tam zəmanət verirdi.

Ay Allah, ona qanad verəydin, çəkəydi körpələri qucağına, uça- uça bu qan- qadalı yerlərdən baş götürüb gedəydi. İndi onun bircə simsarı varıydı. Bu axan çay. Bircə dağ çayı onu tək buraxmırdı. Vahimələnəndə öz şırıltısı ilə onunla yoldaş olduğuna, getdiyi yerəcən vəziyyəti nəzarətə alacağına Fərqanəni inandırırdı.

Didarın dizi daş- kəsəyə dəysə də, ağlamırdı. Uşaqlar bu axşam ağlamağı unutmuşdular. Gecənin vahiməsi, ölüm kabusu bu gecə çox şeyin rəngini

dəyişmişdi. Bu qaranlıqlarda yıxılıb, fəryad eləmək elə ölümün ağuşuna atılmaq demək idi. Həmin anların bir çox həqiqətləri vardı ki, başqa heç vaxt təkrar oluna bilməzdi»…

İş o yerə çatır ki, insanların sağlamlığı keşiyində dayanan həkimlərə də aman verilmir.

«… Xəstəxananın baş həkimi Qələndər bir neçə gün əvvəl Şuşadan dərman gətirməyə gedəndə ermənilər tərəfindən işgəncələrə məruz qalmış, bərk döyülmüşdü. Odur ki, heç kimə yardım göstərə bilmirdi. Xankəndindəki şəfa ocaqları da azərbaycanla xəstələri qəbul etmirdi. Burda çalışan tanınmış cərrahlar, terapevtlər döyülərək ağır xəsarət almış, vəhşiləşmiş separatçıların əlindən güc-bəla ilə özlərini Şuşaya, Ağdama çatdırmışdılar. Yüzlərlə erməni xəstəni həyata qaytaran Nizami həkimi isə xilas etmək mümkün olmamışdı»…

Ermənilərin qəddarlığı yalnız azərbaycanlılara deyil özlərinə münasibətdə də göstərilir… Və burada yazıçının obyektivliyi ilə yanaşı «məqsəd»ə çatmaq üçün hər cür vasitəni məqbul hesab edən erməni «iddia»larının iç üzü (murdarlığı!) ortaya çıxır…

«…İsti, bürkülü yay günü. Slavik daşnak liderinin əmrini dinləyib, bir xeyli yerindən tərpənmədi. Ətli üzünün əzələlərinin gərilməsi cavanın nə qədər tərəddüd etdiyini, qəlbində çağlayan hisslərin – məhəbbət və qorxu hissinin yol ayrıcında qaldığını sübut edirdi.

- Ay dığa, - deyə – mayor Panazyan stuldan qalxıb ona yaxınlaşdı:

- Ya onlar, ya biz. Ya yüz illər boyu qanımızı içən, bizi qapısında eşşək kimi işlədən türk, ya da doğma anan, biz!

Çiyni avtomatlı Slavik, nəhayət, başını qaldırıb, Panazyanın daşa dönmüş üzünə baxdı.

- Hə! – deyə mayor bağırdı. – Ya onlar, ya da biz. Seç! Ya ananı öldürməlisən, ya atanı. Get!

Rəngi qaralıb külə dönmüş Slavik otaqdan çıxdı»…

Yazıçının humanizmi özünü ermənilərə münasibətdə də göstərir – onun fikrincə, daşnakların öz məqsədlərinə çatmaq üçün hər cür qəddarlığa, alçaqlığa əl

atmaları heçdə bütün ermənilərə – erməni xalqına aid bir xüsusiyyət deyil. Ancaq onlar da daşnakların məkrindən, şantajından çəkinirlər.

Xalqını öz avantürist «arzular»ına qurban verməyə həmişə hazır olan daşnakları ifşa edən müəllif yazır…

«…Poylu uzun illər Bəddərə kəndində Vartanla dostluq eləmişdi. Ailəlikcə get- gəlləri vardı. Haykanuşun sarımsaqlı şorabasının, Vartanın tut arağının dadı damağından getməmişdi. Poylu vurduğu qabanları kənddə heç kəs yemədiyindən dərili- başlı Vartana göndərirdi. Axşam düşəndə öz evi kimi onlarda gecələyərdi. Vartan kolxozun köhnə QAZ- 51 markalı maşınının sürücüsüydü. Poylu otunu, odununu pulsuz- parasız daşıyardı. Vartanın on dörd- on beş yaşlarında Asmik adlı qızını görəndə «Mənim gəlinim necədir?», - deyə zarafatından qalmazdı. Zarafat da yavaş- yavaş ciddiləşirdi. Haykanuşla Zərif mehriban qudalar təsiri bağışlayırdı.

Poylunun böyük oğlu Mirzə Xankəndindəki Nizami adına 4 nömrəli orta məktəbin onuncu sinfində oxuyurdu, o, şənbə günü, dərsdən sonra avtobusla Vartangilə gələr, əksər vaxtlarda elə onlarda gecələyərdi. Cavanlar arasında pünhan bir sevgi başlamışdı. Asmik Azərbaycan dilində şirin bir ləhcə ilə danışırdı. Şərtləşmişdilər ki, Mirzə də erməni dilini öyrənsin. Asmik «Bahadır və Sona»nı Azərbaycan dilində oxumuşdu. Hərdən əsər barədə söhbət salanda Mirzə onun sözünü yarımçıq kəsər, «bu əsrin əvvəllərində olmuş hadisələrdi», - deyərdi. Asmik isə məktəbdə müəllimlərin danışdığından, Yerevandan gətirilmiş kinoların gizli nümayişindən, kənddəki ab- havadan üşənirdi. Mirzəyə açıq- saçıq deməsə də, istəklərinə qovuşa bilməyəcəklərinə eyham vururdu»…

Göründüyü kimi, daşnak «disharmoniya»sı gənclərin də taleyini «müəyyən edir»…

Xeyli dərəcədə avtobioqrafik səciyyə daşıyan Murad obrazı sənətkarlıqla işlənmişdir…

«…Həmin günlərdə Murad əksər adamların öz başını girlədiyini, necə deyərlər, hər kəsin öz papağını qorumağa çalışdığını görürdü. Söz yox, tarixi həqiqət bərpa olunmalı, zaman çalxalanmalı, durulmalıydı. Azadlıq ideyalarının

köpükləri üstə, kütlə psixologiyasının səfərbərliyi nəticəsində hakimiyyətə yiyələnmiş təsadüfi adamların əhatəsində məhz təsadüfi adamlar olmalı, iqtisadiyyatın bütün sahələrinə rəhbərlik də onlara tapşırılmalıydı. Əlbəttə, belə bir dövrdə Murad kimilərinin mükafatının nə olacağı qabaqcadan məlum idi. Mürad Qarabağda ezamiyyət günlərində çəkdiyi ağrılarını taleyin bu sınaq mərhələsində təzədən yaşayırdı…

Murad bu küçədə təsadüfi görüş zamanı Vətənin – başı bəlalar çəkmiş bu şəxsin önündə şax dayansa da, özünü mənən günahkar bilirdi. Neyləyəsən ki, bəzən insan öz ideyası uğrunda ölmək istəyir, amma ölə bilmir. Söz yox, insanın bu günahsızlığına görə, tarix həqiqət kitabını gələcək nəsillərin oxumasına fürsət verir. Bu, həyatın yazılmamış qanunudur.

Neçə il əvvəlki hadisələrin Vətənin yaddaşında yumaq kimi çözələnməsi və dözülməz ağrıları, sağalmaz yaraları ürəyində qalan o günləri yenidən yaşadırdı. Murad bir çox suallara sanki indicə cavab tapmışdı. Çünki həmin günlərdə hər kəs öz hayındaydı, adamlar biganələşmişdi»…

Hadisələrin mahiyyətinə varmağa, onları ümumiləşdirməyə və əsası, gələcək üçün zəruri nəticələr çıxarmağa çalışan müəllif davam edir…

«…Ölkənin taleyində yeni ab- hava duyulurdu. Azərbaycan öz müstəqilliyinə qovuşmaqdaydı. Doğrudur, bizi hər tərəfdən sıxan düşmən öz mövqeyini genişləndirir, mühasirə halqasını daraldırdı. Bəs bizi nə gözləyirdi? Bunu ancaq uzaqgörən adamlar söyləyə bilərdilər.

Murad bu düşüncələrində az qala bir qısqanclıq, bir qərəz gördü. Tez də «lənət şeytana» deyib, fikrindən daşındı. Axı, Vətən də, şair də, Teymurçin də həmin tarixin – həmin dumanlı tarixin kor- koranə gedişlərinin şahidləri, qurbanları idilər. O vaxt Azərbaycanda vahid liderə böyük ehtiyac vardı, çünki insanlar özlərinin bilmədiyi qarışıq hisslərlə yaşayır, sanki «bir dəli quyuya daş atır, yüz ağıllı çıxara bilmirdi». Cəmiyyət özü üçün içindən bəla yetirirdi. Bütün bunlar sonrakı ağrılı, əlbəttə, daha faciəli mərhələnin binəsini qoyurdu»…

Povest nikbin sonluqla bitir. Vətən ona yeni mənzil bağışlamış dostu Murada öz minnətdarlığını bildirməklə yanaşı çıxış yolunu da göstərir…

«…Murad, qardaşım, sənin bu yaxşılığını sözlə ifadə etmək çətindir. Rəhmətlik atam deyərdi ki, yaxşılığın dağlar qədər ağırlığı var. Hər kişi çiyinlərini onun altına verə bilməz. Amma sən öz böyük xeyirxahlığın və əməllərinlə bu səlahiyyəti qazanmısan. Bizə evin orderini gətirmisən, bu elə- belə, asanlıqla başa gələn məsələ deyil. Bəlkə də illərdən bəri növbəyə durduğun, yolunu gözlədiyin evdi. Ağayanalığını, nəcibliyini qiymətləndirməsək, günaha batmış olarıq. Bütün bu xeyirxahlığına görə, çox sağ ol. Ancaq bil ki, mənim o xəstəxana binasından çıxmağım üçün iki yol var. Biri Qaraqışlağa, Qarabağa gedir, digərinin səmti qəbirstanlığadır. Mürad, əzizim, özün də bilirsən ki, ölkədə mənim kimilərinin sayı bir milyondan çoxdur. Onların hamısına ev verməyin, sevindirməyin isə yeganə yolu Qarabağa QAYIDIŞDIR!»

«Cəza» (2005) povesti bütün etnoqrafik (milli) məzmun- mündərəcəsilə bərabər olduqca qlobal, ümumbəşəri bir mövzu- problemə həsr olunmuşdur.

Povestin ayrıca kitab halında nəşrinə yazdığı «Təbiətin intiqamı yaman olur» adlı ön sözdə akademik Bəkir Nəbiyev göstərir ki…

«…Bu bir həqiqətdir ki, yazıçı hər bir əsərini işləyib meydana çıxarmaq üçün geniş axtarışlar aparır. Həmin axtarışların mühüm bir qismi, əlbəttə, bədii axtarışdır. İkincisi və heç də birincisindən az əhəmiyyətə malik olmayanı isə bu bədii axtarışlara pərvəriş verən problemin müəyyən edilməsi, həyat materiallarının, təfərrüatlarının toplanıb araşdırılması, onların ümumiləşdirilib epik təhkiyənin mərkəzində qoyulması ilə şərtlənir. Bu keyfiyyət «Cəza» povestində özünün xüsusilə qabarıq təzahürünü tapmışdır»…

Akademik davam edir…

«…Ekoloji problemlər bu gün xüsusi aktuallıq kəsb etmişdir. Belə bir vaxtda «Cəza»nı yazıb nəşr etdirməklə H.Mirələmovun «yalnız bir yazıçı deyil, bir cəmiyyətşünas- mütəfəkkir kimi də irəli getdiyini» yazan AMEA- nın müxbir üzvü Nizami Cəfərov tamamilə haqlıdır (Bax: «Cəza» müəllifinə açıq məktub», «Kredo» qəzeti, 13 may 2006- cı il). Əsər ətrafında düşüncələr məni belə bir qənaətə sövq etdi ki, indi cəmiyyət bu dilemma qarşısında qalmışdır: ya ətraf mühitə məhvedici münasibətini davam etdirib öz oturduğu budağı kəsməklə öz

mövcudluğunu təhlükəyə məruz qoymalı, ya da öz evi, məskəni olan təbiətə, ətraf mühitə doğma övlad münasibəti göstərərək onu gözləyən fəlakətlərin qarşısını almalı, təbii ehtiyatlardan, sudan, meşələrdən, bitkilərdən, enerji ehtiyatlarından qədirşünaslıqla istifadə edib, müasir elm və texnikanın yaratdığı imkanlar əsasında onları bərpa etməli, daha da zənginləşdirməli, gələcək nəsillərə əlverişli vəziyyətdə təhvil verməlidir»…

Və belə bir nəticəyə gəlir ki…

«…Əlbəttə, müəyyən zaman keçəcək, yenə də insanlar buraya gələcək, cavan meşənin qoynuna çığınıb yaşayacaq, yaradacaq, təbiətdən yetərincə kam alacaqlar. Lakin onlar o qədər də uzaq olmayan keçmişdə baş vermiş bu müdhiş hadisəni də unutmamalı, təbiətə xəyanət etməməlidirlər. Axı, doğrudan da, təbiətin intiqamı yaman olur!..»

Hüseynbala Mirələmov povestinə müəllifi olduğu belə bir maraqlı epiqraf vermişdir:

İlahi, ağlımı alma əlimdən, -

Sənin qəzəbindən çox qorxuram mən.

Povest yalnız Çingiz Aytmatov üslubu ilə müqayisə edilə biləcək mükəmməl bir təsvir- təfərrüatla başlayır…

«Başı qarlı sıldırım dağların gömgöy ətəklərində – moruq, qarağat kollarının, küknar, palıd, vələs, fıstıq və cökə ağaclarının baş- başa verdiyi meşədə Tumaslar və Qanıqlar nəslinə mənsub iki canavar ailəsi yaşayırdı. Bura ov üçün münasib yer idi. Bu tərəflərdə tez- tez əlik və dağkeçisi sürülərinə rast gəlmək olurdu. Aşağılarda, ağacların daha sıx və hündür olduğu yerlərdə maral da gözə dəyirdi. Yamyışıl otların, rəngbərəng çiçəklərin dizdən yuxarı qalxdığı talalarda isə nə qədər desən dovşan görmək olardı. Ancaq ins- cins həniri duyulmayan bu məkan təkcə Tumaslar və Qanıqlara məxsus deyildi; ətraf digər heyvanlarla – pələng, ayı, qaban, tülkü, çaqqal, porsuq, vaşaqla dolu idi. Bu isə, əzəli və əbədi rəqiblər arasında çox vaxt ölümlə nəticələnən döyüşlərə səbəb olurdu.

Bir an da olsun səngiməyən düşmənçilik, intiqam hissi ən çox əldən düşmüş, qocalmış heyvanların, gözləri hələ tam açılmamış südəmər balaların həyatı üçün

təhlükə yaradırdı. Belə qorxu, səksəkə içində həyat sürən Tumaslar və Qanıqlar üçün dünyaya bala gətirmək, nəsli davam etdirmək çətin idi.

Tumaslar və Qanıqlar hər dəfə ova gedəndə balalarını qaramtıl, selikli burunları ilə imsiyə- imsiyə, sulu dilləri ilə yalaya- yalaya bir yerə yığırdılar. Doyunca əmizdirirdilər ki, şirin- şirin yatsınlar – yuvadan kənara çıxmasınlar. Əcdadlarından miras qalmış bu instinkt özünü doğruldurdu»…

Lakin bir gün…

«…Tumaslar və Qanıqlar ovdan qayıdanda yuvalarının ağzındakı otların yaprıxdığını görüb, nə isə, xoşagəlməz bir hadisə baş verdiyini hiss etdilər. Dərhal içəri cumdular və gördükləri mənzərədən dəhşətə gəldilər; balalarından ikicəciyi – Tumasların qızı Ayçən və Qanıqların oğlu Köysərək salamat qalmışdı. Bu – fəlakət idi!

Bədheybət varlığın – bəbirin amansız həmləsindən birtəhər yayınaraq yuvaya təpilməyə macal tapan Köysərək və Ayçən qorxularından küncə sıxılmışdılar, zingildəyirdilər. Ata- analarının gəldiklərini görən kimi sakitləşdilər.

Həmin gecə Tumaslar və Qanıqlar elə yuvalarının ağzındaca üzlərini aylı-ulduzlu göy qübbəsinə tutub səhərə qədər uladılar. Bu, həm nisgil və çarəsizlik, həm də intiqam harayı idi»…

Köysərəklə Ayçən böyüyürlər. Və böyüdükcə də təbii bir instinktlə ata-anaya – ailəyə çevrilirlər…

«…May ayının əvvəlləri idi. Havada yüngül sazaq hiss olunurdu. Nəhəng palıd ağacından azca araldıa tikilmiş «Palıdlı» restoranının xidmətçiləri otaqları sahmana salır, sobaları yandırır, uzun, enli manqallara kömür tökürdülər. Aşpazlar iri kötüklərin üstündə ət doğrayırdılar.

Tülkü Qasım çöldə, balaca kətilin üstündə əyləşib, fikir- xəyal içində çay içə- içə gözünü alaqapıya zilləmişdi, müdiri Ağaləlіni gözləyirdi. Axşam ağlına gəlmiş «yeni layihə» haqqında ona məlumat vermək istəyirdi»…

Tülkü Qasımın «yeni layihə»si də özü kimi nanəcibdir…

« - Ağa, sən bizim camaatın necə küyə getdiyini, buna necə «xəstə» olduğunu yaxşı bilirsən. Küçədə iki adam mübahisə etsin, iki maşın bir- birinə toxunsun, ya da küçədən əcaib bir heyvan keçsin…

Tülkü Qasımın sözünü yarımçıq kəsdi:

- Hə, nə olsun e?..

Lakin Türkü Qasım da Tülkü Qasım idi. Əl çəkmədi:

- Ağa, qadan alım, bir səbrin olsun, axıra kimi qulaq as. İstəyirsən çıxım gedim, heç danışmayım. Sənin dərdin mənim dərdim deyilmi? İkimizin də çörəyi buradan çıxmırmı?

Ağalələ dişlərini ağartdı:

- Yaxşı, yaxşı, bir az qısa elə, ürəyimi üzmə.

- Baş üstə. Xeyli vaxtdı bu Şiş qaya tərəfdə yekə bir canavarı addım- addım güdürəm. Amma yaman bicdi, nə qədər əlləşirəmsə, tuta bilmirəm. Özümü tanıyandan ovçuluq edirəm. Belə bic, ayıq heyvana rast gəlməmişəm. Keçən yaz yuvasının yerini nişanlamışdım, duyuq duşdu, başqa yerə köçdü. Ancaq hərifin xəbəri yoxdu ki, təzə yuvasının da yerini öyrənmişəm.

Tülkü Qasım udqunub bir anlıq susdu. Sanki təklifinin – «yeni layihə»sinin müdirin xoşuna gəlib- gəlməyəcəyindən ehtiyat edirdi.

- Hə, sonra? Keç mətləbə.

Tülkü Qasım Ağalələnin kinayə dolu səsindən səbrinin tükəndiyini hiss etdi.

- Deyirəm, uşaqları götürüm, onu tora salaq, gətirib burada qəfəsdəcə saxlayaq. Vallah, Ağa, camaat eşidib, sel kimi axışacaq.

Ağalələ qışqırıb, «məni ələ salırsan, nə qəfəs, nə canavar?» demək istədi. Amma bu sözlər boğazında ilişib qaldı»…

Yazıçı meşələrin amansızcasına qırılmasını, təbiətə divan tutulmasını, insanlardan başqa bütün canlıların perik düşməsini həssaslıqla təsvir edir…

… «Palıdlı» restoranı yavaş- yavaş işləməyə başladı. Bir az aralıda, heç kəsin ayaq basa bilmədiyi meşədə kəsilmiş nəhəng- nəhəng ağaclar bir ucdan satılırdı. İş o yerə çatmışdı ki, əli dəhrəlilər doğranmış qarağac, gilas, tut, ulas, vələs, palıd, fıstıq, cökə ağaclarının nazik budaqlarını, şivlərini də qırırdılar.

Yamyaşıl körpəcə budaqları əvvəlcə gün döyən yerlərdə qurudur, sonra dərz kimi bağlayıb, üst-üstə yığırdılar. Məhv olmuş ağacların kötüklərini çıxarır, yonqar və yaxud kəpək kimi kisələrə doldurub harasa göndərirdilər. Meşə biçilir, çölə-biyabana, səhraya çevrilən lüt- üryan sahələr «Palıdlı» restoranının həyətində «Mersedes»dən düşən zırpı qoçuların ülgüclə tərtəmiz qırxılmış başlarını xatırladırdı…

Nəhəng gövdəli, örkəndolanmaz qoz, şabalıd, palıd ağaclarını elektrik mişarı ilə kəsə bilməyəndə diblərini azca oyur, sonra altına aminal- fitil qoyub partladırdılar. Yaşı yüzü adlamış azman ağaclar bir anın içində saçaqlı kökləri ilə birgə göyə qalxır, ağır- ağır böyrü üstə düşürdü.

Ağzı ovxarlı dəhrələrin, baltaların taqqıltısı, motorlu mişarların ətürpədici uğultusu dörd yanı lərzəyə salırdı. Sərt meşə yollarında nərildəyən ağır yük maşınlarının səsboğanlarından çıxan acı tüstü ətrafa yayılır, tərtəmiz, saf havanı zəhərləyirdi. Meşədəki canlıların əksəriyyəti fəlakətdən yaxa qurtarmaq üçün qorxu içində dağlara çəkilmişdi. Bu qovhaqovda, bu qaçaqaçda nə isə anlaşılmaz, anlaşılmaz olduğu qədər də müdhiş bir şey var idi. Sanki dünyanın axırı idi, insanların qəlbinə şeytan girmişdi»…

İnsanların əməllərini, yazıçı tamamilə doğru fikirdədir ki, yalnız şeytan əməli hesab etmək olardı… Çünki…

«…Meşələr doğrandıqca canavarlar öz yurd- yuvalarından qaçaq düşüb çılpaq dağlara sarı qalxırdılar. Onlar yeni məskənlərində xırdaca kolların arxasında daldalanır, mizan- tərəzi pozulduğundan tez- tez bir- biri ilə boğuşurdular. Düzdür, ov sarıdan korluq çəkmirdilər. Amma hiss olunurdu ki, dünyaya göz açdıqları gündən bəri mehr saldıqları meşədən xeyli aralıda qazdıqları təzə zağalarda yaşamaq o qədər də ürəkaçan deyil. Canavarlar ikiayaqlı məxluqların günbəgün onlara yaxınlaşmasından narahat olur, balalarının ayaq açmasını gözləyir, sonra da uzaq dağlara çəkilmək istəyirdilər»…

Tülkü Qasım özündən də böyük «tülkü» olan Ağalələyə vəd etdiyi «yeni layihə»sini həyata keçirmək üçün başının dəstəsiylə Köysərəklə Ayçənin izinə düşür…

«…Güllələr yağış kimi yağır, Köysərəklə Ayçənin yan- yörəsində torpaq göyə sovrulurdu. Adamların qışqırığı, haray- həşiri dörd bir yana yayılırdı. İtlər hürüşə- hürüşə canavarları əhatəyə almağa çalışırdılar. Köysərək qəfildən onlara sarı sıçradı, dişlərini qıcayıb dayandı. Zəhmli görkəm aldı. Canavarın nə qədər vahiməli və bədheybət olduğunu görən itlər quyruqlarını qısaraq geri çəkildilər. Köysərək Ayçəni qabağına qataraq, qarşıdakı dağa sarı qaçmağa məcbur etdi.

Dəmir, barıt qoxusu verən məxluqlar onlara çatıb, daha ucadan hay- küy salmağa, güllə yağdırmağa başladılar. Ayçən balalarına olan sevgisindən qəfil zağaya tərəf qaçdı, çətinliklə də olsa, özünü içəriyə təpdi. Köysərək çaşıb qaldı. Nə fikirləşdisə, bir göz qırpımında gözdən itdi.

Köysərək yalı aşanda Tülkü Qasım yəqin etdi ki, yalquzağı heç vaxt diri tuta bilməyəcək. Ona görə də belə qərara gəldi  ki, onu güllə ilə vursun. Çox gözəl dərisi var idi, yaxşı pula gedərdi»…

Özünü balalarının olduğu yuvaya salmış Ayçəni çıxarıb tutmaq, balalarını isə aparıb satmaq ehtirası ilə yanan Tülkü Qasım yuvaya tüstü buraxmaq göstərişi verir…

«…Ayçən tüstünün içəri dolduğu girəcəkdən ayaq səslərinin kəsildiyini hiss edəndə, bədheybət məxluqların yuxarıdakı  çıxışın ağzına yığışdıqlarını düşündü. Tüstüdən gözləri göynədi. Balalarından birini ağzına alıb, bayıra sıçradı. İçəridəki acı tüstüdən sonra çölün təmiz havası başını gicəlləndirdi. Elə bu zaman belinə, başına nəyinsə düşdüyünü hiss elədi. Ancaq  geriyə qayıtmadı, var gücüylə irəli cummaq istədi və qəfildən üstünə atılmış tora ilişib yıxıldı. Balasını buraxıb dişləri ilə  torun iplərini didişdirib qırmaq istəyəndə əli şanalı, yabalı, dəyənəkli, tüfəngli məxluqlar başına- gözünə, qarnına,qıçlarına zərbələr endirdilər. Həmin güclü zərbələrdən biri də torun içində çapalayan balasına dəydi. Ayçən var gücü ilə dartındı, tordan çıxmaq istədi, lakin bacarmadı. Bədheybət məxluqlar, ürəkləri hələ də soyumayıbmış kimi Ayçəni, onun balasını ağacla, təpiklə, yabayla döyəcləyirdilər»…

Tülkü Qasımın vəhşiliyi o həddə çatır ki, hətta vəhşi heyvan təbiətilə belə müqayisəyə gəlmir. Yazıçı insanın ruhən, daxilən nə qədər insanlıqdan çıxdığını,

mərhəmət hissindən məhrum olduğunu  və «manqurtlaşdığını» bütün təfsilatı ilə göstərməkdən çəkinmir…

«…Tülkü Qasım cibindən çıxardığı ipi odunçu Bəşirə uzadaraq:

- Əllərini, ayaqlarını bərk- bərk bağla! – dedi.

Sonra hövlnak yuvaya girdi. İçəridə nəfəs almaq mümkün deyildi. Adam boğulurdu. Tez- tələsik bayıra çıxdı. «Yəqin ki,  hamısı boğulub», - deyə təəssüflə düşündü.

Ayçənin tora düşdüyünü, qıvrıla- qıvrıla çapaladığını görən itlər dörd bir yandan irəli soxulur, qəzəb və hikkə ilə ağız- ağıza verib hürüşürdülər. Amma Ayçən hər dəfə torun içində çapalayanda qorxularından dərhal  geriyə çəkilir, adamların arasına girirdilər.

Köysərək yuvalarından çox da uzaqda olmayan  qara qayanın üstündə dayanıb bu zalım, insafsız məxluqların törətdikləri əməllərə baxırdı. Sanki ulartısı qeybə çəkilmişdi. Özü də təəccüb və heyrətdən yerində donub qalmışdı. Bu ağlagəlməz əzazillik və qəddarlıq nitqini batırmışdı»…

Xəyalında canlandırdığı bu qeyri- adi mənzərədən vəcdə gələn yazıçı özü də hiss etmədən «mətn»dən kənara çıxır…

«…Daşa dönmüş Köysərək və onun qayalarda əks- səda verərək daşlaşmış lal harayı… Mahir bir rəssamın ecazkar fırçası bu mənzərəni çəkə bilsəydi, yəqin ki, bu nadir bir sənət əsəri olardı. Kim bilir, bəlkə də bu sənət əsərini Tanrı özü yaradacaq… Dağların, qayaların qoynunda, səmanın çat- çat olmuş ürəyində əbədi yaşadacaq»…

Və yenidən «mətn»ə qayıdır…

«…Köysərək hücum etmək, döyüşmək, lazım gələrsə öz sevimli Ayçəni ilə birlikdə ölmək istəyirdi. Lakin buna yuxarı yarğandakı sığınacaqda gizlətdikləri iki balasının taleyi mane olurdu. Axı ata- anasız onlar nə edə bilərdilər?..»

Köysərəyin «ailə»sinə namərdcəsinə qəsd edən Tülkü Qasım nə qədər mahir (və şərəfsiz!) ovçu olsa da, canından üşütmə keçir…

«… O, aradabir Ayçənin halsız cəmdəyini sürütləyən yoldaşlarına kömək etsə də, gözünü bir an da olsun ətrafdan çəkmirdi. Köysərəyin qəfil hücum

edəcəyindən qorxurdu. Buna görə də tez- tez qanrılıb arxaya baxırdı. Odunçu Bəşir, balıqçı Yədi, kömürçü Xıdır Ayçəni yük maşınının içinə atan kimi o, tələsik sürücünün yanında əyləşdi. «Palıdlı» restoranına çatana kimi sürücü Tülkü Qasımı söhbətə tutmaq istəsə də, bacarmadı. İndi onu fikirdən, xəyaldan ayırmaq çətin idi.

Tülkü Qasım qəsəbənin lap uzaq məhəlləsində bir yanı çöllüyə söykənən, hələ də hasara alınmamış evini, adda- budda ağac əkilmiş həyətini gözünün qabağına gətirir, xoflanırdı. Qaranlıq gecələrin birində evlərindən aralıda Köysərəyin həyətin, demək olar ki, qurtaracağındakı ayaqyolundan çıxan arvadını, ya da madar oğlunu parçalayacağını gözünün qabağına gətirib vahimələnirdi…

Yazıçı göstərir ki, yerindən- yurdundan didərgin düşən yalnız heyvanlar deyil, yaxındakı bulaq da vaxtilə qaynadığı yerdən «qaçıb», suyu azalıb…

«Palıdlı» restoranından azca yuxarıda, budaqlarında quşların yuva qurduğu nəhəng palıd ağacının dörd dövrəsindəki hektara yaxın sahədə ucdantutma doğranmış ağacların kötükləri şər qarışanda kimsəsiz, qədim qəbirstanlığı xatırladırdı. Hələ parket sexi işə düşməmişdən, Ağalələ müxtəlif yerlərdən gəlib burada istirahət etmək istəyənlər üçün kotteclər tikdirmək üçün meşənin bu hissəsini ucdantutma qırdırmışdı. Yamyaşıl yamacda göz- göz yığılmış çınqıl topaları uzaqdan diqqəti cəlb edirdi. Yaşı bəlkə min ildəndə çox olan, üstü mamırlanan, azca göyə çalan bu nəhəng çınqıl topalarının meşənin ortasında «zühur etməsi», dünyanın ən anlaşılmaz sirlərindən biri idi. Çınqıllığın qurtaracağında baş- başa vermiş qoşa qayanın altından pıqhapıq çıxan bulağın buz kimi sərin suyu, az qala arx idi.

Bulaqdan azca aralıdakı qocaman ceviz ağacını kəsməyə gücü çatmayanlar onun dibinə aminal qoyub partladanda bulaq sanki diksinərək qorxmuş, bəlkə də küsüb səmtini dəyişmişdi. Sonralar yan- yörəsi nə qədər qazılsa da, izi- tozu tapılmamışdı… Günlərin bir günü qəsəbə əhli «Palıdlı» restoranından xeyli aralıda, bütöv sal qayanın üstündən süzülüb axan suyu görəndə başa düşmüşdü ki, bu həmin Çınqıllı bulaqdır. Amma partlayışdan qorxub, axdığı yerdən «qaçan» bulağın əvvəlki gücü qalmamışdı, suyu azalmışdı. Bu su bəzən hanaya düzülmüş

iplər kimi saçaq saçaq süzülür, bəzən də damcı- damcı dərin uçurumun aşağısındakı yaranmış dupduru gölə tökülürdü»…

«Ailə»sindən ayrı salınmış Köysərək tək qalmışdı. Və o, insan deyildi ki, təkliklə barışsın…

«…Üç gün idi Köysərəyin nisgil dolu ulartısı kəsilmirdi. Ayçənin heyi çatmırdı ki, öz sədaqətli cəfakeşinin səsinə səs versin. Ürəyində tufanlar qopur, sellər aşıb- daşırdı. Amma bu fırtına onun taqətsizlikdən doğan ahlarında əriyib itirdi. O, dördüncü gün bütün gücünü toplayaraq, tək qalmış tayının dağlardan, meşələrdən qopub gələn ulartısına cavab verdi.

Köysərək bir az sakitləşdi, ulartısı yaz dumanı kimi çəkilib getdi»…

Ayçəni «Palıdlı» restoranında qəfəsə salırlar ki, müştərilər çoxalsın… Ancaq Ayçən Köysərəyini (və balalarını) gözləyir…

«…Qəsəbədən aralıdakı qədim qəbirstanlığın başdaşılarını xatırladan kötüklərin arasıyla sinə- sinə yeriyən, gözləri par- par parıldayan bir canavar peyda oldu. Gözətçi Murad kişi onu görən kimi canından güclü bir üşütmə keçdi. Bu üşütmənin ardınca qulaqlarında uğultu qopdu. Gözətçi Murad kişi bu uğultunun qorxudanmı yarandığını, yoxsa yaxınlıqdakı nəhəng palıdın yarpaqlarının xışıltısındanmı gəldiyini ayırd edə bilmədi. Bədheybət canavar səssizcə gəlib, palıd ağacının altında dayandı, başını sağa- sola çevirib havanı iylədi, sonra dəmir qəfəsə sarı getdi. Gözətçi Murad kişi ağacın altından ay işığına çıxan canavarın ağzında nəsə tutduğunu gördü. Artıq ona hər şey aydın idi: boz erkək canavar dəmir qəfəsə çatan kimi, balasını ehmalca yerə qoydu, əvvəlcə öz tayı ilə ağız- ağıza öpüşdü… Sonra qəfəsin üç tərəfinə , bir tərəfi divar idi, hərləndi, ayaqları üstə qalxıb, əllərini qəfəs boyu gəzdirərək boş, açıq yer olub- olmadığını yoxladı.

«Palıdlı» restoranının həyətinə yağışmış itlər hənirti duyub hürdülər, sonra irəli cumdular. Boz, erkək canavar onların üstünə necə şığıdısa, hamısı özünü dərəyə atdı, zingildəyə- zingildəyə qaçıb künc- bucaqda gizləndi»…

Köysərək ağzında gətirdiyi balasını əmizdirmək üçün qəfəsdə olan anasına – Ayçənə çatdırır…

Və bu məqamın təsvirində yazıçının qələmi, həqiqətən, böyük bir rəssamın işini görür…

«…Boz, erkək canavar isə qəfəsin qapısının altını eşməyə başladı. Dişi canavar da birdən- birə cana gəldi, gah dəmir qəfəsi, gah da ayağının altındakı taxtanı cırmaqladı. Dişi canavar qəfəsin o üzündə acından can verməkdə olan balasını görüb acı- acı zingildədi, qeyri- ixtiyari özünü dəmir qəfəsə vurdu. Amma dəmir qəfəs çox möhkəm idi. O, yalvarıcı baxışlarla boz, erkək Köysərəyinə baxdı və onun gözlərindən nə oxudusa, bir az sakitləşdi. Boz, erkək canavar dişi canavarın təlaşlarına son qoymaq, onu balası ilə qovuşdurmaq üçüq qəfəsin qapısının ağzını cəld qazmağa başladı. Təngənəfəs halda havanı iylədi, təhlükə hiss etmədiyi üçün təzədən torpağı eşib, çalanı dərinləşdirdi və balasını ehmalca ağzına alıb, çaladan içəri saldı. Dişi canavar başı ilə qəfəsin qapısını azca itələyərək, balasının boynundan yapışdı, başdan- ayağa yaladı, sonra çətinliklə də olsa, onu əmizdirdi. Dəmir qəfəsin çölündə şöngümüş boz, erkək canavara baxdı və razı halda yazıq- yazıq zingildədi.

Balasını xilas etdiyinə görə xoşhallanan boz, erkək canavar əllərini yerə vurub, mırıldaya- mırıldaya qəfəsin qapısına yaxınlaşdı, dişi canavarın ağzında gətirib çalaya saldığı balasını götürdü. Sonra da ayın dağların arxasına çəkildiyi və dan yerinin yavaş- yavaş ağarmağa başladığı bir vaxtda başıkəsik kötüklərin arası ilə üzüyuxarı qalxıb gözdən itdi»…

Təbitəin bu möcüzəsi (faciəsi!) cəmiyyət üçün də maraqlı (və əyləncəli!) görünür…

«…Boz, erkək canavarın balasını gətirib qəfəsə salması, dişi canavarın onu əmizdirməsi, sonra da balasını özü ilə götürüb aparması haqqında deyilənlər bir günün içində nəinki qəsəbəyə, hətta ucqar kəndlərə də yayıldı…

Ağalələ bu xəbərdən çox məmnun oldu. Düşündü ki, lap yalan, uydurma da olsa, cəlbedici xəbərdir. İldırım sürəti ilə hər tərəfə yayılacaq, eşidib- bilən də axışıb gələcək.

Tülkü Qasım da bu əhvalatdan xəbər tutanda bərk sevindi, necə deyərlər, lap «çiçəyi çırtladı». O, canavarın sağ qalan balasını da ələ keçirmək barədə düşünür,

planlar cızırdı. O, hər şeyi öz gözləri ilə görmək üçün elə həmin axşam damın üstündə pusqu qurdu və bütün gecəni səhərəcən yatmadı. «Bu siqaret işi korlaya bilər. Ağzıyanmış iyi o saat alır», - deyə fikirləşdi, cəmi- cümlətanı bir- iki gilə siqaret çəkdi.

Gecənin bir aləmində tappıltı eşitdi, gözlərini açdı, Zolaqlının gəldiyini gördü, alacalanmış gözlərini ovuşdurdu. Doğrudan da, bu yuxu yox, həqiqət idi. Özü ilə tüfəng götürmədiyinə görə bərk heyfsləndi»…

İş o yerə çatır ki, «Palıdlı» restoranını yanındakı yeganə palıdı «alan» müştəri də peyda olur…

Tülkü Qasım yuxu görür…

«…Tülkü Qasım döngəni burulanda qəfildən arıq, ac- yalavac canavarla üz- üzə gəldi. Əlini cəld çiyninə atdı, tüfəngi yoxa çıxmışdı. Ora- bura baxdı, canını qurtarmaq üçün dırmaşmağa ağac axtardı. Ətrafda nə qədər palıd, vələs, cökə vardısa dibindən kəsmişdilər. Heç olmasa, kiçik bir dəyənək, ya da balaca bir daş… Əlini nəyə atmaq istədisə, boşa çıxdı. Qaçmaq istədi, bacarmadı, canına qorxu düşdü, vahimələndi.

Canavar şöngümüşdü, içini çəkə- çəkə zülüm- zülüm ağlayırdı. Niyə, nədən ötrü, bilmək olmurdu. Beləcə, aradan xeyli vaxt keçdi. Nəhayət o, yerindən qalxıb Tülkü Qasımın yanına gəldi, uzun, qırmızımtıl, sulu dili ilə onun üz- gözünü, əllərini yaladı. Tülkü Qasım bu buz kimi soyuq, xoşagəlməz təmasdan diksindi, amma nə illah elədisə tərpənə bilmədi, maddım- maddım canavarın gözlərinin içinə baxdı. Və birdən dəhşətə gəldi; suyu hələ tam qurumamış, qüssə və nisgil dolu bu bir cüt gözün dərinliyində süddən hələ tam kəsilməmiş bapbalaca canavar balaları bir- birilə pəncələşə- pəncələşə, süpürləşə- süpürləşə şad- xürrəm oynaşırdılar. Birdən nə oldusa canavar balaları pərən- pərən düşdəlr, təlaş içində ora- bura vurnuxmağa başladılar. Bundan sonra, elə bil, canavarın gözləri göl kimi bulandı, bayaqkı duruluqdan əsər- əlamət qalmadı.

Canavar hirsli idi, Tülkü Qasımın əvvəlcə əllərini, qarnını dişlədi və qəfil bir sıçrayışla onun boğazından yapışdı. Tülkü Qasım xırıldamağa başladı, nəfəsi kəsilhakəsildə hövlnak yuxudan ayıldı:

- Bu nədi, ə? – dedi. Və nədənsə, ağlına gələn ilk adam bir vaxt yuxusunda ağlayan ağac görmüş Ağalələ oldu»…

Tülkü Qasım cadugərə (dəflərlə aldatdığı!..) müraciət etməli olur…

« - Tavat qarı, bizə rəhmin gəlsin…

- Bir dəfə Ağalələ təzə aldığı maşınla yolda məni toza basdı. Gördün nə günə saldım? İndi də özünə gəlməyib. Hələ bu nədir ki? Görəcəkli günləri qabaqdadır.

- Bizi bədbəxt eləmə.

- Yaxşı, qorxma. Sizinlə işim yoxdur. Amma gərək mənə kömək eləyəsən. Bu günlərdə sizin  yeməkxanaya bir pullu adam gəlib. Arvadı da findifüruş. Nə bilim deyir, guya ağaca ərə getmək istəyir… Guya, könlündən erkək canavar keçir.

- Hə, hə, yadıma düşdü…

- Dünən əri bura gəlmişdi, yalvar- yaxar elədi ki, onları mehribanlaşdırım…

Tülkü Qasım tərəddüd içində soruşdu:

- Məndən nə asılıdr?

- Onlar iki- üç günə yenə bura gələcəklər. Parket almağa… Onda mənə xəbər elə. Sonra da ki qurd yağım qurtarıb. Olub- qalanını bu səhər tökmüşəm qazana. Gör neyləyirsən.

Tülkü Qasım çönüb sobanın üstündə pıqhapıq qaynayan qazana baxdı:

- Deyirsən qurd yağın qurtarıb? Bəs bu çiynimə sürtdüyün nə idi?

Tavat qarı bic- bic gülümsədi:

- Qorxma, marqarindi, «Sana». İndi gedə bilərsən…

Tülkü Qasım başını bulaya- bulaya bayıra çıxdı»…

«Palıdlı»da banketdir… Ağalələ ailəsilə istəyir ki, qızını Tülkü Qasımın oğluna versin… Ancaq bir leysan da başlamışdı…

«…Sel Hətəmlə Qərənfili «Palıdlı» restoranının yanında, nəhəng palıd ağacının altında yaxaladı. Hətəm çaşqın halda:

- Bu nədi, alə? – dedi.

Qərənfil onun dirsəyinə toxundu:

- Hətəm, Hətəm! Ora bax, ora bax… Canavarlar…

Hətəm hövsələdən çıxdı:

- Sənin başın xarab olub? Məhv olduq!.. Bu, sunamidir!..

Güclü sel Hətəmlə Qərənfili qabağına aldı, «Cip»ə bənzəyən, üstünə «Hammer» yazılmış tank kimi ağır maşına çırpdı. Və götürüb üzüaşağı apardı…

Elə bu vaxt Köysərək, Börü və güclü selin zərb ilə çevirdiyi dəmir qəfəsdən xilas olan Ayçən, başdaşlarını xatırladan kötüklərin arası ilə üzü dağlara sarı qaçırdılar. Dikdirdə dayanıb geriyə baxdılar. Aşağıda nəhəng göl, gölün düz ortasında isə tək- tənha palıd ağacından başqa heç nə görsənmirdi»…

«Cəza» povesti ədəbi- ictimai mühitdə rezonans doğurdu, «Azərbaycan» jurnalında çap olunandan bir neçə ay sonra tənqidçi- ədəbiyyatşünaslardan biri müəllifə açıq məktub yazmışdı…

«Hörmətli Hüseynbala müəllim!

Sizin «Cəza» povestinizi («Azərbaycan» jurnalı, 2006, № 4) böyük maraqla (və etiraf edim ki, bir az da nigarançılıqla...) oxudum. Əvvəla ona görə ki, ədəbi- ictimai mühitdə artıq kifayət qədər nüfuz, mövqe qazanmış bir yazıçının zəif, yaxud orta səviyyəli əsər yazmağa haqqı yoxdur. Və «Gəlinlik paltarı»ndan sonra haqqı heç yoxdur... İkincisi, Siz yalnız yazıçı deyil, həm də ictimai xadim, millət vəkilisiniz. Və bu da üzərinizə düşən məsuliyyətin miqyasını daha da genişləndirir; hər yazıçının nüfuz edə, hər sənətkarın interpretasiya verə bilməyəcəyi mürəkkəb mətləblərə, problemlərə toxunmağınızı tələb edir... Nəhayət, Siz mənim dostumsunuz. Və mən Sizin hər bir yeni əsərinizin nəinki öz yaradıcılığınızda, ümumən ədəbiyyatımızda hadisə olmasını istəyirəm...

Çox məmnunam ki, Siz «Cəza»da yalnız bir yazıçı kimi deyil, bir cəmiyyətşünas- mütəfəkkir kimi də irəli gedir, insanlığın, xüsusən yeni həyat tərzinə başlamış Azərbaycan insanının hansı qlobal fəlakətlər qarşısında qaldığını cəsarətlə açıb göstərirsiniz. Varlanmaq, dəbdəbəli həyat sürmək ehtirası canavarın sadəcə yaşamaq, nəslini artırmaq instinktini arxada qoyan ağaləlelələrin, tülkü qasımların tərcümeyi- halı, ölkəni göbələk kimi bürüyən restoranların «menyu»su bizi narahat etməlidir... Hər şeydən əvvəl ona görə ki, biz insanıq; tanrı (lap olsun təbiət!) ən böyük gücü, ən böyük səlahiyyəti yaradılmışların içərisində yalnız insana verəndə onun qarşısına şüur parametrləri, vicdan, əxlaq dəyərləri ilə ölçülən

məsuliyyət də qoymuşdur. Səlahiyyətlə məsuliyyət arasındakı harmoniya pozulanda, günahkar ehtiraslar cəzasız qalanda yazıçı- mütəfəkkirin «həyəcan təbili» çalması, günahkara cəza verilməsini istəməsi tamamilə təbiidir...

Siz «Cəza»da müasir dünyanın ən böyük yazıçılarından biri (əslində, birincisi!) olan Çingiz Aytmatovun arxasınca gedir, onun kimi qlobal düşünür, dünyanın (və insanlığın) ekologiyasını müdafiəyə qalxarkən, fikirinizi daha kəskin ifadə etməkdən, ən ağır metaforalar işlətməkdən çəkinmirsiniz.

Sizin «canavar»larınız onlara qənim kəsilmiş «insanlar»dan müqayisə edilməyəcək qədər məsuliyyətli, vicdanlı (və hətta əxlaqlı)dırlar... Qırılan meşələrin, meşşan bir xanımın qeyri- insani (əslində, məhz insanı!) ehtirasının qurbanı olan palıd ağacının faciəsi də povestdə bir cüt (ər- arvad!) canavarların, onların balalarının faciəsi qədər canlı təsvir olunmuşdur. Əgər bir «parket sexi», kiçik bir əyalət restoranı təbiətə (və onun üzvü tərkib hissəsi olan cəmiyyətə!) bu qədər ziyan vurur, bu qədər dərin mənəvi fəlakətlər törədirsə, görün, onda parlaq reklamları ilə göz qamaşdıran sex- fabrik, restoran şəbəkələrinin «qaranlıqlar»ında nə qədər böyük faciələr gizlənir...

Əziz dostum, özün bilirsən ki, mən mövhumatçı və ya dindar deyiləm, həyatın gözəlliklərindən zövq almağı da bacarıram. Ancaq hər şeyə fəlsəfi yanaşmaq lazımdır... Xüsusilə zövq aldığın gözəlliyə... Əgər onun arxasında kiminsə, yaxud nəyinsə faciəsi, fəlakəti dayanırsa, həmin zövqdən, həmin gözəllikdən imtina etməmək qeyri- insani olduğu qədər də allahsızlıqdır... Ona görə də Sizin müqayisələrinizin kəskinliyinə, metaforalarınızın «ağırlığ»ına haqq qazandırıram. Və inanmaq istəyirəm ki, Sizin bu emosional (o qədər də fəlsəfi!) mühakimələrinizin sosial təsir dairəsi kifayət qədər geniş olacaqdır. Hər şeydən əvvəl ona görə ki, Siz haqlısınız... İkincisi ona görə ki, haqlı mövqeyinizi əsaslandıra bilirsiniz... Və üçüncüsü ona görə ki, həmin əsaslandırmada bədiilik «sərt məntiq»in özü qədər güclü, sirayətedicidir...

Hörmətli Hüseynbala müəllim!

Siz Azərbaycan ədəbiyyatına dəyərli bir əsər vermisiniz,- istedadla, cəsarətlə yazılmış bir əsər... Sizi təbrik edirəm!..

Nizami Cəfərov

**2006**

Həmin müəllif bir il sonra tənqidçi Əsəd Cahangirə «açıq məktub»unda bir də həmin məsələ üzərinə qaytmalı olur…

«…Bir az insafın var: Hüseynbala Mirələmovu hər halda yazıçı sayırsan… Ancaq «deputat və imkanlı yazıçı» haqqında yazanları dərhal «məddah» elan eləyirsən… Nizaməddin Şəmsizadə ilə mənə «öyrədirsən» ki, «Cəza»nın ən maraqlı tərəfi odur ki, H.Mirələmov bu əsəri ilə belletristika nümunələrindən sonra ciddi realist- psixoloji nəsrə keçdiyini sübut edir. Şübhəsiz ki, bu, bir müəllif kimi onun danılmaz uğurudur. Amma, görəsən, müəllifin fərdi uğuru həm də ümumən ədəbiyyatmızın uğuruna çevrilirmi? Ç.Aytmatovun daha qlobal şəkildə qələmə aldığı mövzu- problematikanı 20 ildən sonra hətta uğurlu şəkildə də olsa, təkrar etmək yeni nə deyir?

Bütün bunları vurğulamaq əvəzinə (sağ ol, Əsəd!) Nizami Cəfərov, Nizaməddin Şəmsizadə kimi adlı- sanlı tənqidçi- ədəbiyyatşünaslar «Cəza» povestinə mətbuat səhifələrində elə təriflər yağdırmağa başladılar ki…»

Əvvala, mən özüm də, sənin sözün olmasın, deputatam- stajım Hüseynbala müəllimin stajından beş il çoxdur, ondan fərqli olaraq komissiya sədriyəm; imkanım da, allaha şükür, pis deyil… Özünü öldürsən də, məndən «məddah» yarada bilməzsən. Kim bilməsə də, özün bilirsən ki, sənə də mənəvi köməyimi heç zaman əsirgəməmişəm… «Çoxlu sayda kitablara yazdığı(m) ön sözlər»in xeyirxahlıq məqsədi daşıdığını, ədəbiyyatın sosial- strateji məramına xidmət etdiyini, sən bilməsən də, mən bilirəm…

İkincisi, Hüseynbla Mirələmovun «Cəza» povesti «çoxsaylı belletristika nümunələri»ndən sonra yazılıbsa, deməli, yazıçının ciddi sosial- mənəvi problemlər qaldıran «Dağlarda atılan güllə», «Xəcalət», «Gəlinlik paltarı» kimi əsərləri belletristika imiş… Adam ağlına gələni danışa bilər, daha bu qədər yox…

Üçüncüsü, «Cəza»nın nə dərəcədə, hansı miqyas (və keyfiyyətdə) Ç.Aytmatovun «Qiyamət»indən gəldiyini müəllifə yazdığım açıq məktubda kifayət

qədər geniş təhlil edib göstərmişəm. Yəqin ki, oxumusan… Ancaq, görünür, bilmirsən ki, «mövzu- problematika» baxımından bir yazıçı digərini «təkrar» eləyə bilməz - Füzulinin «Leyli və Məcnun»u Nizaminin «Leyli və Məcnun»unun təkrarı deyil»…

… «Cəza» povestini ən yaxşı təhlil edib idyea- məzmunca dəyərləndirən ədəbiyyat adamlarından biri də şair Dilsuz olmuşdur. «Cəza»nın ayrıca kitab şəklində nəşrinə yazdığı «Kiçik əlamətlər – böyük fəlakətlər…» başlıqlı son sözündə Dilsuz deyir…

… «Qurani- Kərim»də dünyanın dağılmasının həm kiçik, həm böyük əlamətləri göstərilmişdir. Kiçik əlamətlər insanlar arasında qarşılıqlı inam hissinin azalmasını, zülm, haqsızlıq və fitnə- fəsadın çoxalmasını, cahillərin iş başına keçməsini, hökm sahibi olmasını, bir adamın başqa bir adamın var- dövlətini, mülkünü zorla əlindən almasını, cəhalətin elmi dünyagörüşü üstələməsini, böyüklərə hörmət, kiçiklərə şəfqət göstərilməməsini, zinalığın artmasını, kişi və qadınların məqbul hesab olunmayan – əxlaqa zidd intim münasibətlərə meyil göstərməsini və s.- ni ehtiva edir və bunlara müvafiq olaraq, dəhşətli quraqlıq və qıtlıqlarla, daşqın və dağıntılarla, zəlzələlərlə müşayiət olunur. Bundan sonra isə böyük əlamətlər gəlir: Ərəsət meydanı – Məşhər yeri, Böyük Yaradanın dərgahı, mizan- tərəzi, Cənnət və Cəhənnəm…

Maraqlıdır ki, dünyanın adlı- sanlı söz ustaları öz əsərlərində bəşər övladını həmişə bu əlamətlərdən agah etməyə çalışmışlar»…

Və Dilsuz belə bir nəticəyə gəlir ki…

«…Hüseynbala Mirələmovun «Cəza» povestində dünyanın dağılmasının kiçik əlamətlərindən bəhs edilir. Lakin o, sələflərindən fərqli olaraq, bu məsələyə daha konseptual yanaşır – baş verən hadisələr arasındakı oxşar cəhətləri tapır və bədii ümumiləşdirmə aparır.

…Hüseynbala Mirələmovun «Cəza» povesti maraqlı sonluqla bitir. Hər qarışı təcavüzə məruz qalan təbiətin səbri tükənir, qəfildən yer- göy lərzəyə gəlir, dağlardan qopan sel bu haqsızlıq yuvasını yerin təkinə aparır, bütün günahkarlarla birgə…

O fəlakətdən yer üzündə bir canavar ailəsi – Köysərək, Ayçən və Börü, bir də azman bir palıd ağacı sağ- salamat qalır… Və bununla müəllif tarixə ekskurs edir – oxucuya Nuhun gəmisinin uzun yolçuluqdan sonra quruya – adaya çıxdığını və həyatın davam etdiyini xatırladır…

Hüseynbala Mirələmovun «Cəza» povesti son illər ədəbiyyatımızda yaranmış ən dəyərli əsərlərdən biridir və inanırıq ki, ədəbi tənqidimizin diqqətindən kənarda qalmayacaqdır»…

Və qalmadı…

*

*   *

«Əclaf» (2008) povesti Hüseynbala Mirələmovun müasir mövzuda qələmə aldığı, bugünkü gəncliyin təzadlı həyat tərzinə, dünyagörüşünə, arzu- amallarına həsr olunmuş bütövlükdə Azərbaycan ədəbiyyatı miqyasında maraqlı əsərlərdən biridir.

Əsər müəllifin dostu, millət vəkili Hadı Rəcəbliyə həsr olunmuşdur.

Povest maraqlı bir təsvirlə başlanır…

«Qonşu uşaqları onu Səkinə xala deyə çağırardılar. Bu sayaq müraciətə görə onları qınamaq yersiz olardı. Çünki yaşının azlığına baxmayaraq qadın əməllicə qocalmışdı. İnsan ömrünü illərin sayğacı ilə hesablamaq bəzən özünü doğrultmur. Kimin nəyinə qalıb ki, cavan adama xala desin. Uşaq da aşıq kimidi, ürəyi dilində, gördüyünü çağırır. Qocalmaq daha nə təhər olar? Saçları vaxtından tez, həm də pambıq kimi ağappaq ağarıb. Üzü yaşılı, qırmızısı, daha hansı rənglərisə çoxdan çəkilib getmiş payız peyzajını xatırladır. Sanki əlvan bir çəmənzar üstündən qəfil tufan ötüb, amansız qum küləyi əsərək gənclik cizgiləri hələ də lap dərində, güclə sezilən qadın gözəlliyini yağmalayıb.

Qadın bir zamanlar gözəl olub. Bunu ayrı bir əlamət yox, bir az əvvəl deyildiyi kimi, qəfil tufanınmı, amansız qum küləyininmi yağmalayıb apardığı qənirsiz gözəlliyin onun çöhrəsində ilişib qalan, solğun cizgiləri nişan verir. Dərdin təklədiyi adamlar, görünür, belə qocalırlar»…

Səkinə xalanın əri Dəmir dəmiryolçu idi. Qəzaya düşüb həlak olmuş, oğlu Polad atasız böyümüşdü…

Ali məktəbə girən Polad qarşısına yalnız bir məqsəd qoyur ki, o da yaxşı oxuyub layiqli bir insan olmaqdır… Ancaq özü də dərininə getmədən dostluq etdiyi Ruslan onun bu həyat kredosunu – ideallarını, demək olar ki, boşa çıxarır… «Patriarxal» düşüncəli Polada qardaş deyən, amma hər şeyi «icazə kağızı» ilə (pula) həll edən Ruslan zahirən nə qədər qılıqlı, səmimi olsa da, daxilən o qədər əyyaş, simasız və tərbiyəsizdir.

Kəndçi balasının – Poladın qılığına girmiş Ruslan Poladın kirayə qaldığı evə gəlir…

Dostluğun duz- çörəklə başladığına inanan Poladdan fərqli olaraq «bu duz- çörək söhbəti ki var ha, - Ruslan düşünürdü – qurama işdi»…

«…Ölkənin hər yerindən adamlar axışır Bakıya. Gələndə necə təmiz niyyətlə gəlirlər, saf və duru olurlar. Ancaq elə ki, gəldi çatdı Bakıya, bu Qaradağ duzundan daddı, Abşeron duzunu topa- topa çimdikləyib kənara ataraq and içməyə başladı, onda aləm qarışır bir- birinə. Bu duzlu andın çox vaxt saxta olduğunu bəlkə də hamı bilir, heç kim də açıb- ağartmır. O andın içində bircə çimdik duz qədər həqiqət yoxdu. Bununla belə bir bəni- bəşər dilini tərpədib demir ki, ay qardaş, sənin danışdığının hamısı yalan- palandı, nahaqca yerə duzu hayıf eləmə. Və beləcə insanlar ən çətin problemlərini bir- birinin sifətinə duz çimdikləri ata- ata yoluna qoyurlar. Vaxt ötür, zaman dəyişir, adamların yalançı andları duza- çörəyə qarışıb qana hopur»…

Ruslan, Poladdan fərqli olaraq, «bu dünya»nın adamıdır…

«…Artıq o düşüncələr Ruslanı idarə edirdi. Bu əbləh çörəyi, duzu kitaba – «Quran»a döndərib. Bilmir ki, dünyanın Allahı da, imanı da, dini də puldan çox- çox aşağıdadı. Əvvəllər atamı adam yerinə qoyub salam verən yox idi. Hərə bir cür dodaq büzürdü. Amma şirkətə ilişəndən sonra vəziyyət dəyişdi, hava dəyişdi. Hava e, a kişinin oğlu, hava. Atam əvvəllər ilboyu üşüyərdi, büzüşə- büzüşə gəzərdi. Vəziyyət babatlaşan kimi köhnə libaslar getdi işinin dalınca. Yeni, təzə dəbdə paltarlar atamı dəyişdi, anamı dəyişdi. Maşın dəyişdi, mən də oldum sayılıb-

seçilən cayıl. İndi şəhərdə məni tanımayan yoxdu. Hər dəfə QAİ saxlayanda ayrı bir söz demir. Bilirsən, Rusik, deyir, heç nə lazım deyil, saxladıq ki, papanın, əminin əhvalını soruşaq»…

Polad elə bilir ki, Ruslan onun kirayə qaldığı evə gedib- gəlsə, dərsləri birlikdə hazırlayarlar, dostuna köməyi dəyər…

«…Ruslan düşünürdü ki, babat yerlərə girib- çıxmaq, oralara canan aparmaq müşkül işdi, hər tərəfdən göz qoyub güdürlər adamı. İndi neyləyim? Bir xaraba tapıb başımı soxmalıyam da. Yoxsa elə bilirsən kitab- dəftərim var, şəllənib gələcəyəm bura. Səhərdən axşamacan it kimi mır- mır mırıldayıb imtahan-zaçota hazırlaşacağam. Avara, mənə guşə lazımdı e, guşə. Özün də evin açarını qoy ovcuma, bas bayıra. Ayıbdı buralarda görükməyin. Koroğlu demişkən, igid gərək yar sevməyə, özü tək gedə, tək gedə…

Polad elə «key Balaxanım» idi ki, durmuşdu. O yenə də xəyalında Ruslanı tərbiyələndirib yüksək kondisiyaya çatdırmaqla məşğul idi. Düşünürdü ki, əgər dostu hər gün onlara gəlsə, həm məcbur olub dərsini oxuyacaq, həm də şəhəri veyllənib pis- pis yerlərə dürtülməkdən xilas olacaq»…

Və Polad bu fikirdədir ki…

«…İdarə edən, qazanc gətirən, biznesi quran adamlar cəmiyyətin ürəyidir. Əgər ürək beyinə qan verməsə, beyin işləyə bilməz. Görünür, məni kimilər Ruslandan asılı olacağıq. Məsələ kimin yuxarı, kimin aşağı olmağında deyil. Məsələ ondadır ki, biz bir- birimizi düzgün başa düşək. Ürək və beyin bir- birini tənzim edə bilsin. Əslində, bizim hamımızın bir anası var. O da cəmiyyətdir. Cəmiyyətdə öz övladlarına qarşı doğmalıq olsa, hər kəs öz yerini düzgün tapar. Və biz, yəni cəmiyyətin övladları əziyyət çəkməz, yaşamaq əzab olmaz. Ruslanın timsalında özümə güclü dayaq görürəm,onun ürəyinin təmizliyinə inanıram»…

Poladın bu «filosofluğ»u nə qədər təmiz, təbii hisslərlə bağlı olsa da, Ruslanın «həyat fəlsəfəsi»ni izah etməkdə tamamilə yararsızdır, hətta, demək olar ki, cəfəngiyyatdır.

Bir gün Ruslanla Polad arasında belə bir söhbət gedir…

«- Poladik, sənin ağlın var? Bizim təhsilimiz lazımdır ölkəyə. Biz bacarığımızı səngərdə yox, burada göstərməliyik. Ölkəni düşməndən azad edən, qoruyan tapılar. Əvvəla, avtomat tutmağın qaydasını bilmirəm. İkinci də ki, havayı gülləyə qurban getmək istəmirəm. O qədər oğlanlar öldü, Qarabağı azad eləyə bildik məgər?

- Rusik, sən elə demə, hamımız Vətənin zərrələriyik. Birdən Vətən çağırsa, ona yox deməyə necə dilimiz gələr?

- Alə, sən nə danışırsan? – Ruslan şirin Bakı ləhcəsiylə məzəli komediya qəhrəmanı tərzində dillənərdi. – Sən tez- tez şeirlərini deyirsən ha… 30- cu illərdə güllələnib, onun sözü olmasın, gündən- günə gözəlləşən bu həyatdan necə əl çəkim, alə, olar? Alə, bu qızları görmürsən, ətirli çiçəklər kimi adamın başını havalandırır? Bəs onların maral yerişi necə olsun? Biz onları qoyub hara gedək, ay tupoy?..»

Ruslanın həyasızlığı o həddə çatır ki, Poladdan xahiş edir ki, kirayə qaldığı mənzilin açarını ona versin… Və Polad çar- naçar razılaşsa da, mənzilə fahişə gətirən Ruslanı bağışlaya bilmir.

«…Yaxşı ki, Bakı kənd deyil və yaxşı ki Polad kənddə deyil, Bakıda yaşayır. Yoxsa bir dəyyus dostun həyasız xidməti sayəsində o çirkin əhvalat baş verəndən sonra, iki həftə ərzində büzüşə- büzüşə, utanıb yerə girə- girə dərsə gedib dərsdən qayıdan Polad bu sıxıntıları Bakıda deyil, kənddə keçirsəydi, iraq olsun, bir ağbirçək, bir ağsaqqal qabağına çıxıb soruşsaydı ki, ay Polad sənə nə üz verib, niyə fikir dəryasına qərq olmusan, niyə saralıb solmusan, onda bu bədbəxt tələbə nə cavab verərdi? Kəsiri var, namxuda kəllədi, pulu yoxdu, Allah anasının, qohumlarının canını sağ eləsin, korluq çəkməyə qoymurlar. İndi o soruşan adama nə təhər desin ki, mənim bir oğraş tələbə yoldaşım var, mən də ondan betər oğraşam. Nə təhər desin ki, ay ata, ay ana, mən başı beton dirəyinə dəyib əzilən Dəmirin oğlu Polad, biqeyrətəm, açarımı itirmişəm, itirməmişəm ey, könül xoşluğuynan onu bir binamusın əlinə vermişəm ki, gedib mənim halal qapımı açsın, dərənin fahişəsini bassın özüm və anam yatan çarpayıya»…

Müəllif özünün yazıçı üslubu üçün, demək olar ki, səciyyəvi olmayan kifayət qədər vulqar leksikona müraciət etsə də, elə bilirik ki, Poladın həyəcanlarını, özünü danlamasını, hətta ittiham etməsini dolğun ifadə eləmək üçün bu, tamamilə məqbul sayıla bilər…

Polad təsadüfən tanış olduğu bir tələbə qıza aşiq olur… Onun xəyalı ilə yaşayır…

«…Əvvəlcə Polada elə gəlirdi ki, bir gəmidədir. Gəmi hərdən lənğər vurur, hərdən sakit- sakit üzürdü. Niyə hərdən, lap yaxşı üzür. Budur, Polad göyərtədə dayanıb. Səhərin ala- toranlığı çəkilməkdədir. Şərqdən, dənizin uzaq üfüqlərindən, qırmızı şəfəqlər içindən gələn işıq Poladın sifətinə yayılır. Polad istəsə də gözünü o qırmızı işıqlar arasında dağa- dərəyə bənzər bulud topalarının üstündən çəkə bilmir. Bütün diqqəti həmin qırmızı işığın yanında idi, indi oradan gün doğacaq, günəş qalxaraq hər tərəfi işığa qərq edəcək. Bu işığı gözləyirdi Polad. Ona elə gəlirdi ki, neçə illərdi bu gəmi qaranlıq içində yol gedir. Dəniz üstündəki yolun nə əvvəli var, nə axırı. Gəmi qəribə bir gəmidi. Dəniz yolunu tutub gedir… Hər tərəf sudur. Qəribədi, gəmi dümdüz gedir… Sanki bir az kənara çıxsa, aşacaq. Əlləri ilə bərk- bərk öz yaxasından yapışıb. Öz- özünü silkələdi. Bəlkə yuxu görür? İlahi, o bu yolu getməkdən bezib, bu yol onu yorub. Bu yolu başa vurmalıdı. Bəlkə dönüb başqa tərəfə getsin. Hara gedəcək, bu dənizdir və hər tərəf sudur. Gəmini hara döndərsə, yenə su olacaq. Dörd yana baxıb yolu görmək istəyirdi. Bəlkə bir yandan torpaq görünəcək, bəlkə bu qaranlıq dağılacaq, səhər açılacaq, axı nə qədər gecə olar?

Göyərtədən boylanan Poladın uzaq üfüqlərdəki şəfəqə – qırmızıya diqqəti məhz yol bulmaq niyyətinə görə ilişib qalmışdı. Qollarını açıb qışqırmaq istədi: - Deyəsən, işıq görürəm, deyəsən, səhər açılacaq, deyəsən, o yan torpaqdır… Daha mən bu su səltənətində qalmaq istəmirəm. Bax odur, mən o səhərin açıldığı yerdə torpağın üstünə çıxacağam. O torpağın üstündə özümə ev quracağam. Orda – mənim özümə ev qurduğum yerdə Sevda məni gözləyir»…

Polad sevdiyi qızı – Sevdanı dostu Ruslana göstərir. Min bir arzu- xəyallarla rayona gedib qayıdandan sonra Sevdanı Ruslanın maşınına minən görür… Və

onu dəhşət bürüyür… Ona görə yox ki, hələ qəlbini açmadığı Sevda onu tərk etmişdir, ona görə ki, dostu Ruslan alçaqlıq, şərəfsizlik etmişdi…

Ruslan Universitetin maşın dayanacağında saxladığı «Mersedes»inə yaxınlaşanda görür ki…

«…Maşının toz tutan arxa şüşəsinin üstünə isə iri hərflərlə yazılmışdı: - «Əclaf!!»

Sözün sonunda iki nida işarəsi qoyulmuşdu. Hər nida birinin payı.

Ruslan tənbəllik eləməyib «Əclaf»ın sonuna daha bir nida əlavə elədi…

…Fikri bir azdan görüşəcəyi Sevdanın yanında olan Ruslan indi hisslərinə hakim deyildi. Qızın pəmbə, göyçək dodaqlarının, mərmər sinəsinin, şux döşlərinin, ağ, dolu baldırlarının ehtirası ilə alışıb- yanan Ruslan qeyri- ixtiyari dodaqlarının altında mızıldandı: «Axı Sevda keçiləsi mələk deyil, Polad! İncimə, Polad, incimə, Sevdadan keçməkdənsə, səni itirməyi üstün tutdum…»

Bu arada neçə gündür davam edən yağış yenidən yağmağa başladı. Ruslan getdikcə şiddətlənən yağışda çirkabını, palçığını yudurtmaq istədiyi maşınına baxdı. Yağışda maşını yudurtmağı mənasız hesab etdi. Fikirləşdi ki, bu cür leysan yəqin maşını yuyub təmizləyər.

Bir azdan Ruslan «Mersedes»ini Pedaqoji Universitetin qarşısında saxlayıb Sevdanın dərsdən çıxmasını gözləyirdi. Amma Ruslan bilmirdi ki, şıdırğı yağış maşının zığını, palçığını yusa da, arxa şüşədəki « Əclaf!!!» sözünü təmizləyə bilməmişdi»…

İki gəncin – tələbə yoldaşının, «dost»un dünyagörüşlərini, həyat tərzini, maraqlarını qarşılaşdıran yazıçı təfsilata varmasa da, səbəbi ailədə – ailə tərbiyəsində görür. Və demək olar ki, əsərlərinin çoxunda göstərir ki, ailə insanın formalaşmasında əsas çıxış (və istinad!) nöqtəsidir…

*

* *

«Gecə sürünən ilanlar» (2009) povesti yazıçının müasir insan psixologiyasının ən dərin, ən təbəddülatlı və ən mürəkkəb qatlarına enmək marağının (və istedadının) məhsuludur.

Povest ailə həyatını ilk sevgisinin (və sevgilisinin!) cəsarətsizliyi ucbatından düzgün qura bilmədiyinə görə iztirab çəkən Fəridənin həyəcanlı düşüncələri ilə başlayır…

«Otağa dərin bir sükut çökdü. Fəridə yan- yörəsinə göz gəzdirdi, qonaq otağının eyvana baxan pəncərəsini açdı. Gecə qara qartal kimi qanadlarını şəhərin üzərinə gərmişdi. Avtomobilin təkərlərinin yeri cırmaqlayan cırıltısı sükutu pozdu… Bu, o idi – Əkrəm. Acığını maşından çıxırdı.

Fəridəyə elə gəldi ki, içində zəlzələ qopdu, iç dünyası qaranlığa büründü. Bu zil qaranlıqdan hövl elədi, vahimələnib qorxdu. Beynində suallar dolandı: «Nə üçün mən Əkrəm kimi namərdlərə möhtac olmalıyam? Axı zavallı ərim heç də ondan əskik kişi deyil? Axı nə üçün Pərviz Əkrəmin buyruq quluna çevrilməlidir? Adi bir dolanışıq, bir tikə halal çörək üçün?..»

Hıçqırığı kəsmək bilmirdi. Sanki bu an içində bir işıq yandı. Bu işıq qəfildən nurlu bir xəyala çevrildi və içindəki boşluğu doldurdu. Bu, Fərideni azca toxtatdı. Xəyal incik- incik ona baxırdı»…

Və yazıçı hadisələrin – tərcümeyi- halların təfsilatına gedir…

Fəridə ilə Aydan bir sinifdə oxuyurlar. Fəridə kasıb ailədəndir, Aydan nazir qızıdır… Ancaq bu, onların dostluğuna mane olmur.

Orta məktəbin son siniflərində Fəridə sinif yoldaşı şair- filosof təbiətli Əlövsətə (Alova) aşiq olur…

Sonra isə hadisələrin cərəyanı davam edir. Qəhrəmanların taleyini birləşdirən, ayıran, üz- üzə qoyan yazıçı sxematizmə varmır, hadisələri təbii axınına buraxır, onlara, demək olar ki, müdaxilə eləmir…

Orta məktəbi bitirirlər… «… Ata- analarının tövsiyələriylə Aydanla Fəridə sənədlərini Tibb Universitetinin müalicə- profilaktika fakültəsinə verdilər. Bu elə özlərinin də arzusu idi. Yüksək səviyyədə hazırlıq onların köməyinə çatdı, qızlar qəbul imtahanı zamanı elə bir çətinliklə üzləşmədilər.

Semest semestri əvəzləyirdi, ta üçüncü kursacan heç bir fövqəladə hadisə baş vermədi. Hərdən rəfiqələr öz aralarında orta məktəb yoldaşlarını xatırlayır, onların taleyi ilə maraqlanır, nədənsə yalnız Alovun üstündən sükutla keçirdilər.

…Alov orta məktəbi qurtardıqdan sonra ilk ili ali məktəb səddini dəf edə bilməmiş, kənarda qalmışdı. İkinci ildə də qəbul ərəfəsində nəsə problemi çıxmış, sənədlərini geri götürmüşdü. Həmin ərəfədə, rəfiqələr ikinci kursda oxuyanda, təsadüfən küçədə qarşılaşmışdılar. Alov ani dayanmış, Aydanla Fəridəyə nəsə demək istəmiş, fikrini dəyişmişdi. Aradakı sükuta son qoyan Aydan hal- əhval tutmuş, Fəridə susmuşdu. Axırda tab gətirməyən Alov dillənməyə məcbur olmuşdu:

- Allah qoysa, siz yüksək təhsilli həkim kimi həyata atılacaqsınız, mənsə gələcəyi bilinməyən, veyil- veyil gəzən sərsəri cızmaqaraçı. Ancaq heç kəs məndən nigaran qalmasın.

Alovun bir azca hikkəylə söylədiyi «heç kəs məndən nigaran qalmasın» kəlməsi sonralar rəfiqələrin söhbətlərində dəfələrlə xatırlandı, xırdalandı. Hərəsi bu fikri bir tərəfə yozdu, görünür, Aydan da, Fəridə də Alova laqeyd deyildilər. Sadəcə anlaşılmazlıq, ortada kəskin uçurum aranı kəsmişdi. Son iki ildə Alovdan xəbər tuta bilməyən rəfiqələr Türkiyəyə getdiyini eşitdilər.

Qızlar üçüncü kursu başa vurmaq üzrə idilər.

Və elə bu vaxt Əkrəm adlı bir oğlan peyda oldu.

O, Aydanı qarabaqara izləyir, hər səhər tezdən Tibb Universitetinin qarşısını kəsdirib dururdu»…

Əkrəm Aydanın atası Nazim müəllimin köməkçisi idi. Və nazirin qızı ilə evlənməkdə, əlbəttə, öz karyerist məqsədləri vardı, ancaq bunu hələlik açıb-ağartmır, özünü çalışqan, qabiliyyətli olduğu qədər də təvazökar, tərbiyəli bir gənc kimi göstərirdi…

«…Fəridə istədi desin ki, atalar məsəllədi: «Suyun lal axanı, adamın yerə baxanı». Ancaq demədi. Çünki Aydanın Əkrəmə rəğbətini hiss elədi. «Rəğbət varsa, sevgi qaçılmazdır» - ağlına gəldi. Aydan Fəridənin düşüncələrə daldığını görüb dilləndi:

- Mən hələ susuram. Zavalı için- için ağlayır, «İnan, mənim olmasan özümə qəsd edəcəm», - deyir.

- Ağlayır?

- Hə, özü də dərdli- dərdli. Qoca anasından, iki- üç kasıb qohumundan başqa heç kəsi yoxdur. Adamın lap yazığı gəlir ona.

Fəridə başını mənalı- mənalı buladı:

- Eh, Aydan, Aydan. Yazığın gəlirsə, ürəyin yanırsa, deməli, sevirsən. Cidanı niyə çuvalda gizlədirsən?..»

Əkrəmin bəxti gətirir… Və «zəhmət»i hədər getmir…

«…Bu axşam Aydan aylar- illər arxasınca sürünən «utancaq» oğlana sözünün kəsəsini deməliydi. Elə ona görə də görüşə çıxmışdılar. Aydan fikirli, dalğın idi. Yenə tərəddüd içində çapalayırdı, nə «yox» deyə bilirdi, nə də «hə». Vaxt gözləmirdi, bugün- sabah Tibb Universitetini bitirəcəkdi. Bəs sonra? Bəlkə də atasının nüfuzu, ad- sanı, yüksək vəzifəsi, bir də özünün bir qədər kübar, qapalı həyat sürməsi ətraf mühitlə arasında sərhəd çəkmişdi. Dərs bitən kimi tələbə yoldaşlarından ayrılır, ünsiyyət kəsilirdi. Qohum- əqraba ilə saxlanan sıx münasibətlərdən isə danışmaq mümkün deyildi. Doğrusu, Aydanın gözü- könlü tutan bir oğlan tanışı da yox idi, necə deyərlər, boş meydan yalnız «utancaq» Əkrəmə qalmışdı…

…O, anasının məlumatından, atasının him- cimindən, fəhmindən anlamışdı ki, bu izdivaca ürəkdən razıdırlar. Ona görə qabaqdangəlmişliyə ehtiyac duymadı, nə atasının, nə də anasının ürəyini sındırmaq istəmədi. Nəhayət, Aydan «hə» demək üçün həmin axşam Əkrəmlə görüşə çıxdı. Əkrəm də bu himə bəndmiş kimi alıcı quştək şığıyıb istəklisini qucaqladı, öpdü və mütəəssirliyini gizlətmədi:

- Sağ ol, Aydan, bilirdim ki, «hə» deyəcəksən, məni pərt eləməyəcəksən. Sən mənə dünyanı bağışladın»…

Aydanın Əkrəmə münasibəti səmimidir, xarakteri etibarilə «ailə uşağı» olan qız xoşbəxt olacağı, ətrafın qəbul edəcəyi nümunəvi bir ailə qurmaq istəyir.

Əkrəm isə ayrı toxumun məhsuludur…

«…Əkrəmin qənaətinə görə, Aydan kimi nazir qızını, özü də evin yeganə övladını razı salıb, yola gətirmək səadət, xoşbəxtlik əlamətidi. Bu qismətin sonu nələr vəd etmirdi?! Vəzifə, bahalı maşın, sərvət, şəhərin mərkəzində mənzil,

üstəlik, bağ- bağat, villa, aristokrat güzəran, üzünə həmişə açıq qapılar və sonda nazirin bütün varidatı…

Əkrəm iki əlini yuxarı qaldırıb, üzünü göyə tutdu. Bir anlıq özünü xəyalən qurduğu aləmdə his etdi. Ona elə gəldi ki, başına pul yağır. İki əli ilə o pulların hamısını qamarlayıb, qoltuğuna doldurmaq istədi. Amma xəzəl kimi göydən tökülən pullar o qədər çox idi ki, yığıb- yığışdırmaq mümkün deyildi.

Birdən ona elə gəldi ki, nəfəs ala bilmir, pulların içində boğulur. Boğulsa da, hərisliklə «daha bəsdir, daha yığmaq istəmirəm» sözlərini dilinə gətirmədi»…

Əkrəmin şəxsində yazıçı zatən naqis olan, həyatda özünü təsdiq etmək üçün hər cür alçaqlığı özünə rəva görən, ən müqəddəs hadisə olan ailəni də çirkin məqsədlərinə nail olmaq üçün quran bir gəncin obrazını yaradır. Və bəri başdan məlum olur ki, həyat (və müəllif!) onun gələcəyi üçün yaxşı heç nə vəd etmir…

Aydanla Əkrəmin dəbdəbəli toyları olur. Alovdan (Əlövsətdən) əli üzülən Fəridə qonşuluqda yaşayan, ona «dərdindən hayıl- mayıl olduğunu» bildiyi Pərvizə ərə gedir…

«…Aydanla Fəridə eyni klinikada işləyirdi. Uzun illərin sınaqlarından çıxmış Fəridəni Nazim müəllim yeganə balasının xətrinə bu klinikada işə düzəltmişdi. İki gənc ailənin mehriban dostluğu isə kəsilməmişdi. Yüksək çinli dövlət məmuru kimi Nazim müəllimin hörmət- izzəti, nüfuzu, «gətir- götürü» də qaydasındaydı. Səriştəsi, təcrübəsi, peşəkarlığı dadına çatırdı. Hər işi, atdığı addımı ehtiyatla atdığından adı qəzetdə- məzetdə, orada- burada hallanmırdı. Ona böyük səviyyədə hörmət var idi. Bu etibarı sanki həyata hesablanmışdı, ağlı və fərasəti ilə vəhdətdə birləşmişdi»…

Əkrəm nazir qaynatasının himayəçiliyi ilə böyük biznes qurmağa girişir, qısa müddət ərzində taxıl tədarük edən müəssisə yaradır…

«…Əkrəm hərisliklə pul- para qazanır, özünü üstün tutur, Nazim müəllimi saya salmır, hətta hesabına adam olduğu nazir qaynatasının karyerasının nə vaxt bitəcəyini səbirsizliklə gbzləyirdi: «Bircə məneəm odu, itib- getsəydi, mağıl əlim- qolum açılardı».

Zümrüd xanımın fəhmi, qadın hissiyyatı güclü idi, kürəkəninin pis niyyətini əlbəəl duyduğundan, heç kimə, yeganə övladı Aydana belə bildirmədən, Əkrəmə nifrət hissi bəsləyir, çörəyinə təpik atmaqda, nankorluqda qınayırdı: «Acından ölənin birisiydin, gəlib yaltaqlandın, tülkü kimi min cildə girdin. Hər vəchlə ailənin etibarını qazanmağa çalışdın, süfrəmizin qırıntısıyla gəzib- dolandın. Nə tez unutdun, ay haramzadə?»

Əlbəttə, nə Əkrəm düşündüklərini açıb- ağardırdı, nə də Zümrüd xanım. Ancaq çox keçmədi ki, kənardan hər kəsə səadət timsalı kimi görünən bu ailədə xoşagəlməz hadisələr ard- arda düzüldü»…

Əkrəm yaratdığı şirkətin adını «Fərda» qoymuşdu. Qaynanası ilə söhbətdə təklif edir ki, doğulacaq oğlunun (Aydan hamilə idi) adı da «Fərda» olsun…

«- Hə, hə, Zümrüd xanım, bu adı yəqin Aydan da bəyənəcək. «Fərda» - sabah deməkdir.

Aydan tələsik yan otaqdan çıxdı. Qaynana ilə kürəkən arasındakı dialoqu Aydanın eşitdiyi üzünün ifadəsindən aydınca oxunurdu. Adın mənası qızın kefini açdı, əhvalını yaxşılaşdırdı. Üstəlik, böyük bir şirkət körpəsinin adını daşıyacaqdı. Lakin Əkrəm bu müqəddəs məsələdə də saxtakarlığa yol vermiş, həqiqəti gizlətmişdi. Fərda – hər dəfə səsini eşidəndə, üzünü görəndə bütün varlığını titrədən Fəridənin adının azacıq dəyişilmiş forması idi. Həyasızlığı o dərəcəyə çatmışdı ki, hətta qızı doğulacağı təqdirdə adını Fəridə qoyacağını ürəyindən keçirmişdi…

…Hamiləlik dövrü sifətində sapsarı ləkələr əmələ gəlmiş, qarnı qalxıb burnuna söykənmiş Aydan qızlıq təravətini tamam itirdiyindən Əkrəmin ona marağı azalmışdı. Əvəzində isə Fəridənin təbii gözəlliyi, boy- buxunu, nəvazişi onu lap dəli eləmişdi. Şirkətin adının məhz qızla bağlı olduğunu gizlicə Fəridəyə çatdırmağa məqam axtarırdı»…

Çox keçmir ki, qəzetlər Əkrəmin fırıldaq, yalan, haram üzərində qurulmuş biznesinə qaynatasının himayəçilik etdiyi barədə məlumat yayırlar. Və bundan xəbər tutan nazir sarsılır…

«…Nazim müəllim həmişəkindən fərqli bu dəfə katibəsinə salam vermədən: «Heç kimi yanıma buraxma, zəng vuranlara söylə yerimdə yoxam», - deyib kabinetinə girdi. Kreslosunda əyləşib, başını əlləri arasına aldı: «Yaramaz! Kürəkəndən də oğul çıxar? Təmiz adımı batıran… Hesabat dinlənəndə bir ağzıgöyçək məsələni mütləq qabardacaq». O, kresloya çökmüşdü, nəfəsi çatmır, boğulurdu. Qalstukunun düyününü çətinliklə boşaldıb, köynəyinin düyməsini birtəhər açdı. Səssiz kabinetdə ildırım gurultusuna bənzər qəfil telefon zəngi onu səksəndirdi. Çevrilərkən dövlət telefonunun işığının tez- tez yanıb- söndüyünü gördü. Əlini dəstəyə uzatmaq istədi, bacarmadı, sanki ürəyinə uzun, nazik biz sancıldı. Sol kürəyində şiddətli ağrı duydu, sinəsi od tutub yandı. Özünü ələ almağa çalışsa da, gücü çatmadı, kreslonun üstündə ikiqat vəziyyətdə əyildi.

Bədəni get- gedə boşaldı, tamam sustaldı, boynu sola əyildi, yarıaçılmış sönməkdə olan gözləri pəncərəyə sarı zilləndi – beləcə, hərəkətsiz qaldı…

Katibə içəri girmək üçün icazə istədi, Nazim müəllimdən səs- səmir gəlmədi. Qız tərəddüdlə yaxınlaşıb onun pəncərəyə sarı boylanmış donuq təbəssümünə baxdı, birdən var gücüylə qışqırdı»…

Müəllif Nazim müəllim obrazını əsərə üzərində o qədər də «işləmədən», süjetin yardımçı bir hadisəsi kimi daxil etsə də, bu obraz formal və ya süni deyil, sadəcə, yazıçını maraqlandıran mətləb başqa olduğundan onu (Nazim müəllimi) hadisələrin mərkəzinə gətirmir, xarakterini axıra qədər açmır, əsərin dramatizmindən müəyyən məsafədə saxlayır ki, bu da, fikrimizcə, povestin idyea-bədii məntiqinə uyğundur.

Əkrəm Fəridə ilə görüşəcəyi anları səbirsizliklə gözləyir… Və qəribə bir yuxu görür…

«…Əkrəm çarpayıda o yan- bu yana qurcalana- qurcalana sübhə yaxın yuxuya getdi. Yuxuda özünü ana təbiətin qoynunda, dağların əsrarəngiz qucağında, şehli çəmən çiçəklərinin arasında, çeşmə başında gördü. Arıların, əlvan xallı kəpənəklərin əhatəsində xoşbəxt- xoşbəxt dayanmışdı. Təbii gözəlliyi və harmoniyanı içinə çəkmişdi. Birdən ayağına nəsə dolaşdı. Elə bil ayaqlarını kəndirlə bir- birinə pərçimləyib bağladılar. Qəflətən kəndir rezin kimi sıxıldı və

Əkrəm təpəsi üstə aşdı. Qara bir əfi ilan baldırına dolaşmışdı. Sürünən kəmfürsətin onu çalıb- çalmadığını kəsdirə bilmədi. İlan bapbalaca yastı başını qaldırıb, Əkrəmin gözlərinin içinə baxır, tez- tez dilini çıxarır, qorxunc, bədheybət çılğınlıqla fısıldayırdı»…

Fəridə ilə Pərviz Əkrəmlə Aydangilə qonaq gəlirlər. Məqsəd də bundan ibarətdir ki, Əkrəm işlədiyi müəssisə bağlanmış Pərvizi öz şirkətinə işə götürsün…

«…Fəridə birinci Əkrəmlə əl tutub görüşdü. Elə bil Əkrəmin bədənindən güclü cərəyan aıxını keçdi. Sifəti haldan- hala düşdü, qızın əlini xeyli buraxmadı. Fəridə diksinən kimi oldu, hiss elətdirmədən əlini Əkrəmin ovcundan yavaşca dartıb, Aydana yaxınlaşdı. Bu an Əkrəmlə göz- gözə dayandılar. Heç nə dəyişməmişdi, tülkü yenə cildindəydi. Baxışlarında bir hərislik, şəhvət gördü. Sonra Əkrəmin Pərvizlə qucaqlaşıb öpüşdüyünə baxdı: «Gör özünü necə mehriban göstərir. Bütün hərəkətləri riyakarlıqdan, saxtakarlıqdan yoğrulub»…

Pərvizlə Əkrəm söhbət edirlər… Və bu söhbətdə həm onların dünyaya fərqli baxışları, həm də dünyaının «məzmun»u aydınlaşır…

« -Pərviz, qardaş, işlərin necədir?

Pərviz gülə- gülə:

- Niyə, olmayan işlərim pis getmir, - dedi.

Pərvizin bu zarafatı Əkrəmi açdı. Şaqqanaq çəkib güldü.

- Heç iş üçün kiməsə müraciət eləmisən? – soruşdu.

- Çox yerə müraciət etmişəm, ya 17 yaşından 25 yaşa qədər cavan qızları götürürlər, ya da…

- Hə, zəmanə çox pis istiqamətdə dəyişib.

- Düz deyirsən, Əkrəm, insanlar korlanıb. Qabaqlar bir «sən öl»ə qan bağlayardın… İndi isə ata- ana heçdi, ən müqəddəs şey puldu… Böyüklü- kiçikli hamı pula sitayiş edir.

- Bəs nə bilmişdin pulu? Qardaş, indi ölünü pulla diriltmək mümkündü. Namus da, qeyrət də, həyat da puldur, pul…»

Məqsədinə mümkün qədər tez çatmağa can atan Əkrəm elə mətbəxdəcə fürsət düşmüşkən Fəridəyə olan «hisslər»ini biruzə verir…

«…Fəridə bu qeyri- səmimi baxışda nədənsə qəribə bir işartı gördü. Əkrəmin bəbəkləri çöl pişiyinin bəbəkləri kimi parıldayırdı. Fəridə neçə illər öncə Tibb Universitetinin qapısı önündə boynubükük, cəsarətsiz halda büzüşmüş Əkrəmlə indiki qarnı şişman, buxağı sallaq, qətiyyətli, özünə güvənən, dil pəhləvanı Əkrəm arasında yerlə göy qədər fərq gördü.

Fəridə illər uzunu tanıdığı Əkrəmin bu vəhşi baxışını görəndə, bir qədər çaşdı, səksəndi, mətbəxdən uzaqlaşmaq istədi. Bu çaşqınlığı Əkrəm dərhal hiss elədi. Elə həmin çöl pişiyi hiyləgərliyi ilə də baxışlarını Fəridənin gözlərindən yayındırdı, qamətinə, boy- buxununa nəzər saldı. İrəli yeriyib, qaz plitəsinin üstündəki tavanın qapağını qaldırdı…

…Əkrəmin sol böyründən boylanıb buğlanan qazana baxdı. Əkrəm onun hənirini, ətirli nəfəsini üstündə duydu. Azacıq geri çevrildi, çiyni Fəridənin sol döşünə toxundu – təpəsindən- dürnağınacan canından gizilti keçdi»…

Əkrəm, nəhayət ki, Fəridəyə öz «məhəbbət»ini hərəkətlərilə yanaşı kifayət qədər «pərgar» dili ilə də izhar edir. Və «cavab»ını alsa da, ümidini kəsmir…

« - Mən, Fəridə, sənə olan sevgimi gizlədə bilmirəm. İnan, bu mənim günahım deyil.

- Əkrəm müəllim, sevgi ürəkdə pardaqlanan müqəddəs duyğudur. O hər kəsin qəlbində ola bilər, ünvanını tapsa da, tapmasa da. Amma ən böyük mərdlik, əgər sevgi öz ünvanına, öz məcrasına yönəlməyibsə, onu hörmətə və ehtirama çevirməkdi. İndi yaxşı olar qabların yerini göstərəsiz, - Fəridə fikrini ərklə rəsmi məcraya yönəltdi.

Əkrəm planlarının bura qədər pis getmədiyini düşündü: «Bu minvalla haracan gedəcək? İçkiyə qurşanıb, uçurumun kənarında dayanmış Pərvizə yapışası deyil ki? Axı, Fəridə ailə qurmaq xatirinə evlənib, Pərvizi heç sevməyib. Gec- tez yəqin mənimlə hesablaşacaq»…

Müəllif öz nadürüst (və həyasız) qəhrəmanının cavabını dərhal vermir. Və onu «məcbur edir» ki, öz naqis hərəkətlərini axıra qədər davam etdirsin… Obrazın özünü mümkün qədər çox ifşa etməklə «zənginləşmə»si kifayət qədər klassik ənənədir…

Fəridə bilir ki, Əkrəm ondan əl çəkməyəcək… Və bundan «istifadə etmək» qərarına gəlir…

«…Əkrəmin baxışlarındakı hərisliyi, hiyləgərliyi görmək üçün mahir ustalığa ehtiyac yox idi. Fəridəyə hər şey bəlliydi. Anlayırdı ki, belə adamdan iş almaq, öz vədlərini yerinə yetirməyə vadar etmək səriştə, bacarıq tələb edir. Bu döyüşdə qalib çıxacaqdısa, gələcəyini quracaqdı. Axı, o acizliyin bariz düşməniydi. Alovun sevgisi uğrunda mübarizə aparmaması, ali məktəbə girə bilmədiyinə görə sınıb həyat səhnəsində çiliklənməsi ona çox ağır gəlir və bu acizliklə barışmırdı. İndi Fəridə əksinə, qətiyyən vəddən geri çəkilməyəcəkdi. Əkrəmi dönük, xilaf çıxmamağa məcbur edəcəkdi. Geriyə yol görmürdü. Ancaq necə? Bəs, məsələ açılacağı təqdirdə, Aydanla münasibətinə ləkə düşməyəcəkdi ki?..»

…Pərviz işə düzəlir…

«…Pərvizin işləri pis getmirdi. Şirkətin adından müqavilələr bağlamaq üçün tez- tez xarici ölkələrə ezam olunurdu. Əkrəm onu yaxın- uzaq xaricə – Qazaxıstana, Ukraynaya, Kanadaya göndərərkən kifayət qədər xərclik də verirdi. Hər dəfə Pərvizi yola salarkən: «Orda özünə yaxşı bax, xəsislik eləmə, tələsmə, aldığın məhsulun keyfiyyətini mütləq yoxla, birinci əldəki qiymətini dəqiq öyrən, müqavilə bağladığın adamları sınaqdan keçir…» tapşırıqlarını verir, doğma adam kimi canıyananlıq edirdi»…

Əkrəm telefonda Fəridəyə öz həyat- əxlaq fəlsəfəsini anlatmağa çalışır… Bu «əxlaqsız fəlsəfə» isə Fəridə üçün yeni deyildi. O, Əkrəmin hansı yuvanın quşu olduğunu yaxşı bilirdi. Ancaq girdiyi «oyun»dan daha uğurla çıxış yolları axtarırdı. Və bunu, yəqin ki, gec- tez tapacaqdı…

« - Fəridə, sən daha firavan, zəngin yaşamağa layiqsən. Bəzən həyatda adamların yeri səhv düşür. Yaxşı bilirsən bizim, yəni hər ikimizin ailə dünyası səhvlər, uçurumlar üzərində qurulub. Nə bu imkan bolluğunda özümü, nə də indiki halda səni xoşbəxtlər cərgəsində saymıram.

Fəridə söhbətin səmtinin hara getdiyini tez başa düşdü. Əkrəmi fikrindən yayındırmaq istədi:

- Yox, Əkrəm, nə sən uşaqsan, nə mən. Maşallah, ağıl dəryasısan, bilirsən ki, insan yaşın bəlli mərhələsini keçəndən sonra bəxtinə boyun əyməli, taleyi ilə barışmalıdır. Axı, mənəvi kriteriyalar insan formalaşa- formalaşa müəyyənləşib. Bunun üçün əsrlər, qərinələr, min illər yaşanıb, necə deyərlər, su axıb, axırda çuxurunu tapıb. Həyata, insana münasibət durula- durula, tənzimlənə- tənzimlənə bu günə çatıb.

- Bilirəm, Fəridə. Düz buyurursan, uşaq deyiləm. Sənin də dünyagörüşünü, hazırcavablığını, açıqfikirliliyini dəyərləndirirəm. Mənə elə gəlir, zəmanə indi üzə durub. Bu gün şəhərin küçələrindən sel kimi axıb keçən, sağa- sola şütüyən bahalı maşın sahibləri sənin əlinə su tökməyə layiq deyillər. Bilirsən, tezliklə mərkəzdə evin olacaq, güzəranın kəllə- çarxa qalxacaq. Axı, niyə sənin villan, başlıcası, ömürlük təminatın olmasın? Başqa cür çıxmasın, yolunu bilirəm – açarı mənim əlimdədir.

- Əkrəm, əgər indi məqsədin telefonda bunları söyləməkdirsə, nahaq. Pərvizi də başqa niyyətini həyata keçirmək üçün götürmüsənsə, o da nahaq»…

Fəridə xəyala dalır… Orta məktəb illərini xatırlayır…

«…Gözlərini açıb- yumdu. Birdən… hənir duydu. Gözlərini açmadan güclə eşidiləcək zəif səslə soruşdu:

- Sən kimsən?

- Mənəm… tanımadın? Alov… - Səsi həyəcandan və təlaşdan titrəyirdi, - başqası kim ola bilər ki?

Fəridə güclə eşidiləcək pıçıltı ilə:

- Mən səni necə də gözləyirdim. Hər gün- səhər də, axşam da gözləyirdim. Gözüm yollarda qalmışdı. Sənsizliyin tənhalığı üzürdü məni… Fəridə əllərini Alova sarı uzatdı. Özünü güclə toplayaraq, yenidən pıçıltıyla:

- Gəl yanıma, sevgilim, - dedi. Alovu bağrına basdı. Titrək barmaqlarıyla Alovun saçlarını, boyun- boğazını, sifətini sığalladı. Sağ əlini qaldırıb dodaqlarına sürtdü. Bir- bir barmaqlarını öpməyə başladı. Alov artıq heç nə dərk etmirdi. O, dəli bir ehtirasla Fəridənin paltarını əynindən çıxartdı. Elə bu zaman Alovun ağuşunda sanki gözəllik ilahəsi peyda oldu. Fəridənin dərisi necə də gözəl idi, bir

az da maviyə çalan zərif ipəyi xatırladırdı. Alov onun üzərinə əyilərək dodaqlarını, boynunu, bir ovuca sığan balaca girdə döşlərini dəlicəsinə öpüşlərə qərq etdi. Artıq onlar bir- birinə qovuşmuşdular.

Alovun ehtiraslı öpüşləri və nəvazişləri Fəridənin dumanlanmış gözlərində şimşəklər çaxdırırdı. «İlahi, bu ötən illəri Alovsuz necə yaşamışam?» - şirin təmasdan məst olmuş Fəridə belə düşünürdü.

- Söz ver ki, mənimlə qalacaqsan, - nazlanaraq Alovu ürkək- ürkək süzdü.

Alov susdu, yalnız başının işarəsi ilə onun dediklərini təsdiq etdi…

…Fəridə düşündü ki, yəqin hər adamın həyatında bir ayılma məqamı olur və həmin andan sonra o, əsl həqiqətin mahiyyətinə varır, səhvlərini tərəzinin gözlərinə qoyur, şirin xəyalların dalınca düşüb gedir, ta rahatlıq tapana qədər»…

İlk sevginin (nə qədər uğursuz olsa da!) bitib tükənməyən mənəvi enejisi Fəridəyə güc- qüvvət verir.

Və Fəridə Əkrəmlə haqq- hesabı çürütmək qərarına gəlir…

«…Əkrəm indi Fəridənin gözündə ən təhlükəli ilana çevrilmişdi. Deməli, qara ilanla döyüş olacaqdı. Hər halda, Əkrəm tez təslim bayrağını qaldıran rəqib deyildi. Mayası da, qayəsi də xəyanətdən, xəbislikdən yoğrulmuşdu… Onunla son dərəcə ehtiyatlı davranmaq lazım idi. Gecələr sürünməyə adət etmiş təhlükəli əjdahanın gərək zəhərli dişini çəkə biləsən, zərərsizləşsin, ağusu hər yoldan keçən günahsızdan ötüşsün. Bunun bircə yolu vardı. Əkrəmi əzmək, ifaşa eləmək. Elə dözülməz hala salmaq ki, ömrü boyu başını yuxarı qaldırıb, adamların üzünə dik baxa bilməsin!

Fəridə: «Sevginin müqəddəsliyi, məhəbbətin paklığı, ülviliyi, qədərsizliyi haqqında ona hər şeyi dedim, bir Quranlıq misal çəkdim. Amma o, bunların hamısın qulaq ardına vurdu, qiymətləndirməyi bacarmadı. Mən onu başa saldım ki, əgər sənin hisslərin təmizdirsə, alidirsə, o hisslər hörmətə və ehtirama çevrilməlidir. O hisslər səni çirkaba, xəyanətə sürükləməməlidir. Təsiri olmadı, əksinə getdi, quduzlaşmağa, həyasızlaşmağa başladı. Yırtıcı xislət sahibinə hörmətlə yanaşmağın, adam yerinə qoymağın mənası yoxdur. Mən bu biabırçılığa və abırsızlığa birdəfəlik son qoymalıyam», - düşündü»…

Fəridə xatırlayır ki, Aydan bir vaxtlar Əkrəmin qorxaqlığından, hətta küçədə təsadüfi qarşılarına çıxan iti görüb qaçdığından danışırdı. Odur ki, onun həmin zəifliyindən də istifadə etməyi qərara alır…

«…Əkrəm sevincindən «şişmişdi», az qala şar kimi partlayacaqdı. Qoltuğundakı hədiyyə bağlamasını möhkəm- möhkəm sıxdı: «On- on beş dəqiqə… Yəqin hamamda çimir. Lap yaxşı, yaxalansın, təmizlənsin…Elə içəri girən kimi…»

Əkrəm Fəridənin ayırdığı vaxtı birtəhər ötürdü. Alaqaranlıqda Fəridəgilin mənzilinə doğru ilan kimi süründü. Girişdən keçməmiş dayandı, qorxaq tülkü kimi o yan, bu yana baxdı. Kimsə gözünə dəymədi. Bir göz qırpımında ikinci mərtəbəyə qalxdı. Bu evə yüz dəfə gəlibmiş kimi qapını yavaşca aralayıb içəri girdi»…

Hamamdan sabunlu- sabunlu, xələtlə çıxan Fəridə Əkrəmdən xahiş edir ki, əli sabunludur, xələtin cibindən açarı götürsün…

«…Qıvrılmış, soyuq nəyisə cibindən çəkib çıxaranda, çox da iri olmayan ağzı açıq, gözləri par- par yanan gürzəni yerə tullayıb, bağıra- bağıra üç- dörd addım giriş qapısına tərəf sıçradı. Fəridədən aralı döşəmədə gürzənin tərpəndiyini görən Əkrəmin sifəti soyuq, bəmbəyaz qar rəngində oldu. Əlləri, qolları, dizləri, bütün bədəni əsim- əsim əsirdi. Gözləri bərəlmiş halda kəkələyə- kəkələyə «yalvarıram, məni xilas elə! Vallah, məni çaldı. Zəhərli gürzədi. Amandı, Fəridə, xahiş edirəm, axı, sən həkimsən. Zəhər bədənimə yayılmamış…» Dili tutuldu, dizləri qatlandı.

Fəridə istehza və qəzəbli baxışlarını Əkrəmin solğun üzünə zilləyib nifrətlə:

- Hə, can şirin şeydi, amma qorxma. Bir kapsul «antigürzə» bəs edər. «Sənin damarlarında onsuz da başqa zəhər axır. Əslində sənin qanın qan deyil, zəqqumdu. Əsas məsələ sənin o zəhərdən xilas olmağındı. A bədbəxt, özünü ələ al! Bu nədi, şalvarını isladıb batırmısan. Ömrümdə sənin kimi qorxaq məxluq görməmişəm. Məgər kişilik cəsarətin budur?» - düşündü, yenə ucadan, - Əkrəm müəllim, özünü ələ al, o tərpənən, hərlənən ilan deyil, oyuncaqdı, - dedi»…

Fəridə özündə olmayan Əkrəmi bir az da dolayır…

«…Əkrəm qapının ağzında mıxlanıb qalmışdı. Taqəti, əhdi kəsilmişdi. Nə içəri keçir, nə də geri çəkilirdi. Axır ki, özündə cəsarət tapıb illər xəstəsi kimi mızıldandı:

- Yox, vallah, içəri keçə bilmərəm. Məni elə günə qoydun ki…

- O nə sözdü, Əkrəm müəllim? Hörmət- izzət öz yerində. İndiki qəzavü-qədər Allahın işidi. Gözlənilməz işləri O buyurur, yoluna qoyur.

Əkrəm yavaş- yavaş udqundu, rəngi qızardı. Üst- başına nəzər saldı. Elə bil içindən çimdiklədilər. Diksindi. Şalvarının islandığını hiss edib, gülünc vəziyyətə düşdüyünü anladı. Dünya başına fırlandı, gözləri qaraldı.

- İndi get, yaxşı yol, yaxşı- yaxşı fikirləş, nə vaxt istəsən, əziz qardaşım, yaxın dostum kimi bu qapı üzünə açıqdır.

Əkrəm geri çəkildi. Bir qapıya tərəf baxdı, bir də telefon aparatının böyrünə yığdığı hədiyyələrə. Geri dönmək, qaçıb aradan çıxmaq istəyərkən Fəridənin amiranə səsini eşitdi:

- Hədiyyələrini götür apar.

- Yox, onlara əl vura bilmərəm.

- Sən apara bilməzsən, mən də saxlaya…

Əkrəm ağzını açmaq istəyəndə Fəridə imkan vermədi.

- Əgər götürməsən, gətirib evinizdə Aydana verəcəyəm. Ailənizin dağılmasını istəmirsənsə, götür. Fəridə gül dəstəsini də, hədiyyə bağlamasını da Əkrəmin qoltuğuna verdi. – Götür, götür…

- Yaxşı, yaxşı, Fəridə, sakit ol. Mən gedirəm…

Eyvanın qapısı zərblə çırpıldı.

İlan ağzından qurtulmuş və şalvarını islatmış Əkrəm pillələri ağır- ağır enməyə başladı. Hər ayağına sanki bir pud daş bağlanmışdı…

Addım səsləri səssiz gecənin qaranlığında əriyib yox oldu»…

Əlbəttə, Əkrəm oyuncaq ilandan qorxub şalvarını batırmağa tamamilə layiq olsa da, fikrimizcə, onu «başa salmaq» üçün ədəbi- estetik baxımdan elə də məqbul üsul sayıla bilməz… Ciddi mənəvi- əxlaqi problemlərin qaldırıldığı bir əsər üçünsə, ümumiyyətlə, məqbul deyil…

Əkrəmin cəzalandırılması üçün əsaslı səbəblər mövcud idi, daha doğrusu, bu vəziyyətə qədər müəllif onu hər cür cəza üçün «hazırlamışdı», lakin cəza üsulu tamamilə fizioloji motivlə – Əkrəmin itdən, ilandan və s. qorxmasından istifadə etməklə verilə bilməzdi.

*

*   *

«Qumru yumurtaları» (2009) povestinin ikinci adı «Züleyxa və üç Yusif əfsanəsi»dir…

Əsər hər kəsin rahat (və yüngül!) zövq ala biləcəyi məşhur bir mahının bədii- psixoloji interpretasiyası ilə başlanır…

«…Mahnıda deyilirdi: «Hər şey gözəldir həyatda – qışda, baharda, aydın gündüzlərdə, qaranlıq gecələrdə, bəyaz şaxtalarda…» Dünyanın başdan- başa gözəl olması mümkündürmü? Bəlkə bunun üçün hər bir insanın həyatı şəffaf, maneəsiz, həm də mənalı olmadır?..

Necə yəni «Hər şey gözəldir həyatda?..» Bəs mənim həyatım gözəldirmi? Təmizdirmi, şəffafdırmı? Eheyy, sizinləyəm, bu dünyanın gözəlliyindən ağızdolusu dəm vuranlar, mənə hiyləsiz, dürüst, səmimi cavab verin! Bəlkə mənim həyatımın heç zərrə qədər dəyəri yoxdur? Bəlkə məni bu halda, bu vəziyyətdə görməsəniz daha yaxşıdır?»

Yusif gözəl bir uşaq idi…

«…Sonra o, böyüyüb məktəbə getdi, özündən yaşca böyük bir qızı sevdi, açıb heç kəsə danışa bilmədiyi uğursuz sevgisindən sonra dərslərindən aldığı beşlər dördə, üçə, sonra da ikiyə endi. Səkkizinci sinifdə siqaretə, doqquzuncu sinifdə içkiyə qurşandı. Sonra da məhəllədəki tay- tuşlarının Toppuş Əntiqədən kibrit qutusunda aldığı anaşa deyilən otdan çəkdi»…

Nəsib, Züleyxa və Yusifin anaları qonşu idilər, ataları isə yox idi. Uşaqlar bir yerdə böyümüşdülər.

Yusif Nəsibdən də, Züleyxadan da kiçik idi…

«…Göyçək arvad Yusifi qışda evdə vannada, yayda isə balaca həyətlərindəki əncir ağacının altında çox vaxt Züleyxanın köməyi ilə çimizdirirdi.

Bəzən Züleyxa vedrədən isti suyu parça doldurub Yusifin başına tökür, Göyçək arvad çimizdirir, bəzən də əksinə, Göyçək arvad su tökür, Züleyxa Yusifin bədənini sürtür, sabunlayır, arada da onu gah qıdıqlayır, gah da çimdikləyirdi. Bu vaxt Yusif atılıb- düşür, gah qəhqəhə çəkib uğunur, gah da əsəbiləşir, ağlamsına-ağlamsına «Ana, özün, özün» - deyirdi»…

Və bir gün gizlənpaç oynayanda Züleyxa Yusifi dalda bir yerə aparmış, ona demişdi ki, «sən mənim ərimsən, oldumu?»

«…Yusif başını tərpədərək razılığını bildirmişdi. Bu vaxt Züleyxa Yusifin yanaqlarından, boynundan, dodaqlarından daha da qızğınlıqla öpmüş, qəfildən onu dikəldərək ayağa qaldırmış, balaca əlini ovcuna alaraq, nazik yay donunun altına – çılpaq sinəsinin sol tərəfinə qoymuş, «gör ürəyim necə döyünür?» - demişdi.

Sonra döşlərini göstərib pıçıldamışdı:

- Görürsən, döşlərim çıxıb. Anam deyir ki, bunlar qumru yumurtalarıdır. Sıx də… Qorxma, sınmaz!

Yusif özünü itirmişdi. Züleyxa hirslənmişdi.

- Qorxaq. Fərsiz. Mat- mat üzümə baxır. Mən səni belə bilməzdim. Sabah də gələk. Yaxşı?

Yusif dinməmişdi»…

Sonra Züleyxa Yusifin özünə böyük qardaş bildiyi Nəsibə ərə getmişdi.

Ancaq Yusifdən əl çəkməmişdi…

Və bədii konflikt buradan başlayır… Nəsib «hadisələr»dən kənarda qalır. Qədim əfsanədə olduğu kimi, «balaca Yusif» Züleyxanın şıltaq «məhəbbət hissləri»nin (əslində, «oyunlar»ının) «qurban»ına çevrilir…

«…Yazın xoş günlərindən biri idi. Təbiət şəhərin ən köhnə məhəllələrinin hisli- paslı evlərinə də ətir çiləmişdi. Yusif də anası kimi Züleyxanı «şiringəlin» deyə çağırırdı. Dostu Nəsib Neft Daşlarında təzə işə düzəlmişdi, gündə on iki- on üç saat çalışırdı, ay ərzində cəmi bir neçə gün evə gəlirdi. İş yerindən mənzil alacaqdı deyə, ayrılığa, hər əzaba dözürdü.

Nəsib gedəndən sonra Yusif tək qalmışdı. Anası da Züleyxanın anası – qapıbir qonşuları Toppuş Əntiqəyə qoşulub xırda- para ticarətlə məşğul olur, bəzən də xarici ölkələrə bir həftəlik səfərə gedirdi.

Belə günlərdə Nəsibin yoxluğundan istifadə edib köhnə evlərinə gələn Züleyxa, Yusifi yoldan çıxarmaq üçün min bir cildə girirdi. Züleyxa bilirdi ki, Yusifin dərs hazırlamağa həvəsi yoxdur. Gününü avara tay- tuşları ilə veyillənməkdə, evə qayıdanda isə «Cocuqlar duymasın» adlı türk teleserialına baxmaqla keçirir»…

Züleyxanın hərəkətləri – Yusifə «eşq təcavüzləri», imkan olan hər məqamda heç bir norma, əxlaq tanımır, hansısa fövqəladə bir hissin, istəyin təsiri- təzyiqi ilə hər cür çərçivədən çıxır…

«…Bir dəfə Yusif evdə olanda Züleyxa həyətdəki hamama girdi, yuyundu və aradan heç üç dəqiqə keçməmişdi ki, onu səslədi:

- Yusif, məhraba yadımdan çıxıb, nə olar, onu bizim evdən gətir də.

Yusif paltar dolabının aşağı gözündən məhrəbanı götürüb hamama yaxınlaşanda, qapı qəfildən açıldı. O, Züleyxanın buğlanan bəmbəyaz bədənini görəndə çaşdı, məhraba əlindən yerə düşdü, həyəcandan ürəyi tez- tez döyündü, dili tutuldu. Guya Züleyxa da özünü itirdi. Bir əli ilə ayıb yerini, o biri əli ilə də gah sağ, gah da sol döşünü gizlətməyə çalışdı»…

Züleyxa bu hərəkətilə Yusifi, hələ ki, ram edə bilmir, ancaq onun artıq «kişiləşmək» də olan təbiətinə, əhval- ruhiyyəsinə əhəmiyyətli «təsir» göstərir…

«…Yusifin ilk dəfə – soyuq dekabr günlərindən birində məhəllə uşaqlarına qoşulub siqaret çəkməsinə səbəb də elə Züleyxanın tikanlı sözləri, onunla dönə- dönə məzələnməsi oldu. Amma məhəllənin oğlanları təkcə siqaret çəkmirdilər. Bir dəfə onlar Yusifə siqaretin içinə doldurulmuş elə bir şey verdilər ki, bircə qullab vurandan sonra dünya başına fırlandı, gözləri dumanlandı. Bir- birinə dolaşan ayaqları ilə evlərinə güclə gəlib çıxdı. O, həyətə girəndə Züleyxaya rast gəldi və nə üçünsə soruşdu:

- Bu gün neçənci gündür?

Züleyxanın yasəmən ətri saçan nəfəsi üzünə meh kimi toxundu, incə, zərif əlləri saçına sığal çəkdi:

- Neçənci gündür yox, neçənci əsrdir soruşsana – pıçıldayaraq təzə təqvimdən qopardığı yarpaq boyda vərəqi onun ovcuna qoydu.

- Oyan, Yuska, artıq XXI əsrdir!»

Və Züleyxanın öz məqsədinə çatmaq üçün illər boyu hər məqam düşdükcə göstərdiyi ardıcıl cəhdlər, nəhayət ki, öz «bəhrə»sini verir.

Yusif nəşəli günlərinin birində səhər yuxudan ayılıb görür ki, Züleyxanın yatağındadır…

«- İnan mənə, Yuska, hər şey yaxşı olacaq. Bu gecəyəcən sən mənə utancaq, avam bir oğlan təsiri bağışlayırdın. Amma gecə mənə heç kəsdən eşitmədiyim o qədər xoş sözlər dedin ki. Vallah, düz sözümdür. Nəsib hara, sən hara?

Züleyxa Nəsibin adını çəkəndə, Yusifin sarsıntı keçirdiyini hiss etdi, belə qərara gəldi ki, daha indən belə onun yanında bir də ərinin adını çəkməsin. Odur ki, söhbəti dəyişdi»…

Və Züleyxa dərin bir peşmançılıq keçirən, özünə böyük qardaş saydığı Nəsibiin qarşısına nə üzlə çıxacağını düşündükcə həqiqi vicdan əzabı çəkən, ölüb yerə girmək istəyən Yusifi sakitləşdirməyə çalışır… Çünki onun məqsədi nə yolla olursa- olsun Yusifi öz yanında saxlamaqdır, hətta bunun üçün şantaja əl atmaq lazım gələrsə belə… Lakin Züleyxa Yusifi havalandırmaq, özündən çıxarmaq, psixoloji sarsıntılara məruz qoymaq da istəmir. Sadəcə (buna «sadəcə» demək olarmı?), «mənimsəmək» istəyir…

« - Sən bu gecə qəlbimin lap sarı siminə toxundun. Qadın nədir, incə musiqi aləti. Bilmirəm, bu hansı yazıçının fikridir, amma dəqiqdir. İndiyədək kimsənin barmaqlarının dəymədiyi pərdələrdə məharətlə gəzişdin. Çoxdan həsrətində olduğum mahnını səsləndirdin. Bilirəm, peşmançılıq səni sıxır, amma bu gecənin necə şirin, dadlı, unudulmaz olduğunu təsəvvür edə bilməzsən. Yuska, niyə susursan, qurban olum, danış, bir söz de də?

Yusifin lal- dinməz düşüncələrə qərq olması sanki Züleyxanı birdən ayıltdı, qorxuya düşdü: «Birdən havalanar, dəli olar?»

- Yuska, özünə gəl, nə olub sənə? – deyib onu bərk- bərk silkələdi. – Axı, gecə sən bambaşqa idin. Elə çılğın, elə cazibədar. Bu dəqiqə sənə elə bir söz deyəcəyəm ki, çəkdiyin əzabdan qurtulacaqsan. O heç sənin dostun deyil. İnan mənə, bir şey bilməsəm, deməzəm.

Züleyxanın son sözləri Yusifin beynində ildırım kimi çaxdı»…

Züleyxa Yusifi bu təsadüfi görüşdən sonra həmişəlik əldə saxlamaq üçün provakasiyaya çəkir, gecəki hadisələri kameraya çəkdiyini bildirir…

«…Yusifin susduğunu, nisbətən toxdadağını görəndə, Züleyxa ürəkləndi, daha həvəsləvə inamla danışmağa başladı:

- Özün də bilirsən ki, Nəsib altı- yeddi aylıq müqavilə ilə Ərəbistana işləməyə yollanacaq. Namus- qeyrət barəsində düşünən adam da heç cavan arvadını bu müddətə tək qoyub gedər? Sözün qısası, elədiyimiz günahı yarı bölməliyik. Bir nəfər üçün çox ağır olar, - o, əlindəki diski Yusifə uzatdı. – Unutma ki, Nəsib bilsə, ikimizi də öldürər. Ancaq sözümə qulaq assan, hər şeyi yoluna qoyaram»…

Yusif nə qədər dəhşətli  cinayətə yol verdiyini dərk edir, ancaq onu da anlayır ki, artıq geriyə yol yoxdur… Və o, Züleyxanın cəngindədir…

«…Züleyxa vanna otağından çıxıb hamam dəsmalı ilə qurulana- qurulana:

- Yuska, gəl sən də yuyun, yaxşı su gəlir. Mən də gedim mətbəxə; ürəyin nə istəyir, canım- gözüm?

«Sözə bax, ürəyin nə istəyir! Kişiliyim çatsaydı, namusum, qeyrətim olsaydı, ölüm istəyərdim!»

Yusif hələ çox gənc olsa da bundan sonrakı həyatının yalnız vicdan əzabları içərisində keçəcəyinə şübhə etmir… Odur ki, tərəddüdlər, suallar qarşısında qalır… Nə edəcəyini qərarlaşdıra bilmir…

«… Nəsib tərsin biridir, dediyinə baxma, Züleyxanı nə qədər qısqanmasa da, gömrükxanada dar balağından kokain paketi çıxan bir qayınananın evinə gəlməyinə heç vaxt razı olmaz, hökmən fikrindən daşınacaq. Bəlkə bu Züleyxanın ssenarisidir? Bəlkə həyətə mənə görə qayıdır? Bəlkə o diski almaq üçün mən də yalançı aşiq roluna girim? Tutalım, diski alıb məhv  etdim, bəs bu biabırçılıqdan

sonra rahat yaşaya biləcəyəmmi? Bəlkə əsgər gedim? Əsgərlikdən sonra da… Əsgərlikdə ermənilərin tərəfinə könüllü keçmək də mənim tutduğum bu namussuz hərəkətdən yaxşıdır»…

Züleyxa öz kifayət qədər «mükəmməl» qadın məntiqilə özündən yaşca kiçik Yusifin qarşısında «filosofluq» edir, mifologiya tarixinin dərinliklərinə varır…

«…Sən çox sadəsən, həm də üzüyolasan, yəqin dini rəvayətlərdə gözəlliyindən bəhs olunan Yusif Peyğəmbər kimi safsan, təmizsən. Misir padşahının vəziri Yusifi kölə kimi satın alsa da, arvadına buyurmuşdu ki, ona öz oğlu kimi hörmət etsin, qadınsa ona meylin salıb kam almaq istəyir, yəni aşiq olur. Amma istədiyi cavabı ala bilməyəndə, hiylə ilə onu zindana saldırır. Hə, sən də mənim üçün Yusif qədər gözəl olmağına gözəlsən, ən azından ona görə ki, sən də Züleyxa kimi gözəl bir qadınla necə rəftar etməyi bilmirsən. Zindana düşməyi gözəl qadınla yaxınlıq etməkdən üstün tutan Yusifi bir qul ikən Misirdə sultan edən bəs hansı qüvvə idi görəsən? Saflığı, təmizliyimi? Yoxsa Allah qorxusu? Bəlkə bütün bunlar bizim kimi adamları günah işlərdən çəkindirməküçün uydurulub?»…

Və əlavə edir…

«…Bəlkə, Züleyxa kimi bir qadınla yaxınlığı elə Yusifi taxt- taca aparacaqdı? Əgər günah deyilən bir şey insana padşahların belə fərmanla verə bilmədiyini verirsə, xoşbəxt olmağının qarantıdırsa, bəs onda necə? Günah törədən adam mənliyini itirdiyindən daha çox maddi cəhətdən bəhrələnir. Mən bu günahı zövq xətrinə etmirəm, heç kef- əyləncə də saymıram, Yusif! Mən daha məzmunsuz həyat yaşamaqdan usanmışam. Çünki bir dəfə gəlirik biz bu həyata, yalnız bircə dəfə. İnsanın həyatının rəngarəng olması üçün təkcə onun evli olub- olmaması kifayət etmir»…

Etiraf etmək lazımdır ki, Hüseynbala Mirələmovun, demək olar ki, bütün qadın qəhrəmanları kimi Züleyxa obrazı da ustalıqla, müasir dövr üçün xarakterik cizgilərilə yaradılmışdır… Züleyxa yalnız şəhvani hisslərin təsiri altında hərəkət edən bir maşın- mexanizm deyil, həyatı yaxşı bilən, hər hansı istədiyini

gerçəkləşdirəcəyi bir həyat- yaşam mühiti yaratmağa, dünyadan özü istədiyi zövqü almağa cəhd etməkdən yorulmayan bir qadın- enerjidir…

« - … Elə bil nağıllar aləminə düşdüm. Qəfəsdən azadlığa buraxılan quş kimi göylərdə qanad çaldım, oradan boş qalmış qəfəsə – altıillik ailə həyatıma baxıb ağladım. Özümə gələndə gördüm yastığımı göz yaşlarım isladıb. Səni yatağımda görəndə ayıldım. Sən yuxuda uzun- uzun sayıqlayırdın, mən özümə necə haqq qazandırıb, necə təsəlli verəydim axı? Bir an düşündüm ki, təklik, qısqanclıq, sağlamikən övladsızlıq dərdi gəncliyimi gəmirib məhv edir – danışdıqca Züleyxanın gözləri yaşla dolurdu – anam məni pul gücünə oxutmuşsa da, özüm həyatda azdan- çoxdan nəsə öyrənmişəm. Nəsibin qısqanclığı ucbatından iş üzünə həsrət qalmışam. Mənim həyatım həbsxananı xatırladır. Sən bu həbsxananın sahibi olmasan da, nəzarətçisisən»…

Və yenə də «mükəmməl» qadın fəlsəfəsi…

« - Qısqanc kişinin arvadı gec- tez zənciri qırmış quduz itə dönür, fürsət düşən kimi, birinci öz sahibinin, sonra da onun doğmalarının qəlbini didib- parçalayır. Bəlkə ərlərinin həyatını sonradan cəhənnəmə döndərən qadınlar onlardan itib yoxa çıxmış gəncliklərinin intiqamını alırlar? Bilirsən, Yuska, mən sənin düşündüyün qədər də pis adam deyiləm. Bəzən ciddi şeylər barədə düşünmək həyatın ləzzətini qaçırır. Nə isə. Gəl içək, gözəl qadına istədiyini verə bilən sənin kimi gözəl oğlanın sağlığına»…

Züleyxa Yusifi barda – rəfiqəsi Emanın yanında işə düzəldir, tanış hərbi komissarla danışıb əsgərliyə yararsız olduğu barədə sənəd alır…

…Nəsib, Züleyxa və Yusif üçlükdə «uğurlar»ını «Ay işığı» restoranında qeyd- edirlər…

Nəsib Ərəbistana altı- yeddi aylığına ezamiyyətə gedir…

Züleyxanın ad gününü Ema və Yusiflə birlikdə keçirirlər. Nəsib də Əl-Riyaddan zəng edir… Və o da məlum olur ki, Züleyxa hamilədir…

«…Züleyxa güzgüdə- arxa tərəfdə üz- gözündən sevinc yağan Yusifi aydın görürdü.

- Əslində Ema bu xəbəri sənə deməkdə bir az tələsdi. Sabah Nəsib Məkkəyə yola düşücək, düşündüm ki, oradan zəng edəndə desəm, daha yaxşı olar. Nə isə… Sən Emanın yanına dön, mən özüm qəsdən sizi tək qoydum. Bilirsən, dünən ona zəng elədim, ad günümə çağırdım, sözarası səni soruşdu, dedi Yuska yaxşı oğlandır, amma adama yovuşmur. İşdə də heç kimlə qaynayıb- qarışmır. Yuska, başa düş, məncə aramızda olanları Ema hər ikimizə unutdura bilər. Gec- tez onsuz da sən özgəsinin olacaqsan. Sənin gələcəyin hələ qabaqdadır. Hər şey bəlkə bu gecədən asılıdır? Şairlərin uydurduqları sevgi boş xülyadır, onun gur yanan ocaq kimi vur- tut bircə dəfə atəşi olur, bərcə dəfə, sonra ömrü boyu adam bu ocağın közərtisi, sonra da külü ilə əlləşir»…

Və Yusif Züleyxanın ona verdiyi «ot»dan (nəşədən) çəkib elə Züleyxagildəcə Ema ilə bir yatağa girməli olur…

Səhər Emanın boyun- boğazında artıq Züleyxaya tanış ləkələr var idi. Və Ema məmnun qalmışdı…

Bununla belə…

«…Ema ilə yaşadığı sevgi macərası Züleyxa ilə işlətdiyi günahı zərrə qədər də olsa, unutdura bilmirdi. Təklikdə bəzən saatlarla bu barədə düşünürdü. Ema onun bu halını görüb narahat olurdu»…

Vəziyyət (kolliziyalar!) bir qədər də mürəkkəbləşşir, tündləşir…

Yusif hiss edəndə ki, Züleyxa Nəsibdən yox, onun özündən hamilədir dəhşətə gəlir. Züleyxadan tələb edir ki, uşağı saldırsın…

«… Sən məndən alət kimi istifadə etdin. Yazıq Nəsib də elə bilir ki, Allah onun dualarını eşidib, övlad verib. Amma sən… Son bir- iki ayda bədəninin göy yerlərini görməsin deyə, ondan uzaq gəzib dolanırdın. «Mən səndən istədiyimi aldım», - deyəndə bunu nəzərdə tuturmuşsan. Sən oğrusan, haramzadəsən. Sən»…

Züleyxa müqavimət göstərir… Və bu, yalnız müqavimət deyil…

«- Hə, tutaq ki, sən deyəndir, uşaq səndəndir, bunu dostuna açıb deməyə cürətin çatacaqmı? Bəs sən dünyaya necə gəlmisən? Heç bilirsən haramzadə kimə deyirlər? Anan səni də bic doğub. Mən də sənin sevimli ananın yolunu getdim, ərimin dostunu qoynuma aldım. Amma ananın günahı ailəsini dağıtdı, faciəyə

döndü. Mənimsə  günahım səndən uşaq tutub, öz ailəmi qorumaq oldu. Yoxsa uşaq üçün burnunun ucu göynəyən Nəsib gec- tez məni boşayıb başqası ilə ailə quracaqdı, ya da elə ömrümüz boyu it- pişik kimi dolanacaqdıq. Qısqanc olsa da, taleyimə, rastıma o cür ər çıxdığına görə Allahdan razıyam.

Yusif qulaqlarını tutub qapıya yaxınlaşdı»…

Yusif Züleyxadan eşitdiklərinin düz olub- olmamasını anasından soruşur. Göyçək arvad hirslənib «qəhbənin də qızı qəhbə olar» deyərək Züleyxaya zəng edir. Züleyxanın telefonu isə bağlı idi…O Züleyxanın ki, Göyçək arvadın hirslənməsinə rəğmən, hər halda Yusifə həqiqəti demişdi…

Təhkiyə davam edir. Və müəllif özünəməxsus bir şəkildə hadisələri – süjeti şaxələndirir…

«…Göyçək arvad gəncliyində pozğun həyat tərzi keçirən qadınlara həmişə nifrət etmişdi. Amma bir gün hamamlanıb güzgü qabağında mərmər kimi ağ sinəsinə baxarkən öz- özünə valeh olmuşdu,  ehtirasla alışıb- yanan bədənini bir yad kişinin  ixtiyarına vermişdi. Sən demə, o üççə dəqiqəlik həzz ömrü boyu ona vicdan əzabı verəcəkmiş. Həmişə  evə gec gəlməyə vərdiş edən əri, o gecə necə olmuşdusa, evə tez gəlmişdi və arvadını oynaşıyla görmüşdü. O, yad kişinin kürəyinə sapladığı bıçaqla Göyçək arvadı da vurmaq istəyəndə, elə  bil gözəgörünməz bir qüvvə tiyəsindən qan axan bıçağı havada tutub saxlamışdı. Göyçək arvad isə can verməkdə olan oynaşının altından çıxıb, üstü qanlı- qanlı qonşuya qaçmışdı»…

Polislər gəlib Göyçəyin ərini qandallayıb aparanda isə o bağıra- bağıra « qancıq, səni harda olsan, tapıb öldürəcəyəm! And olsun o müqəddəs Qurana!» demişdi…

Və Yusif Göyçək arvadın bu faciəli «eşq macarası»ndan doğulmuşdu ki, həmin sirri yalnız Zülyexanın anası, hər xaricə alverə gedib- gələndə «şorgöz gömrük işçiləri»nin bayram elədikləri, kürəkəni Nəsibinsə zəhləsi getdiyi Toppuş Əntiqə bilirdi. Heç kimə deməyəcəyinə and içsə də, təbii ki, qızı Züleyxaya bu dəhşətli sirri o vermişdi.

Göyçək arvad da xaricə alverə adətən bir yerdə getdikləri Toppuş Əntiqənin çox oyunlarından xəbərdar olsa da, indiyə qədər heç kimə deməmişdi.

Oğlu Yusifə isə danışmalı oldu. Yoxsa ürəyi partlardı…

«…İndi daha o, ölməkdən qorxmurdu. Ürəyini boşaldandan sonra oğlunun gözünün içinə dik baxırdı. Keçmişin ən acı xatirəsini danışanda belə, analar öz müqəddəsliyini itirmirlər.

Yusif anasının keçmişindən xəbərsiz idi. Onun bu etirafı üzünə tərs sillə kimi dəysə də, içində bir yüngüllük duydu. Amma ürəyi qəribə bir şey istədi: «Kaş ayın, ilin tarixini unudaydım, hansı əsrdə, hansı ölkədə yaşadığımı bilməyəydim».

Yusif səssiz- səmirsiz çıxıb getdi»…

Yazıçı haşiyəyə çıxır… Və dövrümüz, zəmanəmiz üçün olduqca aktual (və mürəkkəb!) bir mənəvi- əxlaqi problemə öz münasibətini bildirir…

«…Emberional övladlıq haqqında bir rus filmi göstərilirdi. Öz bətnində doqquz ay daşıdığı uşağı ehtiyac üzündən varlı bir ailəyə satan Marta adlı gözəl bir qadın iyirmi ildən sonra satdığı həmin oğlu tərəfindən təcavüzə məruz qalır. Dünyada hər şeyi olan iyirmi yaşlı həmin cavan emberional övladlığa götürüldüyünü biləndə, intihar edir. Vicdan əzabı çəkən Marta isə bu üsulla daha iki qız uşağı dünyaya gətirmişdi. Kim bilir, intihar etməsəydi, bəlkə də eyni şəhərdə yaşayıb tanımadığı anasına təcavüz etmək istəyən o gənc öz bacısı ilə evlənəcəkdi?..»

Yazıçının problemə münasibəti nə qədər müxtəsər olsa da, bütün aydınlıq (və kəskinliyi!) ilə diqqəti cəlb edib qəhrəmanlarının tərcümeyi- halına (taleyinə) hansı mövqedən yanaşdığını bütün dəqiqliyi ilə göstərir…

…Həm Züleyxadan, həm də anasından küsən Yusif gərgin, əsəbi bir vəziyyətdə Emagilə gəlir. Və düşünür ki, «demək bütün təzə günahlar keçmiş günahlardan qidalanır. Mən anamın bətnindən doğulan, Züleyxanın bətninə düşən təzə günaham»…

Züleyxagildə divanda uzanıb televizora baxanda isə artıq səsi tutulan, xırıltı ilə danışan saqqallı mügənnini görür.

«…Ema çay gətirdi. Gözlərini gah Yusifə, gah da televizora zilləyib susdu. Susmayan isə saqqallı müğənninin keçmişdən gələn səsi idi. İtən səsinə, ötən gəncliyinə baxıb kövrəlmişdi.

«Hər şey gözəldir həyatda!»

Yusif öz- özünə dedi: «Yalandır, yalandır, hər şey yalandır həyatda». Əsəbindən televizoru vurub sındırmaq istədi»…

Yusif xəstəxanaya düşür. Onun  yanına gəlmiş anasına uşaq vaxtı kəndə xalasigilə gedəndə yuvasından qumrunun yumurtalarını götürüb sındırdığını danışır…

Və xatırlayır ki…

«…Elə bu vaxt xalası gəldi, sınmış yumurtaları görüb dedi:

- Sən neylədin, ay sağolmuş? Yazıq qumru hər il o kolun içində bala çıxarırdı. O kolluğa heç  tülkü də girə bilmirdi. Ora bir ilan da dadanmışdı - istəyirdi ki, yumurtaları yesin. Qurmu dimdiyi ilə onun gözlərini tökdü. İlan kor oldu, heç üç gün,  beş gün yaşamadı, öldü.

Yusif qorxa- qorxa soruşdu:

- İndi qumru mənim də gözlərimi tökəcək?

Xalası başını buladı:

- Yox, sənə gücü çatmaz. Amma qarğış edəcək»…

Və anasına «Zülyanın uşağı məndəndir» deyib gözlərini əbədi olaraq yumur…

Bununla da bir vaxtlar balaca olan, lakin ehtiraslar, qeyri- əxlaqi maraqlar, istəklər mühitində özündən asılı olmayaraq «tez» böyüyən Yusifin (bir daha yada salaq ki, o həm də qədim mif qəhrəmanı olmuşdu) ədəbi (obraz!) missiyası  başa çatır…

Və doğrudanmı başa çatır?.. Əsər (deməli, hadisələr – talelər) davam edir…

«Qumru yumurtaları», yaxud «Züleyxa və üç Yusif əfsanəsi» epiloqla tamamlanır…

«Ölüm mələyi» - məhlədəki uşaqların narkoman olmasının əsas səbəbkarı Toppuş Əntiqə Yusifin yas mərasimində «ürəkdən» canfəşanlıq edir.

«…Toppuş Əntiqə yas məclisində qadın mollası ilə elə danışdı ki, sanki gömrükçülər üç il əvvəl əli Quranlı, başı hicablı bu qadının alt paltarını çıxarıb, güngörməz yerində gizlətdiyi kokain paketini tapmamışdılar.

Göyçək arvad içində yanıb- qovrulurdu, indiyə kimi özünə bacı, övladına doğma xala bildiyi alverçi Toppuş Əntiqəni Yusifin ölümündən sonra məhəllə cavanlarının qatili hesab edirdi. Bəs Göyçək arvad özü kim idi? Ağ ölüm mələyinin rəfiqəsi, bəlkə də köməkçisi, axı dəfələrlə onun çantalarını daşımışdı»…

Göyçək arvad özünü dənizə atmaq istəyərkən arxadan «dayan!» səsi gəlir. Və geriyə dönüb baxmağa macal tapmamış ərinin bıçağı onun kürəyinə saplanır…

… Nəsib (artıq o, Hacı Nəsib idi) Ərəbistandan qayıdan kimi hava limanından birbaşa qəbirstanlığa gedib Yusifin, Göyçək arvadın məzarlarını ziyarət edir… Elə orda da Ema ilə tanış olur…

Ema təzə tanış olduğu Nəsibə deyir ki, bu yaxınlarda Türkiyəyə gedəcək. Və onda Yusifin bir əmanəti var…

«…O gün Züleyxa qarnında dəhşətli ağrılar duydu. Qorxudan rəngi ağardı. Uşaq bətnini elə təpikləyirdi ki, elə bil çıxıb harasa uzaqlara qaçıb gedəcəkdi və zavallı qadın onun üzünü heç zaman görməyəcəkdi. Qırmızı telefon aparatının dəstəyini götürüb təcili yardıma zəng etmək istədi, birdən göy guruldadı, qonaq otağının pəncərəsi önündə ildırım çaxdı, o, dəstəyi yerinə qoyub pıçıltı ilə dedi:

- İlahi, məni bağışla! Günahkar bəndənə rəhm et!

Ağlaya- ağlaya dizləri üstə çökdü, əllərini göyə açdı:

-Yalvarıram, bu körpəni mənə bağışla, onu məndən alma, mən onu zina kimi qazandığıma, ərimə xəyanət etdiyimə görə sənin hər cəzana layiqəm, amma zinəkarlığı harınlığımdan etməmişəm. Bu uşaq mənim xoşbəxtliyimin qarantıdır. Bu zəmanədə namuslu olmaq adama bədbəxtlik və yoxsulluqdan savayı heç nə vermir. Mən bir də heç vaxt belə iş tutmayacağam, bir daha namussuzluq etməyəcəyəm. İlahi, yalvarıram sənə, ana olmaq sevincindən məni məhrum etmə, İlahi! – o, halsızlaşıb yerə yıxıldı»…

…Toppuş Əntiqə həbs olunur, yığdığı haram pulları əlindən çıxır, nəvəsinin doğulduğunu da həbsxanada eşidir…

Nəsiblə Züleyxa oğulları Yusifi də götürüb Antalyaya istirahətə gedirlər. Orada təsadüfən Ema ilə oğlu Yusifə rast gəlirlər…

«…Nəsib balaca adaşların ikisini də qucağına götürdü:

- Qismət belə imiş, biz bura bir Yusiflə gəldik, amma buradan iki Yusiflə dönəcəyik. Allah- təala o dünyaya vaxtsız köçən Yusifin ruhunu bu gün ikiqat şad etdi. Biz bir ailə olacağıq, hər iki Yusifin xatirinə…

…İki gün sonra Nəsib, Züleyxa, Ema balacaları götürüb, qəbirstanlığa – Yusifin məzarını ziyarətə yollandılar. Qara mərmərin üzərində əbədiləşən işıqlı təbəssümlə dünyaya boylanan mərhuma baxa- baxa hər kəs öz Yusifini xatırlayıb kövrəlidi.

Susurdular. Baxışları soyuq, boz, nəm torpağa dikilmişdi»…

Yazıçı «Züleyxa və üç Yusif əfsanəsi»ni yekunlaşdırır…

«…Züleyxa ilə Emanın kədərli baxışları qara mərmər üzərində Yusifin donmuş təbəssüm dolu baxışları ilə toqquşdu.

«Ah» çəkən Ema:

- Dünya sanki bir sirr boxçasıdır, - dedi.

Balac Yusiflər isə lal- dinməz analarının əllərindən tutub, şəkli qara mərmərə həkk olunmuş gülümsəyən gəncə baxırdılar.

Dünya bu an sanki qumru yumurtaları rənginə boyanmışdı… Qumru yumurtaları rənginə boyanmış bu dünyanın alt qatında isə üçüncü Yusif ömrünün daş dövrünü yaşayırdı»…

Tarixi bir mif- əfsanənin idyea- bədii potensialından çıxış edərək və ya ona istinad edilərək qələmə alınmış povest nəinki müasir, hətta müəyyən mənada modernist bir əsərdir. İnsan taleyinin özündən asılı olan (və olmayan) məzmun- mündərəcəsinin (fəlsəfəsinin) təhlilinə yönəlmiş yazıçı- mütəfəkkir qələmi bu əsərdə zəruri hadisələrin mümkün miqyasını cıza bilmişdir…

*

* *

Hüseynbala Mirələmovun «Taledən qaçmaq olmur» (2010) povesti mövzuca tamamilə müasir olsa da, haqqında bəhs etdiyi mətləblər müxtəlif

dövrlərin, zamanların mənəvi- əxlaqi münasibətlər sistemlərini müqayisə etmək, ümumiləşdirmək, insan talelərinə təsirini göstərmək baxımından da maraqlıdır. Yəni povestin mövzuca müasirliyi kifayət qədər şərtidir.

Əsər Bakı (və Azərbaycan) tarixi üçün səciyyəvi bir hadisə ilə başlanır…

«Aprelin sonuncu şənbə gecəsi idi. Dənizdən baş qaldıran güclü xəzri sahil parkı ilə üzbəüz dayanan dörd mərtəbəli binanın dəmir damını aramsız döyəcləyirdi. Elə bil əli çəkicli- baltalı adamlar taqqa- taraqla dam örtüyünü sökürdülər. Gurultudan yuxarı mərtəbədə, çardaqda yaşayan təzə sakinlər, küləklər şəhərinin təbiətinə nabələd əcnəbi qonaqlar təşvişə düşmüşdəlr. Bu qədim saray- imarət təxminən bir əsr əvvəl yerli neft maqnatlarından birinin sifarişi ilə gözünün ağı- qarası yeganə qızına toy hədiyyəsi kimi inşa olunmuşdu. Kim bilir, bəlkə də gimnaziyada bərabər oxuyan yaşıdları həmin qızı dünyanın ən bəxtəvəri sanıb ona qibtə də edirmişlər. Sonra hamı şahid oldu ki, bəxtəvərlik cer- cehizin bolluğu, bahalılığı ilə ölçülmür. Bu gün xoşbəxtlik dənizində üzən birini sabah həyat öz qəribəlikləri ilə boşluğa sürükləyir.

Naz- nemət içində böyümüş milyonçu qızının taleyi üzünə gülmədi. Deyilənə görə, yalnız zifaf gecəsini atasının hədiyyə elədiyi malikanədə keçirən «Bəxtəvər gəlin» ertəsi gün nəinki möhtəşəm imarətini, hətta şəhəri gizlincə tərk eləmək məcburiyyətində qaldı»…

Zaman, dövran (və dövr!) dəyişir….

…Həmin binada yaşayan qonşusu ingilis Cekin itli- pişikli həyat tərzini izləyən Fidan gecənin bir vaxtı yuxudan oyanır..

«…Yadına üç ay əvvəl rəfiqəsi Natəvanla başına gələn hadisə düşdü. Evə gələndə itini dənizkənarı parka gəzdirməyə aparan Ceklə rastlaşmışdılar. Natəvan əyilib boz itin başını sığallamış, qəribə canfəşanlıqla sahibinin üzünə gülümsəmişdi:

- Ooo, mən bu iti çox sevdim, - deyərkən Fidanın acığı tutmuşdu.

Cek türkcə «merhaba!» deyib, ədəb- ərkanla onların hər ikisinə gözucu baxıb təşəkkürünü bildirmiş və yoluna davam eləmişdi. Natəvan hisslərini cilovlaya bilməyib, çılğıncasına Fidanı dümsükləmişdi:

- Ay qız, sifətini turşutma! Öz aramızdır, təzə qonşunuz canlara dəyən oğlandır! – Qəlbindən keçənləri dilinə gtirmişdi. – Ərə gedəndə də beləsinə gedəsən. O dəqiqə bilinir ki, həm subaydı, həm də imkanlı. Səncə, o məni alar?..»

Müəllif bəri başdan göstərməkdən çəkinmir ki, Azərbaycanın mənəvi- əxlaqi mühitinə, ailə- məişət münasibətlərinə beynəlmiləlləşən – qloballaşan dünyanın yeni maraqları. Qaydaları gəlir…

…Natəvan Fidanın təəccübləndiyini görüb ciddiləşir…

«-… Mən səndən fərqli olaraq, sevib- sevilmədən də ailə qurub xoşbəxt olmağın mümkünlüyünü dərk eləyirəm. Sənin zəngin fantaziyan var, duyğularnan, xəyallarnan yaşayırsan. Hə, bəlkə ağ atlı oğlana rast gələcəyinə ümid eləyirsən? Bil ki, beləsi ya nağıllarda, ya da köhnə filmlərdə olur. İndiki oğlanların əksəriyyəti varlı qızla, qızlar isə imkanlı oğlanlarla evlənmək arzusuyla yaşayır.

- Hamısını demə, günaha batarsan. Məni çıx. Deyirsən, yəni həyatda həqiqi sevgi- məhəbbətdən əsər- əlamət qalmayıb?..»

İki gənc xanım arasındakı söhbəti yazıçı həyat fəlsəfəsi səviyyəsinə qaldırır…

… - Fida, inan mənə, məhəbbət dediyin duyğular adama ağrı- acıdan, göz yaşından, iztirabdan savayı heç nə vermir. Eşq xəstəliyinə mübtəla olan qızların əksəriyyəti ərə gedəndən uzağı dörd- beş ay sonra peşmançılıq keçirirlər. Ehtiyacın iti qılıncı məhəbbəti elə doğrayıb tökür ki, aşiq- məşuq heç cınqırını da çıxara bilmir. Ailədə hər xırda, adi məsələyə görə söz- söhbət böyüyür, bunun da sonu boşanmaqdır, tez, ya gec…

- Elə danışırsan, sanki bu həyatı üç- dörd dəfə yaşamısan. Var- dövlət, pul, nə bilim, qızıl, sənin düşündüyün kimi imkanlı adama ərə getmək üçün xoşbəxtlik qapılarını hər qızın üzünə açmır. Bəzən hamının xoşbəxt sandığı qadınlar bitib- tükənməyən zənginlik içində öz bədbəxtliklərinə yas saxlayırlar. Mal- mülk, sərvət sahibi olmaq hələ bəxtəvərlik demək deyil. Bax, gördüyün bu gözəl binanı da varlı bir kişi qızına cehiz vermişdi, imanımı yandırıram, bəlkə də həmin kəslə ailə quran oğlan qızın özündən qat- qat çox var- dövlətinə aşiq imiş. Ancaq onlara nə

dəbdəbəli sarayda yaşamaq qismət olub, nə də milyonçunun aşıb- daşan var-dövləti, zəngin sərvəti…

Natəvan rəfiqəsinin sözünü kəsdi:

- O dövr başqa idi, indi tamam bambaşqa. Hər kəs müstəqildi, istədiyi kimi yaşayışını qura bilər. Həyat yaşamağı bacaranın, zəmanə imkanlı, yaxşı vəzifəli-pullu mənsəb sahiblərinindi. Gec- tez sən də fikrimlə barışacaqsan. Xoşbəxtlik də, bədbəxtlik də nisbidir. Bu, hər bir qızın, qadının özündən asılıdır. Fidan, canım-ciyərim, yoxsa sən də bəzi köhnə fikirlilər kimi din ayrılığını əsas tutub müsəlman qızının ingilisə, almana, fransıza ərə getməyini qəbahət sayırsan? Vallah, inanmıram, avropalaşmış böyük bir şəhərin göbəyində yaşayan oxumuş rəfiqəm bu cür bəsit düşünsün»…

Müasirləşən dünya!.. Və biri digərinə bu və ya digər dərəcədə zidd olan dünyagörüşlər, həyat idealları, həyat fəlsəfəsi!.. Mütləq həqiqətdən, təbii ki, söhbət gedə bilməz…Ancaq hansı daha doğrudur?.. Və ya hansı daha realdır?..

Təhkiyə davam edir…

«…Bu əhvalatdan heç bir həftə keçməmiş ingilis təmayüllü kollecin yaxınlığında Natəvanı Cekin maşınında görən Fidan sarsılmışdı. «Aman Allah, bu ifritə ağlına gələni eləməyə qadirmiş…» Sübh çağı isə yuxarı mərtəbədəki mənzilin dənizə açılan pəncərələri şaqqıltıyla bağlananda «Allah bilir, bəlkə də Cek gecəni Natəvanla keçirib?» - deyə düşündü. «Axı mənə nə gəlib, niyə gecənin bu aləmi onun haqqında düşünürəm? Bu qız elə bil hər şeyi mənim acığıma tərsinə edir. Anlamır ki, taleyiilə oyun oynayır. Eh, nəyimə lazım, özü bilər…» Dəhlizdə gileylənən anasının həyəcanlı səsi onu ağır düşüncələrdən ayırdı:

- Vallah, zəmanənin üzü dönüb. Bizimkilər bir tikə çörək dalınca dünyanın o başına gedir, iti- pişiyilə zəhləmizi tökən bu ingilis gədəsi neft qoxusuna dünyanın o başından durub Bakıya gəlib»…

Yazıçı obrazını qəribə bir məhəbbətlə yaratdığı Fidanın tərcümeyi- halına qayıdır…

«…Alın təriylə dolanan, namusla ömür keçirən, heç kəsə dəyib- dolaşmayan valideynləri ilə həmişə öyünən, ağlı kəsəndən onların bir sözünü iki eləməyən

Fidan dərsdən sonrakı vaxtının çoxunu evdə keçirirdi. Bu yaşda bütün qızlar dondan- dona girməyi, gəzib- dolaşmağı xoşlayırlar. Anası qeyri- adi təbiətilə yaşıdlarından seçilən Fidana baxır, dinməzcə köks ötürürdü. O, ərgən qızının gələcəyini düşünür, nigarançılıq çəkir, sakitlik tapmırdı.

Rəfiqəsi ilə araları dəyəndən sonra Fidan həm evdə, həm də məktəbdə özünü qəribə aparırdı. Dəqiqələrlə susub xəyala dalması onu ətraf aləmdən təcrid salmışdı. Qıza elə gəlirdi ki, həyatda hər şey yalan üstə qurulub. Nə sevgiyə etibar qalıb, nə dostluğa»…

Anası Fidanın gələcəyini düşünür… Və qızına «Mən istəyirəm, sən də yaxşı yerə gedəsən. Dəbdəbəli gün- güzəran qurasan, başqaları sənə həsəd aparsın. Heç nədən korluğun olmasın. Mən də rahatlanım, nigarançılığın daşını atım» - deyərək öz istəyini bildirir… Fidan isə xəyallar (və təzadlar!) içərisində çırpınır…

… «Bəlkə məni qara basır? Reallıq başqa, illüziya, ilğım başqa. Heç kəs xəyalında düşündüyü sevgiylə həyatda rastlaşmır. Mən isə lap utopistəm, yarpaqlar titrəşir, pəncərəmi meh tərpədir, elə bilirəm bu, odur; illərlə gözlədiyim şəxs. Əsmər bənizli oğlanın surəti yaxınlığımda olur, yağışın, küləyindiliylə mənə öz məhəbbətini bildirir». Dərindən köks ötürdü: «Yox, Fidan, yox, belə getsə, sən xəstəlik taparsan, başına hava gələr. Bəlkə anam haqlıdır, nəsə hiss edib, həqiqətən, göylərdən enib, ətrafıma, böyür- başıma göz qoymalıyam».

Gözlərini yumub heç nə, heç kim barədə düşünmək istəmirdi. Özünü «bəlkə»lərlə yorduğunu anlasa da, narahat qəlbi ilə bacarmırdı. Ürəyə toxunmaq, hökm eləmək doğrudan da asan deyilmiş! Düşüncələr yenə onu öz qanadına alıb uzaqlara apardı»…

Fidan müəllifin təqdimatında, həqiqətən, ideal bir qızdır. O, gözünü yumub hansısa «məqsəd»lə kiminsə ağuşuna atılmaqdan, təsadüfən ailə qurmaqdan, əxlaq normalarını nə şəkildə olursa- olsun pozmaqdan tamamilə uzaqdır. Və ruhən, daxilən nə qədər romantik olsa da, mükəmməl təhlil qabiliyyətinə, həyatı analiz etməyə, qiymətləndirməyə qadirdir…

Lakin həyat çox mürəkkəbdir, gözlənilməz hadisələrlə, təsadüflərlə, təzadlarla doludur…

…Natəvan isə xoşbəxtdir…

«…Günləri su kimi axıb keçdi. Fidan anasının təkidini yerə saldı, Natəvanın toyuna getmədi. Amma Natəvan rəfiqəsindən incimədi. Xoşbəxtltkdən məst olan təzə gəlinin incikliyə nə vaxtı vardı, nə də həvəsi. Laqeyd Cek sopsoyuq idi, Natəvanın danışığına əhəmiyyət vermir, sakit tərzdə başını bulayırdı. Bir müddət yeni ailənin başı ev- eşiyə, təzə aldıqları mənzilə, eyş- işrətə qarışdı. Fidan isə Natəvanın yadından çıxmır, onunla ünsiyyətə can atırdı.

…Anası Güləfşan arvad qonum- qonşudan eşitmişdi ki, Natəvanın əri ona toy hədiyyəsi kimi qırmızı rəngli «Mersedes» markalı maşın bağışlayıb. «Görürsən, deyirdim axı, bu izdivacla o qız özünü də, ailəsini də kasıbçılıqdan qurtaracaq». Tələbə yoldaşları söz yaymışdılar ki, Natəvan şəhərin mərkəzində gözəllik salonu, yanında ətriyyat dükanı, böyüründə aptek açdırıb. Dərsə getmirdi. Təki pul, gəlir olsun! Natəvandan küsdüyünə görə bəziləri qızı qınaq hədəfinə çevirmişdilər. Kim bilir, əvvəlkitək canbir qəlb olsaydılar, şübhəsiz, Fidan rəfiqəsinin hesabına qazanclı işin qulpundan yapışıb imkan sahibi olacaq, özünü də, ailəsini də maddi çətinliklərdən qurtaracaqdı»…

Natəvanın bu «ailə uğurları» istər- istəməz «qıcıq» yaradır..

Ata- anası Fidan üçün öz aləmlərində layiqli bir oğlan tapırlar. Fidan isə görüb tanımadığı bu oğlana ərə getmək istəmir… Və anası onu tənbeh etməyə məcbur olur…

- Ağlını başına yığ, qızım, qabaqdan gəlmişlik eləmə, indiki zəmanədə hər qızın qapısını elçi döymür. Atan o adama kişi sözü verib. Özün də yaxşı bilirsən, onu dediyindən döndərmək asan məsələ deyil. Yadına gəlirmi, ən çətin günümüzdə bu evi satmağı ağlına belə gətirmədi. Satsaydı, bəlkə də başqaları kimi şəhərin uzaq bir yerində ev alıb, pulun artığı ilə bəy balası kimi dolanardı. Amma bir kəlmə dedi, üstündə də durdu: «Bu ev mənə atamdan qalıb, məndən də övladlarıma qalacaq!» Ağladım, yalvarıb- yaxardım ki, ay kişi, bu evin dalınca göz qalıb. Şura hökuməti mülkün sahibindən hallallıq- zad almayıb. Ev sahibi bədbəxt də tərki- vətən olub. Görmürsən, o boyda hökumət də dağıldı, darmadağın oldu. Ahlar tutdu şura hökumətini! Burada, bu evdə yaşayanların da hamısı orada-

burada pərən- pərəndi. Hərə köçüb bir tərəfə getdi. Bu yerin xeyrini heç kim axıracan görməyib… Ancaq mən tərs- məzhəb atanı yola gətirə bilmədim ki, bilmədim…

Fidan pəncərədən boylu- buxunlu çinara baxırdı, xəyalı isə daha uzaqlarda idi. İndi anasının danışdıqlarını eşitmirdi. Hiss eləmədən nə vaxtsa gördüyü qəribə yuxunu xatırlayırdı. Yuxuda gəlinlik paltarını köksünə sıxan qaraqaş, qaragöz bir qız ağlayırdı. Qolundan tutub faytona mindirirdilər. Qız nəmli kipriklərini qaldırıb həsrətlə atasının cehiz verdiyi yaraşıqlı malikanəyə baxırdı. Məcburən ailəsi bu məmləkətdən, bu şəhərdən baş götürüb getməliydi. Onlar bu taleyə məhkum idilər. Qız yanıqlı səslə yalvarırdı: «İlahi, kaş, bu şəhərdə mənim rahat yaşaya biləcəyim hisli- paslı kasıb bir daxmam olaydı». Çöhrəsində öz aqibətini heç bir qıza yaraşdırmayan, arzulamayan yazıqlıq var idi. Hamının bəxtəvər sandığı milyonçu qızı sanki illərin o tayından Fidana sarı boylanır, qəmli baxışlarla ona həyat dastanının nəqaratını söyləyirdi»…

«Gəlinlik paltarını köksünə sıxan qaraqaş, qaragöz» qızın taleyi (ruhu!) bütün əsər boyu Fidanı müşayiət edir. Və bədii priyom əsərə maraqlı bir mistik- mənəvi harmoniya gətirir. Bir tərəfdən real, hətta prozaik hadisələr, digər tərəfdən, müəllifin ardıcıl olaraq öz qəhrəmanına xatırlatdığı həmin mistik- mənəvi harmoniya…

Fidan ata- anasının istəyinə qarşı gedə bilmir… Və onlara nişan gəlir…

«…Əfqan zərgərlik malları reklam olunan vitrində qoyulmuş müqəvvaya bənzəyirdi. Təkəbbürlə tez tez başını tərpədib: «Bəli», «xeyir», «baş üstə» deyirdi. Ata- anası sadə kənd adamlarına bənzəyirdilər. Həyəcanları gözlərindən oxunurdu. Özlərini yerli adət- ənənəyə, dəbdəbəyə uyğun aparmaq istəsələr də, alınmır, süni çıxırdı. Ancaq yeganə oğullarına sərbəstlik verdiklərinə görə fəxr edir, vəziyyətə müasirlik donu geyindirməyə çalışır, gələcəkdə hər şeyin yaxşı olacağını vəd edirdilər… Üstəlik, cer- cehizə, xüsusilə də mebelə ehtiyac duymadığını bildirirdilər. Əslində ortada ana- analıq heç nə qalmamışdı. Elçiliyi oğlan özü eləmişdi»…

Bəlkə də, bu yaxşı idi…

Kifayət qədər təntənəli bir toy keçir…

Natəvanla Cek də gəlir. Və Natəvan üzünü Fidanın yanağına söykəyəndə qulağına pıçıldayır ki…

« - Ay qız, maşallah, qızıl kimi oğlandı, beləsini haradan tapıbsan? Vallah, göz dəyməsin. Bir- birinizə çox yaraşırsınız. Çalış, bu səadət quşunu əldən buraxma»…

Bu, ağıllı bir rəfiqənin məsləhəti və ya xeyir- duası deyildi, yüngül yolla özünə «ailə» qurmuş «müasir meşşan»ın heç bir ciddi əsası olmayan «mövqe»yi idi…

«…Toydan sonra bəylə gəlin üçotaqlı, gözəl şəraitli mənzillərinə yollandılar. Əfqan deyirdi ki, ev toyqabağı təmir olunub, bütün əşyalar təzələnib. Fidan bu par-par parıldayan mebellərlə bəzədilmiş, mənzildə sanki qorxulu yuxu görürdü. «Həə, mən indi – bu divarlar arasında tanımadığım, sevmədiyim insanla birgə yaşamağa məhkumam…

Əfqan otaqları bir- bir göstərəndən sonra qızı yataq otağına çəkdi. Fidan əlini onun əlindən çəkmək, «dayan, mən səni tanımaq istəyirəm. Bir az özündən danış. Bu evlilik o qədər tez oldu ki, bir- birimizi tanıyammadıq», - demək istəyirdi. Amma elə bil səsi içində qırılıb qaldı. Əfqanın kefi isə kök idi, tez- tez qızı qucaqlayır, həris ehtirasla dodaqlarını, boyun- boğazını öpüşlərə qərq edirdi. Hansı qüvvənin təsirindənsə tələsirdi. Sanki Fidan elə bir andaca oğlanın qolları arasından çıxıb qaçacaqdı. Şikarını buraxmaq istəməyən, onu itirəcəyindən qorxan aslan kimi qızı var gücüylə özünə sarı sıxdı.

Qız zorla qolları arasından qurtulub:

- Dayan – dedi, - yavaş ol, əllərini çək, mən… mən… qorxuram»…

…Və yeni ailə həyatı Fidanın Əfqana, illərlə xəyalında canlandırdığının əksinə olaraq, nifrətilə başlayır…

«…Toydan bir ay keçməmiş evə telefon zəngləri gəlməyə başladı. Zəng edənlərin çoxu qadınlar idi. Kimisi həyəcanla, təlaşla Əfqanı soruşur, kimisi qəsdən nömrəni səhv yığdığına görə üzr istəyirdi. Bəzən zəng edən susur, Fidanın səsini eşidən kimi dəstəyi yerinə qoyurdu.

«Görəsən, Əfqanı niyə axtarırlar? – Fidan düşünürdü,- Bəlkə eyni şirkətdə çalışanlardır? Axı, o, hər gün işə gedir. Mobil telefonu da var. Bəs niyə evə zəng edirlər?..»

…Əfqanın təkidilə Fidanın ata- ana evi satılanda təzə gəlin daha da narahat olmağa başlayır. Və hətta dünyaya gətirdiyi körpəsi – oğlu üçün sevinmək əvəzinə peşimançılıq hissi keçirir…

Çox keçmədən o da məlum olur ki, Fidanını gəlin gəldiyi mənzil Əfqanın öz evi deyilmiş, qısa bir müddətə kirayəyə götürübmüş…

Yazıçı həyat hadisələrini gen- bol, bütün mümkün şaxələri, təfərrüatları ilə verməklə yanaşı zəruri ümumiləşdirmələr də aparır…Və bu ümumiləşdirmələr, bir qayda olaraq, gerçəkliyə, konkret həyat- yaşam faktlarına istinad etdiyinə görə ciddi fəlsəfi məzmuna malik olur…

«…Deyirlər, hər bir adam azı bir dəfə ağılsız hərəkətə yol verir. Sonra ömrü boyu da onun ağrı- acısını, bəlasını çəkir, ya da bütün həyatını o səhv addımı düzəltməyə, doğru yol axtarmağa sərf edir. Həyat yollarında büdrəmək hələ yıxılmaq deyil, amma hər yıxılanın ayağa qalxmaq fürsəti olmur»…

Əfqan guya xarici ölkələrdən – bizneslə bağlı getdiyi yerlərdən arabir zəng eləsə də, özü gözə görünmür…

Fidanın xəyallar, düşüncələr burulğanında boğulduğu həmin günlərdə tanımadığı bir adamdan da zəng gəlir…

« - Adım Röyaldı.

Fidan bir andaca Röyal adında kimisə tanıyıb- tanımadığını xatırlamağa çalışdı: «Röyal kimdi, mənim belə bir tanışım yoxdur axı?»

- Tanımırsız, məhəllədəki tay- tuşlarım məni sadəcə, «Qarabala» çağırır. Gözəl, ləyaqətli, ismətli bir qadının… yaxından tanıdığım bir fırıldaqçıyla ömür çürütməsi əvvəllər insan kimi əzab verirdi mənə. Fikrimi necə çatdırım? Sonradan o qadına dəlicəsinə aşiq oldum, onu düşdüyü tordan xilas eləməyi qərara aldım. Həmin qadın sizsiniz! Evliykən tənha qadın taleyi yaşamaqdan bezmədinizmi, Fidan xanım? Mən sizinlə görüşüb, söhbət eləmək istəyirəm.

- Deyəsən, ünvanı səhv salmısınız… Burada nə aşiq olduğunuz qadın yaşayır, nə də görüşüb ürəyinizi boşaltmaq istədiyiniz bir kəs»…

Çox keçmir ki, Röyal Fidanı görməyə gəlir…

- Elə bilirdim, məni görmək istəməyəcəksiniz.

Fidanın ürəyindən keçdi: «Bəlkə də illər boyu xəyallarımda axtardığım əsmər bənizli oğlan elə sənsən!»

- Fidan, bəlkə də ilk görüşdən belə ərklə danışmağım sənə qəribə gələcək, ancaq səni tanıyan gündən içimdə çırpınan duyğular məni rahat buraxmır. Kaş biləydin ki, sənsiz həyat mənim üçün nə qədər maraqsızdır. Gəl Əfqandan ayrıl… Ailə quraq, uşağına öz doğma balam kimi baxacağam. Sənin xoşbəxtliyin üçün canımdan belə keçməyə hazıram, Fidan! Sən mənə çox lazımsan, yalvarıram, «yox» demə, anam da o bəxtəvər günü gözləyir.

Fidan göz yaşını saxlaya bilmirdi. Elə bil çoxdan gözlədiyi doğması gəlib çıxmışdı. Onun boynuna sarılmaq, başını çiyninə qoyub ürəyindəkiləri bölüşmək istəyirdi. Özündən asılı olmayaraq, oğlanın əlindən tutdu, başını köksünə qoydu»…

Yazıçı sövq- təbii olaraq özünə etibarlı bir kişi- sözün geniş mənasında həyat yoldaşı axtaran qadının hisslərini, reflekslərini təsvir edir…

Dünya ədəbiyyatının ən yaxşı əsərləri üçün səciyyəvi olan bu üsul- model, elə bilirik ki, Azərbaycan yazıçısının – Hüseynbala Mirələmovun qələmində də özünü doğruldur. Belə ki, müəyyən qədər mücərrəd sevgi romantikasından uğursuz ailənin prozaikliyinə düşmüş qadın çıxış yolunu vaxtilə xəyalında qurduğu «ağ atlı oğlan»ı azacıq da olsa xatırladan həyat- ailə yoldaşı axtarır və ona rast gəldiyini güman etdikdə hisslərini bütün miqyası ilə biruzə verməkdən çəkinmir… Hətta yenidən aldanmaq immunitetini belə itirir…

«…Mərd bir kişi köksünə sığınıb əzizlənmək, sevilmək ehtiyacı gənc qadının varlığını elə çulğalamışdı ki, dinib- danışmağa taqəti qalmamışdı. Röyal nəvazişlə köksünə sığınmış Fidanın saçlarını sığallayıb, bəndi dağıtmış sel kimi axan göz yaşlarını dodaqları ilə qurutmağa çalışdı. Eyvana çıxdılar. On yeddinci mərtəbədən şəhəri, uzaqdan görünən dənizi seyr elədilər.

…Röyal getməyə tələsirdi. Fidan isə yubanmasını istəyirdi. Ayrılıq məqamı çatanda, onlar sevgililər kimi bir- birinə sarıldılar.

Röyal Fidanın öpdüyü ilk kişi idi. Bu ilk öpüşün dadı dodaqlarında qalan gənc qadın güzgü qarşısında dayanıb özünə baxa- baxa ağlayırdı»…

Fidan heç nə fikirləşmədən, tərəddüd etmədən özünü xəyallarında ucaltdığı Röyalın ağuşuna atır… Lakin ağlına da gəlmir ki, bu, onun arzuladığı adam deyil…

Yazıçı psixoloji yaşantılarla, emosiyalarla zəngin olan bir təfərrüata varır…

«…Fidanın odlu baxışları Röyalın vücudunu yandırıb- yaxırdı. Bu baxışlar həsrətin, məhəbbətin, ehtirasın oduyla közərib alov saçırdı. Bu an odlu baxışlar girinə keçəni yandırmaq, kül eləmək gücündəydi. O, ömründə ilk dəfəydi püskürən qara alov görürdü. Özü də hiss eləmədən artıq bu alovun içinə doğru addımlayırdı. Röyal bu xoş əzaba dözə bilmədi. Əlindəki stəkan xalçanın üstünə düşdü, sanki yerində donub qaldı. Deyəsən, harada olduğunu unutdu. Fidan asta addımlarla ona yıxınlaşdı. Röyala elə gəldi ki, o, yerimir, bəyaz buludların üstü ilə mavi fatanın içində sehrli bir kəpənək kimi uçur, süzür. Çilçirağın işıq selində apaydın sezilən bəmbəyaz şux məmələri və o cazibədar sinənin halələrinin ortasında qızılgül butasına bənzər dipdiri gilələri gözlərində sanki birdən- birə canlandı, şirələndi, doldu… Yumşaq, ətirli saçlarından ayparaya bənzər bir tel ayrılıb, sol döşünün üstündə burularaq yatmışdı. Qara, zil qara bir tel… Ağ, mərmər sinənin üstündə qara ilan tək qıvrılaraq özündən getmiş, bihuş, məst olmuş xoşbəxt bir tel… Röyalın özünə paxıllığı tutdu. Ağlamaq istədi. Bacarmadı. Səsi boğazında donub qaldı. Bu an sanki Fidanın gözlərindən püskürən ehtiras alovunun hərarəti içinə yayıldı, bədənini çulğalayan bu istilik ürəyinin döyüntülərini qat- qat şiddətləndirdi. Elə bil ağzında isti, indiyə qədər heç vaxt dadmadığı qeyri- adi bir tam duydu. Bu əsrarəngiz duyğular onu özündən aldı. Baxışları Fidanın düz, hamar, ətir saçan göbəyində ilişib qaldı. İlahi, necə də cazibədar, zərif işlənmiş bir piyalə… Gördükləri bir möcüzə idi. Həyatında heç vaxt görmədiyi canlı bir möcüzə… O, sehrlənmişdi»…

Və məlum olur ki, Röyal Fidanın tamamilə insani olan istəklərini yerinə yetirmək gücündə deyil… O, narkoman imiş… Və qadın gözəlliyinə məftun ola-ola xəyalından ona daha çox lazım olan «nemət» keçirmiş… Daha doğrusu, bədəni canı ayrı şeylərin həsrətindəymiş…

«…O, əsim- əsim əsirdi. Elə bu an istəyinə qovuşmaq üçün Fidanı da, hətta doğma anasını da gözünü qırpmadan qurban verməyə hazır idi. Qeyri- ixtiyari əlləriylə ciblərini yoxladı. Yox idi. O miras üstündə yox idi. Ona elə gəldi ki, dünyasını itirib. Bu itən dünyasında Fidanın gözəlliyi də, tarım çəkilmiş qarnının aşağısında ağlını başından alan o canlı piyalə də bir heçə dönmüşdü.

Qərar qəti idi. Getmək, buradan tez çıxıb getmək! O vəhşi, o ölüm saçan istəyinə qovuşduqdan sonra müvəqqəti də olsa, rahatlıq tapacaqdı, ruhu göylərə uçacaqdı. Bu daha gözəl idi…

Fidan susurdu.. Onun bədəninin hərarətindən Röyal müvazinətini itirdi. Həndan- hana özünü ələ alıb bir addım irəli yeridi, Fidanın qarşısında diz çökdü:

- Mənim canım, canı…m… - səsi tarıma çəkilmiş sim kimi titrəyib qırıldı. Gözləri doldu. Fidanın sanki rəssam əli ilə çəkilmiş ağmaya baldırlarını öpüşlərə qərq edərək, için- için ağladı. Mavi tüldə xümarlanan, hələ heç nə başa düşməyən Fidan düşündü: «Röyal bu anların bəxş elədiyi bəxtəvərlikdən ağlayır». Fidan onun başını sığallayaraq pıçıldadı:

- Bütün qəlbimlə, varlığımla səninəm. Xoş gəldin mənim dünyama!..

Röyalın bədənini soyuq tər basdı. Sanki oğurluq üstündə yaxalandı. Bütün vücudu itirədi»…

Və «Röyal o gedən getdi»…

Fidan sevgilisinin narkoman olduğunu biləndən sonra da ona laqeyd qalmır, hər yolla çalışır ki, Röyalı bu bəladan xilas etsin.

Və yazıçı özü dözülməz vəziyyətdə olan qadının qeyri- adi fədakarlığını konkret bədii detal və təfərrüatlarla olduqca dolğun bir şəkildə təqdim edir…

Onlar bir daha görüşürlər…

«…Röyal onu öpüşlərə qərq edə- edə: «İnan… İnan… İnan…» - deyir, Fidanın çılpaq sinəsini, boyun- boğazını, baldırlarını qəribə bir hərisliklə öpür, oxşayırdı. Öpüşlərdən məst olmuş Fidan:

- Əsmər bənizlim, bu anı o qədər gözləmişəm ki…

Səhər Fidan dünyanın ən xoşbəxt qadını kimi yuxudan oyandı.

- İstəyirəm səninlə keçən bu xoşbəxt günlərim bitib- tükənməsin…

Fidanın pıçıltısına Röyal mürgülü- mürgülü gözlərini açdı»…

Sevdiyi insanı heç vaxt, heç yerə buraxmaq istəməyən qadın onu saxlamaq istəyir…

« - Darıxma, Fidan, tez qayıdacağam, «getsin o günlər, bir də gəlməsin», - deyə qızı qucaqladı. – Məşhur mahnıda deyildiyi kimi, «harada olsan, gələrəm, təki, sən səslə məni…»

- Yaxşı, get. Başa düşürəm… anandır, dəymək lazımdır. Ancaq unutma ki, xəstəxana xərclərinə görə xirtdəyəcən borc içindəyəm. Qurtulmaq üçün hər ikimiz işləməliyik. İmkansızlıqdan uşağı bağçaya verə bilmirəm. Bir sözlə, qayğılar başdan aşır…

- Saata bax, düz bir saatdan sonra evdə olacağam. Atamın qəbrinə and içirəm…

Fidan istədi desin ki, narkotik maddə tapmaq üçün bir saat da çoxdu. Atasının qəbrinə and içdiyinə görə mübahisə edib, xətrinə dəymək istəmədi. O gün Röyal doğrudan da sözünün üstündə durdu, dediyi vaxtda qayıtdı. Amma bir neçə gündən sonra yenə getdi və xeyli yubandı»…

…Və bu zaman Fidanın gözləmədiyi, heç xəyallarına belə gəlməyən bir nəfər – usta Mehman peyda olur… Heç kimə görünməyən, heç kimə hesabat verməyən usta Mehman…

O usta Mehman ki, həbsdə olub…

«…Bir gün şəriki ustanı bağına qonaq çağırır. Deyir ki, arvad- uşağı göndərmişəm istirahətə, evdə darıxıram… O vaxt qədeşin iyirmi yeddi, baronun qırxdan çox yaşı varmış. Cavanlıqda hamının səhvi olur, qızım. Elə səhvlər var ki, adama ömrü boyu peşmançılıq gətirir. Ustanın səhvinə isə səhv də demək olmur.

Uzun sözün qısası, baron deyir, usta, sənə çoxdandı yaxşı qonaqlıq vermək istəyirdim, əlimə göydən düşmüsən, gəlsənə, əməlli- başlı kef eləyək. Dəniz qırağında yaxşı bir sauna tanıyram, zəng edib iki canan da çağırarıq məclisimizə. Özümüzü əməlli- başlı masaj elətdirərik. Usta da zəng edib, gecə evə gəlməyəcəyini bildirir. Bağışla, qızım, atan, bəlkə də baban yaşında kişiyəm… Abırsızlıq kimi çıxmasın, özün bilmək istədin, mən də…

- Buyurun, əmican, danışın, narahat olmayan.

- Narahatlıqdan keçib, qızım, belə şeylər görünür təkcə kinolarda olmur, həyatda da baş verir, baronun «canan» dediyi rəfiqələr gəlib çıxırlar. Bu zaman çox dəhşətli səhnə yaranır. Vur- tut beş- altı ayın gəlini olan həyat yoldaşını yarısərxoş halda görən usta elə oradaca baronu da, arvadını da bıçaqlayıb ölümcül yaralayır. Arvadı elə hadisə yerindəcə keçinir, şərikinin həyatını həkimlər birtəhər xilas edə bilir. İstintaq zamanı məlum olur ki, qızları saunaya şərikinin sifarişilə hansısa «mama Roza» adlı pozğun qadın göndəribmiş. Usta isə bu işi şərikinin düzüb-qoşduğunu, arvadını əvvəlcədən tanıdığını zənn eləyibmiş. Bax belə, qızım, həbsxanada böyük nüfuzla, xətir- hörmətlə bərabər, xəstəliklər də qazandı. Qədeş üç il əvvəl çıxdı, o günü dostları- tanışları bir yerə yığışıb bayram keçirtdilər, kimisi ona maşın, kimisi ev bağışladı. Bax, bu gördüyün evi, indi ustanın qalıdığı bağı da onlar bağışlayıb. Ancaq təmirdən sonra, o, burada bir gün də olsun yaşamayıb. Yay- qış bağ evində qalmağı xoşlayır»…

… «Mama Roza» Fidanı da öz cənginə keçirmək istəmişdi… Natəvan da Cekə xəyanətini Fidandan gizlətməmiş, ona «Xəyanət nədir? Sən həyatda bacardığın kimi yaşamağa, ürəyinin istədiyindən zövq almağa, ağayana ömür sürməyə xəyanət deyirsən?» demişdi... Və əlavə etmişdi…

« - Fida, sən yanılırsan, mən Londonda, ya da Parisdə maşın sürəndə rütubət zirzəmidə kirayə qaldığım günlər, ata- anamın onun- bunun bağ evində bir qarın çörək üçün nökərçilik elədiyi vaxtlar kino lenti kimi gözlərimin qabağından gəlib keçirdi. Desəm ki, kövrəlib ağlamadım, ağ yalan olar… Şükür, bunlar arxada qaldığı üçün özümü ələ alıb sabahkı planlarım barədə düşünür, hərdən özüm-özümə gülüb deyirdim: «Natəvan, bax, sən öz bacarığınla Avropanı fəth elədin!

Sən hər şeyi bacarırsan, gözəl, bircə qalıb Amerikaya yollanmağın. Bu il mütləq ora da gedəcəm, inşallah. Kirayəyə götürdüyüm ən bahalı maşınla Vaşinqtonun, Nyu- Yorkun küçələrindən şütüyəcəm»…

Röyal Fidanın bütün cəhdlərinə baxmayaraq narkotikadan xilas ola bilmir… Hətta onu pul üçün «mama Roza»nın yanına da göndərir…

Usta Mehmanın təsadüfən (əslində, hər bir təsadüfdə zərurət gizlənir) yolladığı pul Fidanı xilas edir…

«Pul adamın üzünə bütün qapıları açar», - deyirlər. Ancaq o gün usta Mehmanın göndərdiyi pul onun üzünə çirkablı dünyaya gedən qapıları birdəfəlik kip bağlamışdı»…

Məşdi (Niftullah) kişi Fidanı oğlu Türkellə birlikdə usta Mehmanın bağ evinə qonaq aparır…

«- Fidan xanım, - dedi, - siz hara, bura hara? - Sonra qınayıcı nəzərlə Məşdini süzüb, - zəng edib xəbər verəydin barı…

Usta Mehmanın gözlərində çoxdan bəri görmədiyi sevinc qarışıq heyrət işığını sezdiyinə görə Niftullah məmnun- məmnun ortaya söz atdı:

- Qədeş, bu gün şəhərdəki istini görsəydin, özün də Fidan xanımı bağa dəvət edərdin. Uşaq isti- soyuğa düşüb tez tez xəstələnir, heç kondisioneri də işlətmirlər…

- Əcəb eləmisən, Məşdi, lap xoş gəlib, səfa gətiriblər. Zəng eləsəydin, evdə gözləyərdim, day bu görkəmdə, bu geyimdə qonaq- qara qarşısına çıxmazdım.

- Rəhmətliyin oğlu, noolub eyy, camaat şəhərin küçələrində, parklarda elə bu qiyafədə gəzir»…

Gördüyü xoş, isti münasibət Fidanı ürəkdən mütəəssir edir…

«…Yaşadığı həbsxana həyatından sonra heç bir qadına maraq göstərməyən, onlardan gen gəzən bu qırx- qırx iki yaşlı kişinin nəzakətli rəftarı, xeyirxahlığı Fidanın qəlbini riqqətə gətirmişdi. Təşəkkür üçün çatdıracağı sözləri belə unutmuşdu, oğlunun əlindən tutub, onu şirin dillə əzizləyən xilaskarını seyr edə-edə çəkdiyi müsibətlər gözlərinin önündə canlanmışdı. O, dənizin sahilindən evəcən dörd- beş dəqiqəlik yolda sanki yenidən dünyaya göz açmışdı. Düşünürdü

ki, qadın təkcə uşaq dünyaya gətirmir, həm də illər boyu çəkdiyi əzab- əziyyətlər içindən özünü də qadın kimi doğur, yaradır. Belə doğuluşun, belə yaranışın sevincini yaşayırdı Fidan! Göz açdığı bu təzə dünyada mavi dəniz, qumlu sahil, sərin meh, meyvə ağacları, böyük hovuz, göyərçinlər bir- birinə qovuşmuşdu. Hər şey ona usta Mehmanın, Məşdi əminin özləri kimi doğma, sözləri kimi şirin gəlirdi»…

Usta Mehmanla görüşdən sonra Fidan əmin olur ki, axtardığı arxa- dayağı həqiqətən tapıb, ona görə də başına gələnləri, heç nəyi gizlətmədən, xilaskarına danışır…

«…Fidan acı hekayətini sona yetirəndə çiyinləri titrədi. Bayaqdan bəri zorla saxladığı göz yaşları yanaqlarından süzüldü.

Usta Mehman qızı ovundurmaq istədi.

- Özünü ələ al! – dedi, elə hesab elə ki, pis yuxu görmüsən, bu da keçib gedib… Burada ürəyin istədiyin qədər qala bilərsən. İşləmək, ya da təhsilini davam etdirmək istəsən, mən sənə arxa duraram… Anana da zəng vur ki, nigaran qalmasın.

İstədi desin: «Taleyimizin oxşar cəhətləri çoxdu, mən bir qadının şərəfsizliyi ucbatından az qala…bütün qadınlara etibarımı itirmişəm. Sən isə həyatında iki naxələf kişiyə rast gəlmisən. İkimizin də könül dünyamız zəhərlənib, taleyimiz bizimlə amansız oyun oynayıb. Axı, sevgi təkcə ehtiras deyil ki. Əsl sevgi…» nə qədər düşündüsə, sevgi, məhəbbət barədə ağlına heç bir emosional müsbət fikir gəlmədi»…

Əfqan valideynlik hüququndan məhrum edilir, Usta Mehman Fidanla kəbin kəsdirir, Türkeli övladlığa götürüb ona öz soyadını verir…

«…Usta Mehman Fidanın əllərindən tutub özünə sarı çəkdi, ikisinin eşidə biləcəyi səslə pıçıldadı:

- Sən mənim gözümdə dünyanı cənnətə döndərmisən, Fidan. Mən səninlə dünyanını harasına desən, getməyə hazıram…

…Məşdi kişi yüngülcə öskürüb pilləkənlə yuxarı qalxdı.

Fidan mehriban baxışlarla usta Mehmanı süzdü.

- Getmək istədiyim hələlik bir ölkə var, o da Fransadır.

- Bəyəm ondan gözəl məmləkətlər azdı bu yer üzündə?

- Parisin mühacir qəbirstanlığında qərib bir qadın məzarı var. Həmin qəbri ziyarət eləmək istəyirəm, onun məzarına səpmək üçün buradan bir ovuc vətən torpağı, bir dəstə çiçək aparmaq, ruhuna dualar oxumaq mənim üçün savab olardı…

-Yuxunda tez- tez gördüyün milyonçu qızınımı deyirsən?

- Hə, istəyirəm, onun nigaran ruhunun borcundan çıxım.

- Onda gərək Məşdini də aparaq özümüzlə, o qərib qadının məzarı üstündə «Yasin» surəsini oxusun.

Məşdi kişi özünəməxsus səslə dilləndi:

- Qədeş, mənim tay- tuşlarım Məkkəyə, Mədinəyə gedir, sən isə…

- Bu da bir cür ziyarətdi, ay Məşdi, - deyə usta Mehman zarafatla kişinin qollarından tutub yüngülcə silkələdi. – İnşallah, dediyin müqəddəs yerləri ziyarət edərsən. Sən axı arif adamsan…

O gün Fidanın xəyalı Sena çayını keçib, Parisin Eyfel qülləsinin ətrafında qanad açdı, mühacir qadının ruhu gözlərini ona dikdi, razılıqla təbəssüm göstərdi. Doğrudur, kədərli gözlərində Vətən həsrəti sezilir, qürbətə ayaq basmış həmvətənlərini də mütəəssir edirdi»…

Cek Natəvanı aldadır, ona vəd etdiyi bütün mülkiyyəti öz adına keçirib aradan çıxır…

«…Təyyarə London hava limanında eniş zolağındaydı. Türkel səssizcə uyuyur, arabir gözlərini açıb- yumurdu. Elə bil bu kiçik ailəyə göylərin ənginliklərində süzən nakam qərib qızın ruhu qoşulmuşdu. Təyyarəyə yüngüllük gətirmişdi…

…Fidangil neçənci səfərə çıxırdı, bir göydə Allah bilirdi. Hər dəfə qərib məmləkətə güzar eləməmişdən öncə Fidan qürbətdə qız qarıyan mühacir həmyaşıdını xatırlayır, ruhuna «Yasin» oxutdururdu. O qız Fidana rəfiqə idi, sözü-söhbəti həmişə evdə gedirdi. Ancaq nə usta Mehmanın gözünə görünürdü, nə də Fidanın. Əslində o ruh idi, ilğım idi, xəyal idi, di gəl, çəkilib getmirdi ki, getmirdi.

Paxıllıq və qısqanclıq nəcib xislətinə yad olduğundan Fidangilin yaşadığı bağ evinə yalnız xeyirxahlıq toxumu səpirdi»…

…Fidanın taleyi, əvvəl bir dələduzun, sonra bir narkomanın tərcümeyi-halının müqavimətini adlayıb keçir. Və nəhayət, gec də olsa, sahibini layiq olduğu ailə xoşbəxtliyinə qovuşdurur…

# III. ROMANLAR

Hüseynbala Mirələmov hekayələri, povestləri ilə tanından sonra ədəbi-ictimai mühitdə maraqla qarşılanan «Gəlinlik paltarı», «Yanan qar» («Dağlarda atılan güllə»), «Qırxıncı otaq» və «Sonuncu fateh» romanlarını yazıb nəşr etdirdi.

*

*   *

«Gəlinlik paltarı» romaının birinci nəşri 2004- cü ildə, yenidən işlənmiş ikinci nəşri isə 2009- cu ildə çıxmışdır.

Sonuncu nəşrə «Maddi zənginləşmə, mənəvi yoxsullaşma… Və gəlinlik paltarı» başlıqlı ön sözdə göstərilir ki…

«Gəlinlik paltarı»nın müəllifi hər şeydən əvvəl belə bir fəlsəfi həqiqəti təsdiq edir ki, dərk olunmamış, qeyri- məhdud azadlıq, volyuntarist, hüdudsuz demokratiya ümumictimai və fərdi- insani mənəviyyat üçün olduqca böyük, bir sıra hallarda isə tamamilə qarşısıalınmaz təhlükədir. Və həmin təhlükənin qarşısında dayana biləcək əsas qüvvə xalqın yüz, hətta min illər boyu ən müxtəlif tarixi şəraitlərin təsiri altında yaratdığı adət- ənənələr, etnoqrafik «özünümüdafiə» sistemidir»…

Roman Sərrafla Sadiqəinin toy məclisinin təsviri ilə başlayır. Balasını çətinliklə, atasız böyütmüş ana – Həyat bu günü gördüyünə görə xoş hisslər keçirir. Və onun tərcümeyi- halına yaxşı bələd olanlar da özlərini məmnun hiss edirlər…

«…İndi toyun şıdırğı vaxtı ona gözaydınlığı, xeyir- dua verən adamlara dönə- dönə dil- ağız eləməkdən yorulmayan Həyat, hərdən gizlin- gizlin, hərdən açıq- aşkar çilçıraqlı salonun yuxarı başında qoşa şam kimi işıq saçan balalarına baxır və oynamaq istəyirdi, gözlərindən süzülən göz yaşlarını bu divarlar arasına sığmayan möhtəşəm xoşbəxtliyin mirvarisi kimi hər kəsə pay vermək istəyirdi»…

«Gəlinlik paltarı»nın müəllifi öz yazıçı- mütəfəkkir idealını (və əsərin qayəsini) romanın elə ilk səhifələrində bütün aydınlığı ilə «elan» edir…

«…Ağappaq, parıltılı saplarla işlənmiş gəlinlik paltarı Sadiqənin yaraşıqlı əndamına kip oturmuşdu. Elə bil bəmbəyaz don təzə gəlinin varlığına toxuna bilən bəd nəfəsdən, sərin mehdən belə ehtiyatlanaraq, gənc qızı bərk- bərk bürümüşdü. Bu paltar ona çox, lap çox yaraşırdı, onu olduğundan xeyli uca göstərirdi. Baxana elə gəlirdi ki, gəlinin üzü kimi, damarlarında axan qan da ağappaqdır, köksündə döyünən ürəyi də ağappaqdır və ayna kimi bərq vuran bu ağappaq ürəyin içində yalnız və yalnız bircə adamın siması, doğma üzü əks olunurdu. Bu ağ dünyanın hakimi Sərraf idi. Və yəqin ki, bu hakimiyyət heç zaman bitməyəcəkdi»…

Yeni bir ailə qurulur… Bütün adət- ənənələrə riayətlə, hörmətlə…

«…Qədimdən gələn bu adətlərin icrasını dinməzcə seyr edən xoşbəxt cütlük, indi həm də özlərini yeni, müqəddəs bir ailənin təməlqoyma mərasimindəki kimi hiss edirdilər. Sonu görünməyən, bəlkə də bilinməyən bu cığır, onları günəşin şəfəqlərinə qərq olmuş gülüstana da apara bilərdi, dibsiz zülmət uçuruma da. Bu fani dünyada hər şey olur, hər şey… Lakin bu məqamlarda Sərraf Sadiqənin qolundan elə ülvi duyğu ilə yapışmışdı ki…

Saleh kişi «bismillah» deyib bıçağı qoçun boğazına çəkdi:

- Allah bu qurbanı qəbul eləsin, xoşbəxt olasınız! Heç vaxt «nə edim?» «necə edim?» deməyəsiniz!- dedi»…

…Toya Sadiqənin tələbə yoldaşları da gəlmişdilər. Və onların içərisində Fənayə də vardı…

«…Fənayə bir anlıq özünü ağappaq gəlinlik paltarında təsəvvür etməyə çalışdı, xəyalında toy büsatı quruldu. Dərhal da çöhrəsi payız buludu kimi bozarıb tutuldu. Xəyalda gəlin obrazı yaratmağa nə var ki? Gərək gənc, özünə yaraşan sevimli bir insan da qədəm basıb gedəcəyin yolda qolundan yapışa. Yoxsa, nahamar həyat yolları heç də asanlıqla davam etmir»…

Fənayə hələ gənc olsa da, artıq maraqlı (və kifayət qədər «zəngin») tərcümeyi- hal sahibi imiş…

«…Tələbəlik illəri hiss olunmadan bir an kimi ərisə də, ürcahına çıxanlar, başına gələnlər az deyil, bəlk də çoxdu. Nələr olub, kimdi onlar? Boşluq yavaş-yavaş dolur, orada adamlar sıralanırdı. Onlar elə- belə yoldan ötən deyil, Fənayənin dünyasında hər biri öz izini qoymuş adamlardı. Fərqi yoxdu, o izlər gül kimi təravət verir, yoxsa güllə yarası kimi əzab… Əsas odur ki, iz var. Bəli, var… Budu bax, lap öndə Haris dayanıb. Ondan iyirmi yaş böyük Haris. Bu da rəssam Yusifcan. Fənayə ona Yucin deyirdi. Drayzerin Yucini ilə Yusifcanın arasında nə oxşarlıq gördüyünü özü də bilmirdi. Aralarında bənzəyiş yoxdu. Bəlkə adlar haradasa qulaq qafiyəsidir ona görə? Bəlkə də… Sonra professor Məhər, sonra şair Əlfi, sonra isə başqaları»…

Və Fənayənin «roman»ı başlanır…

Universitetin jurnalistika fakültəsinin III kursunda oxuyurdular. Fənayə təsadüfən tələbə yoldaşı, rəfiqəsi Rahibənin əmisi – yaraşıqlı, şux qamətli, 40- 45 yaşlı Harislə tanış olur.

Haris prokurorluq orqanlarında işləmiş, hansı nalayiq hərəkətlərinə görəsə oradan qovulub bir müddət işsiz qaldıqdan sonra xarici şirkətlərdən birinə «hüquq məsləhətçisi» düzəlmişdi.

Fənayəni Harisin artıq peşəkarlıq səviyyəsinə çatmış «centlmenliy»i – həyasız cəsarəti yoldan çıxarmışdı…

Niyə? Ona görə ki, Fənayə çox gənc yaşlarından «cəsarətli kişi» arzusunda idi… Hər halda yazıçı- müəllif (Fənayə obrazının yaradıcısı) bu fikirdədir…

«…Fənayəni qrupdakı oğlanlar az cəlb edirdi, çoxundan heç xoşu da gəlmirdi. Bəzisinə yeri gəldi- gəlmədi «uşaqsan» və ya «kəndçisən»- deyib acılayırdı. Və qəribə də olsa, çox istəyirdi ki, Zahir və ya bir başqası onun bu könül bulandıran sözlərinin qabağında bir söz desin, ya bir cavab qaytarsın. Ötkəm oğlanlar onun kumiri idi. Onun varlığı hökmlü bir kişiyə tabe olmaq istəyirdi. Yoxsa, bu qızbibi kimi yumşaqxasiyyətli oğlanlar… Aparıb hamısını tökəsən dənizə…

Fənayə çoxdan belə idi. Birinci kursdan… Üzünü görmədiyi, adını eşitmədiyi güclü, qüdrətli bir kişinin həsrəti gecəni, gündüzü ona haram eləmişdi. Dincliyini əlindən almışdı.

«Bu oğlanlar abır- həya düşgünüdü. Heyif deyil cəsarətli kişilər?!»

Fənayə anasına çəkmişdi… Nə qədər paradoksal olsa da…

«…Anası – Zinayə adlı qadının həyatında övlad üçün örnək ola bilən əməllər demək olar ki, yox idi. Onun yüngül həyat tərzi keçirdiyini hamı kimi Fənayə də bilirdi. Amma ananın cəmiyyətdəki imici, onun yüngül ehtirasa qurban verilən, hər cür abır- həya hissini tapdayıb əzən həyat tərzi Fənayəyə bir nöqtə qədərincə də təsir göstərmirdi».

Çünki…

«…Fənayə nə qədər laqeydliyin buz örtüyünə bürünsə də, anasının həyat tərzi onun düşüncələrinə, duyğularına, xasiyyətinə tuşla döyülmüş yazılar kimi həkk edilmişdi»…

Fənayənin atası Qadir isə vəzifə pillələrini qaynatasının hesabına irəlilədikcə «quzuya dönmüşdü», «Zinayənin bir sözünü iki» eləməmişdi…

Harisə qarşı baş qaldıran istək o qədər güclü olur ki, Fənayə hər yerdə onu görür… Hətta yuxularında da…

«…Xəyallar ürəyini üzdü, üzdü… Nə zaman yuxuya getməyindən xəbər tutmadı. Yuxuda da Harisi gördü. Gördü ki, Haris onu qucaqlamaq istəyir, ancaq çəkinir. Pıçıltılı həzin səsini də eşitdi. Haris ona deyirdi:

- Yetişmiş nar kimisən, Fənayə, sıxsam, əzilərsən…

Sübh tezdən oyandı. Gördüyü yuxudan yadında elə həmin cümlə qalmışdı. Bu sözləri o, neçə il əvvəl eyvanda anasını hərarətlə sinəsinə sıxan yad adamdan da eşitmişdi. O vaxt anası həmin yad adama demişdi ki, qorxma, sıx, hələ indiyəcən şirəmi çıxaran olmayıb.

Fənayə heç vəchlə anasını qınamırdı. Başqa zəruri tələbatlar kimi, insanın intim istəyi də ödənilməlidir. İnsan bioloji varlıqdır, o bir çox irsi keyfiyyətlərin daşıyıcısıdır. Ailə ona görə qurulmur ki, insanın istək və arzularının qarşısına sədd

çəksin. Yaxşı olar ki, qadın elə ailədə rahatlıq tapsın. Əgər ər bu zövqü ona vermirsə və onu bir başqa ünvanda tapmaq mümkündürsə»…

Get- gedə güclənən qadınlıq istedadı ilə yanaşı şairlik istedadı da olan Fənayə öz hisslərini, qaynayan ovqatını şeirə çevirir…

«…Gör nə qədər sevinc, qəm
Dalğalanır üzümdə,
Yuyunmaq istəyirəm
Bir sevgi dənizində.

Yuyarmı günahımı
Bu dənizin suları?
Varsansa, ey İlahi,
Yetir mənə baharı.

Sevirəm dalğaları
Vüsalın səsi kimi,
Həsrət batır sularda
Dəniz ləpəsi kimi»…

Yazıçı Fənayənin xarakterini (o xarakterini ki, tezliklə onun qadın taleyini müəyyən edəcək!), fikrimizcə, bir az tez «formalaşdırır»… Ancaq bunu dərhal romanın (və Fənayə obrazının) qüsuru kimi qələmə verməkdən də uzağıq. Hər şeydən əvvəl ona görə ki, Fənayə ən azından məlum bir «ailə»nin «gen»inin (həm bioloji, həm mənəvi, həm də sosial) daşıyıcısıdır…

«…Fikirlər Fənayəni dünəndən bəri üzürdü. Qanşu qızlardan biri, məktəbli ola- ola, on altı yaşında ərə getmişdi, məlum olmuşdu ki, hamilədi. Bir ildən sonra uşağını qucağına qoyub dalından bir təpik vurmuşdular. Anası o qız barəsində demişdi ki, əti pişiyə tez yedizdirib… İndi bunların heç biri Fənayənin eyninə deyildi. Harisin odlu baxışlarını üzündə, gözündə, yarımaçıq sinəsində hiss etsə də, bundan xoşlansa da, özünü ötəri duyğuların əsiri hesab eləmirdi. O, hətta istədiyi bir kişiyə ərə getsə belə, ev qadını olmaq istəmirdi. Bu cür sadəlövh

düşüncələrə gülməyi tuturdu. Bütün hallarda gənc xanımın duyğularının son ucunda güclü, çox güclü bir kişiyə qovuşmaq təşnəsi dururdu»…

Fənayənin evdən çıxanda rastlaşdığı «hadisə» ilə «sevgi tərcümeyi- hal»ını müqayisə eləməsi nə qədər prozaik təsir bağışlasa da, onun sərsəm xəyallarını, ruhunun- mənəviyyatının «biolojiliy»ini göstərmək üçün maraqlıdır… Və hətta müəllifin kəşfi sayıla bilər…

«… Həyət qapısından çıxanda, çirkab suyuna batmasın deyə, ara- bərədəki quru yerlərlə, divarın lap dibi ilə getməyə çalışdı. Tində murova gələn dişi pişiyin yanını kəsdirən erkəklər vahiməli səslər çıxara- çıxara diş qıcayırdılar. Dişi pişik sinəsini irəli verib tükünü qabartmış iri erkək pişiyin kürəyinə sürtünür, zolaqlı başı ilə pırpız erkəyin boynunu- boğazını oxşayırdı. Başqa vaxt olsaydı, pişiklər qorxub qaçar, hərəsi bir tərəfə atılıb gözdən itərdilər. İndi isə sanki Fənayəni görmürdülər. Çox güman ki, ayrı vaxt olsaydı, Fənayə də ayaqlarını yerə şappıldadıb pişiklərə acıqlanar, onları qovardı. Bu dəfə pişiklərin yanından ehmalca keçdi. İçində duyduğu yüngül ikrah hissi ilə pişik yığnağından uzaqlaşmaq istədi. Pırpız pişiyin yanında islanmış cücəyə dönən cavan erkəklərə baxmaq lap zülm idi. Heç bilmədi, necə oldusa, Allahın bu bədbəxt canlılarından uzaqlaşdığı anda tələbə yoldaşları – Faiqi, Zauru, Zahiri xatırladı və ani xatırlamanın əcaibliyini hiss edib, «heç gör hənanın yeridir?..» - deyə düşündü»…

Faiq, Zaur, Zahir Fənayənin ona biganə olmayan, ancaq «cəsarətsiz» tələbə yoldaşları idilər…

Harisin Fənayəyə münasibətində illər boyu vərdiş etdiyi qadın «ovçuluğ»u, hərisliyi nə qədər güclü olsa da, nəhayət ki, ailə qurmaq, təsadüfi görüşlərin qızdıra bilmədiyi ev- ocağını həmişəlik isitmək, bir sözlə, adam olmaq hissləri də yox deyil… Ancaq düşünür ki, buna təpəri, kişiliyi çatacaqmı…

… Fənayənin hələlik passiv sevgi tərcümeyi- halında – ona aşiq olanlar arasında bir qəzetsatan oğlan – Qarabağ müharibəsi əlili də var…

«…Fənayə avtobus dayanacağına çatanda hələ qarışıq düşüncələrinin təsiri altında idi. Qəzet köşkünü gördü. Yadına düşdü ki, «Ay ışığı» jurnalında şeirləri çap olunmalıdı. Qarabağ müharibəsi əlili olan qəzetsatan oğlan qızı görən kimi,

«Ay işığı» jurnalının təzə nömrəsini vitrindən götürdü. O, Fənayənin şairə olduğunu bilirdi. Hər dəfə təzə yazısı hansısa bir qəzetdə, ya jurnalda çap ediləndə Fənayə sevinə- sevinə bu köşkə gəlmiş, axtardığını alıb getmişdi. Gec, yaxud tez gəlməyinin fərqi yox idi, çünki əlil oğlan ona lazım olan qəzet, jurnal nüsxələrini alta qoyub saxlayırdı.

Köşkün azca yana çəkilib aralanmış dar pəncərəsindən üç dənə manatlığı içəri uzatdı. Əlində jurnal tutmuş qəzetsatan oğlan gözlərini Fənayəyə zilləmişdi, baxışlarında heyranlıq vardı. Fənayə jurnalı alandan bir xeyli sonra da onun gözləri yol çəkdi, əli havadan asılı qaldı. Bəlkə də başqası olsaydı, Fənayə onu acılayardı, amma indi heç nə demədi, gülümsəyib uzaqlaşdı. Qəzetsatan köşkün içində o gedən tərəfə baxa- baxa donub qaldı. Belə məsələlərdə həssaslıq baxımından Fənayəyə yəqin ki, bir kimsə çata bilməzdi. Oğlanın duyğularını anlayırdı. Həm də bu düyğuların əndazəsini aşıb fanatik bir heyrət səviyyəsinə yüksəldiyini də görməmək mümkün deyildi. Yazıq qəzetsatan oğlan!..»

Fənayənin Harislə, əslində, tərəddüdlə, suallarla, qanqaraldıcı həyəcanlarla dolu olan ilk görüşü elə də ürəkaçan olmur.

Bununla belə…

«…Fənayə gözəl qız idi, əvvəl- axır könlünü bir oğlana verməli idi, ya yox? Ancaq kimə? Ona nağılların sehrli qəhrəmanı kimi baxan qəzetsatan oğlana, qruplarındakı Zaura, Zahirə, Faiqə, yoxsa Sərrafa?..

Sərraf İqtisadiyyat Universitetində oxuyurdu. Televiziya müsabiqəsi zamanı tanış olmuşdular. Universitetin jurnalistika fakültəsinin tələbələri bir il əvvəl həmin müsabiqədə İqtisadiyyat Universitetindən gəlmiş komandaya uduzmuşdu. Tələbə-iqtisadçıların kapitanı Sərraf, tələbə- jurnalistlərin kapitanı isə Fənayə idi. O vaxtdan Sərrafla Fənayə arasında dostluq münasibəti yarandı. Sərraf Fənayə ilə bərabər Rahibənin də xətrini istəyir, Sadiqəylə həmişə salamlaşıb hal- əhval tuturdu. Sərrafın hərəkətləri hər cür yüngüllükdən uzaqdı. Hərçənd, ürəyindən keçirdi, amma bir dəfə də olsun Sərrafın baxışlarını öz üzərində hiss eləməmişdi»…

Həyat Sərrafı Fənayənin heç zaman anlaya bilməyəcəyi bir şəraitdə böyütmüş, ona Fənayənin heç zaman dərk edə bilməyəcəyi bir tale vermişdi…

«…Sərraf üçaylıq körpə olanda atası Qabil vəfat etmişdi. Sərrafın özündən başqa, qardaşı və bacısı da vardı. Ucqar bir kənddə üç uşaqla tək qalan Həyatın qəlbindən qara qanlar axırdı. Evləri obanın ortasında, balaca təpənin üstündə idi. Bu yerlərdə qara yel payız girəndən əsməyə başlayır, özü ilə quduz soyuq gətirirdi. Kasıb daxmanın dəlmə- deşiklərini köhnə- köşkül paltar- palazla tutsalar da, soyuq oradan- buradan içəri soxulur, nimdaş yorğan- döşəyin içində uşaqları üşüdür, titrədirdi»…

…Tələbələik illərində özünə sövqi- təbiilə gələcək həyat yoldaşı axtaran Sərraf Fənayəni də, Rahibəni də yaxşı tanısa da, Sadiqəni seçmişdi…

Çünki…

«…Ən müxtəlif kanallardan, daha doğrusu, Zahirin, Zaurun, Faiqin söhbətlərindən öyrənə bilmişdi ki, Sadiqənin ailəsi onun ailəsinə uyğundur»…

Hüseynbala Mirələmovun yazıçı təfəkküründə, əxlaq fəlsəfəsində (və estetikasında!) xüsusi olaraq qeyd etmək lazımdır ki, bu «ailə uyğunluğu» çox mühüm faktordur. Və onun bir çox əsərlərində həmin faktorun təzahürünü görürük…

Fikrimizcə, həmin fəlsəfə (və estetika) yalnız epik- etnoqrafik yaddaşdan gəlmir, həm də yazıçının müasir ictimai- əxlaqi münasibətlər sistemi üzərində apardığı ardıcıl müşahidələrin (və özünəməxsus intensiv təhlillərin) nəticəsidir…

…Sadiqə ağıllı qız idi. Və ailə həyatı üçün yaranmışdı…

«…Kim deyirsə ki, sevgi qəfil qonaq kimi gəlir, çox güman, yanılır. Zərrə-zərrə Sadiqənin qəlbinə dolan çırpıntılar əvvəl- əvvəl mübhəm bir güman, şübhə şəklində peyda olsa da, tədricən qarşılıqlı hörmətə, ehtirama çevrilirdi. Sadiqəyə gün kimi aydın idi; Fənayə və Rahibə ilə xosunlaşan, onların «sancmaları»na ustalıqla cavab verən Sərrafın gözü ondadır. Ayrı bir söhbət ola bilməz, bu yüz faiz belədir»…

…Fənayə hər cür tərəddüdlərin, əxlaq qaydalarının (onun fikrincə isə, mənasız «qadağalar»ın) üstündən «cəsarətlə» adlayıb Harisin zahirən dəbdəbəli evinə (həyatına) daxil olur.

«Fənayə indiyə qədər olmadığı, yalnız təsəvvüründə canlandıra biləcəyi bir dünyaya qovuşmuşdu. Daha o, srağagünkü, dünənki, heç bir neçə saat öncəki adam deyildi, həqiqətən də riskli addım atmışdı. Ümumiyyətlə, qızlar qadınlığa qədəm qoyanda, onların düşüncəsində ciddi dəyişiklik yaranır. Keçid mərhələsi psixoloji sarsıntıya da dirənə bilər»…

Məqsədinə nail olmuş, tamamilə məmnun Haris «filosofluq» edir…

«…Evlilik aktını götürək. Bu ki, bütöv bib sistemdir, tarixən toy ənənəsi, qızların gəlin köçməsinə qədər ayrı- ayrı adətlərin icrası – elçiliklər, nişan, get-gəllər, qır- qızıl, noğul- nabat, nəhayət, gəlinlik paltarı – bütün bunlar görünür, qızları psixoloji cəhətdən həmin mərhəlyə, həyatın ən həlledici addımlarından birini hazırlamaq üçündür. Çünki məhz bu addımla insan vərdiş etdiyi bir aləmdən tamamilə başqa bir həyata yeriyir. Bu mərhələ oğlanların da həyatından izsiz ötmür. Özlərinə inamları artır, başqa sözlə, kişi olurlar. Necə ki, hər bir oğlan kişi olmaq istəyir, eləcə də qızların ən böyük həyəcanı, çırpıntısı qadın olmaqla bağlıdır…

İndi az qala qorxunc bir halsızlıq içində çarpayıya uzanıb dünyanı şüşə kimi donuq nəzərlərilə süzən Fənayənin də susqunluğunun səbəbi, yəqin ki, bununla bağlı idi. O, Fənayənin yanına qayıtmaq, onu ayağa qaldırmaq, ona ruh vermək istədi. Fənayə orada, hadisənin bir ildırım tezliyi ilə baş verdiyi «məkan»da – yataq otağındakı çarpayıda uzanmışdı. Dilsiz baxışların hansı nöqtəyə zilləndiyindən fələk də baş aça bilməzdi. Ümumiyyətlə, o baxırdımı? Onun baxa biləcəyi bir nöqtə vardımı?..»

Mənalı suallardır…

Ömründə ilk dəfə sevdiyi bir kişiylə yatağa girmiş Fənayə bütün vücudunu sarmış süstlükdən sonra tədricən özünə gəlir. Harisin qayğıkeş, canıyananlıq ifadə edən təmaslarına xəfif «isti öpüşlər»lə cavab versə də dili söz tutmur…

Və nəhayət…

«…Fənayə onu daha hərarətlə bağrına basdı, zəif- zəif inildədi. Haris yalvarırmış kimi israr etdi:

- Xahiş edirəm, dilinlə de, xoşbəxtsənmi? Axı, sən daha uşaq deyilsən. Bir gecənin içində böyümüsən. Qadınsan. Sən qız həyatının zirvəsinə qalxmısan. Ucalıqdan qorxmursan ki, Fənayə? O insanlar ki, bizə qəribə baxırlar, onlar səndən, məndən çox- çox aşağıdadırlar. Onlar bizi başa düşə bilməzlər. Onlar qayda- qanun əsiridirlər.

- Haris, səninlə birgə olduğuma görə, çox xoşbəxtəm. Özün bilirsən ki, mən heç bir qayda- qanun tanımıram.

- Fənayə, sən qadınlığını öz azadlığınla qazanmısan.

- Azadlıq özü xoşbəxtlikdir, bunu bilirsən. Azadlıq elə- belə söz deyil. Onu bizə verən də həyatdır, alan da»…

Müəllif öz qəhrəmanlarının azadlıq (və həyat!) fəlsəfəsinin izahına nə qədər «fövqəladə» şəraitdə yer ayırsa da, mövqelər tamamilə əsaslıdır və qətiyyən təsadüfi, yaxud impulsiv düşüncənin məhsulu deyil…

Roman müəllifi tamamilə əmindir ki…

«…Haris onun axtardığı adam idi. Çünki Fənayə kökündə çılğın məhəbbət dayanan macəraların acı deyildi. Xəyalı qanadlandıran romantika, iztirablarla dolu sentmental hislər ona yaddı. Bu mövzuda söhbət açanlara hər zaman ikrahla baxırdı. Onları vaxtı keçmiş ənənələrin qulu hesab edirdi. Bəs, Fədai? Yox, o tamam başqa adamdır… Həyat fəlsəfəsi… Yox, Fənayə, ümumiyyətlə, ailə adlı kiçik dövlətin dar sərhədlərini tanımaq istəmirdi. Çünki onun gəldiyi qənaətə görə, bu cür məhəbbət insanın sərbəstliyini əlindən alır»…

Yazıçı dastan və ya nağıl estetikası və ya üslubu üçün səciyyəvi olan «kiçik» bir ştrixdən istifadə edir. Və bu «kiçik» bədii- simvolik ştrix yeri gəldikcə təkrar olunur, daha doğrusu, yada salınır, hətta bəzən o qədər «böyüyür» ki, Fənayənin taleyini müəyyən edən bir mistik amilə çevrilir…

Həmin ştrix nədən ibarətdir?..

Fənayə səhər Harisin evini tərk edib getmək istəyəndə görür ki, nənəsindən qalma üzüyünün qaşı düşüb. Axtarsa da tapa bilmir. Və bunun onu gələcəkdə gözləyən hansısa fəlakət haqqında xəbərdarlıq olduğunu ürəyindən keçirir…

Bakirəliyini itirdikdən, heç kimlə (hətta ata- anası ilə) məsləhətləşmədən, oğrunca, toysuz- düyünsüz (qeyri- qanuni!) qadınlıq həyatına qədəm basdıqdan sonra Fənayə dünyaya, ətrafına başqa gözlə baxmağa başlayır…

«…Tay- tuşları ona yad kimi görünürdü. Fənayə qocalmış, elə bil yüz yaşına dolmuş, ondan fərqli olaraq, tələbə yoldaşları gənclik təravətini qoruya bilmişdilər. Hamısının «sünbülündən su damırdı». O, neçə il əvvəlki Zauru, Faiqi, Zahiri – uşaq gözündə gördüyü bu oğlanları indi gizli bir xiffət içində süzürdü»…

Yazıçı Fənayənin taleyində – məhəbbət tərcümeyi- halında iştirak edəcək növbəti qəhrəmanı – rəssam Yusifcanı romanın süjetinə elə ilk məqamlardan xarakterik əlamətlərilə daxil edir…

«…Yusifcanın nurlu sifəti, üzünün duru, ağ rəngi gözlərinin maviliyinə qovuşub üfüqlərəcən uzanan dənizi andırırdı. Xəfif küləyin təsirindən gümüşü saçları kənardan baxana dəniz dalğaları təsiri bağışlayırdı. O biri rəssamlar kimi saqqal saxlamırdı. Amma uzun saçları çiyinlərinə qədər tökülən Yusifcan, həmişə molbert arxasına keçəndə, döyüşən cəngavərə bənzəyirdi.

Yolda, küçədə, adamlar arasında isə daim fikirli görünürdü. Yaratdığı əsərlər beynəlxalq müsabiqələrdə mükafatlara layiq görülsə də, özü həqiqi sənət sevincini yaşaya bilmirdi. Qəzetlərdə, televiziyada onun haqqında yazılar, məlumatlar verilməsinə, yaradıcılığının ümdə məziyyətlərindən söhbət açılmasına rəğmən təbii bir tutqunluq, az qala dərin bir kədər rəssamın gözlərinin içindən silinib getmirdi. Yusifcanın qəlbində bir boşluq vardı, sinədolusu nəfəs ala bilməyən adama oxşayırdı. Bütün varlığı ilə duyurdu ki, onun ehtiyaclarına, daxili istəyinə cavab verə bilən aləm buralarda yoxdur, çox uzaqlardadır. Amma harada? Nə qədər uzaqdı o uzaqlar?..»

Və onun portreti belə tamamlanır…

«…Yusifcanın qızları da rəssamdır. Həyat yoldaşı – bağça müəllimәsi Zərifə xanım nə qədər pərvanə kimi başına dolansa da, nə yazıq ki, ərinin döş

qəfəsinin altına çökən tənhalıq buzunu əridə bilmirdi. Yaraq- əsləhəsini qoltuğuna vurub evdən çıxanda, kim ondan soruşsa ki, «hara gedirsən?» - bircə kəlmə ilə cavab verirdi: - «Döyüşə»…

Yusifcan dəniz kənarına gəlir… Çəkmək üçün qeyri- adi mənzərə axtarır… Və tapır…

«…Deyəsən, Yusifcan ömrü boyu axtardığı həmin ilahi, əbədi anı tuta bilmişdi. Bu əbədi tablo  əllə tutulacaq qədər yaxındaydı. Elə ona görə də, dəli kimi işləyirdi. Bütün gücü ilə gördüklərini yaddaşına  hopdurur, oradan da kətana köçürürdü.

İlk eskizlər demək olar, hazır idi. İki nəfərin taleyin ixtiyarına buraxılmış qayıq dünyasının ecazkar  mənzərə fonunda təsviri, Yusifcana imkan verirdi ki, nəticənin  uğurunu gözləsin, daha doğrusu, ona yetişsin. Axı, sənətdə şans əvəzsiz vasitədir. Yusifcan çəkdiyi tabloya kənardan baxmaq üçün ayağa qalxdı»…

…Yusifcanın gördüyü, kətana köçürdüyü qayıqdakılar isə Fənayə ilə Haris idilər…

Yazıçının qəhrəmanı filosofluq edir…

«…Görəsən, onlar bir- birini nəyin üstündə qana qərq etmiş, didib parçalamışdılar? Yem üstündəmi? Yox! Bəlkə ərazi, torpaq, daha yaxşı mağara üstündə; istidən daldalanmaq, soyuqdan qorunmaq üçün? Bəlkə məsələ daha ciddidir? Kim kimə tabe olmalıdır? Demək, kim kimi? Bioloji təminat, instinkt, cütlərin yaxınlıq istəyi, vəhşi ehtirasların təminatı… Nə qədər amansız və bəsit olsa da, qədim insan üçün bunlar həyatın mənasıydı, ölüm- dirim məsələsiydi. Guya, bugünkü  insanın çalışıb- çarpışması qədim əcdadlarının həyat məqsədindən çoxmu fərqlənir? Həmin mərəz indi də dipdiri durur. Deməli, nə qədər insanlıq yaşayır, cəmiyyət mövcuddur, köhnə  mərəz o zamana qədər öz hökmranlığını saxlayacaq. Sadəcə, insanın görkəmi, saç düzümü, geyim- keçimi, bir sözlə, zahiri əlamətləri dəyişə bilər. Bir vaxt insanlar əlləri, dişləri, caynaqları ilə didib- dağıdır, daşla vurub yıxır, nizə ilə deşirdilər. Sonralar qılınc, qalxan, ox, kaman, daha sonra nüvə silahları, toplar, mərmilər, raketlər, dağıdıcı bombalar çıxdı… Ancaq mahiyyət və niyyət eynidir. Daha çox əldə etmək!.. Yalnız bu!..»

Rəssamın bu sadəlövh, ancaq kifayət qədər aydın (dəqiq!) fəlsəfəsi ona görə havadan asılı qalır, yaxud heç kimi maraqlandırmır ki, onsuz da həmin fəlsəfə nə yaşanmış dövrlərə, nə bugünə, nə də gələcəyə təsir etmək imkanına malik deyil. Və Yusifcan kimi filosoflar, məşhur ifadə ilə desək, dünyanı yalnız «izah» edə bilərlər, onu «dəyişdirə» bilməzlər…

Yusifcan Fənayəni ilk dəfə universitetdə təsadüfən görmüşdü. Və onun rəssam- sənətkar gözləri bu qeyri- adi qızı əbədilik yaddaşına, ruhuna həkk etmişdi…

«…Qızlardan biri ona yaxınlaşıb:

- Siz daha çox hansı janrda  işləyirsiniz? – sualını verməsəydi, bəlkə də bayılacaqdı.

- Bir çox janrda özümü sınamışam. Hətta sizlərdən biriniz istəsə, naturadan da şəklini çəkə bilərəm.

Bu zaman kənarda dayanan həmin qız yaxınlaşıb soruşdu:

- Bizlərdən kimi seçərdiniz?

Yusifcanın nitqi qurudu, cavab verə bilmədi. Onun bircə cavabı vardı: «Elə səni». Amma deyə bilmədi. Bu vaxt oğlanlardan biri qabağa çıxıb, kobudcasına Yusifcanın qolundan tutdu:

- Götür «zir- zibilini» də, buradan get!

Həmin gənc boy- buxunu, qüvvətli, əzələli qolları, sərt baxışları ilə elə onun gəncliyini xatırlatdı. Yusifcan oğlanı qınamadı. O, özü də belə qaba  hərəkət edərdi.  Bu vaxt baxışlarıyla artıq Yusifcanı ram etmiş qız:

- Məni çəkərsən, - demişdi.

Yusifcan hiss etdi ki, bu qız tələb yoldaşlarının hamısından, bəlkə də boy- buxununa güvənən, fiziki gücünə arxalana həmin oğlandan da qüvvətlidir. Sonralar da, elə ilk görüşdəcə cazibəsindən qurtula  bilmədiyi bu qızı heç cür unuda bilmədi. Bir- iki dəfə universitetə gedib onun adını və kim olduğunu öyrənmişdi. Son vaxtlar dərsə xarici maşınla  gəlib- gedən həmin qız Fənayə idi»…

Fənayə nə «işlər» gördüyünü olduğu kimi anasına danışardı, ancaq nə anasına, nə də üzünü, demək olar ki, görmədiyi atasına həmin «işlər»lə bağlı

hesabat verməyi ağlına belə gətirmirdi… Əslində, ondan belə bir hesabat istəyən də yox idi…

Sual olunur…

Azərbaycan cəmiyyətinin bugünkü reallıqları daxilində belə bir «ailə»ni təsəvvür etmək mümkündürmü?..

Əlbəttə, bu mürəkkəb suala dərhal (və qəti şəkildə) «mümkündür», yaxud «mümkün deyil» cavablarından birini vermək çətindir. Bununla belə bir şey mübahisəsizdir ki, müəllif həmin «ailə»ni bütün gerçəklikləri, təzahürləri, hətta «anatomiya»sı ilə görür… Və cəsarətlə göstərir, təsvir edir…

«…Fənayə bir həftə əvvəl Harislə «Satir» restoranında onlar üçün ayrılan otağa girəndə, lap kənardan gələn uzun adamın atası Qadir olduğunu görmüşdü. Yanında da cavanca bir qız, özü də gülə- gülə, tay- tuş kimi gəlirdilər. Qız, atasının qoluna girmişdi. Kənardan baxanda, bu, çox gülməli görünürdü. Bir anlıq özünü həmin qızın, Harisi də atasının yerində təsəvvür etdi. Doğrudanmı, onlar da kənardan belə gülməli görünür, ikrah hissi doğururdular? Atası ilə həmin qız keçib gedən kimi, onlar da otağa daxil olub qapını örtdülər və hər şey yaddan çıxdı»…

…Məsələ (və faciə!) burasında idi ki, «ailə» də hamı bir- birini «başa düşürdü»…

«…Fənayə «Satir»in qapısından içəri girən kimi, atasını da, elə həmin qızı da unutdu. Üstəlik, bir az sonra həyatın şirinliyindən məst olanda, həmin qıza da, atasına da haqq qazandırdı.

Fənayə bu vaxta qədər olanları anasından gizlətməmişdi. Yəqin ki, atası maraqlansaydı, ondan da gizlətməzdi. Sadəcə bilirdi ki, atası üçün heç nəyin fərqi yoxdur, kişi pul qazanır və pulunun bir hissəsini də kefə, əyləncəyə sərf edir»…

Öz təmənnasız (lakin mahiyyəti dərk olunmayan, «vəhşi!) sevgisinin gələcəyindən narahatlıq keçirən Fənayə, yəqin ki, həm də hamiləlikdən irəli gələn təbii bir məsuliyyət refleksinin təsiri altında Harislə ciddi danışmalı olur…

« - Bilirsən ki, məni sənə bağlayan hər halda, pul deyil. Pulun sənin varlığını işğal etdiyinə dözə bilmirəm. Bu gün olmasa da, sabah həmin «dəmir caynaqlı əjdaha» varlığına hopub əlindən alacaq. Hər şeyi itirəcəksən, elə məni də. Mən isə

bunu istəmirəm. Ona görə yox ki, zorla yanında  qalmaq niyyətindəyəm. Sadəcə istəmirəm ki, bir insan kimi məhv olasan.

- Yox, Fənayə, bu yolu mən özüm seçmişəm. Pulsuz adamı cəmiyyət saymır. Mən isə görünmək, diqqət mərkəzində olmaq, hadisələrə müdaxilə  etmək istəyirəm. Qızıl mağazalarım, restoranlarım var, ərəblərlə işbirliyi qurmuşam. Onlar mənə inanıb, banklarda adıma sərmayə qoyublar. Bu pullardan necə istifadə etməyin ixtiyarı öz əlimdədir.

Haris Fənayəyə indiyənədək bu barədə heç nə deməmişdi. Fənayə ciddi şəkildə maraqlanmasa da, onun birdən- birə belə varlanmağının səbəbini bilmək istəyirdi. Əlbəttə, Harisdən yana narahatlığına son qoymaq  üçün. İndi hiss etdi ki, nigarançılığı əbəs deyilmiş.

- Hər halda, onlar pulu sənə elə- belə verməyiblər.

- Xeyr, demək olar ki, elə- belə veriblər. Əvəzində ayda üç- dörd yeniyetmə qız tapıb işləmək üçün Dubaya göndərirəm. Bu da elə çətin iş deyil, şəhərdə beləlləri çoxdur.

- Kifayət qədər qazanmısan. Haramdır, halaldır, buna sözüm yox. Bacarığının bəhrəsidir, mübahisə etmək istəmirəm. Bəlkə bu yoldan çəkinəsən?..»

Küllü miqdarda qazanc, mal- mülk, eyş- işrət eşqilə yanan Haris etiraz etdikdə Fənayə onun kişilik (namus) hisslərini hərəkətə gətirmək istəsə də, qarşısında daha amansız (və şərəfsiz!) bir «varlığ»ın dayandığını görür…

«- Əvəzində Dubaya nə qədər qız yola salacaqsan?

- Necə?

- Sayını soruşuram, konkret qızların sayını. Həm də yəqin ki, hamısı azərbaycanlı olmalıdır. Bəlkə qeyri- millətlərdən də mümkündür, yoxsa fərqi yoxdur?

- Əgər imkanım olsaydı, Azərbaycandakı bütün qızları Dubaya göndərərdim. Elə bilirsən, onlar pulsuz gedirlər?

Fənayə diqqətlə Harisin gözlərinin içinə baxdı. Həmin gözlərdə bir canavar hərisliyi gördü. Bu pul, var- dövlət düşkünü doğma anasını da, bacısını da, hətta

onu da Dubaya yola salmağa hazır idi. Görəsən, doğrudanmı o bu qədər qorxunc bir həqiqətlə üzbəüzdür?..»

Öz istəyiylə düşdüyü bu üfunət, çirkab içərisində də ümidini üzmür…

«…Harisin üzünə tüpürmək və çıxıb getmək istədi. Ancaq nədənsə, ayağa qalxa bilmədi. Bəlkə Harisə çox bağlanmışdı? O, Harisin öz əməllərindən peşman olacağını, hərəkətlərinə hədd qoyacağını, hətta Fənayə  razı olmasa belə, ondan üzr istəyəcəyini düşündü»…

Harisin nəinki düzələcəyini, Fənayənin sevgisinə layiq olacağını, heç ədəb xatirinə ondan üzr istəyəcəyini gözləmək də əbəs imiş…

«…Lakin Haris  onun qolundan yapışıb deyəndə ki, gedək, daha gecdir, mən səhər tezdən xaricə gedən təzə dəstəni yola salmalıyam, bütün ümidləri qırıldı, gözlərinə qaranlıq çökdü…

Sis, duman sahili bürüdü. O, heç nəyi görmürdü. «Satir»in işıqları da yanmırdı. Ətraf zülmətə qərq olduğundan anasını çağırmaq istədi ki, qaranlıqda qolundan yapışsın. Dəhşətli qəhqəhələr eşitdi. Zinayə  idi, – zülmətdə yolunu azmış, kimsəsiz, tək- tənha qalmış, qayalıqlar arasında cığır axtaran Fənayəyə – qızına gülürdü. Bu qəhqəhə Fənayəni yandırıb- yaxdı. Məgər anasını çağırmağa dəyərdimi? Yox, çağıra  bilmədi. Atasını – Qədiri səsləmək istədi. Ağlına gəldi ki, bəlkə elə yaxındadır – «Satir»də, restoranda həmin o cavan qızladır. Bəlkə səs eşidilməyən bağlı otaqların birində istirahətdədir? Heç ağlına da gəlmir ki, qızı haradadır? Yoxsa, o da Harislə şərikdir? İndiki zəmanənin dostları elə belə olar. Niyə bu əvvəl də Fənayənin ağlına gəlməyib? Atasının tez- tez «Satir» restoranına gəlməsi, buranı istirahət yeri kimi seçməsi yəqin təsadüfi deyildi. Həmin qızlarla müqavilə bəlkə elə «Satir»də bağlanır? Bunun yəqin ki, son vaxtlar atasının evə gətirdiyi külli miqdarda pulla əlaqəsi vardı. O, demək olar ki, köhnə iş yerində çox nadir hallarda telefona cavab verirdi. Həm də son vaxtlar atasının birdən- birə xidməti maşını peyda olmuşdu. Onların evinə bazarlığı da başqaları eləyirdi. Yoxsa atasının da Haris kimi şəhərin ayrı- ayrı məhəllələrində mülkləri var, banklarda adına hesab açılıb? Bəlkə atası da sabah həmin yeni dəstənin Dubaya yolasalma mərasimində iştirak edəcək?..»

Fənayə, özündən asılı olmasa da, bu sualları verməkdə tamamilə haqlı idi…

Onun atası Qadir, doğrudan da, bu vaxt «Satir»də məşuqəsi (və «iş yoldaşı») Rufa ilə əylənir, Dubaya gedəcək növbəti «yeddi nəfər»in tərkibini hazırlayırdı…

«…Boynundan asılmış qızın belindən tutub özünə sıxan Qadir, otaqda iki dəfə fırlandı. İki dəfə yox, lap yüz dəfə də fırlansaydı, bu qız ondan qopana oxşamırdı. Qolları ilə Qadirin boynunu qucaqlayaraq, ayaqlarını onun belinə doladı. Qadirin nazik, uzun boynunun üstündəki başı, az qala, tavandan asılmış çilçırağa dəyirdi. Sanki otağa zürafə girmişdi. Fırlanıb qızla birlikdə yumşaq yatağın üstünə tullandı. Qız gecə lampasını yandırdı.

Otağın ekzotik mənzərəsi ilk dəfə bura girəni çaşdıra bilərdi. Rəngli divar kağızını cəngəllik təsvirləri, sarı və ağçiçəkli çobanyastığı çəmənliyi, cəngəllik ağaclarından sallanan meymunlar, talada nəhəng ağacın gövdəsinə söykənib dişlərini qıcayaraq baxan qorilla bəzəyirdi… Yataq dəstindən yuxarıda isə rəssamlıq nümunəsi – «Çılpaq Maxa» baxanı heyrətə gətirirdi.

Klassik Avropa rəssamının gözəl sənət əsəri bu otaqda ehtiras və şəhvət yardımçısı rolu oynayırdı, şəhvani hislər oyadan bu sənət əsərini yaradan müəllif burada olsaydı, bəlkə onun da ağlı başından çıxardı»…

… «Vəhşi sevişmə»nin axırı az qala faciə ilə bitəcəkdi...

«… Təcavüz azacıq da davam etsəydi, Allah bilir, qız, bu eybəcər vəhşinin əlində ölüb- itəcəkdi. Boynundan, dodaqlarından, döşlərindən qan sızırdı. Qadir isə getdikcə qızışır, sakitləşmək bilmirdi. Elə bu an çarpayının lap kənarından ona yenidən hücum etmək istədi, qız cəld hərəkətlə Qadiri sinəsindən ayaqları ilə möhkəm itələdi. Nazik, uzunqılçalı Qadir, özünü saxlaya bilməyib yıxıldı. Başı çarpayının böyründəki balaca şkafın tininə dəydi. Kişi huşunu itirib düşdüyü yerdə qaldı. Qız divara qısılıb anlaşılmaz qorxu içərisində ona baxdı. Qadir tərpənmirdi. Qız əvvəlcə qucağına sıxdığı üst paltarını nə qədər mümkündü tez geyinib bu dəhşətli mənzərədən qaçıb uzaqlaşmaq istədi. Paltarını sinəsinə bir az da möhkəm sıxıb qapıya sarı bir neçə addım atdı və yenidən Qadirə tərəf baxdı, o hərəkətsiziydi»…

Qadir bu halında belə qızının – Fənayənin fəryadını «eşidir», ancaq…

«…Rufa əlini Qadirin başına çəkdi. Onun gicgahı şişib yumrulanmış, bir az qanamışdı. Qız Qadirin başının qanını yaş əski ilə siləndə, zədənin yeri sızıldadı. Qadir inildədi və yenidən heysizləşdi. O, Fənayənin qayalıqdan əks- səda verərək yüksələn fəryadını yenə eşitdi. Ayağa qalxmaq, qızının imdadına yetmək istədi, ancaq bacarmadı. Elə bil kimsə onu tutub saxlayır, qızının harayına yetişməyə qoymurdu»…

Və beləliklə, ailə – ata, ana və qız arasındakı təhtəlşüur bağlılıq da onların heç birinin köməyinə gəlmir…

Yazıçı real hadisələrlə irreal olaylar (düşüncələr, xəyallar, yuxugörmələr və s.) arasındakı «təhtəlşüur» rabitəni ustalıqla qurur. Real olan irrealla, irreal olan isə realla az qala bir psixoloji süjet və ya kompozisiyada birləşərək ümumi təəssürat - informasiyanın üzvi tərkib hissəsinə çevrilir…

Fənayə bütün mənəvi- ruhi ağırlığı ilə dərk edir ki, Haris onun təsəvvür edə biləcəyindən də qat- qat alçaqdır…

«…Fənayənin dodaqları astaca tərpəndi. Haris dinmədi, qızın səsini eşitmək, niyyətini anlamaq istədi. Aradan ötən qısa zaman aralığında Haris, Fənayəyə ilk dəfə ikrahla baxdı. Bəlkə öncədən qərarlaşdırmışdı ki, bu görüş Fənayə ilə onun son görüşüdür? Fənayə onun gözlərində lazımsız, gərəksiz əşya kimi idi. Demə, Haris onun adını xaricə göndərəcəyi qızların siyahısına da salıbmış. Bu siyahıda adlar şərti idi. Onun adı Fenya kimi göstərilmişdi. Fenya elə Fənayə deməkdi»…

Və bu məqamda Fənayəyə bütün ruhu ilə ancaq şairliyinə qapılmaq qalır…

«…Bir vaxt istisindən
Ləçək- ləçək,
Pardaq- pardaq
Gül açdığım baxışlar.
Bir vaxt işığına
Uşaq kimi
Qaçdığım baxışlar.

Hara getdi istisinə
Bələndiyim baxışlar?

İndi o baxışlardan
Soyuq yağışlar yağır.
İndi o yağışlardan
Soyuq baxışlar yağır.
Qəlbimin dolmuş gözlərinə
Soyuq küləklər əsir»…

Fənayə Harisi öldürmək – qayadan aşağı itələmək istəyir… Və bunu ondan gizlətməkdən belə çəkinmir…

«…Haris onun ovqatının hansı durumda olduğunu bilmək istədi:

- Hə, deyirsən səni kim vurdu? Mənim körpəm?

- Sənin körpən.

Bu söz deyildi, zindanı döyən ağır çəkic idi.

- O, səni niyə vurdu ki?

Harisin səsi çartaçartla yanan qəzəb ocağına döndü.

- Qoymadı ki, itələyəm, axırına çıxam, o dünyalıq olasan.

Harisin gözləri bərəldi, hədəqəsindən çıxdı»…

Haris görür (və hansısa təhtəlşüur bir qüvvənin təsirilə hiss edir) ki, bu xına indiyə qədərki xınalardan deyil…

Və çıxış yolunu indiyə qədər görmədiyi, adət etmədiyi «yol»larda axtarır… Çünki Fənayənin adını Dubaya gedəcək qızların siyahısına salmaqla iş bitmirdi. O, bu qədər müddətdə anlamamışdı ki, Fənayənin «azadlığ»ını Dubayla məhdudlaşdırmaq olmazdı…

Artıq «köhnəlmiş» rəfiqəsini aradan götürmək üçün başqa «yol» da, təbii ki, var idi…

Ancaq Fənayənin həyatı elə əvvəldən Haris kimilərinin deyil, taleyin (və onu yaradan müəllifin) əlindədir…

«…Haris yaxşı bilirdi ki, hazırki vaxtda bu şəhərin az- az adamları onun sözünü çevirə bilər. Haris onu da yaxşı bilirdi ki, bircə kəlməsi yetər ki, kimlərsə Fənayəni bu dünyadan yox etsin. Bəs, nəyə görə Harisin qıza cavab verməyə cəsarəti çatmırdı? Niyə onun əlində əsir olmuşdu?..

O, Fənayənin paltar geyinməyinin fərqinə varmadan maşını işə saldı, ayağını zərblə qaza basdı. Təkərlərin altında xırçıldayan qum və xırda daş dənələri ətrafa səpələndi. Fənayə arxa oturacaqdan maşını az qala uçurdan Harisi acı- acı süzdü. Xeyli vaxtdı qəlbinə hakim kəsilən bu kəs, gözlərinin qabağındaca mələk donunu soyunub canavar cildinə girirdi.

Dəniz kənarından asfalt yola qədər olan məsafə  o qədər də çox deyildi. Maşın ildırım kimi şütüyüb asfalt yola çıxdı. Və elə bu an… Şəhərə tərəf sürətlə irəliləyən «Qazel» markalı mikroavtobusla toqquşdu.  Hər iki maşının sürəti yüksək olduğundan, hadisə bir anda baş verdi. Harisin maşının altında elə bil bomba partladı. Maşın havaya qalxıb çevrildi, arxası üstə xeyli sürüşüb yolun kənarına düşdü. Mikroavtobus sürəti yığa bilmədiyi üçün yoldan çıxıb  aşdı. Bir azdan şəhərə çatacaqlarını düşünən, bəlkə də uzaq bir səfərin sonuncu intizarlı anlarını yaşayan adamların qara- qışqırığı göy üzünə bülənd oldu»…

Hadisə Fənayənin yaddaşında «özünəməxsus» şəkildə qalmışdı…

«…Yadına düşdü, onlar dənizin sahilindən aralananda Haris əsəbləşmişdi. O, maşını hirslə yerindən tərpətdi.  Yəqin ki, şəhərə tez çatmaq, Fənayəni elə çılpaq halda maşından itəlyib hansı küçədəsə atmaq istəyirdi. Fənayə bütün bunları onun kinli baxışlarından oxuyurdu. Haris üçün heç nəyin fərqi yoxdu, onun dodaqlarından qopan «sənin də, sənin uşağının da…» kəlməsi bütün körpüləri bir anda yandırmışdı. Bəlkə də Fənayə həmin an maşını  saxlamağı ondan tələb edəcək, gecənin qaranlığında, elə yoldaca düşüb ona da, maşınına da tüpürüb üzünü  çevirəcəkdi. Çünki Harislə tanış olduğu müddət ərzində ilk dəfə özünü bu qədər təhqir olunmuş sayırdı.

Fənayə «saxla» demək istədi, amma bu sözü söyləməyə macal tapmadı. Elə həmin an, deyəsən, zəlzələ  qopdu»…

Haris qəzadan sağ çıxmır, Fənayə isə…

«…Fənayəyə narkoz verildi, həkim tamamlanacaq müddəti gözləyirdi. Qızın ünvanını tapa bilməsələr də, əməliyyata başlayacaqdılar. Lazımi hazırlıq görülmüşdü. Fənayənin vəziyyəti ağır idi; uşaqlıqda güclü qanaxma baş verdiyindən çoxlu qan itirmişdi. Ola bilsin ki, əlavə qan vurmaq lazım gələcəkdi. Bətnindəki uşaq isə ölmüşdü»…

Və Fənayə qəza- ölüm hadisəsilə bağlı müstəntiqə «izahat» verməli olur…

«…Müstəntiq, demək olar ki, heç bir sualına düz- əməlli, fərli cavab ala bilməmişdi. O, sükutu yenə narahat- narahat pozdu:

- Sizin onunla yaşadığınız ilk gecədən əvvəl məqsədiniz barədə valideynlərinizə bir söz demişdinizmi? Harislə yaşamağı əvvəlcədən qərara almışdınızmı?

- Nə üçün valideynlərimə deməliydim? Mənim kifayət qədər yaşım var. Özümün öz taleyim barədə götür- qoy eləməyə, düşünməyə haqqım var.

- Axı, adət- ənənə də var…

- Lənətə gəlsin adət- ənənə, - Fənayə bu dəfə həqiqətən əsəbiləşdi: - İndimi yadınıza düşdü bu adət- ənənələr? Soruşun, görün, gecə barlarına gedən qızlar bu barədə kiməsə nəsə deyirmi? Heç bir nikah, quru kağız insanı bir- birinə bağlaya bilmir. İnsan ağac deyil, budağından kəsib calaq eləyəsən, tutdu qatıq, tutmadı ayran. Bu sözlərlə özümə haqq qazandırmaq fikrində deyiləm. Harisə qədər çoxları mənimlə yaxınlıq etmək istəyib. Dalımca sürünüblər, günəbaxan kimi arxamca boylanıblar, söz atıblar, üzümə irişiblər, eşq elan ediblər. Mən qəlbimə yaxın qoymamışam. Mənəvi- əxlaqi normalar kitab cümlələridir, həyat başqa şey deyir»…

Yenə də Fənayənin (nəticə etibarilə, müəllifin!) dediklərinin mahiyyətcə nə dərəcədə həqiqət olub- olmadığı üzərində uzun- uzadı mübahisə etmək olar.

Ancaq fakt faktlığında qalır…

Və Fənayə öz həyat fəlsəfəsilə hüquqşünaslığı universitetdə öyrənmiş müstəntiqi «mühakimə etmək»dən çəkinmir…

« - O, mənim azadlığımı istəyirdi. Siz yəqin ki, dünya incəsənətinin nadir inciləri sayılan «Madonna»ya, «Mono Liza»ya baxmısınız. Rəssamların ilham

aldıqları o qadınlar əxlaqsız idilərmi? Gözlərindən ehtiras yağan Çılpaq Maxa, Yatmış Venera, əllərini qarının üstünə qoymuş Mona Liza… kimlərdi? Onlar saaatlarla rəssam qarşısında uzana- uzana qənirsiz sənət incilərinin yaranmasına yardımçı olublar. Bu gün buna görə onları lənətləməliyikmi?..»

Və bir az da səmimi olur…

« - Mən çox şeyə görə məsuliyyət daşıyıram, qardaş… Kaş, həmin qəza gecəsi hamilə olduğumu Harisə deyən vaxt onun necə əsəbləşdiyini görəydiniz. Hətta maşında paltarımı geyinməyə belə macal vermədi. O, cəzasını biz maşına minməmiş almalı idi. Mən onu qayanın üstündən itələmək istəyirdim. Yəqin ki, yıxılandan sonra da başını daşla əzəcəkdim. Onun hərislik yağan ilan gözləri həmin axşam mənim əllərimlə tökülməli idi. Heyf ki, bətnimdəki körpə buna imkan vermədi»…

Haris ölmüşdü, Fənayə «sağ» qalmışdı, «həyat» isə davam edirdi…

«…Qadir xaricə yola düşən növbəti dəstəni demək olar ki, hazırlamışdı, bir nəfər də əlavə ediləcəkdi və həmin o bir nəfər Rahibə idi. Harisin qəzaya düşməsi, eyni zamanda Qadirin Rufa ilə həmin gecə «Satir» restoranında baş vermiş əhvalatı planları pozdu. Qadirin təhvil verəcəyi qızlar – sənədləri hazırlanmış qrup gecikirdi. Rahibə ilə danışıb işi sürətləndirmək lazım idi.

Qadir söhbət zamanı Harislə dostluğunu xüsusi vurğulasa da, Rahibə hiss etdi ki, artıq həyatda olmayan əmisi ilə o, elə də yaxın münasibətdə olmamışdı. Rahibə xaricə getməyə hələ də tərəddüd edirdi. Görünür, onu inandırmaq üçün çox vaxt lazım idi»…

Ancaq Qadir səhv eləyirdi… Çünki Rahibə həyatda «gecikmiş» Fənayə idi. Və o, «xaric»ə Qadirsiz də gedəcəkdi…

«…Rahibə son vaxtlar incə mətləblər barədə düşünürdü. Öz kökü üstündə solan gül kimə lazımdır? Gərək onu bir qoparan ola. Bir vaxt Fənayədən eşitdiyi bu kəlmələr neçə gündən bəri həyatını, hərəkətlərini idarə eləyən başlıca məntiqə çevrilmişdi.

Anası nahaq yerə narahat olurdu. Artıq o, uşaq deyildi. Hərəkətlərinin ölçü-biçisini bilirdi. Axı, bu dünya monastr deyil ki, həyatını rahibəliklə keçirsin.

Son günlər ana qızının dilinə dil çatdırmırdı və yaxşı görürdü ki, Rahibə heç də sonu xoş olmayan bir yolu tutub gedir»…

Oxucu (elə yazıçının özü də!) Fənayə ilə Rahibəni, üstüörtülü (passiv!) də olsa, müqayisə etməyə ehtiyac duyur. Daha doğrusu, romanın- süjetin daxili bədii məntiqində də bu cəhd- impuls mövcuddur… Fikrimizcə, onları (Fənayə ilə Rahibəni) xaraktercə yaxınlaşdıran çox az şey var, halbuki uzaqlaşdıran, ayıran xüsusiyyətlər olduqca çoxdur ki, onlardan birincisi Fənayənin təfsirində tez- tez işlədilən «azadlıq» anlayışıdır…

Rahibə üçün azadlıq idealı həyatın «monastr»ından nəhayət ki, çıxmaqdırsa, Fənayə üçün bu, intəhasız, yaxud yalnız ürəyin istəyəcəyi miqyasla (!) məhdudlaşa biləcək «mütləq» azadlıqdır…

Qadir özü ilə Harisi (və Fənayə ilə Rahibəni) müqayisə edir. Və günahı Harisdə görür…

«…Qadir intizarla dəqiqələrin ötməsini gözləyirdi. Bu ara xəyalında Harislə Fənayənin faciə ilə qurtaran məcarası canlandı: «Bu məcaranın əvvəli görəsən, necə başlayıb? Bəlkə bir vaxt elə Haris də mənim kimi bu yerdə intizarlı anlar yaşayıb? Hər halda, mənim qızım pula görə deyil, öz istəyinə görə onunla münasibətə girib. Fənayəni pulla yolundan döndərmək olmazdı. Fənayə Harisi həyatının mənası hesab edirdi. O alçaq isə qızın yüksək duyğularını qiymətləndirə bilmədi. Ancaq yox, mənim məqsədim Harisdən qisas almaq deyil, sadəcə, Rahibəni monastırdan çıxarmaqdır. Rahibə mənim olacaq. Həyatımın qalan hissəsini onunla yaşayacağam. Hər şey mənim istəyimlə olacaq. Hiss edirəm ki, Rahibənin pula ehtiyacı var. Pul isə problem deyil»…

Qadir özünəməxsus peşəkarlıqla Rahibənin – təzə «ov»unun tərəddüdlərinə son qoyur. Ona təsəvvür elədiyindən də bir neçə qat artıq pul verir…

«…Rahibə üzünə yayılmış təbəssümün gətirdiyi xoş əhvalı əllərinin hərəkəti ilə özündən asılı olmayaraq, tamamladı:

- Qoy olsun, - dedi.

O, bununla daxilindəki mənəvi- psixoloji çəkişmələrdən xilas oldu. Bunu Qadir də hiss etdi. Həmin andaca tükü- tükdən seçən Qadir anladı ki, Rahibə

həyatının bundan sonrasını taleyin ümidinə bıraxır. Həqiqətdə də, Rahibə kasıb, lüt, həmyaşıd olan bir oğlanı sevməkdənsə, Qadir kimi bir iş adamı ilə əlaqələr qurmağa daha çox üstünlük verirdi. Onun üçün dünyanın ən qəşəng oğlanı elə bu, Qadir idi. Əvvəllər eybəcər, «nahamvar kenquru» hesab etdiyi Qadir»…

…Və hər şey həm Qadirin, həm də Rahibənin istədiyi kimi qurtarır (əslində, başlayır!)… Bu cür münasibət Rahibəni təmin edirdi… Fənayə üçünsə tamamilə yol verilməz, hətta mənəvi təcavüz, təhqir olardı…

«…Qadir qızın dodaqları arasından qeyri- ixtiyari çıxan «oy» nidasını eşitdi, sonra dodaqlarından öpmək üçün başını özünə tərəf döndərdi. Rahibə də bunu gözləyirmiş kimi, Qadiri ahənrüba kimi özünə çəkdi. Rahibənin qızğın ehtirası az qala Qadirin huşunu başından aldı. Bir əli ilə Rahibənin boynunun arxasından yapışıb öpüşlərə qərq edir, o biri əli ilə də şalvarının düymələrini, qayışını açırdı. Rahibəni yataq otağındakı çarpayının üstünə uzadanda, qız yarısərxoş baxışlarını dolandırıb əli ilə onu bir daha özünə tərəf çəkdi. Qadirin duyğulu öpüşlərinin əvəzində, Rahibə bir sözü üç dəfə təkrarladı:

- Qurtar, qurtar, qurtar»…

Fənayə İncəsənət Muzeyindəki sərgiyə baş çəkir…

«…Mezey bələdçisi təkidlə qabağa düşdü.

Fənayə qadının ardınca salona keçdi. Burada müxtəlif üslublarda çəkilmiş çoxlu əl işi vardı. Salonun qurtaracağında nəzərləri iri bir tabloya sancıldı. Tanış mənzərə onu maqnit kimi özünə çəkdi. Yaxına, lap yaxına getdi. Birdən Fənayəni dəhşət bürüdü. Divardan asılmış tabloda ay işığında dənizin yelləncək kimi yellətdiyi qayığın içində sevişən iki adam təsvir olunmuşdu. Hər şey ona tanış idi. Həmin sahil, həmin qayıq, həmin qayalıq. Fənayənin qayğısız, səadət dolu günləri… Rəssam həmin mənzərəyə xırda bir əlavə etmişdi; qayıqda – balaca məhəbbət məkanında sevişənlərin başı üzərində, qoşa avarların ucunda dimdik-dimdiyə verən iki qağayı dayanmışdı. Ən başlıcası, tabloda təsvir olunan qız onun özü idi. Rəssam dəqiq işləmişdi. Yaddaşına hopmuş qadın obrazını, prototipə, demək olar ki, eynilə bənzər yaratmışdı. Amma Harisin əvəzinə, başqası – onu da tanıdı – rəssam Yusifcan təsvir olunmuşdu»…

Fənayədə həyat eşqi yenidən baş qaldırır… Həm həyatda, həm də daxilində, son hüceyrəsinə qədər olmasa da, artıq ölmüş Harisi əvəz edəcək bir insan peyda olur ki, bu, yalnız romantik, ruhən zəngin (və istedadlı) rəssamın «xidmət»i deyil, həm də (və daha çox!) Fənayənin həddi- hüdudu olmayan daxili mənəvi ehtiyacının nəticəsidir…

Və yazıçı, Fənayənin Yusifcana can atmasının səbəbini (əslində, məntiqini!) hər ikisinin bir- biri ilə münasibətində rezonans verə biləcək «ruh azadlığı»nda görür…

Bu sevda, necə deyərlər, ayrı bir sevda idi…

«…Rəsmə baxarkən Fənayə onun həyatı üçün hədsiz dərəcədə önəm daşıyan daha böyük həqiqəti dərk etdi; o, tək deyilmiş! Həyatda onun kimi düşünənlər, lap elə bir nəfər də olsa, onun kimi ruhu azad olanlar varmış.

Xeyli yüngülləşdi. Tablodakı mənzərə yaralı qəlbində yaşamaq, həyatdan doyunca həzz almaq istəyi oyatdı. Bəlkə də sənətin vəzifəsi elə budur. Neçə müddətdən bəri könlünün qırıq tellərini bir kimsə uc- uca calaya bilmirdi. Anasına qoşulub ad günlərinə, toy məclislərinə gedir, yenə eyni açılmırdı»…

Artıq daha soyuqqanlı «izah elədiyi» hisslər onu Yusifcana – özü kimi tənha (və azad) rəssama doğru çəkir…

«…Fənayə yaxşı bilirdi ki, həmin anda onu Yusifcanın yanına çəkən qadınlıq duyğusu deyildi. Çünki bu duyğular bir vaxt onu Harisə bağlayan duyğulara azacıq da olsa, bənzəmirdi.

Fənayəni Hərisə bağlayan odlu ehtiras – o, bunu əsl qadınlıq duyğusu adlandırırdı – büsbütün sönmüşdü. Axı, nəyə görə Harisi xatırlamalıydı? İmkanı olsaydı, öz başını kəsib qabağına qoyar, onun içindən Harislə bağlı olan hər şeyi qaşıyıb atardı. Nə edəsən ki, yaddaş adamın iradəsinə tabe olmur, xüsusilə, o hələ pozulmayıbsa»…

Və o, qış vaxtı fövqəladə bir yaradıcılıq həyatı yaşayan rəssamı isti emalatxanasında tapır…

«…Yusifcan qəhərdən boğula- boğula dedi:

- Axı, mən illər boyu səni gözləmişəm. Bəlkə də bir əsrdən çoxdur. Sən isə gəlmək bilmirdin.

Fənayə həyəcanla dedi:

- Doğrusu bilirdim ki, kimsə məni gözləyir. Amma bilmirdim ki, bu sənsən. Mən, məni gözləyən adamı – səni axtarmışam. Səni axtara- axtara neçə- neçə sifət görmüşəm, ürəklərə girmişəm, onları ələk- vələk eləmişəm, amma səni tapmamışam. Səni axtara- axtara insanları tanımışam. Doğrudur, bütün insanları yamanlamağa, lənətləməyə haqqım yoxdur. Onların içərisində hələ ürəklərinə xal düşməyənlər də var. Belələrinin gözlərindən könül dünyalarına gedən yollar açıq olur. Ancaq onlar qar altından çıxan çiçəklər kimidilər, tez məhv olurlar. Onlar bilmirlər ki, həyat amansızdır. Ancaq, əzizim, sən tamam başqasan. İllərin tənhalığı, qar- soyuğu səni qorxuda bilməyib, məhv edə bilməyib, yaşamısan. Həsrətini, ürəyinin ağrısını rənglərin dili ilə kətana köçürmüsən. Mən bunu hiss edirdim – gözlərindən, təsadüfi görüşlərimizdən, yaddaşımda həkk olub qalan baxışlarından. Sən İlahidən olan qismətimsən. Qəlbimdə isə bir qorxu var. Bilmirəm öz qismətimə çatmışam, ya yox? Bu gün muzeydə bir əsərini gördüm və hər şeyi başa düşdüm»…

Rəssam illər boyu arzuladığı səadətə qovuşur… Yaratdığı əsərlərində olduğu kimi həyatında, məişətində də…

«…Alnından, boyun- boğazından hərarətlə, məhəbbətlə öpən Fənayənin bəxş etdiyi xoşbəxtlik içində üzürdü. Fənayə bütün varlığı ilə ona vurğun idi. Yusifcan bunu görürdü. Və təsadüfün gətirdiyi xoşbəxtltk, az qala huşunu başından aldı. O, özünü itirdi. Nə danışdığını, necə danışdığını bilmirdi. Eləcə Fənayəni nəfəsi kəsilə- kəsilə, həyəcanla öpüb- oxşayırdı. Axır ki, tale üzünə güldü. Zaman- zaman ideal olaraq əsərlərində vəsf etdiyi ehtiras mələyi indi onun yarıqaranlıq xanimanında idi. Neçə illər uzunu bu xaniman inləmişdi. O, burada yayın qızmarında da üşümüşdü. Yusifcan sanki özgə bir aləmə düşdü – divarlarından qəm- kədər, ab- havasından qəriblik yağan emalatxana birdən- birə dünyanın ən gözəl guşəsinə çevrildi. Yusifcan dərk edə bilmirdi ki, gördükləri yuxudu, yoxsa həqiqət?

Fənayənin əynində paltar yox idi. Bu yerdə sevgi ehtirasa şahidlik edirdi. Yox, bu adi ehtiras səhnəsi deyildi, iki azad düşüncənin, ülvi duyğuların birlik təntənəsi, birlik qələbəsi idi. Bu coşqudan ölmək də olardı»…

Rəssam öz şah əsərini yaratmağa başlayır… Və bu prosesi yazıçı, həqiqətən, böyük sənətkarlıqla, ilhamla, hətta, demək olar ki, ehtirasla təsvir edir. Həmin təsvirdə müəllifin həm söz (dil), həm rəng, həm də musiqi (harmoniya) duyumu bir vəhdətdə çıxış etməklə təkrarsız (fövqəladə!) bir «mətn» yaradır…

«…Emalatxana isti idi. Ortalığa elektrik qızdırıcıları qoyulduğundan Fənayə hətta nazik adyalı da üstünə çəkməmişdi. Yusifcan ovsunlanmışdı. Bu an dünya onun üçün yox idi, yalnız… Ona elə gəldi ki, emalatxananın hər tərəfi bir anın içində tamam zülmətə qərq oldu. Ancaq bir parça yer nura, işığa büründü. İndi gur işıq altında yalnız o görünürdü…

…Sürətlə işləməyə başladı. Köksü atlanıb- qalxır, həyəcanla nəfəs alırdı. Sanki harasa tələsirdi. Əgər soruşan olsaydı, tələsməyinin səbəbini bəlkə də izah edə bilməzdi. Anlaşılmaz duyğular həm onu idarə edir, həm də fırçasını əsir götürürdü…

Yox, bu mənəzərəni – zülmət içərisindəki nuru kətana köçürməyi Allah ona həvalə etdi»…

Və rəssam öz şah əsərini yaradıb başa çatdırır…

«…İşə başlamağından çoxmu, azmı keçmişdi, bilmirdi, ancaq kətanın üstündə diri bir möcüzə baş qaldırmaqda idi. Mərkəzdə parlaq işıq gölü, bu işıq gölünün üstündə uzanmış məleykə… O, nəyi və yaxud kimi gözləyirdi? Bu ilahi töhfə kimin idi? - Yusifcanın hər hansı bir suala cavab verməyə gücü yox idi. Bildiyi o idi ki, yaratdığı məleykə heç də fantastik, xəyali obraz deyil. Heç onun qanadları da yox idi»…

Rəssam illərlə gözlədiyi şah əsərini yaradan kimi bu dünyadan gedir…

«…Sağ əli köksündə Fənayəyə sarı bir- iki addım atdı. Daha bir addım da atsaydı, onun yanına çatardı. Bu an Fənayəni yuxudan oyadacağı fikri onu narahat etdi. Qızı yuxudan yarımçıq oyatmaq istəmədi. Əmin idi ki, Fənayə özünü dərk edəndən, dünyanın get- gəlindən baş çıxarandan bəri birinci dəfə belə rahat və

dərin yuxuya gedib. Ona görə də , qızı oyatmağa qıymadı. Geriyə- molbertin yanına qayıtmaq istədi. Birdən- birə ağrısı daha da şiddətləndi. Müvazinətini itirib, Fənayənin yanında yerə yıxıldı»…

… Fənayə indiyə qədər yaşadığı illəri, həyatının – tərcümeyi- halının insanlarını xatırlayır… Və düşünür…

«…Zaman nə qədər də qəddardır. Heç nəyə, heç kimə güzəşt etmir. Fənayənin ağlına gəldi ki, bu gün zaman müxtəlif insan cildlərinə girib onu addımbaaddım izləyir. Və demək, geriyə yol yoxdur. Zaman həmişə irəliyə gedir, geriyə qayıtmaq, yaşamaq deyil, ölməkdir. Əgər geriyə qayıtsa, həyatının həqiqət adlanan bütün əzablarını, iztirablarını yenidən yaşamalıdır»…

Səhər- səhər İçərişəhərdə qədim bir məscidin minarəsinə qalxır… Özü də bilmədən, sövqü- təbii ilə…

Yazıçı Fənayənin ölümü (yalnız ölümümü?.. Bəlkə, dünyaya yenidən, gəlinlik paltarı ilə gəlməsi?..) ilə romanı başa çatdırır…

«…Arxası üstə yerə düşdü. Elə bil heç nə olmamışdı. Heç nə! Batan gözləri günəşi axtarırdı, qan rəngli səmanı süzürdü. Günəş də, səma da həyəcanlı, narahat, təlatümlü idi. Bəlkə heç canından sonuncu nəfəsi üzülən Fənayə deyildi, dünya idi can verən?

Elə bil göydə tənbəl- tənbəl süzən bəyaz buludlara da, səmaya da qan çilənmişdi…

Günəş – nəhəng, parlaq güzgü sanki bir göz qırpımında parçalandı, çilikləndi, qırıq- qırıq olub onun üstünə töküldü. Sanki o, bu sınmış, bu çiliklənmiş, bu yaralanmış işıq selinin içində əriyərək yox oldu.

Fənayə son arzusuna çatdı. Əynində «günəşdən biçilmiş» qırçınlı gəlinlik paltarı vardı…

Baxışlarında son ümidin, son arzunun işığı, nuru öləziyib sönürdü… Üşüdü. İsinmək üçün son dəfə günəşə boylandı. Günəşə nəsə demək istədi. Ancaq heç nə deyə bilmədi Fənayə!.. Heç nə!..»

…O, Fənayə ki, öz «azad ruh»u ilə yaşadığı ona məxsus həyatında hər şeyi demişdi… Və görünür, deməyə artıq heç nə qalmamışdı…

*

*   *

«Yanan qar» və ya başqa adla «Dağlarda atılan güllə» (2002- 2005) romanı iki «kitab»dan ibarətdir.

Romanın 2007- ci ildə hər iki «kitab»ı əhatə edən nəşrində müəllif oxucularına müxtəsər bir müraciət etmişdir…

*«…Siz bu romanda işğalçı Ermənistan orduları Azərbaycan dövlətinin ərazisinə – Dağlıq Qarabağa soxulduğu zaman yurd sınırları içində girovluq, əsirlik və mühasirə taleyi yaşamağa məhkum edilən insanlarla tanış olacaqsınız. Süleyman, Bəy Kamran, Həsən, Bəxtiyar, Bənövşə, Zakir kişi, Akif müəllim…*

*Mən onları uydurmadım…*

*Onların həyatı, çox güman, bu kədərli hekayətdə təsvir edildiyindən də sarsıntılı olmuşdur. Çünki  həyat əsər deyil, acı həqiqətin özüdür!*

*Sadəcə olaraq həqiqətə can atdım…*

*Bu zaman yardımçılarım və bələdçilərim oldu. Onları saatlarla, günlərlə, həftələrlə söhbətə tutdum, yanlarında gecələdim, bir zaman qarış- qarış gəzdiyim yerlərin nisgilli xatirəsi onların dilindən qopan sözlərin işığında yenidən  göründü. Laçın rayonunun Piçənis kənd ağsaqqalı, rəhmətlik Təvəkkül kişi, Xocalı rayon Meşəli kənd orta məktəbinin direktoru Alış müəllim, Bəy Kamranın oğlu Müseyib bəy, Qarabağın zillətli günlərində Laçında, Şuşada, Kəlbəcərdə daim mənimlə çiyin- çiyinə olan, o müqəddəs yerləri mənə addım- addım tanıdan Əli Mahmud…*

*Kim düşünürsə ki, silah və zor gücünə qoparılan Dağlıq Qarabağ Azərbaycanın yalnız və yalnız məğlubiyyətidir, yanılır!*

*Hansı haqla danmaq olar ki, mənim mərdanə, dözümlü, qorxu bilməyən həmvətənlərim əsl qəhrəmanlıq da göstərmiş, vətən yolunda candan və qandan keçmişlər. Ən azı buna görə əcdad ruhu çırpınan torpaqlarda yaşamaq onların halal haqqıdır!*

*O haqqın alınacağına inanıram. O haqq dönəndə o torpaqlarda o insanları bağrıma basacağıma, ləyaqətli adamlar haqqında yeni bir roman yazacağıma da inanıram.*

*Di gəl ki, həmin roman ayrı bir roman olacaq»...*

Kitaba «Hüseynbala Mirələmov və onun «Yanan qar» romanı» adlı ön söz yazan akademik Bəkir Nəbiyev həm yazıçının ümumən yaradıcılığını, həm də yeni romanını yüksək qiymətləndirmişdir.

Onun fikrincə…

*«…Ədəbiyyatımızın yeni inkişaf mərhələsində öz sözü, nəfəsi, habelə fəallığı və mühsuldarlığı ilə seçilən, öz maraqlı əsərləri ilə müharibə mövzusunda nəsrimizi, sözün həqiqi mənasında, yoxsulluqdan çıxaran istedadlı yazıçılarımızdan biri də Hüseynbala Mirələmovdur.*

*...H.Mirələmovun əsərləri belə bir təsəvvür yaradır ki, o, bir yaradıcı şəxsiyyət kimi daim narahat və nigarandır. İstənilən əsərindəki hadisələri mənən yaşaması, yaxud öz hiss və həyəcanlarını yaratdığı obrazların ədəbi yaşantısına çevirməsi açıq- aşkar duyulur. Xüsusən də Qarabağ mövzusundakı əsərləri belə deməyə əsas verir ki, yazıçı faciəvi hadisələrin doğurduğu ağrı və əzabları öz vətəndaş «Mən»inindən çıxış edərək ifadə etmək yolu ilə gedir ki, bu da həmin əsərlərin yalnız məzmununu və ideyasını yox, həm də janr və formasını müəyyən edir»...*

Akademik «Yanan qar» romanının poetikası barədə müfəssəl (və mükəmməl!) şərh verir…

*«…Yazıçı problemin bədii həllini real, canlı həyat səhnələrinin təbii təsviri ilə yanaşı, klassik ənənələrimizə söykənməkdə, yaradıcı təxəyyülə qanad verən dastançılıqda görür və belə hesab edirəm ki, hər iki meyl, romanın təsvir tərzində, təhkiyə intonasiyasında açıq- aydın hiss olunur, əsər doğma yurd, ata- baba ocağı haqqında mənsur ballada təsiri bağışlayır. Əsərdə konkretliyi, özünəməxsusluğu, milli koloriti, sosial- əxlaqi mahiyyəti ilə canlandırılmış bir mühiti və insanları görürük, ölüb- öldürmək qayda- qanunu ilə yaşamağa məcbur olan bu insanların arzu və xəyalları ilə tanış oluruq. O da təqdir edilməlidir ki, həyat materialından*

*özünəməxsus tərzdə istifadə edən müəllif erməni təcavüzünün qurbanlarını, məhrumiyyət və itkilərimizi təsvir etdiyi anlarda belə bədbin görünmür, əksinə, biz yağı düşmənlə döyüş ruhunun, qələbə əzminin güclü tərənnümünün şahidi olur, bir- birindən mətin, yenilməz obrazlarla qarşılaşırıq. Vətən eşqi, insan sevgisi, humanist ideal romanın təhkiyə vüsətini müəyyən edən, epik təsvirə qanad verən başlıca amil kimi çıxış edir. Doğma diyarın təbiətini - dağını- qayasını, yağışını- dolusunu, gülünü- çiçəyini, hətta Bəy Kamranın, Süleymanın və onlarnı silahdaşlarının sığınacaq tapdıqları köhnə dəyirmanı, qışın qış çağında bu dəyirmanda onları öz ətrafında cəmləşdirib bir ailənin üzvləri kimi doğmalaşdıran isti ocağı sevə- sevə, əzizləyə- əzizləyə təsvir etməklə obrazların ilk baxışda naümid taleyini nigaranlıqla izləyən oxucusunun qəlbinə sanki yaz çiçəyi çiləyir, onu sabaha ümidlə baxmağa, Vətənin xilası uğrunda mübarizə aparan qəhrəmanlara qoşulmağa səsləyir»...*

Və romanı «ocaq haqqında ballada» adlandıran akademik belə bir qərara gəlir ki…

*«...Bütün azərbaycan boyu səpələnən, kimisi oğlunun, kimisi qızının, kimisi atasının sorağında qalan qaçqınların doğma yurd, ocaq həsrətinin bədii ifadəsi də əsərdə diqqəti çəkən məqamlardandır. Süleymanı, Həsəni, Səlimoğlunu, Xəlili, Novruzu «qar əriyib seyrələndə, meşələr tükənəndə» Bəy Kamranın köməyinə yetişmək və ermənilərin kürkünə birə salmaq üçün dağlara üz tutmağa məhz yurd sevgisi, qeyrət hissi vadar edir. Romanda Azərbaycan xalqının məğlubedilməzliyi, milli iradəsinin sarsılmazlığı bu insanların yurda bağlılığında, əməllərində, yağı düşmənlə mübarizə əzmində üzə çıxarılır və onların obrazları bədii inandırıcılıq qüvvəsi ilə əks etdirilir.*

*Müəllif Azərbaycan xalqının başına gətirilən fəlakətlərin baiskarı erməni quldurlarının murdar xislətini isə Vahan, Vazgen, Ernest kimi obrazların xarakterik cizgilərini cızmaqla açmağa müvəffəq olur»...*

Romanın birinci kitabı Süleymanın ermənilərə əsir düşməsi ilə başlayır…

«…Süleymanın qolu arxadan yox, öndən bağlanmışdı. Dəstə başçısı belə istəmişdi.

Artaş Süleymanı görən kimi tanıdı: «Gözlərini yumub! Yəqin döyüblər! Belə yaxşıdı, yoxsa məni tanıdığı bilinər. Süleymanla aramızdakı tanışlığı duysalar, vallah, qarın-qarına bağlayıb ikimizi də güllələyərlər…»

Bölgüdə Süleyman Artaşa düşdü. Qismət… Artaş neçə il duz- çörək kəsdiyi, dostluq elədiyi insanı – payına düşən əsiri qabağına qatıb yola düzəldi. Hətta üç- dörd dəfə onun kürəyindən yüngülcə itələdi və sonra çay daşından hörülmüş barının arxasına burulub gözdən itdilər.

Əsirlər arasında demək olar adam sifətində bir kimsə qalmamışdı, hamısının üz- gözü, üst- başı qana, palçığa bulaşmış, cındırından cin ürkən biçarə insanlar tanınmaz hala düşmüşdülər. Bu, Artaşa sərf eləyird, çünki Süleymanı Xoznavarda hamı tanıyırdı. İndi onun kimliyi üzə çıxsaydı dərhal komandirə çuğullayardılar ki, onlar köhnənin dostlarıdır. Yəqin ki, o zaman Artaş heç cür özünə bəraət qazandıra bilməzdi. Ən azı etibarını itirərdi. İri müharibələrlə müqayisədə erməni yaraqlılarının qoyduğu qaydalar ağlasığmaz dərəcədə sərt və amansız idi»…

Yazıçı tamamilə haqlıdır ki, «iri müharibələr»in öz qanunu, öz «əxlaq»ı var. Ermənilərin başladıqları «müharibə» isə paradokslarla doludur… Bu «müharibə»də köhnə tanışlar, dostlar, sevgililər, hətta qohumlar üz- üzə gəlirlər, bir- birini əsir alırlar, öldürürlər…

Kimin uğur qazandığı, nəticə etibarilə kimin məğlub olduğu bilinmir.

… Süleyman erməni əsirliyində düşünür ki…

«…Kef eləyirlər dəyyuslar… Niyə də etməsinlər? Əvvəllər heç Laçının həndəvərinə də hərlənə bilmir, ağıllarına da gətirmirdilər ki, nə vaxtsa buraları tutucaq, torpağın sahiblərini pərən- pərən salacaq, yurdsuz- yuvasız qoyacaq, sonra da gəlib onların evlərinə doluşacaq, var- yoxlarına yiyə çıxacaqlar. Hirsindən hövlləndi Süleyman. Gorun çatlasın, Soltan bəy! Gorun çatlasın, Qaçaq Nəbi! Hardasız?! Bu da sizin nəvəniz Süleyman, erməni zindanında torpaq eşir»…

Zirzəmisində dustaq olduğu Artaşın arvadı əsirə yemək gətirir… Və vəziyyət ayrı ovqata köklənir.

Sən demə o, Süleymanın köhnə sevgilisi Vartanuş imiş…

«…Söz, nitq nədi, harada olduqları da silinmişdi yaddaşdan. Özünə gələndə Artaşın axşam zirzəminin küncünə atdığı köhnə, cırıq kilimin üstündə oturduğunu bildi. Qucağına sığınan Vartanuş yumşaq barmaqlarıyla Süleymanın gur saçlarını oxşayır, qarışdırırdı.

Köhnə fərş parçası qu tükündən sırınmış döşəkdən yumşaq idi. Qəribədir, Süleymanın qollarındakı, ayaqlarındakı ağrılar yoxa çıxmışdı.

Vartanuş ömrünün ən dadlı anlarını – ilk tanışlığı, aşiq olduqları vaxtı, yazağzı meşədə azdıqlarını, çayın qırağıyla gedib hansısa bir kəndə çıxdıqlarını, qoşa- qoşa Xəzər sularına baş vurduqlarını, murad verib, murad aldıqlarını yada salırdı, təkcə yada salmırdı, həm də o bəxtiyarlığın qucağında idi, Süleymanın ağuşunda idi. Xatirə, sevgi dolu bugünlər məhəbbət kitabının arasına qoyulub əzizlənən və yamyaşıl qalan bir yarpaq misalındaydı»…

Bu zaman döyüşə yollanmaq üçün hərbi geyim, silah alıb gələn Artaş onları görür…

«…Artaş içəri girəndə gözləri donbalıb hədəqədən çıxdı. İçini qanlı bir şübhə bıçaq kimi doğradı. Kalaşnikov avtomatını çiynindən aşırıb Süleymana sarı tuşladı:

- Düşmən köpək oğlu, qanın halaldı!..

Tətiyi şəhadət barmağı ilə sıxdı. Avtomat açılmadı. Yenidən, daha bərk sıxdı. Yenə açılmadı. Daha gözləmək olmazdı. Süleymanın beynində sanki şimşək çaxdı və o işin nə yerdə olduğunu kəsdirdiyi an qəzəblənmiş çoban iti cəldliyi ilə Artaşın üstünə atıldı»…

Artaşı öldürdükdən sonra Süleyman köhnə sevgilisini – Vartanuşu da götürüb əsirlikdən qaçır…

Süleyman xətti romanda aparıcı xətlərdən olsa da, bundan sonra hadisələr şaxələnir, gərgin olaylar həm paralel, həm də ardıcıl olaraq biri digərini əvəz edir…

Oğlu Bəhruzu isə ermənilər, azad edəcəklərinə söz versələr də, sözlərinə əməl etməyib Yerevana göndərirlər…

Artaşın öldürülməsi, Vartanuşun isə girov götürülməsi xəbəri gedib Vartanuşun Stavrapolda yaşayan qardaşı Sergeyə çatır.

Sergey azərbaycanlı tanışı Möhnəti tapır ki, Azərbaycana gedib bacısını «əsirlik»dən xilas eləsin…

Və Möhnət Sergeydən soruşur…

« - Ə, bu millət niyə qırır bir- birini? Niyə qoymurlar bir parça çörəyimizi qazanax?

- Man da onu deyiram. Guya, o qan tökdükləri torpağı manim balama veracaxlar? Kimdi qayıdan oralara? Ermanisiz «böyük Ermanistan» kimə gərəkdir? Bir- birimizin evində özümüz ağırlığında çörək kəsmişik. Könlümə musiqi düşəndə dinlədiyim Zeynafdı, Habildi. «Tərəkəmə»dən başqa hansı havaya qol qaldırıb oynamışam? Fatma bacı nə təhər öyradibsa, Şuşanik haftada bir dafa duşbara, kalam dolması bişirmasa, çolpalı aş damlamasa, ağzımız dada galmir.

- Yaxşı, Sergey, mətləbə keç. De görüm, mən nə etməliyəm?

- Bu maktubu Bakıya aparsan, basimdi. Başına pırlanım. Yol xarcin, qohum-qardaşa pay- püşün, padarkan, oradakı rasxodun manim boynumadı»…

Sergeyin sərfəli şərtləri ilə razılaşan Möhnət Bakıya yola düşür…

Və əsərin baş qəhrəmanı Bəy Kamran süjetə daxil olur…

«…Beşaçılan son illər yalnız silinmək və yağlanmaq üçün divardan götürülmüşdü. Bəy Kamranın düşüncəsinə görə, silah ələ alındısa, gərək açıla. O isə havayı yerə güllə atmazdı. El arasında qazandığı xətir- hörmət, nəsildən-kökdən gələn ağayanalıq, bir sözünün iki olmaması Bəy Kamranı şax saxlamışdı. Naqis iş tutanlara güzəşt etməməsi, həmişə haqqın, ədalətin tərəfində olması ona ağsaqqallıq qazandırmışdı. Əslində silaha əl atmasına nə bəhanəsi olmuşdu, nə də əsası. Di gəl, Bəylikdə uşaqdan böyüyə, hamı Bəy Kamranın beşaçılanını görmüş, hər kəs bir dəfə olsa da ona toxunmuş, qundağına ya da lüləsinə sığal çəkmişdi»…

Ermənilər silaha əl atanda Bəy Kamran vətəndən qaçmağı qüruruna sığışdırmır…

«…Bəylik yandırılandan sonra ilk dəfəydi ki, onu kənardan, qəlbi dağlar ucalığından seyr eləyirdi. İlk dəfəydi ki, meşəlikdən, çılpaq dağ yamaclarına

qalxmışdı. Buralara gəlişinin səbəbini heç özü də kəsdirə bilmirdi. Ov vurmaq həvəsində deyildi və buna ehtiyac da duymurdu. Kəndin örüşündə xeyli dana-buzov, əlliyə yaxın qoyun- quzu qalmışdı. Sübh tezdən hamısnı meşənin dərinliyindəki fızıllıqda gizlədir, gecələr talalarda otarıb, sonra da suvarırdı.

Yandırılmış evlərin zirzəmilərindən toplayıb Alçalıbulağın alt tərəfindəki köhnə dəyirmanda gizlətdiyi ərzaq özündən başqa iyirmi- otuz nəfəri altı, bəlkə də yeddi, səkkiz ay dolandırardı. Meşəbəyi işlədiyi otuz il ərzində minlərlə cır meyvə ağacına calaq vurmuşdu. Bələd olmadığı cığır, bulaq, daş, qaya, dərə, təpə, ağac, şiv qalmamışdı. Qışın gəlməsinə beş- altı ay qalsa da, sınaq günlərinə indidən hazırlıq görürdü. Keçən yaydan Armudlu taladakı vələs ağacının gövdəsində gizlətdiyi kərənti əməlli- başlı köməyinə çatmışdı. Gecələr ay işığında çaldığı ot-əncəri girəvə düşdükcə bir yerə toplamış, mal- qaraya, qoyun- quzuya qış tədarükü yığmışdı. Dərənin çatımındakı köhnə su dəyirmanını əməlli- başlı səliqə- səhmana salmış, uçub- sökülmüş yerlərinə əl gəzdirmişdi. Dəyirmanın damında bitmiş sıx böyürtkən kolları isə onu görünməz eləmişdi. Dəyirmanı göydən, lap təyyarədən də, vertolyotdan da görmək olmazdı»…

Etiraf etmək lazımdır ki, Bəy Kamran obrazı yalnız Hüseynbala Mirələmovun deyil, ümumən müasir Azərbaycan ədəbiyyatının, xüsusən Qarabağ müharibəsi mövzusunda qələmə alınmış ədəbiyyatın ən mükəmməl, ən istedadla, sənətkarlıqla yaradılmış qəhrəmanlarından biri, bəlkə də, birincisidir.

Bəy Kamran obrazının «mənşəy»ində, cəsarətlə demək olar ki, İsmayıl Şıxlının Cahandar ağa, Fərman Kərimzadənin Kərbəlayi İsmayıl kimi klassik obrazlarının mənəvi- estetik enerjisi dayanır…

…Müəllif Süleyman xəttini (əslində, onun tərkib hissəsi olan Süleyman – Vartanuş xəttini) davam etdirir…

Süleymanla Vartanuş kənddən çıxırlar…

«…Artaşın evi kəndin qırağında, təpənin üstündəyidi. Duyuq düşməsinlər deyə əlli- altmış addım yolu əyilə- əyilə getdilər. Süleymanın geydiyi əsgər paltarının qolunda qara parçadan tikilmiş xaç nişanı vardı. «Kalaşnikov»u

çiynindən asmışdı. Vartanuş hər əlində bir bağlama tutmuşdu, ağıra oxşayırdı. Burdan o yana kolluq başlayırdı, sıx şivlər içində itdilər. Süleyman dedi:

- Vartı (fəndgir fələyin hökmüylə bayaq zirzəmidə rastlaşdıqları vaxtdan bəri ilk dəfə o, Vartanuşu belə çağırdı. Onun öz dilindən eşitmişdi ki, «vart» ermənicə gül deməkdir. Yəni Süleyman öz aləmində Vartanuşu «gülüm» deyə çağırırdı), ağırdısa, ver götürüm.

- Yox, ağır deyil. Paltarımdı, bir az da yeməli şeylər. Qoy mən qabağa düşüm, buraları tanıyıram. Sənə qalsa, gedib qərargaha çıxarıq…

Bu dəfə Süleyman dilləndi:

- Heç darıxma, Vartı. Səni uşaqlarına çatdıracam. Mənə inan. Bilmirəm başımıza nə iş gələcək. Təki Allah yar olsun. Sən məni yenidən dünyaya qaytardın, Vartı. Sizinkilərin gözünü qan örtüb. Ələ keçsək ikimizi də tikə- tikə doğrayacaqlar. Heç bizimkilərə də bel bağlamaq olmaz. Deyəcəklər oğlunu girov verməyin bəs deyil, hələ bir erməni axçisini qoltuğuna vurub gəlmisən»…

Yazıçı Süleymanla Vartanuşun münasibətlərinə kifayət qədər maraqlı səhifələr ayırır…

«…Bir müddət dinib- danışmadılar. Göz- gözə gəlməkdən çəkinirdilər. O düzdü ki, insan anlaşılmaz varlıqdı. Qəribədi, nəinki bu vaxta qədərkilər, hətta bu çağa qədərkindən çox- çox irəlikilər yerli- dibli olmayıb heç və bax elə bu an, bu saat Vartanuşa görə, Süleyman daha eşqiylə alışıb yandığı, vaxt- bivaxt yadına düşəndə həsrətlə qovrulduğu, gözlərində ildırım alışığı olan kişi deyildi. İndi onun qarşısındakı üz- gözünü tük basan bu kişi, ərinin – Əhmədin, Qaraxanın, Lalənin atasının qatili, qəddar Süleyman, bütün ermənilərin düşməni olan bir türk idi. Və birdən- birə Vartanuş bu vəhşinin Artaşın ürəyinə sapladığı bıçağın ağrısnı öz içində, öz ürəyinin başında duydu. Əgər o indi bu qırmızı qundaqlı «Kalaşnikov»un dilini bilsəydi, daraqda nəki güllə var, hamısını uf demədən Süleymanın qarnına doldurardı. Sonra da qayıdardı Xoznavara. Ermənilər də bilərdi ki, ecazkar gözəlliyini bu boyda faciənin içində də soldurmayan, qoruyub saxlayan və sanki min ildən sonra da qocalıb kaftarlaşmağın nə olduğunu bilməyəcək bu qadın ərinin qisasını alıb, qatil türkü gəbərdib»…

… Qarşılıqlı münasibətlərindəki bütün tərəddüdlərə, «göydəndüşmə» düşmənçiliyin yaratdığı qarşılıqlı «nifrət»ə baxmayaraq Süleyman- Vartanuş xəttinin romana daxil edilməsi kifayət qədər uğurlu olub əsərin bədii- estetik dəyərini artıracaq səviyyədədir. Və fikrimizcə, bu tamamilə realist xəttin dərinliklərində acı bir romantika da yox deyildir…

Süleymanla Vartanuş arasında maraqlı bir söhbət olur…

«…Bu gecə yerlərini mağaradan çöldə düzəltmədilər. İçəridə yanaşı uzandılar.

Süleyman sükutu pozdu:

- Vartı, bilirsən ki, Azərbaycanda yüzlərlə, bəlkə də minlərlə erməni qızıyla ailə quran var. Hərdən o ailələri, onların düçar olduqları faciələri düşünəndə az qalır başıma hava gəlsin. Həmin ailələrdə dünyaya gəlmiş uşaqların aqibətindən xəbərin varmı? Biz tərəflərdə belə uşaqlara erməni qancığından törəmişlər, siz tərəfdə isə türk dığasından tutulmuşlar kimi baxırlar. Axı bu yazıqların günahı nədir? Valideynləri sevişib, ailə qurublar. Nə biləydilər ki, cavanlıq sevgisi onları cəhənnəm odunda yandıracaq, övladları gözükölgəli olacaq, özləri töhmət- tənə altında yaşayacaqlar. Bulaqlıda belə bir ailə var idi. Daşnaklar Qarabağ iştahına düşəndən sonra onların da növrağı pozuldu. İndi çox evin arvadı Yerevanda, uşağı Rusetdə, kişisi Azərbaycandadı. Vartı, sizinkilər düz iş görmədilər, vallah.

- Kimdi mənim ağzıma baxan, ay Süleyman? Bilmirəm, qanla suvarılan torpaq onların nəyinə gərəkdi. Vallah, gündə min kərə ölüb- dirilirəm. Cavab verməyə söz də tapmıram. Bu iki xalqı yenidən düşmən eləyənlərin cəzasını Astıvas özü versin…

Vartanuş sözünü bitirib susdu. Odlu və ehtiraslı baxışlarla Süleymanı süzdü. Bu baxışların sehrindən, ovsunundan Süleymanın ürəyi, beyni istiləndi, dumanlandı»…

Süley man dağ yerində min bir əzabla becərilmiş darı zəmilərinin erməni əlinə keçməsinə dözməyib zəmini yandırmaq qərarına gəlir…

«…Zəmiyə necə yetişməyindən xəbər tutmadı. Qulağına gələn səslərin gurluğundan çaşıb qaldı. Ətraf kəndlərin camaatı hücum çəkmişdi. Darı yerinə.

Qəhqəhə çəkib gülən kim, bağıra- bağıra danışan kim. Süleyman fikirləşdi ki, yəqin qara basır onu. Oturdu. Dəryazların, oraqların səsini də aydınca eşitdi və son qərarını verdi: «Yandırmalıyam zəmini! Yandırmalıyam!..»

Süleyman günah işlədəndə, səhv addım atanda heç vaxt Allahı köməyə çağırmamışdı. İndi üzünü göylərə tutub kömək dilədi: «Allahım, keç günahımdan. Zəminin içində hər şey- quş yuvalarındakı ətcə balalar, qanlı lalələr, Sənin göndərdiyin ruzi- bərəkət mənim əlimlə yanıb külə dönəcək. Bəs ermənilər bizi yurd- yuvamızdan pərən- pərən salanda, körpələrimizi süngüyə keçirəndə Sən niyə köməyimizə çatmadın? Qadir allahım, barı indi, bu intiqam anında mənə təpər ver!»

Sünbül dəstələrini qucağına yığdı. İstədi ki, elə dayandığı yerdən zəmiyə od vursun. Fikrini dəyişib çökəkliyə endi: «Buradan yandırsam, çalışacaqlar ki söndürsünlər. Onda hərlənib qıraqlardan da od vuraram». Düşündüyü kimi də elədi. Sünbül topasını kəmərilə bağlayıb bərk- bərk sarıdı və od vurub sapand daşı kimi atdı zəminin ortasına. Sonra sürətlə zəminin kənarına qaçdı, tələsik dəstələdiyi sünbül topalarını yandırıb səpələdi ətrafa. Zəmi bir anın içində alova büründü. Az sonra çəyirtkə kimi zəmiyə darışanlara səbəbi mübhəm olan yanğına at, ulaq və insan bağırtıları qarışdı»…

Və Süleyman elə bir zirvəyə qalxır ki, oradan düşmən əlində olan bütün Yuxarı Qarabağ görünür…

Ümumiyyətlə, Hüseynbala Mirələmovun Qarabağ mövzusuna aid, demək olar ki, bütün əsərlərində bu diyarın coğrafiyasını, toponimiyasını adbaad xatırlamaq, yada salmaq ehtirası var. Yazıçı bunu o qədər ürəkdən, səmimiyyətlə, təfərrütla edir ki, həmin üslubi hadisə az qala linqvopoetik fiqura çevrilir…

«…Toran qovuşanda yola çıxdılar, gecə yarısı Qırxqız dağının sonuncu zirvəsinə qalxdılar. Buradan Yuxarı Qarabağın bir- birindən aralı kəndlərindən, qəsəbələrindən sönük, öləzimiş işıqlar görünürdü. Süleyman ermənilərin yandırdığı Kərkicahanın, Meşəlinin, Həsənabadın, Xocalının, Sırxavəndin, Malıbəylinin, Quşçuların, Cəmillinin, Kosaların, Xəlfəlinin, Şırlanın, digər kəndlərin yerləşdiyi əraziləri müəyyənləşdirməyə çalışsa da bacarmadı. Gözünə sataşan Şuşanın

Qızılqayasındakı teleqüllənin qırmızı işığı oldu. Cənub- şərqə tərəf boylandı. Laçının Kalafalıq, Arduşlu, Fərraş, Nurəddin, Çorman, Biçənək kəndləri də zülmət içində boğulur, kül altında qalmış, bəlkə də hələ sönməmiş közündə cınqır- cınqır qovrulurdu. Darı yerindən baxanda Həkəri sahillərindəki tükürpədici mənzərə, Qırxqız dağının sonuncu zirvəsi də görünürdü. İndi də Ağdamın Abdal- Gülablı, Şahbulaq dağlarının üstündəki buludların üzünə qan rəngli işıq düşür, sonra əriyib yox olurdu. Ermənilər lənətləmək istəsə də içindəki Süleyman onu qabaqladı: «Kimi lənətləyirsən! Əsl lənətlik özün deyilsənmi? Hara aparırsan bu harsını? Qoca anana, atan Qara Bəşirə, erməni qəbirlərinin üstündə qurbanlıq qoyun kimi başları kəsilən igidlərin ruhuna nə cavab verəcəksən? Vətən xainləriylə sənin nə fərqin? Bu qancığa verdiyin vədləri necə, hansı haqla yerinə yetirəcəksən? Bəhruza görə millətinə ləkəmi vuracaqsan?..»

Süleymangil Bəy Kmranla rastlaşır. Və Kamran onları sığınacağa gətirir…

Səhərisi gün həndəvərdə avtomat səsi eşidən Bəy Kamranla Süleyman gedib görürlər ki, ova çıxmış ermənilər məclis qurublar…

«…Ocağa xeyli yaxınlaşmışdılar, hətta burunlarına sarımsaq tutmasının iyi gəlir, qızarmış ət qoxusu verən tüstü Bəy Kamranın, Süleymanın gözlərini acışdırırdı.

Çox keçmədi, ermənilər ortalığa sarı rəngli parçadan süfrə saldılar. Tut arağı doldurulmuş kiçik çəlləyi də süfənin qırağına qoydular. Yaşlı erməni araq süzmək üçün qab istədi. Ovçuların səkkizi də əmrə müntəzir ciblərindəki çappa stəkanları çıxarıb irəli uzatdılar. Birinci sağlığı araq süzən erməni dedi. Anlaşılmaz bağırtılarla alqışlanan sağlıqlar meşəni başına götürdü. Hər badədən sonra tamadanın nitqi itib- bataraq eşidilməz olur, ağız deyəni qulaq eşitmirdi. Arada rus dilində danışan bir erməni ayağa qalxıb hamının susmasını tələb elədi. Sonra vələs ağacına söykədiyi avtomatlardan birini götürüb palıd kötüyünün üstünə çıxdı. Və bəlağətlə nəsə nitq irad elədi. Avtomatı sinəsinə sıxıb meşə tərəfi göstərdi və tətiyi çəkdi. Əks- səda dalğalandı. Yenə də bağırtılar eşidildi.

Həmişə hövsələsini sonacan basmağı bacaran Bəy Kamran bu dəfə dayana bilmədi, beşaçılanı sağ qoluna dayayıb üzünə söykədi. Süleymana da işarə ilə hazır

olmağı tapşırdı. Çaxmaq çəkilən an kötüyün üstündəki erməni üzü üstə sarımtıl süfrənin böyrünə yıxıldı. Bəyin zəhmli səsi meşəni titrətdi:

- Sizin ananızı, ağlar qoymasam başımdakı papaq haram olsun mənə! Köpək uşağı, hamınız üzü üstə yerə uzanın! Tökdüyünüz qanların hesabını verəcəksiniz indi! Bu saat o ocağın üstündə sizə «Tərəkəmə» oynadacağam.

Dəqiq atəşlə çul kimi düşən, bircə dəfə də tərpənmədən canını tapşıran erməninin cəsədinin lap böyründə uzanmış digər erməni çaşqın hərəkətlə yerə düşmüş avtomatı götürmək üçün irəli sürünmək istədi. Beşaçılanını ikinci gülləsi açıldı, o bağırdı və yerində qıvrıldı»…

Sağ qalan erməniləri yemək- içməkləri ilə birlikdə sığınacağa gətirib «məclisi» davam etdirirlər… Bəy Kamran qoca erməndən tələb edir ki, sağlıq desin…

«…Hovanes başını düşdüyü bəladan salamat çıxarmaq üçün yaranmış ən xırda fürsətdən açıq- aşkar yararlanmaq fikri ilə qul itaətkarlığı göstərdi:

- Komandir, başına pırlanım, Azərbaycan xalqının sağlığına içirəm!

Bəyi elə bil ildırım vurdu:

- İç, dəyyus oğlu, iç! Bu qədər torpağı erməni dığasına təmənnasız peşkəş eləyən xalqın sağlığına vurmağa dəyər. İç mənim kimi biqeyrətlərin sağlığına!..»

Bəhruzu Yerevanda xəstəxanaya gətirirlər…

«…Onu xəstəxananı üçüncü mərtəbəsinə qaldırdılar. Sözlər erməni dilində yazıldığından, hansı şöbəyə gətirildiyini anlamadı. Başının ortası soyulmuş kələm kimi işıldayan, peysərinin dalındakı təkəm- seyrək, az qala sananması mümkün olan tükləri uzanıb çiyinlərinə düşən həkim Bəhruzun qoluna girdi. Onu sağ tərəfdəki qapıya tərəf apardı. İçəridə üç ağ xalatlı vardı. Bəhruz onlardan ikisini tanıdı. Ararat Atayan və Raya başlarını aşağı əymişdilər. Bəhruz iki il əvvəl Stepanakertdə Pedaqoji İnstituta qəbul imtahanı verdiyi günü xatırladı. Onda Ararat Atayan Bəhruzdan Azərbaycan dili və ədəbiyyatı fənnindən şifahi imtahan götürmüş, dörd vermişdi. Bəhruz onun erməni olmasından, Bakıda Azərbaycan dilində dissertasiya müdafiə edib alimlik dərəcəsi almasından, «Azərbaycan dili və ədəbiyyatı» kafedrasının sayılıb- seçilən müəllimi olmasından xəbərsiz idi. Bunlar

burda nə gəzirlər, ilahi? Haçan, necə gəlib çıxıblar Yerevana? Onların Bəhruzla nə alış- verişi? Bəlkə tam təsadüfdür bu»…

Təsadüfi heç nə yox imiş… Xəstəxanada Bəhruzun başına dəhşətli bir «oyun» açılır…

«…Bəhruz ötən axşam Bakıdan gəlmə yaraşıqlı erməni qadının nazlana-nazlana ona uzatdığı həbləri içdikdən sonra nə baş verdiyindən xəbərsizdi. Ondan da xəbərsiz idi ki, dünəndən bəri Ararat Atayanın tərif vurduğu professor hər iki qolunun bazu sümüklərini çıxarıb. Bazuları əməliyyatdan dərhal sonra Fransaya göndəriblər.

…Ararat Atayanla Raya cərrahiyyə əməliyyatından əvvəl Fransadakı erməni lobbisinin başçısı və «Daşnaksyütun» partiyasının lideri Farsiyanın avtomobil qəzasında qolları xıncım- xıncım olmuş oğlu üçün canfəşanlıq göstərirdilərsə, indi öz mənafeləri naminə dəridən- qabıqdan çıxırdılar. Amma deyəsən iş tərsə düşdü, Bəhruzla vidalaşıb palatadan çıxmaq istəyəndə tibb bacısı içəri girdi və Beynəlxalq Qırmızı Xaç Cəmiyyətindən nümayəndələrin gəldiyini dedi. Baş həkim xəstənin yanında Ararat Atayanla Rayanı gördü. Buyurdu ki, türk gədəsi ilə xaricilər arasında dilmanclıq eləsinlər»…

Müəllif ermənilərin «müharibə»ni yalnız cəbhədə deyil, arxada da nə qədər böyük qəddarlıqla, qeyri- insani üsul və formalarda «apardığı»nı açıb göstərir.

Şikəst olunmuş Bəhruzu indi də valideynlərinə satmaq istəyirlər…

«…Qalırdı Azərbaycanla əlaqə yaradıb Süleymanı tapmaq. Ararat Atayan Bəhruzdan aldığı ünvanlara teleqramlar vurur, tezliklə cavab çıxacağına ümid bəsləyirdi. Müharibə dövrünün də öz fırıldaqları olur. Onlar ələ düşən fürsətə zəncirvari fəaliyyətin bir halqası kimi baxır və güman eləyirlər ki, əsirləri, ortada qalan meyitləri dəyişmək, sahiblərinə çatdırmaq həm xeyirxahlıqdı, həm də babat pul. Yeni biznes son illərdə tale küləyinin Dağlıq Qarabağdan vuraraq Yerevana gətirdiyi bu əyalət alimlərinə əvvəllər də az zəhmətlə böyük kapital qazandırmışdı. İndi də onlar bilirdilər ki, yaradacaqları əlaqə böyük kapital deməkdir, Bakıda ömrünün sonunu yaşayan atanın, qaynatanın olan- qalanına sahib çıxmağın yolu da Süleymanla əlaqə yaratmaqdan keçə bilərdi»…

Xüsusi «tapşırıq»la Bakıya gələn Möhnətin də ağlına müxtəlif fikirlər, başına müxtəlif işlər gəlir…

«…Ona nə olmuşdu, özünü tanıya bilmirdi. Stavrapolda gününü pivəxanalarda, «kabaçoklar»da keçirən, ermənilərlə him- cimi bir olan, el- obası barədə düşünmək belə istəməyən Möhnət elə indi, Bakıya ayaq basdığı anlarda büsbütün dəyişmiş, demək olar ki, sarsılmışdı. Erməni Sergeyin dolları hesabına Bakıya tapşırıq dalınca şpiyon kimi göndərilən Möhnət özünə Allahdan ölüm istədi. Di gəl ki, Allah ölümü insanların istəyilə göndərmir»…

Möhnət ailəsini qaldıqları darısqal kirayədən çıxarır…

«…İşləri səhmana düşsə də nigarançılıq içini oyurdu. Hər səhər Alatavaya, Sergeyin verdiyi ünvana üz tutur, Respublika xəstəxanasının döngəsindən geri qayıdırdı. Üç aydan çox idi ki, eyni hərəkəti təkrarlayırdı. Özünə də qaranlıq qalmışdı tərəddüdünün səbəbi. Onu rahat buraxmayan hissin insafdanmı, qorxudanmı yarandığını aydınlaşdırmağa gücü çatmırdı. Qorxunu Stavrapolda reketlər, insafı içindəki insanlıq, Sergeyin yalvarışları, onunla kəsdiyi çörək, cibinə qoyduğu on üç min beş yüz dolların əvəzini qaytarmaq məsuliyyəti yaradırdı. Möhnət həmin puldan üç min beş yüzünə ev almış, altını maşınlı, qapısını inəkli, anasını, həyat yoldaşını, balalarını əyin- başlı, özünü işli- güclü eləmişdi»…

Ailəsini yerbəyer eləyəndən sonra Möhnətin əsas işi «Laçın koridoru»nda eyş- işrətlə məşğul olanlara təzə aldığı köhnə maşınında «canan» daşımaq idi…

«…Alatavadan Sumqayıt yoluna çıxdı. Yolun hər iki tərəfindəki ağaclıq addımbaşı eybəcər reklamlarla bəzədilmişdi. Hər gün gedib- gəldiyi yoldakı kababxanaları elə bil indi görürdü; İlahi, nə qədərmiş bunlar- «Arpaçay», «İşıqlıdağ», «Zabux», «Ağrıdağ», «Cıdır düzü», «Sədərək», «Həkəri», «Bayatı», «Göyçə», «Turşsu», «Vedibasar»…

Bəs nəyə görə bu ağzıgöyçəklər deyirlər külli - Qarabağı erməniyə vermişik, yaxud qoyub qaçmışıq. Budur ey Qarabağ, Zəngəzur… oba- oba, kəndbəkənd qucağımıza alıb gətirib düzmüşük gözümüzün qabağına, Sumqayıt yoluna – düşündü Möhnət.

Adların hamısın çatdırıb oxuya bilmirdi. Kababxanalar Qərbi Azərbaycandan, Qarabağdan qaçqın, köçkün düşmüş insanlara aid idi. Ona görə də Sumqayıt yoluna «Laçın dəhlizi» deyirdilər.

Möhnət onu da bilirdi ki, qaçqın və köçkünlərin kababxana açıb pul qazanmaq imkanı yoxdur. Onların adları da şərtidir, sahibləri də. Adlar imkanlıların qazancı üçün qalxan, sipər kimi seçilib. Sənədlərdə əksəriyyətinin sahibi şəhid ailələri, Qarabağ əlilləri göstərilmişdi. Bu əsil şeflərin gizlin qalmalarına şərait yaradırdı»…

Vətən, millət hissindən məhrum dələduz bir azərbaycanlının dilindən deyilsə də, bütün bunlar acı bir həqiqət idi.

Yazıçı haqlıdır… Hər bir insan kimi, bütövlükdə millətin təbiətində qəribə paradokslar var: bir tərəfdə millət qırılır, şikəst olur, didərgin düşür; digər tərəfdə isə bundan istifadə olunur, «var- dövlət» qazanılır, şərəf, ləyaqət ayaqlar altına atılır… Və müəllifin göstərdiyi kimi, müqəddəs adlar da ən çirkin «alverlər»in nəinki «qalxan»ına, hətta reklamına çevrilir.

Bütün bunlar isə millətdən, xalqdan, qələbədən dəm vuran «hökumət»in gözləri qarşısında baş verir.

… Bəy Kamranla Süleyman əsir erməniləri Xallanlı kəndinə gətirirlər…

«…Kəndə xəbər çatan kimi məmə deyəndən pəpə yeyənə hamı toplaşdı gələnlərin başına. Laçının Çorman, Şamkənd, Cicimli, Malıbəy kəndlərindən canlarını zorla qurtarıb Xalxanlıda sığınacaq tapanların əksəriyyətini Bəy Kamran da tanıdı, Süleyman da. Bu adamlar gələnlərin arasında erməni görən kimi qəzəblə qışqırdılar:

-Alçaqlar, qansızlar… Qanızı içərik, dərizi soyarıq,- deyərək, onların üzərinə atılmaq istədilər.

- Qanlarını içsəm də ürəyim soyumaz. Gəlinimi körpəsiylə birgə ocağa atıb yandırdılar.

- Oğlumun başını kəsənlərdi bunlar, Bəy Kamran! İcazə ver, alım qisasımı vəhşilərdən.

Qisas almaq istəyənlərin arasında yaşlı qadınlar da vardı, ağsaqqallar da. Camaat kükrəyib, daşırdı. Bəy Kamran çıxlımaz vəziyyətdə qalmışdı. O, ehtiyatlanıb beşaçılanı çiynindən aşırdı:

- Əsirləri öldürməklə qəhrəmanmı olacaqsız? Hanı bu kəndin ağsaqqalları? Niyə çıxmırlar qabağa? Qisas almaq istəyənlərə üzümü tutub deyirəm: bax, gördüyünüz dağın o üzündə yandırılan kəndlərin alovu hələ sönməyib, tüstüsü çəkilməyib. Cavanlarımız, qız- gəlinlərimiz dığaların əlində girovdu. Kişilənənlər çıxsın qabağa. Özüm bələdçilik edəcəyəm onlara. Gedək, qurtaraq bizimkiləri dardan. Əsirləri körpə uşaq da öldürər. Əgər kömək eləmək istəyirsinizsə, bizi bir evə yerləşdirin»…

Kəndin ağsaqqalı Akif müəllimgilə düşürlər…

Və bir neçə gün sonra Hovanesi də götürüb onların kəndlərinə – Qarakötüyə qayıdırlar ki, oradakı azərbaycanlı əsirləri xilas etsinlər. Ancaq əsirlərin saxlandığı yerdə dəhşətli bir mənzərə ilə qarşılaşırlar…

«…Bəy irəli yeriyib zirzəminin qapısını açdı. İçəri qaranlıq idi. Heç bir hənirti duymadı. Astadan:

- Bahadır kişi, burdasız? Bahadır əmi…

Sual cavabsız qaldı. Cib fanarını yandırıb künclərə baxdı. Əyilə- əyilə irəli yerimək istəyəndə alnına nəsə toxundu. Fanarı yuxarı qaldıranda gözlərinə inanmadı. Zirzəminin tirlərinə bağlanmış kəndirlərdə iki cəsəd yellənirdi. Köməkləşib kəndirləri açdılar. Neçə ay əsirlik həyatı yaşamış ixtiyar qocaların cəsədləri quru qəfəsə bənzəyirdi. Bəy Kamran Bahadır kişinin ciblərini axtardı. Əlinə bükülmüş qəzet parçası keçdi. İşığa tutub açdı. Qəzetin yuxarı hissəsində kömürlə bu sözlər yazılmışdı: «Güllü 50 il idi ki, məni kişi bilirdi. İndi kişiliyim qırıldı. Güllünün gözlərinə də baxa bilmirəm. Ölüm bundan yaxşıdır. Əvvəlcə Güllünü, sonra isə özümü asdım»…

Hər yerdən əlacı kəsilən yaşlı bir kişinin (əsirin!) həm arvadını, həm də özünü asması, əlbəttə, insan qəlbini riqqətə gətirən, erməni vəhşiliyinin xarakterini göstərən səhnədir. Ancaq eyni zamanda mərdlik, qürur, mənəvi ucalıqdır ki, heç bir erməni «əsir»i bunu eləməzdi.

… Bəy Kamranın sığındığı dəyirmana iki azərbaycanlı əsgər də gəlib onlara qoşulurlar…

«…Gecədən xeyli keçənədək söhbətləşdilər. Mustafa da, Ötkəm də indən belə Bəy Kamrana qoşulub, döyüşəcəklərini dedilər. Bu, Bəyin ürəyindən oldu:

- Bəxtiyar burda yeganə arxam- köməyim idi, indi olduğunuz üç. Əgər Bəy Kamranı da sıranıza qatsanız, olarıq dörd. Dörd qardaş, ya da üç oğul, bir ata.

Bəy Kamranın adını eşidən kimi ötkəm irəli yeriyib onun əllərindən öpdü. Səsi titrədi:

- Kamran əmi, bağışlayın məni. Haqqınızda çox eşitmişəm. Elmizin hörmətli ağsaqqalısınız. Tanımamağıma səbəb kənddə – Korcabulaqda az olmağımdı. Səkkizincidən sonra kişi məni Bakıda təmayül məktəbinə qoydu. Tarixçiyəm, elmi dərəcəm var. Ermənilər Qarabağda talana başlayan gündən qayıtdım kəndə. Uşaqları başıma yığıb müdafiə dəstəsi düzəltdim. Amma əliyalınlıq yaman sarsıtdı bizi. Əsgərlərdən, ermənidən beş- on avtomat ələ keçirtdik. Düşmən üstümüzə tankla gəldi. Son patronumuz qalanacan vuruşduq. Rus erməniylə birləşəndən sonra duruş gətirə bilmədik. Nə təhər oğullar şəhid oldu»…

Və Ötkəm əlavə edir…

«- Kamran əmi, Mustafa Tibb İnstitutunu bitrib. Çitadakı hərbi qospitalda işləyib. Mayordu. Erməni söhbəti çıxan kimi qayıtdı. Vur- tut ikicə gün Lənkəranda qalandan sonra qoşulub bizim kəndin könüllülərinə. Korcabulağa gələndə saçında bircə dənə də ağ tük yox idi. İndi elə bil başına qar yağıb»…

Yazıçı dövrün problemlərini tam çılpaqlığı ilə ortaya qoymaqdan, açıb göstərməkdən çəkinmir: hökumətdən, dövlətdən, demək olar ki, heç bir yardım görməyən xalq, əslində, hər kənd öz «ordu»sını yaratmalı, özbaşına müdafiə olunmalı olur; «mərkəz»ə müraciət etdikdə isə biri digərinə zidd olan, müxtəlif «mənbə»lərdən gələn göstərişlər verilir ki, bu da çaşbaş salınmış millətin silahlı (və mobil) düşmənə müqavimətini, demək olar ki, qeyri- mümkün edir.

Düşmənlə döyüşən kəndlərə «mərkəz»dən nəinki kömək göstərilmir, əksinə, onlara hətta problemlər yaradılır. Və bu problemlər bəzən şərəfsizliyə qədər enir…

«…Avqustun son günləri idi. Rayon maarif şöbəsində məktəb direktorlarının müşavirəsi keçirilirdi. Akif müəllim müşavirədən sonra rayon polis şöbəsinə getdi ki, həm rəislə görüşüb söhbətləşsin, həm də Süleymandan və onun oğlu Bəhruzdan xəbər tutsun.

Məktəb direktorunun pay gətirdiyi iki çərçivə baldan razı qaldığını bildirən rəis əlavə elədi ki, Süleymanın oğlu Yerevandadı. Bu gün- sabah Qırmızı Xaç Cəmiyyəti vasitəsilə dəyişdiriləcək. Süleyman isə ailəsindən xəbər tutmaq üçün Gəncəyə gedib. Bəlkə arada Bakıya da dəydi.

Akif müəllim rəisə dedi ki, ona yaxşı motal hazırladıb. Süleyman qayıdan kimi gətirəcək. Rəis də sözarası dedi ki, qonaq- qarası həddən ziyadə çox olur. Gələnlərin də iştahı Əli qılıncından iti. Nehrə yağı, quzu kababı dadmadan döndüm deyən olmur. Akif müəllim işarəni göydə tutdu, hesabını götürdü, sağollaşıb ayrıldılar»…

… Möhnətə gəldikdə isə…

«…Möhnət Laçın koridorundakı kababxanada özünü babat tutmuşdu. Sumqayıtın çıxacağından ta Xırdalan qəbirstanlığına qədər olan kababxanalarda əməlli- başlı xətir- hörmət qazanmışdı. Həmin kababxanaların sahibləri, xörəkpaylayanları və qabyuyanları onu bircə həftə görməyəndə darıxır, arayıb-axtarır, xəbər tuturdular. Çünki həmin obyektlərin əksəriyyətini «gecə quşları» ilə Möhnət təmin eləyirdi. O, artıq sifariş verilən ünvanlarla kifayətlənmirdi. Cib dəftərçəsinə çörəyi bu peşəylə çıxanların adları, ünvanları, telefon nömrələri xüsusi səliqəylə, əlifba sırasıyla yazılmışdı. Pullu- hallı kişilərin çoxu Möhnətin dəftərçəsinə və zövqünə arxayın olduqlarından sifarişi sifariş dalınca verirdilər.

«Gecə quşları» Möhnətin xasiyyətinə, hesabda düz olmasına görə razı qalırdılar. Bilirdilər ki, qazandıqları beş- on manata göz dikmir, müştərilərin verdiyi bəs eləyir. Əslində isə Möhnətin də çıxarı, xərci- xəsarəti az olmurdu. Sahə müvəkkilləri, post- patrul xidmətinin işçiləri, yol polisi əməkdaşları, bələdiyyə, vergi… daha kimlər onu görəndə gözləri işıqlanır, çiçəkləri çırtlayırdı. Bilirdilər ki, əliaçıqdı, beşdən- ondan verəcək»…

Ancaq Möhnətin bu «dinc», alış- verişli, gətir- götürlü həyatı, ürəyinə damdığı kimi, o qədər də uzun çəkmir.

Sergeyin «adamlar»ı onu aradan çıxdığına görə «razborka»ya çəkirlər…

«- Öldürün məni, amma uşaqlarım çöldə qalmasın. Mənim həyatımın qiyməti… - nədənsə sözünü axıra çatdırmadan susdu. Az sonra davam elədi:

- Əgər mənim həyatım bahasına uşaqlarım çöllərdə qalmazsa, nə istəsəz, eləyin.

- Möhnət. Axı əvvəldən dedim ki, dara- bara yeri deyil. Sabah evin, maşının sənədlərini gətir kababxanaya. Başqa fikirlərə düşmə… Sergey məsələsi də elə bu dəqiqədən ömürlük getdi arxivə.

Möhnətin gözlərini yenidən bağladılar. Arxa oturacaqda onunla daha iki nəfər oturdu. Nə Möhnət onlardan söz soruşdu, nə də onlar Möhnətdən. «Qurd qapısı»nda gözlərini açıb düşürtdülər yerə. Xudahafizləşmədən sürüb getdilər»…

Möhnət «günahını yumaq» üçün tanımadığı bir adamı öldürməli olur. Və qatilə çevrilir…

Qətlə yetirdiyi günahsız (hər halda onun yanında heç bir günahı olmayan) adamın ruhu Möhnətə rahatlıq vermir.

Və bir gün xəbər gəlir ki, oğlunu maşın vurub…

«…Xəbər kürəyinə bıçaq kimi sancıldı, ağrı qanında qışqırdı. Ağlına gəlməyənlər başına gəldi.

…Möhnətin təzə evində, sürdüyü təzə maşınında rahatlığı qeybə çəkilmişdi. O, başına gələn faciələri kababxananın düşərsizliyində görürdü. Dəfələrlə istəmişdi ki, onu yandırıb canını qurtarsın. Amma nə əli gəlmiş, nə də cəsarəti çatmışdı. Oğlu tələf olan gündən bəri bir dəfə də olsun qəbirstanlığa yön tutmamışdı. Hamıya demişdi ki, Hörmüzün qatilini tapmayınca, ciyərparasının intiqamını almayınca ora ayaq basmayacaq. İçindən gələn səs isə onu ələ salmış, inamını tamam itirmişdi: - «Möhnət, səni intiqam gününədək sağ qoymayacaqlar axı. O yarımçıq qırdığın ömrün ruhu, doğmaları, ən sonda isə haqqı nahaqqa verməyən o gözəgörünməz kişi verəcək cəzanı»…

Yazıçı bu dünyanı idarə edən (özü də insaf- mürvətlə idarə edən!) ali bir qüvvənin olmasına ürəkdən inanır. Həmin inam, sadəcə, mistika- fatalizm deyil, həyatın özü qədər gerçək, realdır… Və o olmayan yerdə insanlıq, humanizm, haqq-ədalət təsəvvür edilməzdir…

Süleyman «arxa cəbhə»yə dönməli olur…

«…Həbsxana maşını rayon polis şöbəsinin qarşısında dayandı. Süleymanla Vartanuşun baxışları sonuncu dəfə rastlaşdı. Heç biri kəlmə kəsməyə, vidalaşmağa cəsarət tapmadı. Bu baxışlar nifrətinmi, məhəbbətinmi yarımçıq qalmış hekayətiydi – bilən olmadı…

Rəisin otağında keçən üç- dörd saatlıq vaxt Süleymanın suallara cavab verməsinə güclə yetdi. Artaşdan qalma «Kalaşnikov» avtomatını növbətçinin otağında saxlamışdılar. Süleyman xudahafizləşib ayağa qalxanda soruşdu:

- Avtomatı özümə qaytaracaqsınız?

Prokuror dedi:

- Hələlik get ailənlə görüş. Nə vaxt döyüşmək istəsən, silahı özünə qaytaracağıq. Oğlundan da nigaran qalma. Neçə erməni istəsələr, verib Bəhruzu girovluqdan xilas eləyəcəyik. Ailənin harda məskunlaşdığı barədə bizə dürüst məlumat verməyə çalış. Əyin- başını da dəyiş»…

Süleyman Bakı qatarında bir yerlisiylə tanış olub söhbət edirlər… Və bu söhbətdən ölkənin, xalqın nə qədər acınacaqlı vəziyyətə düşdüyü, «yuxarılar»ın camaatın faciəsinə nə qədər laqeyd, biganə olduqları bir daha bütün çılpaqlığı ilə meydana çıxır…

«…O, cibindən ütüsüz, bürüşük dəsmalını çıxarıb burnuna tutdu. İki dəfə asqırıb üzr istədi:

- Sözümün qənbərqulusu odur ki, indi bu ermənilər gəlib təpəmizdə at oyanadır, biz biqeyrətlər də özümüzü vurmuşuq korluğa. Süleyman qardaş, vallah, belə olmaz. Bu yaşımda kənd- kəsəkdən xəlvət gedirəm Bakıya ki, ömrü boyu stulda bitənnəri tapım, deyim, qeyrətə gəlin. Qabağa düşün, silah verin, gedib alaq torpağımızı, bu binamusluqdan qurtaraq.

Süleyman xeyli dillənmədi, sonra dedi:

- Səni qınayana nəhlət, kişi! Yolun açıq olsun, təki getdiyin məqama yetişəsən. Neyləyək, əl bizdən, ətək onlardan, vicdanları oyanajax bəlkə? Daha nə deyim?..

Daha heç bir dinib- danışmadı. Nəm «matraslara»bürünüb yatmağa çalışdılar. Süleyman yuxuda gördü ki, Bulaqlıda səngərdədi, oğlu Bəhruz da yanında, ermənilərlə vuruşurlar. Birdən necə oldusa Bəhruz yaxınlıqdakı ağaca dırmaşdı, durbinlə düşmənə sarı baxdı. Qəfil ayağı sürüşdü, ağacdan yıxıldı və hər iki qolu biləkdən sındı…

Süleyman hövlanak yuxudan ayıldı. Bərk qorxmuşdu. Bu nə səfeh yuxudu, ə, mən gördüm? Olmaya uşağın başında iş var?

Bələdçi qapını tıqqıldatdı: «Bakı, Bakı». Süleyman pərişan halda pəncərədən baxdı. Müharibənin cəhənnəm küləyi burdan yan keçməmişdi. Qələbəlik, coşqunluq qeyb olmuşdu. Vağzalda sir- sifətində kədər, intizar qıvrılan tək- tük adamlar gözə dəyirdi»…

Süleyman Bakıda qohum- əqrabası ilə görüşüb, hal- əhval tutub Taxtakörpüyə qayıdır…

«…Süleyman Taxta körpüyə, Cındırlı sətindəki qış yatağına ertəsi gün toran qovuşanda çatdı. Binədəkilərlə görüşdü. Kolxozun üç min baş qoyun- quzusu, iki yüz başdan çox mal- qarası yaylağa aparılmadığına görə qış yatağında salamat qalmışdı. Yaxınlıqda xeyli əkin- biçin, otlaq sahəsinin, suyun olması Bulaqlı camaatının yaşamaq ümidini artırmışdı.

Sədrin əsirlikdən qurtulub gəlməsi xəbəri Laçının icra hakimiyyətini də silkələdi. Süleymanı çağırıb ətraflı söhbət elədilər, təsərrüfatına sahib durmağı məsləhət bildilər»…

Taxtakörpü qaçqınların yurd yerinə çevrilir… Və müəllif bu məşhur məkanın ağrılı «tərcümeyi- hal»ını həm realist, həm də romantik- etnoqrafik boyalarla təsvir edir. Oxucunu riqqətə gətirən hadisələr «tarix» yaradacaq bir səviyyədə təqdim olunur… Təsvir- təqdim o qədər informativ (və mükəmməl)dir ki, hansının həqiqət, hansının yazıçı təfəkkür- təxəyyülünün məhsulu olduğun ayırd etmək çox çətindir.

Və bu da Hüseynbala Mirələmovun yazıçı üslubunun mühüm bir cəhəti, səciyyəvi bir xüsusiyyətidir…

«…Süleymanın atası Qara Bəşir son nəfəsində vəsiyyət eləmişdi ki, onu qəsəbənin yanındakı dikdirdə torpağa tapşırsınlar. Ordan, sübh tezdən və günəş qüruba enəndə, Qırxqız və Murov dağları görünürdü. El ağsaqqalının bir məqsədi də o idi ki, onsuz da müsibətlərə düçar olmuş insanlar ölülərini dəfn eləmək üçün qəbrstanlıq axtarmasınlar. Müdrik el ağsaqqalı yanına vidalaşmağa və halallıq almağa gələnlərə – bütün Bulaqlı camaatına «Halallığı, sür- sümüyümü dədə- baba qəbrstanlığına aparandan sonra verəcəm», - demiş və yastığının altında gizlətdiyi bir parça kağızı çıxarıb Süleymana uzatmışdı. Süleyman atasının xəttilə kağıza yazılmış bayatını hündürdən oxumuşdu:

Əzizim, bu yaşımda,
Quruyub göz yaşım da.
Vətənsiz öldüyümü
Yazarsız baş daşımdı.

Bu hadisədən sonra kəndin qocaları, qarıları son mənzilə yaxınlaşdıqlarını duyduqca, baş daşlarında yazılacaq bayatıları uydurub qoyardılar gor- kəfən üçün düzəltdikləri ehtiyat bağlamaların içinə.

…Atasının vəsiyyəti və ölümü ilə salınan yeni qəbristanlığın vur- tut üç- dörd ay ərzində əməlli- başlı böyüməsi Süleymanı gözükölgəli, suçlu eləmişdi. Hərdən ona elə gəlirdi ki, bulaqlılar rəhmətlik atasını qınayırlar. Qınayırlar ki, saldığı qəbrstanlıqda dəfn olunanların sayı artıb. Amma əslində, Qara Bəşir bu müdrik hərəkətilə hamının rəhmətini qazanmışdı»…

…Hadisələr davam edir…

«..Süleyman qərargahda Bəy Kamranın ailəsindən ətraflı xəbər tutmuş, Bakıda məskunlaşdıqlarını öyrənmiş və onlara baş çəkmək qərarına gəlmişdi. Gülgəz inək, camış südündən, yağ, pendir, çobanlardan aldığı yundan isə iki dəst yorğan- döşək hazırlamışdı.

Sülyeman Bakıya gedən maşınlardan birinə oturub, pay- püşlə yola düşdü.

Bəy Kamranın oğlanları, qohum- əqrabası Süleymanı çox hörmətlə qarşıladılar. Onu zorla da olsa, üç gün qonaq saxladılar və xətir- hörmətlə yola saldılar…

…Süleyman Bulaqlı qəsəbəsinə qayıdandan üç- dörd gün sonra Bəy Kamranın böyük oğlu Laçın bir yük maşınını inşaat- tikinti materialları ilə doldurub Taxta körpüyə göndərdi. Süleyman materialların onun adına göndərilməsinə baxmayaraq, qəsəbəni ev- ev gəzdi, kimin nəyə ehtiyacı olduğunu öyrənib böyük bir siyahı hazırladı. Ağsaqqalların iştirakı ilə aparılan bölgüdə Süleymana iki şifer, üstündə «Qaradağ» sözü yazılmış bir kisə sement düşdü»…

Bəhruz, nəhayət ki, əsirlikdən vətənə qayıdır, ancaq nə vəziyyətdə…

«…Qeyri- ixtiyari, rəislə salamlaşmadan «Qırmızı xaç» işarəsi olan maşina tərəf yüyürdü. Arxa qapını açması ilə:

- Ay Gülgəz, Bəhruz gəldi! – deyə qışqırması bir oldu.

Bəhruzun öz doğmalarını qucaqlayıb bağrına basmağa qollarında qüdrət yox idi. Onun qolları işləmirdi. Sevinə bilmədi, əksinə, kədərləndi, heç kimin üzünə baxmağa cəsarəti çatmadı. Qollarını itirdiyini elə bil indi anladı: «Atanın, ananın, bacının boynuna sarılmırsa, bu qollar nəyə gərək, nəyə gərək… Atı yəhərləmirsə, belinə qalxıb şahə qaldırmırsa, ocağı qalamaq üçün bir qalam odun doğramırsa, düşmənlə üz- üzə gəlib gülləni gözlərinin didəsinə, ürəyinin başına sıxmırsa, nəyə lazımdı key bədən?»

Qəsəbə sakinləri Süleymanın qapısına yığışmışdılar.

…Bəhruz heç kimin üzünə baxa bilmirdi. Neçə ay əvvəl dostluq elədiyi cavanlar gözünə dəymirdi. Həmişə şax yeriyən, çinar qamətli kişilərin beli bükülmüş, su sonasından seçilməyən qız- gəlinlərin rəngi solub- avazımış, uşaqların yanaqlarındakı lalə qızartısının yerində qara kədər xalı bitmişdi. İndi bu təzə qəsəbədə Bulaqlı camaatının heç onda biri də yaşamırdı. Bəs qalanlar hardaydı? Kənd əhli büsbütün əsirmi düşmüşdü, yoxsa, kiçikli- böyüklü hamı qanına qəltan edilmişdi? Bəlkə elə orda, gerçəkli Bulaqlının yallarında, yamaclarında qırılıb qalmışdılar»…

Romanın birinci kitabının sonunda yazıçı yenidən «dəyirman»a qayıdır, gözəl bir təsvirlə, ümidverici bir ahənglə birinci kitabı tamamlayır…

«…Alçalıbulağın altındakı dəyirman intiqam hissilə qovrulan Bəy Kamranın, Ötkəmin, Mustafanın və Bəxtiyarın sınaq meydanına, əsirlikdən azad olduqlarına hələ də inanmayıb, baş verənlərin hamısını yuxu bilən insanların ümidgahına, Boz atın, səməndin, Bənəyin, çovgundan salamat çıxmış beş qoyunun, iki inəyin sığınacağına çevrilmişdi.

Qış yenicə başlamışdı. Qarın ərimәsinә, ağacların tumurcuq tutub yarpaqlanmasına, suların coşub- cağlamasına, nərgizlərin, bənövşələrin, lalələrin, gözəllik yarışına girməsinə, kəkliklərin, qırqovulların, turacların doğma oylaqlarına qayıtmasına hələ çox vardı. Lakin yerdə qarın qurşağa qədər qalxması, çovğunlu günlərin artması, çayın dodağına kilid vurmuş buz qatının şişib əndazədən çıxması Bəy Kamranı darıxdırmırdı. Bilirdi ki, bütün bunlar ötəridir, bahara uzanan yolun dolanbacları, enişləri, yoxuşlarıdı. İnsan övladı min, milyon illərdi ki, dünyanın yaz üzünə zülmkar qışın qoyuq, şaxtalı, boranlı sinəsindən ötüb yetişir. Yeganə yol budu və bahara qovuşmağın bundan özgə bir yolu yoxdu»…

«Yanan qar»ın ikinci kitabı yurd yerində – dəyirmanda məskunlaşanların vəziyyətinin, əhval- ruhiyyəsinin təsvirilə başlayır…

«…Neçə gündən bəri təbiətin azğınlığının səngimədiyini görən canlılar – quşqonmaz zirvələri özünə əbədi məskən seçən qartallar, qorxu- hürkü bilmədən balalarını dalınca salıb donquldana- donquldana harasa üz tutan vəhşi donuzlar, bəzən arxayın- arxayın qaqqıldaşaraq öz şaqraq səsindən vəcdə gələn, bəzənsə səksəkə içində daşlardan- daşlara səkən ayağı xınalı kəkliklər, sürüylə suya enən dağ keçiləri yoxa çıxmış, rüzigarın bu qırımını, bu acığını duyduqları üçün cansız, hissiyatsız bulaqların, çayların, şəlalələrin də dili tutularaq, lal olmuşdu. Sivri, şiş sıldırımları örtüb kütləşdirən qalın qar yorğanı qayaları bir az da böyüdərək azmanlaşdırmış, çala- çuxur yollar, ot- ələfli cığırlar, yurd yerləri, arxaclar əl içi kimi dümdüz düzələrək tanınmaz olmuşdu. Bu sərtlik, bu qiyamət bir qisas, bir cəza- intiqam kimi ağaclara, çaylara, dağlara, meşə heyvanlarınamı göndərilmişdi,

yoxsa olub qalanını itirib var- yoxdan çıxan, hər an ölmək, öldürülmək qorxusu içində yaşayan didərgin, günahsız insanlaramı?

Bir ailənin üzvləri kimi dəyirmandakı buxarının ətrafına toplaşaraq qızınan adamlar onları didərginliyə düçar edənlərə, sonrasa öz bəxtlərinə, talelərinə qarğımaqdan usanaraq indi də rüzgarı, təbiəti söyüb yamanlayır, qarğış tökür, tüstülənən kösövlər kimi yanıb yaxılırdılar»…

«Dəyirman» obrazı, akademik Bəkir Nəbiyevin də qeyd etdiyi kimi, yüksək sənətkarlıqla düşünülmüş, yaradılmışdır. Burada da Hüseynbala Mirələmovun yazıçı üslubu üçün səciyyəvi olan reallıqla (dokumentallıqla) təxəyyülün zərif bir şəkildə «birləşdirilmə»sini, informativ- estetik «təmas»ını görürük.

Dəyirmanda məskunlaşanlar bu yerlərin igid, vətənpərvər oğlu Bəy Kamranın başçılığı ilə inanırlar (və inamlarında haqlıdırlar) ki, onların gördükləri iş haqq işidir, tarixi işdir…

Erməni əsirliyindən azad edilib dəyirmanda yaşayanlardan olan Zakir kişi də başqaları kimi, bütün çətinliklərə rəğmən, ümidini üzmür…

«…Əvvəlcə öskürdü. Sonra ayağa durub asta- asta gedib qapının arxasında çinlənmiş ulas odunlarından qucağına yığaraq gətirib buxarının qarşısına tökdü. Tüstülənən kösövləri alovlandırmaq üçün ovurdlarını doldurub var gücü ilə üfürdü. Ancaq nəfəsi bığlarının və aylardan bəri ülgüc üzü görməyən saqqalının ağ, cod tüklərini tərpətməyə zor- güc bəs elədi. Pərtliyini gizlətmək üçün kösövləri bir-birinə vurub çığlandırdı. Lakin bunun da ocağın alışmasına köməyi dəymədi. Vəziyyəti Ötkəm düzəltdi. Cəld irəli yeridi və Zakir kişinin qolundan tutub dəyirmandakıların eşidə biləcəyi səslə:

- Əmi, zəhmət vermə özünə. Biz dura- dura siz niyə qalayırsız ocağı? – Sonra ocağa tərəf əyilib üfürdü, kösövlər alovlandı.

Zakir kişi Bəyin susduğunu görüb ağır- ağır sözə başladı:

- Goruna, kəfəninə qurban olum dədələrimizin. Deyir ki, qonşun pisdi, köç qurtar. Bir ev, bir kənd olsaydı nə vardı? Köçərdik, canımız qurtarardı. Bəs, dədə-babamızın yurdundan necə köçək? Heç yerə köçən deyilik… Namusumuz itin olsun əgər ayağımızı burdan bir addım qırağa qoysaq»…

Vətən torpağında mühasirədə qalmış sadə insanlar arasında heç də sadə olmayan (əslində, tarixi!) bir söhbət gedir…

«…Zakir kişi Bəyin sözünü yerə salmayıb dəyirmana qayıtdı. Əsirlikdə olduqları neçə ay ərzində ilk dəfəydi ki, qulaqlarına gülüş səsi gəldi. Qapını açmasıyla qəhqəhələrin kəsilməsi bir oldu. Deyəsən, Sədəf xala cavanlıqda başına gələnlərdən danışırdı. Zakiri görən kimi sözünə davam elədi:

- Nə qədər ah- uf olar ey? Səksənin kürəyini yerə vurmuşam, hələ ki, dünyadan doymamışam. Axşamlar yatanda Allaha dua eliyirəm ki, bircə gün də salamat qalmağıma imkan versin.

Zakir əlini yellədi:

- Hamımız sən gündəyik, ay Sədəf bacı. Bəsdi ağladıq. Elə bilirsiz ki, ermənininin zülmündən, ölümün əlindən qaçıb qurtaranlar bizdən yaxşı gündədirlər? Kim bilir, elin- obanın başına nə müsibətlər gəlir? Heç olmasa, biz dağların, meşələrin havasını uduruq. Dünyada yerindən- yurdundan dərbədər olmaqdan, didərgin düşməkdən dəhşətli heç nə yoxdur. Atamın goruna and olsun, ömrümün sonuna kimi bu dəyirmanda qalıb yaşamağı qaçqın, köçkün olmaqdan üstün bilirəm. Kim bilir, doğmalarımız, əzizlərimiz indi kimin qoltuğuna sığınıblar?

Bənövşə başına saldığı köhnə pambıq şərfi alnının üstünə sürüşdürdü:

- Zakir dayı, səksəkə içində yaşamaq zülümdür. Sabahkı aqibətimizdən heç birimiz xəbərdar deyilik. Allah eləməmiş, yenidən o kafirlərin əlinə düşərik…

Sədəf xala səsinin tonunu dəyişdi:

- Pis- pis danışma, ay qız. Yəni, deyirsiz ki, bu boyda ölkənin bir qeyrətlisi tapılmayacaq? Bir kişi çıxıb deməyəcək ki, ay millət, nə qaçhaqaçdı, nə qovhaqovdu? Torpağını, gorunu, kəfənini qoyub hara gedirsən? Yox, bala, bu torpağın, bu millətin sahibi gələcək. Mütləq gələcək. Gəlib oğraş ermənininin dərsini verəcək!..»

Yəqin ki, «oğraş erməni» ifadəsini işlətməklə nə Sədəf xalanı, nə də yazıçını vulqarizmdə günahlandırmaq mümkün deyil. Çünki bu, yalnız obraz (və müəllif!) səviyyəsində, subyektiv münasibət səviyyəsində qiymətləndiriləcək bir məsələ deyil… Söhbət böyük bir tarixi olan mental düşüncənin (və etnik- mədəni

sistemin!) ermənilíyə verdiyi kulturoloji «qiymət»dən gedir ki, onun müxtəlif dövrlər (və hadisələrlə) bağlı təzahürləri, demək olar ki, tarixi frazeoloji yaddaşı yada salmaqdan başqa bir şey deyil…

… Dəyirman sakinləri müharibə- iğtişaş dövrünün nə qədər ağrılı, prozaik anlarını yaşasalar da, istər- istəməz nə qədər sərt qanunlara, həyat tərzinə tabe olsalar da, bəzən normal insani hisslər də baş qaldırır…

Ancaq ürəyində təmənnasız (və qarşılıqlı) eşq odu alovlanan insanlar (və müəllif!) bunun mövcud şəraitə (və ədəbə!) uyğun olmadığını anlayıb hisslərini cilovlayırlar…

«…Bənövşə qollarını dirsəyə qədər çırmayıb, yumşaq əllərini təknənin içinə saldı. Bəyin donmuş ayaqlarını ovuclarının içinə aldı.

…Bənövşə artıq özündə deyildi. Sanki Kamranın nə dediyini, nədən, kimdən danışdığını eşitmirdi. Bəyin buz kimi soyuq ayaqlarını sevimli körpə kimi əlləri arasına alıb həvəslə, sevgiylə ovxaladıqca ürəyində ildırımlar çaxırdı, həm də təpədən- dırnağacan bütün bədəninə utancaq və ehtiraslı bir duyğu yayılırdı. Dirsəyəcən çırmalanmış bəmbəyaz qollarındakı güclə sezilən seyrək, ipək kimi zərif, sarışın tüklər qabarıb düzələrək xırda- xırda iynələrə çevrilirdi. Qız döşləri kimi bərk, qabarıq məmələri yumşaq, xəfif köynəyini yarıb sıçramaq istəyirdi. Bu yaraşıqlı döşlər yaralı quş kimi çırpınır, çabalayır və sığal umurdu. Bədənini çulğalamış isti səbəbindən alnını puçur- puçur tər basır, boyun- boğazından üzü aşağı süzülürdü. Ona elə gəlirdi ki, teknədəki su elə indicə əllərinin hərarətindən alovlanıb yanacaq, hər tərəfi külə döndərəcək. Bütün bunları Kamran da hiss edir, çoxdan, lap çoxdan duymadığı bir səadətin, xoşbəxtliyin içinə düşürdü. O, səmtini yadırğadığı kişilik səltənətinə yenidən sahib idi. O, hakim, hökmran idi. Bənövşəsə artıq o səltənətin quluydu, kəniziydi. Bəy dərdliydi, hərarətliydi, qızdırmalıydı. Bənövşəsə o dərdin dərmanıydı, məlhəmiydi.

Bənövşə çoxdan, lap çoxdan daşa dönmüş bütün əzalarını oyatmışdı. İçində ehtiras tüğyan edirdi. Onun ürəyi, onun əzaları, damarları bu gərginliyə dözəcəkdimi? Birdən o ürək, o əzalar bu gərginliyə, bu təşnəliyə dözmədi… Bəs onda necə?..

Kamranın vəhşiləşmiş nəzərləri Bənövşənin ürkək baxışlarıyla rastlaşdı. Elə bu zaman sanki qorxunc bir ildırım çaxdı, gözqamaşdırıcı şimşək onu yuxudan oyatdı. Vəhşi pələng təki ətrafı süzdü. Nə yaxşı ki, hərə öz işində idi. Heç kəs fikir vermirdi.

Yüz illərdən bəri damarlarında kişilik, namus, qeyrət, nəcabət qanı axan bəy nəslinin sonuncusu idi Bəy Kamran!..

- Çox sağ ol, Bənövşə bacı, aylardan bəri ayaqlarımda gəzdirdiyim ağrıları, yorğunluğu çıxardın. Sən daha zəhmət çəkmə. Elə- beləcə ayaqlarımı isti suda saxlamaq istəyirəm.

Ürəyində acı bir təəssüf hissi doğdu.

- Siz də sağ olun, Kamran qardaş. Allah nəzərini üstünüzdən əskik eləməsin.

Bənövşə təknədən əlini çəkib oradan uzaqlaşan kimi Bəy elə bil nəyisə itirdi. Heç özü də bilmədən bir anlığa fikirləşdi ki, kaş nə olaydı, bir az əvvəl suyun içində Bənövşənin göyərçin kimi çırpınan ağ, yumşaq, isti əlləri yorğun, ağrılı ayaqlarını bir az da oxşaya biləydi. İlahi, özün uzat bu anların ömrünü!..»

Bu elə münasibətlərdir ki, onun mexanizmini ancaq əsl yazıçı dərk edə bilər… Və bu cür təfsilatı (və təfərrüatı!) ilə ifadə edə bilər…

Məşhur müharibə romanlarının müəllifləri (məsələn, Mixail Şoloxovu yada salaq) insanın insanın qəniminə çevrildiyi məqamlarda elə sevgi səhnələri təsvir edirlər ki, bütün əzabları, iztirabları ilə müharibə yaddan çıxır… Nəinki müharibə, siyasət, millət, dövlət haradasa uzaqlarda əlçatmaz olan bir miraja çevrilir…

Bununla belə ədəbiyyatın hüdudu var… Mentalitet (əxlaq!) hüdudu…

Və çox keçmir ki, Bənövşə də, Bəy də özlərini nəinki qınamalı, hətta mühakimə etməli olurlar…

«…Bənövşə də onu istəyinə qovuşdurmuş, Qarabağın başına od ələndiyi illərdə bir oğul, bir qız doğmuşdu. Ərgün oğlunun adını Türkxan, qızının adını Türkan qoymuşdu.

Bənövşə bütün bunları düşündükcə qəlbi yenidən dağ- dağ olur, dəyirmandakılar, lap elə Sədəf nənənin özü də bilməsin deyə gözlərinin yaşını

içinə axıdır, ötən gecəki hərəkətlərini, keçirdiyi o dəhşətli hissləri yadına saldıqca özünü lənətləyir, xəcalətindən nə edəcəyini bilmirdi.

Kamran da qınaq içində idi. Dəyirmana qədər olan yolda kəlmə belə kəsmir, axşamkı hərəkətinə heç bir vəchlə haqq qazandıra bilmirdi: «Guya, bir igidlik göstərmişdim? Hə, deyək ki, göstərmişdim. Utanmaz- utanmaz ayağını cütləyib cavan gəlinin qarşısına niyə uzatdın? Bu yaşda niyə qara- qura fikirlərə düşdün? Oğlun Bəxtiyar, lənkəranlı balası Mustafa, Korcabulaqdan olan Ötkəm səndən min dəfə qeyrətli kişilərdi. Onların hərəkətlərindən pis bir şey anlamısanmı? Yox, anlamamışam. Çünki belə nadürüst fikirə düşməyiblər, Bənövşəyə bacı gözündə baxıblar. Gərək, yuyam günahımı. Bəlkə də səhv eləyirəm. Bəlkə Bənövşə onun çaşqın hərəkətlərini duyduğumdan xəbərsizdi?..»

Bəy Kamranla ərini itirmiş Bənövşə arasındakı hisslər, əslində, nə qədər insani olsa da, kişilikdən deyildi…

«…Bəyin istər el- oba içində, istərsə də ailəsində öyüd- nəsihət verməkdən, uzun- uzadı danışmaqdan zəhləsi gedirdi. Özünə rəva görmədiyini başqalarına da layiq bilmirdi. Ona görə əməlisalehlik kişinin əsas keyfiyyəti, əxlaqsızlıq, yüngüllük isə gözünün qənimi idi. Qonum- qonşunun, qohum-əqrəbanın dərdinə şərik olmaqdan, yükə çiyin verməkdən rahatlıq tapırdı. Qış aylarında mal- qaranın, qoyun- quzunun arıq vaxtlarında yası düşənlərin ağız açmasını gözləməz, tövlədə kökəltdiyi cöngələrdən, erkəklərdən hüzür sahibinə göndərər, «əlinə düşəndə, imkanın olanda qaytararsan», - deyib onu yük altında qoymazdı. Xəstəsi olanlara, cəriməyə düşənlərə birinci əl tutar, kəndin əli qalın sakinlərindən də eyni hərəkəti tələb edərdi. Bəlkə də bu səbəbdən Bəylikdə heç kim ehtiyac içində yaşamırdı.

Bəy dəyirmanda ağayanalığını, böyüklüyünü, ümumiyyətlə əsl kişilərə xas xasiyyətini itirə bilməzdi. Odur ki, hər addımını dönə- dönə ölçüb biçir, kimsənin könlünü bulandıracaq, qəlbini qıracaq bir eyhama yer qoymurdu. Bənövşəyə «qızım» müraciətini də təkrar- təkrar düşünüb- daşındıqdan sonra eləmişdi. Və həmin andan zavalı qadına doğma qızı kimi baxmaq hökmünü vermişdi»…

Ön cəbhədə vəziyyət belə idi…

«Arxa cəbhə»də Süleymanla Təvəkkül Abbasoğlu Bəy Kamrana necə kömək edəcəklərini müzakirə edirlər…

«- … Hə, indi hərdən özümü qoymaq istəyirəm arsız, dərd çəkməyən adamların yerinə. İstəyirəm zarafatımdan, deyib- gülməyimdən qalmayam. Amma bacarmıram. Ömür vəfa eləsə, Laçına, bizim el- obaya qayıtmayana qədər…

Süleyman dostunun vəziyyətindən mütəəssir olduğunu gizlədə bilmədi:

- Ümidsiz danışma, Abbasoğlu. Həmişə bizə müdriklik dərsi verən adamın giley- güzarı heç açmadı məni. Kamran deyirdi əlim Abbasoğluna çatsa, illərnən bu xaraba qalmış dağlarda, külü göyə sovrulmuş yurd yerlərimizdə qalar, erməninin dədəsini kürəyinə şələyər, qoymaram izləri- tozları qalsın buralarda.

Süleyman bəlkə də Abbasoğluna təsəlli kimi dedi bu sözləri.

Abbasoğlu adəti üzrə əllərini ovuşdurub üzünə, nişanəyə bircə tükü qalmamış bığ yerinə sığal çəkdi:

- İndi o Təvəkküldən əsər- əlamət qalmayıb, ay Süleyman. Əgər qalsaydı, dul arvadlar kimi dizini qucaqlayıb gözünü döyməzdi. Gedib alardı oğlunun qisasını ermənilərdən. Bu, yaşamaq deyil, Süleyman. Ölüm min kərə, milyon kərə şərəflidi belə ömür sürməkdən. Özün camaatımızın düşdüyü vəziyyətdən halısan. Biri mal tövləsinə, biri toyuq fermasına, biri quzu küzünə, digəri idarə küncünə, bir başqası uşaq bağçasına sığınıb. Milçək, ağcaqanad görməyən, həmişə təmiz hava udub, sərin su içən dağ adamları vərəmdən, qızdırmadan batıb qırılır.

- Halıyam, Abbasoğlu. Uzağa niyə gedirsən. Taxta körpüdəki qış yataqlarında azı əlli- altmış qəbrstanlıq salınıb bu neçə ayın ərzində. Zənənlərin rəngi- rufu solub, cavanların qəddi- qaməti bükülüb. Qocaların nağılları, duzlu-məzəli söhbətləri vəsiyyətlərlə, torpaq ağrılı bayatılarla əvəz olunub. Əzizini, doğmasını itirənlər dərd yerinə xəcalət çəkirlər. Nə toyumuz toydu, nə vayımız vay. Yaxşı ki, Ağcabədi camaatı bizi özlərindən ayırmır.

- Orası elədi. Tək bizim kəndin camaatı Azərbaycanın əllidən çox rayonuna dağılıb. Düzdü, xəstəyəm, amma xeyir- şər məclislərindən qalmıram. Camaatımızın çoxu Lənkəranda, Oğuzda, Bərdədə, Bakıdadı. Yerli adamlar da bizimkilərlə özlərinkilərə fərq qoymur. Heç bilmirəm bu yaxşıdı, yoxsa pis. Pis

oluram ki, millətin dərdiynən elə bil hamı barışır. Əslində gərək kimin əlində, ovcunda nəyi varsa, torpaq yolunda xərcləsin, Qarabağ ermənidə qalmasın. Odu ey, Kamran… Oğlunu da alıb yanına, kəndinin səkərini buraxmır. Bunu hamı eləsə, erməni duruş gətirərmi? Gətirə bilməz. Di gəl ki, hamıda Bəyin qeyrəti yoxdu. Vallah, billah, düz iş görmürük, sədr. O şəhid oğlumun ruhuna and olsun, ürəyimdə təpər, dizimdə taqət olsa, bircə saat da bənd almaram buralarda. Səsimə səs verən tapılsa, qoşaram iki oğlumu da onlara.

Sədr Təvəkkülün məzəmmət, giley dolu sözlərinin çoxunu çıxdı özünə:

- Abbasoğlu, sən də elə bilmə ki, Süleyman qaçıb girib Taxta körpüdəki zirzəmisinə. Mən kor qalan Bulaqlının, qolu yanına düşən şikəst balam Bəhruzumun qisasını ermənidəmi qoyacağam? Yox… yox! Şübhən olmasın, qaydıacağam ora. Yazın burnu göyərən kimi kəndin qannı cavanlarından götürüb çatdıracağam özümü Bəyə. Ləngiməyimin səbəbi Murovdan – Qırxqızın Keçili aşırımından keçməyin müşkül iş olmasıdı. Qarın az- maz əriməyini, meşələrin pöhrələnməyini gözləyirəm»…

Yaşadıqları məkanın bütün coğrafiyasını beyinlərinə, mənəviyyatlarına (və əxlaqlarına!) həkk edən insanların «yaddaş faciəsi»ni ustalıqla təqdim edən yazıçı nə qədər millidirsə, o qədər də ümumbəşər (və humanist)dir…

O, erməni qadını – əsir Vartanuşun taleyinə biganə qalmır…

«…Gecədən xeyli keçənədək dərdləşdilər. Axırda polkovnik sözünün canını dedi:

- Yeməkxananın zirzəmisində bir neçə erməni əsiri var. Bəy Kamranla kolxoz sədri Süleymanın Gorus tərəfdən gətirdikləri Vartanuş adlı qadın da onların arasındadı. Bir neçə müddətdi əsgərlərin paltarlarını yudurtdururam. Qalanları bir şeyə yaramayan erməni qəzərləridi. Sabah onların hamısını Ermənistanla sərhəddə yaxın yerdə verəcəyəm sənə. Bax, bu Kalaşnikovu da aşıracağam çiyninə. Gerisini özün bilərsən.

Həmid kişi komandirə sərt cavab vermək istəsə də fikrindən daşındı»…

Həmid kişi erməniləri «güllələməy»ə aparır…

«…Vartanuş dəyirman daşı kimi ağır addımını sürüyə- sürüyə ölümə gedirdi. Qəribədi, həm də bu qıl körpüsü qədər dar macalda istəyirdi son dəfə dağların təmiz havasını doyunca ciyərlərinə çəksin. Di gəl ürəyinin qorxunc döyüntüləri imkan vermirdi. Azı min dəfə eşitmişdi; vaxt- vədə tamam olanda insanın canını Əzrail alır. Amma hələ ki, onun təsəvvüründəki qırmızı paltaprlı Əzrail görünmürdü. Cavan əsgər Əzrayıla oxşamırdı. Bəs əli avtomatlı qoca necə? Yox, bir az əvvəl onun üz- gözündən oxunan qəddarlıqdan, cəllad qəzəbindən əlamət qalmamışdı. Hədsiz kədərli baxışında mərhəmət işığı aydın sezilirdi. Ha çalışdı, Həmid kişidə də Əzrailə bənzəyiş tapmadı. Yenə də gözünün qabağına Xoznavarın tən ortasındakı xırman yeri, bir neçə ay irəli tikintisi başa çatan kilsə gəldi. Elə həmin an da ermənilərin Azərbaycan kəndlərindən yük maşınlarına yığıb gətirdikləri, işgəncə verilən uşaq, qadın və qocaların naləsini yenidən eşitdi. Amma Əzrail yenə də gözə görünmürdü. Əzrail o vəhşilikləri eləməzdi. Əzrail canını aldığı insanların bir damla qanını belə tökmür. Qanı tökülən də insandı, qanı tökən də…

Xoznavarın isə on- on beş gündən sonra taxıl qalaqları yığılacaq xırmanı qan gölünə dönmüşdü. Biçarə Vartanuş həmin o qan gölündən badəsini doldurub şərab əvəzi başına çəkənləri gözünün qabağına gətirdi, huşunu itirib yerə yıxıldı»…

Hər bir erməni yazıçısı erməni qadınının bu qədər mükəmməl obrazını yaradan Azərbaycan yazıçısına minnətdar ola bilər. Hər şeydən əvvəl ona görə ki, burada həm böyük (insani!) ehtiram, həm mürəkkəb milli münaqişə şəraitində ədəbi təmkinlilik, həm də mentalitetə implissit (etnoqrafik!) sədaqət var…

Vartanuşa yardım edirlər…

«…Gizir enili toqqasından sallanan qumqumanın suyundan Vartanuşun üzünə, sinəsinə səpdi. Həmid kişi qırış- qırış burun dəsmalını ciblərinin hansı küncündənsə tapıb Vartanuşun sifətini yellədi ki, hava dəysin. Çürümüş əsgi qoxusu gizirin burnunu yenidən geyişdirdi, dözməyib kənara çəkildi. Vartanuşun ağzından daşlanan köpük hər iki cəhəngindən süzülüb torpağı yaşartdı.

Sürücü bayaqdan dayanıb baş verənləri seyr edir, içində gizirlə qocanı qınayırdı: «Gör erməni haxçiyindən ötrü nə canfəşanlıq göstərirlər?..» Həm də

nədənsə sinəsini deşən ittihamı unudub maşına tərəf qaçdı. Aptek çantasını gətirib açdı və balaca şüşə qabdan pambığın üstünə səpdiyi dərmanı Vartanuşun burnuna tutdu. Vartanuş diksindi, bir az özünə gəldi. Gözlərini açdı, sürücünü gördü, ona heyrətlə baxdı. Təxminən yaşıdı olan bu ağbaş kişidə də Əzrailə bənzərlik tapmadı, toxdadı»…

Və nəhayət, Vartanuşu yola salırlar ki, «rədd olub» getsin…

«…Vartanuş ayaq saxladı.

- Əsgər, qurbanın olum, icazə versən, ikicə dəqiqə nəfəsimi dərərəm, ayaqlarım sözümə baxmır. Bir də, əsgər, məni öldürəcəksənsə, bax elə bu qayanın dibində güllələ. Ya ürəyindən ayrı bir istək keçirsə, onu elə.

Vartanuş qəsdən elə oturdu ki, donunun altından ağ budları göründü. Gizir çevrilib arxa səmtə baxdı. Avtomatı qayaya söykəyib siqaret yandırdı, tüstünü ləzzətlə ciyərlərinə çəkdi. Tütün acısı gözlərini yaşartdı, amma içində baş qaldıran yanğı səngimədi.

Əsgərin qəribə davranışı qadının nəzərindən yayınmadı. Yorğunluğunu çıxarırmış kimi arxası üstə uzanda və qollarını yana açdı. Bu vəziyyətdə demək olar, onsuz da qısa olan donu bədəninin çox az hissəsini örtürdü.

Bığ yeri təzəcə tərləmiş, indiyə kimi qadın təmasının nə olduğunu bilməyən gizirin ürəyi çırpındı. Bədənindən isti gizilti keçdi. Qeyri- ixtiyari kəmərini açdı. O, heç nə düşünə bilmirdi, varlığını odlu ehtiras bürümüşdü. İndi bayaqdan hövsələsini daraldan çürük əsgi qoxusunun da fərqində deyildi. İrəli yerimək istədi və baxışları toqquşdu. Gizir utandı. Özünü elə göstərdi ki, guya kəmərindən asılmış qumqumanı çıxarmaqdan özgə niyyəti yoxdu.

Vartanuş əsgəri daha da şirnikləşdirmək üçün sağ ayağını dizinə qədər bükdü və gözlərini yumdu. Gizir tərəddüd içində çabaladı, bədəninin cızdağı çıxdı. Qumqumanı başına çəkib suyu sonuncu damlasına qədər qantardı. Vartanuşun üstünə atılmaq istədi»…

Ancaq Vartanuşdan gələn kəskin əski qoxusu onu geri itələyir.

Duman gəlir…

«…Vartanuş həmin bölünmüş, parçalanmış duman topalarının içində dalğalar arasında batmaqda olan qayıq kimi ara- sıra görünür, sonra yoxa çıxırdı. Sonuncu duman topası güclü dalğa kimi Vartanuşu ağuşuna alıb öz qatı dəryasına qərq etdi…

Duman içində itən bu iki adam hələ də bir- birinin dumanlı xəyalında var idi, biri başqasına söykənmişdi, o biri isə sadəcə gedirdi. Hara? Bunu heç Astıvas da bilə bilməzdi»…

Əslində, bunu heç bir dinin (və xalqın!) Allahı bilə bilməzdi, çünki nə «ümmət», nə də «millət» fəlsəfəsində bu barədə aydın bir hökm (mühakimə) yoxdur… Və çətin ki. bundan sonra da olsun!..

Görünür, bu dünyada heç bir ilahi kitablarda yazılmayan qaydalar da var ki, insanın öz öhdəsinə buraxılıb… Və çox az adam fikirləşir ki, insanın özü də Allahın yaratdığı bir kitabdır…

Süleyman, Novruz və Səlimoğlu Həsənin bələdçiliyilə ermənilər tərəfə keçib Bəy Kamrangilin yanına yola düşürlər…

«…Narın yağış leysana çevrilmişdi. Daha qorunmaq, paltarlarını quru saxlamaq fikrindən vaz keçmişdilər. Heç biri dinib danışmır, diz qatlamaq barədə fikirləşmirdi. Hərdən Həsən ayaq saxlayır, əlinin işarəsi ilə yoldaşlarını da dayandırmaq istəyirdi. Lakin gecənin qaranlığında nə onun əllərini, nə də işarəsini görən olurdu. Yalnız bir- birlərinə toxunanda dayanmaq lazım gəldiyini anlayır, müvazinətlərini çətinliklə saxlayırdılar.

Daha bir neçə kilometr irəlilədilər. Qarqarla yol yoldaşlığı onlara ləzzət verirdi. Qarqar isə azalmaq əvəzinə, bir az da güclü axırdı. Bu, Həsəndən başqa hamını təəccübləndirirdi»…

Yazıçı gedənlərin yol boyu rastlaşdıqları, dayandıqları yerlər barədə müfəssəl məlumat verir…

«…Xocalıya çatanda dan yeri ehmal- ehmal sökülürdü. Qarşılarına ilk çıxan bina, ermənilərin burada törətdikləri genosiddən bir neçə ay əvvəl istifadəyə verilən toxuculuq fabriki oldu. Çardağı, divarları, içinin avadanlığı sökülüb aparılmış binanın zirzəmisinə girdilər…

Buradan Xankəndinə, Şuşaya, Laçına gedən yola altmış, yetmiş addım olardı. Ancaq yolda hərəkət yox idi. Ətrafda da kimsə gözə dəymirdi. Yandırılmış, talan olunmuş, xarabazara çevrilmiş şəhərdə kimsənin görünməməsi təəccüb doğurmamalıydı. Çünki artıq burada ermənilərə gərəkli bir şey qalmamışdı.

…Günəş görünmürdü. Xocalı xarabalığı ölüm sükutu içində uyuyurdu. Həsən öz- özünə verdiyi suallar qarşısında aciz qalmışdı, boğazı, dil- dodağı qurumuşdu. Ermənilərin törətdiyi görünməmiş vəhşiliyi, xalqımızın soyqırım gününü tarixə təkcə Xocalı faciəsi adı ilə yazan kim oldu? Axı Xocalı sovetliyi dörd böyük kəndi əhatə edirdi. Xocalının böyründə Qala dərəsi, Qaçqınlar, Həsənabad niyə yaddan çıxdı? Ermənilər dörd kəndin dördünə də eyni vaxtda soxuldular, rus verən tankların, qradların, əsgərlərin köməyi ilə dördünü də eyni vaxtda yerlə- yeksan etdilər, yandırıb taladılar. Bəs bu üç kəndin adı niyə çəkilmir? Kimlərə sərfəlidir bu?..»

Rastlaşdıqları hər yer (əslində, hər bir xaraba) doğma gəlirdi…

«…Düşmən əhatəsində olduqlarını demək olar ki, unutmuşdular. Dördü də arxayın- arxayın Qaladərəsinə qalxan yolun tən ortası ilə irəliləyirdi. Asfaltı ot basmışdı, deməli, yolda çoxdan bəri gediş- gəliş olmayıb.

Kəndin girəcəyində dayandılar. Həsən muncuq kimi sözü sözə calayıb eşidənlərə imkan daxilində daha çox bilgi verməyə çalışdı; bura rəhmətlik Allahverdi kişinin evidi. Bu evdə çox ac qarınlar doyub, çox ehtiyaclar ödənib. Qana düşən, elçiliyə gedən, ev tikdirən, oğul- qız toyu eliyən məsləhət alıb ağsaqqaldan. Torpaq, təsərrüfat adamı olmasına baxmayaraq, ziyalılıq yağırdı rəftarından. Ermənilərin görməyə gözü yoxuydu kişini. Səbəbi də Ələmdar, Allahyar kimi övladların atası olması idi. İndi bu ocağın qapısı, pəncərəsi yoxdu, səs- səmir gəlmir həyət- bacadan… Bax, bu da mənim evimdi…

Kimsənin görəcəyindən ehtiyatlanmadan cibindən əl fanarını çıxarıb yandırdı. Kösöv kimi qaralmış, uçub- tökülmüş divarın üstündə gəzdirdi. Sifətini doğranmış gilənar, tut, alma, armud, zoğal ağaclarının quru kötüklərinə sürtdü. Üzü üstə yıxılıb iməkləyə- iməkləyə evə sarı süründü. Dostlarından heç biri onun

dilini çıxarıb palçıqlı torpağı necə yaladığını, necə oxşadığını görə bilmədi. Cibinə yığdığı torpaq dürməklərdən də xəbərsiz qaldılar»…

Azərbaycanlı üçün ev- həyət yalnız yaşamaq yeri deyil, həm də mövcud olmaq formasıdır. Və ev- həyətdən (ocaqdan) ayrılmaq elə bir mistik təsəvvürdür ki, yox olmağa (qeyri- mövcudluğa!) bərabərdir… Bu yalnız tarix deyil, həm də kökü bir insanın həyatından da çox- çox qədimdə olan (ancaq onun da doğulandan öz həyatı kimi daşımalı olduğu) tərcümeyi- halıdır. Ona görə də Həsənin hərəkətləri yalnız bir insanın «təsadüfi» emosiyası deyil, həm də «genetik yaddaş»ın reflekslərididir.

… Həsənin həyəcanları belə bitir…

«…Həsən yoldaşlarından xeyli arxada idi. Qolları, budaqları doğranmış tut, alma, armud, gilas ağacları, divarları kösöv kimi qaralıb çat- çat olmuş evi, həyət-bacası ilə vidalaşır, gözünə dəyən nə vardısa hamısını bir- bir qucaqlayıb təkrar-təkrar öpür, səsini çıxarmadan yup- yumşaq, dərin bir yanğıyla ağlayır, göz yaşları muncuq- muncuq olub üst- başına, bəzənsə torpağa damcılayırdı»…

Və dəyirmanın həyatı belə başlayır…

«…Kiçik çillə hökmünü göstərmişdi. Erməni əsirliyindən xilas olmuş Saleh kişi, Sədəf nənə dəyirmanda qaldıqları müddətdə xəstəlikdən yaxa qurtara bilməyən, kəlmə kəsməyə belə heyləri, hərəkətləri olmayan daha dörd nəfər dünyasını dəyişmişdi. Köhnə dəyirman sağ qalanların sığınacağı, ölənlərin isə son mənzilləri, axirət dünyaları idi. Qəbirləri yanaşı qazmışdılar. Adları yazılmış taxta parçaları başdaşlarını əvəz edirdi. Donuzluqda yalnız səmənd at qalmışdı. Bənək əvvəlki şıltaqlığından əl çəkmişdi. Başını qabaq ayaqlarının üstünə qoyub saatlarla yatır, qapı açılıb- örtüləndə tənbəl- tənbəl başını qaldırıb baxır, yenidən gözlərini yumurdu. İt həyatı qocaman bir yorğunluqla davam edirdi»…

Və bu «qocaman bir yorğunluq» yalnız itə aid deyildi…

«…Ötən hər gün üzü bahara gedən vaxtı qısaldır, Kamranı daha çox düşünməyə vadar edirdi. O, yaxşı bilirdi, Xoznavardan göndərilən dəstənin, donuz fermasındakı gözətçilərin, əsirlərin, qəbir daşları üçün Bəyliyə təşrif buyuranların, maşınların yoxa çıxması sükutla elə belə, sakitcənə ötüşməyəcək. Saqqallı

silahlılar, itkin düşənlərin yaxınları tezliklə izə düşəcəklər. Kiçik bir ehtiyatsızlıq, təsadüf nəticəsində hər an düşmənlərin girinə keçmək mümkündür. Ərzağın, xüsusilə unun tükənməsi onu daha çox darıxdırır, vəziyyətdən çıxış yolları axtarırdı. Lakin narahatçılığını biruzə vermir, dəyirmandakıları, xüsusilə Bənövşəni təşvişə salmaq istəmirdi.

Hələ meşələr tam tüklənməsə də zoğal, alça ağacları çiçək açmışdı. Sanki minlərlə, on minlərlə «ağac kişilərin» içərisində barmaqla hesablana bilən ağ paltarlı gəlinlər, qızlar nazlana- nazlana boy göstərir, baxanın içini işıqlandırırdı. Güneylərdən, quzeylərdən, hər dərədən bir bulaq qaynayır, torpağın sinəsindəki qabarlar artırdı. Ağ çayın suları duruluğunu itirmiş, indi boz- bulanıq görünür, əvvəlki həzin səsini dəyişərək kükrəyə- kükrəyə axırdı.

Aran qızı Bənövşə vüqarlı dağların, ucsuz- bucaqsız meşələrin oyanışını hər saat, hər an duyur, duyduqca da təbiətin ecazkarlığına heyran qalırdı. Ağ yağışlar yağırdı. Bu yağışların iri qar dənələrinə bənzəməsi Bənövşəni vahimələndirir, qışın yenidən qayıdacağından qorxurdu. Ancaq bu ağ yağışlar quzeydəki qalaq- qalaq qarları bəzən bircə günün içində əridib axırına çıxırdı»…

Yaz gəlirdi…

«…Gün dağın başından iki- üç boyunduruq boyu ucadaydı, yazın gəlişini hamıdan erkən duyan quşların civiltisi Ağ çayın şırıltısına qarışıb təbii ahəng yaratmışdı. Bəxtiyarla Bənövşə dəyirmanın çıxacağında qarşılaşdı. Hər ikisi ildırım vurubmuş kimi lal- dinməz dayanıb bir- birinin üzünə baxdı. Bəxtiyar çayın güney sahilindən yığdığı tər bənövşə dəstəsini ona uzadaraq: «Yaz nübarıdı, sənin üçün yığmışam», - dedi. Bənövşə diksindi, elə indicə saplağından yapışdığı bənövşə dəstəsini ixtiyarsız halda əlindən buraxdı. İlahi, eynən həmin bənövşə dəstəsidi. Ətri də, rəngi də, qoxusu da, təravəti də Ərgünün Qıjılı bulaqda verdiyi dəstədən seçilmir. Əllərinin titrəyişi kəsmədi. Yarıaçıq sinəsi tez- tez enib- qalxdı. Alnını tər basdı, ikisi də eyni vaxtda əyilib yerə düşmüş bənövşə qomuna əl uzatdı. Nəfəsləri bir- birinə toxundu. Bənövşənin sinəsinin sağındakı qara xal da elə bil bənövşə rəngində idi. Bənövşə bənövşə dəstəsini onun ovucunun içinə sıxdı. Bənövşə yaylığının ucu ilə alnındakı tər damlalarını silib pıçıltı ilə:

- Sən mənə bu bənövşə dəstəsi ilə bərabər dünyanı bağışladın, Bəxtiyar, - dedi. – Gör neçə vaxtdı bənövşədən aralı düşmüşəm. Heç bilmirəm nə deyim?..»

Müəllif yenə də qəhrəmanların taleyini hansısa ədəbi- estetik cərəyanını sxemləri ilə deyil, təbii bir inersiya ilə həll edir.

Bənövşə Bəxtiyarı tapır… Və Bəxtiyar Bənövşəni…

«…Qapının cırıltı ilə açılması, Bəxtiyarın əlində dəstələnmiş bənövşə və nərgiz gülləri ilə görünməsi nigarançılığa son qoydu. Demək olar ki, hamı ayağa qalxdı. Onlar bu hərəkətləri ilə elə bil sevinə- sevinə baharın pişvazına çıxır,onu ehtiramla qarşılayırdılar. Bəxtiyar çiçək dəstələrinin hamısını atasına uzatdı. Bəy gülümsündü:

- Səndən gözləməzdim, Bəxtiyar, haçandan qadın olan yerdə kişiyə gül bağışlayırlar? Gülləri ver Bənövşəyə…

Bənövşə gözləmədən irəli yeridi, dəstələri alıb taxçaya tərəf döndü; əvvəlcə ətrafı hisdən qapqara olmuş qəhvədana su tökdü. Lakin qəhvədanın darısqal ağzına yalnız bənövşə dəstəsi yerləşdi. Sonra fikrindən daşınıb qəhvədanın suyunu mis sərnicə boşaltdı, üstünə su əlavə edib çiçək dəstələrini bir qabda yerləşdirdi.

Bayaqdan ondan gələn bənövşə ətrindən ehtiyatlanaraq kimsənin yanından keçməyə cəsarət etməyən Bənövşə çay tədarükü gördü, əvvəlcə Kamranla Zakiri, sonra isə Bəxtiyarla Mustafanı süfrəyə dəvət elədi»…

Bənövşə yuxuya gedir…

«…Nə vaxt yuxuya getdiyini bilmədi. Doğrusu, buna yatmaq demək olmazdı. Deyəsən anasının qucağına sığınmışdı. Anası saçlarına sığal çəkir, qızını məzəmmətləyirdi: «Səndən gözləməzdim, bala, belə düşünülməmiş hərəkətləri. Gör harada eşqə düşmüsən? Allah qismətini versəydi, Ərgün kimdən əskik idi? Evin, gül parçası kimi bir cüt balan vardı. O gözəgörünməz istəsəydi, almazdı əlindən onları. Hə, tutaq, ürəyini verdiyin Bəxtiyarla lap elə bu xaraba dəyirmanda kəbinsiz, filansız evləndin. Yaxşı fikirləş, gözümün işığı. Bir kərə ermənilərin əlindən salamat qurtardın, namusuna ləkə düşməyə imkan vermədin. Bəs indən sonra yenidən düşmən əlinə keçsən necə? Nə özün xilas olarsan, nə qarnındakı. O boyda günahdan çıxmaqmı olar?»

Elə bil neçə il əvvəlki kimi dərdləşirdilər. Təkcə ana- bala kimi yox, dost, rəfiqə kimi: «Ay ana, qurbanın olum, sənə kim deyib ərə gedirəm ey? Bənövşəni deyirsənsə, girəvəyə salıb Bəxtiyara üzrxahlıq eliyərəm ki, xətrinə dəyib bənövşəni geri qaytarmadım. Bir yaz bənövşə nübarını anana bağışlamışdın, bu yazın nübar payı da Bənövşə bacına düşdü. Ana, inan, bu sözdən sonra Bəxtiyar istəkdi, sevgidi, nə bilim nədi, hamısını silib atar, ömrü boyu məni bacı gözündə görər. Tanısaydın görərdin bəy oğlu nə deməkdi».

Anasının səsi yenidən qulaqlarına doldu: «Məni düzgün başa düş, qızım. Əgər düşdüyün məhbəsdən çıxa biləcəyinə inanırsansa qərarını özün ver».

Ana- bala söhbəti bitmək bilmirdi:

- Ana, qurbanın olum, bizi Bəxtiyargil çıxaracaq burdan. Onların məqsədi kömək gözləmək deyil, kömək olmaq, düşməndən intiqam almaqdı»…

Zakir kişi Bənövşəninin yuxu gördüyünü hiss edir…

« - Elə demə, qızım! Dəstənin birinə Bəy, o birinə Bəxtiyar başçılıq edir.

- Hansı dəstədən danışırsan, Zakir dayı? Vur- tut dörd nəfərdilər…

- İş sayda deyil, bala. Tədbiri, cəsarəti olan bir kişi bəzən yüzünün qabağına durur. Amma söhbətin canını, səmtini dəyişdin, qızım. Bir halda ki, yuxumuz yoxdu, ata- bala söhbət eləyək bir az. Məni baba gözündə görürsən, düzdümü? Sən də mənim nəzərimdə nəvədən artıqsan. Neçə vaxtdı diqqət verirəm, yaşı az olsa da, Bəxtiyar ağsaqqaldı. İndiyə kimi şit hərəkəti olmayıb, yersiz danışmayıb. Ola bilsin ömrümün sonuna sanılı günlər qalıb. Öz aramızda deyirəm bu sözləri. Vallah, Salehə, Sədəfə, adlarını əməlli- başlı öyrənə bilmədiyimiz o biri dörd nəfərə həsəd aparıram; heç olmasa Qibləyə çevirdik, torpağa tapşıra bildik. Bəygilin əsirlikdən qurtardığı adamlardan hələlik ikimiz sağ qalmışıq. Sabah nə olacaq, Allah bilir. Lap tutalım sağ- salamat gedib çıxdıq erməni ayağı dəyməyən yerimizə- yurdumuza. Öləndən, itəndən xəbərsizik… Bəlkə heç sağ qalanı yoxdu, qohum- əqrabanın hamısını qırıblar? Onda necə? Kimin qapısını döyüb bir tikə çörək istəyəcəyəm, başımı hansı küncə soxacam? Burada hamınız doğma balalarım kimi ata, baba gözündə baxmısınız mənə. Ölüm haqdı, amma, bala,

baxıb görürəm ki, sizə artıq yükəm. Bir də gördün dolaşdırdım hamınızı… Onçun da axşamlar, səhərlər isbatlı bir ölüm istəyirəm özümə»…

Romanda ictimai- siyasi proseslərin, insan həyatının (və insanların!) nə qədər önəmli (və mükəmməl!)dirsə, Qarabağın təbiəti onun qədər (və bəlkə də, Vətən kimi, onlardan da artıq!) önəmli (və müqəddəs!)dir…

Gözlə görünən hər yer!.. Meşələr, çaylar, çöllər, düzlər, heyvanlar, quşlar, buludlar, bulaqlar, qayalar!..

Və dağlar…

«…Belədi dağ yerinin təbiəti. Həlimliyi də var, sərtliyi də. Elə ki, çiçəkləri ayağına döşənir, suları ürəyinin təşnəsini söndürür, havası güc, qüvvət verir, otları loğmana, təbibə çevrilir, canını qurban eləmək istəyirsən yazın bu çağına. Vay o gündən, dağların üzü dönə. Bircə anın içində başına ildırımlar yağdırar, verər azğın sellərin ağzına, dondurar boranında, çovğununda, azdırar yolunu dumanında, çənində. Çıxardar səni hövsələdən. Səfalı günlərində canın qurban verməyə hazır olduğun bu cənnət guşəli yerlərə qəzəbli çağlarında qarğayar, səni viranə, xaraba qalasan, - deyərsən. Ömür boyu təbiətinmi, yoxsa insanınmı olmazın dərəcədə dəyişkən, dönük, etibarsız çıxdığını ayırd eləməyə çalışsan da bacarmazsan. Beş dəqiqə əvvəl adamların, Bənəyin, səməndin ölümünə fitva verən təbiət bağışlamağı da bacarır. İnsanlar da belədirmi? Yox, belə deyil. Əgər belələri varsa da çox azdılar. Olanlar da dağa söykənən, dağa bərabər, dağ ürəkli adamlardı…

Bəy dağlara tərəf baxıb dedi:

- Bilirsən, qardaşoğlu, dağlar Tanrının bizim üçün yaratdığı saysız- hesabsız möcüzə- sirlərdən biridir. Allah yer üçün, insanlar üçün darıxanda dağların qonağı olur. Bilir ki, onlardan təmiz, onlardan uca, müqəddəs heç nə yaratmayıb. Dağdan dağa da fərq var. Bizim dağlarda canın azar- bezar tanımaz. Günlərlə yanını yerə verib qalsan, ağrı- acı duymazsan. İnsana zərər yetirəcək ilanı, çəyanı, cücüsü, mığmığası da olmur. Bayaq qəzəbini cilovlaya bilmirdi, qəsdimizə durmuşdu, eləmi?

- Elədi, Kamran əmi, - deyə Ötkəm cavab verdi.

- Yarımca saatdan sonra baxarsan bu ipə- sapa yatmayan Ağ çaya; suları durulub göz yaşına dönəcək, quşlara, ağaclara nəğmələr oxuyacaq. Biz də o həzin nəğməni dinləyə- dinləyə dəyirman evimizdə, erməni Vanonun qatırı ilə gətirdiyimiz azuqəni yan- yön edəcək, ölümdən qurtulduğumuza sevinəcəyik. Bircə Bəxtiyarla Mustafa sağ- salamat qayıtsınlar, hər şey düzələcək»…

Romanın qəhrəmanı kimi, müəllifi də təbiətdən cəmiyyətə qayıdır…

Süleymangilin dəstəsi böyük «insident» yaratmalı olurlar…

«… «Prezident» adamların qarşısına yeridi. Əvvəlcədən təhlükəsizlik tədbirləri gördüyündən, kəndin giriş- çıxış yollarını nəzarətdə saxlamaq üçün silahlı dəstələr göndərdiyindən arxayın- arxayın, lakin qəzəblə onu üzük qaşı kimi dövrəyə alanlara həyətdəkiləri dağıtmaq əmri verdi. Bu, onsuz da sivişib aradan çıxmaq istəyənlərə tutarlı bəhanə oldu və bir göz qürpümünda ortalıqda başıpapaqlı qalmadı. Erməni harsınları isə əmrə əhəmiyyət vermədən qatildən çox «prezidenti» qarğadılar:

- Astivats varsa, gərək sənin qanını töküb canını alaydı. Həyatımızı cəhənnəm əzabına döndərmisən.

- Səni anasız qalaydın «Ana Ermənistana» bizi birləşdirdiyin yerdə. Zəhər qatdın aşımıza. Balalarımızı əlimizdən alıb qanlarına qəltan elətdirdin.

«Prezident» ittihamlara tab gətirmədi. Həm də gözləmədiyi hörmətsizliyin qisasını almaq üçün tərs- tərs yanındakı silahlılara baxdı:

- Nə durmusuz, bədyanlar xoşunuza gəlir, deyəsən?

Himə bənd olan saqqallı zabit bir daraq gülləni çərhəyalıq edən qadınların başlarının üstündən göyə boşaltdı. Cınqırını çıxartmağa kimsədə cürət qalmadı, hamı susdu. Müharibənin dəhşətlərini ikinci dəfə yaşayan axsaq Nerses bundan sonra həyatın mənasızlığını görüb, ləngər vura- vura ortaya yeridi, çəliyini yerə döyəcləyib hamının eşidəcəyi tərzdə danışdı:

- Yox, bu müharibə Qarabağ ermənilərinə ölüm, qan, göz yaşları, bədbəxtlik və zülümdən başqa heç nə verməyəcək. Xaricdən gətirdiyiniz saqqallı muzdlular öz cibləri üçün qan tökürlər. Niyə imkan vermirsiniz əlimizin qabarı, alnımızın təri hesabına qazandığımız bir tikə çörəyimizi dincliklə yeyək? Yaxşı elədiniz

türkləri qırıb- çatmaqda, müsəlmansız Qarabağ yaratmaqda. Amma xəbəriniz yoxdur ki…

«Prezidentin» yanında şax dayanmış general Serj Sarkisyan dözməyib qışqırdı:

- Artıq əskik danışma, qoca!

Axsaq Nerses davam elədi:

- Yox, deyəcəyəm. Xəbəriniz yoxdu ki, iki- üç ilə bu torpaqlar erməni nəfəsinə həsrət qalacaq. Cavanları vermisiz güdaza. Varlı- hallılar, ixtiyar sahibləri Amerikada, Fransada mal- mülk sahibidirlər, arvad- uşaqları top, tüfəng səsindən, ölümdən- qandan uzaq şad- xürrəm yaşayırlar…

Generalın atdığı güllə Nersesin sözünü ağzında qoydu. Həyətdəkilərdən kimsə cəsarət edib qocanın bir də heç zaman qımıldanmayacaq cəsədinə yaxınlaşmadı»…

Bəyliyə – Bəy Kamrana gedən yolun qarşısını almaq mümkün deyildi…

«…Amma bütün bunlar Bəyliyə istiqamət götürən yolçulara mane ola bilmirdi. İstənilən vaxt yoldan çıxıb sinəsinə çiçəklərdən xalı sərmiş yamaclarla rahatlıqla getmək mümkün idi, Həsən tez- tez bu cür eləyirdi. Əslində otlu yamaclarla hərəkət etməyin də öz çətinliyi vardı. Şehli otlar yolçuların ayaqlarını dizəcən isladır, şeh çəkmələrinə hopub ayaqlarına keçirdi. Bu səbəbdən daşlı- kəsəkli yoldan tez- tez çıxmaq heç kimin ürəyincə deyildi.

Qırxqızın sonuncu zirvəsinə qədər olan məsafəni üç saatdan da az vaxta qət etdilər. İndi dağların Laçına açılan qucağına girmişdilər. Sərt yoxuşlar arxada qalmışdı. Yolların təhlükəsizliyinə əmin olsaydılar, buradan Fərraş kəndinə enər, sonra Çormandan, Piçənəsdən keçib işıqlanmamış Bəyliyə çatardılar.

Tərəddüdlərə Həsən son qoydu:

- Qardaşlar, mən dağların etibarını çox görmüşəm. Dağlar insanı qoruyan olur»…

Süleymangilin arxasınca düşürlər…

«…Xoznavarda kilsə gözətçisi Vanonun öldürülməsi, oradan bir qatır yükü silah- sursat, ərzaq aparılması, Xanəzən mağazasının qarəti, dörd yeniyetmənin

yoxa çıxması xəbəri ildırım sürəti ilə qonşu kəndlərə, rayon mərkəzinə çatdı. Təcili tədbirlər görülərək yollarda, keçidlərdə pusqu qoyuldu, bütün kəndlərə milis, əsgər göndərildi. Xoznavarlılar bununla kifayətlənmədilər. Alman ovçarkalarından da yaxşı iy bilən Tula Yeğişi axtarışa çıxarmaq qərarına gəldilər.

Milislərin, əsgərlərin qatıldığı səkkiz nəfərlik dəstə Tula Yeğişin ixtiyarına verildi. Tula Yeğiş də şərt kəsdi, kimliyindən asılı olmayaraq, sözündən çıxanları yerində oturdacağını, cəzasını verəcəyini dəstə üzvlərinə bildirdi. Dəstə üzvləri kilsəyə gəlib lazımi silahları götürdülər, çantalarını konserv qutuları, «Moskovskaya vodka» ilə doldurub yola çıxdılar»…

Bəxtiyar Bənövşəyə pal- paltar gətirir…

«…Dəyirmana girdilər. Bənövşə lal- dinməz küncə qısılıb dayanmışdı. Rəhmətlik Sədəfin qara sətindən olan uzun donunun titrəyişindən bədəninin sözünə baxmadığı, uçum- uçum uçalandığı hiss edilirdi. Nitqi tutulmuşdu, ona elə gəlirdi, kimsə dindirib- danışdırsa çoxdan dolmuş bulud kimi gözlərindən leysan yağacaq.

Zakir kişi də uşaqların gəlişindən çaş- baş qalmışdı. Yuxulu olduğundan, sevincini necə biruzə verəcəyini bilmirdi. Yerindən çətinliklə qalxdı, əllərini göyə açıb «İlahi, kəráminə şükür», - dedi, uşaq kimi hönkürüb ağladı. Bənövşə də ona qoşuldu.

Bəxtiyar atasından çəkinə- çəkinə:

- Belə olmaz axı, gəlməyimizi istəmirsinizsə, bu dəqiqə geri dönək, - dedi, xalat, corab bükülmüş bağlamanı Bənövşəyə verdi:

- Ermənilər it günündə yaşayırlar. Yekə bir kəndin mağazasında tapdığımız budu.

Bənövşə ikicə kəlmə deyə bildi:

- Şükür, salamatsınız»…

Süleymanla Bəy Kamran görüşürlər…

«…Səməndlə qatırın hörükləndiyi çökəkdə iki saatdan artıq gözlədilər. Axır ki, Kamran dikdirdən aşıb onlara tərəf gəldi. Süleyman ayağa qalxmadan astadan dilləndi:

- Bəy, mənəm, Süleyman. Birdən çaşıb güllə atarsan ha? Səbətkeçməzi yadına sal. İndi də girəvə mənim əllimə keçib. Silahını yerə qoy, əllərini də qaldır yuxarı.

Bəy, Süleymanı səsindən tanıdı. Sevincini gizlətməyə çalışsa da bacarmadı:

- Əvvəl- axır özünü yetirəcəyini bilirdim.

Qucaqlaşıb görüşdülər. Amma bu məhrəm dost görüşündə Novruzun seçə bilmədiyi Bəy məğrurluğu, kolxoz sədri ədası açıqca duyulurdu»…

Bu səhnə yalnız yazıçının istedadından (və üslubundan!) deyil, daha qədimlərdən – «Dədə Qorqud»dan, «Koroğlu»dan və nəhayət, «Qaçaq Nəbi»dən gəlir…

Bəy Kamran yaralanır… Ancaq Mustafa onu bıçaqla əməliyyat edir…

«…Bəy Kamran ocağın və kilsədən gətirilmiş fanarın zəif işığında gözaltı hamını nəzərdən keçirib sözünə davam elədi:

- Mənim məsləhətim belədi; Zakir kişi, Həsən, Bənövşə, Mustafa geri qaytsınlar. Dediklərimi hökm kimi qəbul etməyin. Daha kimin getmək fikri varsa, gizlətməsin. Açıq danışacağam, Zakir yaşlıdı, narahatlıq, hər dəqiqə gözlənən döyüş onu da çaşdırar, bizi də. Həsən, gəldiyinə görə çox sağ ol, dostunu darda qoymadın. Amma neyləmək olar, künc- bucağına sığındığımız bu ayı kahasından bizə nə ev olandı, nə xəstəxana. Sənin bədənindəki qırmalar çıxarılmayınca bir işə yaramayacaqsan. Uşaqları sağ- salamat müharibə zonasından çıxarsan, bəsimizdi. Bənövşənin buralarda qalmağına qıymıram. Mustafanın evlərindən çıxdığı vaxtdan neçə il keçir. Ata- anası öldüsündən, qaldısından xəbərsizdi. Yəqin fikir çəkməkdən üzülüblər. Getsin, şad eləsin onları. İndi söz sizindi.

Mustafa incikliyini gizlətmək istədi:

- Kamran əmi, mən Lənkərana qələbədən sonra dönəcəyəm! Bu, mənim borcumdu. Necə burdan gedə bilərəm ki, mən həm əsgərəm, həm də həkim…

Bənövşə boğula- boğula ağladı, göz yaşını silib dedi:

- Kamran əmi, hara, kimin yanına göndərirsən məni?

Bənövşənin sanki göz yaşlarına bələnmiş sualı Bəxtiyarın könül çırpıntılarının cavabı idi. Kamran da gözlədiyi cavabı almışdı.

Süleyman açıq danışdı:

- Bəy, əslinə qalsa, buradan müvəqqəti də olsa getməli olan sən özünsən. Qəlpənin çıxarılması hələ yaranın tam sağalması deyil. Get, müalicə olun, evdən, uşaqlardan xəbər tut. Bilirəm, hövsələn çatmayacaq, yenidən qayıdacaqsan.

- Süleyman, sən yaxşı bilirsən ki, mənim təbibim,dərmanım bu dağların şəhdi- şirəsi, havası, suyu, gülü, çiçəyi, həm də adamı karıxdıran, göz açmağa qoymayan bu leysan yağışları, dolusu, seli, zığı- palçığıdı. Elim- elatım bu dağlara dönəndə heç bir dərdim qalmayacaq, bütün yaralarım sağalacaq.

Söz güləşdirməyin yer deyildi, artıq qərar qəbul olunmuşdu. Sabah axşam Zakir kişi ilə Həsən Nersesin gahgir yabısını, Xoznavar kilsəsindəki silah anbarının indən belə heç vaxt keşiyini çəkə bilməyəcək Vanonun qatırını minib geri qayıdacaqdılar…

…Təbiətin qəzəbi, hirsi, hikkəsi soyumuşdu. Günəş yamacların ağarıb sozalmış bənizinə isti nəfəsi ilə sığal çəkir, par- par parıldayan bəyaz donunu əynindən soyundururdu. Leysan Ağ çayın sol sahilindəki qanlı izləri yuyub aparmış, səməndin, qatırın Bəylik meşəsinə gələn cığırdakı rəddini dolu döyəcləyib itirmişdi. Alçalıbulağın altındakı suyu sovulmuş dəyirmanı böyürtkən kolları qucağına alıb gizlətmişdi. Bəyliyin ocaq yeri kimi qaralan xarabalığı Kahadan ovuc içi kimi görünürdü. Hələlik nə ev tikən vardı, nə bar ağacları pöhrələmişdi.

Bəy Kamran ağrılarına məhəl qoymadan tələsirdi, dəyirmanda sönməkdə olan ocağı gur qalamağa tələsirdi… Öləziməkdə olan ocağı təzədən alışdırmaq üçün bir qucaq odun aparırdı»…

Romanın ikinci kitabı (və bütövlükdə roman) bitir…

«…Moskva televiziyasında kriminal informasiya bloku təqdim ediləndə Möhnətin beynini göynədən ağır düşüncələr nisbətən dağılaraq ağlında və baxışlarında ötəri bir aydınlıq yarandı; ən azı ekrandakı son görüntünü, aparıcının dediyi sözləri dərk etdirdi. Orada – televizorda səslənən informasiya isə sadəcə olaraq inanılası deyildi; sirri- xuda idi; möcüzə idi; başa girməyən inanılmaz mif idi…

Aparıcı Dağlıq Qarabağda baş vermiş və sonu Stavropolda bitən dəhşətli bir əhvalat barədə məlumat verirdi. Guya Bayandur kəndindən olan erməni qadını Vartanuş azərbaycanlılara əsir düşmüş, üç ay sərasər kahalarda, yarğanlarda gecələyərək otdan- ələfdən yemiş, demək olar ki, möcüzə sayəsində xilas olaraq Stavropolda yaşayan övladlarına qovuşa bilmişdi. Baş verə biləcək hər hansı xoşagəlməz hallar nəzərə alınaraq, verilişi hazırlayanlar erməni qadının sifətini pozuq kölgələrlə göstərirdilər ki, tanınmasın.

Möhnət sonsuz bir təlaş içindəydi. Üç aydan bəri az qala ilk dəfə ani, lap ani bir vaxt ərzində törətdiyi qətl, tökdüyü nahaq qan yaddaşından silindi. Yumşaq kreslodan qalxıb uçuna- uçuna:

- Vartanuş… Odur! Vallah, odur! Sergeyin bacısıdır. Daşa döndər məni, a tanrı! Səni görüm qanına bələnəsən, fələk! – dedi!..

Roman romantik bir dünyadan günümüzün reallığına enməklə də yazıçının ritm- intonasiya ustalığını bir daha nümayiş etdirir…

*

* *

«Qırxıncı otaq» (2008) romanının kitab şəklində nəşrinin (2010) ön sözündə əsərin qayə- məzmununu şərh edən maraqlı bir qeyd var…

*«...Azərbaycan parlamentinin deputatı kimi, qanunların, insan hüquqlarının keşiyində vicdanla xidmət göstərən ədalətli hüquqşünas obrazı H.Mirələmovu daim düşündürmüş və o, demokratik, hüquqi dövlət quruculuğunda müstəsna rol oynayan, xalqı qarşısında sədaqət meyarına çevrilən, saxtakarlıq, böhtan və hiylə qarşısında əyilmədən mərdliklə mübarizə aparıb, bu çətin yolda zirvələrə ucalan hakim obrazını «Qarxıncı otaq» romanında Adil Hüseynlinin simasında böyük sənətkarlıqla canlandıra bilmişdir»...*

Əsərə düşündürücü bir epiqraf verilmişdir…

*«...Həyat göy qurşağına bənzəyir: onun rənglərini görmək üçün günəş və yağış lazımdır.*

Fransız atalar sözü»…

…Artıq təqaüd yaşını haqlamış Adil Hüseynli son dəfə işə gedir…

«... Gülün- çiçəyin daşdığı, az qala daşın da göyərmək istədiyi bu yaz səhərində Ağır Cinayətlərə Dair İşlər üzrə Məhkəmənin qocaman və təcrübəli hakimi Adil Hüseynlinin qəlbində ömründən keçib gedən altmış altı yazın heç birində duymadığı məlhəm, həm də haradasa həyəcanlı, qüssəli bir hiss qərar tutmuşdu. O, düz qırx il hər gün gedib- gəldiyi bu yolu sanki ilk dəfə görür, ətrafda gözə dəyən nə vardısa, hamısını yaddaşına köçürmək istəyirdi. Bəlkə ona görə ki, qırx il ərzində gedib- gəldiyi bu yoldan bir də keçməyəcəkdi. Sözsüz ki, belə idi. Çünki o, məhz bu gün həyatının mənasını ifadə edən bir işə nöqtə qoyacaq – sonuncu dəfə ədalət kursüsünə qalxacaq, məhkəməyə sədrlik edəcəkdi»…

Adil Hüseynli Stalin hakimiyyəti illərində məhkum edilərək Sibirə sürgünə göndərilmiş atasının məktubunu xatırlayır…

«…Oğlum, mən sənin adını Adil qoyanda, dünyanı ədalətsizlik bürümüşdü. Yaşıdlarımın çoxunu məhkəməsiz- filansız ölümə məhkum edib Sibirə, sürgünə yollayırdılar. İnsanları məhv edən yalnız müharibələr, təbii fəlakətlər, aclıq- susuzluq deyil, həm də tez- tələsik, ədalətsiz qərarlar çıxaran qanun keşikçiləri, insan taleyinə laqeyd olan dövlət məmurları idi. Belə adamların xəyanəti ilə dinsiz- imansız şahidlər tapıldı, divanlar quruldu – millətin «görən gözü», «düşünən beyni» olan say- seçmə oğullar məhv edildi.

Nə bilim, bəlkə də məktubum sənə heç çatmayacaq. Amma bunu yazmağı özümə borc bilirəm. Mən bu məktubun üzünü köçürüb, dönə- dönə sənə göndərəcəyəm. İstəyirəm biləsən ki, bizim heç bir günahımız yoxdur. Düşünmə ki, nəsə bir xəyanət etmişik, şərəfsiz iş tutmuşuq. Yox, oğlum, biz laqeydliyin, xəyanətin qurbanı olmuşuq. Bilirəm, körpəsən. Amma böyüyəcəksən. Mənə söz ver ki, heç zaman ədalətsiz iş tutmayacaqsan. Unutma ki, ədalət koması yıxılan yerdə, rəzalət sarayı ucalır!»

Adil Hüseynli qəfildən üşüdüyünü hiss etdi, sanki birdən- birə Sibirin qarlı- çovğunlu qışına düşdü. Ömür sayğacı ən azı əlli il geriyə fırlandı»…

Keçən əsrin 30- cu illərində bütün ölkə miqyasında, xüsusilə Azərbaycanda ziyalılara, düşüncə- fikir adamlarına qarşı qəddar münasibəti (amansız müharibəni) xatırlayan yazıçı həmin hadisələrin- repressiyanın yalnız bilavasitə məruz qaldığı ailələrin deyil, bütövlükdə Azərbaycan xalıqının ictimai yaddaşına əbədi olaraq həkk olunduğunu göstərir.

Müəllif Adil Hüseynlinin həyatının «dib»inə enir…

«…Adil Hüseynlinin uşaqlıq həyatını qorxulu nağıl da adlandırmaq olardı. Əksər yeniyetmələr kimi əvvələr o da eşitdiklərinə inana bilmirdi; axı təbiətin insanlara verdiyi düşünmək haqqını sosializmin tam və qəti qələbəsindən danışıb, işıqlı kommunizmi arzulayan cəmiyyətdə necə tapdalamaq olardı?

Belə çıxırdı ki, birinin hər şeyi olması üçün digərlərinin azadlığı boğulmalı, haqqı tapdalanmalı idi. Niyə fitrətən istedadlı adamların haqqı vəzifə gücünə, rütbə zoruna ədalətsizcəsinə məhv edilirdi?

Hamı bir nəfər kimi şərə qarşı mübarizə aparmaq imkanından məhrum olmuşdu. Böyük imperiyanın şimal- şərqinə sarı uzanan dəmiryolları ilə istidə- soyuqda ləngər vura- vura şütüyən yük qatarları gecə- gündüz taxta vaqonlarda uzaq Sibirə «vətən xainləri»ni daşıyırdı»…

Stalin ölür, ancaq onun cəmiyyətə, insanlığa vurduğu zərbələrin ağrısı uzun zaman davam edir, hər evin, hər ailənin taleyindən keçir…

Stalin «övlad valideyn üçün cavabdeh deyil» desə də, repressiya qurbanlarının övladları da başını itirmiş, daha doğrusu, başdan məhrum edilmiş cəmiyyətin tənəsinə, qınağına, hətta təhqirlərinə məruz qaldıqlarından, ailə başçılarını itirdikləri azmış kimi, pərən- pərən düşür, ictimai mühitdən təcrid olunur, dərdlərini isə bir kimsəyə deyə bilmirdilər.

«…Dilbər orta məktəbdə gözünün ağı- qarası Adilə tay- tuşlarının «xalq düşməninin oğlu» deməsindən bərk narahat olub, onu şəhərdən uzaq – dağ kəndində yaşayan qohumlarının yanına aparmışdı. Hər halda balasını qorumaq, hər cür təhlükədən uzaqda saxlamaq üçün belə etmişdi.

Sonra… Sonra Stalin öldü. Bulanıq sular durulmağa başladı. Həmid bəraət aldı. Lakin onun bundan xəbəri olmadı. Çünki ağır və iztirablarla dolu sürgünlük

həyatı ömrünün qırx birinci ilini görməsinə imkan vermədi; güllü- çiçəkli bir yaz axşamı dünyasını dəyişdi və ölüm xəbəri gəldi. Dilbər hönkür- hönkür ağladı, acı göz yaşları artıq hər şeyi dərk edən Adilin boyun- boğazını islatdı. Bu göz yaşlarında əlçatmaz, ünyetməz həsrət, bir də yayın qızmarında belə insanın sümüklərini sızıldadan Sibir soyuğu vardı»…

Adil Hüseynli 40 №- li otaqda oturan sevmədiyi gənc həmkarı Şahin Verdiyevlə qarşılaşır…

« - Hə, kişi, adam yatanda ölülərlə, duranda dirilərlə görüşür. Siz gecələr yuxuda həbsxanaya göndərdiyiniz canilərlə çaşqa- loşka olursunuz, gündüzlər isə… - Birdən söhbəti dəyişdi: - Eşitdim bu gün son məhkəmənizdir, bax, mən dediyim sözün ağasıyam ha… Heç olmasa, son şansı əldən verməyin. Məsələni həll edin, elə bilin ki, əmanət də cibinizdədir.

Adil Hüseynli anadan «deles» doğulan bu nadanın nəyə işarə etdiyini yaxşı bilirdi. İki gün əvvəl özünü mərhəmətli adam kimi qələmə verib: «Bu işi təkrar istintaqa qaytarsanız, yaxşı xeyrimiz olacaq»,- demişdi.

- Sən hələ cavansan, bala! Çox şeyin fərqinə varmırsan. Necə deyərlər, Araz aışığından, Kür topuğundandır. Dünyaya hələ pərdələnmiş gözlərlə baxırsan. Çünki atalı- analı bəxtəvərsən. Mən, bala, uşaq vaxtı atadan, gəncliyimdə anadan, ahıl çağımda el- obamdan yetim qalmışam. Atasızlığa vərdiş etdim, anasızlığa dözdüm, amma vətənsiz – o dağlarsız yaşaya bilmirəm»…

Adil Hüseynli düşünür ki…

«…Axı belə bir boşboğaza nə desin? Bədii ədəbiyyat bir yana, o, heç qanun kitablarının da qatını açmayıb. Hələ utanmaz- utanmaz 40- cı otağın qapısına yekə, qızılı hərflərlə adını, atasının adını, soyadını yazdırıb. Stolunu otağın başına çəkib. Onun- bunun hesabına gəlin otağı kimi bərli- bəzəkli kabinet düzəldib. Özündən müştəbehin biridir. Əlacı olsa, hamının cibini töküb- töküşdürər, pul verməyəni son nəfəsinə qədər barmaqlıq arxasında saxlayar»…

Şahin isə ayrı ovqatda idi…

«…Şahin Verdiyev qocaman hakimin axırıncı «müdrik kəlamlarını» dinləyəndə, 40- cı otağın parıltılı qapısına söykənmişdi. Necə oldusa, birdən qapı cırıldayıb açıldı. Kabinetdən arxada bərli- bəzəkli otaq göründü.

Dünən içəridə- lüks otel nömrəsinə bənzəyən arxa otaqda onunla kef çəkib əylənən, özündən on beş yaş böyük olan iş ortağı ehtirasla demişdi: «Şahım, buranı lap gəlin otağı kimi bəzətmisən» - O da üzünü az qala anası yaşda olan qadına sarı tutub gülmüşdü:

- Buranı bəyəndiyinə görə çox sevindim. Bu otaq həm də bir növ bizim ofisimizdir. Bura yolun düşəndə, darıxmayasan deyə, bomba şərait yaratmaq istədim, hələ yuxarıya miniatür pilləkən də qoyduracağam. Bugün- sabah üst qatdakı otaq da ixtiyarımızda olacaq»…

Söhbət gəlib Adil Hüseynlinin üzərinə çatmışdı…

«- Sən bugündən mənim ortağım yox, kişimsən. Fransa, Rusiya, Türkiyə və İsraildəki ticarət əlaqələrimizi işə salarıq, sən də dünyanın ən varlı kişilərindən biri olarsan. Pul var, deməli, kişilik də var. Bəlkə düz demirəm? Deyirlər ən böyük kəşf insanın özünü tanımasıdır. Biz isə bu gün həm özümüzü, həm də bir- birimizi tanıdıq. Mən qaçdım, Şahin, o Adil Hüseynli ilə yenə danış, onu yola gətir, nə istəsə, boyun ol, ola bilməz ki, indiki zamanda puldan imtina edən adam tapılsın»…

Cəmiyyətin orqanizminə daraşmış parazitlərin bu əxlaqsız, mənəviyyatsız «ortaqlığ»ı o qədər özündən müştəbeh olur ki, Adil Hüseynlinin onların qarşısında davam gətirəcəyinə inanmırlar…

Romanın adı ilə bağlı təsəvvür- məlumat genişləndirilir…

«…Qapının üzərindəki 40 rəqəminin altında yazılmış «Ağır Cinayətlər üzrə Ali Məhkəmə Kollegiyasının üzvü, hüquq elmləri namizədi, hakim Şahin Xanverdi oğlu Verdiyev» lövhəsi bərq vururdu.

40 rəqəmi Adil Hüseynlinin qəlbində həmişə qəribə duyğular oyadırdı. Düz qırx il bundan əvvəl aran rayonlarından birində, ilk dəfə dövlət ittihamçısı kimi məhkəmə istintaqında iştirak etmişdi. Qırx il idi ki, şəhərdən kəndə, kənddən şəhərə canlı «cəza maşını» kimi şütüyürdü. Bu qırx ildə çox qorxulu, sirli- soraqlı

işlərin üstünü açmışdı. Zəmanəsinin div kimi güclü adamları ilə üzə- üzə gəlmişdi, qorxmamışdı, qanunun aliliyini həmişə uca tutmuşdu. Üstəlik, haqqı nahaqqa verən həmkarlarına qarşı da mübarizə aparmışdı. Di gəl ki, indi sanki gücü, qüvvəsi tükənmişdi, bir addımlığındakı 40- cı otaqda oturan gənc həmkarının oyunlarından baş açmağa həvəsi qalmamışdı. Əslində Şahin Verdiyev bura qədəm basdığı günə qədər bu binada nə təmir işləri aparılmışdı, nə də qırxıncı otaq olmuşdu. Cavan hakim varlı- karlı adamların köməyi ilə enli dəhlizin bir hissəsini kiçik iclas zalına qatıb, çox geniş kabinet düzəltdirmişdi. Adil Hüseynli təmir vaxtı burada Şahin Verdiyevi ilk dəfə görəndə, onun tikinti mühəndisi olduğunu zənn etmişdi. Şəhərdə ən böyük holdinqin, ən bahalı maşının sahibi olan bu ərköyün oğlan kənardan idarə olunan robot təsiri bağışlayırdı. Özünü mələk kimi göstərməyə çalışsa da, üz- gözündən rəhmsizlik yağırdı. Tutuquşu kimi əzbərlədiyi bu sözləri təkrar- təkrar söyləməkdən sanki xüsusi zövq alırdı:

- A kişinin oğlu, puldan imtina edən adam arxivlikdir, əlalxüsus da indiki zamanda»…

Adil Hüseynli ailəsini itirmişdi. Və bu dünyada tək qalmışdı…

«…Doxsan üçüncü ilin martında Adil Hüseynlinin ailəsi qanlı terror aktının qurbanı olmuşdu. Bir az əvvəl Şahin Verdiyevlə o qadın barəsində danışanda, birdən- birə ömür- gün yoldaşını, oğlunu- qızını xatırladı. Sinəsi göynədi. Son dəfə əzizlərinin meyitlərini qucaqlayanda – qollarını hərəkətsiz qalan oğlunun, qızının, arvadının boynuna dolayanda, içinin darmadağın olduğunu hiss etmişdi»…

Adil Hüseynli məhkum bir qadından məktub alır… Və bu məktub romanın süjetinin şaxələnməsi, kompozisiyasının zənginləşməsi üçün başlanğıc olmaqla yanaşı həm Adil Hüseynli obrazının xarakterinin açılmasında, dolğunlaşmasında, onun bir insan olaraq nə qədər mənəvi- ruhi yüksəklikdə dayanmasında, həm də Şahin Verdiyev «klan»ının ifşasında mühüm rol oynayır…

Məhkum qadının həyatı, etirafları hər hansı məhkəmə sənədindən, dəlil- sübutundan daha təsirli, daha keçərli olur.

Niyə?..

Çünki bu, həyatdır, insan həyatı…

«…Hörmətli Adil müəllim, məhkəmədən sonra həmişə düşünürdüm ki, kaş məni başa düşən bir aqil insan, bir yazıçı olaydı, başıma gələnləri bir dəftərə yazıb, məktubla ona göndərəydim, dərd- sərimi bölüşəydim.

…Əminlik hissi ilə qələmi əlimə aldım. Şübhəsiz, bu məktubu yazmağa məni vadar edən bir səbəb də bayaq dediyim kimi, sizin əsəriniz oldu. Sanki siz mənim qəribə taleyimdən xəbərdarsınız. Bilmirəm, əsərinizdə mənə acı taleyimi xatırladan günahsız qadın obrazını özünüz uydurmusunuz, yoxsa həyatda beləsi var? Hər halda qəlbən inanıram ki, əsərinizi vicdanınızın hökmü, azad ruhunuzun tələbi və haqqın səsi ilə yazmısınız. İnsanları daxilən cılızlaşdıran, kiçildən saxta münasibətlərin böyük cəmiyyətə vurduğu sağalmaz yaraların kökünü göstərməyə çalışmısınız»…

Cahanın Adil Hüseynliyə yazdığı məktub davam edir…

«…Nənəm bizə gəldi. Ərimin valideynləri ilə danışıb, onları razı salandan sonra məni özü ilə apardı. Bir il qara paltar geyindim. Sonra elmi- tədqiqat institutlarından birində işə düzəldim, necə deyərlər, başımı aşağı salıb, mənə tapşırılan işlə – yazı- pozuyla məşğul olurdum.

Bir gün sonrakı həyatımı məhv edən o adama rast gəldim. İşim ondan keçirdi. Hazırladığım materiallara baxır, rəy verir, sonra daha yuxarı instansiyalara təqdim edirdi. İşdən sonra isə… Arxamca sürünür, şirin dillər töküb məni ələ almağa çalışırdı. O, Allah- taalanın seçilmiş bəndəsi və dahi olduğuna inanırdı.

Bir dəfə mənə xaricdən sarı rəngli paltar gətirdi. «Sənə sarı çox yaraşır, çox yaraşır, - dedi. Hər dəfə «Sarı gəlin» mahnısı oxunanda, sən yadıma düşürsən. Gəl daşı tök ətəyindən. Arvadım «həftə səkkiz, mən doqquz» xaricə qastrola gedir, mənə ev qadını lazımdır, sənə ayrıca mənzil alım, gəl birlikdə yaşayaq, istədiyin vaxt işə gəl, istədiyin vaxt get. Heç kim sənə «gözün üstə qaşın var» deyə bilməz!»

Sarı paltara ikrahla baxıb: «Get tayını tap!» - dedim»…

Cahan ərə gedəndən sonra da müdiri Qaraxanlı ondan əl çəkmir, hər vəchlə intiqam almağa çalışır…

«…O ilan – iş yerindəki adamı nəzərdə tuturam – ərə getdiyimi biləndə, mənimlə vəhşi kimi davranmağa başladı; hər dəfə biz qarşılaşanda, ilan kimi fısıldayıb «quyruğu üstə qalxdı», işdə günümü göy əskiyə bükdü.

O vaxtlar gənc mütəxəssislərə növbəsiz mənzil verirdilər. Mən də sənədlərimi həmkarlar ittifaqına təqdim etmişdim, gözləyirdim. Bölgüyə bir- iki gün qalmış o ilan adam orderimi ləğv etdirdi. Sonradan eşitdim ki, həmin mənzili evinə get- gəl edən bir laboranta verdirib. Bu ilan adamın – Qaraxanlının mənə vurduğu ən ağır və sarsıdıcı zərbə idi»…

Cahanın ikinci əri Şuşanın müdafiəsində həlak olur… O, yeni doğulmuş oğlu ilə tək qalmalı olur…

Və öz həyatı barədə kitab yazıb nəşr etdirir…

« - Kitabını çox diqqətlə oxudum, - bir cümə günü, nahar fasiləsi zamanı Aşur Qaraxanlı məni şöbəmizdə yalqız görüb dedi. – Amma mənim barəmdə orada heç nə yazmamısan, eh, ay sarı gəlin, ölənə yas tutub elegiya həsr etməkdənsə, yaxşı olar ki, bir az da gələcəyin barədə düşünəsən. Nə vaxta kimi cavan canını əzab- əziyyət içində əridib puç edəcəksən? Heç fikirləşmirsənmi bu dünya beş günlükdür, sənə bir demişəm, bir də deyirəm; gəl bu inadkarlığından əl çək! İnan, sən şahlara layiq qadınsan, bircə «hə» de, səni yağ- bala tutum, süd gölündə üzdürüm.

Mən onu dinləyəndən sonra təmkinlə cavab verdim:

- Siz mənim taleyimə görə nahaq yerə narahat olursunuz, inanın, mənim həyat yoldaşım öz kasıblığı və sadəliyi ilə şahlardan da yüksəkdə dayanan bir insan idi, çünki şahlar susanda, o, sözünü dedi. Ölməyi də sevmək kimi bacarmaq lazımdır»…

Hüquq- mühafizə orqanında «çalışan» Şahin Verdiyevlə elmi müəssisəyə «rəhbərlik» edən Aşur Qaraxanlı arasında, əslində, ciddi bir fərq yoxdur – hər ikisi yeni şəraitin, cəmiyyətin demokratiya, insan haqları (və insan istedadının ortaya çıxarmaq) kimi mahiyyət etibarilə müsbət uklonlu axtarışları prosesinin «tərəddüdləri», yanılmaları nəticəsində müvəqqəti də olsa yaşamaq, mövcud olmaq

hüququ əldə etmiş işbazlardır ki, bu «hüquq»dan istifadə edib hər cür alçaqlığa, şərəfsizliyə əl atır, özlərinin «üstün» antimühitini yaratmağa çalışırlar.

Və Cahan kimi müdafiəsizlər həmişə onların ilk qurbanlarına çevrilməli olurlar…

Cahanın başına gələnlər Adil Hüseynlini təsirləndirir…

«…Adil Hüseynli Cahanın Qadınlar həbsxanasından göndərdiyi «Könül dəftəri»ni bura qədər oxuyub, dərindən köks ötürdü, yorğun gözlərini dalbadal bir neçə dəfə yumub- açdı. Elə bil kabinetində onunla üzbəüz əyləşmiş qadının xəyalı da ayağa qalxıb, getmək istədi:

- «Deyəsən sizi çox yordum, bu qəmli söhbətdən qəlbinizin necə sıxıldığını başa düşürəm»…

Adil Hüseynli siqaret tapmaq üçün dəhlizə çıxır. Və təsadüfən 40- cı otaq barədə yeni məlumat öyrənir…

«- Buyurun, ağsaqqal. – Cavan oğlan ona verdiyi siqareti alışqanla yandırdı və elə bil ürəyini boşaltmaq üçün həmsöhbət tapdığına sevindi: - O ustaları bura mən gətirmişəm. Deyilənə görə, vaxtilə o otaqdan arxiv kimi istifadə olunurmuş. Repressiya illərində Qaraxan Şubayev adlı çox zalım bir xalq hakimi orada «sürgün dəzgahı» qurubmuş. Otuz yeddinci ildən əlli üçüncü ilə qədər sayılıb-seçilən ziyalıları məhkəməsiz- filansız o «dəzgahdan» xalq düşməni kimi çıxarıb, göndərirmiş cəhənnəmin Sibir adlı filialına. El arasında adına Qaracan deyərmişlər. Qaracanın sürgünə yolladığı adamların biri də oradan sağ qayıtmayıb.

Adil Hüseynli təəccüblə:

- Sən bunları haradan bilirsən, ay bala?

- Bu ustalardan biri yaman savadlı adamdır, zalım oğlu danışanda ağzından dürr tökülür, amma yazıq xəstədir, tez- tez başı gicəllənir. Bir çətən külfətini dolandırmaq üçün kənddən şəhərə gəlib nə iş düşsə, işləyir. Mən də sürücü babayam, onları buradan ora, oradan bura daşıyıram.

Adil Hüseynlinin üz- gözündə narahatçılıq ifadəsi yarandı:

- Yəqin ki, ona ağır işdə çalışmaq olmaz. Belə vəziyyətdə öz həyatını təhlükə altına qoya bilər. Mən burada – otuz doqquzuncu otaqda oluram, xahiş edirəm, de, yanıma gəlsin, bəlkə ona yüngül bir iş tapdım»…

Adil Hüseynli son məhkmə iclasını başa vurur…

«…Məhkəmə başa çatandan sonra Adil Hüseynli kabinetinə dönüb: «Hər şey qurtardı, zənglər, hədələr, tikanlı sözlər bitdi, daha heç kim məni narahat etməyəcək», - deyə düşündü. Yenə gəlib Cahanın «Könül dəftəri»ni götürdü. Amma bir kəlmə də oxuya bilmədi – fikirləri qarışdı. Bu qırx ildə məhkəmə işində rast gəldiyi ən qəribə hadisələr bir- bir yadına düşdü. Xəyalında özü – gənc məhkəmə hakimi Adil Hüseynli də canlandı.

Yetmişinci ilin yayı idi. Müttəhimlər kürsüsündə külli miqdarda dövlət əmlakını mənimsəmiş bir kişi əyləşmişdi. Ən qəribəsi bu idi ki, belə bir adamın adında bir qəpiklik də şəxsi əmlak yox idi. Qanuna görə arvadının adına olan evi, bağı, maşını da müsadirə etmək olmazdı. Çünki dünənə kimi bir yastığa baş qoymuş ərlə- arvadın rəsmi nikahları yox idi. Bəlkə qadın keçmiş xan, bəy qızı idi, atasından ona küpə dolu qızıl miras qalmışdı? Hələ bu bir yana qalsın, qadın istintaq zamanı müttəhimi tanımadığını iddia edirdi, hətta dünyaya gətirdiyi uşaqların da ondan olmadığın deyirdi. «Yox! Bu ola bilməz!» - deyə o zaman Adil Hüseynli düşünmüşdü. Çünki nə kasıb, nə də bəy, xan qızı bu qələti edə bilməzdi…

…Adil Hüseynli müxtəlif səbəblər üzündən məhkəmə zalına gəlib çıxan çox insanlarla rastlaşmışdı; əksəriyyətin xahişi, umacağı bu idi ki, nə təmənnan var, de, yerinə yetirək, amma balamızı, ərimizi, ya da qızımızı xilas et, qıyma ki, dəmir barmaqlıqlar arxasında çürüsün. İndisə hakimliyi dövründə təsadüf etmədiyi bir halla qarşılaşmışdı. Qadın ona rüşvət təklif edirdi ki, halal ərinin cəzasını artırsın. O qədər artırsın ki, bədbəxt ömrü boyu dünya işığına həsrət qalsın. Daha nə istəyirsən? Bu da sənə yeni bir «40- cı otaq»…

Adil Hüseynlinin iş prosesində rastlaşdığı bu qəribə əhvalatlar onu yazıçı eləmişdi. Çünki insan xislətinin elə mürəkkəb nüansları var ki, onu cinayət məcəlləsinin, yaxud hər hansı qanunun maddələri ilə mühakimə, yaxud «dərk»

etmək mümkün deyil… Və burada yalnız yazıçı qələmi (və ürəyi!) kara gələ bilər…

Cahan məktub- dəftərində Qaraxanlı barədə ona deyilən sözləri xatırlayır…

«…Arvadı, qızı pozğun olan kişilər elə bilirlər ki, bütün qadınlar pis yolun yolçularıdır. Arxanca sürünən bu ilan adamın bir arvadı vardı, xalq artisti, balerina. Cavanlığında karyera naminə evlənibmiş. Günlərin bir günü cavan bir oğlana qoşulub qaçdı xaricə. Deyirlər ki, Qaraxanlı indi də o qadınla xaricdə tez- tez görüşür. Onun sayəsində şəhərdə apteklər və fransız ətriyyatı mağazaları açıb. Gözü doyur bəyəm, indi də girişib göydələn tikintisinə. Buradakı arvadı da öz kefində- damağındadır. Qaraxanlının malına- puluna şərik çıxandan sonra restoranlarda sütül oğlanlarla oturub- durur»…

Müəllif öz qəhrəmanının (və bu cür qəhrəmanların!) «həyat mətbəxi»nə, məişətinə münasibətdə nə qədər «amansız» olsa da, fikrimizcə, haqsız da deyil…

Cahan dəhşətli bir yuxu görür…

«…Bir dəfə də yuxusunda qırmızısifət bir div onu lüt- üryan vəziyyətdə bərli- bəzəkli yatağına apardı: «Demə, sənin ürəiyndən də, başından da ləzzətli yerin varmış. Sən gözəlsən, elə bil bədəninə insan əli toxunmayıb, sən hələ korlanmamısan, gəl mənim arvadım ol»

Cahan isə göz yaşı tökə- tökə ona yalvardı:

- Mən üçüncü dəfə ərə gedə bilmərəm. Divdən div törəyər, mən isə insanlara zülm edən div doğa bilmərəm. Gedin, özünüzə başqa arvad axtarın.

Sonra qırmızı div hirslənib yeddibaşlı əjdahaya döndü. İlan kimi onun çılpaq bədəninə sarıldı. Cahan ona müqavimət göstərmək üçün özündə güc axtardı:

- İnanın, bu iş sevgisiz mümkün deyil.

- Yalan danışırsan, iki dəfə ərə getmisən, ikisində də ortada sevgi- filan olmayıb.

- Sən bunları haradan bilirsən?

- Çünki ikinci dəfə məndən qorxduğun üçün tez- tələsik ailə qurdun.

- Pəvərdigara, özün mənə rəhm elə! Demək, yenə də sənsən, bəs niyə bu kökdəsən, sən adamsan, yoxsa heyvan?

- Mən insan övladıyam. Amma bu dünyadan zövq almaq üçün hər dona girirəm. Sən isə məni cin atına mindirdin, buna görə də ömürlük bu qəsrdə əsir qalacaqsan. Bax, yaxşı bax, buranın Tac- Mahaldan nəyi əskikdir?..»

Kifayət qədər ustalıqla yaradılmış səhnədir.

… Cahan Adil Hüseynliyə müraciət edir…

«…Həyatım mənəvi vuruşmalarda, yaşamaq uğrunda mübarizələrdə keçsə də, məni qatilə çevirəcək bu dəhşətli ovqatı o günə kimi yaşamamışdım. Yaşadım və məğlub oldum. İndi yaşayan mən deyiləm, mənim əvəzimdə başqa mən yaranıb, sizə məktub yazan da mənim təzə yaranmış mənimdir. Hərdən düşünürəm ki, bəlkə mən səhv elədim, başqaları kimi firavan, rahat yaşaya bilərdim, əgər boyun əysəydim, şəxsiyyətimi alçaltsaydım. Qaraxanlının mənim yerimə təyin etdirdiyi o kök qadının heç vaxt maddi sıxıntısı olmamışdı. Buna baxmayaraq, o, vəzifə ələ keçirməkdən savayı heç nə barədə düşünmürdü»…

Əlbəttə, Cahanın «hərdən düşünürəm ki» ifadəsiylə başlayan tərəddüdləri tamamilə keçicidir. Çünki o heç zaman o cür yaşaya bilməzdi… Və bu da insan təbiətinin paradokslarından biridir ki, hətta ən iradəli adamlar da bəzən «bəlkə»lər qarşısında qalmalı olur, öz həqiqətlərinə «şübhə» edirlər…

Qaraxanlının alçaqlığı o həddə çatır ki, Cahanın gəlinini – Nərgizi ələ keçirmək fikrinə düşür…

Və Qaraxanlı ilə Cahan arasında belə bir telefon söhbəti olur…

« - Hə… Necəsən, ay Cahan, əldəqayırma alim dediyin adam istəsə, sənin o təzə- tər Nərgiz gülünü kolundan qoparıb bircə anın içində istədiyi büllur güldanın içinə qoya bilər.

- Yooox! – dedim. – Bu ola bilməz!

- Bir az səbir et, mən sənə Parisdən – Eyfel qülləsinin ən uca nöqtəsindən zəng edirəm. Növbəti dəfə buradan Nərgizin səsini eşidəcəksən. Neyləyim, sarı gəlin, axı mən sənə dünyanı vermək istədim, sən isə əvəzində rişxənd etdin. Bu

dünyada nə mey gördün, nə meyxanə. Nərgiz çox cavandır, gəl, sən onu da özün kimi tərki-dünya etmə.

- Kəs səsini, alçaq, bir də onun adını tutma! Yoxsa…

- Yoxsa nə? Məni də keçmiş ərlərin kimi cəhənnəmə vasil edəcəksən? Sənə bir söz deyim: alimlər sübut ediblər ki, iki əri özündən əvvəl ölən qadının mütləq sağalmaz bir xəstəliyi var. Hazırlaş, bu dəfə sənin dərdinin dərmanını tapıb gətirəcəyəm»…

Həyat, doğrudan da, mürəkkəbdir…

«…Orada – qoşunların təmas xəttində Taleh kimi oğullar cırtdan boyda düşmənin ölüm saçan gülləlləri ilə üz- üzə dayanıb vətəni qoruyurdular. Burada isə kasıb, namuslu ana, abırlı- ismətli gəlini Nərgizə qısılıb yeddibaşlı, bəlkə də yeddiarxalı əjdaha ilə üzbəüz qalmışdı, ləyaqətini, ailəsinin şərəfini biznesmen-alim Aşur Qaraxanlının təcavüzündən qorumaq üçün yol axtarırdı:

- Pərvərdigara, sənə yalvarıram, bizə kömək ol, oğlumu düşmən gülləsindən, gəlinimlə məni Qaraxanlının zülmündən qoru!..»

Cahan davam edir…

«…Bir də ana qəlbim hərdən dilə gəlib deyir ki, məni son sözümü deməyə qoymayan, azadlıqdan məhrum edən, soyadı Verdiyev olan o cavan hakim də körpəliyində ana südü əmməyib. Kim bilir, bəlkə anasının döşlərində süd olmayıb? Ya da valideynləri onu uşaq evindən götürüblər? Bəlkə də siz bu barədə daha çox məlumata maliksiniz»…

Və beləliklə Cahanın acı taleyində Aşur Qaraxanlı ilə Şahin Verdiyev, tamamilə təbii olaraq, birləşirlər; bu təcavüzkar meyllərin (və şəxslərin) elə bir sosial assosiasiyasıdır ki, müəllifin təxəyyülünə gəlməyə bilməzdi… Hər şeydən əvvəl ona görə ki, Hüseynbala Mirələmov o yazıçılardandır ki, həyatı bütün mümkün genişliyi, çoxtərəfliliyi və polifoniyası ilə görə, hiss edə, hətta eşidə bilir…

… Cahan onu villasına dəvət edən Qaraxanlını elə oradaca öldürmək qərarına gəlsə də, tərəddüdlər, həyəcanlar keçirir…

«…Yarım saatdan çox idi ki, o, piyada gedirdi. Qəlbindən gələn səs bir an belə ara vermirdi: «Yox, sənin cəzan cinayətindən müdhiş olacaq. Külək bərk əsəndə, yarpaq xışıltısı eşidəndə diksinəcəksən. Hər gecə yuxunda kəsilmiş baş görəcəksən. Bir başsız bədən səni kabus kimi addımbaaddım izləyəcək. Onun tüklü barmaqlarındakı uzun dırnaqları daş divarlara sürtülə- sürtülə böyüyəcək, iti caynaqlara dönəcək. Sən isə o caynaqlara keçməyəsən deyə, elə hey qaçacaqsan. Qaçmaqdan bezəcəksən. Bir gün otağında yuyunanda sakitləşdiyini, yorğunluğunun çıxdığını, rahat nəfəs aldığını zənn edəcəksən. Və birdən o kabus səni orada – vannanın içindəcə yaxalayacaq. Sən çığıra- çığıra, vannaya axan qanının içində boğulacaqsan. Allah bilir, cəsədini nə vaxt tapacaqlar? Bilməyəcəklər ki, intihar etmisən, yoxsa səni qətlə yetiriblər. Bəs indi hara gedirsən? Sən nə fikrə gəldiyinin fərqindəsənmi, Cahan? Sənin kimi ziyalı bir qadının bu alaqaranlıq gecənin qoynunda nə işi var? Səni az- çox tanıyanların haqqında nə düşünəcəyi heç vecinə deyil? «Cahan fahişənin biri imiş, ya da cəlladın yekəsi imiş» deməyəcəklərmi?..»

…Bütün tərəddüdlərinə baxmayaraq Cahan Qaraxanlını qətlə yetirir…

«…Qaraxanlının qolları arasında özünü lüt vəziyyətdə görməsi qara bəxtin ona rəva gördüyü ən böyük kinayə idi. O, Qaraxanlı tərəfindən iyirmi ildə başına gətirilən oyunları bir- bir xatırladı. Bir az bundan əvvəl qəbzəsindən bərk- bərk yapışdığı qılınc xalçanın üstünə düşmüşdü.

Qaraxanlı dizləri üstə çökmüşdü. Onun başı Cahanın yaraşıqlı, dolu baldırlarının arasında top kimi görünürdü.

Bu işin nə ilə qurtaracağını gözləməyə səbri çatmayan Cahanın gözləri birdən qarşı divarda Corconenin «Yudif» tablosuna sataşdı. Zərif və incə əlində qılınc tutmuş qadın, ayaqları altındakı kəsilmiş başa baxırdı.

Cahan vaxt udmaq naminə tez- tez «Yaxşıdır, yaxşıdır» deyirdi – sanki yırtıcı heyvanı tələyə salmaq üçün dil tökürdü.

- Allah, özün günahımdan keç! – Cahan bu sözləri ucadan deyəndə, xalçanın üstündəki qılınc artıq əlində idi. Və qorxulu nağılın içinə necə girdiyini hiss

etmədi. Qılıncı var gücü ilə Qaraxanlının kürəyinə sapladı. Və Qaraxanlıdan dəhşətli bir bağırtı qopdu. Qan hər tərəfi bürüdü. Cahan nağıldan çıxdı:

- Aman Allah, mən nə etdim?!

Bir neçə dəqiqə təəccüb və dəhşət içində dayandı – gözünü qanı axan meyitdən çəkə bilmədi.

Cahan onun sünnətsiz olduğunu yalnız indi anladı və dəhşət içində ayağa qalxıb, tələsik paltarını geyindi:

Onu mənmi öldürdüm?! Yox! O, öz- özünə qənim oldu!..»

Cahan polisə gedib hadisə barəsində mülumat verir…

Romanın mükəmməl obrazları, sənətkarlıqla işlənmiş təsvirləri ilə yanaşı ustalıqla qurulmuş kompozisiyası da əsərin ideya- məzmununun bütün enerjisi ilə qavranılmasında əhəmiyyətli estetik- texnoloji hadisədir…

… Cahan yenidən Adil Hüseynliyə müraciət edir…

«…İstintaq zamanı gəlinimin adı hallanmasın deyə, son telefon yazışmaları barədə heç nə demədim. Qaraxanlını öldürməyimin əsas səbəblərini söyləsəydim, həm uzun- uzadı vaxt aparacaqdı, həm də… Canımdan artıq sevdiyim oğlumun xoşbəxtliyinə kölgə salacaqdım.

Doğma oğlum məndən üz döndərib. Haqqı var. Kim istəyər ki, anası qatil olsun? Nərgiz mənə qulaq asıb yaxşı ki, əsl həqiqəti bugünə qədər ondan gtizlədib. Baxın, aylar- illər ötüb keçsə də, mən adına  qanunlar toplusu deyilən bir anlayışdan da üstün olan ədalətin sorağındayam. Elə bir ədalət ki, oğlumu, gəlinimi, üzünü görmədiyim nəvəmi mənə qaytarsın.

Əvvəl mənə elə gəlirdi ki, haqsız yerə iztirab çəkən qadını anlayan bir Allah bəndəsini indiki zamanda çətin taparam. Buna görə özümü bədbəxt sanırdım. «Olacağa çarə yoxdur», - deyib susurdum. Amma sizin əsərinizin mənə bəxş etdiyi inam hissini duymaq, ümid çırağını görmək bir həbsxana guşəsində də xoşbəxtlikdir. Bəlkə bunu xoşbəxtlik saymağım doğru deyil? Axı siz mənim həbsxanada başıma gələnlərdən xəbərdar deyilsiniz. Gələcək kitablarınız üçün bunun gərəkli olacağını nəzərə alıb, bir- iki kəlmə də bu barədə yazmaq istəyirəm»…

Cahan həbsxanada manyak bir qadın məhbusla qarşı- qarşıya gəlməyə məcbur olur… Və ümumiyyətlə, həbsxana həyatının təsviri oxucuda nə qədər ağrılı, nə qədər ikrahedici hisslər, təsəvvürlər oyatsa da, müəllifi qınamaq ağıla belə gəlmir… Yazıçı öz missiyasını axıracan məsuliyyətlə yerinə yetirir.

Pisdir, yaxşıdır (təbii ki, pisdir, eybəcərdir…), ancaq həyatın özüdür, uydurma deyil…

Və hətta klassik poetika nəzəriyyəsi baxımından estetikdir…

«…Bax beləcə, demə görəcək günlərim qabaqda imiş. Qəlbimdə «Yağışdan çıxıb, yağmura düşdüm», - deyə o gün xeyli düşüncələrə daldım. Görünür «Keçmişi inkar etmək olmur» deyəndə, Folkner çox haqlı imiş; axı keçmiş istəsək də, istəməsək də, həmişə bizimlədir, o ölü deyil, hətta bizim düşündüyümüz kimi bizdən uzaqda da deyil. İndi mən də elə bilirdim ki, Qaraxanlı ölməyib, bir zaman gördüyüm yuxum çin olub. Həmin yuxu barədə yazmışdım, o yuxuda Nərgizə sarılmaq istəyən ilanın başını kəsdiyim yerdən yenidən baş çıxırdı. İndi də sanki Qaraxanlı zühur edib qadın cildinə girmişdi və gəlib məni burada – cəhənnəmi xatırladan yerdə tapmışdı»…

Pırpızsaçlı qadın gecə özünü Cahanın yanına verir…

«- Sevişmək üçün gözəl gecədir – səs elə bil qeybdən gəldi. Sonra tünd fransız ətrinin qoxusu ətrafı bürüdü.

Pırpızsaçlı qadın alaqaranlıqda onu ağuşuna alıb tumarlayırdı. Elə bil kobud kişi əlinə bənzəyən əlinə göydən qəfil düşmüş qiymətli büllur qabı salıb sındırmaqdan qorxurdu. Cahanın çılpaq belini qucaqlayıb qulağına əttökən sözlər pıçıldayırdı. O, barmaqları ilə də, dili ilə də Cahanı ovsunlayırdı. Boynundan, boğazından, döşlərindən öpürdü. «Gözəlim», «canım» sözləri pırpızsaçlı qadının kobudluğuna incəlik, zəriflik çiləmişdi. İlk dəfə görəndə az qala iyrəndiyi qadının, indi ehtirasdan pıçıldadığı sözlər sanki həzin və incə səslənirdi. Əli Cahanın döşlərindən göbəyinə, sonra aşağı sürüşdükcə, inilti səsləri gecənin qaranlığına qarışırdı. Bir anlığa müti görkəm aldığının fərqinə varmadan qımıldanmadı.

…Səhər açılanda üzü xəcalətdən qıpqırmızı idi. Cahan başını aşağı dikmişdi. Elə bilirdi bütün dünya onun gecə yaşadığı macəradan xəbərdardır. Utandığından səhər yeməyinə getmək istəmədi»…

Cahan güzgü parçası ilə damarını kəsir, arıq olduğuna görə «silotka» adlandırılan həbsxana yoldaşı onu xilas edir…

Pırpızsaçlı qadın – Sultan ona hədiyyələr göndərir. Cahan də özünü elə aparır ki, guya onun «sevgilisi» olmaq təklifiylə razılaşıb…

«…Silotkə dəmir barmaqlıqlar arxasından sanki dünyanın hər üzünü görmüş yaşlı adamlar kimi danışırdı. Ona diqqətlə qulaq asan Cahan, iki yol ayrıcında qalmışdı; əlinə ilk fürsət düşən kimi ya özünü asmaq, ya da var gücünü toplayıb, pırpızsaçlı qadını öldürmək»…

Şübhə yoxdur ki, Sultan, müəyyən mənada, Aşur Qaraxanlının «qadın cinsi» idi.

Cahan həbsxananın həyatində gəzən, hərəkətləri ilə özünün «şef» olduğunu nümayiş etdirən Sultana yaxınlaşıb hədiyyələr üçün təşəkkürünü bildirəndən sonra «nəvazişlə» (eynilə Qaraxanlıya yaxınlaşdığı kimi) söhbətə başlayır…

« - Doğrudan sən oğru Klaranın nəvəsisən?

Sultan:

- Necə bəyəm, sən buna şəkk edirsən? Mənim yatdığım çarpayı onunkudur. Bu həbsxananın hər divarına nənəmin nəfəsi hopub.

…Cahan duruxdu və «islanmışın yağışdan nə qorxusu?» məsəli yadına düşdü.

Cahan cəld əlindəki siqareti pırpızsaçlı qadının yanağına basdı. Pırpızsaçlı qadın çığırdı. Cahan o biri əlindəki güzgü qırığını onun boğazına dirədi:

- Məndən uzaq ol! Yoxsa bu saat qırtlağını kəsərəm! Buradan meyitin çıxar! Sənin kimi ifritəyə görə ömürlük burada çürümək istəmirəm! Bildin?

Pırpızsaçlı qadın Cahana müqavimət göstərmədi. Cahan güzgü parçasını pırpızsaçlı qadının boğazından çəkən kimi, o, əlini Cahanın saçına atdı. Haraya gələnlər əvvəl tamaşa etdilər, sonra ayırmaq bəhanəsiylə pırpızsaçlı qadının əl-qolunu tutdular. Cahan da boş durmadı, onu yetərincə döydü, üzünü güzgü qırığı

ilə neçə yerdən cızıb qanatdı. Bayaqdan Cahanı qınayanlar, onun bu hünərini ağıllarına da gətirməyənlər, qəribə bir həmrəylik göstərdilər»…

Münaqişə onunla qurtarır ki…

«…Pırpızsaçlı qadını xəstəxanaya, Cahanı isə təkadamlıq kameraya apardılar»…

Məhkum qadın bir daha hakimə – Adil Hüseynliyə müraciət etməli olur…

«…Azadlıqda keçən günlər ömür, buradakı günlər isə sadəcə zamandır. İndi burada – həbsxana hücrəsinə çökən gecələr qara div kimi üstümə gəlir. Hissimi, duyğumu tilsimə salıb gəmirir, ömrümü öz ehtiraslarının qurbanına çevirir. Gündüzlər isə tənha bir guşəyə çəkilib, sizin xəyalınızla həmsöhbət oluram. Ətrafımda baş verənlərə sizin gözünüzlə baxmağa çalışıram. Məhkəmə hakimləri bir yana qalsın, deyəsən bu məmləkətdə Qadın həbsxanası adlı bir cəzaçəkmə müəssisəsinin olduğunu yazıçılarımız, şairlərimiz də unudublar. Axı buradakıların çoxu anadır. Və bu anaların əksəriyyətinin məcburiyyət qarşısında qalıb törətdiyi cinayətin müqabilində çəkdikləri cəza çox ağırdır. Məgər onları ana doğmayıb?..»

Cahan türk mənşəli rus şairəsi Anna Axmatovanın taleyini, tərcümeyi- halını yada saldıqdan sonra davam edir…

«…Görünür, zaman dəyişsə də, qorxulu nağıllar davam edir, div mifoloji obraz olsa da, nənələrimiz bizi uşaqlıq çağlarımızdan gələcəkdə üzləşə biləcəyimiz ən böyük maneələrlə mübarizəyə hazırlayırmışlar. Xalq nağıllarımızın qəhrəmanları divlərin qırxıncı otaqda saxladığı günahsız qızları xilas etmək üçün vuruşub, təkcə qılınc gücünə deyil, həm də ağlına, zəkasına güvənib sehrli tilsimi sındırıblar. Şər sahibinin xətasından nicat yolu tapmağın qırx yolu varsa, qırxını da sınaqdan keçiriblər.

Mən sizin təzə kitabınıza o tilsimli qırxıncı otağın açarı kimi baxıram. Axı siz həm də təcrübəli hakimsiniz. Oğlumu, gəlinimi, üzünü görmədiyim nəvəmi mənə qaytara bilərsiniz»…

O, tədqiqatçı – folklorşünas olduğundan nitqi, mülahizələri tamamilə təbii səslənir. Və xalq bədii- mifoloji təfəkkürünün dərinliklərindən gəlməklə müasir ictimai (insani!) münasibətlərin «daxili sirləri»nə də baş vurur…

Cahan «Könül dəftəri»ni emosional olduğu qədər də ürəkdən gəldiyi heç şübhə doğurmayan sözlərlə qurtarır…

«…İndi daha özümü o qədər də bədbəxt, köməksiz hiss etmirəm. Çünki sizə inanıram, məsləyinizə güvənirəm. Bəlkə də mənim uşaqlıqda xəyalımda canlandırdığım, yolunu gözlədiyim cəngavər elə sizsiniz? Bilirəm, xəyalların bəxş etdiyi duyğuları real həyatda yaşamaq heç kəsə nəsib olmur. Amma içimdə qəribə bir hiss var. Mənə aydın olmayan bu hissə nə ad verim, heç özüm də bilmirəm. Siz qəlbimin başında, ürəyimin taxt- tacında qərartutan haqq aşiqisiniz. Ömrüm boyu duaçınız olacağam. Həmişə başınızın üstündə kövrək, həssas bir qəlbin duası olduğunu unutmayın!..

İstər kasıb olsun, istər varlı, istər həbsxana həyatı yaşasın, istərsə tam azad olsun – hər bir insanın ömrü yazılmamış kitabdır. Qoy mənim sizə təqdim etdiyim «Könül dəftəri» əsasında yazacağınız romanın adı dillər əzbəri olsun.

Sizdən çox sevdiyim bir şeir parçası ilə ayrılıram:

Ümidim, pənahım, sevincim otaq,
Düzərəm uc- uca ömür sapını.
Mən sənə gəlirəm, qırxıncı otaq,
Gəlirəm, döyməyə sirli qapını.

Qırxıncı otağa gedir yol gedən,
Əsir boyunları ağır yük, samı.
Hamının yeganə pənahı sənsən,
Səninçün yaşayır dünyada hamı»…

Adil Hüseynli evinə gələndə tükürpədici bir mənzərə ilə qarşılaşır…

«… Açarları çıxarıb qapını açanda birdən yolboyu ona hakim olan fikirdən ayrıldı. Mənzilin qapısı açıq idi. Ehtiyat açarları qonşu qadına verdiyindən, arxayınçılıqla içəri keçdi. İçəridə gördüyü mənzərə onu dəhşətə gətirdi, mənzilin altını üstünə çevirmişdilər. İş otağı kimi istifadə etdiyi qonaq otağının ortasında – əli- qolu iplə bağlanmış qonşu qadının gözləri kəlləsinə çıxmışdı, onun ağzını

yapışqanlı kağızla bağlamışdılar. Adil Hüseynli qadının qollarını açıb, ehtiyatla ağızndan yapışqanlı lenti qopardı.

- Onlar məni aldatdılar… - deyərək qonşu qadın qorxu içində sayıqlayırmış kimi dilləndi, - su sayğacına baxmaq üçün açarı istədilər. Soruşdum, siz axı haradan bilirsiniz ki, bu mənzilin açarı məndədir? Dedilər ki, birinci dəfə deyil ki, biz bura gəlirik. Sayğacın rəqəmlərini yazıb gedəcəyik. İçəri keçəndən sonra məni süpürləyib, əl- qolumu bağladılar, otaqda nəsə axtarmağa  başladılar»…

Polis çağrılır…

… «Qırxıncı otağın sirri» kitabının əlyazmasının oğurlanması Adil Hüseynliyə böyük mənəvi zərbə olsa da, o özünü təmkinli apardı. Onu ruhdan salmağa çalışan adamların qorxaqlığı qəbinə nəsə bir toxtaqlır verdi. Amma getdikcə o toxtaqlıq hissindən əsər- əlamət qalmadı. İtkinin ağırlığından ürəyi sıxılmağa başladı. Üzərində gecə- gündüz  çalışdığı əlyazmanın oğurlanması onun üçün ölmək, ya da öldürülmək kimi bir şey idi.

Polis zabiti dedi:

- Biz oğrunun tapılması üçün əlimizdən gələni edəcəyik, möhtərəm hakim!..»

Qonşu qadın – Əsmər arvad  Adil Hüseynliyə məsləhət görür ki, tənha yaşamaq çətindir, evlənsin…

«- Rəhmətliyin oğlu, bu iş- güc başınızı elə qatmışdı ki, dönüb ətrafınıza belə baxmırdınız. İndi ki, təqaüdə çıxmısınız, bekarsınız.

- Nə bekar, canım, iş hələ bundan sonra başlayır»…

Adil Hüseynli Cahanı həbsxanadan qurtarmaq üçün cəhd göstərməyə başlayır…

«…Ertəsi gün Adil Hüseynli Cahanın «Könül dəftəri»nin surətini çıxarıb, bir köhnə tanışının  yanına yollandı; o, bu qadını uzun müddət idi ki, tanıyırdı. Hələ tələbəlik illərindən qadınların hüquq müdafiəçisi kimi ad qazanmışdı. Qadın Adil Hüseynlini diqqətlə dinlədi, onun şəhid ailəsinin başçısı olan bir qadına verilən cəzanın yüngülləşdirilməsinə dair təşəbbüsünü  alqışladı.

- Adil müəllim, əmin olun, Cahan Axundovanın əfv edilənlərin siyahısına salınması üçün əlimdən gələni edəcəyəm.

- Çox sağ olun, inanıram ki, o, əfv olunacaq.

Adil Hüseynli elə həmin gün bu şad xəbəri Cahana çatdırmaq üçün qızılgüldən buket düzəltdirib Qadınlar həbsxanasına yollandı»…

Həbsxanada gözləmədiyi bir vəziyyətlə qarşılaşır…

«…Qadınlar həbsxanasında Novruz bayramı münasibəti ilə şənlik keçirilirdi. Təzə- təzə estrada ulduzu kimi tanınan, amma ifa etdiyi mahnılardan çox, qalmaqallarla şou- biznes aləminin gündəmindən düşməyən müğənni Mənzər Qarasevda həbsxananın həyətində məhkum qadınlara bayram konserti verirdi. Bu müğənni Cahan xanımın «Könül dəftəri»ndə haqqında bəhs elədiyi həmin qarayanız böhtançı idi. Görəsən bura gəlməkdə niyyəti nə idi? Axı o da Cahanın könlünə acı tikan batıran adamlardan biri idi.

- Dəvət etməyə başqa müğənni tapmadınız?- deyə soruşdu.

Həbsxana rəisi Adil müəllimi tanıyıb, onun da tədbirə qatılmasını xahiş etdi:

- Bilirsiniz, biz onu dəvət etməmişik, özü gəlib, görünür reklam üçün. Ancaq mən heç bir çəkilişə icazə vermədim. Dəvət etdiyimiz müğənnilər isə müxtəlif bəhanələrlə hələlik öz çıxışlarının təxirə salınmasını istəyirlər»…

Mənzər Qarasevda qəmli mahnılar ifa edəndən sonra üzünü məhbus qadınlara tutur, gözünü yumub gül ağzını açır…

« - Baxın, yaxşı- yaxşı baxın, aranızda mənim çox abırlı, çox imkanlı sponsorumu qətlə yetirən bir qadın əyləşib. Üz- gözündən lap mələyə oxşayır. Əgər o mənim sponsorumu öldürməsəydi, bu il Yevrovijin müsabiqəsində ölkəmizi təmsil edən ilk müğənni mən olacaqdım.

Bu zaman üçüncü sırada əyləşən Cahan ayağa qalxıb uzaqlaşmaq istəyəndə, rəis onu saxladı və müğənni qadına tərəf baxıb başını buladı. Yəni «Buna gərək yox idi. Daha bəsdir!»

Amma müğənni dil qəfəsə qoymurdu, az qala bağırırdı:

- Baxın, mənim kliplərimin çəkilişinə kömək edən, dünya şöhrətli bir alimi – Aşur Qaraxanlını qətlə yetirən həmin bu qadındır. Onu da deyim ki, bu qadın bir zamanlar mənim nişanlımı da əlimdən almağa çalışırdı.

Bu zaman rəis mikrofonu ondan alıb, hamını sakitləşdirdi:

- Sakit olun, inanın, bu sözləri Mənzər xanım şou xatirinə deyir, özü də etiraf etdi ki, onu populyarlaşdıran bu cür şeylərdir. Ona görə də mən bu gün onun özü ilə gətirdiyi qəzetçiləri, televiziya əməkdaşlarını içəri buraxmadım. İndi sizin qarşınızda müzakirəsini keçirəcəyimiz romanın müəllifi Adil müəllim çıxış edəcək. Xahiş edirəm, ona təkcə məhkum qadınlar deyil, əgər hövsələsi çatsa, Mənzər xanım da diqqətlə qulaq assın.

Hamı əl çaldı. Qəzəbdən don geyinmiş Mənzər Qarasevda kötək yemiş it kimi zingildəyib «səhnənin» kənarına çəkildi»…

Adil Hüseynli çıxış edib Cahanın «Könül dəftəri»ndən tanış olduğu həqiqətləri məhkumlara çatdırır. Gətirdiyi gül dəstəsini Cahana verir… Mütəəssir olmuş Cahan isə…

«- Ən böyük cəza – unudulmaqdır. İnsan işıqlı sabahlara ümidini üzməməlidir. Tanrı şükürlər olsun ki, həyatımızı saf, əqidəli, ədalətli və namuslu insanlardan xali etməmişdir – dedi.

Məhbus qadınlar sanki onu yenidən görürmüş kimi əl çaldılar.

Hamı Mənzər Qarasevdaya həqarətlə baxıb, onu hoydu- hoyduya götürdü»…

Adil Hüseynli Cahanın oğlu Talehlə görüşüb anası haqqındakı həqiqətlərdən onu xəbərdar edir, Talehi razı salır ki, anası ilə görüşsün…

Və belə bir qərara gəlir ki, «Qırxıncı otağın sirri» kitabının əlyazmasının oğurlanması Şahin Verdiyevin işidir…

«…Birdən Adil Hüseynlinin ağlına qəribə fikir gəldi; son söhbətlərində Şahin Verdiyevə deyəsən axı «Qırxıncı otağın sirri» adlı kitab üzərində işlədiyini söyləmişdi.

Əlyazmanın oğurlanmasının Şahin Verdiyevlə əlaqəsi ola bilərdimi? Ötən gecə saatlarla düşünsə də, bu fikir ağlından belə keçməmişdi. Görəsən niyə? Bəlkə

düşünmüşdü ki, «atalı- analı bəxtəvər» dediyi bu adam ana uşağıdır, məgər onu şəxsi biznesdən – alverdən savayı bir şey maraqlandırırmı? Qəribədir, həmişə «anam belə dedi», «anam elə etdi» deyən bu cavan oğlan niyə bir dəfə də atasının adını çəkmirdi? Bəs görəsən Şahin Verdiyevin yanına tez- tez gəlib- gedən o qadın kimdir?

«Mənə elə gəlir ki, onu haradasa görmüşəm. Demək, nağıl içində bir nağıl da var; bu nağılın adı hələlik «Qara Şahinlə naməlum qadının nağılı» olsun». Bəlkə qırxıncı otağın tilsimi elə o naməlum qadınla bağlıdır?..»

Şahin Verdiyev Adil Hüseynlini öz kabinetinə – qırxıncı otağa dəvət edir…

Və ondan xahiş eləyir ki, Cahan məsələsindən əl çəksin… Şahinin hökmüylə həbs olunmuş bu qadının bəraət alması onun «ədliyyə karyerası»nı korlayardı…

Bu vaxta qədər üstüörtülü gedən ziddiyyətlər tədricən üzə çıxmağa, hətta sürətlə kuliminasiya nöqtəsinə yaxınlaşmağa başlayır…

… «Sən bir bunun iştahasına bax! Gör ha, karyeradan dəm vurur!»

Şahin Verdiyev də «Bu adam mənim yoluma haradan çıxdı? Bu kötüyü kökündən çıxarıb bir kənara atmaq lazımdır, vaxt itirmək əbəsdir. Tərsliyindən bir cüt balasını qurban vermədimi?» - deyə düşündü. Axırda dedi:

- Deməli, xoşluqla bu yalançı detektivçi rolunu oynamaqdan əl çəkmək niyyətiniz yoxdur?

- Yalançı detektiv? – qocaman hakimin üzünə yayılan təbəssüm müsahibini çaşdırdı. O, bir də «detektiv nağıl?» - deyə təkrar soruşub, başını buladı.

- Dünən bu sözü anan da dedi, mən heç vaxt bu janrda kitab yazmamışam. Sən isə cavan oğlan, bundan sonra mənim evimdən oğurlatdığın qovluğumu qaytarsan da, xeyri yoxdur.

Şahin Verdiyevin üzündə çaşqınlıq ifadə edən süni bir heyrət göründü…

…Söhbətin bu yerində birdən elə bil otaqda zəlzələ baş verdi; təzə yan divar durduğu yerdəcə uçub töküldü. Tikilinin bu cür uçmasını yalnız möcüzə adlandırmaq olardı. Yuxarı mərtəbənin köhnə divarı aşmışdı. Binanın bu qədim-qayım divarı, çəkici, baltanı əvəz edən yeni texnologiyaların əcaib səs- küyünə sanki qiyam etmişdi.

Toz- duman qırxıncı otağı bürüyəndə, yuxarı mərtəbənin divarlarının oyuğundakı rəflərdən çürük ipləri qopmuş qovluqlar Adil Hüseynlinin ayağının altına töküldü, məhkəmə işlərinə aid saralmış vərəqlər ora- bura səpələndi. Vərəqlərin bir topası qocaman hakimin əlində idi. O, tozdan boğula- boğula öskürür, vərəqləri az qala gözünə təpirmiş kimi oxuyurdu. Və bir an içində sanki ikinci, daha ağır bir divar uçub bu dəfə onun başına töküldü…

- Bu nədir? Sibirə sürgün olunanların siyahısı?.. Xalq hakimi Qaraxan Şubayev… Dayan, dayan, axı bu adı o gün mənə burda bir nəfər söyləmişdi…

O gün dəhlizdə siqaret aldığı cavan adamın söhbətini xatırladı: «Ustalardan biri savad yiyəsidir. Zalım oğlu, danışanda ağzından dürr tökülür».

Həmin dəqiqələrdə atasını uzaq Sibirə aparan qatarın fit səsi gəldi qulağına. Sonra metroda – ölüm stansiyasında bir vaqon insan meyiti canlandı gözlərinin önündə»…

Və məlum olur ki…

«…Sən demə, Cahanın özünün və gəlininin namusunu qorumaq naminə qətlə yetirdiyi Qaraxanlı, repressiya illərində Adil Hüseynlinin müharibə veteranı olan atasını «pantürkist» kimi qələmə verib Sibirə göndərən Qaraxan Şubayevin oğlu imiş»...

Müəllif aforizmə gedir…

… «Dünyada hansı daşdan hörülürsə- hörülsün, elə bir möhkəm divar tapılmaz ki, insan iradəsinin və fikrinin qarşısını alsın (Jorji Amadu)!..»

Qaraxanlının və («qaraxanlıların») iç üzü açılır…

«..Televiziya kanalları Qaraxanlının şəhərətrafı villalarını, xarici markalı maşınlarını göstərib, ona milyonlarla qazanc gətirən «Qara XAN» holdinqin törətdiyi iqtisadi cinayətləri sadalayırdı.

- Bu cür iblis elm aləminə necə soxulubmuş?

- Ağzında iblis deyirsən. Görəsən yer üzündə Qaraxanlı kimi nə qədər fırıldaqçı ədalət məhkəməsindən gizlənir?

- Bəs Qaraxanlının varisi kimdir? Holdinqin işinə kim başçılıq edir?

- Qaraxanlı barədə ən qorxulu, ən dəhşətli fakt onun xarici ölkələrdəki terror dəstələrinə dəstək verən mafioz qüvvələrlə əlaqəsi idi»…

Cahan həbsxanadan azad edilir… Və o, axşam üstü yaxınlıqdakı parkda Adil Hüseynli ilə görüşə gedir…

«…Budur, Adil Hüseynli qoltuğunda qovluq Xiyabanın ortası ilə ona tərəf addımlayır. Sanki o, Cahanın deyil, körpə şəhid balasını başının üstünə alıb göyə qaldırmış Ana heykəlinin görüşünə tələsirdi.

Birdən dizləri üstə yerə düşdü, köksündən axan qana bulaşmış əlini irəli uzadıb, ağzını açdı, Cahana nəsə demək istədi və şüşələrinə polietilen təbəqə çəkilmiş, nömrəsi- nişanı bilinməyən qırmızı «Hammer» maşınına sarı baxdı. Ağır döyüş maşınına bənzəyən avtomobilin pəncərəsindən tapança ilə qocaman hakimi hədəf olan maskalı adam ikinci gülləni də atandan sonra, iri kabinənin dərinliyində görünməz oldu.

Maşın tapançadan çıxan güllə sürəti ilə də uzaqlaşdı. Hər şey bir göz qırpımında baş verdiyindən Cahan çaşıb qaldı. Özünü ələ almağa çalışıb, meyitə yaxınlaşdı, yerə düşmüş qovluğu götürdü. Üzərində «Qırxıncı otağın sirri» yazılmışdı»…

… Cahan Adil Hüseynli qətlə yetiriləndə əlindəki qovluğu – «Qırxıncı otağın sirri»ni götürüb evə gətirmişdi…

«…Günlər, həftələr ağır- ağır ötüb keçirdi. Televiziyanın kriminal xəbərlərində dönə- dönə göstərilsə də, pəncərələri qara plyonkalı maşından hələ də soraq verən yox idi. Maşın qeybə çəkilmişdi.

Cahan ümidsiz halda yatağa düşdü, xəstələnib inildədi, bağrının başı yandı, saatlarla hıçqıra- hıçqıra ağladı. Vicdan əzabı çəkə- çəkə gecə- gündüz özünü qınadı: «Onu mənim üzümdən qətlə yetirdilər».

Oğlu, gəlini nə qədər təsəlli versələr də, hər dəfə Adil Hüseynlinin məzarının qarşısında dayananda, ürəyində öz- özü ilə haqq- hesab aparırdı: «Kaş o dəftəri heç göndərməyəydim».

Qarapaltarlı qadını qəbirstanlıqda görən adamlar onu qocaman hakimin həyat yoldaşı, bacısı, bir sözlə, əzizi zənn edirdilər»…

Adil Hüseynli vəsiyyətnamə yazıb qonşu Əsmər arvada veribmiş…

«…Cahan vəsiyyətnaməni qadının barmaqları arasından ehmalca götürdü, oxudu. Mərhum, mənzili qonşu qadına, qiymətli və nadir kitabları Cahana vəsiyyət etmişdi. Yazıq, dəfn və başdaşı üçün ayırdığı pulun miqdarını da göstərmişdi. Vəsiyyətnamədə həm də xahiş olunurdu ki, indiyə qədər işıq üzü görməyən əsərləri bir kitabda cəmlənib nəşr edilsin»…

Cahan sövq- təbii ilə Qaraxanlının villasına tərəf gedir. Və Adil Hüseynlinin qətlə yetirildiyi maşını villanın qarşısında görür…

Təsadüfən rastlaşdığı tanış qadından öyrənir ki, indi bu evdə Qaraxanlının varisi – Şahin Verdiyev yaşayır…

«…Sonra qadın səsinin tonunu xeyli aşağı salıb, pıçıltıdan azca yüksək bir səslə Cahana, Qaraxanlının «Qara XAN» holdinqinin adının dəyişib «Qara Şahin» olmasından, vaxtilə ona «nişanlımı əlimdən almısan», - deyə şər atan müğənni qadının televiziyada bu firmanın məhsullarını reklam eləməsindən danışdı. Eşitdikləri onun düşüncəsini də, taqətini də sanki yenidən bərpa etdi. Elə bil içində işıq yandı. Bədənini qəribə hərarət bürüdü. Sanki aylar uzunu bu dəqiqəni gözləmişdi. Elə bil otuz ildə itirdiyi hər şeyi bircə anda tapdı»…

…Cahan haqq- ədalət uğrunda mübarizəni axıra çatdıracaqdı…

«…Adil Hüseynlinin «Qırxıncı otağın sirri» kitabı böyük əks- səda doğurmuşdu. Kitabın çapı Cahanı sevindirsə də, qəlbini məyusluqdan xilas edə bilməmişdi.

Onun telefonu susmaq bilmirdi…

«…Sən dəli olmusan, əcəlin çatıb yoxsa?»

Və yaxud zəng edib deyirdilər:

«…Mərdlik və qəhrəmanlıq yalnız nağıllarda olur…»

«…Mən sənin həbsxanada nə oyunlardan çıxdığını yaxşı bilirəm. Nəvənin taleyini düşün, ailəni düşün!»

Səslər bir- birinə qarışırdı, hədəyə- qorxuya çevrilirdi, gülləyə dönürdü, ox kimi bağrının başını yaralayırdı. Səslər beynində əks- səda verirdi:

«…Görünür Adil Hüseynli üçün çox darıxmısan…»

«…Necə bilirsən, görən o səninçün yer saxlayıbmı?»

«…Sən dünyanın ən bədbəxt qadınısan!»

«…Münasibətdə olduğun bütün kişiləri itirmisən!» - Deyəsən danışanın kimliyi son anda ona aydın oldu.

«…Kaş həmin gün ikinizi də gəbərdərdim!!!»

Cahanın səsi elə bil quyunun dibində cingildədi:

- Məncə, siz buna hələ çox təəssüf edəcəksiniz!..»

Taleh öz maşınında anasını Adil Hüseynlinin qətli ilə bağlı keçiriləcək məhkəməyə aparır… Cahan düşüncələr içində idi…

«…Radio reklam verirdi.

«Mən sizin sevimliniz Mənzər Qarasevdayam. Cavan qalmağıma və qastrol səfərlərimin təşkilinə görə «Qara Şahin» kompaniyasına minnətdaram.

Əziz qadınlar, əgər gözəl görünmək istəyirsinizsə, siz də bu kompaniyanın məhsullarından istifadə edin. Gözəl və güclü olmaq istəyirsinizcə, «Qara Şahin»ə güvənin.

Taleh istehza edib:

- Əxlaqına bərəkallah! – dedi və radionu söndürdü»…

Roman nağıl təhkiyə- intonasiya ilə bitir…

«…Uzun sürən məhkəmə hava qaralanda bitdi. Hökm oxundu. Atalar demişkən: «Nə tökərsən aşına, o da çıxar qaşığına». Nə isə…

Cahan isə hamıdan fərqli olaraq, məhkəmə zalından qələbə məğrurluğu ilə ayrıldı. Bütün iclas boyu bir an belə əlindən yerə qoymadığı «Qırxıncı otağın sirri» kitabı ədalət haqqında qüdrətli bir dastan idi. Əlbəttə, o dastanın şərikli müəlliflərindən biri də o idi – qırmızı paltarlı qadın.

Biri var idi, biri yox idi, bu dünyada Adil Hüseynli adlı mərd, ədalətli, cəsarətli bir hakim vardı…

Məhkəmə binasının girişindəki mərmər döşənmiş meydançaya çıxarkən, yumşaq saçları və qırmızı donunun yaxalığı dənizdən əsən küləyin təsiri ilə tərpənən Cahanın yeni nağılı başlanırdı.

Heç kim bilməsə də, o özü yaxşı bilirdi ki, bu nağıl ömrünün sonuna qədər onunla bərabər olacaqdır. Və ömrü bitənə kimi bu nağılı heç bir nağıl əvəz edə bilməyəcəkdir. Onun həyatında Adil Hüseynlini başqa heç bir kəsin əvəz edə bilmədiyi kimi»…

*

*  *

Hüseynbala Mirələmovun «Sonuncu fateh» (2007- 2011) roman- trilogiyası böyük Azərbaycan cahangir- sərkərdəsi, dövlət xadimi Nadir şah Əfşara (və Azərbaycan xalqının tarixinin mürəkkəb olduğu qədər də məzmunlu- mündərəcəli bir dövrünə) həsr olunmuşdur…

Müəllif əsəri atasının və anasının əziz xatirəsinə ithaf etmişdir.

Romanın ayrıca kitab kimi nəşrinin (2012) annotasiyasında deyilir…

«Çağdaş Azərbaycan ədəbiyyatının tanınmış nümayəndəsi, yazıçı-dramaturq Hüseynbala Mirələmovun qələmə aldığı bu tarixi roman XVIII əsrdə dünyanın ən görkəmli sərkərdələrindən biri, Orta Şərqin və Asiyanın sonuncu fatehi sayılan, türk cahangiri Nadir şah Əfşara həsr olunmuşdur. Əsərin məzmunu ilə tanış olduqda aydın olur ki, Makedoniyalı İsgəndər, Çingiz xan, Əmir Teymur, Şah İsmayıl Xətai kimi dünya şöhrətli hökmdarlarla bir sırada dayanan, öz qılıncıyla möhtəşəm Əfşar imperatorluğunu qurmuş Nadir şahın hərbi- siyasi fəaliyyətini və faciəvi sonluqla bitən həyatını oxucuların gözləri önündə canlandırmaq üçün müəllif bu tarixi şəxsiyyət haqqında mövcud olan bir çox qiymətli tədqiqat əsərləinə və sənədli qaynaqlara müraciət etmişdir. Bu tarixi faktlar əsasında müəllif əsərdə bir- birindən maraqlı döyüş səhnələri, dolğun xarakterlər yaratmağa və bədii- fəlsəfi ümumiləşdirmələr aparmağa nail olmuşdur».

Kitaba ön söz yazaraq romanı geniş təhlil etmiş akademik Bəkir Nəbiyev göstərir ki…

«Dövlət müstəqilliyinə ədəbilik qovuşmuş Azərbaycan Respublikası bu gün özünün intibah dövrünü yaşayır və həyatın bütün sahələrində tariximizin heç bir

mərhələsində görünməmiş yeni, bir- birindən vacib əlamətdar uğurlara imza atır. Belə bir vaxtda millət öz yaradıcı ziyalılarının gözləri ilə bir növ arxaya boylanır, xalq taleyinin yaxın- uzaq keçmişinə müraciət edib mühüm hadisələri, ötən əsrin görkəmli dövlət, elm, ədəbiyyat, incəsənət xadimlərinin həyat və fəaliyyətini yaşadığımız çağın intibah işığında yenidən araşdırır və qiymətləndirir. Bu, çox təbii yüksək dərəcədə zəruri bir prosesdir. Atilladan üzü bəri ən görkəmli türk böyüklərinə həsr edilmiş elmi və bədii əsərlərin son illərdə bir sıra maraqlı nümunələrinin meydana gəlməsi xalqın özünün mənəvi istəklərindən doğduğu üçün məqbul, maraqlı və arzuedilən bir əlamətdir. Görkəmli ədibimiz Hüseynbala Mirələmovun «Sonuncu fateh» romanı da bu mənəvi tələbatdan doğan qiymətli əsərlərdən biridir»…

Akademik yazır…

«…Romanın fəsillərində dönə- dönə göstərildiyi kimi, Nadir özünün türk oğlu türk olduğunu heç vaxt unutmurdu. O, vaxtilə Sədrəzəmə göndərdiyi xüsusi məktubda iftixar duyğusu ilə göstərməyi lazım bilmişdi ki, damarlarında türk qanı axdığı üçün Osmanlı imperiyasının rəmzi, xilafətin baş şəhəri, paytaxtı olan Bağdadı müharibə meydanına çevirmək, şəhəri tutmaq istəmir; açıqca yazırdı ki, onu bu sülh danışıqlarına sövq edən əsas səbəb Osmanlıların da, Nadirin mənsub olduğu qədim Azərbaycan əfşarlarının da «eyni kökdən», «türk soyundan» olmalarıdır.

Nadir şah romanda öz zəmanəsinin ən populyar dövlət xadimi və sərkərdələrindən biri kimi canlandırılmışdır. Həm də onu təkcə yuxarı dairələr və xarici ölkələrin liderləri yüksək qiymətləndirmir. Nadir şah sadə insanlar, sıravi vətən övladları arasında məşhurdur, nüfuzlu, arzuedilən və sözü eşidilən bir qoşun başçısı, ictimai xadimdir»…

Akademik Bəkir Nəbiyev roman- trilogiya müəllifinin sənətkarlığını xüsusi qeyd edir…

«…Nadir xan Nadir şaha çevrilənə və Hindistanı qəhr edənə qədər çox döyüşlər udub, çox qalalar alıb, çox ölkələrə uğurlu yürüşlər edib… Romanın səhifələrində öz təravətli əksini tapmış bu hadisələrin hamısını bir müxtəsər

məqalədə əhatə edib qiymətləndirmək mümkün deyil. Lakin qeyd etmək vacibdir ki, yazıçı böyük səriştə ilə, tarixi faktlara sədaqətlə, eyni zamanda öz bədii təxəyyülünün hesabına yaratdığı inandırıcı təfərrüatlarla bütün bu mühüm səfər, yürüş, kampaniya və vuruşların mükəmməl mənzərəsini lazımi səviyyədə çəkə bilmiş, onları mərkəzi obrazın – Nadir şahın xarakterinin açılması üçün inandırıcı bədii vasitələr kimi mənalandırmışdır»…

Bəkir Nəbiyevin fikrincə…

«…Romandakı hadisələri şərti olaraq iki yerə bölüb demək olar ki, onlardan biri yuxarıda da qeyd edildiyi kimi, Nadirin hərbi yürüşlərinin təfsilatı, realist təsvirindən ibarətdir. Bu yürüşlərin strateji zəruriliyinin müzakirəsi, hərbi əməliyyatlara geniş hazırlıq, yeni canlı qüvvə toplayıb silahlandırmaq, digər təminat- təchizat məsələlərini yoluna qoymaq, nəhayət konkret döyüş, şücaət, qəhrəmanlıq səhnələrinin təsviri – Nadirin özünün həm qələbənin təşkilatçısı olması, həm də şəxsi qəhrəmanlıq nümunələri göstərməsi bu təsvirlərin əsasını təşkil edir. Bunlar bir orta əsr fatehinə həsr olunmuş epik əsər üçün tamamilə təbii və çox da vacib məqamlardır.

Əsərdəki bu müstəqil təqdimatlardan heç də az əhəmiyyətli olmayan digər təsvirlər isə obrazların, birinci növbədə isə, əlbəttə, Nadir şahın özünün daxili aləminin, onun fikir və duyğular dünyasının açılıb göstərilməsi ilə bağlıdır. Yazıçı hər iki sahədə səriştə sahibi olduğunu nümayiş etdirir. Lakin etiraf edək ki, hökmdar psixologiyasının açılmasına yönəlmiş təsvirlər heç də vuruş səhnəsinin təsvirindən geri qalmır və oxucu bunların hamısını məmnuniyyətlə izləyir. Burada artıq ədibin irəliki roman və povestlərində dönə- dönə sınaqlardan çıxmış psixoloji təşrih ustalığı da öz səmərəsini göstərir»…

Akademik Bəkir Nəbiyev müstəqillik dövrünə qədər Nadir şah haqqında yazılmış əsərlərdə bu böyük tarixi şəxsiyyətə tendensiyalı münasibətin olduğunu xatırladır…

«…N.Nərimanovun pyesindən (söhbət «Nadir şah» pyesindən gedir – N.C.) təqribən 35 il sonra S.Vurğun özünün «ellər atası»na həsr edilmiş bir şeirində Stalini dünyanın İskəndər, Neron, Çingiz xan,Teymurləng, Napoleon kimi

fatehlərilə müqayisə edərək bu misralarla da Nadir şahı, «Sonuncu fateh»in baş qəhrəmanını yada salmışdır:

Nadirin qəlbini kin yedi qat- qat,
Dilindən qoymadı şöhrət sözünü.
Taxtından- tacından qorxan o cəllad
Doğma balasının tökdü gözünü.

Tarix kitablarında Nadirə güllə atılmasında oğlu vəliəhd Rzaqulu xanın əli, tapşırığı olduğunu göstərənlər də var, onun bu işdən xəbərsiz olduğunu təsdiq edənlər də. Əlbəttə, insanı dünya işığına həsrət qoymaq, özəlliklə də oğlunun gözlərini çıxartdırmaq heç nə ilə müqayisəyə gəlməyən ağır bir cinayətdir. Cəzalanandan sonra Rzaqulunun atasına dediyi yeganə cümlə mənbələrdə yazılanlara görə bu olub ki, «Sən tək mənim gözümü çıxartmadın, bütün səltənəti kor qoydun»…

Və akademik əlavə edir…

… «Stalin» şeirindən təqribən 75 il sonra Azərbaycanda sözü gedən mövzuda ilk roman yazan H.Mirələmov indi artıq çoxlarına məlum olan tarix kitablarını araşdırıb və öz variantının məntiqi bədii əsaslandırmasını verib. Biz onun romanında Nadirin dəfələrlə öz yaxınlarına, ən çox da vəliəhd Rzaquluya etdiyi nəsihətlərinin şahidi oluruq.

…Rzaqulu xanın namərdliyi, rəyasətpərəstliyi o həddə çatır ki, atasını öldürmək üçün tətikçi (snayper, killer) tutur. Birinci cəhd elə başlanğıcdan pozulur, ikinci cəhd zamanı isə snayperin gülləsi əl barmağını yaralayır… Elə buna görə də hakimiyyət ehtirası gündən- günə şiddətlənən Rzaqulu xanın öz atası ilə son görüş zamanı qorxudan nitqi tutulur. Nadir şah onu vəliəhdlikdən çıxarıb yerinə digər oğlu Nəsrulla xanı təyin edir»…

Roman- trilogiyanın birinci kitabına Nadir Şah Əfşarın sözlərindən onun xarakterini açan belə bir maraqlı epiqraf verilmişdir ki, «sərkərdənin sarayı – atının yəhəridir»…

Və birinci kitab proloqla başlanır…

«Gecənin bir aləmində – süd kimi ay işığında sükuta qərq olmuş çöllü-biyabanda əvvəlcə at kişnərtisi, sonra da araba təkərlərinin cırıltısı eşidildi. Ətəyində seyrək ağaclar görünən təpənin başında bayquş aram- aram ulamağa başladı.

Nadir şahın keşiyini çəkən mühafizəçilərdən biri yaşlı, digəri cavan iki qızılbaş döyüşçüsü yaxınlıqda bir ins- cins görünməsə də, hər ehtimala qarşı, gözətçi məntəqəsindən üzüaşağı endilər, əllərində tutduqları məşəlin gur işığında ətrafı ələk- vələk etdilər»…

Nadir şahın ağır dövrü idi…

«…Hicri 1160- cı il girər- girməz Nadir şahın ciddi- cəhdlə qurduğu Əfşarlar səltənətini üsyanlar dalğası bürümüşdü. Azərbaycanda, Xarəzmdə, Bəlxdə, İraqda, Kirmanşahda… baş verən iğtişaşlar get- gedə ölkənin hər tərəfinə yayılırdı.

Axır vaxtlar ruhdan düşmüş Nadir şah gününün çoxunu hərəmxanasında keçirirdi. Bir də hərəmxanasının yanında yəhərlənmiş at saxlayırdı, işdi- şayəd, yaxın ətrafı ona sui- qəsd etməyə cəhd göstərsə, ya dara düşmək təhlükəsi yaransa, ürəyini sıxan bütün qara- qura şübhələrin pəncəsindən qurtarmaq üçün atının yəhərinə qalxıb, düz Kəlat qalasına çapacaqdı. Artıq şahzadələri və sevimli nəvəsi Şahruhu ora yollamışdı. İndi «Deyəsən mənim üçün də vaxt yetişib» - deyə özü-özlüyündə ora getməyi qərara almışdı. O, sayılması heç vədə mümkün olmayan pulunu, ləl- cəvahiratını, başqa dəyərli əşyalarını Kəlat qalasında tikdirdiyi böyük xəzinə binasında saxlayırdı»…

Hökmdar daha da ehtiyatlı olmuşdu… Həm böyük uğurların – cahanşümül qələbələrin, həm də böyük məğlubiyyətin – ölümün, sui- qəsdin Tanrının hökmü ilə baş verdiyinə inanan Nadir şah sövqi- təbii, daha dorusu Allahın ona bəxş etdiyi bəsirətlə hiss edirdi ki, tale ona artıq nə isə yaxşı bir şey vəd eləmir…

«…Hər gecə gözətçilərini dəyişdirirdi. Növbəti axşam kimlərin ona keşik çəkəcəyini heç kim bilmirdi. Nadir şah fikirləşirdi ki, məgər elə bu – ehtiyatın özü təhlükənin gözlənildiyinə dəlalət etmirmi? Görünür, yuxumda gördüklərim ayıq-sayıq olmağıma bir işarədir. Yuxuda qılıncını əlindən almışdılar…

Yaxşı ki Sitarə yuxudan oyandı. O, Nadir şahın fikirli halda oturduğunu görüb, tələsik zər- zibalı paltarını geyindi, saçlarını arxaya yığaraq, örpəyini başına bağladı, sonra üz- gözünə gülab vurub yerindən qalxdı:

- Sabahınız xeyir, qibleyi- aləm, - dedi.

Nadir şah susqun baxışlarla gənc qadını sakitcə salamladı. Başını yırğalayıb, qəlbində: «Sabahınız xeyir… Təzə gün başlayır demək… Allah üzümüzə açılan hər sabahımızı qoy xeyrə calasın! Bəndəyə qalsa, bu işıqlı sabahları zülmətə döndərər, gen dünyanı da bışımıza dar edər… Əgər o bəndə sənin doğma əqrabandırsa, onu öz əllərinlə bəsləyib, boya- başa, şan- şövkətə çatdırıbsansa, onda, daha pis…» - deyə düşündü və qalxıb ağır addımlarla çadırdan çıxdı»…

Birinci kitabın birinci hissəsi Nadir şahın öz uşaqlıq illərini xatırlaması ilə başlayır…

Nadir artıq qocalmış, gözləri yaxşı görməyən atası İmamqulu ilə ilxı otarır. Və birdən ildırım çaxır, boran qopur, ilxı qorxub haragəldi qaçır…

«…Balaca Nadir özünü atların qabağına atıb, amiranə səslə:

- Dayan! – deyib qışqırdı. – Göydəmir hara gedirsən? Qaşqa dur, geri qayıt! – Qəribdəir ki, ilxı da ipə- sapa yatıb dururdu. Ürkmüş at istənilən an onu ayaqları altına alıb, bir göz qırpımında çığnaya bilərdi. Uca boyu, amiranə səsi, bir də Pələnglə Bəbirin zəhmi ilxının canındakı qorxunu səngidə bildi…

Balaca Nadirin keyfi durulmuşdu. Fikirləşdi ki, əgər özümə güvənib, yüzə yaxın şüursuz atı istədiyim səmtə yönəldə bildimsə, onda, şüurlu insanları niyə idarə edə bilməyim? İstəsəm ətrafıma bundan qat- qat çox insan yığa bilərəmmi?.. Axı atam elə indicə yuxuda şah olduğumu görməmişdimi?

Ən qəribəsi bu idi ki, elə bil, bu müdhiş leysan ilə tale onu sınağa çəkmişdi: «Sənmi şah olacaqsan?..»

Budur, on iki yaşlı oğlan ilxını böyük fəlakətin pəncəsindən qurtarmışdı. Bundan sonra hansı gözlənilməz hadisə, ya da hansı bir canlı məxluq onun iradəsinə ram olmazdı? Analar bu cür oğulu hər zaman doğmur!

- Doğrudur, - deyə balaca Nadir düşündü, - bu gün ilxını atamla birlikdə Qaraçəmən gədiyinə gətirməklə düz iş görməmişik. Gərək qardaşlarımdan, əmim

uşaqlarından birini də köməkçi götürəydik. Və gələn dəfə, əlbəttə, belə etməməliyik.

Amma yox, bəlkə də tale onu, onun əzmini və iradəsini sınağa çəkmək üçün bu qəfil leysanı göndərmişdi»…

Nadir uşaqlıqdan qəbiliyyətli, bacarıqlı, tutumlu idi…

«…Atın yəhərində mürgüləyən bu balaca oğlan bu gün taleyin imtahanından üzüağ çıxmışdı; sabah bu əhvalatın bütün Xabuşan mahalına necə yayılacağı, özündən böyük- kiçik uşaqların ona həsədlə baxacaqları, kişilərin sübh çağı öz atlarını gətirib, ilxıya qatarkən onu nəvazişlə qucaqlayıb şəninə tərif yağdıra- yağdıra alnından, üzündən öpəcəkləri barədə şirin düşüncələrə qərq olmuşdu. Düşüncələr, xəyallar öz yerində, amma onun öyünməyə haqqı da vardı: həmyaşıdlarından fərqli olaraq, o, mədrəsəyə – molla yanına getməsə də, həyat məktəbində - güləşdə, at çapmaqda, ox atmaqda, alver işlərində çoxlarından fərasətli idi. Balaca Nadir əvvəllər dönə- dönə atası ilə, sonralar isə özündən kiçik qardaşı İbrahimlə Məşhədi- müqəddəsə gedib, ilxılarındakı atlardan satmış, qiymət və pul məsələlərini həll etmişdi. Bazarın yaşlı qəssab və un, şəkər, sabun satanları bu balaca oğlanın diribaşlığından təəccüblənərək haqq- hesabı həmişə düz aparırdılar. Həmyaşıdlarına gəldikdə isə, nəinki kənddəki tay- tuşları, hətta Məşhəddəki yaşca ondan böyük oğlanlar da onun başına yığışardılar və heç kimin onun bir sözünü iki eləməyə cürəti çatmazdı»…

Nadirin düşündüyü kimi də olur, bütün kənd onun cəsarətinə, qoçaqlığına heyranlığını bildirir…

«…On iki yaşlı Nadirin itlərin köməyi ilə ilxını uçuruma tökülməkdən xilas etməsi görünməmiş hadisə idi. Axşamüstü bu əhvalat ildırım sürətilə hər yana yayıldı. Kənd ağsaqqalları dəstə- dəstə Nadirgilə gəlirdilər. Hərə ona bir şey bağışlayırdı. Biri məxmər köynək, biri naxışlı başmaq, biri qırmızı çəkmə, biri ilməli yun corab, qoyun- quzusu çox olanlar quzu, hətta xalça və qızıl sikkə hədiyyə edənlər də vardı. Arvadlar da halva, qoğal, paxlava və başqa şirniyyatlardan pay gətirirdilər. Zarafat deyil, onun sayəsində, bütün kənd əhlinin atları xilas olmuşdu.

Birdən həyətdə səs- küy eşidildi. Hamı çölə çıxdı. Gələn kor qocaya el içində hamı sehrkar Həsənəli baba deyirdi. O evə gircək:

- Hanı o uşaq? – dedi və əllərini irəli uzatdı.

İmamqulu kişi balaca Nadiri ona sarı apardı. Gözlərindən yuxu tökülsə də, o, sehrkar qocanın qabağında şax dayandı»…

Sehrkar həyəcanla Nadirin gələcəkdə hökmdar olacağı xəbərini verir…

«…Bu çağacan Allah onu çox bəlalardan hifz eləmişdi. Ata- anasının xeyir-duaları müstəcəb olmuşdu: başına sarı sünbüllərdən tac düzəldib qoyan həmin balaca uşaq boya- başa çatdı, igid bir oğlan oldu… Əvvəl elin- oymağın xırda davalarında tanındı, daha sonra neçə- neçə iri müharibələr apardı, böyük qələbələr qazandı. Şahlıq taxtında oturdu. Artıq neçə il idi ki, başında qızıl tac gəzdirirdi. Bu gün sehrkar Həsənəlinin səsi qulaqlarında dönə- dönə əks- səda verirdi: «Bimürvət fələyin qəhrini, xoşbəxt ikən, gərək bədbəxtliyi yaddan çıxarmasın!..»

Yaşının qoca, əhvalının ağır vaxtında, ölkəni üsyanlar, iğtişaşlar bürüdüyü bir zamanda Nadir şahın ürəyini ağrıdan əsas məsələ onu əvəz edə biləcək varisin olmamasıdır…

Tarixdən məlumdur ki, Nadir şah Əfşar hakimiyyətə Səfəvilərin əlindən almışdı. Və bu səlahiyyəti ona sərkərdəlik qüdrəti, fitri idarəçilik qabiliyyəti vermişdi… Bu bir də ona görə olmuşdu ki, Səfəvilərin artıq süqut dövrü idi…

Nadir şahdan sonra da Səfəvilərdən «miras» aldığı dövləti qoruyub saxlamaq üçün təkcə formal varis yox, Nadir şah gücündə böyük bir sərkərdə (və dövlət adamı!) tələb olunurdu ki, iğtişaşların, təfriqələrin qarşısını ala, dövlətin hər an pozulan hüdudlarını mühafizə edə, yeni beynəlxalq şəraitdə çevik, ağıllı diplomatik əlaqələr yarada bilsin…

… «Bilmirəm, bilmirəm, görəsən, onlardan hər hansı biri məndən sonra taxt-taca sahib çıxıb, Əfşarlar səltənətini qoruya biləcəkmi?.. Onlar şah övladıdırlar. Mənimsə atam cavan ikən çarvadarlıq etmişdi, qoca çağında gözlərinin nuru çəkilənəcən kürktikən kimi ad çıxarmışdı, ailəsini dolandırmaq üçün ilxı saxlamışdı, çobanlıq etmişdi, yəni sadə bir adam olmuşdu… On üç yaşımda mən onu itirəndə gah çobanlıq etdim, gah da odun doğrayıb, satmaq üçün bazarlara

daşıdım. O qədər çətinliyin içində sağlığında atama, o öləndən sonra isə anama böyük bir inamla şah olacağımı söyləmişdim. Düzdü, ata- anama bu arzuma çatdığım günü görmək nəsib olmadı. Amma mən istəyirəm ki, gözlərim baxa- baxa övladlarımdan biri qurduğum bu böyük səltənəti idarə etsin… Onlar isə hələ də təcrübəsiz olduqlarını bəhanə edirlər. Heyhat, kaş böyük oğlum Rzaqulunun gözlərini çıxartdırmayaydım… Doğrudanmı, onu kor etməklə mən təkcə oğlumun deyil, Əfşarlar səltənətinin də gözlərini kor etdim? Axı niyə? Məni buna vadar edən nə idi? İlahi, məni bu əzabdan qurtar, aradan illər ötsə də, bu kədərin ağrısını-acısını qəlbimdə, ürəyimin başında daha çox hiss edirəm, dəhşətin böyüklüyünü anlayıram…»

İmamqulu kişi rəhmətə gedir…

Gövhərbəyim ana oğulları Nadirlə İbrahimə mənsub olduqları tayfanın şərəfli tarixindən danışır…

« - Bizim Əfşar tayfası Qırxlı boyundan, bir də Qasımlı törəmələrindən bin tutub. Ulu babalarınız Qırxlıları Şah İsmayıl Xətai zamanında Azərbaycanın qədim Əfşəran elindən bura – Xorasana köçürüblər. Bu yerlər Əfşar tayfasına özbək basqınçılarının hücumlarını dəf etdiyinə görə soyurqal kimi verilib.

Xorasanın axarlı- baxarlı, sərin çeşməli Allahu- Əkbər dağları şahın yaylaq yerləri, həm də yay düşərgəsi imiş. O vaxtdan qışda Dəstgirt, yayda Kəbkan yaylaqları oylağımız olub. Kəbkan yaylaqlarının bir adı da qədimdən Dərbəndi kimi tanınıb. Bizim əfşarlar Şah İsmayılın güvənib etibar etdiyi yeddi tayfadan biri - bəlkə də ən birincisi olub… Səfəvi şahlarının sarayında Əfşar qızılbaşları məşhuru- cahan olublar. Deyilənlərə görə, əmir Sultanəli Mirzə Əfşar elə üzdən Şah İsmayılın özünə çox oxşayırmış, hə, Çaldıran savaşında osmanlılar şahı əsir götürmək istəyəndə, «Şah İsmayıl mənəm» - deyib sinəsini qabağa verib, irəli çıxıb. Osmanlılar da onu əsir alıblar… Bu tayfa Əhməd Sultan, Şahruh bəy Əfşar, Xəlil bəy Əfşar kimi adlı- sanlı sərkərdələri, neçə- neçə mərd oğulları ilə ad- san qazanıb»…

Nadirgilin kəndi özbək basqınçılarının hücumuna məruz qalır. Onları əsir götürüb Buxaraya aparırlar…

Və Nadirgilin ailəsi Buxarada Qəmbərin əsiri olur…

Nadir Buxaralı Qəmbərin qızı Zöhrəyə, qız da ona vurulur…

Gövhərbəyim ana əsirlikdə vəfat edir…

«…Gecə xeyli oturdular, molla o ki var, ibrətamiz söhbətlər danışdı, ancaq Nadir artıq heç nə eşitmirdi, qulaqları anasının səsi- avazı ilə dolmuşdu…

O, ağzına heç nə vurmurdu. Bütün günü həyətdə kətil üstə oturub, gözlərini məchul bir nöqtəyə zilləyib, qardaşını qucaqlamışdı. Əmirqulu ilə Buxaralı Qəmbər hərdənbir ona yaxınlaşıb nə qədər təkid etsələr də, o, üç gün heç nə yeyib- içmədi.

On altı yaşlı Zöhrə də kənardan ona baxıb ağlayırdı. Anası qıza nə qədər acıqlansa da, o yenə özünü xəlvətə salıb, göz yaşı axıdırdı. Anası hirslənib:

- Əgər mən ölsəm, heç bir gilə də gözündən yaş çıxmaz,- deyirdi»…

Nadir əsirlikdən qaçmaq üçün at axtarır…

«…Buxara böyük və gur şəhər idi. Xüsusən də, bazarlarda adam əlindən tərpənmək olmurdu. Nadir soraqlaşa- soraqlaşa at satılan meydana gəldi. Burada açıq yerdə mal sahiblərinin ya özləri, ya da nökərləri atların cilovundan tutub, alver etmək üçün müştəri gözləyirdilər. Nadir ən yaxşı bir atın yanına gəldi. Ata zəndlə tamaşa elədi, dərhal tanıdı! Bu onun sevimli atı Qaçağan idi! At da Nadiri tanıdı və elə bərkdən kişnədi ki, bazarda olanlar çaş- baş qaldılar»…

Nadir, İbrahim və Əmirqulu bir gecə Zöhrənin köməyi ilə qaçırlar.

Nadir söz verir ki, imkan olan kimi gəlib sevgilisini aparacaq…

«…Nadir, Əmirqulu və İbrahim şəhərdən çıxan kimi atları mahmuzlayıb, elə sürət götürdülər ki, deyirdin, bəs, yel olub uçurlar. Dördnala çapdıqları atların ayaqlarından toz qalxırdı. Nadir atının yalmanına yatıb, Zöhrənin onlar qapıdan çıxanda arxalarınca baxaraq, necə ağladığını xatırladı. Qızın əlini bir az qaldırıb, barmaqlanını asta- asta tərpətməsi – bu vida səhnəsi onun beynində ömürlük həkk olundu…

Atları bir xeyli çapandan sonra, Nadir əlini qaldırıb, Əmirquluya və İbrahimə tərəf qışqırdı:

- Bir az yüyəni dartın, bu cür çox çapa bilmərik.

Əmirqulu da çığırdı:

- Atların özləri çapmaq istəyirlər.

- Hə, axı, bunlar vətən atlarıdır, qəribsəyiblər, yurd- yuvanın iyini alan kimi oyur- oyur oynadılar, bir də, tövlədə çox qalıblar, ona görə… amma yorğa getsələr yaxşıdır. Tərlədib tələf edərik.

Beləliklə, atların yüyənini bir az dartıb, yorğa sürməyə başladılar»…

Birinci kitabın birinci hissəsi Nadirgilin öz kəndlərinə gəlib çıxması ilə sona çatır… İkinci hissə Nadirin ilk hərbi uğurları ilə başlayır…

«…Nadir hicri 1123- cü ildə qardaşı İbrahimlə birlikdə Baba Əli bəy Əfşarın müdafiə dəstəsinə daxil olanda iyirmi iki yaşına təzəcə qədəm qoymuşdu. Əlinə qılınc aldığı ilk gündən Xorasanı yolkəsənlərdən, qaçaq- quldurlardan təmizləmək istəyi bir an da olsun onu rahat qoymurdu.

Kəndxuda Qədirqulu kişinin dediyi kimi, Nadir, doğrudan da, çox çəkmədi ki, Baba Əli bəyin simasında özünə böyük bir həmfikir tapdı.

İlk gündən Nadirin bacarığına, cəsarətinə heyran olan Baba Əli bəy onu öz şəxsi qvardiyasına başçı təyin etdi. Nadir vaxt itirmədən silahlı süvari dəstə yaratdı. Çox çəkmədi ki, Baba Əli bəyin tapşırığı ilə Əbivərdə və ətraf mahallara basqın edən özbəklərin üzərinə qoşun yeritdi»…

Nadir Əmirqulu ilə Buxaraya gedir. Həm anasının məzarını öz yurduna köçürür, həm də Zöhrəni gətirir…

Baba Əli bəy Nadirə «bəy» titulu verir. Və qızı Fatimə ilə evlənməyi təklif edir…

Nadir bəyin Fatimədən oğlu doğulur. Adını Rzaqulu qoyurlar…

Kəlat qalasını ələ keçirən Nadir bəyin şöhrəti artır… O, tayfa başçılarını – ağsaqqalları toplayıb deyir ki…

« - Yalnız qılınc gücünə biz öz torpaqlarımızı azad edə bilərik! Buna görə bütün tayfalar öz aralarında incikliyi bir tərəfə qoyub birləşməlidir! Bu birlik bizə hava- su kimi gərəkdi!.. Bu gündən bu qala mənim qoşunumun mərkəzi qərargahı olacaq!.. İlk işimiz Kəlat ətrafında olan dağların ətəklərində yerləşən şəhərləri,

kəndləri yadellilərdən azad etməkdi… Bəsdir, kiçik qovğalar aparıb, kiçik qələbələrlə öyündük»…

Nadir bəy bütün aydınlığı ilə görür ki, Şah Sultan Hüseyn ölkəni idarə etməyə qadir deyil. Odur ki, xilas yolları axtarır…

«…Ölkənin başının üstünü alan qara buludlar getdikcə paytaxta – İsfahana yaxınlaşırdı. Rus imperatoru I Pyotr hicri 1134- cü ilin yayında Səfəvi səltənətindəki nizamsızlıq ucbatından vaxtilə rus tacirlərinin Şirvanda qarət edildikdən sonra öldürüldüklərini bəhanə edib bütün vilayətlərə intiqam ruhlu müraciətnamə yollamışdı.

…Bu müraciətnamə Qəndəharlı Mir Mahmudun əlinə düşəndə çox sevindi. O çoxdan bəri İsfahanı zəbt etmək istəyirdi. Odur ki, tez şəhəri mühasirəyə aldı. Şah Sultan Hüseynin dünya ilə əlaqəsini kəsdi. Onun niyyəti ölkədəki vəziyyətdən daha çox faydalanmaq, çoxlu ərazi zəbt etmək, hətta taxtı- tacı Səfəvi şahından almaq idi.

Şahın oğlu vəliəhd Təhmasib Mirzə iki yüz nəfərlik təbrizli süvari ilə mühasirəyə alınmış şəhəri gizlincə tərk edib qoşun toplamaq niyyəti ilə Qəzvinə yollandı. Amma onun göstərdiyi səylər heç bir nəticə vermədi.

Bu zaman I Pyotr Gilandakı konsul Abramova təcili fərman yolladı. Fərmanda qəti şəkildə tapşırırdı ki, ya şahla, ya da dövləti təmsil edən vəliəhdlə danışıq aparılsın. O, öz konsulluğundan tələb edirdi ki, Səfəvi hökumətinin hürriyyətini himayə etmək, şahın təbəələrini əfqan qiyamçılardan və Osmanlı dövlətindən qorumağın müqabilində Xəzərboyu vilayətlərin Rusiyaya verilməsi barədə şərtnamə bağlasın»…

…Hadisələr tarixi xronologiya ilə təqdim olunur…

Şah Sultan Hüseyn hakimiyyəti əfqan Mir Mahmuda təhvil verir. Buna etiraz edən vəliəhd Təhmasib Mirzə özünü şah elan edir…

Əfqan əyanları arasında böyük nüfuza sahib olan əmisi oğlu Əşrəf xan zindandan çıxaraq Mir Mahmudun başını kəsir. Və artıq Əşrəf xanın hakimiyyətə gəlməsi yolunda yeganə maneə Təhmasib Mirzə idi…

Ölkə isə dağılırdı, hərc- mərclik baş alıb gedirdi…

Vəziyyətdən istifadə edən ermənilər I Pyotrdan onlara ərazi verməyi xahiş edir, əvəzində öz «xidmət»lərini təklif eləyirdilər…

«…I Pyotr çar olandan bəri ətəyindən hələ belə möhkəm yapışan üzlü adam görməmişdi: «Yox! Buna ehtiyac olduğunu ağlınıza belə gətirməyin… Ancaq sənin burada – Moskvada qalıb, hərbi təlimlərə yiyələnmək fikrin varsa, məncə, bu, pis olmaz… Bir də, hərbi təlimi öyrənmək azdır, sən öyrəndiyini gərək özgələrinə də öyrədəsən. Yəqin müsəlmanlara kin bəsləyən soydaşlarını da bu işlərə cəlb edəcəksən!».

O zaman Orinin gözləri sevincdən yaşarmışdı. Aradan ikicə il ötəndən sonra İsrayıl Ori çiskinli bir payız günü yenə I Pyotrun hüzuruna gəlib, ona ipək parça üzərində rəngli ilmələrlə işlənmiş qəribə bir xəritə təqdim etmişdi. Həmin xəritədə İrəvan şəhəri mərkəz kimi göstərilməklə Anadolunun bir hissəsi, Zəngəzur, Qarabağ mahalı və həmin ətraflardakı başqa yerlər İsrayıl Orinin təsəvvür etdiyi gələcək erməni dövlətinin ərazisinə daxil edilmişdi»…

Səfəvilər xanədanının süqut ərəfəsi idi… Güclənən Rusiya həm hərbi qüvvəsindən, həm diplomatik imkanlarından (təxribatçılıqdan!), həm də Səfəvilərin düşdükləri ağır vəziyyətdən istifadə edib ölkəni təhdid eləyirdilər…

«… Osmanlı dövləti bütün diqqətini Rusiyaya qarşı yönəltmişdi.

Xüsusilə Bakının ruslar tərəfindən zəbt olunması İstanbul sarayını çox qəzəbləndirmişdi. Bu, bir tərəfdən osmanlıların Xəzərə çıxışının önünə sədd çəkirdisə, digər tərəfdən I Pyotrun Bakı neftini və Azərbaycanın digər sərvətlərini ələ keçirməsi onu daha da gücləndirirdi. İstanbul sarayında deyilənlərə görə, rus hərbçilərinin aylıq məvacibi belə neftlə ödənilirdi. Qara neftin satışından əldə edilən qızıl və bütün pullar isə Rusiyanın xəzinəsinə göndərilirdi.

Fransanın İstanbuldakı səfiri Markiz de Bonak Osmanlı dövlətini Rusiya kimi qüdrətli dövlətlə müharibədən çəkindirmək üçün əlindən gələni edirdi»…

Belə bir mürəkkəb ictimai- siyasi şəraitdə, bütün maneələrə baxmayaraq, Nadir bəy hakimiyyətə can atırdı…

«…Nadir bəy Xorasan hüdudundakı əhalinin əfqanların zülmünə qarşı olan etirazını bir macəraya yönəltmək məqsədilə ətrafına vətənpərvər gəncləri yığıb,

nizami ordu yaratmağa çalışırdı. Bunun üçün döyüşçüləri lazımi şəkildə təmin etmək lazım idi. Onun şücaəti barədə söhbətlər getdikcə xalq arasında rəvayətə çevrilirdi.

…Rzaqulu dünyaya göz açandan bir neçə il sonra arvadı vəfat etdi. Nadir bəyə Baba Əli bəyin ikinci qızı – Gövhər Şadla evləndi, ondan da iki oğlu – Murtuzaqulu və İmamqulu dünyaya gəldi. Hicri 1137- ci ildə Baba Əli bəy Heratda əfqan tayfasının qiyamını yatırarkən həlak oldu. Onun ölümündən sonra bütün sərvəti və tərəfdarları vəsiyyətinə görə Nadir bəy Əfşarın ixtiyarına keçmişdi»…

Nadir bəy yalnız cəsur deyildi, həm də tədbirli idi. Və vətən eşqilə qanadlanırdı…

«…Yerə döşənmiş xalçada Kəlat qalası və onun ətrafında olan şəhərlər, kəndlər ilmə- ilmə işlənmişdi. Nadir bəy Əfşar bəzən xalçada Səfəvi dövlətinin əlindən çıxmış ərazilərə baxıb, fikir- xəyala dalırdı. Gəncə, İrəvan, Gürcüstan, Dərbənd, Şirvan, Bakı, Əfşəran, Lənkəran, Ənzəli, Gilan, İsfahan və başqa yerlər… Səfəvilər dövlətini – əfqanlar, ruslar, osmanlılar öz aralarında mahal-mahal bölmüşdülər. Nadir bəy vətən torpaqlarını geri qaytarmaq üçün çiyninə necə ağır yük götürdüyünü başa düşürdü.

Kəlat qalasının bürcündən dünyaya boylanan Nadir bəy Əfşarın o an nələr düşündüyünü təsəvvürə gətirmək o qədər də çətin deyildi. Amma onun işğalçılarla amansız savaşa nədən, necə başlayacağı ətrafındakılara da bəlli deyildi. Sükuta dalmış Kəlat qalasının başı üzərində təzə Ay doğmuşdu, səmada ulduzlar sayrışırdı…

«Allah istədiyinə yardım edər», - deyə Qurani- Şərifin Ali- İmran surəsindən on üçüncü ayəni yada salıb, dərindən köks ötürdü»…

Hüseynbala Mirələmovun «Sonuncu fateh» romanını təsirli, güclü edən (və akademik Bəkir Nəbiyevin də qeyd etdiyi) iki məqamı bir daha xatırlatmaq, eyni zamanda buraya üçüncü bir məqam da əlavə etmək istərdik:

1) tarixi mənbələrə bələdlik, tarixi həqiqətə sadiqlik;

2) müəllif təxəyyülünün mükəmməlliyi;

3) müasirlik, yəni «tarix»də qalmaq, keçmişə bu günün gözü ilə baxmaq və ya «tarix»dən «bu günü» çıxarmaq,  yaxud hasil etmək.

… Nadir bəy təsadüfən Zöhrə ilə rastlaşır…

«…Bir gün Nadir bəy qılınc əvəzinə dəyənəklə döyüşən iki döyüşçünün məşqinə baxanda qəribə hadisə baş verdi. O, rəqibinin güclü zərbəsindən sonra səntirləyib yıxılan, çalması başından sürüşüb düşən gənc döyüşçüyə zəndlə baxanda, onun uzun hörüklərinin çiyinlərinə  dağıldığını görüb tez meydana endi. Qarşısındakı tanış çöhrəni dərhal tanıdı: bu, Zöhrə idi! Nadir bəy öz əsgərləri arasında nə vaxtsa qız döyüşçü ilə qarşılaşacağını heç ağlına da gətirməzdi. Zöhrəni isə bu işə vadar edən, bəlkə də, ona qarşı laqeydliyi olmuşdu. Amma o, bu görüşə sevinib- sevinmədiyini heç cür biruzə vermədi. Qız da həyəcan içində döyüküb qalmışdı. Elə bil, bir- birlərini ilk dəfə görürdülər.  Qədirqulu kişi qıza təəccüblə baxan Nadir bəyin yanlış fikrə düşəcəyindən ehtiyat edib tez özünü yetirdi:

- Başına dönüm, Nadir bəy, ürəyinə ayrı şey gəlməsin, onu bura mən gətirmişəm.  Maşallah- namxuda, beş- on təpərsiz oğula dəyər.

Nadir bəy Qədirqulu kişinin gözlərinin içinə baxdı»…

Və Nadir bəyin göstərişilə Zöhrəni öz hərəminin otağına aparırlar…

Təhmasib Mirzə sərkərdəsi Rzaqulu xanı Xorasana göndərir ki, şahlıq iddiasına düşmüş Məlik Mahmudu cəzalandırsın, ancaq Nadir bəyin köməyindən imtina edən Rzaqulu xan  məğlub olur…

Məlik Mahmud Kəyan tacını başına qoyub özünü Məşhəddə şah elan edir…

Və hadisələr bir az da gərginləşir…

«…Artıq Nadir bəyin səs- sorağı, şan- şöhrəti məmləkətin hər tərəfinə yayılmışdı. Bir çox qalaların hakimləri ona müqavimət göstərmədən tabe olurdular. Hər yanda söhbət gəzirdi ki, bu cavan əfşar sərkərdəsinin ən böyük arzusu – məmləkəti nəinki əfqanlardan, hətta osmanlılardan və ruslardan da  azad etməkdi və bu müqəddəs amal uğrunda gecə- gündüz vuruşur, yorulmadan mübarizə aparır. Lakin Şərqin orta əsrlərə xas olan mənəm- mənəmlik  xülyası ilə yaşayan yerli hakimlərin bəziləri hər addımda ona əngəl törədir, onu gərəksiz ara müharibələrinə

cəlb etməkdən usanmırdılar. Qızılbaş tayfalarının müdrik ağsaqqalları yaxşı bilirdilər ki, Nadir bəy bu cür bitib- tükənməyən çəkişmələrə qoşulmaqla Səfəvi dövlətinin bərpası üçün lazım olan vaxtı itirir.

Əslində, doğrudan da, belə idi. Hicri 1137- ci ilin əvvəllərində Nadir bəyin fədakarlığı barədə xəbər Təhmasib Mirzəyə də çatdı. Əbivərd cavanlarından silahlı dəstə yaratdığını, Xorasanı əfqanlardan azad etmək istədiyini yaxşı bilsə də, o, yaxın adamı Həsənəli bəy Müəyyirülməmaliki Nadir bəyin yanına göndərdi; o məqsədlə ki, onunla görüşsün, kimliyini, məramını, necə sərkərdə olduğun öyrənsin»…

Təhmasib şah Nadir bəyə xüsusi səlahiyyətlər verir…

Bu məsələ həm tarixi ədəbiyyatda qeyd olunmuş, həm də yazıçı tərəfindən konkret epizodlarda düzgün (və bədii baxımdan mükəmməl) təsvir olunmuşdur. Belə ki, Nadir bəy nə qədər qüdrətli sərkərdə olsa da, bilirdi ki, bütövlükdə dövləti əldə edib idarə eləmək üçün yol müəyyən mərhələlərdən, xüsusilə hakimiyyət-idarəçilik təcrübəsinə tədricən yiyələnməkdən keçir. Və onu da bilirdi ki, hakimiyyəti o zaman əldə saxlaya bilər ki, Səfəvi xanədanına inamını itirmiş tayfa başçıları ona – hökmdar nəslindən olmayan bir insana o qədər inansınlar ki, bu, Səfəvilərəqalmış az- çox inamdan qat- qat yüksək olsun…

«…Onlar Əbivərddə görüşdülər. Qəhvə içə- içə təklikdə xeyli söhbət etdilər. Nadir bəy Əfşarın davranışı Həsənəli bəyin xoşuna gəldi və o, elə bu təəssüratla da Əbivərd camaaatının qabağında Təhmasib Mirzənin Nadir bəy Əfşara olan hörmətini bildirdi.

- Səfəvi taxtının onuncu şahı İkinci Şah Təhmasib mübarək fərmanı ilə Nadir bəy Əfşarı cəmi Xorasanda öz canişini təyin edir və onun adının bundan sonra xan ünvanı – məqamında tanınmasını qərara alır.

Nadir bəy, öz növbəsində, minnətdarlığını bildirdi:

- Mən də bu camaatın adından sizdən təvəqqe edirəm ki, iltifat edib, Şah İkinci Təhmasib Səfəvini öz qoşunu ilə Xorasana gəlməyə razı salasınız. Bu gəliş cəmi Xorasan əhlinin döyüş ruhunu yüksəldəcək… Bizim istəyimiz şahımızı öz atasının taxtında, öz paytaxtında bərqərar etməkdi»…

Yazıçı tamamilə haqlıdır ki, Nadir xan bir- biri ilə həm inam (dostluq) həm də inamsızlıq (düşmən) münasibətində olan iki qüvvə arasında qalmışdı: qanuni hakimiyyət (Səfəvi hökmdarı) və hər hansı münbit şəraitdə özlərini mütləq hökmdar elan etməyə hazır olan çoxsaylı yerli hakimlər…

Və Nadir xan iki «cəbhə»də vuruşmalı idi…

…Təhmasib şah iki sərkərdəsi – Nadir xan Əfşar və Fətəli xan Qacarla Məşhədi mühasirəyə alır. Sərkərdələr arasında nüfuz uğrunda hələlik gizli gedən münaqişə başlayır…

«… Nadir xan, istəməsə də, Təhmasib Mirzənin fərmanı ilə səfər ayının on dördüncü günü Fətəli xan Qacarı zindanda işgəncə ilə öldürdülər. Onun qətlə yetirilməsindən sonra qacarlar qiyam qaldırmasın deyə, başçılarından bir neçəsini həbs etdilər. Yusif bəy, Rəhim xan Gəraylı, Şərafəddin bəy, Niyazqulu bəy, Qasım ağa Qacar – hamısı zindana salındılar.

Artıq Nadir xan tək idi və indi onun qarşısında Məşhəd kimi yenilməz qalada nəinki Məlik Mahmud, İsfahanda ondan da qat- qat güclü olan Əşrəf xan Əfqan, Güneydə Azərbaycanın əyalətlərini işğal altında saxlayan osmanlılar, daha sonra isə quzeydə Xəzərsahilboyu vilayətləri qəsb etmiş kafir ruslar vardı»…

Nadir xan orduya rəhbərliyi tamamilə ələ almaq üçün siyasətə əl atmalı olur…

«… Nadir xan Xorasandakı meydanda Təhmasib Mirzə ilə təkbətək qalmışdı. Təhmasib Mirzə, şah nəslindən olsa da, özünü bəzən əsilzadə kimi aparmırdı, çox ani qərar çıxarırdı… Nadir xandan xeyli gənc olsa da, cəsarətsiz adam idi. Əbəs yerə elədiyi şıltaqlıq ona da, səltənətə də çox ağır başa gələ bilərdi. Onun ən ümdə arzusu ata- baba taxtında oturmaq, buna görə ağına- qarasına baxmadan çox şeydən vaz keçmək idisə, Nadir xanın arzusu quzeyli- güneyli bütün məmləkəti yağılardan geri almaq, bu amal naminə başını salamat saxlamaq idi. Ona görə də, Nadir xan gecə- cündüz ayıq olmalı idi. Üstəlik, taxt- tac varisinin xacələri və xacəyəbənzər nazirləri rəqibləri kim olursa- olsun, ona hər cür şər və böhtan toru hörməyə hazır idilər. Məşhədə növbəti hücum ərəfəsində Nadir xan qoşun qarşısında Təhmasib Mirzə ilə görüşəndə, nədənsə, Şirvanşah Birinci Şeyx

İbrahimin Əmir Teymur kimi qüdrətli bir sərkərdə ilə necə dil tapması əhvalatını xatırladı və gülümsəyərək, dəbilqəsini başından çıxardı.

Şahın və əyanlarının gözləmədiyi halda qəfildən üzünü hamıya tutub dedi:

- Qoy hamı eşitsin və bilsin! Mən, Nadir xan Əfşar, Qızılbaş xanədanının varisi İkinci Şah Təhmasib Şah Sultan Hüseyn oğlu Səfəviyə hörmət əlaməti olaraq adımın bu gündən Təhmasibqulu çağırılmasını təmənna edirəm.

Bu qəfil qərardan şahın əyanları çaşdı, hamının önündə eşitdiyi sözdən Təhmasib Mirzə də çox böyük bir ləzzət aldı:

- Mən hüzurumda olanların hamısına bəyan edirəm, cəsur sərkərdə Nadir xan Əfşar bundan belə mənim xidmətimdə Təhmasibqulu xan namıyla sahibi-imtiyaz olsun»…

Nadir xan birinci cəbhədəki (saraydakı) qələbənin əsasını qoyur, bu isə onun üçün mübarizə aparmağın daha asan ( o yerdə ki, Səfəvi xanədanı üçün çox çətin idi) olduğu ikinci cəbhədəki qələbənin uğurlu başlanğıcı idi…

«…Nadir xanın ordusu Məşhəd şəhərində böyük şadyanalıq keçirirdi. Bir azdan atın üstündə şəhərin məhəllələrini və karvansaralarını gəzib- dolaşan Nadir xan İmam Rza türbəsini ziyarət edəndə andını xatırladı; dərhal göstəriş verdi ki, buranın gümbəzinə qızıl çəksinlər. Birinci şah Təhmasibin tikdirdiyi köhnə minarənin də qarşısında ikinci minarə ucaldılsın…

Sonra o, İmam Rzanın məqbərəsi ətrafında salınan müqəddəs məhəllədə eyvanlı həyətlərə baş çəkdi, Gövhər Şad məscidinə toplaşan möminlər onun gəlişini xeyir- dualarla qarşıladılar.

Nadir xan atını Çaharbağ məhəlləsində saxladı. Məhəllənin hər iki tərəfi adamlarla dolu idi. Uşaqdan böyüyə hamı ona böyük sevinc və maraq hissi ilə tamaşa edirdi. Kəşəfrud çayının dərəsində yerləşsə də, çox əzəmətli görünən Məşhədi seyr edə- edə düşünürdü ki, əgər, o, İkinci şah Təhmasibin yerinə olsaydı, sadə camaatın «İkinci Məkkə» dediyi bu şəhəri səltənətin paytaxtı edərdi.

Amma Nadir xan bəlkə bu an xəyalına belə gətirmirdi ki, heç on il keçməmiş o özü Məşhəd şəhərini paytaxta çevirəcək! Və aradan neçə qərinələr, illər ötəcək, elə bir gün gələcək ki, onun da burada qranitdən məqbərəsi

ucaldılacaq, hələ burada, üstəlik,  şahə qalxan at üstündə tuncdan heykəli qoyulacaq…

Hələ ki, Təhmasib Mirzənin ümidlərini doğrultmuş etibarlı bir qoşun başçısı kimi Məşhədi gəzib- dolaşırdı. Və gəzə- gəzə ailəsini tezliklə ən çox sevib-bəyəndiyi Çaharbağ məhəlləsinə gətirməyi düşünürdü»…

Romandakı sənədlilik (dokumentallıq) o həddə çatır ki, yalnız keçmişə yox, gələcəyə də istiqamətləndirir…. Və Nadir şahın bugünkü Məşhəddəki abidəsi də, ötəri də olsa, yada salınır…

Yenidən tarixə qayıdılır…

Və yazıçının «tarixçi üslubu» özünün bir xüsusiyyətini də nümayiş etdirir: tarixə, tarixi şəxsiyyətlərə qiymət baş qəhrəmanın dili ilə verilir…

Nadir xan tamamilə əmin olur ki, Təhmasib Mirzə özünü şah elan eləsə də saray əyanlarının əlində oyuncaqdır, «dəmdəməki»nin biridir,  xəyanətkardır… Və onunla axıra qədər yol getmək mümkün olmayacaqdır…

Birinci kitab Nadir xanın Məşhəddə möhkəmlənməsi ilə bitir… «Başın tacı-ağıldır» (Nadir şah Əfşar) epiqrafı ilə açılan ikinci kitabın birinci hissəsi Nadir xanın Herata- əfqanlar üzərinə hücum hazırlığı ilə başlayır…

Tikmədaşlı Xəstə Qasımı dəvət edirlər ki, qoşmaları, söz- söhbətilə ordunun döyüş ruhunu qaldırsın. Və məşhur haqq aşığı Nadir xan tərəfindən böyük ehtiramla qarşılanır…

Nadir şah çoxlu  itgi də versə Heratı fəth edir…

«…Səhər tezdən otuz nəfər əbdal başçısı Nadir xanı qiymətli hədiyyələrlə qarşıladı. Hədiyyələrin arasında Nadir xanın ən çox bəyəndiyi ağ ərəb atı oldu. Buna görə də, öz adamlarına göstəriş verdi ki, onu təntənə ilə qarşılayanların hamısına xələt verilsin. Bir çox əfqan əsgəri Nadir xanın ordusuna qoşuldu.

Nadir xan Allahyar xana çox güvənməsə də, onu ağsaqqalların xahişi ilə Heratla Fəraha vali təyin etdi»…

Nadir xan Səfəvilərin keçmiş paytaxtı, Əşrəf xan Əfqanın hökmdarlıq etdiyi İsfahan üzərinə yeriyir. Və Əşrəf xana  məktub göndərir…

«…Son zamanlar Xorasanda itaətsizlik edənlər qılınc gücünə itaət altına gətirilmişdir. Azərbaycan əyalətləri, İraq və Fars mahalları və bütün İran qədim dövrlərdən bizim şahımızın əcdadlarının hakimiyyəti altında olmuşdur. Siz əfqan tayfaları Məlik Mahmud başda olmaqla şahlığa itaətsizlik yolu tutmuş, ata-babalarınıza aid olmayan torpaqları, o cümlədən də İsfahanı Səfəvi itaətindən çıxarmaqla Səfəvi xanədanına qarşı ədalətsizlik yolu tutdunuz… Bu ədalətsizliyin və haqsızlığın cəzası kimi Məlik Mahmud pis xəstəliyə tutulub sənin əlinlə cəhənnəmə vasil oldu. Sənə təklif edirəm ki, Səfəvi hakimiyyətinin dirçəldilməsi haqqında Şah Təhmasibin fərmanını alandan sonra öz yaxınlarınla şahın hüzuruna gələsən və şaha tapındığını, ona itaətə hazır olduğunu bəyan edəsən! Səni xəbərdar edirəm ki, əgər bu təklif qəbul olunmasa, məsələ hərb yolu ilə həll olunacaqdır. Belə olan halda sən Əşrəf xan haqlı cəzadan qaça bilməyəcəksən! Sənin və rəhbərlik etdiyin tayfanın cəzası ağır olacaqdır…».

… Məktubu parça- parça etsə də, Əşrəf xan sarayda özünə yer tapa bilmirdi. İsfahanı tərk edib, Nadir xanın düşərgəsinə doğru istiqamət aldı»…

…Məktubda artıq Səfəvi şahının adından danışan Nadir xanı görməmək, onun iddialı intonasiyasını duyub anlamamaq mümkün deyil. Bu isə o deməkdir ki,

1) mövcud şahın o qüdrəti yoxdur ki, belə bir məktub yazsın;

2) Nadir xan isə artıq düşmənlərlə şah – ölkənin sahibi kimi danışmaq qüdrətindədir.

Və bu, bir də o demək idi ki, Nadir xan təkcə məktub göndərmir, cavab müsbət olmasa, məktubun arxasınca özü ordu ilə gəlir…

… Məğlub olan Əşrəf xan Əfqan qaçmağa məcbur olur… Ancaq necə?..

«…O, çıxılmaz vəziyyətdə qalsa da, çox zirək tərpəndi, sahib olduğu var-dövləti – ləl- cəvahiratı və xəzinəni aparmaq üçün İsfahanda nə qədər at, ulaq, dəvə vardısa, hamısını yüklətdirib, üç gün ərzində arvad- uşağını da götürüb, sağ qalmış adamları ilə Şiraza qaçmağa hazırlaşdı.

İsfahanı tərk etməmişdən əvvəl şah Sultan Hüseyni zindandan çıxartdırıb, yanına gətizdirdi:

- İki il əvvəl mən sənə oxşayan bir adamın başını kəsdirib, Əhməd paşaya yollayanda, düşünürdüm ki, osmanlılar öldüyünü güman edib, məndən əl çəkər, həm də oğlun Təhmasib Mirzə də bir daha İsfahana üz döndərməz. Görünür, oğlun üçün taxt- tac sənin başından qiymətli imiş. Qoy indi gəlsin, bax, bu xarabazara qalmış İsfahana, burada – taxt- tacda sənin kəsilmiş başını görsün, orada əyləşəndə hər dəfə yadına düşsün ki, murdar yerini atasının başının üstə qoyur.

Səfəvi şahı ondan aman diləmədi. Əfqan cəlladın gözü qızmışdı.

…O gün sarayın bağçasında daldalanmış xidmətçi qiyafəsində bir qadın için- için ağlayırdı. Əfqan cəlladı şahın başını kəsib taxtın üstünə atan zaman, bağçadan bu mənzərəni seyr edən qadının ürəyi qəşş elədi. Gecə ikən sarayı tərk edib Şiraza tərəf üz tutan əfqanlar sanki onu görmürdülər»…

Nadir xan vəliəhdi İsfahana dəvət edir…

«…Təhmasib Mirzənin İsfahanı tərk etdiyi gündən yeddi il on aydan çox vaxt keçmişdi. Hicri 1142- ci il cəmadiüləvvəl ayının 8- də vəliəhd İsfahana varid oldu. Şəhər əhalisinin bir neçə həftə bundan əvvəl Nadir xanın qarşılanma mərasimindəki coşqunluqdan zərrə qədər də əsər- əlamət qalmamışdı. Söz yox ki, ətrafdakı əyanların sevinci, əsgərlərin qalibanə saygı duruşu Təhmasib Mirzənin soyuq qarşılanmasını ört- basdır edirdi.

Nadir xanın tapşırığı ilə İsfahan qapısından Caharbağa qədər uzun məsafəlik yola fərşlər və zərli xalçalar döşənmişdi. Təhmasib Mirzə özü də ətrafındakı əyan- əşrəfi kimi fərəhli görünürdü. Nadir xan atdan enib onu qarşılamaq məramı ilə irəli çıxdı. Nadir xan şahla salamlaşıb dedi:

- İkinci şah Təhmasibə İsfahan əhli adından öz ehtiramımı və itaətimi bildirirəm…

Şah da atından aşağı endi.

- Bir şah üçün məmləkəti azad edən, düşmənləri İsfahandan qovan Qorçubaşı ilə bərabər addımlamaqdan fərəhli nə ola bilər? Səfəvi hakimiyyətini tam bərpa etməklə sənin adın tarixə fateh kimi düşəcək…

Amma onun üz- gözündən yağan sevincin üzərinə birdən kədər buludu çökdü. Atasından miras qalmış böyük sarayın çılpaq divarlarını, viranə halını görəndə çox məyus oldu»…

Lakin çox keçmir ki…

«…Son yeddi ildə viran qalmış şah sarayı tezliklə yararlı hala salındı. Təntənəli tacqoyma mərasimində İkinci şah Təhmasibin adına xütbələr oxundu, sikkəxanalarda təzə pullar kəsildi. Nadir xan almaz daşlarla işlənmiş şahlıq tacını öz əlləri ilə İkinci şah Təhmasibin başına qoydu»…

Bu, təbii ki, Təhmasib şahdan daha çox Nadir xanın qələbəsi idi. Və tarix kimi yazıçı da göstərir ki, bundan sonra şah Nadir xanın əlində idi… Eyni zamanda İkinci Təhmasib, artıq qeyd olunduğu kimi, o ağılın, qabiliyyətin sahibi deyildi ki, heç olmasa mənsəbinin bu səviyyəsində ona (hakimiyyətə!) qarşı yönəlmiş hər hansı ciddi qüvvəyə müqavimət göstərə bilsin…

… Nadir xan İsfahandan qaçmış Əşrəf xan Əfqanın ardınca Şiraza gedir. Və bir daha məğlub olan Əşrəf xan Şirazdan da qaçmalı olur… İtgin düşür…

«…Novruzun gəlişinə qədər Şirazda qalan Nadir xanın başı ürəyinin hökmü ilə gördüyü savab işlərə qarışmışdı. Hər şeydən əvvəl, dağıntılara məruz qalmış yerlərdə bərpa işlərinə rəvac vermişdi. Əfqanlar şəhərdə bütün bağ- bağatı vəhşicəsinə məhv etmişdilər.

Nadir xanın əmri ilə yazqabağı şəhərdə minlərlə ağac əkilmişdi. Bu işlərə rəhbərlik fars əyalətinə hakim təyin etdiyi Məhəmməd Əli xana həvalə olunmuşdu.

Nadir xan Şah Çıraq məscidinin təmirinə öz kisəsindən min beş yüz tümən versə də, xeyriyyəçilik işini bununla bitmiş hesab etmirdi. O, məscidə qızıl qəndillərdən ibarət çilçıraq dəstləri, şamdanlar, xalı- xalçalar da aldı.

Nadir xan Şirazda qaldığı müddətdə şəhərin görkəmi xeyli dəyişdi. O, burada keçirdiyi günlərdə də ölkənin aqibəti barədə düşünürdü…

Nadir xan sanki bir gün müharibəsiz qalmaqdan yorulub- usanmışdı. Ən çox inandığı adamlardan Əli Mərdan xan Şamlını yanına çağırtdırdı:

- Moğol imperatoru Məhəmməd şah Gürganinin hüzuruna gedəcəksən; ona İsfahanın geri alındığı xəbərini çatdırandan sonra, Təhmasib şahın Səfəvi taxt-

tacına çıxdığını deyəcəksən. Və Qəndəharı geri qaytarmaq qərarım barədə zati-müqəddəsə məlumat verib, mənim adımdan xahiş edəcəksən ki, Qəndəhara hərbi yürüşümdən qabaq iki qonşu dövlətin maraqları naminə sərhədlərini əfqan qaçaqlarının üzünə bağlasın»…

Bu isə bir də o deməkdir ki, Nadir xan ölkədə artıq ən qüdrətli adam idi. Və kim qeyri- qanuni baş qaldırmaq istəsə yalnız onunla hesablaşmalı idi…

Dünya belə idarə olunurdu!.. Və düşünmək olmaz ki, nə zamansa başqa bir idarə üsulu da mövcud imiş…

… Nadir xan Həmədana doğru irəliləyir. Və yolda Osmanlı qoşunu ilə qarşılaşır…

«…Günlər- həftələr bir- birini əvəz edirdi. Artıq güllü- çiçəkli bahar arxada qalmışdı. Yayın əvvəlinci ayı idi. İyirmi beş minlik atlı, piyada qoşun və topxana Həmədana doğru irəliləyirdi. Qaranlıq gecənin bir aləmində qəfildən səs eşidən Nadir xan arxasınca asta- asta gələn qoşunu dayandırdı. İrəlidə türk ləhcəsində nəğmə oxuyurdular. Bir azdan kəşfiyyata göndərdiyi adamlardan biri gəlib dedi ki, Osmanlı qarnizonu Nəhavənd yaxınlığında mövqe tutub.

Nadir xan vaxt itrməyib, hücuma keçdi. Osmanlı qoşunu bu qəfil həmləni gözləmirdi. Məcbur olub, başıpozuq halda geri çəkilməyə başladı…

Ramazan ayının dördüncü günü qarnizonun başçısı Osman paşa Həmədana qaçdı.

…Mirzə Mehdi xan Nadir xanın çadırında oturub, Həmədan sərəsgəri Osman paşaya qasidlə göndərəcəyi məktubun məzmununu oxuyurdu. Nadir xan yazdırdığı məktuba qulaq asa- asa başını razılıqla yırğalayırdı. «Osman paşa, sizə uca Allahın salamını çatdırandan sonra mən Nadir xan Əfşar ərz edirəm ki, Xorasandan başladığım hərbi yürüşlərlə üzü cənuba doğru uzun yol keçmişəm. Sizin himayə etdiyiniz Əşrəfə güclü zərbə endirərək, yad qüvvələrin işğalı altında olan İsfahan və bütünlüklə Fars bəylərbəyliyi sayəmizdə geri qaytarılmışdır. Bununla da qanunu şah öz taxtında oturmuş, dövlət üzünə ağ olanlara lazımi dərs vermişdir. Osmanlı xanədanı Səfəvilərin vəziyyətinin zəifləməsindən sui- istifadə edərək qoşunlarını Xürrəmabada qədər yeritmiş və Səfəvi ərazilərinin müəyyən

hissəsini nəzarət altına almışdır… Osmanlı qoşunları həmin ərazilərdə özbaşınalıq etmiş, yoxsulların, imkansızların evlərini talan etmiş və başqa zorakı əməllərə yol vermişlər. Odur ki, tələb edirəm, bu məktub paşaya yetişən kimi, osmanlı qoşunu gecikmədən bütün torpaqları tərk etməli və öz vətənlərinə qayıtmalıdırlar. Əks halda, osmanlıların «toppuz» adlandırdıqları əmudla qoşununuzun nəfəsini kəsəcəyəm!».

Həm Nadir xanın, həm də «Sonuncu fateh»in müəllifinin Osmanlılara rğbəti, məhəbbəti olduqca aydındır (və tamamilə təbiidir).

Hüseynbala Mirələmov artıq öz dövrünü başa vurmuş «ideoloji tarixşünaslığ»ın antimilli, bölücü «prinsiplər»ini (və kanonlarını) bütünlüklə arxada qoyur, çoxdan keçilmiş mərhələ kimi onlara heç münasibət də bildirmir…

Və ümumi (ortaq) tarix yaradır… Bütün münaqişələri ilə bir yerdə…

… Osmanlılar arasında Nadir xan ilk döyüşdən həm də Toppuz xan kimi tanınırdı. Bu adı ona döyüş zamanı təbərzin və əmuddan daha çox istifadə etdiyinə görə vermişdilər»…

Osmanlı qoşunu Nadir xanla, birinci döyüşdə məğlub olur… Osman paşa ikinci döyüşə girir. Və yenə də məğlub olur…

Nadir xan Həmədanı alır…

Osmanlılarla döyüşləri davam etdirən sərkərdə Təbrizə daxil olur…

«…Nadir xan Bisütun bəy Əfşarı Təbriz şəhərinə hakim təyin etdi. Səfəvi xanədanının keçmiş paytaxtında zəfər sevincini duymaq ona və sərkərdələrinə ruh vermişdi.

Nadir xan əsir düşmüş Rüstəm paşa ilə görüşəndə dedi:

- Möhtərəm paşa, bura qədim Azərbaycan şəhəridir. Səfəvilər dövlətinin binəsini, yəni əsasını qoyan Şah İsmayılın ruhu bu şəhərin üzərində dolaşır. Onun ölümündən gör neçə qərinə ötüb, amma biz yenə savaşırıq, gözümüzün qabağında əcnəbi xaçpərəstlər gəlib böyük şəhərlərimizdə rahatca karvan- karvan sərvət qazanırlar, sabah onlar varlı- güclü olacaqlar, biz isə qanımızı tökə- tökə zəifləyəcəyik. Mənim qəsdim müsəlmanlar arasında təfriqəyə son qoymaqdı, istəyim budur ki, Böyük Müsəlman Dünyasını qurub- yaradaq. O günü intizarla

gözləyirəm. Bir şərtlə ki, hərəmiz öz keçmiş sərhədimizə çəkilib, Allahın nəsib etdiklərinə qane olaq…

Mən günü bu gün sizi də, onlarca osmanlı zabitini də azad edirəm, istəyirəm ki, mənim sülh təklifimlə əlahəzrət Osmanlı sultanının Sədrəzəmi möhtərəm İbrahim paşanın hüzuruna gedəsən»…

Nadir xan Osmanlılarla döyüşləri saxlayıb Məşhədə qayıdır…

Və hər gün gözlənən faciə baş verir…

«…Bu vaxt İsfahanda Təhmasib şah osmanlılara qarşı hərbi əməliyyatlara başçılığı öz üzərinə götürdü. Əvvəllər olduğu kimi, indi də nanəcib əyan- əşrəfləri onu inandırdılar ki, Nadir xanın yarımçıq qoyduğu işi zəfərlə başa çatdırıb, böyük şan- şöhrət qazana bilər:

- Nadir xan bundan sonra gərək təkcə Xorasanı idarə etsin!

- Osmanlı və Rusiya dövlətləri tərəfindən tutulan torpaqların azad edilməsində şahımızın Nadir xana ehtiyacı yoxdur.

- Qibleyi- aləm, ləngiməK zamanı deyil, siz nüfuzunuzun böyüklüyünü göstərmək üçün Naxçıvanla İrəvanı geri qaytarmaq uğrunda osmanlılarla müharibəyə başlamalısınız»…

İkinci kitabın birinci hissəsi Təhmasib şahın osmanlılar üzərinə uğursuz yürüşləri ilə sona çatır…

«…Bu bədnam məğlubiyyətdən sonra İsfahana dönən Təhmasib şah heç nə olmamış kimi yenidən içki və kef məclislərinə qurşandı. Elə bil, Nadir xanın ağır döyüşlər, qan axıdaraq, böyük itkilər bahasına aldığı şəhərləri o yox, başqa biri təzədən osmanlıların ixtiyarına vermişdi… Təhmasib şah bu fəlakəti yuxusunda görmüş qədim padşahlar kimi ürəyini yalnız münnəcimbaşıya açdı. Halbuki bu işin sonunu bilmək üçün münnəcim olmağa, ya da fal açdırmağa heç bir gərək yox idi. Doğrudan da, şahlıq libası ona gen gəlirdi… İndi o, çarəsizlikdən istənilən sülh müqaviləsini imzalamağa razı idi»…

İkinci hissə Təhmasib şahın ağılsız hərəkətlərindən, xüsusilə bağladığı şərəfsiz müqavilələrdən Nadir xanın qəzəblənməsi ilə başlayır…

«…Təhmasib şahın osmanlılarla, sonra da ruslarla imzaladığı müqavilələrin şərtlərindən Nadir xan Heratdan Fəraha gedərkən xəbər tutdu. Əfqanlarla savaş bitməmişdi. Nadir xan dərhal Qəndəhara doğru hərbi yürüşü dayandırıb, Herata döndü. Qəzəbindən özünə yer tapa bilmirdi. Yaxşı bilirdi ki, daha fikir- xəyal aləminə qapılmağın zamanı deyil. Mirzə Mehdini yanına çağırtdırdı. Məhəmməd Ağa adlı Osmanlı səfirinin Xorasanda səfərdə olduğundan xəbərdar idi. Onun vasitəsi ilə Sultan Mahmuda çox sərt müraciətnamə göndərməyi qərara aldı. Münşi Mirzə Məhəmməd Mehdi xan Astarabadi onu tanıdığı yeddi ildə belə dərdli görməmişdi. Nadir xan qulamların məcməyidə gətirdiyi yeməyə əl vurmamışdı.

- Otur yaz! – dedi. – Osmanlı padşahı Sultan Mahmud xana…

Mirzə Mehdiyə yazdırdığı məraciətnamədə o, Osmanlı sultanına qəti xəbərdarlıq edirdi: «Təhmasib şahın sizinlə bağladığı müqavilənin heç bir siyasi qüvvəsi yoxdur. Ya bütün Səfəvi torpaqlarını qaytarın, ya da müharibəyə hazır olun!..»

Nadir xan məmləkətin bütün xalqına da müraciət etməyi qərara alır…

«…Mirzə, bu məktubu elə yaz ki, əldən ələ gəzsin, məzmunundan şah da xəbər tutsun, rəiyyət də… Başlıq qoy: «Hakimlərə, xalqa və dövlət əyanlarına». Yaz ki, Xorasan valisi Nadir xan Əfşar sizlərə bəyan edir ki, onun qılıncı Allahın köməkliyi sayəsində çoxlu vilayətləri fəth edib, Səfəviyə birləşdirdi. Qızılbaşlar ordusu çox qalibiyyətlərin şahidi oldu. Herat və Fərah qalaları tutuldu. Qiyamçı əbdallar darmadağın edildi, gəlcaillər qulluq halqasını boyunlarına taxdılar, onların altmış min ailəsi Xorasana köçürüldü. Yaz ki, osmanlılarla və ruslarla biabırçı müqaviləyə görə mən şahın vəzirlərini günahkar sayıram… Osmanlılarla bağlanmış müqaviləyə gəldikdə, bu, ağıllı adamların nəzərində su üzərinə çəkilən rəsm, ya da uzaqdan parıltısı görünən ilğımdan savayı bir şey deyildir. Orada ölkəmizin varlığından və əsirlər məsələsindən əsər- əlamət belə yoxdu… Biz istəyirik ki, müsəlmanlar arasında fəsadın kökünü kəsək və hər cür murdarlığı məmləkətimizdən yığışdıraq. Bu müqavilə xalqımzın milli qüruruna və şərəfinə ziddir. Müqaviləyə əsasən təyin olunmuş sərhədlər Allahın və xalqın istəyinin əksinədir. Ona görə də biz bu müqaviləni rədd edirik…

Daha sonra əlavə et ki, Orucluq bayramından – Fitirdən sonra mən müharibəyə başlayıb, öz ali məqsədimə müzəffər döyüşlərlə addımbaaddım nail olacağam… Mirzə, dediklərimi yaz, axırda da Şirazlı Hafizdən mənim məramıma uyğun gələn bir- iki beyt seçib, əlavə et. Qoy haqq işimiz uğrunda mənimlə birləşməyənlər Allahın əzabına düçar olsunlar!..»

Bu, artıq nəinki hökmdara xidmət edən bir sərkərdənin, hətta formal bir hökmdarı himayə edən böyük iqtidar sahibinin deyil, möhtəşəm vətənpərvərin – dövlət (və millət!) qurucusunun fərmanı idi… Bu cür fərmanları vaxtilə Səfəvi xanədanının banisi Şah İsmayıl Xətai verməyə özündə cürət (və qüdrət) tapmışdı…

… Nadir xan böyük bir qoşunla İsfahana gəlir. Geniş müşavirə çağıraraq sərxoş (və əyyaş) şahın heç nəyə yaramadığını hər kəsə, xüsustlə İsfahan əhlinə göstərir…

Təhmasib şah taxtdan salınaraq mühafizə dəstəsi, hərəmxanası, nökərləri ilə birlikdə Xorasana – Səbrəvərə göndərilir…

Təhmasibin xələfi səkkiz aylıq Abbas şah «seçilir»…

«…Hamı – ələlxüsus da saray əyanları yaxşı bilirdilər ki, indiki halda ölkəni idarə etmək üçün bacarıqlı naibüssəltənə olmalıdır. Şübhə etmirdilər ki, bu işin öhdəsindən yalnız bir adam gələ bilər – Nadir xan.

Nadir xan Əfşar Təhmasib şah tərəfindən ona verilmiş «Təhmasibqulu xan» ləqəbindən imtina etdi. O, Vəkilüddövlə və Naibüssəltənə vəzifəsini icra etməyə başladı… - Balaca Abbas Mirzəni isə böyüyüb boya- başa çatana qədər etibarlı adamlarla Qəzvinə göndərdi.

Səltənətdə baş vermiş dəyişiklik əyalətlərdə narahatçılıq doğurmasın deyə, Nadir xan dərhal bütün naiblərə və fərmandarlara namələr və fəxri xələtlər yolladı.

Ölkədaxili idarəçilikdə öz istəklərinə uyğun dəyişikliklər apardı. İlk növbədə vilayətlərə etibarlı hakimlər təyin etdi. Oğlanlarını – Rzaqulu Mirzəni Xorasana, Murtuzqulu Mirzəni Herata hakim təyin etdi… Qardaşı İbrahim xana Azərbaycanda bəylərbəyi vəzifəsinin icrasını həvalə etdi.

Vilayətlərə göndərdiyi qasidlər Şah sarayında baş verən son dəyişikliklərdən yerli əyanları xəbərdar edirdilər»…

Nadir xan Səfəvi torpaqlarının azadlığı uğrunda Osmanlılarla müharibəyə yenidən başlayır. Və böyük uğurlar qazanır…

Samirə, Nəcəf və Kərbala şəhərləri tutulur, Bağdad mühasirəyə alınır…

«…Hicri 1145- ci ilin şəvval ayının üçündə Novruz bayramı idi. Nadir xan bayramı Bağdad qalasının ətrafında – şəhərin kənarında keçirdi. Əsgərlər bayram tonqallarının üstündən tullanırdılar. Zabitlərinə yeddi min dəst xələt verən Nadir xan dönüb divarları top atəşindən dəlmə- deşik olmuş Bağdada sarı boylandı, nə düşündüsə, zarafatla:

- O yazıqlara da mənim adımdan bayram sovqatı aparın, - dedi.

Bir azdan, doğrudan da, onun tapşırığı ilə arabalara qarpız yükləndi.

Arabalar mühasirədə olan şəhərin darvazasına yan aldı.

Keşikçilər Nadir xanın Əhməd paşaya bayram sovqatı kimi bir neçə araba qarpız göndərdiyini eşidəndə, çaşqınlıqdan mat qalsalar da, darvazanı yavaşca açdılar. Bütün Bağdad əhli bildi ki, Nadir xan Əfşar Əhməd paşaya qarpız göndərib. Türk paşası da Nadir xanın arabalarını geriyə boş qaytarmadı – ona Bağdadda bişirilmiş ən yaxşı isti təndir çörəyi yolladı»…

Bu hadisənin nə qədər doğru olub- olmaması üzərində müzakirə açmağa, elə bilirik ki, ehtiyac yoxdur… Tarixçi və ya yazıçı təxəyyülünün məhsulu kimi də olduqca tarixi- estetik məzmunlu və ibrətamizdir…

… Nadir xan, təbii ki, hərbi taktikadan da istifadə edir, Bağdadın müdafiəçilərini ruhdan salırdı… Bunu, eyni müvəffəqiyyətlə, osmanlılar da edirdilər…

«…Nadir xan qalib gələcəyinə əmin olsa da, sülh danışıqlarına hazır olduğunu gizlətmirdi. Bununla yanaşı, şəhərin müdafiəçilərini qorxutmaq məqsədilə o, on- on iki min nəfəri düşürgədən gecə səhranın dərinliklərinə doğru uzaqlaşdırır, gündüzlər isə həmin dəstələr hay- küylə, döyüş bayraqlarını dalğalandıra- dalğalandıra düşərgəyə dönürdülər. Bunu durbinlə uzaqdan seyr edən osmanlılar elə zənn edirdilər ki, Nadir xanın ordusuna hər dəfə yeni qüvvələr gəlir»…

Yazıçı Nadir xanın igidliyini, vətənpərvərliyini və qələbəyə daxili inamını göstərən təsirli epizodlar təqdim edir…

«… Nadir xanın ikinci atı şahə qalxanda başından yaralandı və o, yəhərin üstündən yerə yıxıldı. Dirsəyi sıyrılmışdı. Bir müddət ayağa dura bilmədi. Əfşar ordusunun bayraqdarı və əsgərlər bir anlığa elə bildilər ki, Nadir xan ölüb, bir anlığa çaş- baş düşüb döyüşə ara vermək istədilər.

Təbrizli əsgərlərdən biri qolundan ağır yaralansa da, atından cəld yerə sıçrayıb, Nadir xanın başının  üstünü kəsdirdi. Köynəyinin ətəyini cırıb onun yarasını bağladı və öz atını ona verdi.

Nadir xan dedi:

- Bilirəm, yaram ağır deyil. Amma, nədənsə, ayağa dura bilmirəm, elə bil, içimə bir araba çay daşı yığıblar.

- Hamı öldüyünüzü zənn edir, Vəli- Nemət, tez mənim bu səmənd atıma minin, qoy əsgərlər salamat olduğunuzu görsünlər.

Nadir xan yarasını bağlayan əsgərin şirin ləhcəsindən Azərbaycandan olduğunu bilib gülümsündü:

- Azər oğlu, sən də yaralısan… qanın axır, deyirsən qoşun öldüyümü zənn edib, geriyə çəkilir? Bundan sonra mənim sağ qalmağım nəyi dəyişəcək ki?! Nə ölənlərimizin sayı- hesabı bilinir, nə də yaralılarımızın, elə bilirəm, dünya durduqca, nə bu  itkilərin yeri dolacaq, nə də yaralarımızın yeri sağalacaq. Amma… - Birdən o, təbrizli gəncin yaralı əlini tutdu: - İnan mənə, Allaha and olsun ki, biz Bağdadı  alacağıq!..»

Əlbəttə, dahiyanə səhnədir!.. Əgər bu cür səhnələr (və bu cür tarixi- ədəbi təsvir- təfərrüatlar), akademik Bəkir Nəbiyevin də təəssüf etdiyi kimi, Azərbaycan ədəbiyyatında ən geci XIX əsrin əvvəllərindən etibarən verilsəydi, bu cür dahiliyə iki əsrdən sonra ehtiyac qalmazdı….

Ancaq bu (bu cür dahiyanəlik), bu gün – XXI əsrin əvvəllərində «Sonuncu fateh»in müəllifinin günahı deyil…

… Bağdadın müdafiəsi xeyli gücləndirildiyindən Nadir şah məğlub olur, şəhəri ala bilmir. Ancaq həvəsdən də düşməyib yeni həmlə üçün hazırlaşmağı, ordu toplamağı qərara alır…

Nəhayət ki, Osmanlılar məğlubiyyətlərini etiraf edib Səfəvi torpaqlarından çəkiləcəklərinə söz verirlər…

… Nadir xan donanma yaratmaq qərarına gəlir…

«…Əcnəbi şirkətlərin sahibləri əvvəlcə bildirdilər ki, hər iki körfəz boyu liman çoxdur, yəni : «hamısına çatası gəmimiz yoxdur, amma Vəkili- Dövlə Nadir xan hara desə, oraya gəmi göndərərəik!..».

Nadir xan bu cavabdan məmnun qalsa da, fikrə dalıb, vaxtilə abadlıq işləri apardığı Şirazı at belində gəzib dolaşmağa başladı, düşündü ki, axı, niyə həmişə qiyamçılar Gərmisrə – ölkədən kənara qaçanda o əcnəbi gəmiçilik şirkətlərinə yardım üçün məktub göndərmək məcburiyyətində qalmalıdır? Başqalarından asılı olmağa, hər dəfə baha qiymətə gəmi kirayələməyə son vermək zamanı deyilmi?! Axı, bəzən elə olurdu ki, əcnəbilər – ingilislər, ya da hollandlar müxtəlif bəhanələrlə gəmilərini verməkdən imtina edir, ya da Əfşar sərkərdələrinin ehtiyacını vaxtlı- vaxtında ödəmirdilər. Niyə də bu gün naibi olduğu səltənətin Bəndər- Abbas limanında gəmiləri olmasın?!»

Osmanlılardan sonra gəmi quruculuğuna meyl göstərən, müəyyən uğurlar qazanan məhz Nadir şah olmuşdur…

«… Düzdür, o dənizdən uzaq bir diyarda dünyaya gəlmişdi. Hətta ilk dəfə yelkənli gəmi görəndə, «Mən özümün də, əsgərlərimin də ixtiyarını küləyə verə bilmərəm!» - deyib çətin də olsa, quru ilə hərəkət etməyə üstünlük vermişdi. Amma indi dəniz donanmasının nəyə qadir olduğunu yaxşı bilirdi. Ölkənin dənizdən təhlükəsizliyini donanmasız təmin etməyin çətinliyini Birinci Pyotrun yürüşləri zamanı anlamışdı. Ona görə də Lətif xanı admiral təyin edərək, Bəndər – Abbasa (Gembruna) göndərdi ki, avropalılardan gəmilər alsın. Amma əvvəllər də Səfəvilərlə gəmiçilik əlaqələri qurmağa həvəssiz yanaşan ingilislər, hollandlar, eləcə də ərəb şeyxləri ona gəmi satmaqdan boyun qaçırıb, yalnız öz gəmilərini icarəyə verə biləcəklərini söylədilər. Nadir xanın göstərişi ilə Lətif xan Buşəhri

yeni yaradılacaq donanmadan ötrü ticarət limanına çevirməklə məşğul oldu, - az sonra bu liman Nadiriyyə adlandırılacaqdı – bir il sonra isə Bəsrəni almaq üçün Əlvənd çayına 30 böyük, 50 orta gəmi və bir neçə kiçik qayıqdan ibarət donanma gətirəcəkdi. İki il sonra admiral Lətif xan Bəhreynin açarını Nadir xana göndərəcəkdi, bu da Ommanı Səfəvi səltənətinə birləşdirmək, Kəngər körfəzini öz ağalığı altına salmaq üçün Nadir xan Əfşara tarixi imkan yaradacaqdı. Üzərində qırmızı qılınc şəkli olan ağ bayraq dalğalanan donanma gücləndiyi bir vaxtda admiral Lətif xan zəhərlənib öldürüləcəkdi»…

Nadir xan Cənubi Qafqaza yürüş edir…

Şamaxı azad olunur. Surxay xan qaçır… Osmanlıların əlində olan Gəncə mühasirəyə alınır…

«…Gəncəni mühasirədə saxladığı vaxt Nadir xan Xəzərboyu torpaqların qaytarılması məsələsini yenə Rusiya səfiri Qalitsinlə müzakirə etdi və bu barədə uzun müddətdən bəri davam edən söhbətlərə yekun vurmaq məqsədilə öz səfiri Hüseyn xanı Sankt- Peterburq sarayına göndərdi.

Dekabr ayının sonunda rus səfiri Qolitsin Nadir xanın qərargahına gəlib, ona imperatriçənin sifarişini çatdırdı. Rusiya tərəfi Nadir xanın tələb etdiyi torpaqları bir şərtlə tərk edəcəyini bildirdi ki, o da bundan sonra Rusiyanın düşmənlərini öz düşməni hesab etsin və qaytarılan torpaqları bir də heç vaxt osmanlılara verməsin. Səfirin bu xəbəri Nadir xanı çox sevindirdi. O, öz növbəsində, səfiri əmin etdi ki, bundan sonra Rusiyanın daimi müttəfiqi olacaqdır»…

…Yazıçı elə bu məqamda qeyd edir ki, Nadir xan Rusiyanı aldatmışdı… Ancaq bu aldatma ona «uğur» gətirsə də, Azərbaycan xalqı (ümumən Türk dünyası) üçün sonralar böyük fəlakətlərə aparan yolun qarşısını ala bilməmişdi…

«…Ancaq aradan on bir il ötüb- keçəcəkdi… özünün möhtəşəm gücünə-qüdrətinə arxayın olan Nadir xan Əfşar ( o vaxtlar artıq şah olacaqdı!) Osmanlı dövləti ilə müqavilə bağlayacaqdı, bu zaman Rusiyanın rəyini nəzərə almayacaqdı. Bununla da, Rusiya gələcəkdə – Nadir şah kimi rəqibi dünyada olmayanda, ona qarşı olan sonsuz qəzəbini Azərbaycan adlı böyük bir məmləkəti iki yerə

parçalamaqla biruzə verəcəkdi. Və bu gözəl, sərvəti bol olan diyarı ikiyə parçalamaq, əzmək Rusiya kimi böyük bir dövlətin son niyyəti olmayacaqdı»…

Qafqaz Nadir xanın ixtiyarına keçir… Osmanlı qoşunları məğlub olub geri çəkilməyə məcbur edilir…

«…Qarsla İrəvan məsələsinin sülh yolu ilə həlli üçün danışıqlara başlanandan üç gün sonra Nadir xan Gürcüstana yollandı. Gürcü çarı Teymurazın, onun kürəkəni Əli Mirzənin, Kartli və Kaxetiyanın bütün tanınmış tayfa başçılarının ona tabe olmasını tələb etdi. Gürcülər bu tələbi qəbul etdilər və avqust ayının on ikisində Nadir xanı Tiflis yaxınlığında təntənə ilə qarşılamağa çıxdılar.

Həmin gün Nadir xan bayramsayağı bəzədilmiş Tiflisə gəldi və onun atı xalı- xalça döşənmiş küçələrdən keçdi… Şəhərin gözəgəlimli yerlərində onun şərəfinə şənlik məclisləri qurulmuşdu. Nadir xan qoşun başçılarına tapşırdı ki, gürcülərlə yaxşı rəftar etsinlər. İşdi- şayəd, müqavimət göstərənlər olsa, ailəliklə Xorasana sürgün etsinlər»…

…Gürcülər Nadir xan üçün elə bir problem deyildi…

Osmanlılarla Səfəvilər arasında, axır ki, anlaşma yaranır…

«…Nəhayət, Əhməd paşanın əmri ilə oktyabrın əvvəlində, İrəvan qalasının qapıları qızılbaşların üzünə açıldı. Bunun əvəzində Nadir xan da qoşununu Qarsdan çıxartdı. O dövrdə hər iki türk dövlətini idarə edənlərin sülh danışıqlarında bir- birinə güzəştə getməsi təbii idi; çünki onlar yaxşı bilirdilər ki, rus imperatriçəsi Anna İvanovnanın niyyəti I Pyotrun – Dəli Petronun İstanbulla bağlı məlum vəsiyyətini yerinə yetirməyə yönəlmişdir»…

Romanın ikinci kitabı Nadir xanın Dağıstanı tamamilə özünə təslim etməsilə başa çatır…

«Mən xaqan deyiləm ki, xalqa himayədarlıq edim, Allah deyiləm ki, rəhmli, mərhəmətli olum, Peyğəmbər deyiləm ki, xilas yolunu göstərim. Mən Böyük Qüdrət Sahibinin qəzəbli çağında yaratdığı adi adamam ki, bu günahkar dünyanı dolaşıram» (Nadir Şah Əfşar) epiqrafı ilə açılan üçüncü kitab məşhur Muğan qurultayının təsvirilə başlanır…

«…Qışın əvvəllərində Nadir xan Məşhəddən sonra ən çox xoşladığı şəhərdən – Dəmirqapı Dərbənddən Çöli- Muğana yollanmaq qərarına gəldi. Ramazan ayı təzə başlamışdı.

Sübh tezdən Mirzə Mehdi onun yanına gəldi.

Nadir xan onu görən kimi dedi:

- Mirzə!

Mirzə Mehdi bir az da irəli gəlib bağır basdı:

- Eşidirəm, xani- əzəm!!

- Yaz!

Nadir xan bir anlığa susub gözlərini yumdu. Nə deyəcəyini ölçüb- biçdi. Əslində, Mirzə Mehdi, Nadir xanın nə düşündüyünü, ona nə deyəcəyini yaxşı bilirdi…

…Əslində, baş münşi kimi Mirzə Mehdi düşünürdü ki, indi Nadir xanın uşaqlıq illərindən bəri arzuladığı şahlıq taxt- tacına sahib çıxmağa haqqı vardır. Bunun belə olacağına zərrə qədər də şübhə etmirdi. Buna baxmayaraq, Nadir xanın gur, qalın səslə dediklərini qələmə aldıqca, özünü elə aparırdı ki, guya, təəccübdən heyrətlənir.

- Bütün vilayətlərin hakim, sərkərdə və valilərinə!

Otaqda kağız üstə gəzən lələyin xışıltısından başqa heç nə eşidilmirdi.

- Bu fərmanı alandan sonra, bir həftədən gec olmayaraq, bir neçə yüz igid cavanla, balta, çəkic, mıx, mişar və başqa dülgərlik alətləri ilə Muğan çölünə yığışın»…

Muğanda qurultaya ciddi hazırlıq gedir…

Və Azərbaycan, ümumən Türk tarixinin bu möhtəşəm hadisəsi romanda kifayət qədər ustalıqla – dastan (epos) intonasiyası ilə təsvir olunmuşdur… Çox təəssüf ki, həmin tarixi hadisənin məkanı müasir Azərbaycan mədəni- ictimai təfəkküründə (yaddaşında!), demək olar ki, yoxdur…

O məkan ki…

«…Qış idi. Cavad düzənliyində soyuq yellər vıyıldayırdı. İlk balta səsindən Kürün kənarındakı meşələr diksindi. Ağacların budağına qonmuş qarğa- quzğun qanadlanaraq havaya qalxdı.

Heç kim inanan bilmirdi ki, qısa müddət ərzində Muğan düzündə əməlli-başlı böyük şəhər salmaq olar. Lakin minlərlə insan əməyi nəticəsində düzənlikdə tezliklə ağappaq binalar, hamamlar, istirahət evləri, məscidlər, ikimərtəbəli ləmlər, bazar və hətta şah ailələrinə layiq cah- calallı gözəl saray ucaldıldı. Belə möcüzələr yalnız nağıllarda olur…

Yollara dəvələrlə, öküz- kəl arabaları ilə dəniz və çay sahilindən gətirilmiş balıqqulağı və çınqıl döşənmişdi. Şəhərin girişində və çıxışında ləmə bənzər gözətçi qüllələri qurulmuşdu.

Nadir xan Həsənqaladan keçib, Yeni Şamaxı – Ağsu yolu ilə hicri təqvimi ilə 1148- ci ilin qış günlərinin birində axşamüstü Nadirabad adlanan bu təzə şəhərə gələndə artıq çox şey hazır idi»…

…Muğan qurultayı türk tarixinin ən paradoksal hadisələrindən biridir…

Bütün səlahiyyətləri əlində olan bir sərkərdə!.. Heç bir səlahiyyəti əlində olmayan bir tarixi sülalə- dinastiya!..

Və yazıçının hökmü!..

«…Orucluq bayramı günü carçıların səsi təzə şəhəri başına götürdü:

- Bilin və agah olun! Nadir xan hökm edir ki, hamınız bir- birinizlə məsləhətləşin! Səfəvi şahlığına, ölkənin sülh və əmniyyətini qorumağa, xalqın rifahını təmin etməyə layiq bildiyiniz bir kəsi seçin! Nadir xan Allahın köməyi ilə Səfəvi məmləkətini düşmənlərin işğalından azad edib, yadelliləri ölkənin mərzlərindən qovub. İndi qocaldığına və yorulduğuna görə dincəlməyə ehtiyacı vardır. Kəlata gedib, özünə və sizə dua etmək istəyir… Eşidin, bilin, agah olun!..»

Müzakirə gedir… Və bu müzakirə tarixdə öz qeyri- adiliyi (orijinallığı!) ilə qalmışdır ki, yazıçı da həmin qeyri- adiliyə ( tarixi həqiqətə!) uyğun olaraq ədəbi-tarixi təfsirini vermişdir… Təbii ki, Nadir xan şah olmaq istəyirdi və buna ilk gəncliyindən gələn fitri sərkərdəlik (başçılıq) istedadı ilə yanaşı sonrakı dövrlərdə qazandığı zəngin siyasi təcrübə (və nüfuz!) ilə də hazır idi. Ancaq ona həm tez-

tez mövqeyini dəyişən yerli hakimlərin, həm də «tarix»in heç bir mübahisəsiz (!) müdafiəsi lazım idi. Çünki o bilirdi ki, bütün dünyanı belə qılıncla birləşdirmək olar, ancaq ümumictimai razılıq olmasa az- çox davamlı dövlət qurmaq olmaz…

«…Əvvəlcə bir- iki yerdən alqış səsləri eşidildi, sonra bu səslər get- gedə artıb, bütün zalı bürüdü.

Hamı Nadir xana baxırdı. O isə qaşqabaqlı idi. Və başını yırğalayaraq, yerindən tərpənmədən, bərkdən:

- Yox! – dedi. – Mənim fikrim qətidir! Kəlata gedəcəyəm.

Bütün məclis mat- məəttəl qaldı. Hətta bir neçə yerdən ağlaşma səsi də gəldi. Nadir xan bu sözləri deyib, ayağa qalxdı və cavan yavərlərin əhatəsində məclisdən çıxdı. Camaat da pərt halda yavaş- yavaş ayağa durub öz evlərinə tərəf dağılmaq istəyəndə, yenə qazı Əzimulla xan Təbrizi əlini qaldırdı. Hamı dayandı. O dedi:

- Ağalar, bəylər, xanlar, ordu başçıları, hakimlər, qazılar! Bizim ayrı yolumuz yoxdur. Onsuz bu səltənət yenə qardaş qırğınına düçar olacaq və düşmənlər yurdumuzda at oynadacaqlar. Heç biriniz bir yana getməyin. Kim getsə, heyətin sərəncamı ilə həbs ediləcək. Çünki bu, vətənə xəyanət deməkdir. Hər gün yığışırıq, yeyib- içirik, bir qərara gəlməmiş o bizi atıb, ölkəni başlı- başına buraxıb heç yana gedə bilməz. Beləliklə, yalnız sabahacan hərə öz mənzilinə gedə bilər. Sübh tezdən hamımız burdayıq.

Bundan sonra hamı yavaş- yavaş dağılışdı. Zalda yüz nəfərə yaxın ən yüksək rütbəli əyanlar qaldı.

Təhmasib xan Cəlayir dedi:

- Ağalar, onun razılığını alana kimi hər gün yığışacağıq. Əvvəl- axır razılığını verəcək»…

Nadir xanın sərkərdəsi Təhmasib xan Cəlayir Nadir xanın tələblərini irəli sürür…

« - Birinci tələb! Siz bundan sonra Səfəvi nəslinin heç bir üzvünü və nümayəndəsini müdafiə etməyəcəksiniz.

Hamı uşaq kimi bir səslə çığırdı:

- Etməyəcəyik!

- İkinci tələb! Diqqətlə qulaq asın!

Məclisə sükut çökdü.

Təhmasib xan Cəlayir dedi:

- Əgər xalq Nadir xanın şah olmasını istəyirsə, bu gündən şiə məzhəbi ilə yanaşı, sünnü məzhəbinə də hörmət etməlidir. Bundan sonra Ömərə, Osmana lənət oxunmasın! Bu barədə nöqsanlı heç nə yazılmasın! Ondan ötrü ki, bir bulağın gözündən axıb şaxələnən bu iki ayrı məzhəb Allahı, Quranı bir olan millətin arasında çox fitnə- fəsada, qanlara səbəb olmuşdur… Bundan sonra bizimlə osmanlılar arasında ixtilaf və müharibə olmayacaq. Çünki hər iki məzhəblə bir peyğəmbərə və bir olan Qurana itaət edirik. Əgər sünnilər əlləri döşlərində, biz isə əlləri sallaq halda namaz qılırıqsa, bu, düşmənçiliyə səbəb olmamalıdır. Şiələr Məkkə ziyarətinə gedəndə innən belə sünnilər onlara əziyyət verməməlidir. Gərək biz də onlarla öz zəvvarlarımız və qardaşlarımız kimi rəftar edək. Əgər dövlətimizin təbəələri Nadir xanın şahlığını, ölkənin rahatlığını istəyirsə, bundan sonra şiəliyin Cəfəri təriqətinə səcdə edəcəkdir!

Məclis əhli vəcdə gəlmişdi. Dörd günlük ziyafətlər, yemək- içməklər, mərasimlər artıq hamını sərməst etmişdi. Taxt üstündə oturan və bir kəlmə də kəsməyib, yalnız danışıqlara qulaq asan Nadir xanın şəxsiyyəti elə mistik bir əzəmət almışdı ki, o nəinki məclis üzvlərindən təriqətlərini, hətta dillərini belə dəyişməyi tələb etsəydi, etiraz edən olmayacaqdı»…

Üçüncü tələb irəli sürülür…

«…Bəziləri üçün qəribə və çətin olsa da, ikinci tələb də yekdilliklə qəbul olundu. Bundan ruhlanan Təhmasib xan Cəlayir vəcdə gəlib səsləndi:

- Nəhayət, üçüncü tələb! Hamı ona, əlahəzrət Nadir xana, ondan sonra övladlarına və ailəsinə hörmət edəcək, onlara tabe olacağına and içəcək! Heç vaxt itaətsizlik və namərdlik etməyəcək! Bunu təsdiq etmək üçün buradakı bütün əyan, vali və sərkərdələr gəlib bir- bir Qurana and içib, yazılı sənədə qol çəkməlidir! İndi buyurun, bir- bir gəlin!..

Bu sözlərdən sonra məclisə sükut çökdü. Sonra adamlar növbə ilə bir- bir ayağa qalxıb, Təhmasib xan Cəlayirin qabağındakı iri masanın üstündəki iki metr uzunluğunda tumara qol çəkməyə başladılar»…

Nadir şah məqsədinə nail olur. Və bu, artıq döyüş meydanlarında yox, siyasət meydanında qazanılmış böyük qələbə idi…

Bütün tələblər qəbul edildikdən sonra Nadir xanın başına şahlıq tacı qoyulur…

Və yazıçı mükəmməl bir təfsilata gedir…

«…Nadir şahın göstərişi ilə tacqoyma və Novruz bayramı keçiriləcək on iki sütunlu, ipləri rəngarəng ipəkdən, yerinə qiymətli xalı- xalça döşənmiş böyük çadır hazır oldu. Bu, on iki dirəkli çadır Nadirin sifarişiylə Qəzvində hazırlanmışdı. Dildə- ağızda gəzən söhbətlərə görə on iki dirək 12 imamın rəmzini bildirirdi. Çadırın daxilində yeddi kiçik dirəklə qübbə yaradılmışdı. Yeddi rəqəmi də Nadir şah Əfşarın bəyəndiyi rəmzin mənasını bildirirdi… Çadırın hər tirinin başına qarpız böyüklüyündə gümüş kubok bərkidilmişdi. Çadırın düz ortasında iç tərəfdən çoxlu qiymətli daşlarla bəzədilmiş qızıl taxt qoyulmuşdu. Bir tərəfdə üstünə «Allahın kölgəsi, bütün Azərbaycan və İranın şahı Nadiri- dövran» sözləri yazılmış Tağі- nüsrət düzəldilmişdi. Artıq münnəcimlərin təyin etdiyi vaxt çatmışdı: gün doğandan sonra saaat 7.20- də hicri 24 şəvval 1148- ci ildə tacqoyma mərasimi başlandı. Səyyar sarayı xatırladan əzəmətli zalda iştirak edən bütün əyan, vali və qoşun başçılarına qızıla tutulmuş parçalardan tikilmiş xələtlər paylandı və Mirzə Zəki qiymətli daş- qaşla zinət vurulmuş dəbilqə şəkilli qızıl tacı taxtda oturmuş Nadir şahın başına qoyanda, hamı xalçanın üstə diz çökdü.

Tacın enli tərəfini ovucdan azca ensiz qızıl çənbər dövrələyirdi. Çənbərin üzərində Qurandan götürülmüş yazı həkk olunmuşdu.

Bu yazıdan yuxarıda iki böyük zümrüd daşı vardı. Bu qoşa zümrüdün hər birindən yanlara bir qızıl lələk uzanırdı. Onlardan yuxarı eynən belə lələklə üçüncü zümrüd daşı yerləşirdi. Amma bu lələk şaquli vəziyyətdə qoyulmuşdu. Həmin lələyin davamı kimi tacın yuxarı ucunda brilyant daşlarla süslənmiş daha bir lələk vardı…

Mollabaşı ayaq üstə xütbə oxudu. Bundan sonra fatihə verildi, bütün başlar əyildi, xanlar hamısı şahın hüzurunda səcdə etdi, alınlar yerə toxundu. Yalnız bundan sonra hamı dikəlib yerində oturdu.

Şahlıq qılıncı Nadir şah Əfşarın belinə bağlandı»…

Nadir şahın şəninə deyilən şeirlər, təriflər heç də hamını razı salmadı…

«…Bu fikrə yalnız Səfəvipərəst şairlərdən bəziləri dodaq büzdü. Onların birinin yazdığı nəzm xalq arasında dildə- ağızda gəzib dolaşdı:

*Biz malı- mülkümüzə, həyatımıza ümidimizi itirdik,*
*Bu hadisə xeyirli sayılan gündən...*

Vaxt gələcəkdi Nadir şah bu misralardan xəbər tutub, həmin o Səfəvipərəst şairlərdən bir neçəsinin edamına fərman verəcəkdi…

Hələlik isə, Çöli- Muğanda tacqoyma mərasiminin iştirakçıları şadlıq içində idi, mərasim çox böyük təntənə ilə davam edirdi. Nadir şah taxtında oturub öz ətrafındakı əhli- qələmin rütbələrini artırıb, onlara xələt verirdi. O, Mirzə Mehdinin yerinə Mirzə Möhtəməni münşibaşı, - yəni baş katib, Mirzə Mehdini isə özünün səlnaməçisi təyin etdi…

Həmin gün Nadirabadda keyf məclisləri başlandı. Hər yandan musiqi sədaları yüksəldi. Bu, görünməmiş bir hadisə idi. Təzə şəhərdə neçə müddətdən bəri dinclik və istirahətin nə olduğunu bilməyən minlərlə nəzarətçi, silahlı əsgər, fərraş, qulluqçu, aşbaz yeyib- içir, şənlənirdi»…

Nadir şah oğlu Rzaqulu xana vəliəhdlik verir…Və ona məsləhət görür ki…

«…Ziyafət məclisi başa çatandan sonra, Nadir şah Rzaqulu xanı hüzuruna çağırtdırıb dedi:

- Elə ki, şahlıq sənə çatdı, əvvəlcə, gərək Səbzivarda həbsdə olan Təhmasib Mirzənin gözətçilərini inandığın adamlarla dəyişəsən. Kənar şəxsləri ona yaxın qoymayasan. Cəmi şəhərlərə, qəsəbələrə təyin etdiyimiz hakimlərlə mərhəmətli olasan. Səhranişinlərin, elatların qayğısına qalasan. Allah eləməmiş, birdən Türküstandan, Osmanlıdan və yaxud Avropadan ölkəmizə hücum etsələr, müharibə eləmək barədə ağsaqqallarla, tayfa başçıları ilə məsləhətləş, onların fikrini öyrən! Əgər münaqişə sülh yolu ilə həll olunarsa, o zaman cahillik edib,

silaha əl atma. Oğruları, qarətçiləri, araqarışdıranları məhv edərsən. Tacirlərin – ələlxüsus da, əcnəbi tacirlərin karvanlarını qoru, onlara mehribanlıq elə! Ədalətli, səxavətli, sədaqətli ol ki, şöhrətin hər yana yayılsın. Artıq xərc, israfçılıq etmə, lakin ölkədə xoşagəlməz bir hadisə baş verdikdə, onu dəf etmək üçün xəzinədən doğru- dürüst istifadə etməkdə, əsgərləri həvəsləndirməkdə qətiyyətsizlik göstərmə»…

Nadir şah Hindistana yürüş edir… Əfqanıstanla Hindistanın sərhədində yaşayan çoxsaylı vəhşi katurlu tayfası ilə döyüşməli olur… Və onları məhv edir…

«… Bu görünməmiş əhvalatın səsi- sədası bütün Əfqanıstana və hətta Hindistana da gedib çatdı. Amma az adam inandı ki, katurlular tayfasının varlığına son qoyulub. Çünki nə İsgəndər Zülqərneyn, nə Xosrov Pərviz, nə Çingiz xan, nə də Teymurləng onlarla bacarmamışdı. Əlbəttə, şahənşahın sərkərdələri yaxşı bilirdilər ki, hansısa bir tayfanın və ya xalqın qətliamı yolverilməzdir. Bu, bəşər cinsinin hər hansı bir həlqəsinin qırılması deməkdir. Katurlular da, əlbəttə, tamam yox olmadılar. Arvad- uşaqları qaçıb sıldırım dağlardakı kiçik kəndlərdə və mağaralarda sığınacaq tapdılar. Amma katurlu adı, katurlu qorxusu əfqan- hind sərhədindəki mahalların əhalisinin ürəyindən həmişəlik yox oldu…

Nadir şah Hindistana nə üçün yürüş edirdi?..

«…Nadir şah çox yaxşı bilirdi ki, Hindistan kimi ucsuz- bucaqsız bir ölkəni fəth etmək o qədər də asan deyil. Ona görə də, bura hücum etməkdə əsas məqsədi böyük xərac və təzminat alıb, dövlətin iqtisadi vəziyyətini nizama salmaq, ordunu maddi və hərbi cəhətdən təmin etmək idi.

İllərlə aparılan müharibələrin nəticəsində xəzinədəki vəsait azalmışdı. Bundan başqa osmanlılarla ixtilafa son qoymaq, Bosfor boğazına qədər gedib çıxmaq üçün də böyük maddi imkanlar tələb olunurdu.

- Hindistanı fəth etmək bu işləri yoluna qoymağa kifayət edəcəkdi»…

Hind hökmdarı Məhəmməd şahın saysız- hesabsız qoşunu ilə döyüşən Nadir şah əsgərlərini dahi bir sərkərdə kimi ustalıqla qələbəyə ruhlandırır..

«…Bir müddət güllələrin çarpaz atəşləri davam etdi. Eyni vaxtda açılan yüzlərlə tüfəngin atəş səsindən qulaqlar heç nə eşitmirdi. Sonra patronlar boşalıb

qurtaranda oxlar işə düşdü. Bu dəfə güllə səslərini oxların vıyıltısı əvəz etdi. Bəzən oxlar havada bir- birinə dəyib yerə düşürdülər.

Nadir şah at belində əlini qaşları üstə qoyub, bu mənzərəyə, insan həyatının bir anda qırıldığı kədər və qəhrəmanlıq səhnələrinə baxırdı. Birdən o nə fikirləşdisə, qızıl üzəngili atından yerə düşdü.

Dəbilqəsini başından atıb, zirehlərini yerə tulladı və ətrafdakıların heyrətli nəzərləri altında diz üstə çökərək, əllərini göyə qaldırıb, dua etməyə başladı:

- Ey arzular qapısını açan və səadət meyvələrini göstərən! Ey səxavətli hədiyyələrlə heç bir dilək diləyəni əliboş qaytarmayan! Bax, elə indi, bu an, bu dəqiqə mənə qələbə xəbərini çatdır ki, qoşunlarım, qazilərim bu dəhşət fırtınasında qərq və qəhr olmasınlar!

Bu səhnəni yaxından müşahidə edənlərin bəziləri mat- məəttəl qaldılar, bəziləri isə qəhərdən ağladılar…

Nadir şah dua edib ayağa qalxdı, dəbilqəsini başına qoyub, zirehini geyindi və ayağını üzəngiyə qoyub, yenidən atının belinə qalxdı. Onun gur səslə verdiyi hücum əmrindən sonra ətrafdakı yüzlərlə qazi qılınclarını çəkib irəli atıldılar»…

Romanda bu cür epizodlara müraciət olunması Nadirin xarakterindəki, dünyagörüşündəki ən azı iki səciyyəvi xüsusiyyəti göstərməyə xidmət edir ki, həmin xüsusiyyətləri müasirləri də qeyd etmişlər:

1) o, Allah adamı idi və ona ürəkdən inanır, hər cür qələbəsinin məhz «təqdiri- Xuda» hesab edirdi;

2) ordunu ən çətin məqamlarda belə inandıra bilirdi ki, onlar – hər bir əsgər (və sərkərdə!) Tanrının himayəsindədir.

Və bütün bunlarla yanaşı öz iradəsini də diqtə edirdi, yəni sözün passiv mənasında ümidini Allaha bağışlamaqla işi bitmiş hesab eləmirdi…

… Məğlub olmuş Məhəmməd şah sülh istəyi ilə Nadir şahın ayağına gəlir. Və qalib şah onu hörmətlə qarşılayır…

«…Hindistan padşahı Nadir şahın çadırına yaxınlaşanda, dərhal atdan enib, qollarını geniş açdı və ona tərəf gəldi. Nadir şah da atdan enib, onunla qucaqlaşdı.

Ətrafda alqış sədaları qopdu. Bundan sonra  Şahənşah Məhəmməd şahın əlindən tutub, onu öz qızıl çadırına apardı.

Nadir şah öz taxtında, Hindistan şahı da eynilə o cür bəzədilmiş başqa bir taxtda elə yan- yana əyləşdilər.

Nadir xan türkcə dedi:

- Əlahəzrət, bizə dilmanc lazım deiyl, elədirmi?

- Elədir, - deyə Məhəmməd şah da türkcə cavab verib, başı ilə təsdiq etdi.

- Mənim əcdadlarım əfşarlardandır. Əfşarlar isə türk boylarından biridir. Belə olan halda bizim iki dövlətin Gürgan elləri ilə bağlılığı var.  Bizim ata- babalarımız eyni türkmən ailəsinə aiddirlər, elə deyilmi?

- Elədir, - deyə Məhəmməd şah yenə təsdiq etdi.

-Ona görə, - Nadir güldü, - biz bundan sonra bir- birimizi daha yaxşı başa düşəcəyik.

- İnşallah, - deyə Məhəmməd şah da gümrah bir səslə cavab verdi. – Əlahəzrət Nadir şahla görüşmək  mənə xoşdur!

Və iki şah, iki hökmdar təkbətək bir xeyli söhbət etdilər»…

Nadir şah təntənə ilə Dehliyə daxil olur…

«…Kornalda bağlanan sülh müqaviləsinə görə Nadir şah bir daha Məhəmməd şahı əmin etdi ki, Gurgani ailəsinin, Tərxan soyunun böyüklüyünə sayğı duyaraq, onu Hindistan şahı seçir.

Məhəmməd şah dedi:

- Əlahəzrət Nadir şah Cəmşid qüdrətli lütf və mərhəmət sahibidir. Böyük hümmət sahibinə bu mərhəməti müqabilində mən də səltənətə mənsub olan, sələflərimdən qalan böyük xəzinəni  cavahirati- nəfisəsi ilə birlikdə bağışlayıram.

Nadir şah dönüb bir anlıq mənalı nəzərlərlə katibi Mirzə Mehdinin üzünə baxdı, sonra hind padşahına və onun əyanlarına qeyri- adi görünsə də, əvvəlcə dünyanın ən böyük dövlətlərinin xəzinələrindən on dəfə zəngin olan iki yüz əlli illik bu xəzinəni qəbul etmək istəmədi.

Məhəmməd şah təkid etdi:

- Atadan oğula, qardaşdan qardaşa edilməyən belə bir mərhəmət və alicənablıq müqabilində dünya xəzinələrindən çox zəngin olan xəzinəmiz də bir şey deyildir. Bundan savayı, qüdrətli ordunuza dəyən xəsarəti- cəngi də ödəməyə hazırıq.

- Çox pakizə, - deyib Nadir şah yenə Mirzə Mehdiyə baxdı. – Qoy mənim katibim bu xəzinəni qəbul etməyə məmur olsun!

Mirzə Mehdi bağır basıb, hər iki şaha təzim etdi»…

Üçüncü kitabın birinci hissəsi Nadir şahın Dehlini- Hindistanı tərk etməsilə bitir…

«…Əlli iki gün Dehlidə qalandan sonra, Səfər ayının yeddisində Nadir şah ərəb atının belində, başında qırmızı zərli papaq, boynunda ağ Kəşmir şalı paytaxt xiyabanları ilə Kabil darvazasına doğru hərəkət etdi. Yolboyu camaata pul səpə-səpə gedən Nadir şah çoxlu dəvə, fil, qatır karvanları ilə Hindistandan böyük sərvət aparırdı…

İskəndər Hindistanı fəth edəndən sonra cəmi üç il ömür sürmüşdü, bəs, görəsən, əldə etdiyi tükənməz var- dövlətin səfasını görmək yaşı əllini ötmüş Nadir şaha daha neçə il nəsib olacaqdı?

Nadir şah fəth etdiyi, misilsiz sərvətini qənimət kimi apardığı hind xalqının dillər əzbəri olan qədim məsələsindən bixəbər idi: «İki şeydən birinin itirilməsi labüddür: ya var- dövlət səni tərk edəcək, ya da sən onu…»

Nadir şah obrazını nə qədər ehtiramla, məhəbbətlə yaratsa da, müəllif bir sıra məqamlarda, o cümlədən də bu yerdə insan taleyi ilə bağlı zəruri fəlsəfi ümumiləşdirmələr də edir, «Süleymana qalmayan bu dünya»nın nə qədər qüdrətli olsa da, Nadir şaha da qalmayacağını yada salır. Və onun nəticəsidir ki, romanın faktik qəhrəmanı Nadir olmaqla yanaşı, çox qabardılmayan, idealist (süjetin dərinliklərində «gizlədilmiş»!) bir baş qəhrəman da var ki, bu da Tale və ya Zamanın Gərdişidir…

Həmin qəhrəman yalnız Nadir şahın deyil, əsərdə obrazı təqdim olunan hər kəsin həyatını, tarixdəki yerini müəyyən edir…

İkinci hissə Nadir şahın ölüm xəbərinin yayılması ilə başlanır…

«… 1152- ci ilin baharında Nadir şahın ordusunun Hindistanda qorxunc xəstəliyə tutulması barədə ölkədə şaiyələr dolaşmağa başladı. Xorasana ticarətə gəlib- gedən hindlilər əhali arasında hətta Şahənşahın da həlak olduğu xəbərini yayırdılar.

…Çox çəkmədi ki, bu xəbər dildə- ağızda gəzə- gəzə səltənət sahibinin sarayına və şahın hərəmxanasına da gəlib çatdı. Nadir şahın ölüm xəbərindən vahiməyə düşən zövcələrindən biri – özbək qızı Zöhrə xatun nə vay- şivən qoparıb ağlamaqdan ürəyi qəşş eləyən hərəmlərə qoşuldu, nə də bir yerdə qərar tuta bildi. Hamı onun bura necə gəlib çıxdığının tarixçəsini yaxşı bilirdi. Sevdiyi adama yas saxlamaması əvvəlcə çoxlarını təəccübləndirdi. Sonra ayağıyalın, başıaçıq halda havalı adamlar kimi gəzib dolaşması hamının şübhəsini dağıtdı»…

Nadir şahın oğlu Rzaqulu xan əyanların məsləhəti ilə sarayda, əslində, əsir olan Təhmasib Mirzə ilə oğulları Abbas Mirzəni, İsmayıl Mirzəni öldürtdürür… Bunu eşidən Fatimə Sultanbəyim (Rzaqulu xanın Səfəvilərdən olan arvadı) da özünü öldürür…

«…Hicri təqvimi ilə 1153- cü ilin səfər ayının yeddisində Nadir şah Hindistandan Nadirabada gəldi. Bu şəhəri Qəndəharı alandan sonra tikdirmiş və bura Nadirabad adı verərək, özünün baş iqamətgahı elan etmişdi. Nadir şahın əmri ilə Qəndəhar əyalətinə hakim təyin olunmuş Əbdülqəni xan, Şahənşahın müzəffər ordusunu təntənə ilə qarşıladı.

Səkkiz gün barada qalan Nadir şah Xorasanın ağsaqqallarına, başçılarına və Tehranda olan Rzaqulu xana xəbər yolladı ki, tezliklə Herata gəlsinlər»…

Vəliəhd Rzaqulu xanın gecikməsi Şahı əsəbləşdirir…

Nadir şah Türküstana yola düşür. Və gecikmiş vəliəhd ona yolda çatır…

«…Nadir şah tanınmış əyanları və sərkərdələri çadırına çağırtdırdı:

- Oğlumun Təhmasib Mirzəni öldürməsi mənim ruhumu incidib, narahat edib. Buna görə də onu vəliəhdlikdən çıxarıram. Oğlum Nəsrulla xanı onun yerinə canişin təyin edirəm. Günü sabahdan yeni vəliəhd oğlum İmamqulu xan öz xanımı, hərəmxanası ilə bahəm Məşhədə yola salınsın. Rzaqulu xan isə mənim yanımda qalsın…

- Allah Şahənşahımızın ömrünü uzun eləsin! İnanırıq ki, naibüssəltənənin dəyişdirilməsi xalq tərəfindən çox şadayna qarşılanacaq.

- Zira, varis olan şəxs Şahənşahın gözünün ağı- qarası yeganə övladı olsaydı belə, mən Qılınc oğlu Nadir şah Əfşar kimi onun təbəələri incitməyinə göz yuma bilməzdim. Zoruna güvənən zorsuz qalar deyiblər»…

Nadir şah nə qədər böyük işlər görürsə, o qədər də böyük problemlərlə qarşılaşır…

«…Nadir şahın rusların iştirakı olmadan Osmanlı dövləti ilə sülh bağlaması, digər tərəfdən də  Hindistanın fəthindən sonra Hind okeanına çıxması Rusiya ilə İngiltərə kimi böyük dövlələri bərk narahat edirdi.

Bu nəhəng hərbi dühanı aradan götürmək üçün ölkənin daxilində də düşmənləri az deyildi. Hər cür çətin vəziyyətdən çıxış yolu tapan Nadir şah nə taleyin dönüklüyünü, nə də yaxınlarının xəyanətini ağlına belə gətirmirdi. Qazandığı şöhrət, fəth elədiyi  ölkələrdən gətirdiyi sərvət dövlətin, ordunun təminatı üçün kifayət etsə də, Şahənşah vergiləri günü- gündən artırırdı; bu isə, nəinki əhali, hətta məmurlar arasında da inamsızlığa səbəb olurdu. İş o yerə çatmışdı ki, yaxın qohumları da Nadir şahdan giley- güzar edirdilər. Söz yox ki, Şahənşahın şəhər hakimləri də, vergi yığanları da yaxşı bilirdilər ki, dövlət vergisiz yaşaya bilməz. Lakin on illərdən bəri müharibələr aparan bir ölkədə bu qədər qələbələrdən sonra öz təbəələrini  ağır vergilərə məhkum etmək heç bir hökmdara başucalığı gətirə bilməzdi»…

Ümumiyyətlə, Nadir şahın xarakterindəki bir sıra anlaşılmaz xüsusiyyətlər var ki, onların  sirrini nə roman, nə də tarix açmır. Bu  gün bizim yanlış sayaraq mühakimə etdiyimiz bir sıra qərarlara,  hərəkətlərə dahi şəxsiyyətin nə üçün yol verdiyi üzərində düşünmək, əlbəttə, əbəs deyil… Bütün bunlarla belə sual olunur: həmin yanlış qərarları qəbul edərkən, yaxud həmin yanlış hərəkətlərə yol verərkən Nadir şah onların uğur gətirəcəyinimi güman etmişdi, yaxsa bu, «əlinin üstündə əl olmayan» hökmdarın iddiası, özündən  razılığı (və ya fövqəleqosu!) idi ki, dünyaya meydan oxuyurdu?..

… Nadir şah dalbadal baş tutmayan sui- qəsdlərə məruz qalır…

Axır ki, sui- qəsd baş tutur. Və müəllif bunu təfsilatı ilə təsvir edir…

«…Nadir şah, Saleh xanı görən kimi söydü:

- Bişərəf! – Və onun üstünə atıldı.

Çöldəki nökərlər də çadırın cırılmış yerindən ağalarının dalınca içəri girdilər. Çadır əlləri qılınclı, xəncərli adamlarla doldu. Bu zaman bəxt Nadir şahdan üz döndərdi, ayağı çadırın orta dirəyinə bağlanmış ipə ilişdi və yerə yıxıldı. Qılıncına söykənib ayağa qalxsa da, zərbə endirməyə məqam tapmadı. Qəndillərin işığı da sui- qəsdçilərin işinə çox yaradı. Çünki onlar qaranlıqda çətin ki, işlərini belə cəld və üsulluca yerinə yetirə bilərdilər. Bundan başqa, Nadir şahın həmişə ətrafı lərzəyə gətirən, uzaqlarda əks- səda verən nərəsi də, elə bil, içində qırılıb qalmışdı. O heç ağzını aça bilmədi. Çünki Saleh xan Qırxlı içəri girən kimi, yuxudan təzəcə oyanmış şahın üstünə şığıyıb, kürəyinə möhkəm qılınc zərbəsi endirə bilmişdi. Nadir şah isə bundan bir an qabaq gələnlərin yaxın adam olduqlarını görüb, nərə çəkməyə gecikmişdi. Bəlkə də, bu adamların onu öldürməyə gəldikləri ağlına sığmamışdı. Buna əmin olanda, artıq iş- işdən keçmişdi…

Saleh xan qılıncı onun kürəyinə vursa da, elə qorxmuşdu ki, yerində donmuşdu… Bu zaman Məhəmməd xan Qacar irəli yeriyib, əlindəki qılıncı Nadir şahın başına endirdi, özü də elə- belə yox, bütün gücü ilə. Və bununla da, demək olar ki, məsələ həll olundu.

Nadir şah güclü adam idi. Əgər bu qılınc zərbəsi olmasaydı, o üç- dörd nəfərə çətin ki, can verərdi. O, qəndilin işığında başına tərəf gələn qılıncı gördü və bəlkə yayına da bilərdi, amma, nədənsə, dik dayandı.

Bircə onu edə bildi ki, əlindəki qızıl əmudu qarşısındakı adama tulladı. Bu zaman Qoçu bəy özünü yetirib, qılıncla Nadir şahın sağ qolunu doğradı.

Nökərlər isə Cukiyə tərəf atıldılar. Bu vaxt sui- qəsdçilər artıq müqavimət göstərməyən Nadir şahın üstünə düşüb, ona dalbadal qılınc zərbələri endirməyə başladılar. Nəhayət, Nadir şah yıxılıb, yerdə hərəkətsiz qaldı.

Nökərlər Cukini tutub, ağzını yummuşdular.

- Başını kəsin! – deyə Saleh xan çığırdı.

Bu amiranə iki kəlmə beyninin son işartıları sönən Nadir şahın özü ilə apardığı axırıncı sözlər oldu. Birdən- birə hər yanı zülmət bürüdü və onu sanki qan gölünə buraxdılar. Buna baxmayaraq, nə Qoçu bəy Əfşar, nə də Saleh xan Qırxlı artıq ölmüş Nadir şahın başını kəsməyə cəsarət etmədilər. Axırda, Musa bəyin nökəri gəlib, qılıncla cansız başı bədənindən ayırdı…

Elə bu zaman gözlənilməz bir hadisə baş verdi. Nökərlər Nadir şahın başını götürüb nizəyə keçirmək üçün Cukini buraxdılar. Gənc qadın cəld balışın altından xəncərini götürüb, sui- qəsdin əsas təşkilatçıllarından olan Saleh xanın üstünə cumdu. Başları Nadir şahın kəsilmiş başını nizəyə keçirməyə qarışan nökərlər Cukiyə mane olmağa macal tapmadılar və cəsur qadın xəncərini hədəfə – Saleh xanın böyrünə soxdu.

Saleh xan

- Vay! – deyib diz üstə çökdü. Sonra əlini yarasına basıb yıxıldı. O biri sui- qəsdçilər ley kimi Cukinin üstünə cumub onu da o dünyaya – Nadir şahın yanına göndərdilər»…

Üçüncü kitab qətlə yetirilmiş Nadir şahın varidatının – xəzinəsinin talan olunması ilə bitir…

«…Sui- qəsdin təşkilatçıları Nadir şahın özü ilə gəzdirdiyi varidatını zəbt edib, sonra hərəmlərinin çadırlarına soxuldular, onların üst- başındakı, boyun- boğazlarındakı qiymətli əşyaları aldılar. Sonra Nadir şaha yaxın olan üç nazirin çadırlarını ələk- vələk elədilər, yalnız Həsənəli bəy Müəyyirülməmalikə rəhm edib, digərlərini qəddarcasına qətlə yetirdilər.

Çox çəkmədi ki, Nadir şahın ən çox etibar etdiyi gözətçilərdən ibarət süvari alayının başçısı, əfqan sərkərdəsi Əhməd xan Əbdal öz dəstəsilə sui- qəsdçi əfşarların üstünə hücum etdi. Düşərgədə olan özbək döyüşçüləri də əfqanlara qoşuldular. Qoçu bəy Əfşar əlinin işarəsiylə onları saxladı. Və onunla Əhməd xan Əbdal arasında bir xeyli mübahisə oldu. Lakin bu mübahisə heç bir fayda vermədi, qızılbaşların sayca çox olmasına baxmayaraq, əfqanlar döyüşə- döyüşə Cukinin çadırına soxuldular.

Nadir şahın başı kəsilmiş bədənini görəndə, əlləri yanlarına düşdü. Daha bundan sonra yanıb- yaxılmaq faydasız idi. Döyüşə- döyüşə geri çəkilən Əhməd xan Əbdal zabitlərinə:

- Qəndəhara dönürük! – deyə əmr etdi.

Yolda Nadir şahın düşərgəsinə sarı Pəncabdan gələn xəzinə yüklü karvanın qabağını kəsdilər.

Karvanbaşının Nadir şahın ölümündən xəbəri yox idi.

Əhməd xan Əbdal xəzinəni ələ keçirib, öz alayı ilə Qəndəhara yollandı»…

Roman «Proloq»la başladığı kimi «Epiloq»la da bitir…

Sui- qəsdçilər Nadir şahın, demək olar ki, bütün nəslini məhv edirlər…

«…Nadir şahın nəşi Məşhəd şəhərinə gətirilib, sağlığında öz adına tikdirdiyi Bala Xiyabandakı sərdabədə torpağa tapşırıldı.

Qızılbaş tayfaları, hətta əfşarlar, az qala, tanrı deyib, səcdə etdikləri belə bir adamın qətlini çox sakit qarşıladılar. Çünki dildə- ağızda gəzən söhbətlərdə onun insan başlarından düzəltdirdiyi qalalardan bəhs olunurdu.

Kəlatda olan ləl- cəvahiratı, milyonlarla nəqd pulu Məşhədə gətizdirən Əliqulu xan isə, Nadir şahın öülmündən on altı gün sonra Əli şah kimi taxta çıxıb, özünə Adil ləqəbini götürdü»…

«Sonuncu fateh» romanı bitir…

«…Aradan bir neçə qərinə ötüb keçdi…

Nadir şah əfşar əbədi olaraq sevimli Məşhəd şəhərinə «qayıtdı», bu dəfə tunc atın belində – əzəmətli bir heykəl kimi…

İndi Asiyanın sonuncu böyük fatehi bahar günəşinin al şəfəqləri altında bərq vuran həmin əzəmətli heykəlindən həsrətlə keçmişə – ölkədən- ölkəyə yürüş etdiyi günlərə boylanır… Və qərinələrin o üzündən gələn gur səsi sanki bahar rüzgarına qoşulur: «Mən xaqan deyiləm ki, xalqa himayədarlıq edim, Allah deyiləm ki, rəhmli, mərhəmətli olum, peyğəmbər deyiləm ki, xilas yolunu göstərim… Mən Böyük Qüdrət Sahibinin qəzəbli çağında yaratdığı adi adamam ki, sağlığımda olduğu kimi, öləndən sonra da RUHUM özümə saray bildiyim atımın yəhərində oturub, yenə də günahkar dünyanı gəzib dolaşır…»

Roman müəllifi, nəticə etibarilə, çox şeydə olduğu kimi bir də onda haqlıdır (bu, əsərin bütün ideya- məzmunu ilə diqtə olunur!) ki, Nadir şah öz dövrünün (və dövranının) epizodik qəhrəmanlarından fərqli olaraq böyük Tarixə onu (həmin Tarixi) yaradanlardan biri kimi əbədilik daxil oldu. Və bu gün Azərbaycan xalqının tarixi (və ya tarixçiləri) Nadir şahı bu və ya digər qərarlarında, hərəkətlərində nə qədər günahlandıra bilərsə, Nadir şahın ruhu da onu (və onları) o qədər günahlandıra bilər.

Ümumən türk tarixini öz məşhur «Fəxriyyə»sində sözün geniş (və böyük) mənasında təhlil etməyə çalışan dahi Mirzə Ələkbər Sabir Nadir şaha çatanda heç zaman unudulmayacaq hökmlərindən birini də vermişdi ki…

Bir vəqf Şah İsmayilü Sultani – Səlimə
Məftun olaraq eylədin islamı dünimə,
Qayduq iki tazə adı biz dini- qədimə;
Saldı bu təşəyyö, bu təsənnüm biri bimə-
Qaldıqca bu halətlə sərayi- əsəfiz biz!
Öz dinimizin başına əngəlkələfiz biz!

Nadir bu iki xəstəliyi tutdu nəzərdə,
İstərdi əlac eyləyə bu qorxulu dərdə,
Bu məqsəd ilə əzm edərək girdi nəbərdə,
Məqtulən onun nəşini qoyduq quru yerdə…
Bir şeyi- əcəbiz, nə bilim bir tühəfiz biz!
Öz dinimizin başına əngəlkələfiz biz!..

# IV. Dramaturgiya

Hüseynbala Mirələmov keçən əsrin 90- cı illərinin ortalarından başlayaraq bir sıra dram əsərləri yazmışdır ki, buraya «Gəncə qapıları», «Pənah xan Cavanşir», «Xəcalət», «Vicdanın hökmü», «Ləyaqət», «Cəza quyusu», «Miras», «Axirətdən gələn səs» və s. aiddir…

*

*   *

«Gəncə qapıları» (1997) iki hissəli tarixi dramdır…

Dram Cavad xanın monoloqu ilə başlayır. Və bu monoloqda Azərbaycan tarixinin ən mürəkkəb dövrünün səhifələri varaqlanır…

«…Mən Şahverdi xan oğlu Cavad xan 1748- ci ildə Gəncədə doğulmuşam. Kişi gərək heç vaxt yaxışılığ itirməsin. Qarabağ hakimi İbrahim xanın yardımı və xeyir- duası olmasaydı, otuz yeddi yaşımda xanlıq taxtına otura bilməzdim. Ata-

oğul kimi idik. Amma, təəssüf ki, sonradan aramız dəydi. Buna səbəb Ağa Məhəmməd şah Qacara qoşulub Gürcüstana hücum etməyim oldu. İbrahim xandan sonra o biri xanlar da məndən üz döndərdilər, təkləndim. Soyuqluğu aradan götürməkdən yana çox çalışdım. Sədaqətimi isbat etmək üçün oğlumu və qızımı İbrahim xanın yanına – Şuşaya girov göndərdim. Qəbul etmədi.

1796- cı ilin martında İbrahim xanın və avar hökmdarı Ömər xanın atlı dəstələri Gəncəyə hücum etdi, carlı Rəhim xanın süvariləri də onlara qoşuldu. Fürsəti qənimət bilən gürcü çarı Georgi yeddi min kinto ilə üstümə yeridi. Gəncə mühasirəyə düşdü. Bir neçə aydan sonra şəhərdə qıtlıq başlandı. Beş min gəncəli gözlərimin önündə aclıqdan və susuzluqdan tələf oldu. Yenə də təslim olmadım, döyüşdüm! Düşmən iradəmi qıra bilməyəcəyimi görüb geri çəkildi. Müstəqilliyimi qan bahasına da olsa, qoruyub saxladım. Mən onda ilk dəfə azad ruhun nəyə qadir olduğunu duydum, hiss etdim!

Azərbaycan – mənim vətənim gör neçə yerə bölünüb: Şəki, Şamaxı, Quba, Qarabağ, Gəncə, İrəvan,Naxçıvan, Maku, Xoy, Qaradağ, Ərdəbil, Talış, Təbriz, Urmiyə, Marağa, Sərab, Gilan xanlıqları, Car- Balakən, İlisu, Qazax sultanlıqları…

Rusiya da knyazlıqlara bölünmüşdü… Birləşdilər, dövlət oldular! İndi hökmləri Gündoğandan Günbatana çatır! Biz də birləşəcəyik, biz də qüdrətli dövlət olacağıq. Mənim bundan başqa məramım yoxdur!..»

Göründüyü kimi, bu monoloqda (elə pyesin başlanğıcında) yazıçı-dramaturq öz qəhrəmanının – Cavad xanın xarakterindəki üç mühüm cəhəti ön plana çəkir:

1) qürur, cəsarət və mərdlik;

2) səhvlərini, günahlarını etiraf etmək, onlardan nəticə çıxarmaq;

3) yalnız xanlıq (Gəncə) miqyasında yox, ümumən Azərbaycan miqyasında son dərəcədə siyasi- mənəvi məsuliyyət, vətənpərvərlik.

…Cavad xan öz tarixi məramını açıqladıqdan sonra səhnədən gedir. Və yerinə həyat yoldaşı Şükufə xanım gəlir…

« Bir dəfə qızlarla bulağa getmişdim. Səhəngi doldurmaq növbəsi mənə çatanda ağ atın belində bir oğlan gəldi, başında buxara papaq, əynində vəznəli

çuxa, belində gümüş xəncər… Su istədi. Rəhmətlik nənəm deyərdi ki, su İmam Hüseyn ehsanıdı. Dolçanı doldurub verdim, amma gördüm bunun məqsədi su içmək deyil. Elə hey  gözaltı mənə baxır. O çıxıb gedəndən sonra qızlardan soruşdum ki, bu, kimdir? Dedilər ki, Şahverdi xanın oğlu Cavad xandır, guya tanımırsan? Doğrudan datanımırdım. Nə isə… Bir dəfə də mən bulaqda tək olanda gəldi, yenə su istədi. Dolçanı doldurub verdim. Suyu içə- içə yenə gözaltı mənə baxırdı. Suyu içəndən sonra dedi ki, ay qız, sənin verdiyin bu suda nə hikmət varsa, qəlbimin yanğısını yatırmır, əksinə, alovlandırır.  Gördüm xatalı söz danışır. Səhəng dolmamış götürüb getmək istədim. Yolumu kəsdi, dedi: «Sənə elçi göndərəcəyəm, fikrin nədi?. Ürəyim uçundu. Dedim: «Harada görünüb ki, xan oğlu rəiyyət qızına elçi göndərsin?». Dedi: «Mən xanamsa, sən də sultansan!». Güldüm. Dedim ki, sən Gəncənin xanısan, yaxşı, bəs mən haranın sultanıyam? Dedi ki, sən  mənim qəlbimin sultanısan! Gəncə böyükdü, yoxsa mənim qəlbim? Dinmədim. Fikirləşdim ki, madam ki, o məni qəlbinin sultanı sayır, onda mən də özümü nə  bəy, nə də xan qızlarından əskik hesab eləmirəm»…

Səhnədə Pavel Dmitriyeviç Sisyanovun «Gəncədən əsən küləklərdən üşüyə-üşüyə»Tiflisə gəlməyi, Cavad xanınsa Gəncədə yuxusunda Helati monastrından Gəncə  qapılarını belində Gəncəyə gətirməsi  göstərilir.

Və ideya- obrazların diqqəti çəkən təzadı yaradılır.

Cavad xan Tiflisə elçi göndərib Gəncə qapılarını geri istəyir… Əks təqdirdə müharibə ilə hədələyir.

Gürcülər məsələni müzakirə edirlər…

«…İkinci knyaz. Qardaşlar, vətənimiz, doğrudan da, ciddi təhlükə qarşısındadır. Acizlik  göstərməməliyik. Ağıl bəzən ən böyük gücün öhdəsindən gələ bilmədiyi işi asanlıqla həll etməyi bacarır. Təklif edirəm ki, özümüzə müttəfiq tapaq.

Birinci knyaz. Yaxşı fikirdir. Axı Cavad xanı istəməyənlər də az deyil… Məsələn, götürək elə Azərbaycan xanlarını…

Georgi. Mən onları yaxşı tanıyıram. Cavad xandan xoşları gəlməsə də, qorxuram ki, Gəncə qapıları məsələsində tərəfkeşlik eləsinlər… Biz o qapıları

zəfərlə başa çatan şərəli döyüşdən sonra hərbi qənimət kimi gətirmişik… Bu bizim böyük tarixi qələbəmizdir… Cavad xan bunu şəninə sığışdıra bilmir!.. Yazır ki, Gəncə qapılarının yeri boş görünür…

Keşiş. Məgər Gəncədə dəmir yoxdu? Məğər Gəncədə dəmirçi yoxdu?

Georgi. Dəmir də var, dəmirçi də! O istəsə, bunlardan da qəşəng qapılar düzəltdirər! Amma düzəltdirmir! Tərslik eyləyir! Nəyə görə? Tarixə və qüruruna görə!.. Bir fikrinizlə razıyam: özümüzə güclü müttəfiqlər tapmalıyıq. Amma buna vaxt lazımdır. O isə təcili cavab gözləyir»…

Müttəfiq isə öz ayağı ilə gəlib çıxır ki, bu, «Rusiyanın Qafqazdakı qoşunlarının yeni sərdarı», «gürcü balası» Sisyanovdur.

Gürcü çarı Georgi onu xilaskar kimi qarşılayır…

Təntənəli ziyafət… Çar Georgi təklif edir ki, Sisyanova məhz qızı Nona saqilik etsin. Nona hörmətli qonağa hər cür qulluq göstərir, onunla rəqs edir… Və ondan xahiş edir ki, atasını Gəncə xanı Cavad xandan mühafizə eləsin. Sisyanov razılaşır.

Sisyanov Nonadan ayrılıb çar Georgiyə yaxınlaşır. Və onların arasında maraqlı bir mükalimə olur…

«…Georgi *(həyəcanla)*. Bəs niyə təksiniz? Nona hanı? Axı mən ona tapşırmışdım ki, sizdən bir addım da aralanmasın, qulluq göstərsin... *(Ora- bura baxa- baxa qışqırır)*. Nona!.. Nona!..

Pavel Dmitriyeviç Sisyanov. Narahat olmayın. Mən özüm belə istədim. Dedim ki, ikilikdə bir balaca söhbət edək. Axı mən qulluq adamıyam!

Georgi. Ən əsası odur ki, siz gürcüsünüz…

Pavel Dmitriyeviç Sisyanov *(ucadan gülür)*. Ha- ha- ha!

Georgi. Niyə gülürsünüz?

Pavel Dmitriyeviç Sisyanov *(sakit tərzdə)*. Heç, yadıma bir şey düşdü…

Georgi. Cənab general, bilmək olarmı o şey nədi?

Pavel Dmitriyeviç Sisyanov. Niyə olmur? Mən döyüşdə qələbə çalanda həmişə rus kimi təriflənmişəm, məğlub olanda isə qabiliyyətsiz gürcü kimi

məzəmmət olunmuşam… Nə isə… Bütün bunlar boş şeylərdir… İndi məni maraqlandıran sizin problemlərinizdir»…

Çar Georgi Cavad xan haqqında Sisyanova məlumat verir…

«…Həddən artıq qürurludur. İtaət etməyi sevmir… Fürsət düşən kimi də gücünü göstərir… Əcdadları kimi döyüşsüz yaşaya bilmir. Məndən Gəncə qapılarını istəyir. O qapıları ki, məhz sənin babaların Şəmsəddin döyüşündən sonra onları hərbi qənimət kimi gətiriblər. O döyüşdən yadigar qalan tək nişanə onlardı… Özün de, xaç qədər qiymətli Gəncə qapılarını necə qaytara bilərik? Nə tarix, nə də babalarımızın ruhu bizi bağışlamaz. Hələ nə qədər torpaqlarımızı zəbt ediblər! Buna baxmayaraq əmin- amanlıq əhdnaməsi imzalamışıq ki, aramızda sakitlik olsun… amma xeyri yoxdu, bir balaca güclənən kimi bəhanə tapıb üstümüzə gəlirlər»…

Sisyanov Qafqazdakı vəziyyət haqqında daha çox məlumat almaq istəyir. Və alır…

«…Pavel Dmitriyeviç Sisyanov. Deyəsən, gözünüzün odunu bərk alıblar. Bəs heç zəif cəhətləri yoxdu?

Georgi. Var. Azərbaycan xanlarının arasında birlik və mehribanlıq yoxdu. Fürsət düşən kimi bir- birləri ilə didişirlər.

Pavel Dmitriyeviç Sisyanov. Aydındır. Bəs ermənilər necə, onlara arxalanmaq olar?

Georgi. Tatarlardan fərqli olaraq ermənilər çox hiyləgərdilər, həm də xəbis və xaindirlər. Satqınlıqda da tayları- bərabərləri yoxdu. Qafqaza gəlmədilər, özlərinə kaxtağan – dar ağacından qaçmışlar deyirlər. Əri çox olmuş arvaddan, ağası çox olmuş quldan nə gözləmək olar? Belədilər də! Əsasən, qarınlarını güdürlər. Çörəklərini bir gün verməsən oğurluq edəcəklər, iki gün verməsən başını kəsəcəklər, üç gün verməsən od vurub evini yandıracaqlar…

Pavel Dmitriyeviç Sisyanov. Bəs ermənilərin tatarlara münasibətləri necədi?

Georgi. Üzdə yaxşı, altda pis… Üzdə kirvə, altda düşmən…

Pavel Dmitriyeviç Sisyanov. Çox yaxşı. Elə məni də üz yox, alt maraqlandırır. Sən narahat olma. Cavad xana mən özüm məktub yazacağam… Deyəsən, Nonanı çox tək qoydum.

Georgi. Nona!.. Nona!.. Pavel Dmitriyeviçə və mənə şərab süz!..»

Gürcü çarı Georginin Qafqazdakı vəziyyət barəsində verdiyi məlumat, əslində, həqiqətə uyğundur. Və yalnız milli təəssübkeşlikdən irəli gələn bir sıra məqamlar istisnadır ki, bunu da təbii saymaq olar… O cümlədən Gəncə qapılarının məqam güdüb oğurlanaraq deyil, guya qələbənin qəniməti kimi aparılması…

…Erməni Lorisin başçılığı altında Sisyanov gecə yarısı Cavad xana elçi göndərir ki, təslim olsun…

«…Cavad xan. Rütbəsi nədi?

Loris. General.

Cavad xan. Görünür, yetimxanada böyüyüb. Atasız- anasız olub, hə?

Loris. Yox…

Cavad xan. Necə yox? Uruslar həmişə başqa xalqların kimsəsiz uşaqlarından özlərinə generallar hazırlayıblar.

Loris. Yox, xan, bu knyaz nəslindəndir…

Cavad xan. Əşi, indi hansı gürcünü dindirirsən, deyir ki, mən knyaz nəslindənəm. Mənim zindanımda yüz gürcü əsir var, yüzü də deyir ki, mən knyazam… Knyaz bir olar, üç olar, beş olar, ta yüz olmaz ki…

Loris. Xan, bu çox kübar adamdı…

Cavad xan. Kübar adam qələt eləyər gecə vaxtı adamın evinə adam göndərməz»…

Cavad xan elçilərə sərt cavab versə də, müdrik dövlət adamı kimi anlayır ki, Sisyanovla «oyun» çətin olacaq…

«… Dünyanın o başından yaz, yay, payız, qış demədən illərlə yol gələn adam mənzil başına çathaçatda mənim bir cümləmlə geri qayıtmaz. Ruzigar pis əsdi. Mənim iki yolum var. Ya təslim olmalıyam, ya döyüşməliyəm. Təslim olsam ola bilər ki, arvad- uşağa dəyməsinlər, özümə də sür- sümükdən versinlər, şərəf, namus, qeyrət getsin işinə, camaat yanında hörmətdən düşüm, xəcil olum.

Döyüşsəm, əsir düşsəm, yaralansam, ya ölsəm, arvad- uşağıma aman verməzlər, nəvələrimi qılıncdan keçirəcəklər. Yox, mən döyüşməliyəm. Çünki birinci yolun əzabı ikinci yolun əzabından çoxdur. Yox! Mən döyüşməliyəm! Qürurum, azadlığım üçün döyüşməliyəm! Vətənim, xalqım üçün döyüşməliyəm!..»

Cavad xanın yalnız bir cümlədən («Sizi Qafqaza əcəl gətirib!») ibarət məktubunu oxuyub özündən çıxan Sisyanovun öz- özünə «Baxarıq!.. Baxarıq!..» deməsilə dramın birinci hissəsi bitir.

İkinci hissə çar Georginin «mülahizələr»ilə başlayır..

«…Hörmətli ruhani Ata! Hörmətli cənablar! Sizə bir xoş xəbər verəcəyəm. Düzü, mən çox qorxurdum ki, Cavad xan gələr Pavel Dmitriyeviçlə görüşər, ünsiyyət yaradar, dostlaşar. Nə olsun ki, gürcüdü, hər halda, qulluq adamıdı, dövlətin mənafeyini qoyub, bizi tutmayacaq ki? Bundan da bizə bir ziyan dəyər. Amma xoşbəxtlikdən belə olmadı. Cavad xan həmişəki kimi dikbaşlıq elədi. Bununla da Sisyanov həzrətlərinin qəzəbinə tuş gəldi! İndi ümid edə bilərik ki, cənab Sisyanov həzrətlərinin öz məktubunda yazdığı kimi, Şəmsəddin mahalı yaxın günlərdə bizim olacaq…

Birinci knyaz. Bəs Gəncə, Qazax?

Georgi *(gülümsəyərək).* Onlar da bir qədər sonra… Tələsməyin…

Keşiş. Azad olunan yerlərdə ilk növbədə, dini ocaqlar – kilsələr tikməliyik…

Georgi. Bəli, bəli… Düz buyurursunuz. Sizinlə tamamilə razıyam.

Keşiş. Təəssüf ki, Sisyanov həzrətləri – gürcü balası hələ indiyə kimi kilsəmizə təşrif buyurmayıb. Görüşüb söhbət edə bilməmişik… Halbuki bu çox vacibdir. Çünki dinimiz hörməti üstün tütür, insanları ədəbli olmağa, bir- birini sevməyə çağırır. Tutaq ki, Gürcüstan Rusiyanın təəbəliyini qəbul etdi. Çar məmurları xristian gürcü kilsəsinə hörmət- izzətlə yanaşacaqlarmı?

Georgi. Yəqin yanaşacaqlar, onlar da xristiandırlar. Ruhani ata, ondan inciməyin, qulluq adamıdı, işi- gücü çox olur. Bir də bayaq dediyim kimi, nə olsun ki, əslən gürcüdü. Sankt- Peterburq tərbiyəsi alıb. O gəlmir, siz gedin! Mehribanlıq göstərin! *(Knyazlara).* Bu söz sizə də aiddir. Gündə biriniz yanına gedin,

həmsöhbət olun, qiymətli hədiyyələr aparın. Gərək onun da yuxarılara verməyə əlində bir şey olsun»…

Gürcülərin, göründüyü kimi, öz dövlət müstəqilliklərini saxlamaq üçün elə yollara əl atdıqları göstərilir ki, həmin yollar azərbaycanlıların – Azərbaycan türklərinin nə mentalitetinə, nə də siyasi- tarixi təcrübəsinə uyğun gəlir…

Və Georgi knyazlara öz məsləhətlərini verməkdə davam edir…

«… Biz çalışmalıyıq ki, Sisyanov nəyin bahasına olur- olsun, öz qoşunu ilə Gəncəyə girsin. Cavad xan hələ də məni hədələyir… Lorisdən xəbər göndərib ki, heç kəsə arxayın olma, Gəncə qapılarını qaytar. *(Knyazlara*). Cənablar, biz çox passivik, çox! Övlad bizimdir, amma yan- yörəsindəkilərin çoxu ermənilərdir. Baş aça bilmirəm, bunlar nə cür məxluqdurlar – su kimi hər yerə sızırlar.

Keşiş. Onlar Cavad xanı Sisyanova, Sisyanovu da Cavad xana satıblar. Bilinmir ki, kimə xidmət edirlər.

Birinci knyaz. Bilinir… Bilinir… Özlərinə, yalnız özlərinə… Guya onları tanımırsınız. Bizə nə qədər badalaq gəliblər. Çörəyimizi yeyib, suyumuzu içmələrinə baxmayaraq, bir balaca imkan düşən kimi kəndirimizi kəsərlər. Fitva verməkdə mahirdilər. Səni kimlə desən, hətta öz qardaşınla da düşmən edərlər. Mayaları məkr və hiylədən yoğrulub.

Georgi. Çox, çox ehtiyatlı olmalıyıq… Unutmamalıyıq ki, indi Gürcüstanın taleyi həll olunur»…

Cavad xan Azərbaycan xanlarını nəvəsinin adqoyma mərasiminə dəvət edir… Xanlar Sisyanova qarşı birgə dayanacaqlarına söz verirlər…

Sisyanov Gəncəni mühasirə edir…

«… Portnyakin. Görəsən, bu döyüşdən sonra…

Pavel Dmitriyeviç Sisyanov. Məni rus adlandıracaqlar, yoxsa gürcü? Allah bilir! Hər halda, çalışaq ki, rus adlandırsınlar! Bəs sizə nə fikirdəsiniz?

Portnyakin. Qəribə də olsa, qorxuram. Çünki hər şey əleyhimizədir. Hava da, qoşunun əhval- ruhiyyəsi də… Beş yüz əsgərimiz qarın ağrısına tutulub…

Pavel Dmitriyeviç Sisyanov. Bu, döyüşqabağı adi haldır, həyəcanlanmağa dəyməz… *(Pauza).* Elə bil külək o tərəfdən qəribə iy gətirir…

Portnyakin. Plov iyidir. Düyüdən, ətdən, albuxaradan, ərik qurusundan, kişmişdən, şabalıddan və zəfərandan hazırlanır. Axı bu gün müsəlmanların müqəddəs Ramazan bayramıdır.

Pavel Dmitriyeviç Sisyanov. Çox yaxşı… Deməli, bu gün onların plov qazanlarının ağzı açılmayacaq.

Portnyakin. Sizcə, bu günah deyil?

Pavel Dmitriyeviç Sisyanov. Mən əsgərəm! Günah isə döyüş meydanında məğlub olmaqdı! Bu döyüşdə mümkün qədər az itki verməliyik. Qafqazda görüləsi hələ çox işimiz var… Üfüqdə Bakı görünür!.. O şəhər məni ahənrüba kimi özünə çəkir! Hətta elə bilirəm ki, məhz o şəhərdə hərbi karyeramı başa vuracağam!.. O döyüş son döyüşüm olacaq!..»

… Gəncə alınır. Cavad xan döyüşdə həlak olur… Sisyanov Gəncə əhalisi ilə elə ilk görüşdə İmperiyanın ağır iqtisadi- hərbi şərtlərini elan etdikdən sonra xalqın ruhunu sındırmağa yönəlmiş qərarını açıqladıqda əhali dözmür, bu təhqiri, məğlub da olsa, öz qüruruna sığışdırmır…

*«Gəncə. Cümə məscidi. Camaatı məscidə toplayıblar.*

Sisyanov. Camaat, sizi bura toplamaqda məqsədim budur ki, əlahəzrət imperatorun fərmanı ilə sizi tanış edim. Şəhər əhalisi hər il 20 min manat pul, 250 tağar buğda, 250 tağar yarma, 600 tağar arpa verməli, bu gündən şəhərdə yerləşdiriləcək rus əsgərlərini azuqə ilə təmin etməli, İmperatora sədaqətlə xidmət edəcəyinə and içməlidir. Şəhər bu gündən Yelizavetpol adlanacaq. Küçədə, bazarda, meydanda, karvansarada hansı zümrə, vəzifəyə mənsub olmasından asılı olmayaraq kimin dilindən «Gəncə» sözü eşidilsə, cəzalanacaq. Həmin şəxsin qolu vurulacaq, dili kəsiləcək! Öldürülməyəcək! Əzab çəkə- çəkə yaşayacaq ki, başqaları ibrət götürsün. Odur ki, mən sizi itaətkar olmağa çağırıram!

*Adamlar «Gəncə!», «Gəncə!» deyə ucadan qışqırmağa başlayırlar və qışqıra- qışqıra şəhərin dörd bir tərəfinə – küçə və meydanlara axışırlar.*

Pavel Dmitriyeviç Sisyanov (*çaşmış halda Portnyakin*ə). Yox, deyəsən, bu iş çətin olacaq…

Portnyakin. Mən də elə düşünürəm…

Pavel Dmitriyeviç Sisyanov. Bəs indi nə edək?

Portnyakin. Məncə, getsək, yaxşıdı. Yoxsa, kütlə sakitləşməyəcək…

Pavel Dmitriyeviç Sisyanov. Hə, hə… Düz deyirsən… Gedək… Gedək.

*Pavel Dmitriyeviç Sisyanovla Portnyakin gedirlər. Camaat isə «Gəncə!», «Gəncə!» deyə şəhərin küçə və meydanlarına axışmaqda davam edir».*

Sisyanov Cavad xanın arvadı Şükufə xanımla görüşür. Və etiraf edir ki, «bu qadın düz düşünür. Mən onu cismən, o (söhbət Cavad xandan gedir – N.C.) isə məni ruhən öldürüb»…

Əsər çox mükəmməl (və ibrətamiz!) bir sonluqla bitir…

*«...Arxa planda Gəncənin əzəmətli qala divarları görünür. Ağ tuman-köynəkdə bir ruh – bu, Cavad xanın ruhudur – şələləndiyi iri, ağır yükü kəhildəyə-kəhildəyə aparır. Hiss olunur ki, gücü tükənmək üzrədir. İndicə üzüqoylu yıxılacaq. Amma inadından dönmür.*

Cavad xanın ruhu. Aparacağam, nə olur- olsun, aparacağam… *(Bir addım atıb dayanır).* Aparacağam, Allahın yardımı ilə aparacağam... *(Yenə bir addım atıb dayanır).* Mənzil başına nə qaldı ki..? *(Yenə bir addım atıb dayanır).* Budur, qala divarları da göründü… Ya mədəd!.. *(Yenə bir addım atıb dayanır).* Yerə qoymayacağam… *(Özü özünə).* Hə, tərpən, yolçu yolda gərək… *(Yenə bir addım atır. Bu vaxt şıqqıltı eşidilir).* Yəqin , yenə o bayquşdu… *(Bu vaxt ayaq səsləri eşidilir).*

*İşıqlar dəyişir.*

*Sisyanovun ruhu sənhədə görünür və Cavad xanın ruhuna yaxınlaşır.*

Sisyanovun ruhu. (*Cavad xanın ruhuna).* Ey, yurdsuz- sərgərdan, sən kimsən?

Cavad xanın ruhu. Mən ruham, Cavad xanın ruhu…

Sisyanovun ruhu. Cavad xan… Cavad xan… Köhnə tanış…

Cavad xanın ruhu. Sən məni tanıyırsan?

Sisyanovun ruhu. Tanıyıram… Özü də çox yaxşı…

Cavad xanın ruhu *(Diqqətlə baxır).* Bəs sənin başın hanı?

Sisyanovun ruhu. Başımı Hüseynqulu xan Bakıda – qala divarlarının önündə kəsdi. Məni başsız dəfn elədilər…

Cavad xanın ruhu. Hə, indi bildim kimsən… Sisyanov… Demişdimmi ki, səni Qafqaza əcəl gətirib?..

Sisyanovun ruhu. Demişdin… Demişdin… Nə isə… İndi o günləri xatırlamağın heç bir mənası yoxdu… O apardığın nədi?

Cavad xanın ruhu. Gəncə qapıları…

«Gəncə qapıları» Hüseynbala Mirələmovun dramaturq kimi ilk yaradıcılıq məhsullarından olsa da, kifayət qədər mükəmməl – həm idyea- məzmun, həm də poetika- forma axtarışları baxımından uğurlu əsərdir. Müəllif süjetin miqyasca genişlənməsindən, tarixi hadisələrin təfsilatına (xırdalıqlarına) varılmasından qaçmış, bunun əvəzində isə tarixin məntiqinin, dövrün ictimai- siyasi (və beynəlxalq münasibətlər) mənzərəsinin, eləcə də Azərbaycan xalqının tarixi ideallarının müxtəsər (və kamil!) dialoqlarında ifadə edilməsinə diqqət yetirmişdir… Və buna nail olmuşdur…

*

* *

«Pənah xan Cavanşir» pyesi xalq yazıçısı Elçinə ithaf edilmişdir.

«Gəncə qapıları» kimi o da tarixi mövzudadr.

… Və pyes Nadir şahın öz əyanları ilə söhbətilə başlayır…

«…Nadir şah. Pərvərdigara, mən İran üçün nələr etmədim? Dövlətin qüdrətinə pəl vurmaq istəyənlərin belini qırdım. Xəzinəyə uzanan haram əlləri kəsdim, yıxılmış səltənəti ayaq üstə qoydum. Hər dəfə də dönüklərlə, xainlərlə üz-üzə gəldim. Hindistan kimi nəhəng bir ölkəni fəth etdim, oradan böyük sərvət və saysız qənimətlə qayıdıb gəldim. Mirzə Mehdi, gəlib nə gördüm? Qılıncımı öpüb altından keçən xanlar üzümə dururlar. Deməli, mən təzədən qılıncımı İranda – öz vətənimdə işə salmalıyam? İndi mən kimə inanım, kimə arxa çevirim ki, qəfil zərbə almayım?..»

Nadir şah Qarabağlı Pənahəli bəyi öz hüzuruna çağırtdırır. Bu zaman xəbər verirlər ki…

«…Nəqşəçibaşı. Qibleyi- aləm, Qarabağdan Çiləbörd məliyi Allahqulu hüzurunuzda baş əyməyə izn istəyir.

Nadir şah. Ağalar, deyəsən, bu gün Qarabağ günüdü. Mirzə, kimdi o Allahqulu, sultan adı verdiyim erməni məliyidi?

Mirzə Mehdi. Elədir, şahım, Sizə sədaqəti ilə seçilən xəmsə məliklərinin ən nüfuzlusudu.

Nadir şah. Qarabağ harada, İsfahan harada? Buraxın gəlsin!..»

Allahqulu gəlir… Və Nadir şah onu kifayət qədər hörmətlə qarşılayır…

«…Xub! Keçək əsas məsələyə. Bildiyiniz kimi, ağalar, Allahqulu İran taxtı-tacına çox böyük sədaqətlə qulluq edib, bir müddət mənim yanımda da çalışıb. Yaxşı xidmətinə görə ona sultan rütbəsi vermişəm. Əgər bu gün Qarabağ mənim əlimdədirsə, onun səbəbkarı xəmsə məlikləri, birincisi də məlik Allahquludur. Dini dinimizdən olmasa da, o, İran taxtı- tacına sidq- ürəkdən xidmətdə olub. Ümumiyyətlə, ermənilər həmişə İrana yardımçı olublar.

Allahqulu. Qibleyi- aləm, cənnət Qarabağın qədrini biz gəlmələr yerli əhalidən yaxşı bilirik. Çünki biz o cənnət məkanda doğulmamışıq. Mən Mağavizdən, Dizaq məliyi Loridən, Vərəndə məliyi Göyçədən, Talış məliyi Şirvandan Qarabağa gəlmədir. Gəlmə gözəl torpağın, yerin qədir- qiymətini daha yaxşı bilir»…

…Və Allahqulu mətləbə keçir…

«…Allahqulu. Qurbanın olum, şah, bizim bircə təvəqqemiz var.

Nadir şah. Nə təvəqqe? Müxtəsər!

Cəfər xan (*Məhəmməd xana*). Gözlərindən hiylə yağır bu xaçpərəstin.

Məhəmməd xan. Dabbaqda gönünə bələdəm, arxadan bıçaq vuranlardandı.

Allahqulu. Qibleyi- aləm, bizim məliklər həşəmətli Nadir şahın sayeyi-mərhəmətində birləşib kiçik bir sultanlıq yaratmaq istəyirlər ki, vergiləri həm vaxtında ödəyə bilsinlər, həm də qədərini artırsınlar.

Nadir şah. Eşidirsən, Mirzə Mehdi xan?

Mirzə Mehdi. Sultanlıq yaratmaqda məqsədiniz nədir, Allahqulu bəy?

Allahqulu. Şah sağ olsun, sultanlıq birliyimizi artıracaq, idarəni mərkəzləşdirəcək, mənəm- mənəmliyə son qoyacaq.

Nadir şah. Bəs niyə sultanlıq? *(İstehza ilə).* Bəlkə xanlıq yaradasınız?

Allahqulu *(sevinir).* Elə mən də sözümü ora gətirirdim, qibleyi- aləm. Yəni addım- addım…

Nadir şah *(məzələnir).* Niyə addım- addım?

Allahqulu *(gülümsəyir).* Qibleyi- aləm, tələsmək müsəlman işidir.

Nadir şah. Bax, bu oldu təmiz söhbət. *(Qəhqəhə ilə gülür*). Sultanlıq, xanlıq, sonra da Qarabağ dövləti, eləmi?

Allahqulu *(tərəddüdlə).* Məsləhət sizindir, qibleyi- aləm.

Nadir şah. Məlik Allahqulu, sənə sultan rütbəsi verdim. Gərəkdi ki, çaşmayasan. Mən can qoyub qan tökmüşəm, şəhərləri, kəndləri bir- bir alıb parçalanmış İranı birləşdirmişəm ki, yenidən xanlıqlar yaradım, öz əlimlə qurduğumu öz əlimlə də dağıdım? *(Qeyzlə)* İtirmə etibarımı, xəmsə məliyi, qorx qəzəbimdən! Nadir şah mükafatlandırmağı bacardığı kimi, cəzalandırmağı da bacarır.

Allahqulu. Qibleyi- aləm, canımız səna fəda olsun, biz ki sənin nökərlərin, qullarınıq»…

Bu zaman Pənahəli bəy gəlib Allahqulunun (və ümumən erməni məliklərinin) Qarabağdakı nadürüst əməllərini ifşa edir. Hətta Nadir şahın Qarabağ siyasətinin doğru olmadığını üzünə deməkdən də çəkinmir.

Və bu da Nadir şahın xoşuna gəlmir…

«…Nadir şah. Qılıncın kimi dilin də itidi, Pənahəli bəy.

Allahqulu. Şah sağ olsun, bir Allah şahiddi ki, biz ermənilər həmişə müsəlman əhlinə dost- qardan olmuşuq. Bizim var- dövlətimizi, mal- qaramızı, sürülərimizi çalıb- çapsalar da, dost olmuşuq, məzhəb haqqı, çomağın o biri başını çevirməmişik.

Pənahəli bəy. Xain erməni, sənin fitvanla mənim el- obam didərgin salınıb. Qarabağın cavanşirlər, kəbirlilər, otuzikilər elatı Sərəxs səhrasında əsir- yesir

olublar. Budur dostluq? Xəlvətdə gödən söküb, aşkarda göz yaşı tökürsən? Məlik Allahqulu, unutma ki, belə qalmayacaq, Qarabağ əhli tezliklə o yerlərə qayıdacaq və sənin cəzanı mən özüm verəcəyəm. Bax, həqiqi göz yaşını onda axıdarsan.

Nadir şah *(qeyzlə).* Xamuş! Cəza verəcək, ağladacaq… Nə vaxt verəcəksən o cəzanı, Pənahəli bəy? Nə vaxt? Nadir şah öləndən sonra? Yoxsa məni devirmək, İran taxtını ələ keçirmək fikrinə düşmüsən? Sən doğru deyirsən, Rza xan, doğrudan da, mən çox yumşalmışam…

Rza xan. Qibleyi- aləm, bu, məni istəməyənlərin iftirasıdı.

Nadir şah *(əlini qaldırıb onun sözünü kəsir).* Mən dünyaya meydan oxuyan Nadir şah Əfşar, bir tərəkəmə ilə murdar erməninin deyişməsinə qulaq asacağam? Mirzə Mehdi xan, əvvəlki vaxtım olsaydı, cəllad çoxdan burada olardı. Rədd olun! Hamınız rədd olun! *(Çaşıb qalmış əyanlara*). Nə devikmisiniz qırt düşmüş toyuq kimi, rədd olun, hamınız rədd olun, itilin!..»

Nadir şah imkan verir ki, Pənahəli bəy nə düşünürsə hamısın desin…

«…Pənahəli bəy. Şah sağ olsun, bütün Qarabağ bəylərbəyliyi, güneyli-quzeyli Azərbaycan. Bütün xanlıqlarımızı arxasınca çəkib aparmaq qüdrətinə malik olan mən – Pənahəli bəy Cavanşir. Amma siz nə etdiniz, bizim həqiqi dostluğumuzu qəbul etmək, bizə arxalanmaq əvəzinə, şah sağ olsun, erməni fitvası ilə bütöv bir elatı, Qarabağın ab- havasında yaşamağa öyrəşmiş xalqı köçürtdünüz Xorasanın Sərəxs düzünə, səhrayi- kəbirə. Özü də kimin, hiyləgər bir erməninin – Allahqulunun fitvası ilə.

Mirzə Mehdi. Pənahəli bəy, sən Nadir şahın hüzurundasan. Qibleyi- aləmin ovqatından sui- istifadə eləmə!

Nadir şah. Dayan, Mirzə, qoy danışsın. Mən təbəələrimin özüm və siyasətim haqqında nə düşündüklərini bilmək istəyirəm. Davam elə. Pənahəli bəy, davam elə.

Pənahəli bəy. Şah sağ olsun, ta mənim sözüm yoxdu, dikbaşlıq elədimsə, bağışla, Allah xatirinə! Qul xətasız, ağa kərəmsiz olmaz»…

Nadir şah əmin olur ki, Pənahəli bəy «düzələsi» adam deiyl. Və o, cəzasını almalıdır…

Ancaq tarix qarşısında cavab verəcəyini də dərk edir…

«…Pənahəli bəy. Şah sağ olsun, sizə sədaqətlə xidmət etmək borcumdur.

Nadir şah. Xub! (*Əliylə işarə edir. Pənahəli bəy təzim edib gedir. Xeyli çəkən pauza. Şah Mirzə Mehdi xanı süzür*). Niyə susdun, Mirzə? Yazdınmı bu ixtilatı?

Mirzə Mehdi. Şahım, bu, içində hakimiyyət iddiası olan dikbaş qarabağlının sadə səmimiyyəti idi.

Nadir şah. Sən hər şeyi olduğu kimi yaz, Mirzə, qoy sonra tutacağım işə görə məni qınamasınlar, adıma qəddar şah deməsinlər.

Mirzə Mehdi. Şahım, səni qınamağa, heç kim cəsarət eləməz.

Nadir şah. Əlbəttə, indi cəsarət eləməz, bəs mən olmayanda? Biz «Tarixi-Nadir»i indikilər üçün yazmırıq.

Mirzə Mehdi. Şahım, sənin güclü məntiqin qarşısında biz acizik»…

Pənahəli bəy məşuqəsi «gavur qızı» Süsənbərlə görüşür… Əslində, o həm də xəfiyyə idi, ancaq bəyə ürəkdən vurulduğundan çox hallarda onu sarayın məkrlərindən qoruyurdu.

Birinci pərdə Pənahəli bəyin digər Qarabağlı bəylərlə birlikdə İsfahandan qaçması, onu öldürmək üçün axtaran Nadir şahın isə əyanlara qəzəblənməsilə sona çatır…

İkinci pərdənin əvvəlində hadisələr artıq Qarabağda baş verir… Və Pənahəli bəyin İsfahandan qaçandan sonrakı taleyi barədə Qarabağın erməni məliklərinin söhbətindən xəbər tuturuq…

«…Yeqan. Deyirəm, ağalar, Qarabağ da bizim olarmış. Allah Nadir şahın ömrünü uzun eləsin, bu dilbər diyarın külli- ixtiyarını bizə verdi, babam Allahqulunu da sultan elədi. Biz gecə- gündüz o kişiyə duaçı olmalıyıq.

Hüsü. Baba, Vərəndə mahalı Nadir şaha alqış eləyə- eləyə yatır, alqış eləyə-eləyə oyanır.

Allahqulu. Alqış eləmək, dua oxumaq azdır, məlik Hüsü, biz Nadir şahı düşmənlərindən qorumalıyıq. Düz üç ildir o məlun Pənahəli, şahın nəzərindən qaçıb gizlənir, özü də harada – burada, bizim Qarabağ mahalında.

Şahnəzər. Onu kim deyir ki, Pənahəli bəy buradadır?

Allahqulu. Mən o nadürüst quldurun iyini almışam, məlik Şahnəzər. Siz bilmirsiniz, onun Qarabağda, Qarabağətrafı mahallarda qaçaqçılıq elədiyi hamıya məlumdur. Yoxsa, gecələri səksəkə içərisində yatdığımızı da danacaqsınız? Çox xırdalamaq istəmirəm, onu bilirəm ki, Nadir şaha alqış eləməklə iş bitmir, biz özümüz Qarabağı saxlaya bilməsək, əlimizdən alacaqlar.

Usub. Vay astvas, onu tutmaqmı olar, cin- şeytan kimidir. Sorağı gah Gəncədən gəlir, gah Naxçıvandan, nə bilim ta haradan? Mənciyəz gecə yerimə girəndə qapı- pəncərəmi bərk- bərk bağlayıram.

Şahnəzər. Sən qapı- pəncərəni yox, ağzını bağlasan, daha yaxşı olar»…

Erməni məlikləri Qarabağın dilbər bir güşəsində Pənahəli bəyi necə tutub Nadir şaha təslim edəcəklərini müzakirə edərkən Pənahəli bəy başının dəstəsilə gəlib ora çıxır.

Və məlum olur ki, Pənahəli bəy artıq Pənah xandır…

«…Pənah xan. Elədir, qız vermisiniz, qohum olmusunuz, amma Nadir şahın qılığına girib mənim qohum- əqrabamı, elimi- elatımı Sərəxs düzünə də köçürtdürmüsünüz. Mən neçə ildir ailəmin üzünə həsrət qalmışam. Allahqulu, Cavanşir nəslinin say- seçmə igidlərini şərləyib qansız Nadir şahın qəzəbinə tuş gətirəndə qorxmadınmı? Bilmədinmi haqq gec eləyər, güc eləyər? Qardaşım Fəzləli sənə nə pislik eləmişdi ki, onu şərləyib verdin güdaza? Bundan sonra sən necə rahat yaşayırsan?

Allahqulu. Pənah xan, mən nəkarəyəm ki, Nadir şah sözümlə durub- otura? O, həşəmətli İran hökmdarı, mənsə onun hüzurunda baş əyən zavallı bir erməni məliyi.

Pənah xan. Neynək, məlik Allahqulu, qoy sən deyən olsun, amma haqq nazilər, üzülməz. Qayıdıb gəlir didərgin saldırdığın elim- obam. Cavanşir, Kəbirli, Otuzikilər elatı artıq yoldadırlar, çıxıblar Sərəxsdən. Görək onlara nə cavab verəcəksən!

Usub. Vay astvas! Bəs o camaat Nadir şahın qəzəbindən qorxmur?

Pənah xan. Nadir şah indi çox uzaqlardadır, ağalar, əliniz ona çatmayacaq.

Allahqulu *(pıçıldayır)*. Ola bilməz…

Pənah xan. Məliklər, bilin və agah olun, kölgəsində gizlənib gödən sökdüyünüz Nadir şah Əfşar artıq yoxdur.

Usub. Vay Astvas!

Şahnəzər. Necə yəni yoxdur? Yoxsa…

Pənah xan. Bəli, məlik Şahnəzər, Nadir şah sui- qəsdin qurbanı olub. Onu öz əyanları yatağında qanına qəltan eləyiblər.

Allahqulu. Axı be necə ola bilər?

Pənah xan. Bilin ki, bu gündən külli Qarabağın ixtiyaratı məndədir. Sizin hakiminiz Nadir şah yox, Pənah xan Cavanşirdir.

Usub. Vay astvas!..»

Müəllif gərgin ovqatla zəngin bir dialoq qurur: bir tərəfdə özündən razı, ancaq son hadisələrdən (xüsusilə Nadir şahın öldürülməsindən) xəbərsiz ermənilər, digər tərəfdə haqq- ədalət uğrunda mübarizə aparan (və hadisələrin içərisində olan) Pənah xan… Ermənilərə «vay astvas!» deməkdən başqa heç nə qalmır…

Pənah xan məlikləri ittifaqa dəvət edir… Onlar isə aranı qarışdırıb nə «hə», nə də «yox» demədən gedirlər…

«…Lütfəli bəy. Niyə onları qırmadın, dayı? Niyə sağ buraxdın? Hələ o məlun Allahqulunu? Axı o bizim qanımıza yerikləyir. Gözlərindən məkr, hiylə yağır.

İbrahim ağa. Mamaoğlu düz deyir, ata, gərək onları sağ buraxmayaydın. Elə dayısına əl qaldıran o Şahnəzəri də. İlan ilandı – ağına da lənət, qarasına da.

Pənah xan. Tələsməyək, cavanlar, tələsməyək. Əvvəla, onlar tək deyillər, hərəsi bir mahalın məliyidir. İkincisi də, nə deyirsiniz, duraq bütün erməniləriqılıncdan keçirək? Bu lazımdırmı? Yox, Lütfəli bəy, yox, İbrahim ağa, mən qan tökə- tökə xan olmaq istəmirəm. Onda mənim ermənidən nə fərqim oldu? Biz çalışıb düşməni dost eləməliyik. Ağalar, bizə qılıncla bərabər siyasət- fəndgirlik də gərəkdir»…

Pənah xan öz arzuları, qarşısına çıxan maneələr və onları necə dəf edəcəyi barədə danışır…

«...Pənah xan. Heydərqulu xan, mən həmişə sənin dost münasibətini hiss eləmişəm. Bu ağır günümdə uzaq yol qət eləyib gəlməyin də məni ziyadə şad etdi.

Heydərqulu xan. Naxçıvan eli həmişə Qarabağ xanına arxa olub, Pənah xan. Az vaxtda bütöv Azərbaycanda ad- san qazanmağın, Adil şahın sənə xanlıq fərmanı göndərməsi, inan ki, bizi xoşhal etdi.

Pənah xan. Heydərqulu xan, bir Allah şahiddir ki, mən neyləyirəmsə, millətimi, Allah payı olan bu ziqiymət vətənimizin gələcəyini düşünüb eləyirəm. Amma nə çətinliklərdən keçirəm. Şan- şöhrət artdıqca, düşmənlər də çoxalır. Ayağı yer tutan özünə borc bilir ki, Pənahabada qoşun yeritsin. Allahın və sənin kimi dostların sayəsində onların qıçlarını qırmışam. Amma Fətəli xan Əfşar məsələsində yaman səhv etdim. Məni sadəlövh uşaq kimi aldatdı, İbrahim ağanı hiylə ilə tora saldı»...

Və onu da əlavə edir ki...

Pənah xan. Vallah, həm gülməyim gəlir, həm də qəzəbimdən dişim bağırsaqlarımı kəsir. Bu ermənilər nə qədər bizə kələk gəlirlər? Nə qədər xəyanət edirlər, üstümüzə gələn düşmənin qabağına düşüb bələdçilik eləyirlər. Xəlvətə düşəndə bıçağı kürəyimizə saplayırlar, amma yenə də bizə dərs olmur. Quyruqları qapı arasında qalan kimi elə dil çıxardır, elə qılıqlanırlar ki, hər şey yaddan çıxır. Bu nə sirdir, Heydərqulu xan, nədir bizi bu qədər unutqan eləyən? Bunlar nə cür düşməndilər?

Bu zaman Allahqulu Pənah xanın hüzuruna gəlir...

«...Pənah xan. Yaxşı, məlik Allahqulu, təşrif gətirməkdə məqsədin nədir?

Allahqulu. Mənim davam torpaq davasıdır, xan sağ olsun!

Pənah xan. Torpaq davası? Davan kiminlədir, məlik Allahqulu?

Allahqulu. Xan sağ olsun, sənin adamların hər tərəfdən məni sənin adından sıxa- sıxa qoz qabığına soxur. Başına dönüm, axı mən bu torpaqları qılınc gücünə, quldurluqla yox, pulla almışam, ətək- ətək qızıl vermişəm. Hələ o Şahnəzər bədəsil, doğma dayısının qatili, sığınıb sənin kölgənə, hədyanlar danışır. Qızını İbrahim ağaya verib bir az qudurub, fironluq eləyir. And olsun babam ərvahına, onun işığını qanla keçirdəcəyəm!

Pənah xan. Molla Dəlili, bu Allahqulunu xanın hüzurunda belə hərzə- mərzə danışdıran nədir?

Vəzir. Xan sağ olsun, Allahqulu məliyi danışdıran puludu, qızılıdı. Yatırı o qədər çoxalıb ki, hesabını bilmir.

Allahqulu. Səhvin var, Molla, məni dilləndirən xanın hüzuruna gətirən ədalətsizlikdi. Haqsızlıqdı.

Pənah xan. Heydərqulu xan, eşidirsənmi?

Heydərqulu xan. Pənah xan, eşidirəm də, təəccüblənirəm də! Haqdan, ədalətdən dəm vuran bu adam mənim yanıma gəlmişdi ki, sənin əleyhinə ittifaqa girək. İndi özün hesabını götür. Düşmən ocaq başındadır.

Allahqulu. Heydərqulu xan, mən səni mərd adam bilirdim.

Heydərqulu xan. Bəsdir bizim mərdliyimizdən istifadə elədiniz. Mərdlik yaxşı şeydi, bir dəfə də siz mərd olun, kişi kimi, mərdi- mərdanə düşmənçilik eləyin»…

Və erməni məliyinin illər uzunu etdiyi təxribatçı hərəkətlərə, apardığı «tülkü siyasəti»nə, gördüyü alçaq işlərə, nəhayət ki. son verməк lazım gəlir…

Pənah xan Allahqulunu edam etdirir…

… Kərim xan Zənddən məktub gəlir…

… «Şan- şövkətli Qarabağ xanı Pənah xan Cavanşir! Fətəli xan bizimlə nəinki düşmən, bəlkə də qanlıdır. Oğlunu məkr və kələklə yanına aparıb girov saxladı. İndi əlindən gələn dostluğu və yoldaşlığı müzayiqə etmə. Birləşib intiqam alsaq, oğlunu azad etsək, sən sevindiyin kimi, biz də arzumuza çatmış olacağıq. Çünki Fətəli xan Əfşar qardaşım İsgəndərin qatilidir»…

… Pənah xan təklifi qəbul edir.

Döyüş meydanı təsvir olunur. Və Kərim xan Zəndlə Pənah xan görüşürlər…

«…Kərim xan. Pənah xan Cavanşir, biz qalib gəldik, ağlatdıq Fətəli xan Əfşarın göyçək anasını. Sən oğlun İbrahim ağanı azad etdin, mən də qardaşım İsgəndərin qisasını aldım.

Pənah xan. Şövkəti- şanın göylərə ucalsın, Kərim xan Zənd, sən deyilmişkən varsan, böyük sərkərdəsən!

*Hər ikisi qucaqlaşırlar.*

Kərim xan. Biz on igidə bərabər Pənah xansız, naxçıvanlı Heydərqulu xansız, irəvanlı Hüseynəli bəysiz bu müşkül işi asan həll edə bilməzdik. Düşmən də olsa, Fətəli xan igid adamdı, döyüşkəndi. Amma Pənah xan, çöhrəndə sevinclə bahəm bir kədər də görürəm. Bu nə pəjmürdəlikdir?

Pənah xan. Səbəb az deyil, Kərim xan. Niyə bizim igidliyimiz, tökdüyümüz qanlar cılız əməllərə, intiqam almaq kimi xırda hisslərə qulluq eləsin?

Kərim xan. İnan ki, Pənah xan, mən heyrətdəyəm. Sizi yaxından tanıdıqca, valeh oluram. Doğru deyirsiniz, biz gücümüzü özümüzün, dini, dili, nəsli bir olan insanların iddiasını dəf etməyə yönəldirik. *(İki silahlı Fətəli xanı gətirir)* Ah, bu da bütün qeylü- qalların səbəbkarı, nahaq tökülən qanların biskarı igid Fətəli xan Əfşar. Osmanlılar demiş, iyimisən?

Fətəli xan *(istehza ilə gülümsəyir).* Ləşkəri qırılmış, əsir düşmüş, şəhəri payi- mal olmuş sərkərdənin halı necə olar, Kərim xan? Bizim hər birimiz udduğumuz qədər də uduzmuşuq, məğlub hökmdarın nələr çəkdiyi üçümüzə də məlumdur»…

Urmiyada – Fətəli xan Əfşarın sarayında ziyafət verilir…

Kərim xan Zənd İran şahı elan olunur…

O, İbrahim ağaya xan titulu verib atası Pənah xanın yerinə Qarabağ xanı təyin edir… Fətəli xan Əfşarın boynunu vurdurur, Pənah xana isə öz sarayına – Şiraza getməyi təklif edir…

Hadisələr bitir… Və fonoqramla səslənən mətn sonrakı tarixi olayların icmalını verir…

«…Pənah xan Cavanşir Kərim xan Zəndlə Şiraza gedəsi oldu və iki aydan sonra qürbətdə vəfat etdi. Beş ildən sonra isə Kərim xan Zənd özü xəstəlikdən dünyasını dəyişdi. Vərəsələri və qohum- qardaşları onun hakimiyyəti və var-dövləti üstündə o qədər didişdilər ki, meyidi ortalıqda qalıb şişdi, iyləndi. Daha sonra Kərim xan Zəndin sarayında on üç il göz dustağı olmuş Ağa Məhəmməd xan Qacar İran taxtına yiyə çıxıb başına tac qoydu, atası Astrabadlı Məhəmməd Həsən xan Qacarın başını kəsdirmiş Kərim xan Zəndin sümüklərini qəbirdən çıxartdırıb

səltənət taxtının ayaqları altında basdırtdı ki, hər taxta çıxıb- düşəndə onun sümüklərini ayaqlasın. Bu, o Ağa Məhəmməd şah Qacar idi ki, Şuşa adı almış Pənahabada ikinci həmlədə işğalçı kimi daxil olmuş və ölümünü də burada tapmışdı. Nə yazıq ki, Pənah xan Cavanşirin Pənahabad adı ilə tikdirdiyi, sonralar Şuşa adı ilə məşhur olan şəhər bu gün Pənah xanın nəvələrinin deyil, xain erməni məliklərinin tör- töküntülərinin əlində əsirdir»…

Pyes Pənah xanın ruhunun monoloqu ilə bitir…

«…Ya Rəbbim, yalnız sənin hökmünə tabe oldum, yalnız sənə iman gətirdim, sənə arxalandım, sənə üz tutdum. Yalnız sənin verdiyin cəsarətlə, güclə mübarizə apardım, səltənət qurdum! Haradadır bizimkilər? Haradadır İbrahim ağa, Molla Dəlili, Heydərqulu xan, Lütfəli bəy? Haradadır bizim nəvə- nəticələrimiz, kötükcələrimiz? Mən onları burada – Pənahabadda gözləyəcəyəm!..»

Tarixi faktlara ümumən sədaqətlə, yüksək vətənpərvərlik ruhunda qələmə alınmış əsərin yalnız bir çatışmazlığı vardır ki, o da dialoqların bəzən həddindən artıq uzadılması, hərəkətlərin (dinamizmin) zəifliyidir. Bu da pyesi oxumaq üçün nə qədər maraqlı etsə də, səhnə üçün, əlbəttə, müəyyən problemlər yarada bilər.

*

*    *

«Xəcalət» (2003) iki hissəli dram əsəri olub Qarabağ mövzusuna həsr edilmişdir. Müəllifin eyni adlı povesti əsasında yazılmış əsər yalnız Azərbaycan səhnəsində deyil, Azərbaycandan uzaqlarda da Qarabağ həqiqətlərinin göstərilməsində, təbliğ olunmasında olduqca böyük rol oynamışdır…

Əsərin birinci hissəsi Bakıda qaçqın mənzilinin təsviri ilə başlanır…

*«Musiqi səslənir. İşıq yavaş- yavaş sönür. Səhnədə nimdaş kişi, qadın, uşaq paltarı asılmış zivələr nəzərə çarpır. Bir- birini kəsən zivələrdən azca aralıda elektrik lampası asılıb. Qaçqınların yaşadıqları yataqxanada balaca bir otaq. Bura həm xörək bişirmək, həm yeyib- içmək, həm də yatmaq üçündür. Pərdə ilə ayrılmış kiçik arakəsmənin arxasında köhnə bir taxt var. Yataq açıqdır. Hiss*

*olunur ki, kimsə oradan indicə qalxıb. Gülyaz irəlidə, Fərqanə isə ondan bir addım geridə gəlirlər»...*

...Gülyaz anası Fərqanəyə orta məktəb yoldaşlarının onu yoluxmağa gəlməsindən utandığını, xəcalət çəkdiyini deyib ağlayır. Bildirir ki, bir də məktəbə getməyəcək. Çünki hansı şəraitdə yaşadıqlarını görən uşaqların üzünə baxa bilməyəcək. Fərqanə ona təsəlli versə də, xəstə uşağı sakitləşdirə bilmir...

Vətən gəlib çıxır...Bir küncdə oturub kədərlə Seyid Nigaridən şeir deyir...

«...<u>Fərqanə</u>. Şeir oxuyursan?

<u>Vətən.</u> Nə?..

<u>Fərqanə</u>. Deyirəm yenə də şeir oxuyursan?

<u>Vətən.</u> Bu şeir deyil, vətən həsrətilə qubar bağlamış ürəyimin naləsidir.

<u>Fərqanə</u>. Vətən, sənin bu gen dünyada Qarabağdan başqa dərdin yoxdur?

<u>Vətən</u>. Mənim bütün dərdlərimin baiskarı elə vətəndir, Qarabağdır da...

<u>Fərqanə</u>. Bəlkə, bir az ətrafına baxıb başqa şeylər haqqında da düşünəsən. *(Hirslə paltarı zivəyə sərir.)* Bəlkə, elə öz dərdimizi çəkəsən.

<u>Vətən.</u> Elə məni dilləndirən odur, öz dərdimizdir. Bəs niyə qanım it qanından da qaradır?

<u>Fərqanə.</u> Pul ala bilmədin?

<u>Vətən.</u> Yox, nə pul ala bildim, nə vəd. Xozeyin deyir müflis olmuşam, tikintini dayandırıram, başınıza çarə qılın.

<u>Fərqanə</u> *(heyrətlə).* Nə danışırsan? Bəs bizim günümüz nə təhər olacaq? Bu qıza dava- dərman lazımdı, həkim deyib yaxşı yeyib- içməlidi.

<u>Vətən</u>. Bəs mənim ürəyimi partladan, qubarlandıran nədi?

<u>Fərqanə</u>. Vətən, başına dolanım, neçə ildi ki, səbir eləyib dözürəm. Gözləyirəm ki, nəhayət, sən özün bir yol tapasan, amma sən yol tapmaq əvəzinə Seyid Nigarinin şeirini oxuyub Qarabağın yasını saxlayırsan. Bəs deyil, qadan alım?..»

Pyesin üzərində qurulduğu ziddiyyətlər ortaya çıxır: ailə- uşaq dərdini önə çəkən ana- Fərqanə də haqlıdır, doğa Qarabağın həsrətilə yaşayan ata- Vətən də...

Məlum olur ki, Vətən xəstə uşağının müalicəsi üçün lazım olan pulu tapa bilməyib…

«…Fərqanə *(əlindəki paltarı çırpıb zivədən asır).* Yox, görükür sən dərd çəkməyə adətkar olmusan, dərd- sərdən ləzzət alırsan. Yoxsa, şeir oxuyub göz yaşı tökməkdənsə, iş görərdin, pul qazanardın.

Vətən. Fərqanə, bu sözləri sən deyirsən? Özündən çox istədiyin Vətənə deyirsən? Nə olub, nə dəyişib ki?

Fərqanə *(ləyəni yerə qoyub kətildə əyləşir).* Çox şey olub, çox şey dəyişib, Vətən. Zülmə insan bir il dözər, beş il dözər, ta ömürlük yox ki? Bayaq qızın sinif yoldaşları gəlmişdilər. Güləş onlar gedəndən sonra zülüm- zülüm ağladı. Bilirsən niyə? *(Ağlayır).* Deyir, ana, mən uşaqları görəndə öldüm yerə girdim. Axı mən istəmirdim ki, onlar bizim evimizi belə görsünlər.

Vətən *(Gülyazın yanına keçmək istəyir).* Güləş ağladı deyirsən? Yəni mənim qızım belə xırda şeyə görə göz yaşı tökdü?

Fərqanə. Özü də zülüm- zülüm»…

Fərqanə ərinə məsləhət görür ki, gedib yerlisi – köhnə dostu (artıq isə tanınmış biznesmen olan) Muraddan yardım, iş istəsin. Vətən razı olmur…

Bu vaxt Murad pay- püşlə onların qapısını döyür…

«…Murad. Vətən, gözlərimə inana bilmirəm. Haradasan, niyə görünmürsən, niyə aya- günə dönmüsən?

Vətən. Murad, bu illər ərzində çox şey dəyişib… Mən də dəyişmişəm… Hərdən özüm özümü tanımıram. Öz ölkəndə qaçqın olmaq pis şeydi… Adamlar sənə yuxarıdan aşağı baxanda yerə girmək istəyirsən. Nə deyim? Ürəyim o qədər doludur ki, bilmirəm vaxt çatacaqmı danışıb boşaldım? Qardaş, hər cəhətdən vəziyyətim fənadır. Bir də, sözə nə ehtiyac? Görkəmim hər şeyi məndən gözəl deyir də…

Murad. Mənim taqsırım böyükdü, axtarmamışam səni, daha doğrusu, ilk vaxtlar axtardım, sonra… Sonra itirdim izini. Boynuma alım ki, beş- on gün bundan əvvələcən səni… Dilim də gəlmir deyəm.

Vətən. Nahaq, Murad, mən elə ölmüş kimiyəm. Qarabağsız qalmış yaralı Vətənəm. Məni sağaldacaq şeylər – Qarabağ torpağı, Qarabağ havası, Qarabağ suyu indi yağıların əlindədi»…

Vətən görür ki, Murad əvvəlki Murad deyil. Hər şeyi yaddan çıxarıb pul qazanmağa, amerikalılarla əlbir olub özü üçün «gün- güzəran» qurmağa qurşanıb.

«…Murad. Əziz dostum, dünya dəyişib, zaman ayrı şey deyir. Qarabağ problemi indi tək bizim problem deyil, dünyanın problemidir. Bu məsələ böyük dövlətlərin marağındadır. Biz istəsək də, bu məsələni həll edə bilmərik.

Vətən. İstəsək də? Sənin bizim istəyimizə şübhən var?

Murad. Vətən, elə cavanlığında olduğu kimi yenə də söz güləşdirirsən…

Vətən. Yox, Murad, sənə ərkim çatdığı üçün deyirəm. Həm də hiss eləyirəm ki, əlin yuxarıların ətəyindədir, ona görə soruşuram: De görüm torpağı əfəlliyimizdən, ya biqeyrətliyimizdənmi əldən vermişik?..»

Fərqanə çalışır ki, əri ağır ittihamları ilə qonağın qanını qaraltmasın, ancaq Muradın gətirdiyi tut arağından içmiş Vətən ürəyindəkiləri deməkdən özünü saxlaya bilmir…

«…Fərqanə. Ay Vətən, neçə ildi ayrı düşdüyün dostun gəlib qapını açıb, sən də başlamısan onu sıxma- boğmaya salmağa, sənin ta ayrı dərdin yoxdur?

Murad *(gülür)*. Fərqanə, dəymə, qoy ürəyini boşaltsın. O danışdıqca inanıram ki, qarşımdakı həmin Vətəndir: üsyankar, romantik, fanatik.

Vətən. Sən məni ələ salırsan?

Murad. Allah eləməsin, Vətən, əksinə, sevinirəm ki, hələ vətən haqqında düşünən adamlar var… Dünya romantiklərsiz çox maraqsız olardı…

Vətən. Maraqsız? *(Təəccüblə)* Mənim dediklərim ancaq maraqlı olmağa, darıxmamağa yarayır? Yəni restoranlar, barlar, toyxanalar bəs eləmir, dünyanı maraqlı görmək üçün mənim kimi axmaq romantiklər də lazımdır?

*Murad yalandan gülür və əlini- əlinə vurur.*

Murad. Oyunun olsun, Vətən, bir az keçsə, sən məni bu evdən qovacaqsan.

Vətən. Bura evdir, Murad? Bura qaçqın yuvasıdır. Burada ömür çürüdənlərsə erməni vəhşilərinin zülmündən, işgəncəsindən baş götürüb qaçmış,

yurd- yuvasına həsrət qalmış zavalı insanlardır. Bilirsən ətrafımızdakı adamlar bizə necə həqarətlə baxırlar? Qoy Fərqanə desin…

Fərqanə. Ay Vətən, axı bu söhbətlərin yeri deyil.

Vətən. Demək istəmirsən, Fərqanə. Çünki Muradın gəlişi sənə ümid verib. Elə bilirsən ki, o bizi buradan çıxaracaq, mənə iş düzəldəcək… İncimə ey, ay Murad, olanı deyirəm.

Fərqanə. Vətən, başına dolanım, niyə heylə deyirsən? Mən azmı əzab çəkmişəm?!

Murad. Danış, Vətən, danış»…

Birinci hissə, orta məktəb illərində olduğu kimi, Vətənin tar çalmağı. Fərqanənin isə Musa Cəlilin həbsxanada yazıdığ məşhur «Quşcuğaz» şeirini əzbər deməsilə bitir…

İkinci hissə də həmin məkanda davam edir…

Murad Gülyazı müayinə etmək üçün həkim gətizdirir, dərman aldırır…

Gülyaz Murada yalvarır…

«…Gülyaz. Qurban olum, Murad əmi, çıxart bizi buradan. Atama iş ver, qorxuram… qorxuram… Mən hələ dua eləyə bilmirəm, amma sizə dua eləyəcəyəm, çıxart bizi buradan… *(Ağlayır.)*

Fərqanə. Gülyaz, dəli olmusan?

Murad. Dəymə, Fərqanə! *(Qızın başını, çiynini sığallayır)* Qoy nə istəyir desin. Ürəyindən nə keçir, istəsin.

Gülyaz. Murad əmi, sən gəlməsəydin, biz… mən… *(Hönkürür.)*

Fərqanə. Murad qardaş, qulaq asmayın ona. Allah, məni öldür! Gülyaz, indi atan gələr… Murad qardaş, qulaq asma ona, uşaqdır»…

Murad onu ittiham edən Vətənə nə üçün dəyişdiyini, hansı təsirlər altında pul qazanmaq, firavan yaşamaq yolunu tutduğunu izah etməli olur…

Murad. Danışaq, Vətən, məndən danışaq. *(Səhnənin önünə gəlir.)* Mən Bakıya gəlib çıxanda çaşıb qalmışdım. İnanmadım ki, bu şəhər o məşəqqətlər çəkən Qarabağın da paytaxtıdır. Bəs deyirlər vətən də insan bədəni kimidir, bir yeri ağrıyanda hər yeri onu hiss edir, amma bu böyük şəhərdə mən o ağrını görmədim.

Çaşıb qaldım. Nə etməli, hansı yola çıxmalı, dostlarını, torpağını, evini- eşiyini, vəfasız arvadını itirib körpə uşaqla ikilikdə qalmış mən nə etməliydim? Özümü itirmədim, Vətən.

Ayıldım, başa düşdüm ki, doğmaca diyarında qalıb yaşamaq uğrunda mübarizədə bizim rolumuz heç də əsas deyilmiş. Bizi, sadəcə, qurbanlıq kimi qabağa verirlərmiş. Məqsəd tamam başqaymış. Bax bunu biləndə, dərindən dərk eliyəndə taktikamı dəyişdim. Ancaq onu da başa düşürdüm ki, özümə, əqidəmə, vətənə dönüklük edirəm. Təsəlli üçün özümə bəraət də qazandırırdım. Deməli, Qarabağın taleyi bizdən soruşulmadan həll edilmişdi. Bizim mübarizələr, canlarını qurban vermiş şəhidlərimizin qanı havayı imiş. Nə başını ağrıdım, əsir düşmüş beş- altı nüfuzlu erməni azad etmək üçün Rubendən götürdüyüm külli miqdarda pulu heç kimə vermədim. Vicdanımın səsini içimdə boğaraq onu qətlə yetirdim ki, məni məhşər ayağına çəkməsin. İşə başladım. Bundan sonra hər şey dəyişdi. Heyif ki, mən bunu bir az gec başa düşdüm, amma düşdüm. Çox istərdim ki, sən də başa düşəsən. *(Ləng addımlarla süfrə qırağında yerini tutur.)* Bu, sağlıq deyil, bu, ağ atlı oğlanın etirafıdır. Mən bu etirafı ancaq sənin qarşında eləyə bilərəm.

Vətən. Deməli, sənin sözündən belə çıxır ki, Qarabağ artıq xülyadır, bir illüziyadır?

Murad. Vətən, səndən xahiş edirəm, məni siyasətə qatma. Mənim artıq öz maraqlarım, öz biznesim var. Qarabağsız da, görürsən ki, yaşayırıq»…

Təsadüfən – Muradın sürücüsü Kürənin içəndən sonra dediyindən məlum olur ki, Muradın Vətəngilə gəlməyi Fərqanənin xahişi ilə olub. Və bu Vətəni əsəbləşdirir… Muradın iş, pul təklifini qəbul etmir…

Pyes Vətənin sözləri, Seyid Nigarinin məşhur misraları ilə bitir…

«…Vətən. Yer sinəsini insanlar üçün açıb. Bu səxavətin müqabilində isə o, insanlardan heç nə ummur. İstədiyi olsa- olsa övladlıq borcu, insan munisliyi və cəmiyyətin özünün yaratdığı insanlıq qanunlarının qorunmasıdır. İnsan övladı bu qanunları tapdalayır. Təbiət ilkinliyinə sadiqdir. Amma insan bəzən naxələf çıxır. Təbiət öz sərt qanunlarını gözləməklə özünü qoruyur, yaratdıqlarını məhv eləmir, onların daimiliyini təmin edir. İnsanlar isə dağıdıcı silahlarla bir- birini qanına

qəltan eləyir… Sonra isə hər şeyi unudur. Muradlar, Fərqanələr, gənc Orxanlar və Gülyazlar da… Bəs necə olsun?..

*Vətən stolun üstündəki pula və tapançaya baxır. Bütün pyes boyu oxunan şeir mahnıya çevrilib ətrafa yayılır. Biz isə son misraları eşidirik.*

Gəlin, ey əhli- könül, artıb azarım, eşidin,
Yox rəvacım, kəsilib səbrü qərarım, eşidin.
Pozulub rövnəqi- gülzari- baharım, eşidin,
Qalmayıbdır, tükənib leylü naharım, eşidin…
Dağlayıbdır məni bir lalə üzari – Qarabağ,
Yandırıbdır məni bir nari – Nigari – Qarabağ.
Ey Nigari, nə qədər sirrimi pünhan edəyim?
Yandı canım, onu bu nəzmlə şayan edəyim,
Dağlayıbdır məni bir lalə üzari – Qarabağ,
Yandırıbdır məni bir nari – Nigari – Qarabağ»…

«Xəcalət» pyesi müəllifin eyni adlı povestinin motivləri əsasında yazılsa da, pyes povestdən yalnız ədəbi növ- janrına görə deyil, məzmununa görə də xeyli fərqlənir. Belə ki, Vətən üsyankar- ittihamçıya, Murad isə mənfi qəhrəmana- Vətən hissini itirmiş meşşana çevrilir…

*

*     *

Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsinə həsr olunmuş «Vicdanın hökmü» pyesi də, Hüseynbala Mirələmovun əvvəlki pyesləri kimi, iki hissə- pərdədən ibarətdir.

Pyesi müəllif «Vicdanın cəzası» povestinin motivləri əsasında qələmə almışdır…

Və povestdən fərqli olaraq, tamamilə təbiidir ki, pyesdə dram estetikası – dramatizm kifayət qədər qabarıq verilmişdir, obrazlar xarakterin mükəmməlliyi, özünəməxsusluğu ilə daha çox seçilir.

…İlk hadisələr Rusiya şəhərlərindən birində, Rəhimin kirayə qaldığı sadə bir mənzildə baş verir.

Rəhimin alver elədiyi, ailəsi üçün çörək pulu qazanıb evlərinə göndərdiyi bazarın reketi Firudin (Fedya) erməni əlaltısı Aşotla həmin mənzilə gəlir. Rəhim Aşotu tərifləyən Fedyaya öz etirazını bildirir…

Rəhim. İnanma ona. Düşmən, adətən, ətək altından çıxır. Ermənilər torpaqlarımızı almağa dadanıblar. Dadanan qudurandan da pis olar. Bəs bizi bəlaya salan əsrlər boyu can deyib, can eşitdiyimiz kirvələr deyil? Qardaş, səsimiz bu gün Raqozin bazarından deyil, Vətəni qorumaq üçün cəbhə bölgələrindən gəlməli idi.

Fedya. Vətən?! Nə verib mənə, ala bilmir o Vətən? Axmağam, canımı verəm güllə qabağına? Vətən salmayıb səni çöllərə?

Rəhim. Firudin, arx belə güman edir ki, çay yalnız ona su vermək üçün yaranıb.

Fedya. Məni bu sözlərlə azdıra bilməzsən, brat. Mənim öz dünyam var. Mir bezzakoniye, mir pristupnikov. Nakonets, de görüm mənə qoşulursan, ya yox?

Rəhim. Yox, Firudin, mən Vətənə qaytmağa hazırlaşıram, daha Vətəndən, ailədən uzaqda qala bilmirəm.

Fedya. Eh, brat, brat! Bir dəfə yanımca fırlansaydın, bu mən ölüm, hər şeyi unudardın. Nə Vətən yada düşərdi, nə arvad- uşaq. Mən tüpürmüşəm arvada da, ailəyə də. Mən yalquzağam.

Rəhim. Çox təəssüf!..»

…Fedya xeyli özündən dedikdən sonra Rəhimi sabaha restorana özünün ad gününə dəvət edir. Və ondan canını qurtara bilməyəcəyini görən Rəhim çar- naçar razılaşmalı olur…

«…Rəhim *(stolun üstünü yığışdırır).* Hər yerdə gərək bir qəmiş ola da. Belə adamlardan nə qədər qaçıram, yenə də çıxırlar yolumun üstünə. Mən istəyirəm öz əməyimlə, zəhmətimlə təmiz yaşayım, bir parça halal çörək qazanım, vicdanımın hökmünə, səsinə qulaq asım, olmur ki, olmur. İndi get görüm necə gedirsən bu murdar oğlu murdarın ad gününə. *(Süfrəni yığışdırmağı yarıda atır. Siqaret yandırır…)»*

Rəhimin anasının kölgəsi görünür…

Və ana bir tikə çörək ucbatından çöllərə düşmüş oğluna məsləhət verir…

«…Rəhim. Axı, necə, ana, necə? Həmişə vicdanımın səsinə qulaq asdım, onun hökmü ilə hərəkət elədim, ağın ağ, qaranın qara olduğunu dedim. Axırda obamdan, dərs dediyim məktəbdən didərgin düşdüm.

Ana. Eybi yoxdu, oğlum, bu da Allahın sınağıdır. Yaxşılıq da sınaqdır, pislik də sınaqdır. Haqqın tərəzisi əyilməz, çünki mizanı o qoyub, tarazlığı o, Xudavəndi-aləm yaradıb. Hər gün kəndimizə iki- üç cavanın meyiti gəlir. Mən o şəhidlərin yas yerinə gedə bilmirəm. Camaat üzümə birtəhər baxır. Deyirlər, bəs sənin oğlun hanı? Niyə özünü verib Urisiyətə? Niyə cəbhədə döyüşmür? Müharibə səngiyəndən – Vətən azad olandan sonra qayıdacaq? Deməli, səninki övladdı, bizimki övlad deyil? Şagirdləri qırılır, amma müəllim ortada yoxdu… Bunları üzümə deyirlər. İndi gör arxamca nələr danışırlar. Qayıt, qayıt gəl. Nəslimizi bu töhmətdən qurtar… *(gedir.)*

Rəhim *(anasının arxasınca pıçıldayır*). Ana!.. Ana!..»

Fedyanın ad gününə gedən Rəhim orada bir vaxt nişanlısı olmuş, sonra isə onu atıb Firudinə qoşulub qaçmış Güllü ilə rastlaşır…

«…Rəhim. Mən Raqozin bazarında alver eləyirəm.

Güllü. Sən ki, müəllimsən, institutda başına and içirdilər, hamı sənə Bala Marks deyirdi.

Rəhim. Marksın dəbdən düşdüyü bir vaxtda Bala Marks kimin nəyinə gərəkdir?

*Uzun sürən pauza.*

Güllü. Yəqin ki, sən məni qınayırsan, hə?

Rəhim. Yox, qəribə də olsa, qınamıram, hətta indicə dərk etdim ki, mən səni bağışlamışam, içimdə sənə qarşı heç bir kin- küdurət yoxdur.

Güllü. Amma, mən sənə nifrət edirəm, Rəhim.

Rəhim *(tutulur).* Sən mənə nifrət edirsən? Niyə? Mən ki səni başqasına dəyişməmişəm. Sən mənim üzüyümü üstümə atıb qoşulub qaçdın, bütün həyatımı alt- üst etdin.

Güllü. Sən saxlamalıydın məni, dişinlə- dırnağınla tutub saxlamalıydın məni. Bəs neynədin, dedin ki, özün seç, sevgidə zor yoxdu. «Demokratiya» oyununa hamıdan tez sən başlamışdın»…

Povestdən fərqli olaraq pyesdə Rəhim- Güllü xətti verilmişdir ki, bu da dramatizmi gücləndirməklə yanaşı Rəhim obrazını bütövləşdirir, daha da zənginləşdirir…

«…Fedya *(gəlir)*. Bəh- bəh! Zemlyak i zemlyaçka! Yoxsa uspeet eləyib tanış da olmusunuz?

Rəhim. İki azərbaycanlı qərib yerdə bir- birinə rast gəlib tanış olmaya bilərmi, Fedya?

Fedya. Vot eta da! İman haqqı, tanımasaydım, elə bilərdim yüz ilin tanışı, dostusunuz. Brat, çox gözlətdim səni, hə? İman haqqı, bir padla var, anasını ağlatdım, bir qulağını da kəsib qoydum cibimə. Dedim haqq- hesabı çatdırarsan, gəlib amanatını aparарsan. Biz belə oğlanıq ey, brat. Niyə keçmirsiniz içəri? Demişəm də sənə, bu Gulya xanım mənə göz verib, işıq vermir, çox qısqancdır, revnavat eləyir. Evdə uşağı tək qoyub gəlib məni izləməyə. *(Gulyanın yanağından öpür)* Keçək içəri, yəqin yığışıblar havayı yeyənlər. *(Gedirlər.)*»

Hər cür alçaqlığı boyunlarına götürmüş Fedya ilə Aşot arasında da «erməni-müsəlman davası» gedir… Ancaq özlərinəməxsus şəkildə…

«…Aşot. Qalya, blin, ne troqay stol! Posle tavo kak imeninnik pridyot. On je idiot.

İkinci qadın. Ladna, ne ari.

Aşot. Vot tak, maddax.

*Fedya, Güllü və Rəhim gəlirlər.*

Fedya. Aşot, iman haqqı, cırram səni.

Aşot. Niyə, maddax!

Fedya. Niyə? Çünki sən mənim tarixi düşmənimsən, nalivay! Elə bir iş görmüşəm ki, içib sərxoş olmağa haqqım var.

*Aşot qədəhləri doldurur»...*

Məclis qızışır…

Aşot Fedyanın təkidilə Güllünü rəqsə məcbur edir. Heysiyyatı bunu qəbul etməyən Rəhim Aşotun üzərinə atılır. Fedya «dost»unu müdafiə etmək üçün araya girir… Və özündə olmayan Rəhim, povestdəki kimi, əlindəki bıçaqla vurub Fedyanı – Firudini öldürür…

Birinci pərdə sovet- rus qoşunlarının Bakıya hücum xəbərinin yayılması, anasının kölgəsinin Rəhimi bir daha vətənə çağırması ilə bitir…

«…Oğlum, yağı düşmən başımıza müsibətlər gətirdi. Ürəyinin səsinə qulaq as, vicdanının hökmünü dinlə, qayıt gəl evimizə»…

İkinci pərdə Azərbaycanda, hərbi hospitaldakı hadisələrlə başlayır…

Cəbhədə ölümcül yaralanmış Rəhimi hospitalda Aslan həkim xilas edir…

Və Rəhim yenidən cəbhəyə qayıtmaq istəyir…

Kəşfiyyat vzvodunun komandiri Kamranla Sabirin söhbətindən məlum olur ki…

«…Kamran. Allah köməyi olsun. Aslan həkim özü haradandır? Qarabağ adamına oxşamır.

Sabir. Qonşu rayondandı. Müharibə başlayandan hospitaldadır. Dərdli adamdı, cavanca oğlunu itirib.

Kamran. Yəqin, döyüşdə həlak olub?

Sabir. Yox, Rusiyada öldürüblər. Bir oğlu var imiş kişinin, o da… Nə isə… Çox vaxt oddan kül törəyir»…

Aslan həkimin qızı, hospitalda tibb bacısı işləyən Aygün Rəhimə aşiq olur…

«…Aygün. Sən bu cümə getmək istəyirsən?

Rəhim. Getməliyəm, Aygün, istəməsəm də, getməliyəm. Vzvodda adam çatışmır. İstirahət etməyə haqqım yoxdur.

Aygün. Yenə vicdan hökm edir?

Rəhim. Sən də ay sataşırsan ha mənə, inan bu vaxta qədər vicdanın hökmündən kənara çıxmamışam.

Aygün. Onda icazə ver, indiyə kimi sənə deyə bilmədiklərimi açıq söyləyim.

Rəhim. Deyəsən, ürəyin doludur…

Aygün. Nədən bildin?

Rəhim. Uşaq deyiləm ki? Mən də bir şey qanıram.

Aygün. Zivər xala sənə baş çəkməyə gələndə söhbət etdik. Yaxşı anan var. Elə uşaqların da xoşuma gəldi. (Susur.)

Rəhim. Bəs niyə susdun? Danış.

Aygün. Ta nə danışım?

Rəhim. Anamı, uşaqlarımı təriflədin. Bəs mən? Mən necəyəm?

Aygün. Sən məndən tərif gözləyirsən?

Rəhim. Mənim çətinliyim çoxdur, Aygün. Təsəvvür elə, qadınsız qalmış ailə, yaşlı ana, bir cüt balaca uşaq. Özüm də otuz beş yaşımda, yaralı. İşim yox, pulum yox, döyüşdə bu gün öləcəyəm, yoxsa sabah, bir Allah bilir. Bunlar səni qorxutmur?

Aygün. Yox, qətiyyən qorxutmur. Sən igidsən, qəhrəmansan, ölümün gözünə dik baxmağı bacarırsan. Sənin yerinə özgə adam olsaydı, yaralanmağını bəhanə edib çoxdan getmişdi işinə- gücünə, əlində də yalan- gerçək bir əlil kitabçası. Sən qorxaq deyilsən, bu mənə bəsdir»…

…Aygün Rəhimə Rusiyada öldürülmüş qardaşından danışır. Onun şəklini göstərir.

Və Rəhim sarsılır…

Dramatizm daha da güclənir: məlum olur ki, Güllü Rusiyadan qayıdıb, hospitalda işləmək istəyir.

Və Güllü hospitala gəlir…

Heç nədən xəbəri olmayan Aygün onları «tanış etdikdən» sonra gedir ki, gəlininin gəlişini Aslan həkimə xəbər versin…

«…Güllü. Az vaxtda ikinci dəfədir ki «tanış oluruq».

Rəhim. Nəyi pisdir ki. Təkrar – biliyin anasıdır.

Güllü. Əsl müəllim məntiqidir. Hə, təkrar – biliyin anasıdır. Yəni biliyimizi möhkəmləndiririk də…

Rəhim. Bilirsən, səni görən kimi nə düşündüm?

Güllü. Qorxdun açıb deyəcəyəm ki, bu qəhrəman Firudinin qatilidir?

Rəhim. Yox, onu mən özüm də deyə bilərəm.

Güllü. Amma deməmisən. Yəqin vicdanın öz hökmünü hələ verməyib!

Rəhim. İstehzaya ehtiyac yoxdur, mən indicə, sənin qabağınca bildim ki, Fedya məni ölümdən xilas etmiş Aslan həkimin oğlu imiş.

Güllü. Bir şeyi deməyi unutdun.

Rəhim. Məsələn, nəyi?

Güllü. Aslan həkimin qızı Aygün də qardaşının qatilinə – qəhrəman Rəhimə vurulub. Gözəl ədəbi intriqadır. Lap hind kinolarındakı kimi. Görürsən, institutda oxuduqlarımın hamısını Raqozin bazarında itirməmişəm.

Rəhim. Sözümü bitirə bilmədim.

Güllü. Nə deyəcəkdin?

Rəhim. Səni görən kimi düşündüm ki, həyatımda birinci və axırıncı dəfə sevdiyim yeganə qadınla hər görüşüm mənə yalnız bədbəxtlik gətirir.

Güllü. Yəni mənim ayağım belə ağırdır?

Rəhim. Bir neçə illik sevgimiz axırda sənin qoşulub qaçmağınla bitdi. Hamının gözündə fərsiz, zavallı, atılmış bir adama çevrildim. İkinci görüşümüz zamanı adam öldürdüm, qatil oldum, bu da üçüncü görüşümüz… Yaxşı heç nə görmürəm, Allah özü saxlasın.

Güllü. Hm… Qorxaq qəhrəman…

Rəhim. Boynuma alıram ki, qorxuram.

Güllü. Nahaq yerə. Əgər mən bu sirri ürəyimdə saxlayıb indiyə kimi heç kəsə açmamışamsa, deməli, bundan sonra da açmaya bilərəm. Bir də ki, mən bu sirri saxlamaqla sənə qarşı elədiyim günahımı yuyuram. Əslində Firudin çoxdan ölmüşdü. Sənin öldürdüyün isə neçə adamın qanına bais olmuş reket Fedya idi.

Rəhim. Səni başa düşməkdə həmişə çətinlik çəkmişəm.

Güllü. Başa düşməsən də sevmisən. Onda orada, o xaraba kafedə də bunu sübut etdin. Amma sənə mən yox, Aygün kimi sədaqətli qız lazımdır. Düz tapmısan. İndi isə əlvida, hesab elə ki, üçüncü görüş olmayıb»…

Rəhimi gərgin, çıxılmaz vəziyyətdən «xilas» edən hadisə baş verir…

*«…Kamran hövlnak gəlir.*

Kamran. Rəhim, yaman pis vəziyyətə düşmüşük. Sizdən ayrılan kimi yola çıxdım. Qala kəndinə çatmamış ratsiya ilə xəbər aldım ki, düşmən Şiştəpəni tutub meşə yolu ilə Hacılıya hücuma keçib. Evləri yandırır, adamları qırır, mal- qaranı qabaqlarına qatıb aparırlar. Vzvodda adam azdır, özləri də yola nabələd. Ümid sənə qalıb.

Aygün. Siz nə danışırsınız, Kamran, Rəhim hələ sağalmayıb.

Rəhim. Kamran, gözlə gəlirəm. Bu saat gəlirəm.

Kamran. Sağ ol, Rəhim, maşın qapıdadır. *(Gedir)*»…

Rəhim Aygünlə vidalaşır. Və gedərkən ona bir məktub verir ki, sonra açıb oxusun…

Aygün məktubu açıb oxuyur, bir anlıq sarsılır, sonra «Mən onu sevirəm!» deyə qışqırır, havalanır…

…Meşədə iki erməni yaraqlısı – Karo ilə Akop yeyib içirlər. Aşotu gözləyirlər… Yanlarında isə atasını öldürdükləri bir azərbaycanlı əsir qız var.

Aşot artıq «milli qəhrəman»dır… Sərxoş vəziyyətdə gəlib qıza yaxınlaşır…

…Ancaq bilmir ki, kəşfiyyata çıxmış Kamranla Rəhim onları izləyirlər…

Və pyesin sonunda dinamizm daha da güclənir. Hadisələr (vəziyyətlər) sürətlə bir- birini əvəz edir…

Kamran kömək dalınca gedir. Rəhim isə əsir qızı tutmaq istəyən Aşotun qarşısına çıxır…

«…Rəhim *(ağacın arxasından çıxır və qıza sarı qaçmaq istəyən Aşotla üz-üzə gəlir).*

Aşot. Vay astıvas! Raqimcan, ara, bu sansan? *(Qaçmağa hazırlaşır.)*

Rəhim. Dayan! *(Avtomatı Aşota sarı tutur.)* Mənəm, əclaf! Mənəm, binamus, özgə malına göz dikən biqeyrət! Səni göydə axtarırdım, yerdə əlimə düşmüsən, yenə də oğurlayırsan, yenə də cığallıq eləyirsən, amma ta bitdi sənin murdar həyatın!

Aşot. Öldürmə, Raqimcan, sana sözüm var, atma.

Rəhim. O bədbəxt qızın atasını necə qətlə yetirmisən? Belə? *(Gülləni Aşotun ayaqları altına yağdırır. Aşot güllələr yağdıqca, bir növ, rəqs hərəkətləri edir.)* Oyna, rəqs elə, amma bəsdir, oynadın mütrüf kimi, gəbər, öl! *(Vurur.)*

Aşot. Ara, araaa… *(yıxılır)*»…

Karo ilə Akop gəlib Rəhimə atəş açırlar, Rəhim yıxılır… Kamran bir neçə əsgərlə gəlib erməni yaraqlılarını gülləbaran edirlər…

Və pyes ruh yüksəkliyi ilə yanaşı, səmimi bir «intonasiya» ilə bitir…

«…Kamran. Siz ətrafı yoxlayın! Rəhim! Rəhim, sən nə etdin, Rəhim! Niyə tələsdin? *(Rəhimin başını qaldırır.)* Aç gözlərini, qardaşım, biz hələ düşmənə qan uddurmalıyıq, aç gözlərini!

Rəhim. Biz qələbə çalacağıq, Kamran, biz vətəni bu tülkü düşməndən, goreşən yağıdan azad edəcəyik. Mən bir az… *(danışa bilmir.)*

Kamran. Əlbəttə, Rəhim, biz hələ qisas alacağıq, biz hələ… (Ağlayır.) Biz qələbə çalacağıq, torpaqlarımızı azad edəcəyik.

Rəhim. Anamdan, körpələrimdən nigaran gedirəm, Kamran… Aygünə de ki… Aygünə de ki… de ki… Uşaqları yetimxanaya verməsin… *(Ölür.)*

Kamran. Əlvida, əziz dost, əlvida, qəhrəman qardaşım. (Rəhimin gözlərini qapayır.)

*Bir neçə kəşfiyyatçı onlara yaxınlaşır və Kamranın köməyilə Rəhimin üstünə bayraq sərirlər.*

Kamran. And içirəm ki, sənin qanın yerdə qalmayacaq, Rəhim. Biz qisas alacağıq, sənin arzularını yerinə yetirəcəyik, bu vətənə həqiqi oğul olacağıq. Vzvod, hücuma hazırlaş! Sənin kimi yüzlərlə qəhrəman şəhidin hayıfını düşməndə qoymayacağıq! *(Ayağa qalxır, göz yaşlarını kəskin hərəkətlə silir.)*

*Çağırış mahnısı səslənir.*

*Əsgərlər Rəhimin cənazəsi arxasında sıraya düzlənirlər. Mahnı səsləndikcə səhnəyə Ana, Aslan, Aygün, Sabir, Əhəd, Güllü və Qız gəlirlər, onlar cənazənin yanında dayanırlar. Mahnı səslənməkdə davam edir»…*

*

*   *

Faşist Almaniyası üzərində qələbənin altmış illiyinə həsr olunmuş «Ləyaqət» pyesi iki pərdədən ibarətdir.

Pyes «Proloq»la başlanır…

*«...Pərdə açılır. Səhnənin bir tərəfində 1941- 1945- ci illər Böyük Vətən Müharibəsinin rəmzi olan «Ana Vətən çağırır!» plakatı, digər tərəfində isə üzərində «Qələbə ordeni» çəkilmiş kiçik kətan parçası görünür.*

*Müharibə dövrünün çağırış mahnılarından biri səslənir. Tamaşanın bütün iştirakçıları səhnəyə gəlib üzərində «Qələbə ordeni» çəkilmiş kiçik kətan parçasının önündə dayanırlar. Əllərdə qırmızı qərənfillər var. Aktyorlar kətan parçasının mərkəzi hissəsində Heydər Əliyevin projektorla gur işıqlandırılan portretinə baxırlar. Fonoqram ilə mətn səsləndirilir.*

*Mətn. Böyük Vətən Müharibəsinin veteranları bizim ən aziz, ən mötəbər insanlarımızdır. Onlara qayğı göstərmək, hörmət etmək bizim dövlətin və hər bir dövlət orqanının hər bir namuslu Azərbaycan vətəndaşının borcudur.*

*Heydər ƏLİYEV»...*

Birinci pərdə kənd poçtunun müdiri «neqodnı» Ziyadın Ümid həkimgilə «kağız» gətirməsilə başlayır. Evdə ümidin arvadı Nahidə təkdir…

«…Nahidə. Ağsaqqal kişini bihörmət eləmə, Ziyad, sözün var, de, yoxdu, çıx get. Kişi olmayan evə naməhrəmin gəlməsi şəriətə görə günahdır!

Ziyad. Bəs qəlb qırmaq necə, günah deyil?

Nahidə. Ziyad, başımı qatma, ocaq qalamalıyam.

Ziyad. Hə, yeri ocaq qala, paltar yu, kəhrizdən su daşı. Niyə Tanrına təpik atdın? Aldandın Umudun diplomuna, ağ xalatına. Mirkərim kişinin sayıqlamalarına. Allah elə, qismət belə. Bəyənmədin bizim ikimərtəbəli imarətimizi. İndi çək cəzanı.

Nahidə. Ziyad, sən istədin, mən istəmədim. Qurtardı, getdi də. Deyirsən, hər şeyi açım Umuda deyim, biabır eləyim səni, el içində rüsvay olasan? Niyə başa düşmürsən ki, mən ərli qadınam. Üstəlik, Umuda dost deyirsən, üzünə gülürsən.

Ziyad. Bəs ərin olmasa?

Nahidə. Nə demək istəyirsən, Ziyad? Saman altdan su yeritmə, ürəyim üzüldü. Niyə mənim… *(Şübhə ilə).* Umudu bu şər vaxtı neynirsən axı?

Ziyad. Heç, yağlı bir kağız gəlib ona.

Nahidə. Nə kağızdı elə, Ziyad?

Ziyad. Sənlik deyil, şəxsən özünə verməliyəm. Qol çəkib götürməlidi»…

…Umid gəlib çıxır. Nahidə «kağız» barədə ona məlumat verir. Və ərinin heç təəcüblənmədiyini görür…

«…Nahidə. Yaxşı, yaxşı… *(Ona sıxılır).* O nə kağız olar, Umud? Bəlkə pavestkadır? Birdən səni apararlar… Onda mən başıma haranın daşını salaram.

Ümid. Bəsdi, Nahidə, gedənlərdən mənim nəyim artıqdı? Bəlkə dava kişi yox, arvad işidi? Başıma örpək bağlamalıyam?

Nahidə *(gözləri dolur).* Nə danışırsan, Umud? Nə demək istəyirsən? Yoxsa sənin o kağızdan xəbərin var?

Ümid. Xəbərim yoxdu. Kağızdı də, ya rayon səhiyyə şöbəsindəndi, ya da…

Nahidə. Umud!

Ümid. Başa düş, canım- gözüm, davadı, hər şey ola bilər, məni də çağıra bilərlər. Bu çox təbii bir şeydi, amma gəl sabahın dərdini indidən çəkməyək. Toxtaq olaq, sənə ağlayıb- sızlamaq, əsəbiləşmək, dərd çəkmək olmaz. *(Ehmalca onun qarnına əl sürtür*). Bunu düşün. Nənəmə demisən?

Nahidə. Yox, deməmişəm, amma, məncə özü bilir. Gedim sənə çay gətirim. *(Gedir.)*

Ümid *(özü- özünə).* Yəqin hərbi komissarlıqdandır, axır ki, ərizəmə cavab verdilər. Deməli, yığışmaq vaxtıdır»…

Nahidə namaz qılır, Allaha dua edir ki, bir neçə ay bundan əvvəl evləndikləri ərini hifz eləsin, müharibəyə sağ- salamat gedib gəlsin.

Və qeyd eləmək lazımdır ki, bu, pyesin ən təsirli səhnələrindən biridir…

«…Nahidə. İlahi, sən mənim hələ dünyaya göz açmamış balamı atasız qoyma, mənim kimi ona da yetimçilik nəsib eləmə. Pərvərdigara, sən məni Umudsuz və ümidsiz qoyma. Onun çətin yolunu asan elə. Onu qoru, hifz elə,

arzularını, istəklərini heçə- puça çıxarma. Ey aləmlərin rəbbi, sən böyüksən, adilsən, yetimin, əlsiz- ayaqsızın pənahısan. Mənə də rəhm elə, mərhəmətini məndən əsirgəmə… *(Kövrəlir).*

Umuda rəhm elə, onu mənim göz yaşlarıma bağışla. *(Qalxıb canamazı yığışdırır və getmək istəyəndə Ümidi görür).* Umud, buradasan, niyə yatmırsan? Axı sabah yola çıxacaqsan…

Ümid *(ona yaxınlaşır*). Yata bilmirəm, gözümə yuxu getmir. Elə bil, kirpiklərimdən daş asılıb. Hara gedirsən? *(Əlindən tutur).* Getmə, gəl otur yanımda.

Nahidə. Heç inana bilmirəm ki, sabah bu vaxt haradasa uzaqlarda olacaqsan. Nə əlim sənə yetəcək, nə də ünüm çatacaq.

Ümid *(onun yaylığını başından ehmalca açır*). Sən mənim xoşuma, bax belə gəlirsən, başı açıq. Xurmayı saçlarının rəngini, qara şəlaləyə bənzər dalğalarını yaxından görmək istəyirəm.

Nahidə. Söz ver ki, hər gün mənə məktub yazacaqsan.

Ümid *(gülərək).* Hər gün məktub yazsam, bəs nemeslə kim vuruşar, ay dəli?..»

Bundan da az maraqlı olmayan səhnə kəndin ağsaqqalı olan din xadiminin – Mirkərim ağanın xeyir- dua verməsidir…

«…Mirkərim ağa. Əssalaməleyküm, sabahınız xeyir. *(Hamı ilə görüşür. Nahidənin alnından öpür).* Toxtaq ol, qızım. Elnən gələn dərd toy- bayramdır.

Ümid. Sabahınız xeyir, ağa baba, Ziyad, xoş gəlmisiz.

Mirkərim ağa. Yaxşı yol, Umud, Allah köməyin olsun. Vətənə sevgi imandandır. Cənab Həzrət Əlinin gözü üstündə olsun. Fatma, siz gərək fəxr eləyəsiniz ki, evinizin kişisi elini- obasını qorumağa gedir.

Fatma. Mən balasının dalınca göz yaşı tökən arvadlardan deyiləm, ağa. Onun arxasınca su atıb, alqış eləyəcəyəm.

Ziyad. Varam Fatma nənənin qeyrətinə! Ağa, Umudun bronu vardı, özü könüllü gedir, hərbi komissarlığa ərizə verib.

Mirkərim ağa. Vətən darda olanda kişinin birinci vəzifəsi silaha sarılmaqdı. Hamı gec- tez gedəcək. Bala, deyir Musanın əsası ilə gəlməyən Fironun əsası ilə gələr. Bəs necə?

Ziyad (*sifətinə saxta görkəm verir*). Mən özüm də getmək istəyirəm, həkimlər qoymur. Deyirlər biz şikəst adamı cəbhəyə göndərə bilmərik.

*Onun bu sözlərinə əhəmiyyət verən olmur. Fatma və Nahidə girib- çıxır, hazırlıqla məşğul olmaqda davam edirlər.*

Mirkərim ağa. Umud, oğul, dava meydanında düşmən qabağına çıxmamaq qorxaqlıqdır. Allah belələrini istəməz. Zalım düşmən məğlub olacaq, inşallah, çünki haqq- ədalət bizim tərəfimizdədir. Çünki hücuma biz məruz qalmışıq. Sənin hərəkətin imam övladının hərəkətinə layiqdir»…

…Təsirli hadisələrdən biri də oğlu Şəmilin «qara kağız»ı gəlmiş, havalanmış Səlbi arvadın Ümiddən oğluna yun corab göndərməsidir…

…Ümid gənc, hamilə qadını Nahidəni nənəsi Fatmaya tapşırıb Mirkərim ağanın xeyri- duası ilə cəbhəyə yollanır…

…Ümid artıq cəbhədədir.

Və baş verən hadisələr Qarabağ döyüşlərini xatırladır…

«…Sanitar. Sakit ol, Kolya, bu qan yerdə qalmayacaq. Dəhşətli faciə ilə üzləşən tək sən deyilsən, biz hamımız yaralıyıq. Çünki vətənimizə təcavüz olunub, mənliyimiz tapdanıb. Hamı qisas istəyir. Bütün dünya alçaqlığı, vəhşiliyi, rəzilliyi pisləyir, qisas istəyir. (*Birdən arxaya çevrili*r). Aha, Axundov gəldi.

Hamı dönüb səhnəyə gələn ağ xalatlı Ümidə baxır.

Ümid. Leytenantın canı möhkəm imiş. Zalım oğlu, hesab eləyin ki, kəfəni yırtıb çıxdı.

Yaralı əsgər. Kəfəni yırtıb? Bu nə deməkdir, yoldaş leytenant?

Ümid. Bizdə belə bir el sözü var. Çox ağır vəziyyətdə olan xəstə sağalırsa, onda deyirlər ki, kəfəni yırtıb çıxdı. Yəni, leytenant Qluşko yaşayacaq, daha ona zaval yoxdur.

Kolya. Spasibo, brat! Sənin əllərin qızıldı, xalis qızıl.

Sanitar. Axundov, sən çox böyük bir qəhrəmanlıq eləmisən, amma necə də sakit danışırsan. Axı o, çox qan itirmişdi. Son nəfəsdə idi. Sifəti də ki, ölü sifəti.

Ümid. Xoşbəxtlikdən onun qan qrupu ilə mənim qan qrupum eyni idi. Hə, indi Qluşko ilə mən qan qardaşıyıq.

Sanitar *(qalxıb vəcdlə Ümidi özünə tərəf çəkir, qucaqlayır).* Mən istərdim ki, döyüş vaxtı həmişə yanımda olasan!

Ümid. Onda böyük Allaha dua elə, Vanya»…

Və cəbhənin – hər an ölümünü gözləyən insanların ziddiyyətli əhval-ruhiyyəsi (və həyat eşqilə dolu zarafatları!) pyesdə gözəl verilmişdir…

«…Ümid. Əl- qisas bil- qisas.

Sanitar. Doktor, nə dediniz? Başa düşmədim.

Ümid. Bizim kənddə savadlı, ağıllı bir din xadimi var. Onun dediklərini dedim: qisasa qisas.

Yaralı əsgər (*təəccüblə).* Desələr də inanmazdım ki, leytenant Axundov möminlərlə oturub- dursun, hətta onlardan misal da gətirsin. Axı sovet ideologiyasında Allaha yer yoxdur.

Ümid *(gülümsəyir*). Allahın yerini Allahın özü müəyyən eləyir, sovet ideologiyası yox.

Kolya. Axundov, siz nəinki Allaha inanırsınız, hətta dindarsınız, onu təbliğ edirsiniz. Qorxmursunuz? Axı Sovet zabiti ateist olmalıdır. Bunu bizim zampolitimiz də hər gün deyir.

Ümid. Orası elədir. Amma ümid edirəm ki, məni ələ verməzsiniz. *(Gülür).*

*Hamı ona qoşulub gülür»...*

Sanitarla həkim Ümid arasında həyati bir dialoq gedir…

«…Sanitar. Mənim başım çəkib, qardaş, arvad gözəl oldu, gərək yanından tərpənməyəsən. Mənim Qalyam yazır ki, Vanya, bir aya qayıdıb gəlməsən, qurtardıq. Cavab verdim ki, mən burada ezamiyyətdə deyiləm, müharibədəyəm, əsgərəm. Nə cavab versə yaxşıdı,doktor?

Ümid. Nə deyim? Mən sizin qadınları yaxşı başa düşmürəm.

Sanitar. Yazır ki, bəlkə, heç müharibə qurtarmadı, mən ərsiz qalacağam?

Ümid *(gülümsəyir).* Məntiqli sualdır.

Sanitar. Siz gülürsünüz, doktor, o, doğrudan da məntiqli hərəkət elədi, ağsaç bir kişiyə qoşulub getdi Orta Asiyaya, Özbəkistan tərəfə…

Ümid *(inamsız).* Yox, yox! Allah eləməsin, bizim qadınlar dözümlü, vəfalı olurlar. Əslində, bizdə bu, namus məsələsidir. Məsələn, nənəm gəncliyində ərini itirib…

Sanitar. Necə yəni itirib?

Ümid. Yəni əri, mənim babam ölüb. Sonra arvad heç bir kişi ilə yaxınlıq etməyib, ərə getməyib, ömrünü yeganə oğluna, mənim atama sərf edib. Təəssüf ki, o da anamla birgə qəzaya düşərək həlak olub. Nənəm mənimlə tək qalıb və bütün ömrünü mənə həsr edib.

Sanitar. Axı belə də yaramaz, doktor, vəfanın, sədaqətin də bir ölçüsü olmalıdır. İnsan dünyaya bir dəfə gəlir»…

Mentalitetlər, mənəvi- əxlaqi sistemlər, qaydalar üz- üzə gəlir. Hansının daha bəşəri, daha humanist olmasını «neytral mövqe»dən əsaslandırmaq çətindir. Hər şeydən əvvəl ona görə ki, dünyada belə bir «mövqe» yoxdur…

Ümid məktub alır… Və ümidləri qırılır…

«…Ümid *(məktubu açır).* Yenə də Ziyad *(Məktubu əvvəl yavaş, sonra da hündür səslə oxuyur).* «Əziz qardaşım Umud, salam. Bağışla ki, çoxdandır sənə kağız yazmıram. Baş qarışıqdır. Qara kağızın əlindən günümüz qaradır. Sizdə salamatlıqdır. Oğlun Nahid, maşallah, böyüyür, hələ danışır da. Özü də böyük adam kimi. Deyəsən, şair olacaq. Nahidədən heç nə yazmaq istəmirəm, doğrudan da, arvada etibar yoxdur. Vaxt gələr, özün hər şeyi bilərsən. Özündən muğayat ol, hər kəs öz başının hayındadır. Mirkərim ağa da xəstədir, əli qələm tutmur, quruyub, sənə kağız yaza bilmir. Çoxlu salamı var. Ta nə yazım, ürəkaçan heç nə yoxdur. Sağ ol, qardaş, fikir eləmə, yaman günün ömrü az olar… Bəlkə mən də könüllü fronta getdim, bezmişəm tənəli baxışlardan, sağsağan kimi qara xəbər yaymaqdan. Camaatın ta zəhləsi gedir məndən.

*Dostun Ziyad*».

Ümid *(kağızı ovcunda əzir).* İnanmıram, Nahidə, inana bilmirəm. Mirkərim ağanın tərbiyəsini almış, çörəyini yemiş insan belə üzüdönüklük eləməz. Bəs, onda… Bəlkə, başında bir iş var, elə isə niyə Ziyad yazmır? Bəs bu nə eyhamdır? Allah, mənə səbir ver, hövsələ ver. *(Sanitarı çağırır).* Vanya!

Sanitar. Eşidirəm, yoldaş leytenant.

Ümid. Sənin maxorkan var?

Sanitar. Var, doktor!..»

Birinci pərdə xoş əhval- ruhiyyə ilə bitir…

Sanitar *(dərindən qullab vurur).* Doktor, papiros dost kimi, yoldaş kimi bir şeydi. (Çəkir). Qəzetdə sizin zemlyak Həzi Aslanov haqqında yazıblar. İgid oğlandı.

Ümid. Hanı? *(Qəzeti götürüb oxuyur).* Tank qoşunları general mayoru, Sovet ittifaqı Qəhrəmanı Həzi Aslanovun briqadası düşməni geri oturdub. *(Fərəhdən köksü qabarır).* Sağ ol, eloğlu, başımızı uca elədin… *(Qəzeti oxumaqda davam edir).*

İşıq azalır. Top səsləri, tank gurultusu ətrafı bürüyür»…

…Və məkan dəyişir.

İkinci pərdə ərindən heç bir xəbər almayan Nahidənin həyəcanları ilə başlanır…

Nahidə. Şükür ki, bu dəfə tez yuxuya getdi. *(Qalxıb pəncərədən otağa baxır).* Mışıl- mışıl yatır, getdikcə də Umuda lap çox oxşayır, lap çox, çox. Yaman da çox bilmişdi *(Qayıdıb oturur və işinə davam edir).* Üç ildir getdiyi, yox, üç ildən çoxdur… Nə qaldığı bilinir… *(Sözün dalını deməyə ürəyi gəlmir. Yanaqlarından axan yaşı silir).* Niyə yaddan çıxartdın məni, Umud, niyə? Heç olmasa, özündən bir xəbər- ətər ver, ay namərd? Bəs biz belə demişdik, belə danışmışdıq? Mən heç, mən yad qızıyam, axı sənin gül parçası kimi balan var. Bəs demişdin… *(Sözünü bitirmir və yamadığı paltarla üzünü qapayır).* Kaş bir quş olaydım, uçaydım o yerlərə, elə uzaqdan baxaydım, görəydim neynirsən, haradasan. *(Paltarı qatlayır. Pəncərə ağzındakı iri qara radionu işə salır. Musiqi*

*səsi eşidilir. «Deyirdin ki, gözlə məni, gözləyirəm, sevgilim» sözləri ilə başlanan mahnı səslənir. Mahnı bitir, diktor informbüronun məlumatını oxuyur).*

Diktorun səsi: «Diqqət! Diqqət! Sovet İttifaqı Teleqraf Agentliyinin məlumatı. 1944- cü il aprel ayının səkkizində Qızıl ordu hissələri Vətən uğrunda gedən qələbə döyüşlərini uğurla davam etdirir. Faşist ordusuna sarsıdıcı zərbələr endirən rəşadətli ordumuz şəhərlərimizi, kəndlərimizi bir- birinin ardınca azad edir. Murdar düşmən sürətlə pərakəndə vəziyyətdə geri çəkilir».

Nahidə. Şükür sənin cəlalına, pərvərdigara! Sən özün zalımın belini qır, haqqı nahaqqa vermə»…

Ziyad Nahidəyə yalandan məlumat gətirir ki, guya Ümid könüllü olaraq almanlara əsir düşüb… Nahidə inanmır, Ziyadı qovur… Mirkərim ağa gəlib ona təskinlik verir, təklif edir ki, tək qalmasın, onlara köçsün…

…Müharibə isə sona çatmaq üzrədir. Hərbçilərdən biri lətifə danışmaq istəyir…

«…Ümid. Şeydabəy, ayrı- seçkilik salma. İnciyər. *(Sanitara).* Şeydabek deyir ki, bir gülməli lətifə danışmaq istəyirəm.

Yaşlı əsgər. Əla, çoxdandır gülmürük. Şeydabek, danış, amma əməlli danış, tələsmə, sən rusca danışanda, ruslardan başqa hamı başa düşür.

Şeydabəy *(qəhqəhə çəkir*). Yaxşı, yaxşı…

Kolya. Yaxşı, Şeydabek. Uzatma, danış.

Şeydabəy. Aranızda erməni yoxdu ki?

Ümid. Allah eləməsin.

Şeydabəy. Onda danışım. Deməli, Rubençik adlı bir sarsaq erməni düşür bizimkilərin kampaniyasına. Yeyib- içirlər… Erməni Ruben görür ki, ona fikir verən yoxdu, hop eləyib çıxır ortaya ki, indi burada kimsə döyüləcək. Görür fikir verən yoxdur, lap bərkdən qışqırır ki, ara, eşitmirsiniz, bu gün burada kimsə döyüləcək. Məclisin aparıcısı ona hörmətlə yanaşır. Deyir gəl şeytanın atından düş, kefimizə soğan doğrama, məclisi korlama. Erməni Ruben qızışır, erməniliyindən əl çəkmir və yumruğunu stolun tən ortasına vurur: «Ara, eşitmədiniz ki, kimsə bu gün burada döyüləcək?» Səbri daşan tamada tutur bunun yaxasından, sifətinə kuvald

boyda yumruğu ilə necə ilişdirə varsa, Ruben leş kimi sərilir yerə. Yerdə çapalayan Ruben az sonra özünə gəlib deyir: «Ara, bə mən demədim ki, burada kimsə döyüləcək? *(Qəhqəhə çəkir*). Gördünüz?!

*Hamı Şeydabəyə qoşulub qəhqəhə çəkir»...*

…Ümid həyətlərindədir. Tanımadığı oğlu Nahid taxta avtomatla ona yaxınlaşır…

«…Əllər yuxarı!..»

Ata ilə oğul görüşürlər… Mirkərim ağa da gəlib çıxır… Məlum olur ki, bütün kənd Ümidi almanlara əsir düşmüş bilir… Ziyadı isə əsgər aparıblar, ondan xəbər- ətər yoxdur, Nahidə baş götürüb harayasa gedib…

Ümid rayon mərkəzində həkimliyini davam etdirməyə başlayır. Və bir neçə ildən sonra bir xəstə qadına baxmalı olur…

Bu qadın Ziyadın nə qədər fitnəkar təzyiqlərinə, şantajlarına məruz qalsa da sınmayan Nahidə idi…

Hər şey sonda öz yerini alır… Nə Ümid düşmənə satılıbmış, nə də Nahidə ləyaqətini itiribmiş…

Pyes xoşbəxt sonluqla bitir…

«…Ümid. Mən hər şeyi bilirəm, Nahidə, hər şeydən xəbərim var. Mirkərim ağa da bilir, o da… *(Dönüb baxır və tək olduqlarını görüb Nahidəni qucaqlayır).* Mən səni sevirəm, indi həmişəkindən də çox sevirəm.

Nahidə *(ondan aralanır)* Sevirsən? Məni? Axı indi mən kiməm, xəstə, solğun, kimsəsiz… *(Ağlayır).*

Ümid. Sən indi daha gözəlsən, daha məlahətlisən, sevdalı mələyim… *(Ehtirasla Nahidəni öpür).*

Nahidə *(çaşqın vəziyyətdə).* Allah, məni öldür, bu nə gündü. Burax, burax, Umud, gələn olar. Özünü ələ al…

*Nahid çiynində məktəbli çantası sevinə- sevinə gəlir.*

Nahid. Ata, mən gəldim, mən gəldim.

Nahidə. Nahid, oğlum, balam… *(Hönkürür).*

Nahid *(əvvəl duruxur*). Ana! Ana…! *(Üstünə yüyürür).*

*Nahidə uşağı qucaqlayır, üz- gözünü, boynunu yalayır.*

Nahidə. Sən məni tanıdın? Tanıdın, bədbəxt ananı?

Ümid. Uşağın qəlbini qırma, niyə bədbəxt olursan, Nahidə?

Nahid. Tanıdım… O saat tanıdım.

*Ümid onların hər ikisini qucaqlayır.*

Ümid. İlahi, bu qədər dərd- bəladan sonra sən mənə xoşbəxtlik verdin. Nahidə, Mirkərim ağa necə deyərdi? Hər bir kədərin sonu xoş sevincdi. Haqq nazilər, amma üzülməz. Axırda qalib gəlir, necə ki, faşist təcavüzü məğlubiyyətlə, böyük bir ölkənin iflası ilə nəticələndi. Onların məğlubiyyəti bizə qələbə gətirdi. Bu qələbədə həm də mənim – bu kiçik ailəmin də payı var»…

Və pyes «Proloq»la başladığı kimi «Epoloq»la bitir…

*«…Qələbə marşı səslənir. Bütün iştirakçılar kiçik kətan parçasının önündə sıralanır. Musiqi. Heydər Əliyevin iri portreti işıqlanır.*

Mətn. «Böyük Vətən Müharibəsinin veteranları bizim ən əziz, ən mötəbər insanlarımızdır. Onlara qayğı göstərmək, hörmət etmək bizim dövlətin və hər bir dövlət orqanının, hər bir namuslu Azərbaycan vətəndaşının borcudur».

Heydər ƏLİYEV

*«Dilbərim» mahnısının sədaları fonunda işıq sönür. Mahnı yarımçıq kəsilir»...*

…Olduqca təsirli, tərbiyəvi və mənəvi- ideoloji baxımdan mükəmməl olan pyes bədii- estetik dəyəri etibarilə də diqqətə layiqdir. Və məlum olduğu kimi, mövzunun özü də Hüseynbala Mirələmovun yaradıcılığı üçün təsadüfi deyil… Xüsusilə bir sıra hekayələrdə (özü də ilk hekayələrdən başlayaraq!) bu mövzuya müraciət etmiş, yadda qalan obrazlar, bədii təəssüratlar yaratmışdır.

«Ləyaqət» pyesində estetik kamillik baxımından mübahisə doğuracaq yeganə məqam, fikrimizcə. Ziyadın son taleyidir. Belə ki. onun nə cəbhəyə getməsinə, nə peşmançılıq – tövbə məktubu yazmasına, nə də həmin məktubun məcaravi bir üsulla ünvanına çatdırılmasına ehtiyac yox idi. Hər şeydən əvvəl ona görə ki, belə bir nadürüst (və rəzil) adamın şahidliyi ilə həqiqətin üzə çıxmasına, «konflikt»in həll olunmasına inanmaq mümkün deyil. Eyni zamanda hadisələrin

sonunda peyda olan Qadın da bütün «səmimiyyət»i ilə yanaşı o qədər inandırıcı görünmür…

Halbuki ustalıqla qurulmuş süjetdə Nahidənin sədaqətini sübut edən kifayət qədər zəngin potensial faktlar mövcuddur…

*

* *

Hüseynbala Mirələmovun «Cəza quyusu» pyesi iki hissədən ibarətdir.

Bir sıra pyeslərində olduğu kimi bu pyesin motivləri də müəllifin nəsr yaradıcılığından gəlir…

«Cəza quyusu»nun mükəmməl (klassik) bir bədii struktur (quruluş) simmetriyası mövcuddur.

Birinci hissə (əsər) hansı şəkil- səhnə ilə başlayırsa, ikinci hissə (əsər) də həmin şəkil- səhnə ilə bitir…

Birinci hissədə səliqəli, güllü- çiçəkli bir bağ təsvir olunur. Bağda Qarabağ şəhidlərinin xatirsinə abidə ucalır.

Və bağban Mirheydər ağa görünür…

«…Mirheydər ağa. Hər dəfə bu abidənin ətrafında gül əkəndə, elə bil dünyadan vaxtsız köçmüş bu cavanların hənirini hiss edirəm. *(Gül şitillərini əkə-əkə).* Nə gördülər bu dünyada? Ən böyüyü iyirmi beş yaşındaydı… Nədənsə, Nilufəri həmişə «Tomris», - deyə çağırırdım. Xoşu gəlsə də dərindən ah çəkər və deyərdi: - Eh, ağa, Tomris olsaydım, əlimə silah götürüb cəbhədə düşmənlə döyüşərdim, daha şəhərdə oturub cəbhə xəbərlərini televiziyadan izləməzdim… Mənim Nilufər balam günlərin bir günü Tomris oldu, cəbhəyə yollandı və düşmənlə döyüşdə şəhidlik məqamına ucaldı… Bu da son mənzili. Adı igid oğullarımızın adları ilə birgə tarixə düşdü… İndi bu qara mərməri oxşamaqla qəlbimi ovudur, təsəlli tapıram. Amma eyni zamanda fikirləşirəm ki, belə olmaya da bilərdi. Heyif ki, qırğının qabağını alan kişi gec gəldi… İndi bunların hərəsi ailə qurmuş, ev- eşik sahibi olmuşdular. Heyf, çox heyif»…

Rəmzi ilə Balaca Uğur da igid şəhidləri ziyarət edirlər… Nurlan müəllimlə Balaca Nilufər də gəlirlər…

«…Rəmzi *(bir qədər əsəbi şəkildə).* Nurlan müəllim, hərdən öz- özümə düşünürəm: madamki torpaqlarımızı itirəcəkdik, onda, niyə xalqımızın ən cəsur, igid övladlarını güllə qabağına göndərdik?

Nurlan *(Dərindən köks ötürərək Balaca Uğurla Balaca Nilufəri göstərir, sonra da Uğura).* Uğur, oğlum, siz bağda gəzin, biz də bir qədər Rəmzi ilə dərdləşək.

*Balaca Uğurla Balaca Nilufər asta addımlarla onlardan uzaqlaşırlar.*

Nurlan *(əlini Rəmzinin çiyninə qoyur və bir qədər hüznlü səslə).* Mənə elə gəlir ki, sən məsələyə birtərəfli yanaşırsan. Düşmən qarşısında əllərimizi göyə qaldırıb təslimmi olmalıydıq? Uduzanda da mərdliklə, döyüşə- döyüşə uduzmaq lazımdır. Əgər Uğur, Nilufər, Rəsi, İmran olmasaydı, kim bilir, rus imperiyasının üstümüzə qısqırtdığı ermənilər indi haralarda olardı? Qanımız nahaq yerə tökülməyib. Əvəzində azadlığa çıxmışıq – müstəqillik qazanmışıq, dövlətimizi qurmuşuq. Əlbəttə, bu o demək deyil ki, torpaqlarımızı geri almamalıyıq. Bax, Uğur şəhid olub, əvəzində Balaca Uğur var, Nilufər şəhid olub, əvəzində Balaca Nilufər var, Rəsi şəhid olub, əvəsində Balaca Rəsi var… Əgər dünən onlar Vətən uğrunda şəhid olmasaydılar, bu gün adlarını övladlarımıza verərdikmi?..»

Məlum olur ki, Mirheydər ağanın göz bəbəyi kimi qoruduğu şəhidlər bağına da göz dikənlər var…

«…Nurlan. Ağa, çox sağ ol ki, buraları belə abad və səliqəli saxlayırsan. Nəyə ehtiyacın var? Çətinliyin yoxdur ki?

Mirheydər ağa. Nurlan, açığını deyim ki, bağ sənin yardımınla abadlaşıb. Amma nə edəsən ki, abadlaşdıqca, dərd- səri azalmır, əksinə, çoxalır…

Nurlan. Başa düşmədim, ağa…

Mirheydər ağa. Nə deyim, necə deyim? Biri bu bağda kafe, çayxana açmaq, birisi də ağacları kökündən çıxarıb iyirmi dörd mərtəbəli bina tikmək istəyir… Deyirəm, a bala, olmaz, şəhidlərə hörmət eləyin… Üz- gözlərini turşudur, «yuxarıdan icazəmiz var», - deyə məni hədələyirlər…

Nurlan. Ağa, sən narahat olma. Mən buməsələni nəzarətə götürər, lazımi yerlərlə əlaqə saxlayıb bağın dağıdılmasının qarşısını alacağam.

Mirheydər ağa. Allah səndən razı olsun»…

…Balaca Uğurla Balaca Nilufərin qorxmuş halda gəlməyi söhbət edənləri narahat eləyir…

«…Rəmzi. Nə olub, Uğur, nədən qorxmusunuz?

Balaca Uğur. Qorxmamışıq, ata…

Rəmzi. Bəs onda niyə bu kökdəsiniz?

Balaca Uğur. Bir kişi ağacın arxasından qəfil çıxdı… Dəli kimi…

Nurlan. Nə kişi, necə kişi?

Rəmzi. Sizə toxundumu? *(Uşaqların gəldiyi səmtə tərəfə getmək istəyir.)*

Mirheydər ağa. Getmə. Rəmzi, Yavuz bəydi… Nurlanla mənim köhnə tanışımız…

Nurlan *(heyrətlə).* Yavuz bəy?

Rəmzi. Sizin keçmiş direktorunuz?

Mirheydər ağa. Bəli. Həmin Yavuz bəy! Neçə vaxtdı ki, buralarda hərlənir…

Nurlan. Ağa, o hara, bura hara? Görəsən, nə məqsədlə bura gəlir?

Mirheydər ağa. Bilmirəm. Danışmır, elə hey Uğurgilin abidəsinə baxır. Dodağının altında nəsə mızıldanır, mızıldanır, sonra da kirmişcə çıxıb gedir»…

Məlum olur ki, keçmiş «mitinqlər qəhrəmanı», zavod «direktor»u Yavuz bəyin başına hava gəlib…

Və müəllif on il geriyə qayıdıb Yavuz bəyin kabinetini səhnəyə gətirir…

Yavuz bəy *(özü özünə).* Keçdi pəncəmizə gözəl kreslo… Gərək elə oturam ki, kostyumum əzilməsin… Ha- ha- ha… Kimsə yaxşı deyib: «Teatr asılqandan başlayır, vəzifə katibədən…». Deməli, birinci katibədən başlamalıyam… Nilufər… Nə qəliz addı, heç ahəng qanunua tabe olmur: Ni- lu- fər. Amma mənə tabe olacaq! Çünki katibə direktorun sirr şərikidi, könül həmdəmidi, deməli, hər şeyidi! Hə bax, bunu aydınlaşdırmaq lazımdır. *(Selektorun düyməsini basır).* Nilufər xanım, lütfən, yanıma gəlin. *(Əlini düymədən çəkir).* Aha, «baş üstə» demədi. Neynək, öyrədərik.

Nilufər *(gəlir. Əlində iri bloknot və qələm var).* Sabahınız xeyir, Yavuz müəllim.

Yavuz bəy. Sabahın xeyir. *(Qızı diqqətlə və mənalı tərzdə süzür.)* Çox gözəl, çox gözəl, inanın ki, mən… *(Susur.)*

Nilufər. Yavuz müəllim, sizi eşidirəm. Mənə sözünüzmü var?

Yavuz bəy. Var, əlbəttə, var. Birinci elə ondan başlayaq ki, mənə bir də müəllim deməyin, bu sözü artıq mənfur imperiyanın qaranlıq arxivinə atmışıq.

Nilufər. Bəs nə deyim?

Yavuz bəy *(təəccüblə ona baxır).* Nə deyəcəksən? Yavuz bəy! Axı, bilirsən ki, bütün Azərbaycan məni Yavuz bəy kimi tanıyır. Aparıcı deyəndə ki, «İndi də söz verilir Yavuz bəyə!» - meydan titrəyirdi. Təsəvvür eləyirsən, Ni- lu- fər xanım? Meydan titrəyirdi! O boyda meydana sığmayan Yavuz bəy indi balaca bir kabinetdə quzuya dönüb. Üstəlik, katibəsi də bilmir ki, ona nə cür müraciət etsin»…

Nilufərin də vaxtilə pərəstiş etdiyi «azadlıq aşiqi», «mitinqlər qəhrəmanı» Yavuz bəy zavod direktoru kürsüsündə artıq rəzil bir insana, rüşvətxora, intriqana və şərəfsizə çevrilmişdir… Yəni əsl simasını açmışdır…

«…Nilufər *(cəld ayağa qalxır).* Bağışlayın, Yavuz bəy… Mən gedirəm, işim çoxdur. *(İti addımlarla otaqdan çıxır.)*

Yavuz bəy. *(Qızın arxasınca şit- şit gülür və əllərini bir- birinə sürtür).* Xamdır, əvvəlki direktoru arvad yox, kişi olsaydı, belə eləməzdi. Eybi yoxdu, əhliləşdirərəm. *(Telefon zəng çalır. Dəstəyi götürür.)* Bəli, mənəm, Yavuz bəydir. Bircəxanım, başın xarab olub? Necə yəni xoşun gəlmədi? O evə görə bilirsən də kimə ağız açmışam? Bilirsən də o evdə kim yaşayıb? Hardan biləsən, Bircəxanım? Mərkəzi Komitənin… Lənət şeytana! Bircəxanım, Nargin adasını neyləyirsən? Dədən Görməmiş Kərəmin artırmasından Nargin adasına baxırdın? On beş ildir kirədə yaşadığımız Xutordan Nargin adası görünür? Lənət şeytana! Az, bu Nargin adası nə matah şey olub? Elə bilirsən yönlü yerdi? İmperiya cəlladları bilirsən nə qədər qeyrətli ziyalılarımızı orada güllələyərək balıqlara yem edib? Qurtar bu söhbəti! Mən bir də evədn ötrü kimsəyə ağız aça bilmərəm… Ya o evə köçürük,

ya da qalırıq Xutorda, küçədə, bildin? (Dəstəyi yerinə qoyur.) Bu nə qudurğan imiş, ə? Meydana da elə mənə ilişməkdən ötrü gəlirmiş»…

Yavuz bəy ona mane olan «dikbaş» işçilərini cəzalandırmaq – işdən qovmaq qərarına gəlir…

«…Uğur. Yavuz bəy, gəldiyiniz bu az vaxtda aparhaapardır. Elə bil, idarə düşmən əlinə keçib. Camaat sovet partokratlarına şükür eləyir.

Rəsi. Biz qışın sazağında tankların qabağına buna görə çıxdıq ki, vətənimizi özgələrdən də betər talayaq?

Yavuz bəy. Siz nə danışırsınız? Belə sözlərə görə adamı dama basarlar. Kim talayır Vətəni? Sizin başınıza at təpib? Özüm özümü talayıram? Yəni bu hökuməti mən qurmamışam?

Mirheydər ağa. Sənin qurduğun hökumət şikəstdir, bala. Həyata gətirdiyin övladı sağlam böyütmək çox vacib məsələdir…

Yavuz bəy. A kişi, bəs, biz neyləyirik? İşləmirik, o körpəyə süd verən biz deyilik?

Mirheydər ağa. Başa düşürəm, dövlət işində çalışmamısınız, vəzifə görməmisiniz, təcrübəniz yoxdur. Bəs niyə başı çıxanları işə yaxın buraxmırsınız?

Yavuz bəy. Bilirəm, qoca, kimi nəzərdə tutursan, xam xəyaldır! Xalq bizi dəstəkləyir, biz hakimiyyəti dişimizlə- dırnağımızla qazanmışıq, onu könüllü şəkildə heç kimə verməyəcəyik. Sizi isə təzə hökumətin düşməni kimi tutdura bilərəm, lap başqa cür ölçü də götürə bilərəm, amma yüngül, yumşaq cəzaya əl atıram. Üçünüz də bu idarəni öz xoşunuzla tərk etməlisiniz… Bizə təxribatçı lazım deyil…

Mirheydər ağa. Yavuz bəy…

Yavuz bəy. Seyid, müharibə şəraitində yaşayan bir ölkənin, hələlik bağbana ehtiyacı yoxdur, o ştat ixtisar olunur. Xoş gəldin!..»

Uğurla Rəsi Yavuz bəyin ərizələrini yazıb işdən çıxmaq təklifinə ərizələrini yazıb cəbhəyə getməklə cavab verirlər. Və Uğuru sevən Nilufər də «bəy»in alçaq müdaxilələrini qəbul edə bilməyib onlara qoşulur…

Yavuz bəy müavini, onu «saymayan» Nurlan müəllimlə üz- üzə gəlirlər…

Nurlan Yavuzu ittiham edir…

«…Yavuz bəy. Nurlan bəy bu çox ağır ittihamdır! Mən meydanlarda yetişmişəm!

Nurlan. Sən meydan ideallarına çoxdan xəyanət etmisən. Bu gün keçmiş meydan söhbəti qəlp pul kimi mənasız bir şeydir. Siz ölkəmizi pis günə saldınız. Xalqın ümidlərini puça çıxardınız…

Yavuz bəy. Nurlan bəy, sən, elə bil, məhkəmə salonunda danışırsan – ittihamnamə oxuyursan. Özü də hökumət nümayəndəsinin qarşısında! Məgər bu bizim gətirdiyimiz  demokratiyanın, söz azadlığının nəticəsi deyil? Bəlkə, bunu da inkar edəsən?

Nurlan. Buna azadlıq deməzlər, Yavuz bəy. Bu, sonu faciə ilə nəticələnən hərc- mərclik, dövlət intizamsızlığıdır. Təəssüf ki, siz hamınız axırda cəza quyusuna düşəcəksiniz.

Yavuz bəy. Cəza quyusu dedin? Yoxsa o jurnalda çıxan cızma- qaranı yazan sənsən? Səhv etmirəmsə, adı da elə «Cəza quyusu»dur.

Nurlan. Bəli, mən yazmışam»…

Münasibətlər daha da gərginləşir…

Və yazıçı- dramaturq bu gərginliyi həyatı tamamilə müxtəlif cür dərk edən, ictimai- siyasi dünyagörüşü, həyat tərzi (və milli idealları!) tamamilə fərqli olan qəhrəmanların ciddi (və tarixi!)  qarşıdurması səviyyəsinə qaldırır.

Əsərin müəllifini maraqlandıran əsas konflikti də bundan ibarətdir…

«…Yavuz bəy. Nurlan bəy, atalarımız qızıl kimi söz deyiblər: «İki qoçun başı bir qazanda qaynamaz». Deməli, birimiz bu idarədən getməliyik.

Nurlan. Sən gedəcəksən, özü də tezliklə!

Yavuz bəy. Məni hədələyirsən? Bilirəm kimə  arxalanırsan. O məni sənin ayağına verməz, nə olsun ki, dostsunuz. İndi o sənin tələbəlik illərində tanıdığın romantik gənc deyil. Gözü çoxdan açılıb. Ona sən yox, biz lazımıq.

Nurlan. Səhvin var, Yavuz bəy. Mənim  arxalandığım adama bütün ölkə arxalanır. Əslində,  onunla heç bir şəxsi tanışlığım yoxdur, bir neçə dəfə  məktub yazmışam, vəziyyətimizi anlatmaq istəmişəm.

Yavuz bəy. Xam xəyallardan əl çəkin! Biz qurduğumuz hökuməti heç kimə təhvil verməyəcəyik!

Nurlan. Bircəcə ilin içində inam- etibar limitinizi xərcləyib qurtardınız. Eybi yoxdu, sizə yerinizi göstərən tapılacaq. O gələcək! Onun gəlişi böyük qayıdış olacaq! Sizin qura bilmədiyiniz azad, müstəqil Azərbaycanı o quracaq, dövlətçiliyimiz onun böyük qayıdışından başlayacaq! Sizin kimilərin yeri isə cəza quyusudur. Xəyanət cəzasız qalmır. Bu, qanunauyğunluqdur.

Yavuz bəy. Yaxşı, sən deyən olsun. Amma bilmək istəyirəm, birdən- birə yüyürüb üstümə gəlməyə, belə nifrət dolu odlu- alovlu sözlər deməyə səni vadar eləyən nədi? Nədən belə rəncidə olmusan?

Nurlan. Səbəb çoxdu, Yavuz bəy! O qoca kişini – Mirheydər ağanı işdən çıxarmaq hardan ağlına gəlib?

Yavuz bəy. Nədi, indi sən bir bağbana görə mənimlə üz- göz olacaqsan?

Nurlan. O bağban səndən də, məndən də əhəmiyyətli iş görürdü, görəcək də*!* *(Gedir)*»…

İkinci hissənin başlanğıcında hadisələr Qarabağda sahibinin içi dolu qoyub qaçdığı bir evdə baş verir…

Erməni yaraqlıları Qurgenlə yaralı Raçik söhbət edirlər…

«…Qurgen. Ara, ölüm nədir, mən özüm bu davada iki dəfə yaralanmışam. Ölmək nədir? Qarabağ bizim olana qədər ölməyə ixtiyarımız yoxdur.

Raçik. Bu Qarabağ məsələsi lap babamın Van əhvalatına oxşayır…

Qurgen. Vanda nə olub ki?

Raçik. Nə olacaq?.. Qırğın… Babamla nənəm görürlər ki, ara qarışıb, məzhəb itib, qaçırlar İrəvana…

Qurgen. Ara, genosid vaxtı?

Raçik. Hə də… Bir az özlərinə gələndən sonra nənəm babama deyir ki, qabaqdan qış gəlir, bir koma qarala. Girək içinə. Babam da deyir ki, arvad, biz evi Vanda tikəcəyik. Nənəm dinmir. Aradan bir il keçir, yenə qış gəlir. Nənəm deyir, a kişi, soyuqlar düşür axı… Bir koma qarala, onun- bunun qapısından canımız qurtarsın… Babam yenə deyir ki, arvad, biz evi Vanda tikəcəyik… Nənəm yenə

dinmir… Qərəz beləcə üç il, beş il keçir, nənəm öz sözünü deyir, babam da öz sözünü… Axırda nənəm dözmur, deyir: - Donuz oğlu donuz, bir məni başa sal görüm biz evi Vanda necə tikəcəyik? Kimdi bizi ora buraxan? Babam bığaltı gülüb deyir. Darıxma, arvad, nə qədər ki, rus bizim dalımızda dayanıb, əvvəl- axır tikəcəyik…

Qurgen. Ara, Raçik, baban ağıllı adam imiş, düz deyib, rus dalımızda durmasa, biz Qarabağı ala bilərik?..»

Dialoqlarla erməni siyasətinin (məkrinin!) iç üzünü açıb göstərməyə, erməni- daşnak dünyagörüşünün «mətbəx»inə daxil olmağa çalışan müəllif davam edir…

«…Qurgen. Bəlkə araq verim. Raçikcan, flyaqamda yaxşı tutovka var.

Raçik. Yox, Qurgen, ciyərim yanır, su istəyirəm… Ana, yazıq ana…

Qurgen. Bu saat… bu saat… *(çıxır və tez də əlində bir parç su qayıdır.)* Bu da su…

Raçik. Ver… *(Suyu alıb içir.)* Oxay… Sağ ol, Qurgen… Yazıq anam ağladı ki, getmə, sənin nə işin var Qarabağda, tək uşaqsan, başına iş gələr, ölərəm… Qulaq asmadım…

Qurgen. Elə danışma, Raçik, inciyərəm. Livandan, Yevropadan bizə köməyə gəlirlər… Yerevan qıraqda qalacaq? Qarabağ təkcə Qarabağ ermənilərinindir? Onsuz da Yerevanda bizə yuxarıdan aşağı baxırlar… Biz də burda qan tökürük, ölürük… Qarabağ məsələsi bütün erməni xalqının məsələsidir. Bir Gülbekyan vardı… milyarder… Sonsuz idi – uşağı olmamışdı… Qurumsaq oğlu qurumsaq öləndə pulunu Amerika dövlətinə bağışladı… Ermənistana verə bilməzdi?

Raçik. Ara, sən çox bisavadsan, bir fikirləş, rus qoyardı o boyda pul Ermənistanın olsun? Hamısını tutub əlindən alardı… Qurgen, axı mən ölürəm, yaram bərk ağrıyır…

Qurgen. Ara, yara ağrıyar da. Biz babalarımızın – erməni məliklərinin vəsiyyətini yerinə yetirmək üçün hər əzaba dözməliyik.

Raçik. Qurgen, Vaho necə oldu, öldürdülər?

Qurgen. Atışma vaxtı itirdim onu. Sağdırsa, meyit daşıyır… Ara, bilirsən bu musurman meyitə nə qədər pul verir? Arvad meyiti lap bahadı… Üççə meyit götürsən, ömrün boyu bəsindi. Daha xalça- palaz, mebel daşımağa ehtiyacın qalmaz… Amma İvanın dəstəyi olmasaydı, batardıq, sağ tikəmiz ələ gəlməzdi. Bu ruslar kimi döyüşən görmədim. İt uşağı adam öldürməkdən kayf alırlar.

Raçik. Qurgen, yəqin mənim ayağımı kəsəcəklər… *(Ağlayır)*»…

…Bu zaman Yavuz bəyin bacısı oğlu Təhsinlə əlaltısı Tayfur gəlirlər. Erməni yaraqlıları gizlənir… Və məlum olur ki, Təhsinlə Tayfurun cəbhədəki «işləri» qarətçilikdən ibarət imiş…

Onlar yemək yeyərkən Nurlan müəllimlə Uğur da gəlib çıxırlar…

«…Nurlan. Ev yiyələri qaçıb, siz də süfrə açmısınız…

Təhsin. Nurlan müəllim, əyləşin, bir tikə çörək yeyin. Uğur, yeməyimiz var.

Nurlan *(tutqun halda)*. Təxribatdır, əsl təxribat. Camaatı qorxuya salırlar, şaiyə yayırlar, kəndləri döyüşsüz boşaltdırırlar. O evin arxasındakı yük maşını kimindir?

Tayfur. Təhsinindir.

Nurlan. Təhsinin? Bəs, maşındakı yük?..

Tayfur. Nulan müəllim…

Təhsin. Tayfur, sən niyə mənim əvəzimə danışırsan? Nurlan müəllim, maşın da, yük də mənimdir.

Uğur. Mən bilən, sən bu kənddən deyilsən. Kimin yükünü aparırsan? Yoxsa, maradyorluq eləyirsən?

Nurlan. Uğur, sən nə danışırsan?

Uğur. Nurlan müəllim, mən yaxşı bilirəm o bura nəyə gəlib.

Təhsin. Mən sizi başa düşmürəm? Yəni istəyirsiniz ki, camaatın dişi- dırnağı ilə yığdığı bu şeylər ermənilərə qalsın? Tutaq ki, bu xalçanı erməni yox, mən aparıram. Bunun nəyi pisdir?

Nurlan. Təhsin, sən xəstəsən, başın xarabdır? Nə dediyini başa düşürsən? Cinayət törətdiyini bilirsən?

Təhsin. Nurlan müəllim, nə xəstə, nə cinayət? Məsələni niyə belə qoyursunuz? Məgər mənim dediyimi başa düşmürsünüz?

Nurlan. Təhsin, indi sən bizə dərs keçəcəksən? Bəlkə bu alçaq işə nəciblik donu da geyindirmək istəyirsən?

Tayfur. Nurlan müəllim, o bu xalçanı da aparmaq istəyirdi…

Təhsin. Tayfur, nə çuğulluq eləyirsən, ta de ki, o xalçada gözüm var da…

Uğur *(Təhsinə).* Avtomatımdakı güllələrə heyifim gəlməsəydi, doldurardım qarnına»…

Yazıçı- dramaturq azərbaycanlı döyüşçülərin igidliyi ilə yanaşı, dünyadan, kortəbii hadisələrdən baş çıxardıqlarını, ölkənin, xalqın gələcəyi barədə düşündüklərini də kifayət qədər aydın göstərə bilmişdir…

«…Uğur. Xeyli vaxtdı cəbhədəyəm, çox şey görmüşəm… Məncə, bu saat bizə sülh lazımdır.

Rəsi. Nə danışırsan, Uğur, biz qalib gəlmişik ki, sülh söhbəti edək?

İmran. Rəsi düz deyir, indi sülh ermənilərə xeyir gətirər, bizə yox.

Uğur. İmran, bu siyasətdir, ziyanlar arasından ən az ziyanı olanı seçmək lazımdır.

Nilufər. Uğur, axı bu məğlubiyyət deməkdir.

Uğur. Nədi, bəlkə Gəncəni də verib sonra danışıqlara gedək? Ermənilərin iştahaları böyük, qısqırdanları da çox, həm də gücü. Qüvvətlənmək, müttəfiqlər tapmaq üçün bizə vaxt lazımdır. Mən inanıram ki, haqq, ədalət öz yerini tapacaq. Geci- tezi var. İndi dünya siyasətindən başı çıxan rəhbərimiz var. O, mütləq dərdlərimizə əlac edəcək. Bu mənasız qırğının da qarşısını alacaq.

Nilufər. O gün Nurlan müəllim də sən deyənləri deyirdi…

İmran. Nurlan müəllim çoxdandı görünmür.

Uğur. Onu Yavuz bəyin yerinə təyin ediblər.

İmran. Yavuz bəyin? O meydanlarda çıxış eləyən Yavuz bəyin? Bəs onu hara göndəriblər?

Uğur. Həbsə!

İmran. Ola bilməz! Onun ölkə ilə bir adı vardı…

Uğur. Bu gün şüar deməklə xalqın etimadını qazana bilməzsən. Bu qanlı-qadalı illər bizə çox şey öyrətdi. Şirin sözlər, yağlı vədlər heç nəyə yaramır. İş görmək lazımdır. Xalqı həmişə aldatmaq mümkün deyil. Yavuz bəy bu həqiqəti başa düşmədi…

Rəsi. Kabinetindən kisə ilə pul çıxarıblar. Hələ bu azmış kimi, bacısı oğlu da cəbhə bölgələrində maradyorluq eləyirmiş»…

Döyüş başlayır. Və düşmən gülləsi Nilufərə dəyir…

*«…Uğur özünü Nilufərin yanına atır. Onun başını dikəldir…*

Uğur. Qorxma!.. Bu saat səni məntəqəyə aparacağam!..

Nilufər. Yox, Uğur, güllə düz ürəyimdən dəyib… Yəqin iki- üç dəqiqəlik ömrüm qalıb… Sən özünü qoru və vəsiyyətimə qulaq as… Mənim sərgərdan ruhum uçub Şuşada – dağıdılmış məscidimizin uçuq divarına qonacaq… Gərək razı olmayasan ki, mənim həndəvərimdə donuz xislətli ermənilər dolaşsın… *(Gözlərini yumur.)*

Uğur *(bərkdən qışqırır).* Nilufər!.. Nilufər!.. *(Avtomatı götürüb ayağa qalxır.)* Alçaq ermənilər!..

*Bu vaxt güllə açılır və Uğur Nilufərin yanına yıxılır. Rəsi gəlir. Gah yanan, gah da sönən işıqlar altında döyüş bir müddət davam edir və səngiyir.*

Rəsi. Uğur… Uğur… onlar qaçdılar, geri çəkildilər… Uğur… *(yerə sərilmiş Uğuru və Nilufəri görüb)* Uğur… Nilufər… Uğur… Bu ola bilməz, biz onlara qalib gəldik, Uğur… *(Hönkürür)*»…

Pyesin sonunda müəllif Nurlan müəllimlə Yavuz bəyi yenidən qarşılaşdırır…

«…Yavuz bəy. Mənim xəbərim var. Amnistiyaya düşməyimdə… Bunu sonralar bilmişəm. Səbəb nədir, bəlkə, savab qazanmaq istəyirsən, bəlkə, nəcibliyinlə camaatı heyran etmək, məni isə əzmək istəyirsən, bəlkə…

Nurlan. Sus, Yavuz bəy, danışıb təzədən özünü rüsvay eləmə. Mən sən Yavuzun yox, bu xalqa azadlıq ideallarını gətirən, özünü müstəqillik yollarında səfərbər etməyi bacaran Yavuz bəyin azadlığa çıxmasına çalışdım. Azadlıq

carçısının zindanda yatmasını istəmədim. O böyük insan da  xahişimi yerə salmadı, əfv fərmanını imzaladı. Başqa səbəb  axtarmağa ehtiyac yoxdur.

Yavuz bəy. Sən məni zindandan azad elədin, amma nə olsun, mən o cəza quyusundan çıxa bilmirəm.

Nurlan. Həyat hələ bitməyib, Yavuz bəy. Tövbə qapıları həmişə açıqdır. Şərdən çəkinib xeyirə qulluq  eləmək lazımdır. Cəza quyusundan çıxmağın yolu da elə budur»…

Nəticə etibarilə deyə bilərik ki, aydın dili- üslubu, klassik əxlaqi- tərbiyəvi məntiqi, dinamik strukturu olan pyes Azərbaycanda baş vermiş məlum ( və tarixi!) ictimai- siyasi hadisələrin, proseslərin və həmin hadisələrdə, proseslərdə insan-vətəndaş məsuliyyətinin  dərk olunmasına xidmət edən, istedadla qələmə alınmış əsərlərdən biridir.

*

*     *

Hüseynbala Mirələmovun «Miras» (2014) ikihissəli dramatik komediyasında hadisələr1990- cı illərin əvvəllərində Bakıda cərəyan edir.

…Nərgiz (Nara) əri, keçmiş «zavoddel ceka» İnqilaba Amerikaya getmiş yeganə övladları Azikin (Azərin) «bankrot» olduğu, ata- anasının onun köməyinə gəlməsə  özünü öldürəcəyi xəbərini verir.  Və təklif edir ki, yaşadıqları evi (ev isə İnqilabın «köhnə kommunist» atası Nemətullaya məxsusdur) satıb Amerikaya getsinlər… Azik onlara  restoranda qabyuyan işi də tapdığını deyibmiş…

İnqilab etiraz etdikdə Nemətulla ilə danışmağı Nərgiz öz öhdəsinə götürür…

Bu zaman səs- küy eşidilir… Məlum olur ki, köhnə qvardiya, Nemətulla da olmaqla «7 Noyabr» qələbə bayramını qeyd etməkdən gəlirlər…

«…İnqilab. Bu nə səs- küydy, Nara? İnqilab baş verib? Perevarotdu?

Nərgiz *(halını dəyişmədən).* Həri, inqilabdı! Əhlikef atan bayramdan qayıdır, özü kimi avara qocalarla! Şizofreniklərlə!

İnqilab. Nə bayram, Nara, bayram vaxtıdı?

Nərgiz. Yeddi noyabrdı də, nə tez çıxdı yadından? O vaxtdan heç beş il keçməyib. Sekada işləyəndə işin- gücün nümayiş təşkil eləmək deyildi?

İnqilab. O gözəl günləri yadıma salma, Nara! Salma yadıma!

Nərgiz. Onu atana de! Bax, bu gün məsələni həll eləməliyik, İnqilab! İstər xoşluqla, istər zorla.

İnqilab. Mən bacarmaram! Özün danış, mən evdə olmayanda, ikilikdə.

Nərgiz. Yenə mən? Hər yerdə məni qabağa verirsən.

İnqilab. Bütün bu axmaq işlərin mayasında sən dayanırsan, Nara! Uşağı yoldan çıxarıb Amerikya göndərən də sənsən. Di zəhmət olmasa davam elə!..»

…Nemətulla başının dəstəsilə – «köhnə qvardiya» ilə evə daxil olurlar…

İnqilab onların hərəkətının komik göründüyünü deyir…

«…Nemətulla. Neynək, komik görünür, gül nə qədər istəyirsən. Onu da bil ki, bu küçələrdə, meydanlarda gəzməyə mənim haqqım daha çoxdu. Çünki bu şəhəri mən qurmuşam!

İnqilab. Səhvin var, Nemətulla Sadıxoviç! Sən qurduğun şəhər çoxdan yoxdu. Bu tamam təzə şəhərdi. Bir beş ildən sonra daxil olacaq XXI əsrin şəhəridir.

Batelman. Eto toçno! Naş starıy, dobrıy Baku isçez navseqda.

Svetik. Gena düz deyir. Bu gördüyümüz bizim tanıdığımız, sevdiyimiz Bakı deyil!

Yazıçı. Hanı Parapet? Hanı «Nərgiz» kafesi? «İnturist» necə oldu?

Nemətulla. Hələ «Novaya Yevropa», «Bakı» mehmanxanası? İndi heç bizim dildə otel adı yoxdu. Hələ qırmızı tramvaylar?! Trolleybuslar?! Mənim on bir nömrəli tramvayla bağlı nə qədər xatirələrim var.

İnqilab. Papa, heç hənanın yeridi? Bəlkə İstiqlaliyyət küçəsində o trolleybusa heykəl də qoyaq? «Nərgiz» kafesi! A kişi, onları hələ sovetin vaxtında sökmədik, mən onda sekada işləyirdim? Qatmayın məni bu müxalif söhbətlərə, onsuz da əskim tüstülüdü *(qapıya yönəlir).* Mən getdim!

Neymətulla. Onsuz da sənə vəzifə verməyəcəklər, heç ümid olma! Sən unudulmusan»…

İnqilab gedir…

«Köhnə qvardiya» mövcud ictimai- siyasi vəziyyəti stol arxasında «müzakirə etməy»ə başlayır…

«…Nemətulla. Söz qaçmır, gəlin, danışarıq (qocalara). Yoldaşlar, atributları qoyun bir tərəfə, hələ bizə lazım olacaq. Bu xamır hələ çox su aparacaq.

*Qocalar transparantları, bayraqları bir küncə yığırlar.*

Həqiqət. Ta heç nə bizə kömək eləyə bilməz, Neymatulla Sadıxoviç, nə bayram, nə mitinq, nə demonstrasiya! Dağıldı, hər şey yerlə yeksan oldu, bütün qurduqlarımız dağıldı. Mən buna görəmi Kalımada sürgün həyatı yaşadım?

Svetik. Demə, Həqiş, demə! Bacımla mən ikimiz bir yerdə Qaraqandada səkkiz il zülüm çəkdik. Bu da axırı! Bu da müstəqillik!

Nemətulla. Biz müstəqildik SSRİ olanda! Bir köpəyoğlu deyə bilməzdi gözünüz üstündə qaşınız var. Torpaqlarımız da əlimizdə. Elə ki, xainlər SSRİ- ni dağıtdı, xəbis düşmən pusqudan çıxdı, aldı Qarabağı, çatdı yüzillik arzusuna.

Yazıçı. İndi yaz görüm necə yazırsan, bu vəziyyətdə?

Həqiqət. Niyə yazmırsan, yaz də! Qələmini ki, almayıblar əlindən. On ildir susursan!

Yazıçı. Demək asandır, Həqiqət xanım, amma Nədən yazım? Zavod yox, fabrik yox, kollektiv yox! Kolxoz- sovxoz dağılıb. Konflikti nəyin üstündə qurum?

Nərgiz *(deyinir)*. Bütün həyatımız konflikt deyil, müəllim?

Yazıçı. Konfliktdi, qızım, əlbəttə konfliktdi, amma mən bilməliyəm bu hökumətə nə lazımdı də! Demirlər, bir göstəriş vermirlər. Bir ordu yazıçı, şair qalıb başlı- başına, bir qabağa düşüb yol göstərən yoxdu. Kimin ağzına, ağlına nə gəldi, döşəyir bir ucdan»…

Gənc Elvin (Nemətullanın qardaşı nəvəsi) də məclisə qoşulur…

«…Batelman. … Stolumuzun üstündə maraqlı şeylər var, yoldaşlar! Qaldırın badələri, içək Oktyabr İnqilabının sağlığına!

Elvin. İnqilab durur ki, sağlığına da içəsiz?

Neymətulla. Bəli, Elvin yoldaş, durur da, yaşayır da! Nə qədər ki, bizim nəsil yaşayır, Yeddi noyabr da yaşayacaq! Qalxın, yoldaşlar, bunu ayaq üstə içməliyik!

Hamı qalxır və bir nəfər kimi içir»…

…Elvin müxtəlif millətlərdən olan sərxoş qocalarla zarafata keçir…

Ancaq özü də pis vəziyyətə düşür…

«…Elvin. Siz onsuz da mənim reseptimdən istifadə eləyə bilməyəcəksiniz. Yetmişi keçmisiniz.

Svetik. Yetmişi? Adə, 70 yaşında mən axırıncı ərimdən boşandım. Sən danış… Yox, qadın yaşını deməz.

Elvin. Deməli, sizin yaşınız… İlahi! Bu qədər yaşamaq olar? Müharibə şəraitində olan bir ölkədə 70 yaşdan artıq yaşamaq israfçılıqdır. Ölkədə hər üçüncü adam pensiya alır, cənablar! Bu düşmənçilik deyil bəs nədir? Sizin hamınızı xalq düşməni kimi təzədən Sibirə sürgün eləmək lazımdır.

Həqiqət (*qəfil yerindən qalxıb Elvinə yaxınlaşır və qəzəblə)* Hayıf ki Neymətulla Sadıxoviçin qohumusan!

Svetik *(Həqiqətin qolundan tutur).* Həqiş, neynirsən?

Yazıçı *(sürətlə yaza- yaza).* Svetik, mane olma! *(Öz- özünə danışır).* Konflikt sürətlə dərinləşir.

Batelman. Lazım deyil, Aqiqat!

Elvin *(çaşqındır).* Bu nə həyəcandır belə, qocalar? O, mənə neynəyəcək?

Neymətulla. Dayanma, Həqiqət, halal eləyirəm.

Elvin (*sarsaqcasına hırıldayır).* Nənə, vuracaqsan məni?

Həqiqət *(Elvinə qəfil sillə vurur).* Yaramaz! Rəzil!..»

Elvin vəziyyətdən çıxmaq istəsə də bacarmır…

*«...Svetik qışqırır. Elvin gözləmədiyi zərbədən stula düşür və pərtliyini gizlətmək üçün gülür.*

Neymətulla. Hə, necədir?

Elvin. Əslində düz eləyib vurdu. Yaramızı da yaxşı dedi, qandım, bəs o rəzil nədi?

Neymətulla. Rəzil sənin kimi olur, hər şeyin qiymətini bilib qiymətləndirməyən adama deyirlər. Vətən, xalq, millət, namus- qeyrət, mənəviyyat da boş sözdür rəzil adam üçün. Bunlar düşünmədən vətəni də satarlar.

Elvin. İmkan olsa satardım.

Neymətulla. Tfu!

Yazıçı. Əla! Bunu da yazdıq! Əla!

Həqiqət *(Elvinə).* Bəs niyə dayanmısınız, satın- sovun, müqəddəs nəyiniz var satın hamısını, lap bizi də satın, satın ki, israfçılıqdan qurtarasınız. Axı çox yaşamaq israfçılıqdır dedin.

Elvin *(hər ehtimala qarşı Həqiqətdən aralanır).* Satardım, amma kim alacaq sizi? Heç zapçasta da yaramırsınız.

Neymətulla. Rədd ol burdan! Von! Von! Von otsyuda!..»

Bu zaman Amerikadan Azik zəng vurur…

Yəhudi Batelman Bakını – vətəni tərifləyir…

«…Batelman. Özgə yerdə xoşbaxt ola bilmərik biz, Neymatulla Sadıxoviç. Mən heç xoşbaxt ola bilmədim, qayıtdım zemlya obetovannaya deyilən İsraildən. Hər şeyim vardı, amma vətənim yoxdu, mən Bakısız yaşaya bilmədim.

Elvin. Nə qəribə adamlarsız siz! Olmayan partiyanın üzvü, olmayan vətənin vətəndaşı, olmayan övladın anası, olmayan ideyanın… Sizə baxanda adam ölmək istəyir.

Neymətulla. Əl- ayağım sənə dəyməmiş çıx get burdan, rədd ol!. Bu evin yolunu da çıxart yadından! Bilirəm, ta mənim evimə də ehtiyacın yoxdu, rədd ol!

Elvin. Hayıf ki, səni çox istəyirəm, baba, yoxsa getməzdim *(getmək istəyir).*

Svetik. Axı sən resepti demədin, cavan oğlan?

Elvin. Nənə, qocalmamağın bircə resepti var.

Svetik *(Yazıçıya)* Eynəyim yanımda deyil, sən yaz.

Elvin. Yaz, şair! Yaz ki, qocalmamağın bircə yolu var, o da cavan ölməkdir»…

…Batelmanın dərdi daha böyük imiş…

«…Svetik. SSRİ deyəndə adamın tükləri biz- biz olurdu.

Batelman. Bəli, biz vətənsizik. Getdim ora, elə bildim qan yaddaşım oyanar, isinişərəm tarixi yurduma, heç kimdən milli mənsubiyyətimi gizlətməyə ehtiyac qalmaz, bir ürəkdolusu heç nədən, heç kimdən çəkinmədən mən yevreyəm deyib hayqıraram! Amma yox, orda buna ehtiyac olmadı, kruqom odni yevreyi! Torpaq da mənə yad, klimat da, insanlar da. Yevreylər də orda çox maraqsız, duzsuz…

Yazıçı. Gena, insafın olsun, yavaş- yavaş… *(sürətlə yazır).*

Batelman. Üç ilmi keçdi, beş ilmi, bəlkə yüz il?! Qala bilmədim, alışa bilmədim qürbətə, Bakı çəkdi məni özünə. İlahi, bu necə böyük istəkdi! Mən həsrətdən boğulurdum. Uşaqlarım da məni saxlaya bilmədilər. Qayıtdım, qanad açıb uçan quş kimi yetirdim özümü Bakıya… *(Ağlayır).*

Svetik. Ta niyə ağlayırsan, Gena?

Batelman. Gəldim, amma o Bakı yoxdu! Mənim doğma şəhərim yoxdu, bu mənim sevdiyim, vətənim dediyim Bakı deyildi. Hanı mənim parapetim, hanı mənim «Nərgiz» kafem, hanı 26- lar bağı, hanı «İnturist», hanı mənim Torqovım, gəncliyimin küçəsi, Karqanovdan enərdim aşağı, düşərdim tanış adamlar arasına. Salamlaşmaqdan yorulardım. Bəs hanı, necə oldu o adamlar? Görmədim tanış üzləri, təbəssümlü dostları… Əvəzində qaşqabaqlı, üzütüklü, qayğılı insanlar… Zibil tökə- tökə gedirlər, tüpürürlər, deyinirlər, söyüşürlər… İtirdim mən vətənimi! *(Hönkürür)* Niyə məni vətənsiz qoydun, vətən?

Həqiqət. Bəsdir, yoldaş Batelman! Ağlamaq kommunistə yaraşmaz?

Batelman *(konyak şüşəsini məhəbbətlə sığallayır).* Buydu vətənimin yeganə yadigarı, onu da bu gün siz içdiniz, bir yerdə məhv elədik onu…

Svetik. Aaa… yevrey ki yevrey!

Həqiqət. Tək sən deyilsən, vətənsiz, Gena. Biz hamımız SSRİ- siz yetimik, vətənsizik… *(salfeti gözlərinə sıxır).*

Neymətulla. Bəsdirin, yoldaşlar! Biz ağlaşma qurmağa yığışmamışıq! *(Yavaş- yavaş oxuyur).*

Günəş nur səpir yollarımıza,
Dostluq güc verir qollarımıza.

Həqiqət *(oxuyur).* Ayrılmaz dostlarıq biz,

Svetik *(oxuyur).* Tükənməzdir qüvvəmiz.

Batelman *(gözlərini portyankası ilə silib oxuyur*). Qarşımızda baş əyir

Yazıçı. Mavi dalğalı dəniz…

Birgə. Qarşımızda baş əyir

Mavi dalğalı dəniz.

La- la la- la- la- la- la- la…

…Nemətulla. Yoldaşlar, gəlin and içək! And içək ki, biz böyük vətənimizi qaytarmayınca ölməyəcəyik! And içək!

Hamı. And içirik!..»

İnqilab əlində araq şüşəsi gəlib öz dərdini danışır…

«…İnqilab. Bu vətən mənə dədəlik eləyə bilmədi, papa! Hələ bu nədir ki, nə onun əlindən qopub gedə bilirəm, nə onda yaşaya bilirəm. *(Araq töküb içir).* Püf!.. Oğlumun yanına getməyə mənim pulum yoxdur. Azik üçün burnumun ucu göynəyir, amma gedib görə bilmirəm onu. Mən, İnqilab Neymatullayeviç, bıvşıy zavotdel sseka Amerikaya getməyə pul tapmıram.

Neymatulla. Amerikada nə işin var, ə, sənin?! Sən nə danışdığını qanırsan?

İnqilab. Mən getməliyəm, papa, getməliyəm! Mənim özgə yolum yoxdur.

Neymətulla. A gəlin, bu nə deyir? Amerikada nə işi var bunun? Genə nə plan cızmısan buna?

Nərgiz. Axı siz bizə qulaq asmırsınız, Neymatulla Sadıxoviç! Sizə deyirəm danışmalıyıq, əlinizi yellədirsiniz, ya da tikanlarınızı işə salırsınız.

İnqilab *(nalə çəkir).* Papa, mən orda qabyuyan olacam, amerikalıların bulaşıq qablarını yalayacam.

Nərgiz. İnqilab, bəsdi də! Başına söz qəhətdi?..»

…Qonaqlar gedir. Nemətulla oğlu ilə gəlinini dinləyir…

Məsələ məlum olur. Və Nemətulla özündən çıxır…

«…Neymətulla. Dayan, dayan… Siz mənim evimi satmaq istəyirsiniz?

Nərgiz *(ayaqlarına döşənir).* Papa, yalvarıram, Aziki xilas elə! O sənin təkcə nəvən, bizim də madar oğlumuzdu. Sən onu xilas eləməlisən…

Neymətulla (*ayaqlarını Nərgizdən qurtarıb İnqilaba yaxınlaşır)* Qaldır başını! Üzümə bax! Sən mənim evimi əlimdən almaq istəyirsən? Sən məni küçələrə atmaq istəyirsən, bəlkə məni qocalar evinə göndərəsən, Gena Batelmanın yanına?!

İnqilab. Papa, mən çıxılmaz vəziyyətdəyəm, papa, məni başa düş.

Nemətulla. Başa düşdüm! *(Karlı bir şillə vurur, İnqilab yıxılır)* Biqeyrət!

Nərgiz (Neymətullanın qabağına keçir). Papa, sən neynirsən?! Niyə onu vurursan?

Neymətulla. Çəkil, qancıq!

Nərgiz. Papa!

Neymətulla. Sus! Bir kəlmə də!..»

Birinci hissə gərgin bir vəziyyətlə bitir… Gəlinlə qaynata üz- üzə gəlir…

«…Nərgiz. Susmayacağam! Qoy, oğlun da bilsin, onsuz da mən bu evi girov qoyub pul götürmüşəm, bir hissəsini də göndərmişəm Azikə.

Neymətulla. Sən mənim evimi girov qoymusan? Sən oğurluq eləmisən, cinayət törətmisən!

İnqilab. Nara?! Sən neynəmisən, Nara?

Nərgiz. Azikin yolunda hər şeyə hazıram, lazım gəlsə türməyə girərəm, lap adam da öldürərəm!

Neymətulla. Rədd olun! Hər ikiniz rədd olun!! Şələ- külənizi yığışdırıb itilin gözümdən! *(Daha bərk qışqırır*). Rədd olun mənim… *(Səntirləyir, ağzını açır ki, nəsə desin, amma səsi çıxmır).* Aaa… aaa…

İnqilab. Papa! Papa!!

*Neymətulla yerə yıxılır. İnqilab təlaşla onun üstünə əyilir. Nərgiz bir qıraqda dayanıb sanki nəsə gözləyir, üzündə başa düşülməyən bir ifadə var, bilinmir sevinir, ya kədərlənir.*

İnqilab. Papa! Papa!! Bir söz de, papa! Nara, o nəfəs almır!

Nərgiz *(birdən ayılır və çox aydın, sakit səslə)* Dəymə ona, İnqilab! Toxunma! İndi təcili yardıma zəng eləyərəm *(telefona sarı gedir və tərəddüdlə dəstəyi qaldırır, amma danışmır)*»…

İkinci hissə Nərgizin Amerikaya getməyə hazırlaşmasıyla başlayır… İnqilabın arvadına, həmişə olduğu kimi, yenə də sözü keçmir…

Nemətullanın evi gizlicə girova qoyulub…

Ata ilə oğul arasında ciddi söhbət gedir…

«…İnqilab. Ana görmədim, ata həmişə partiya tədbirlərində, qardaş yox, bacı yox. Sonra da vəfasız arvad, fərsiz, ərköyün oğul, nə özü yaşaya bilir, nə bizi qoyur ölək öldüyümüz yerdə *(kövrəlir)*. Heç kəsdən vəfa, etibar görmədim. Bir vaxtlar qəbuluma gəlmək üçün ilan dili çıxaranlar bu gün mənə heç salam vermirlər. Niyə evlənmədin mamadan sonra, papa? Heç olmasa ögey də olsa bacım- qardaşım olardı.

Neymətulla. Bilmirəm! Evlənə bilmədim. Ondan sonra heç bir qadına ürək qızdırmadım. O, ölümü ilə ürəyimin qapısnı bağlayıb, açarını da özüylə apardı qaranlıq dünyaya.

İnqilab. Mən doğulmasaydım, o ölməzdi. Bəlkə ona görə sən məni sevmirsən?

Neymətulla. Mən səni sevmirəm?

İnqilab. Yox, papa, sən məni başqa atalar oğlunu sevən kimi sevməmisən, mən bunu lap kiçik yaşlarımdan hiss eləyirdim. Sən həmişə ögey olmusan mənə, həddindən artıq ciddi, əzazil müəllim kimi tələbkar. Həmişə içimdə bir şübhə olub»…

…Nemətulla etiraf edir ki, İnqilab onun doğma oğlu deyil, uşaq evindən götürülmədir…

Nərgiz gəlib çıxır…

«…Nərgiz. Gedirəm, İnqilab müəllim, biletim hazırdır, özü də bir tərəfə. Siz də ata- bala gətirin o avara qocaları bura. Gedib Amerikada təkcə oğluma yardım eləmək əvəzinə gününü- dövranını sürmüş. Həyatları çoxdan bitmiş şizofrenik

qocalarla araq iç, ağla, gül, inqilab- inqilab oyna, nəğmə oxu. Hələ xəbərin yoxdu, o qoca fırıldaqçı yəhudini də bura gətirmək fikrindədir atan, Gena Batelmanı.

İnqilab. Onu kim dedi, nə sarsaqlayırsan? Genanın burda nə ölümü var?

Nərgiz. O elə ölməyə gəlir.

İnqilab. Necə yəni ölməyə gəlir? O niyə ölür?

Nərgiz. Dünyanı tutub qalmayacaq ki?! Həkimlər də ona ölüm hökmü kəsiblər. Deyir beş- on günü qalıb. Bunlar da qərara alıblar ki, Gena Batelman qocalar evində deyil, burda ölməlidir»…

Həqiqətən də, elə olur. Batelman arabada əvvəlki dostları – «köhnə qvardiya» ilə Nemətulla gilə gətirilir…

«… Batelman. Mən qorxmuram, uşaqlar, əksinə, içimdə bir rahatlıq əmələ gəlib, axır həftənin gərginliyi də məni tərk eləyib, hətta *(pıçıldayır)* biz onunla yamanca isnişmişik. Bax, oturub o küncdə, mən danışdıqca irişir üzümə.

Svetik. Gena, səni qara basır.

Neymətulla. Bəlkə o danabaş həkim nəsə deyib sənə, Gena?

Batelman. O yazıq hey ürək- dirək verir mənə, amma mən də nəsə bilirəm axı! Qəribədir, dərin bir biganəlik quyusuna düşmüşəm. Məni bu dünyaya bağlayan iplər bir- bir qırılır, amma bu məni kədərləndirmir, deyərdim ölməyə böyük həvəsim var.

Yazıçı (*dəftərçəsinə qeydlər eləyir).* Bu həvəs necə yaranır, Gena?

Batelman. Çox sadə! Ömrümü həsr elədiyim kommunizm ideyası gözümün qabağında iflasa uğradı, həyat mənasını itirdi… *(Gülümsəyir).*

Neymətulla. Burda yanılırsan, Gena, ideya ölməyib, o yaşayır, kommunizm mütləq qalib gələcək, biz onu görməsək də gələcək nəsillər görəcək»…

…Hər şey zarafata salınır… Xüsusilə «möhtəşəm» bir tarix… «Ölməz» bir ideologiya…

Əsas da odur ki, onu «yaradanlar»ın simasında…

«…Həqiqət. Mən Genanın toyunda birinci dəfə Neymətulla Sadıxoviçin sərxoş olduğunu gördüm.

Batelman. Ax, kak mı bıli molodı! Həyat bir göz qırpımında keçdi.

Svetik. Əcəb göz qırpımıdı?! Nələr görmədik biz bu arsız dünyada? Nələrdən keçmədik?

Batelman. Nə qazandıq biz? Hanı bizim həyatımız, gəncliyimiz hesabına qurduğumuz dövlət, yüksək ideyalı cəmiyyət? Hanı sosializm? Hanı o nəhəng vətən? Biz onu qoruya bildikmi?

Neumətulla. Taqsır bizdə olmadı, Gena Batelman! Bizi içəridən çürütdülər. Karyerist partokratlar bizi də məhv elədilər, vətəni də, dövləti də.

Batelman. Bəlkə ideya özü yaşarı deyildi, Neymətulla Sadıxoviç? Bəlkə kommunizm ideya fiksiya idi, utopiya idi?

Neymətulla. Gena, sən opportunizmə yuvarlanmısan. Xəstə olmasaydın sənə yağlı bir töhmət verərdim.

Batelman. Gecdir, Neymatulla Sadıxoviç, bundan sonra töhmət məni xilas eləyə bilməz, mən indi axirət sevdasındayam, bu dünyanın işləri məni daha maraqlandırmır»…

Azik zəng vurur…

«…Nərgiz *(səsini qaldırır).* Azik, sənin başın xarab oldu? Adə, sənə deyirəm, evi satmışam, pulun bir hissəsini sənə göndərmişəm, hər şey qaydasına düşdüyü yerdə bu nədi deyirsən?

İnqilab. Nə olub, Nara, yenə o nə hoqqa çıxardıb?

Nərgiz *(hikkəli pıçıltı ilə).* Sənə görə az qalmışdı qocanı öldürüm, şükür, Elvin çıxdı böyürdən, ehtiyac olmadı, sən də durub deyirsən vətənsiz yaşaya bilmirəm? Nə vaxtdan sən vətən qədri bilən olmusan? Dedim axı sənə, papanı da yola gətirmişəm. Axmaqlama, Azik! *(Qışqırır).* Azik, adam işinin xətrinə erməniyə dayı deyər, oğlum! Adə, indi kimdi sənə deyən ki, erməniyə dayı de? Məsəlçün deyirəm də! Bu gün tualet yuyarsan? Sabah da… həri, ölü yuyarsan! Bura bax, Azik, ağlını yığ başına, məni də dəli eləmə! Adə, ölmürdün Amerika üçün? Sənə görə bütün həyatımızı məhv elədik. Adamlıqdan çıxdıq… İndi bəs nə oldu?.. Mən heç nə bilmək istəmirəm, sən orda yaşayacaqsan! Eşidirsən? Amerikada yaşayacaqsan! Elə biz də orda yaşayacağıq*! (Dəstəyi qoyur).*

İnqilab. Onun başı tamam xarab olub, Nara? Bəlkə narkotikaya dadanıb?

Nərgiz. Deyir qayıdıram Bakıya, mən burda yaşaya bilmirəm, nəfəs ala bilmirəm, havam çatmır.

İnqilab. Nə oldu, pişik asqırdı?

Nərgiz. Nə bilim, deyir göndərdiyin pullar getdi borca, özüm də acından ölməmək üçün tualet yuyuram, neqrlərin məhləsində»…

Komediya bitir…

«…Nərgiz. Bu da taksi! *(Əlində çamadan telefona yaxınlaşır və dəstəyi götürür)*. Alo, taksi?! Azik?! Adə, sən zəng eləməkdən yorulmadın? Adə… Nə danışırsan, Azik? Bir qulaq as, Azik… Sən ciddi danışırsan? Azik, buna qaydasız döyüş deyərlər. Azik… Azik… Azər!.. *(Bir xeyli səssiz qulaq asır)*. Azik, qulaq as… *(İnqilaba)* Dəstəyi qoydu. *(Çamadan əlindən düşür)*.

İnqilab. Nə oldu, Nara, nə dedi o?

Nərgiz. Deyir mən artıq Bakı təyyarəsinə minirəm.

İnqilab. Bakı təyyarəsinə? Bakıya gəlir?

Nərgiz. Deyir, mama, məni burda adam hesab eləmirlər. Mən qayıdıram vətənimə! Bakıma qurban olum, deyir, onun daşına, qayasına, qumuna, küləyinə! Mən qayıdıram evimə…

İnqilab. Bu sözləri Azik dedi?

Nərgiz. Hələ bir şeir də dedi.

İnqilab. Nara, Azik şeir bilir?

Nərgiz. Həri, orda öyrənib. El bilir ki, sən mənimsən, yurdum, yuvam məskənimsən… *(ağlayır)*. Anam doğma vətənimsən, ayrılarmı könül candan, Azərbaycan, Azərbaycan»…

*

*     *

Hüseynbala Mirələmovun «Axirətdən gələn zəng»i də «Miras» kimi ikihissəli dramatik komediyadır.

Birinci hissənin ilk remarkası müəllifin nəsrdən gələn özünəməxsus təsvir-təfərrüatı ilə başlayır… Və sonra dialoq davam edir…

«…Çox dəbdəbəli interyeri olan yaraşıqlı, geniş zal otaqdır. Hər iki tərəfdən ikinci qata tutacaqları inkrustasiya olunmuş pilləkənlər qalxır. Zalın tavanından müasir dizaynlı iri zəngin çilçıraq asılıb. Hər şey var- dövlətə, firavanlığa və yüksək zövqə iddialıdır. Ortalıqda iri qonaqlıq masası qoyulub. Ağ süfrənin üstündə gözəl servirovka var: bahalı fujerlər, nimçələr, bərq vuran çəngəl-bıçaqlar… Xidmətçi geyimində olan Delisay servirovka ilə məqşğuldur. Tez- tez girir- çıxır, nəyisə aparır, nəyisə gətirir. Səhnədə baş verəcək hadisələrin ona qətiyyən dəxli yoxdur. Öz işindən başqa hər şeyə biganə təsir buraxır. Röya otağın ikinci qatında görünür. O, Timurun müşayiəti ilə kübar xanımlara məxsus bir əda ilə pilləkəni düşür və düşə- düşə də danışır. Hiss olunur ki, gözəlliyindən, danışığından, səsinin ahəngindən, bir sözlə, bütün varlığından ləzzət alır.

Röya. Bir sizdən yorulmuram, Timur bəy! Əvvəlki stilistlər incidirdilər məni.

Timur. Onlar nədən stilist olsunlar, Röya xanım? Onlar adicə dəlləkdilər, parikmaxer! Qeybət olmasın, yalandan hərəsi bir sertifikat düzəldib, döşündən əldəqayırma medal asıb, adını da qoyub stilist. Danışmaq istəmirəm, Röya xanım, onsuz da əskim tüstülüdür.

Röya. Elədir, Timur bəy, danışmayaq, qeybət nəcib adama yaraşmaz. *(Zalın ortasında dayanıb şahanə görkəmlə Timura baxır).* Siz deyin görüm bu saç düzümü mənə yaraşır ya yox?

Timur. Yaraşır azdır, Röya xanım, mən sizdən gözümü çəkə bilmirəm, indi görün kişilər neynəyəcəklər?

Röya. Timur bəy, sözlərinizdə ehtiyatlı olun, mən ərli qadınam.

Timur. Ah, Röya xanım, hər şey o qədər şərtidir ki, lap teatrda olduğu kimi»…

Röya davam edir…

«…Röya. Ah, Timur bəy, mən bu az yaşımda çox şey görmüşəm. Axı mən də İncəsənətdə oxuyurdum, anam fəlsfədən dərs deirdi, atam da kifayət qədər məşhur rəssamdı, hətta əməkdar incəsənət xadimi idi.

Timur. Əsil ziyalı ailə!

Röya. Özü də necə ziyalı?! Fərhad da kənddən gəlib, heç nəyi yox, perspektivi qaranlıq…

Timur. Fərhad? Fərhad kimdi?

Röya. Timur bəy, Dövran müəllim mənim ikinci ərimdi.

Timur. Aman!

Röya. Bunu çox az adam bilir, Timur bəy. Mən o gənclik illərində elə bir sevgi yaşadım…

Timur. Mən şokdayam!

Röya. Hələ harasıdı? Bu kəndçi balasında bir boy- buxun, bir yaraşıq, bir kişilik vardı ki…sözlə təsvir eləmək də çətindir. İlahi, ondakı xarizmanı mən heç kimdə görə bilmədim. Vurulmuşdum! Qadının vurulması bir özgə aləmdi, siz bilməzsiniz,Timur bəy.

Timur. Bəs sizin valideynləriniz?

Röya. Onlar Fərhadın heç adını eşitmək istəmirdilər.

Timur. Niyə, Röya xanım, niyə valideynlər övladlarının hisslərinə hörmət etmirlər?

Röya… Dedilər sən bu ac- yalavac kəndçi oğlanla xoşbaxt ola bilməzsən. Onlar məni hələ onda başıma fırlanan Dövrana vermək istəyirdilər.

Timur. Mən bilən Dövran müəllim də şəhərli deyil?

Röya. Elədir, amma Dövran rayonlu olsa da diribaşdır, çevikdir, pul qazanandır, səni də çox istəyir dedilər. Dedim məni Fərhaddan fələk də ayıra bilməz, mama! Mən istədiyimə gedəcəm, papa! Getdim də!

Timur. Bəs onlar neynədilər, valideynləriniz?

Röya. İnanmazsınız, Timur bəy, onlar məndən, yeganə qızlarından üz çevirdilər.

Timur. Bu ki qəddarlıqdır! Bəs Dövran müəllim? O da üz çevirdi sizdən?

Röya. Nə danışırsınız, Timur bəy? Dövran məğlubiyyəti qəbul edənlərdən deyil. Dedi iki dünya bir ola yenə səndən əl çəkməyəcəm! Əvvəl- axır sən mənim olacaqsan, peşman olub özün gələcəksən yanıma.

Timur. Aman allah, bu ki, serialdır!

Röya. Serial yalandır, Timur bəy, bu həyatdır! Amma Dövranın dediyi kimi mən peşman olmadım, çünki hədsiz xoşbaxtdım. Bir də o vaxtlar nə kasıb, nə dövlətli, hamı təxminən elə bərabərdi. Kirədə yaşayırdıq. Mənim əlaçı stipendiyam, onun maaşı… Gündüzlər oxuyub axşamlar hardasa fəhlə işləyirdi, mənə dəqiq demirdi nə iş gördüyünü. Nəysə, sözüm onda deyil, bir dəfə gördüm ki, Fərhad heç özündə deyil, bıçaq vursan qanı çıxmaz. Bildim ki, heç çörək almağa da pulu yoxdu. Bilirsiniz onda mən neynədim, Timur bəy?

Timur *(nalə çəkir).* Ola bilməz!

Röya. Oldu, Timur bəy, oldu! Getdim gözəllik salonuna. Saçlarımı açıb tökəndə parikmaxerlər qəşş elədilər. Dedilər bu ki su pərisidi. Mən gülümsəyib satıram saçlarımı dedim.

Timur. Siz necə qıydınız o gözəlliyə?

Röya. Məhəbbət olan yerdə gözəllik də keçir arxa plana, kulisə. Mən onun əzablarına dözə bilməzdim. Xeyli pul verdilər mənə. Uça- uça getdim dükana. Ac adam, əlində pul… O qədər yemək- içmək aldım ki! Danışıram, indi də kövrəlirəm. Hər şey elə bil indicə olub.

Timur. Bəs o nə dedi? Reaksiyası necə oldu?

Röya. O çaşıb qalmışdı… Süfrədəki yeməklərə baxıb soruşdu: anan gəlmişdi? Mən sirli təbəssümlə başımı buladım. Onun rəngi qaraldı, bəs hardandı bunlar? Heç nə demədim, başımı açıb oğlansayığı vurulmuş, onda padmalçişka deyirdik, saçımı göstərdim ona.

Timur. Aman allah!

Röya. Sən saçlarını satmısan? Mən başımı tərpədib, həri dedim, onsuz da o saçlar mənə mane olurdular, yığıb- yığışdıra bilmirdim.

Timur. Bu necə məhəbbətmiş?!

Röya. Yox, o, məhəbbət deyildi, Timur bəy, böyük xoşbəxtlikdi!

Timur. Bəs o xoşbaxt kişi məhəbbət naminə verilmiş qurbanı necə qiymətləndirdi?

Röya. Bilsəniz o məni necə qucaqladı?!

Timur. Necə, Röya xanım, necə?

Röya. Bunu təsvir eləmək mümkünsüz! Mən o gecə qadının necə xoşbəxt olduğunu ilk dəfə başa düşdüm, Timur bəy, hiss elədim.

Timur. Bəs bu məhəbbət necə oldu, nə hadisə baş verdi ki, siz ayrıldınız?

Röya. Biz ayrılmadıq.

Timur. Bəs…

Röya. Bizi ayırdılar!

Timur. Aman!

Röya. Bir gecə o evə gəlmədi, ağlıma pis şey gətirmədim, hərdən gecəni işdə qalmalı olurdu. Ertəsi gün də gəlmədi, daha bir gecə… *(gözündən yaş sıçrayır).* Sonra… yox oldu Fərhad, guya belə bir adam yoxmuş, dünyada. Heç yana əlim çatmadı, nə milis, nə polis! Gördüm deyən olmadı. Mən nələr çəkdim! Depresiyaya düşdüm, bir neçə dəfə intihar etmək istədim, qismət deyilmiş. Anam gəlib apardı məni, papanın ili hələ çıxmamışdı. Bax onda Dövran müəllim təzədən peyda oldu, gəldi- getdi, gəldi- getdi, yalvardı. Sonrası da… qadın zəif məxluqdu, dostum!

Timur. Siz onu sevə bildiniz?

Röya. Kimi?

Timur. Dövran müəllimi.

Röya. Mənim üçün artıq fərqi yoxdu, Dövran ya bir özgəsi! Mənim qəlbim sevgiyə bağlıydı *(Masaya yaxınlaşır).* Bir azdan qonaqlarımız da gəlməlidir, bir süfrəyə nəzər salaq, görək bu filippinli qız neynəyib?

Timur. Bəs sonralar da?..

Röya *(sözünü kəsir və tam dəyişmiş əda ilə).* Timur bəy, söhbəti bitirdik! Sizin missiyanız mən bilən başa çatdı.

Timur. Pardon! *(Tələsik qısa bir təzim edib gedir)*»…

… Məclis yığışır. Dövran hələ yoxdur…

«… Röya ziyafət paltarında gəlir. Çox yaraşıqlıdır. Hamı heyranlıqla baxır. Budey, gəldi qardaşımın gözəl sevgilisi!

Röya. Hamınız xoş gəlmisiniz! Keçin süfrəyə! *(Bayram və Zəhra ilə görüşür).*

Geyran. A gəlin, bəlkə qardaşımı gözləyk, sonra keçək süfrəyə?

Röya. İndi gəlməlidir, əyləşin, o belə istəyib, oturun!

Hamı süfrə arxasında yerini tutur. Dövran və ondan bir addım geridə Samir gəlir. Dövran altmış yaşlarında xeyli qıvraq, kifayət qədər xoş görkəmli kişidir. Samir idmançı bədən forması olan boylu- buxunlu, dərhal diqqəti cəlb edən otuz yaşında yaraşıqlı oğlandır. Dövranın gəldiyini görən qonaqlar hamısı bir nəfər kimi ayağa qalxır. Dövran əli ilə hamıya oturmaq işarəsi verir.

Dövran. Oturun, hamınız əyləşin! Xoş gəlmisiniz! Mənim əziz Geyran bacım! (*Yaxınlaşıb Ceyranı öpür).*

Ceyran. Ceyran bacın sənə qurbandı!

Dövran. Mənim əziz qardaşım *(Bayramla öpüşür).* Yeznəm Ovçu Pirim, ovladığı da elə mənim bu fağır bacımdır, dilsiz- ağızsız Ceyran bacım! *(Öz sözünə qəhqəhə çəkib gülür).* Bizim hörmətli gülbacımız Zəhra xanım. Bilirəm, sən naməhrəm kişi ilə əl tutmursan. *(Hər iki əlini sinəsinə qoyub qarşısında təzim edir).*

Zəhra. Allah razı olsun, Dövran qardaş!

Dövran. Samir necə oldu? Burdasanmı, əmioğlu? Mənim, necə deyərlər, referentim, sağ əlim. *(Samirin qolundan tutur*). Partnyorlarımla ilk danışığa həmişə bax bu yaraşıqlı oğlanı göndərirəm. Bilirəm ki, şirin dili ilə ilanı yuvasından çıxardar. Yuxarıda, mənim yanımdadır yerin, sağ tərəfimdə, sağ əlim kimi. Sol tərəfim dünyanın ən gözəl qadını Röya xanımındır. Nə deyirsən, Ceyran bacım, əlavən varsa buyur!

Ceyran. Yox, ay qardaş, ağzımız nədi əlavə eləyək?

*Hamı gülür, Dövran hamıdan bərk gülür.*

Dövran. Di, oturduq! Hamı burdadır? (*Aşağı tərəfdə masa ətrafında bir boş yer görür).* Ora niyə boşdur? Kim yoxdu burda, Röya xanım?

Röya. Çağrılanlar hamısı burdadı!

Dövran. Bəs Elman hanı? Çağırmamısan onu?

Röya. Dövran, axı Elmanın yeri deyil, o özgə adamdı, qohum da deyil…

Dövran *(telefonunu çıxardıb zəng vurur).* Bu saat dur bizə gəl! Həri, evə! Sən mütləq burda olmalısan! Tamam?! *(Telefonu cibinə qoyur).* Elman mənim üçün qohumdan da artıqdır, Röya xanım. Bilirəm, sən onu sevmirsən, amma bir vaxtlar sən məni də sevmirdin»…

… Məlum olur ki, Dövranın altmış illik yubileyidir…

Röya məclisdən kənara çəkilir. Dövran Samiri onun ardınca göndərir…

Və kənarda Samirlə Röya arasında belə bir söhbət gedir…

«…Samir. Sən məni təəccübləndirirsən?

Röya. Bu təəccübün əsası nə?

Samir. Sənin belə ağıllı olduğunu bilsəydim yaxın durmazdım, qorxardım.

Röya. Bu ağıl deyil, təcrübədir. Başı daşdan- daşa dəymiş qadın təcrübəsi. Səndə güc var, məndə təcrübə! Ona görə bizim ittifaqımız təbiidir.

Samir. Hərdən mənə elə gəlir ki, sən Dövrandan intiqam alırsan, amma nəyin? Axı onun sözünün dalı da Röyadır, qabağı da.

Röya. Bilirəm o məni sevir, amma mənim sevib- sevməməyim onun eyninə deyil. O mənə sahib olmaq üçün mənim sevdiyiim adamı yox elədi, elə götürdü aradan ki, izi- tozu da qalmadı»…

Elman gəlib təsadüfən Samirin Röyanı öpdüyünü görür… Və Samir, Röya və Elman məclisdə öz yerlərini tuturlar…

«…Dövran. Hamı burdadır. İndi məclis arəstədir. Ovçu Pirim, qədəhlər doludurmu?

Pirim. Qədəhlər də doludur, qəlbimiz də! Boş olan qarnımızdır.

Dövran. Qəlb doludursa, bu yaxşıdır. Qaldı qarına, tələsməyin, ən əsası onu doldurmaqdı. Dünən işdən yorğun qayıtmışdım, mübahisəli bir məsələni çözməliydim, Elman bilir, ağır məsələydi, amma öhdəsindən gəldik. Elə bir stəkan çay içib divanda mürgüləmək istəyirdim ki, televizorda bir mənzərə gördüm. Görkəmindən xeyli qocaldığı görünən bir şir iri bir maraldı ya ceyrandı, uzaq bacımdan, boğazlayıb, sonra da oturub ləhləyir, yəqin nəfəsini dərib ovunu parçalamağa başlayacaqdı. Elə iş də bundan sonra başladı. Əvvəl bir kaftar şirə yaxınlaşıb bir az aralıda dayandı, biz goreşən deyirik kaftara, dünyanın ən iyrənc

heyvanıdı, sonra ikinci, üçüncü, dördüncü… bir də gördüm ki, kaftarlar şiri tamam dövrələyib mühasirəyə alıblar. Getdikcə da dairəni daraldıb mırıldaya- mırıldaya şirə yaxınlaşırlar. Bunların bir- ikisinə pəncə atan, nərildəyən şir təzyiqə davam gətirə bilmədi, ovunu qoyub aradan çıxmağa məcbur oldu.

Ceyran. Dövran, qadan alım, bəs o şir niyə təkdi? Qohum- əqrabası qırılmışdı?

Dövran. Bax elə mən söhbəti ora gətirirəm, mənim ağıllı Ceyran bacım! Əgər o şir ovunu öz dost- aşnası, qohum- əqrabası ilə bölüşdürsəydi, nə özü ac qalardı, nə qohum- əqrabası. Şikarı da mürdar goreşənlərə qismət olmazdı.

Bayram. Qardaş, bəs bunun sənin yubileyinə, bizim qonaqlığa nə dəxli?

Dövran. Dəxli çoxdu, Bayram müəllim, məni əziz qardaşım. Əgər mən sizə güvənməsəydim, sizi başıma yığmasaydım bu dəmdəstgahı, milyonları qazana bilərdimmi? Mən sizin sayənizdə, ölkənin beş kişisinin biri oldum.

Ceyran. Elə biz də sənin kölgəndə, şükür ki, çörək yiyəsiyik, qardaş. Sən olmasan əlimiz hara çatardı?..»

… Dövran vəsiyyət eləyir. Bütün qohumları üçün pul ayırdığını deyir. Sonra arvadını rəqsə dəvət edir…

«…Oyun havası çalınır. Dövranla Röya çox gözəl rəqs edirlər. Dövran kənara çəkilib tamaşaçı kimi Röyanın gözəl rəqsinə heyranlıqla baxır və əl çalır. Bir azdan Dövran hamını rəqsə çağırır. Ceyran, Pirim, Bayram rəqsə qoşulur.

Dövran. Oynayın, mənim milyonçu qohumlarım! Türk demiş, milyonçu olmağınızın dadını çıxardın! İndi siz hamınız mənim kimi milyonçusunuz! Dünya sizindi! *(Bir qıraqdan əl çalan Samirə yaxınlaşıb ərklə onu oynayanlara tərəf itələyir).* Göstər məharətini, Samir əmoğlu!

Samir rəqsə qoşulur və daha çox Röya ilə üz- üzə oynayır. Onlar çox böyük məharətlə rəqs edirlər. Hamı aralanıb meydanı onlar üçün boşaldır»…

…Dövran sözünə davam edir…

«… Dövran. Mən çoxdandı rəqsdən belə zövq almırdım. Bu zövqü mənə Röya xanımla Samir bəy yaşatdı. Afərin! Adətən ad günündə adama hədiyyə

verirlər, mən isə öz ad günümdə dünyanın ən gözəl qadınına, necə deyərlər, ömür-gün yoldaşıma hədiyyə vermək qərarına gəldim. Samir!

Samir *(cibindən gözəl bir futlyar çıxardıb Dövrana verir).* Buyur, Dövran müəllim!

Dövran (Röyaya yaxınlaşır və qalant bir əda ilə futlyarı ona təqdim edir). Əgər sən olmasaydın, həyatımın beş qəpiklik qiyməti olmazdı *(əlindən öpür)*»…

Dövranın vəsiyyəti acgöz qohumlarını nigaran qoyur… Məclisin təmtərağı da onları sakitləşdirmir…

«Gülürəm- oynayıram, oynaş yadımdan çıxmır» məsələini xatırladırlar…

«…Ceyran. Məni qınayan! Dövran, bacın ölsün ayaqlarının altında, bizə vəsiyyət elədiyin pulu biz nə vaxt ala bilərik? Bax, beləcə, konkret!

Dövran. Əlbəttə, mən öləndən sonra. Bu öz- özünə məlum məsələdi.

Ceyran. Vay evin yıxılsın, fələk!

Dövran. Nədi, az, indi sən mənim ölməyimi istəyirsən?

Ceyran. Ə, sus! Dilin nətəər gəlir elə deyirsən? Ölsün səni istəməyənlər!

Pirim. Ceyran xanım, sözünü açıq de, niyə uzadırsan?

Ceyran. Sən bir kiri, Pirim! *(Dövrana).* Qağa, bəlkə biz səndən qabaq öldük? Onda nə təhər olsun?

Dövran. Onda günahı özündə gör!..»

…Partlayış baş verir. İşıqlar sönür. «Qısaqapanma»nı aradan qaldırmaq üçün gedən Dövranı tok vurur…

Və bununla da birinci hissə sona çatır…

İkinci hissə də həmin məkanda baş verir…

«…Evin bəzəyində matəm əlamətləri görünür. Röya Timurun müşayiəti ilə gəlir. Çox eleqant və zəngin matəm libasındadır: əynində uzun qara don, çiynində qara xəzdən yarım manto, başında kənarları enli qara şlyapa var. Şlyapanın tor niqabı sifətinin yarısını gizlədir. Timurun da geyimində matəm əlamətləri var. Diqqəti daim Röyanın üst- başındadır.

Röya. Elə bil yuxudayam, bütün bu baş verənlər bir tamaşadır, mən də lojada oturub səhnəyə baxan tamaşaçı.

Timur. Mən başqa cür deyərdim, Röya xanım, siz tamaşaçı yox, əsas qadın rolunun ifaçısısınız. Sizin bütün görkəminizdə bir kübarlıq, bir aristokratizm var. Mən bütün mərasim vaxtı gözümü sizdən çəkə bilmirdim. Dərd, faciə çox qadını eybəcərləşdirir, hətta gülünc hala salır, lap elə, xətrinizə dəyməsin, baldızınızı komik vəziyyətə salan kimi. Sizi isə qəm- kədər daha da nəcibləşdirib.

Röya. Hələ dünən elə bu vaxtı burda mən sizinlə söhbət eləyəndə ərli qadındım. İndi isə mən dul qadınam, qara geyinmiş dul qadın. Necə zəhləm gedir dul qadın sözündən!

Timur. Olacağa çarə yoxdur, Röya xanım. Kim deyərdi ki, Dövran bəy kimi möhtəşəm bir kişi belə primitiv ölümlə kayb edəcəkdi həyatını? Axı o, adi adam deyildi, bu Dövran Əminbəyli idi. Onun nə işi vardı işıqla, tokla, nə bilim sayğacla?

Röya. Bu da onun qəribəliklərindən biri idi, Timur bəy. Evdə adi kişi işlərini görməyi sevirdi. Elektrikə xüsust həvəsi vardı. Nəyisə düzəldəndə uşaq kimi sevinirdi»…

…Samir gəlib Röyaya deyir ki, Dövranın qohumlarına vəsiyyət etdiyi milyonların hamısın özləri götürsünlər.

Röya etiraz edir. Və Samirin evlənmək təklifini də qəbul eləmir…

…Həris qohumlar Dövranın dəfnindən qayıdıb ağızlarına gələni danışırlar…

«…Bayram. Necə hörməti varmış Dövranın! Kimlər gəlməmişdi onu götürməyə?!

Ceyran. Mən də onu deyəcəkdim, Bayram! Ə, o özündən deyən ministr də gəlmişdi ey!

Bayram. Bəs deputatları demirsən? Elə bil Milli Məclisin iclasıydı.

Pirim. İyirmi doqquzu gəlmişdi, dördü də qadın, bizim böyük gədə sayıb, hələ adlarını da yazıb.

Samir. Hələ bircə gün gözləsəydik, adam əlindən tərpənmək olmazdı. Çox adamın xəbəri yoxdu. Zəng zəng üstdən gəlirdi.

Ceyran. Kaş özü sağ olub görəydi!

Pirim. Axmaq söz danışma, az! Özü sağ olsaydı, camaatın burda nə işi vardı?

Ceyran. Nə bilim, danışıram də! Özümdə- sözümdə deyiləm ki, can ay qardaş, can ay qardaş»…

…Röya Dövranın vəsiyyəti olan məktubu Elmana verir ki, qohumların gözü qarşısında açıb oxusun…

Elman hər kəsə düşən pulun miqdarını dedikcə gah razılıqdan, gah da narazılıqdan gərgin (*və komik)* hallar yaşanır…

Məlum olur ki, Dövran evdəki filippinli qulluqçu Delisaya da beş milyon vəsiyyət edib. Və o da məlum olur ki, rəhmətliyin qulluqçudan Datu adlı beş yaşında oğlu var imiş…

«…Röyanın telefonu masanın üstündə zəng eləyir. Röya etinasız bir əda ilə telefonu götürüb ekranına baxmadan danışır.

Röya. Alo! Kimdi danışan? *(Həyəcanlanır).* Başa düşmürəm… Necə? Sən… sən… *(tələsik telefonu söndürmək istəyir, səhvən səsucaldan düyməni basır. Telefondan gələn və nə dediyi bilinməyən boğuq kişi səsini hamı eşidir. Röya qulaqlarını tutur).*

Ceyran. Buy, alah maa ölüm ver!

Pirim. Kimin səsidi o, gəlinbacı?

Bayram. Dövrandı? Diktafon yazısıdı?

Zəhra. Bissimillah!

Samir. Kəsin o xuliqanın səsini! *(Telefonu masanın üstündən götürür).*

Elman *(onun yolunu kəsir).* Toxunma telefona!

Dövran *(boğuq səsi telefondan gəlir).* Röya… mənəm, məni xilas elə boğuluram…

Ceyran. Kim boğulur, Pirim? Kimdi bizə sataşan?

Dövran *(səsi gəlir).* Məni çıxardın burdan…

Elman. Bu nə axmaq zarafatdır?! *(telefonu götürür).* Alo! Alo, mən səni tutsam…

Dövran *(səsi gəlir)* Elman?! Elman, mənəm, Dövrandı… nəfəsim… hava yoxdu… hardayam?..»

… Elman Dövranı xilas etmək üçün qəbirstanlığa getmək istəsə də, qohumlar ona mane olurlar…

«…Röya. Elman, sizin ixtiyarınız yoxdur! Mənim ərimin qəbrini açmaq istəyən adamla polis məşğul olacaq.

Elman. Axı o orda ölür, boğulur! Siz buna necə dözürsünüz? Sizdə bu qəddarlıq hardandır.

Ceyran. Can ay qardaş!

Bayram. Gör nə nağd eləyib? Alə, bir ağlıva vur də! İki metr torpaq altda olan meyid ayılıb telefon açır? O, ayılsa da heç bilməyəcək ki, hardadır? Yoxsa ona deyən olub ki, səni tok vurub ölmüsən, indi qəbirdəsən… Nəfəsim darıxdı! *(Yaxasını hirslə açır).* Bağlayın bu söhbəti, biabır eələmyin özünüzü! Hamıya aiddir, bir daş altda, bir daş üstdə, yox bir, Bayram Əminbəylinin qardaşı xortlayıb!

Ceyran. İraq olsun, iraq olsun! Dövran kimi oğula xortlamaq yaraşar?!

Röya *(pıçıldayır)* Xortlamış adamla bir evdə yaşamaq olar? Hələ demirəm… ətim ürpəşdi.

Bayramın telefonu zəng çalır. Bayram diksinir. Hamının nigaran baxışları altında telefonunun çıxardıb ekranına baxır və tez də düyməsini basıb yenə də cibinə qoyur. Ceyranın telefonu zəng eləyir.

Ceyran. Bissimillah! *(Telefonunu çıxardıb Pirimə verir).* Mən açkisiz görmürəm.

Pirim *(telefonu alıb ekranına baxır*). Boş şeydi! *(Telefonu söndürüb cibinə qoyur).*

Elman yavaş- yavaş çıxışa tərəf yönəlir. Samir onun qabağını kəsir»…

Dramatik komediya həm ideya- məzmun, həm də sənətkarlıq baxımından diqqəti cəlb edən bir sonluqla bitir…

*«…Qəfil partlayış səsi eşidilir, işıqlar sönür. Səhnə tam qaranlıqdır.*

Zəhra. Bissimillahirrəhmanirrəhim! Tokdursa işiniz olmasın!

Ceyran. Pirim, dəymə, mantyor çağırın!

Röya *(qışqırır)*. Dövran?!

Röyanın qışqırması ilə səhnə bir balaca işıqlanır. Bu işığın mənbəyi səhnənin dibində ağaran geniş pəncərədir. Pəncərədə kəfənə bürünmüş insan fiqurunun silueti görünür. Bu Dövrandır. Hamı sarsılmış vəziyyətdə ona baxır. Qorxudan heç kəs yerindən tərpənmir. Dövran da nə tərpənir, nə bir səs çıxardır. Lal səhnə bir müddət davam edir və birdən Dövran pəncərəni qəribə bir güclə vurub sındırır. Çiliklənib ətrafa səpələnən şüşələr içərisindən keçib yavaş və gərgin addımlarla donub qalmış qohumların qarşısından keçir. Masa üzərində vəsiyyətnaməni görəndə dayanır. Yavaşca əyilib kağızı götürür, bir anlığa onu nəzərdən keçirir, sonra heç kimə baxmadan kağızı parça- parça edir. Səsini çıxarmağa cəsarət etməyən qohumlardan inilti ilə ahın qarışığından ibarət əzablı səs çıxır. Dövran heç nəyə fikir vermədən parça- parça elədiyi kağızı göyə sovurur. İşıq yavaş- yavaş sönür»…

Və həm həyatın, həm də səhnənin komediyalarından biri sona çatır…

# V. Siyasi publisistikası

Hüseynbala Mirələmovun siyasi publistikası kifayət qədər zəngindir… Və onun əsasında məşhur «Görkəmli adamların həyatı» seriyasından nəşr olunmuş dörd mühüm kitab – «Heydər Əliyev», «İlham Əliyev», «Zərifə Əliyeva» və «Missiya» kitabları dayanır, onlar Azərbaycanın ən yeni dövr siyasi tarixini dərindən dərk etmək üçün, heç şübhəsiz, mötəbər elmi- publisistik, ideoloji mənbələrdir.

Hüseynbala Mirələmovun Viktor Andriyanovla birlikdə yazdığı irihəcmli «Heydər Əliyev» kitabı ilk dəfə Moskvada rus dilində «Görkəmli adamların həyatı» seriyasından nəşr olunmuşdur.

Kitabın rus dilində ikinci nəşrindən Azərbaycan dilinə tərcümə- nəşrin (Bakı, 2008) annotasiyasında deyilir…

«…Heydər Əliyev Sovet İttifaqı hökumətində ikinci şəxs və Sov. İKP MK Siyasi Bürosunun üzvü idi. Qərəzli və ədalətsiz istefadan sonra o, böyük siyasətə qayıtmağa və doğma Vətəni müstəqil Azərbaycana rəhbərlik edib onu bəlalardan qurtarmağa özündə güc tapdı. Yazıçılar Viktor Andriyanov və Hüseynbala Mirələmov arxiv mənbələrinə, Heydər Əliyevin yaxınlarının və doğmalarının, silahdaşlarının və yoldaşlarının xatirələrinə əsaslanıb, bu böyük dahinin həyat və fəaliyyəti, bioqrafiyasının məlum olmayan səhifələri haqqında dolğun və müfəssəl məlumat verirlər.

Yazıçı Hüseynbala Mirələmov araşdırmaları davam etdirərək, kitabın rus dilində ikinci nəşrindən Azərbaycan dilinə tərcümə edilmiş bu nəşrinə bir sıra yeni, sənədli materiallar əlavə etməklə əsəri daha da zənginləşdirmiş və bu dahi şəxsiyyətin gerçək, bitkin obrazını oxuculara çatdırmağa çalışmışdır.

Kitabda Heydər Əliyevin ailə arxivindəki, Naxçıvandakı Heydər Əliyev muzeyinin, H.Əliyevin şəxsi fotoqrafları R.Bağırovun, Y.Qrabilinin, «Trend» qəzetinin və müəlliflərin arxivlərindəki fotoşəkillərdən istifadə olunmuşdur»…

Kitabın «Ön söz»ü son illərin ictimai- siyasi təfəkküründə, kifayət qədər geniş yayılmış bir müqayisə ilə başlayır…

Heydər Əliyev!.. Və Şarl de Qoll!..

O Şarl de Qoll ki, Bakıda olanda «rəsmi qonağı qarşılayanların arasında vəzifə səlahiyyətinə görə dövlət təhlükəsizlik xidmətinin gənc leytenantı, əyninə mülki plaş geymiş və başına dəbdə olan şlyapa qoymuş Heydər Əliyev də vardı»…

«…Bu hadisəni xatırlatmaq ona görə maraqlıdır ki, dünyada tanınan hər iki şəxsiyyətin siyasi taleyində oxşar məqamlar çoxdur. Hər ikisi uzun illər uğurlu dövlət fəaliyyətindən sonra işdən kənarlaşdırılıb. Paris «didərgini» haqqında deyirdilər ki, o, nitqini itirmiş peyğəmbər kimi meydanı tərk etmişdi və səsi- sədası eşidilmirdi.

Qorbaçov əyyamının Sov. İKP MK Siyasi Bürosunda Heydər Əliyevi dinləmək və eşitmək istəmədilər. Və o da çıxıb getdi…

1958- ci ilin may ayında Kolombe malikanəsində tənha yaşayan general de Qoll Fransanın çağırışıyla Parisə qayıtdı.

1990- cı ilin iyul ayında Azərbaycanın çağırışıyla Heydər Əliyev özünün Moskvada qəriblik həyatından ayrılaraq vətənə döndü.

Geri dönəndə hər ikisinin 67 yaşı vardı. Bu yaşda adətən nəvələrlə əylənir və memuar yazmaqla məşğul olurlar. Lakin iş elə gətirdi ki, ürəkaçan ailə qayğıları və xatirələrlə bağlı məsələlər təxirə salınmalı oldu. Onlar dar gündə öz vətənlərini xilas etmək üçün qayıtdılar. Biri – Fransanın birliyini və müstəqilliyini, o biri isə – Azərbaycanın bütövlüyünü və suverenliyini təmin etmək naminə»…

«Heydər Əliyev» kitabının «Ön söz»ü aşağıdakı sətirlərlə bitir…

«…İstedad və iradə Əliyev şəxsiyyətinin ali keyfiyyətləridir. İlk növbədə özünə qarşı ən yüksək tələbkarlıq və mütəşəkkillik. Bir adamı dinləmək və eşitməklə «xalq», «millət» adlanan böyük anlayışın birləşdirdiyi bütün insanların istək və məqsədlərini anlamaq qabiliyyəti onda bir daha üzə çıxırdı. Onun simasında böyük siyasətçinin peyğəmbər uzaqgörənliyi və sərkərdə şücaəti cəmləşirdi. Dərin savad və fitrətdən gələn incə estetik duyumu olan, alicənab və ürəyində kin saxlamayan bu insan bilmədən səhv edənləri bağışlamağı bacarırdı,

lakin naşılar, simasızlar, təmənna güdənlər onun mərhəmətinə ümid bəsləyə bilməzdilər.

Anadan olanda adını Heydər qoydular. Mənası – öndə gedən, başçı deməkdir. Biz onun necə boya- başa çatmasından, doğma Naxçıvanında, daha sonra bütün Azərbaycanda – qoca Xəzərdən qarlı- vüqarlı dağlaradək – Sovet İttifaqı adlanan ölkədə qarşısında açılan dünyanın ona necə görünməsindən, bənzərsiz siyasətçi və dövlət xadimi, milli lider, xalqın öndəri olmasından bəhs edəcəyik»…

Kitabın «Mən Naxçıvanda doğuldum…» adlı I fəsli dahi siyasət (və dövlət!) adamının tərcümeyi- hal xarakterli məşhur cümləsi ilə başlayır…

«…Tərcümeyi- halında yazırdı: «Mən, Əliyev Heydər Əlirza oğlu, 1923- cü il mayın 10- da Naxçıvanda anadan olmuşam…» Hər dəfə bu sətirləri yazdıqda – Bakıda, Leninqradda, Moskvada, - Araz sahilindəki sakit və mehriban, doğma şəhər gözləri önündə canlanırdı. Əsrləri, minillikləri yola salmış bu şəhərin may ovqatı məscid üzərində açılan bahar asimanı kimi safdır, ülvidir və sanki dünyaya yeni gələn bir insanın valideynlərinə bəxş etdiyi ümid işığıdır.

Belə bahar günlərinin birində Əlirza və İzzət Əliyevlərin ailəsində dördüncü övlad dünyaya göz açdı. Körpəyə İzzət xanımın azərbaycanlıların Zəngəzurdan didərgin salındığı zaman həlak olmuş qardaşı Heydərin adını qoydular»…

«Bura da cəbhədir» adlı II fəsildə Heydər Əliyevin ali təhsilini yarımçıq qoyub Naxçıvana qayıtmasından, Daxili İşlər Xalq Komissarlığında işə qəbul olunmasından və ümumiyyətlə, bu dövrün tarixi hadisələrindən bəhs olunur…

«…Qırx birinci il may ayının 10- da dostları onu ad günü münasibətilə təbrik etdilər. Qarşıda imtahan sessiyası, yay tətili, daha sonra isə üçüncü kurs gözlənilirdi. Lakin sentyabrın birində Sənaye İnstitutunun tələbələrindən kimisi o dövrdə orduya çağırılmış atasını əvəz edərək zavoda getmiş, kimisi hərbi məktəbə təyinat almış, bəziləri isə Əliyev kimi  yaşadığı yer üzrə hərbi komissarlığın sərəncamına çağrılmışdı. Elə o vaxt, 23 iyunda Heydər Əliyev Naxçıvan MSSR Daxili İşlər Xalq Komissarlığında arxiv şöbəsinin məxfi hissəsinin işlərini qəbul edir.

Evə gecə yarıdan sonra qayıdardı. Naxçıvanın əl- ayaq çəkilmiş küçələrində addımları ağır- ağır səslənərdi. Hərdən qaranlıqda patrul peyda olardı: «Sənədlərinizi!»

Fəslin sonunda Heydər Əliyevin Dövlət Təhlükəsizlik orqanlarında keçdiyi tarixi rolu əks etdirən maraqlı bir sənəd təqdim olunur…

«…1967- ci il oktyabrın 26- da SSRİ Nazirlər Soveti yanında Dövlət Təhlükəsizlik Komitəsinin sədri Yuri Vladimiroviç Andropovun təqdimatıyla Azərbaycan Nazirlər Soveti yanında Dövlət Təhlükəsizlik Komitəsinin sədri Heydər Əlirza oğlu Əliyev «General- mayor» rütbəsi alır. Attestasiyada belə deyilirdi:

«Yoldaş Əliyev 1944- cü ildən təhlükəsizlik orqanlarında çalışır, 1945- ci ildən isə rəhbər vəzifədədir. Uzun müddət Azərbaycan DTK-sında 2- ci şöbənin rəisi vəzifəsində çalışıb. 1965- ci ildən Azərbaycan DTK- sının sədr müavini olub, 1967- ciilin iyunundan isə Azərbaycan Nazirlər Soveti yanında Dövlət Təhlükəsizlik Komitəsinin sədri vəzifəsində çalışır.

Tələb olunan təşkilatçılıq bacarığına malikdir. Respublikadakı operativ şəraiti və milli xüsusiyyətləri gözəl bildiyi üçün, tabeçiliyindəki işçiləri qarşıda duran vəzifələri yerinə yetirmək üçün düzgün fəaliyyət yoluna istiqamətləndirir.

Respublikaya gələn xarici vətəndaşlar arasındakı agentlərin, kəşfiyyatçıların ifşa olunmasıyla bağlı respublika DTK-sında mütəmadi və aktiv tədbirlər görülür. Agentura aparatının təkmilləşdirilməsiylə bağlı da əhəmiyyətli işlər aparılır.

DTK- nın periferiya orqanlarının işinə də xüsusi diqqət yetirilir. Xidməti problemlərin həll olunmasında yoldaş Əliyev prinsipiallıq və inadkarlıq nümayiş etdirir. Daha mürəkkəb tədbirlərin keçirilməsində şəxsən özü iştirak edir.

Operativ tədbirlərin uğurla keçirilməsinə görə bir neçə dəfə mükafatlandırılıb, 1962- ci ildə isə «Qızıl Ulduz» ordeni ilə təltif edilib.

Şəxsi keyfiyyətləri: zəhmətkeş, iradəli və prinsipial rəhbər işçidir.

Komitənin şəxsi heyəti, partiya və sovet fəalları arasında böyük nüfuza malikdir. Azərbaycan KP MK- nın üzvü və Azərbaycan Ali Sovetinin deputatı seçilib.

Bütün bunları nəzərə alaraq, yoldaş Heydər Əliyevə növbəti hərbi rütbə – «General- mayor» rütbəsi verilir»…

III fəsil «Heydər və Zərifə» adlanır…

Müəlliflər bu mövzuya Şərq ədəbiyyatı üçün səciyyəvi olan «Tahir və Zöhrə… Xosrov və Şirin… Leyli və Məcnun»… mövzularının müasir dövrdəki davamı kimi baxırlar… Və yazırlar ki…

«…Elmin, maarifin xüsusi vüsətlə yüksəldiyi bir zaman, XX əsrin ortalarında tale Heydər Əliyevi və Zərifə Əliyevanı – hələ ailə qurmamış eyni soyadlı iki sevgilini – məhəbbət sınaqlarına çox çəkdi. Əminik ki, bu süjet də Leyli və Məcnunun  hissləri kimi, klassik məhəbbət dastanı kimi yazılmağa layiqdir. Haçansa bu barədə böyük səhnədən və ya ekrandan bəhs ediləcək.

Hərçənd, sağ olsun istedadlı rejissor Vaqif Mustafayev ki, «Böyük məhəbbət hekayəti» adlı sənədli film yaratmış, Heydər Əliyevin səmimi məhəbbət etirafını incə zövqlə  lentə almışdır»…

Zərifə xanımın atası, böyük dövlət xadimi Əziz Əliyev Stalin rejiminin təqiblərinə məruz qalır… Lakin dövr dəyişir… İ.V.Stalin vəfat edir…

«…Azərbaycanda isə istintaqa M.C.Bağırov və dövlət təhlükəsizlik naziri Yemelyanov cəlb edildi.

Daha Heydərlə Zərifənin gizli görüşmələrinə ehtiyac qalmadı.

- Görüşlərimiz leqallaşdı, - Heydər Əliyev kəşfiyyatçıların peşə dilindən bu sözü gülə- gülə işlətdi. – İkimiz də xoşbəxt idik. İndi bütün bunları bilərək, deyin görüm, məhəbbətimin köklərinin nə qədər dərin olduğunu sübut etməyə dəyərmi?

Bizim sevgimiz, məhəbbətimiz çətin sınaqlardan keçdi. Bizi ayırmaq istəyirdilər, amma biz dönmədik. O da dönmədi, mən də… Mənim səmimi məhəbbətin gücünə inamım  təsdiqləndi. Və bundan sonra biz otuz il xoşbəxt yaşadıq. Bizim iki gözəl övladımız var – qızımız Sevil və oğlumuz İlham… Lakin çox təəssüflər olsun ki, Zərifə xanım həyatdan tez getdi»…

«Bu peşəni gəncliyimdən seçmişəm» adlı IV fəsildə XX əsrin qanlı 30- cu illərindəki repressiyalara Heydər Əliyevin münasibətindən söhbət açılır…

« - O zaman, bir cavan mütəxəssis kimi arxiv materialları ilə, o cümlədən 1937- 1938- ci illərin və sonrakı dövrün sənədlərilə tanış olaraq öz- özümə sual verirdim: Sovet hakimiyyətini yıxmağa cəhd göstərən bu antisovet, millətçi qruplar kimlər idi? Onların bir qismi həbs olunmuş, ya güllələnmiş, uzaq Sibirdə həlak olmuşdur. Amma bir başqa hissəsi həbs edilməmişdi. Lakin arxiv materiallarında onların adları antisovet millətçi qrup və təşkilatlarının üzvlərinin siyahısında idi. Onda mən fikirləşdim: əgər onlar antisovet əks- inqilabi təşkilatlarının üzvləriydisə, bəs niyə azadlıqdadırlar? Əgər belə deyilsə, onda bəs niyə adları bura düşüb? O qədər uydurulmuş, ədalətsiz işlər vardı ki, baş açmaq çətindi»…

Və müəlliflər «gəncliyindən seçdiyi peşəsinə» Heydər Əliyevin həm də bir milli təəssübkeş kimi yanaşdığını göstərməkdə tamamilə haqlıdırlar…

«…Həmin illərdə Moskvada, Leninqradda dissidentlərlə, Kiyevdə «millətçi»lərlə necə canfəşanlıqla mübarizə aparılmasını xatırlayaq… Məsələn, istedadlı şair Vasili Simonenkoya azərbaycanlı sənətdaşları kimi həyan olan, can yandıran bir yoldaşın tapılmadığına yalnız təəssüflənmək, acımaq olar. Orada hətta O.Qonçar kimi sənətkarı «zamanla» ayaqlaşmağa məcbur etmək istəyirdilər; burada isə gözümçıxdıya salmadan, təmkinlə, səbrlə yaralı yerlərə toxunan söz ustaları, ziyalıları dinləyir, anlayır, dostcasına məsləhətlər verirdilər…

Cəsarətlə qeyd etmək lazımdır ki, o illər Azərbaycanda ədəbiyyat, incəsənət və digər sahələrdə də intibah dövrü başlandı!

- Bu gün böyük iftixar hissi ilə deyə bilərəm ki, dövlət təhlükəsizlik orqanlarında rəhbər vəzifələrdə işlədiyim, Azərbaycan Respublikasının başçısı olduğum zaman Azərbaycan xalqının milli mənafeyinə zidd olan heç bir adım atılmamışdır.

Heydər Əliyev ilk dəfə bu sözləri respublika milli təhlükəsizlik orqanları əməkdaşlarının peşə bayramı qeyd olunan təntənəli yığıncaqda demişdir»…

V fəsil «Respublika rəhbərliyində» adlanır… Və bu fəsildə rəsmi sənədlərlə yanaşı Heydər Əliyevin özünün xatirələri verilir…

«…Heydər Əliyev sonralar xatırlayır ki, hələ 1969- cu ilin əvvəllərində Moskvadan köhnə dostlarından biri ona zəng vurmuşdu. O, Əliyevə demişdi:

- Heydər, sən Azərbaycan KP MK- nın birinci katibi vəzifəsinə yeganə real namizədsən.

Xəbər Əliyev üçün gözlənilməz olmuşdu.

- Ola bilməz, inanmıram ki, məni belə yüksək vəzifəyə təyin etsinlər. Əgər belədirsə, nəyə görə mənim xəbərim yoxdur?

- Vaxt gələr, bilərsən. İndi isə yeni vəzifənə hazırlaş.

Bu zəngdən üç ay sonra Heydər Əliyevi Moskvaya, Sov.İKP MK- nın Baş katibliyinə görüşə çağırdılar. O, özü bu həyati əhəmiyyətli görüşü belə xatırlayır:

«Kremldə Brejnevin iş otağına dəvət olundum. Leonid İliç məni xoş təbəssümlə qarşıladı. Aramızda belə bir söhbət oldu:

- Yoldaş Əliyev, biz qərara gəlmişik ki, sizin namizədliyinizi Azərbaycan KP MK- nın birinci kitibi vəzifəsinə təqdim edək.

- Bunu özüm üçün böyük şərəf hesab edərəm, yoldaş Brejnev, amma mən bu vəzifəni istəmirəm.

- Necə yəni istəmirəm? – Brejnev artıq dostyana «sən» müraciətinə keçdi. – Biz sənə belə bir mühüm vəzifəni etibar edirik.

- Respublika Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi olmaq ağır işdir. Buna görə də istəmirəm.

Amma Leonid İliç mənim etirazlarıma məhəl qoymadı. Aydın oldu ki, o özü- özlüyündə artıq qərar qəbul edib. Siyasi Büroda da mənim namizədliyim müzakirə edilərək yekdil qərara gəlinib ki, indiki halda respublikanın rəhbərliyinə yalnız Əliyev məqsədəuyğundur».

Bu sətirlər Kremldəki həmin söhbətdən uzun illər ötəndən sonra qələmə alınıb. O günləri xatırlayan Əliyev qeyd edirdi: «Mənim DTK- dakı fəaliyyətimin üstünlüyü şəxsi işimin təmizliyi, qazandığım etimad və azərbaycanlıların hörməti idi. Mən elə düşünürdüm»…

Heydər Əliyev Vəli Axundovu əvəz edəcəkdi… O Vəli Axundovu ki, öz varisini belə qiymətləndirmişdi…

«…Moskva öz seçimini etdi. Bakı da bu seçimi razılıqla qəbul etmişdi. Lakin hansı qeyd- şərtlərlə? İşdən gedən birinci katibin – V.Y.Axundovun öz varisinə verdiyi qiymətə nəzər salsaq, məncə, maraqlı olar:

«Yoldaş Əliyev Azərbaycan KP MK- nin birinci katibi olmaq üçün bütün siyasi və işgüzar keyfiyyətlərə malikdir. O, kifayət qədər savadlı, erudisiyalıdır, qısa zaman ərzində böyük həcmli işlərə öyrəşmək üçün yetərincə hazırlıqlıdır. Bir kommunist kimi saf əqidəli, obyektivdir. Bütün bunlarsa onun kadrlara düzgün və obyektiv yanaşmasına imkan verəcək. İndiki vəziyyəti və keçmişimizi nəzərə alsaq, deyə bilərik ki, kadr məsələləri Azərbaycanda ən əhəmiyyətli məsələdir. Biz Heydər Əliyevi təmiz, saf əqidəli kommunist kimi tanıyırıq»…

Heydər Əliyev isə birinci katib seçilən kimi ilk olaraq bu sözləri demişdi…

«Mənə təzəcə tapşırılan bu vəzifənin bütün məsuliyyətini dərk edirəm. Qarşıma qoyulan öhdəliklərin çətinliyini, ağırlığını anlayıram və var qüvvəmlə çalışacağam ki, mənə göstərilən etimadı doğruldum. Bu işlərin öhdəsindən layiqincə gəlməkçün ilk olaraq Azərbaycan KP MK-nın bütün heyətinin, büro üzvlərinin, partiya, sovet və təsərrüfata rəhbərlik edən bütün işçilərin və xalqın köməyinə ümid bağlayıram. Mənə elə gəlir ki, bizim gələcək uğurlarımızın rəhni yalnız aktiv, birgə zəhmət ola bilər»…

Respublika rəhbərliyinə gələn Heydər Əliyev böyük bir enerji, miqyas və peşəkarlıqla çalışdı… o zamana qədər görünməyən qəhrəmanlıqlar nümayiş etdirdi…

Və…

«…1976- cı ilin martında Sov. İKP MK- nın XXV qurultayında Heydər Əliyevi Sov. İKP MK- nın Siyasi Bürosunun üzvlüyünə namizəd seçirlər. İlk dəfə azərbaycanlı kadr mərkəzi partiya qərargahına daxil edilir. Heydər Əliyevin karyerasında bu yeni mərhələ respublikanın iqtisadi, sosial, milli problemlərinin həllinə böyük imkanlar açırdı… Həm də ərazi bütövlüyünün müdafiəsi üçün»…

Belə ki…

«…1977- ci ildə SSRİ- də böyük hay- küylə yeni konstitusiya qəbul olundu. Qəzetlər konstitusiya layihəsi barədə tez- tez yazsalar da, onu müzakirə etsələr də,

komissiyalardakı münaqişələrin üstündən səssiz keçirdilər. Bu komissiyalara respublikaların nümayəndələri, adlı- sanlı ictimai xadimlər və hüquqşünaslar daxil idilər. Sədri Leonid İliç Brejnev olan komissiyanın ünvanına Dağlıq Qarabağın Ermənistan SSRİ- yə verilməsi tələbləriylə bağlı çoxsaylı «təşkil olunmuş» məktublar gəlməyə başladı. Hətta belə bir təklif də irəli sürüldü: «ictimai rəy nəzərə alınaraq, bu məsələ komissiyanın gündəliyinə çıxarılsın».

Heydər Əliyev sonralar Azərbaycanda yeni seçilmiş Milli Məclisin deputatları qarşısında proqram çıxışı zamanı bu situasiyanı belə xatırlayırdı:

«Konstitusiya layihəsi hazırlandığı bir il ərzində komissiyanın ünvanına gələn çoxlu sayda məktublarda tələb edirdilər ki, Dağlıq Qarabağ Azərbaycandan alınıb Ermənistan SSR-ə verilsin. Hətta bu məsələni komissiyanın müzakirəsinə çıxarmaq cəhdləri də olmuşdu.

Olan hadisələri danışıram, məni düz başa düşün. O vaxt bunun qarşısını ala bildim. Nə qədər çətin olsa da, öz iradəmin, inadımın köməyi ilə Azərbaycan xalqının başının üstünü almış bu fəlakəti dəf edə bildim. Buna baxmayaraq, Dağlıq Qarabağda məsələni yenə də qızışdırırdılar. Ona görə də mən respublikanın rəhbəri seçiləndən sonra, etiraf edim ki, Dağlıq Qarabağın inkişafı üçün daha münasib ab-hava yaradır, onun iqtisadiyyatının inkşaf etdirilməsinə diqqət yetirirdik».

Prezident deputatlara baş verən fəlakətlərin günahkarlarını axtarmamağı məsləhət gördü. O bildirdi ki, Azərbaycan xalqı birləşməli və hələ də öz həllini tapmamış bu fəlakətdən birlikdə çıxış yolu axtarmalıyıq»…

Azərbaycana rəhbərlik etdiyi dövrdə Heydər Əliyevin hansı işlər gördüyünü, necə bir strateji mövqe tutduğunu araşdıran müəlliflər çox doğru olaraq 1981- ci ilin 18 oktyabrında «Literaturnaya qazeta»da çap edilmiş müsahibəsinə geniş istinad edirlər…

Müsahibə belə adlanırdı: «Qoy ədalət zəfər çalsın»…

«…Biz kadr hazırlığına xüsusi əhəmiyyət veririk. Buna görə də təsadüfi deyil ki, iqtisadi və sosial- mənəvi sahələrdə qayda yaratmaqla bərabər, ali məktəblərə də əl atdıq. Alı məktəblərin işinə Kommunist Partiyası MK- sının fəal surətdə qarışması ona görə vacib idi ki, professor- müəllim heyəti arasında

rüşvətxorluq, proteksionizm, qohumbazlıq geniş yayılmışdı. Bu vəziyyət ali təhsilli kadrlar hazırlığı işinə ciddi xələl gətirmiş və gənclərin tərbiyəsinə çox böyük mənəvi ziyan vurmuşdu.

Biz belə bir vəziyyətlə də üzləşdik: ayrı- ayrı ali məktəb müəllimləri, rəhbər işçilər öz övladlarını ali məktəblərə «valideyn» ixtisasları üzrə düzəltməyə çalışırdılar. Biz bu cür hərəkətləri məhdudlaşdırmalı olduq. İnzibati orqanların işçilərinin övladlarını dövlət universitetinin hüquq fakültəsinə götürməyi isə tamamilə qadağan etdik.

- *Deməli belə! Heydər Əliyeviç, axı, məlum bir aforizmdə «Tanrı dahilərin övladlarını dahi xəlq eləməyib» deyilsə də, ziyalı nəsilləri həmişə olub və olacaqdır. Axı, bizdə sovet ziyalı nəsilləri indi- indi çoxalmağa başlayıb. Ailənin mənəvi marağı mühitində böyüyən uşağın öz babalarının, atalarının işini davam etdirməsi məgər pisdir?*

- Biz sizinlə müxtəlif şeylərdən danışırıq. Gəlin müzakirəmizin mövzusunu dəqiqləşdirək. Ziyalını səciyyələndirən ən əvvəl nədir? Ali təhsil diplomu, yoxsa elmlər namizədi, doktorluq diplomu? Zənnimcə, yox. Ziyalının başlıca keyfiyyəti cəmiyyətə fədakarlıqla xidmət etməkdir. Yeri gəlmişkən deyim ki, Rusiya tarixində ziyalıların faciəli aqibətinə dair misallar çoxdur; silk sədləri qoymurdu ki, bu ziyalılar xalqa sərbəst xidmət etsinlər, onların işlərinin istedadlı davamçıları olsun. Onlar bu sədləri öz imkanları daxilində aşıb- keçirdilər. Canlarının hayına qalmayaraq, mədəniyyət yaymaq kimi bir məramla «xalq içinə» əldən- ayaqdan uzaq qəzalara, çarizmin milli ucqarlarına gedirdilər.

Övladlarında onların işini davam etdirmək qabiliyyəti görəndə özlərini xoşbəxt sanırdılar. Bəli, işinin! Belə bir qabiliyyət görməyəndə isə övladlarını elə sahəyə yönəldirdilər ki, öz şəxsi imkanlarından istifadə edib özlərinə və xalqa daha çox fayda verə bilsinlər. Çünki onlar nəslin şərəfini yüksək tuturdular»…

«Sən bütün Sovet İtifaqına lazımsan, Heydər» adlı VI fəsil Heydər Əliyevin Moskvaya SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsinə getməsi hadisələrindən bəhs edir…

«… Əliyevin Nazirlər Sovetinə təyinatı, deyəsən, Tixonovun bir o qədər də xoşuna gəlməmişdi. Bir vaxtlar onun özü Kosıginin müavini işləmişdi və metodiki olaraq öz rəisini gözdən salıb sıxışdıraraq məqsədinə yol açmışdı. İndi də Tixonov Əliyevi özünə rəqib görürdü. Əliyev Baş katibin tam etibar etdiyi adam idi və istənilən vaxt o, Nazirlər Sovetinin sədri vəzifəsinə təyin edilə bilərdi. Tixonov o biri müavinlərindən qorxmurdu – Baybakovla Arxipov onun yaşıdı idilər, həm də partiya rəhbərliyində o qədər də parlayan kadrlar deyildilər. Nazirlər Sovetindən cəmi iki şəxs – Tixonovun özü və Əliyev Sov. İKP MK- nın Siyasi Bürosunun üzvüydü və belə görünürdü ki, müavinlərin içində Əliyev o birilərindən daha yüksəkdə olmalıydı. Amma ezamiyyətə, yaxud məzuniyytə gedərkən Tixonov heç vaxt öz vəzifəsini Əliyevə həvalə etmirdi. Əlbəttə, bütün bunlar Heydər Əliyevin xətrinə dəyirdi, amma o, bunu heç vaxt biruzə vermirdi.

Kremldə, Nazirlər Sovetində beş il – Andropovdan Qorbaçova qədər bütün bir epoxanı əhatə edən beş il.

- Bizim yollarımız həmişə kəsişirdi, - deyə Nikolay İvanoviç Rıjkov xatırlayır. – Əliyev nəqliyyat məsələləri ilə, yüngül sənaye ilə, başqa sahələrlə məşğul olurdu, mən isə MK- nın katibi kimi Dövlət Plan Komitəsinin, Qiymətlərə Nəzarət Komitəsinin və başqa strukturların işinə nəzarət edirdim. Yeni vəzifələrimizdəki ilk iş günlərindən etibarən biz sıx əlaqədə işləməyə başladıq. Həm MK- da, həm də Nazirlər Sovetində tez- tez görüşürdük. Bəzən hansısa sənədlər üzərində birlikdə işləyirdik, işin gələcək perspektivlərini birgə müzakirə edirdik.

Heydər Əliyev öz təmkinli görkəmiylə o vaxt da mənim xoşuma gəlirdi. Çox səmimi, ünsiyyətə meylli adam idi, qapalı, özündən razı, lovğa insan deyildi. Sakit təbiəti vardı, yerinə düşən yumoru çox sevirdi. Bir insan kimi onunla işləmək çox asan idi»…

Sovetlər Birliyinin rəhbərlərindən biri, Siyasi Büronun üzvü olduğu illərdə Heydər Əliyevin genişmiqyaslı fəaliyyətini kifayət qədər ətraflı işıqlandırmağa çalışan müəlliflər dahi dövlət qurucusunu, siyasət mütəfəkkirini, mükəmməl şəxsiyyəti əhatə edən mühiti də yaddan çıxarmamışlar…

«…İşgüzar adamlar bunu çoxdan müşahidə ediblər – kim daha çox iş apara bilirsə, ona daha çox iş tapşırırlar. Əliyev də bu vəziyyətə düşmüşdü. Nazirlər Sovetində və Siyasi Büroda ona həvalə edilmiş vəzifələrdən savayı, Qorbaçov və o vaxt MK-da ikinci adam olan Liqaçov ona yeni- yeni tapşırıqlar verirdilər. Bu tapşırıqlardan biri də məşhur olan qalmaqallı antialkoqol kampaniyasıyla bağlıydı. Bu işlə bağlı sənədlərin hazırlanmasını Rıjkova, Əliyevə və RSFSR- ın Nazirlər Sovetinin sədri Solomentsevə tapşırmışdılar.

- Biz bu sənədin üzərində əsaslı surətdə işlədik, - deyə Nikolay İvanoviç Rıjkov xatırlayır. – Sənəd MK- nın katibliyi və Qorbaçovun özü tərəfindən bəyənildi.

Rıjkovun fikrincə, Qorbaçovu sərxoşluqla mübarizəyə Liqaçovla Solomentsev təhrik etmişdilər. Özü- özlüyündə mövzunun zəruriliyi heç kimdə şübhə doğurmurdu. Sərxoşluq, alkoqolizm cəmiyyətə, həqiqətən də, böyük zərbə vururdu.  Minlərlə ailə dağılırdı. Narahatlıq aydın və başa düşülən idi,  amma məsələyə başqa tərəfdən yanaşanda, tamam fərqli hadisələr ortaya çıxırdı. Belə bir atalar məsəli var: «Dəlini Allaha dua etməyə məcbur etsən, vurub alnını partladar». Alkoqolsuz,  sağlam həyat tərzi uğrunda mübarizədə də eynən belə oldu.

Rıjkovun fikrincə, Qorbaçovu və onun ətrafını, yəqin ki, sərxoşluqla mübarizədən daha çox, bu kampaniyadan qazanacaqları siyasi dividentlər maraqlandırırdı.

Amma əfsus! Sərxoşluqla mübarizə aparanlar da bütün fanatiklər kimi ifrata varmaqdan özlərini saxlaya bilmədilər. Yenidənqurma vaxtı «araq- çaxır» mağazalarının qarşısındakı növbələri görməyənlər, yəqin inanmazlar ki, növbə gözləyən  insanların sırası kilometrlərlə uzanır,  mağazalara əməlli- başlı hücum çəkilirdi. Şəhər və kəndlərdə araq çəkənlərin sayı durmadan artırdı. Araqsız, çaxırsız qalan adamlar mağazalara axışıb  içində spirt olan başqa şeyləri – odekalonları, lasyonları alıb içirdilər»…

İttifaq rəhbərliyində tədricən Heydər Əliyevə qarşı «soyuqluğ»un meydana çıxmasının  əsas səbəbkarı, heç şübhəsiz, öz işinin öhdəsindən gələ bilmədiyi getdikcə daha çox ortaya çıxan Mixail Qorbaçov idi…

«…Primakov hesab edir ki, Qorbaçov öz fikirlərində yalnız qismən haqlı olurdu. Dövlət çevrilişinə cəhd də elə bu yarımçıqlığın nəticəsi idi. Son nəhayətdə də onların  sərt telefon söhbətini Qorbaçov kobud şəkildə bu cür yekunlaşdırmışdı:

- Mən görürəm ki, siz ümumi mexanizmə uyğun gəlmirsiniz.

Qorbaçovdan çox- çox əvvəl oxşar ifadəni öz həmkarlarına müraciətdə Stalin işlətmişdi: «Siz sərt döngədə arabadan düşmüsünüz»… Orada «arabadan düşmüsüz», burada isə «uyğun gəlmirsiz»… Yəqin ki, Mixail Sergeyeviçin özü heç vəchlə Stalinə bənzədilməyini istəməzdi. Amma xarakterləri, düşüncələri nə qədər fərqli olsa da, onların hər ikisi öz opponentlərindən eyni sərtliklə yaxa qurtarırdılar. Düzdür, Stalinin opponentləri həbs düşərgələri, Qorbaçovun opponentləri isə «eləcə» infarktla cəzalandırılırdılar. Əliyev kimi, Rıjkov kimi …

Nikolay İvanoviç Rıjkov dəfələrlə  Qorbaçovla təklikdə görüşüb onu inandırmağa çalışmışdı ki, Baş katibin iqtisadi kursu ölkəni uçuruma aparır»…

VII fəsil «Mən daş, dəmir deyiləm, insanam» adlanır…

Müəlliflər Heydər Əliyevin xatirələrindən belə bir məqama diqqət yetirirlər ki…

«…Mənimlə söhbəti Qorbaçov başladı. Dedi ki, «mənim fikrimcə, sən Siyasi Bürodan və Nazirlər Sovetindən getməlisən». Getməyimin səbəbini bilmədiyimi  söylədim: «Mən hesab etmirəm ki, getməliyəm. Amma siz, Baş katib kimi belə hesab edirsinizsə, getməyə hazıram». Qorboçov dedi: «Onda dəqiq deyin ki, biz bilək. Siz öz xahişinizlə gedirsiniz, yoxsa  səhhətinizlə əlaqədar?»

Fasilədə evə gəldim. Oğlumla qızım evdəydi. Vəziyyəti  onlara başa saldım. Əhsən onlara! Məni sakitləşdirib, dedilər: «Narahat olma, ata, burada qeyri- adi nə var ki…»

Axşam Qorbaçovun yanına gəlib dedim ki, gedirəm. Bəli, mən gedirəm və elan edə bilərsiniz ki, səhhətimlə əlaqədar vəzifəmdən istefa verirəm. O, ayağa qalxıb məni qucaqlayıb öpdü və dedi: «Çox sağ olun, Heydər Əliyeviç!»

Və Heydər Əliyevə qarşı heç bir əsası olmayan böyük bir kompaniya başlandı…

«…Ümumittifaq dərəcəli fərdi təqaüdçü (o zaman belə bir rəsmi deyim vardı) Heydər Əlirza oğlu Əliyev Sov. İKP Mərkəzi Komitəsinin üzvü idi. Əslində fəaliyyətdən kənarlaşdırılsa da, o, iqtidar sahiblərinə nəyi isə açıqlamağa, məsləhət görməyə, öz tövsiyyələrini çatdırmağa cəhd edirdi.

…Qorbaçovla görüşməyə çalışırdım, lakin o məni qəbul etmədi. O vaxt artıq təqaüdçü idim. Köməkçiləri deyirdilər: o məşğuldur, biz məlumat vermişik. Orada verilən cavablar həmişə eyni qəlibdə və çox sadə olurdu… biz məlumat vermişik, o məşğuldur, nə vaxt dəvət edəcəyini gözləməlisiniz. Bir gün gözlədim, iki gün, bir ay, heç nə yoxdur. Daha bir dəfə də zəng vurdum. Aydın məsələdir ki, o məni qəbul etmək istəmirdi.

Liqaçovla görüşməyə çalışdım. O da məni qəbul etmədi, amma bir dəfə səhər ertədən sadəcə MK- ya gəlib onun qəbul otağında oturdum, yəni bax, beləcə, gözgörəsi, oturub gözləyirəm. O gəlib çıxdı. Mən ona Dağlıq Qarabağdakı vəziyyət haqqında öz baxışlarımı açıqladım. O dinlədi, dinlədi, ağlabatan heç bir şey demədi,- mən isə müəyyən dərəcədə fayda verə biləcəyimi düşünürdüm»…

Moskva artıq öz «mövqe»yini qərarlaşdırmışdı. Ölkə dağılmağa doğru gedirdi. Ağıllı məsləhətə ehtiyac qalmamışdı. M.S.Qorbaçovun nə zamansa ağlının başına gələcəyinə də güman yox idi.

…Və Heydər Əliyev vətənə dönməli olur…

«…1990- cı il mayın 17- də Naxçıvan kommunistləri Heydər Əliyevi Azərbaycan Kommunist Partiyasının XXXII qurultayına nümayəndə seçdilər. Qurultay iyunun 8- də açılırdı. Heydər Əliyev, Naxçıvana- doğma yurduna baş çəkə bilsin deyə, təyyarə biletini iyunun birinə aldı.

O xatırlayırdı: «Moskva- Bakı aviareysinə bilet sifariş edər- etməz telefon zəngləri səslənməyə başladı. Əvvəl Sov. İKP MK nəzdində Partiya Nəzarəti Komitəsi üzrə Puqonun müavinləri Slezko və Gerasimov zəng vurdular. Səfərdən daşınmağı məsləhət görürdülər, yəni Azərbaycanda vəziyyət gərgindir və mənim gəlişim atmosferi daha da qızışdırar. Sonra mənimlə alverə başladılar. Yəni onlarda Partiya Nəzarəti Komitəsində Əliyevə qarşı materiallar var. O. Bakıya getməsə, sənədləri arxivə təhvil verəcək, getsə onları üzə çıxaracaqlar… Mayın 30-

da Puqo özü zəng çaldı. Məlum oldu ki, bu zəng də həmin niyyətlə edilib. Mən ona dedim: «Qəribədir, siz məni haçandır yad etmirdiniz, hərçənd mən çətin günlər yaşamışdım – xəstə oldum, xəstəxanada yatdım, indi isə canımı qurtarıb vətənə yollanmaq istədiyim vaxtda siz birdən məni yada salmısınız. Sizin bu səfəri qadağan etməyə haqqınız yoxdur»…

«Öz xalqınla birlikdə olmaq haqqı» adlanan VIII fəsil Heydər Əliyevin qardaşı Cəlal Əliyevlə birlikdə Naxçıvana dönmələri barədə söhbətlə başlayır…

Akademik Cəlal Əliyevin xatirəsi verilir…

… «Naxçıvanda, demək olar ki, heç kəsin Heydər Əliyevin gəlişindən xəbəri yox idi. Aeroportdan bir tanışımızın «Jiquli»sində şəhərə yollandıq. Qardaşımı maşında görən bir yaşlı kişi dedi: «Gör ey, belə bir adamı necə maşında aparırlar!»

Köhnə ata ocağına gəldik. Bir az əvvəl buradan böyük bacımız Surə xanımı son mənzilə yola salmışdıq. Heydər Əliyevin qayıtması xəbəri dərhal şəhərə yayıldı. Xalq həyətimizə axışdı. Dar küçədə qələbəlik yarandı.

Axşamüstü Hüseyn Cavidin məzarına baş çəkdik. Naxçıvanlılar sevinclə Heydər Əliyevi salamlayırdılar. Böyük şairin məzarını baxımsız görəndə Heydərin yaman qanı qaraldı. Sonra mərkəzi meydana üz tutduq, axşam saat 6- 7- dək burada 80 minə yaxın adam toplaşmışdı.

Çoxları əllərində Əliyevin portretlərini tutmuşdu; kimi bir ulduzlu, kimi iki ulduzlu, - görünür, kitab anbarlarında köhnə ehtiyatları eşələyib çıxarmışdılar.

Heydər Əliyev həyəcanını gizlətmirdi. Üç il davam edən faktiki təcrid-olunmadan, tədbirlərdən sonra doğma torpaqda belə səmimi, mehriban qarşılanma onu həyəcanlandırmışdı…»

Heydər Əliyev Naxçıvana siyasətdən uzaqlaşdığı üçün gəlməmişdi… Və o, böyük siyasətə qayıtmalı idi…

Lakin müəlliflər haqlıdırlar ki…

«…Tarixi həqiqətlərə sadiq qalaraq demək olar ki, Heydər Əliyevin böyük siyasətə qayıdışı müzəffər yürüş deyildi. O, qarşısında qalaqlanmış şər, yalan, iftira çəpərlərini dağıtmalı, tərəddüd edənləri inandırmalı, tərəfdaşları başına yığmalıydı»…

Get- gedə bütün Azərbaycan xalqı – dostları da, düşmənləri də daha yaxşı başa düşürdülər ki, Azərbaycanı düşdüyü çıxılmaz vəziyyətdən ancaq Heydər Əliyev xilas edə bilər…

«…Naxçıvanda yaşlı adamlar Heydəri görmək üçün şəhər teatrına necə getdiklərini indi də yaxşı xatırlayırlar. Bəli, o gözəl rəssam, aktyor, memar ola bilərdi. Amma həyat başqa seçimə üstünlük verdi. Siyasət sahəsində də o öz xalqı üçün çox iş görməyə qadir idi. Ancaq xalq da, onu parlamentə seçən insanlar da hələ bunu dərk edəcəkdilər.

1992- ci ildə Azərbaycan fırtınalı dənizdə kapitansız üzən gəmini xatırladırdı. Respublika parçalanmış və dövlət müstəqilliyini itirmək təhlükəsi qarşısında idi.

1992- ci il mayın 18- də, ölkənin Ali Sovetinin sessiyasında deputat Eldar İbrahimov xalqı bu bəladan xilas edə biləcək adamın parlamentin sədri seçilməsini təklif etdi. O bildirdi ki, bu mürəkkəb və ağır işin öhdəsindən dövlət idarəçiliyi sahəsində böyük təcrübəsi olan siyasətçi Heydər Əliyev gələ bilər. Təəssüf ki, o zaman həmkarları Eldar İbrahimovun təklifini müdafiə etmədilər»…

IX fəsil «Qayıdış» adlanır…

«… Xatırladaq ki, Heydər Əlirza oğlu Əliyev Azərbaycan Respublikası Ali Soveti sədrliyinə gizli səsvermə yolu ilə seçilmişdi. Onun lehinə deputatlardan çoxu səs vermişdi.

Sonra onun xalqa və deputatlara ilk müraciəti – göstərilən etimada görə təşəkkür çıxışı oldu. Bu çıxışda o, öz əsas məqsədlərini açıqladı: bu, Azərbaycan xalqının tarixi nailiyyəti olan dövlət müstəqilliyinin müdafiəsi və inkişafıdır. Azərbaycan Respublikasının milli müstəqilliyi 1918- ci ildə yaranmış ilk müstəqil Azərbaycan Demokratik Respublikasının ənənələrinə və müasir dünyada baş verən ictimai- siyasi hadisələrə uyğun təmin olunmalıdır.

Artıq müxalifət lideri yox, bütün dövlət üçün, xalq üçün məsuliyyət daşıyan parlament rəhbəri çıxış edirdi. Düzdür, bir il əvvəl prezident seçilən Elçibəy hələ də iş başındaydı, amma nüfuzunu sürətlə itirməkdəydi. Heydər Əliyevin bir siyasətçi və dövlət xadimi kimi uzaqgörənliyi, zəngin bilik ehtiyatı özünü daha

çox büruzə verdi: vəziyyətin dəqiq qiymətləndirilməsi, perspektivlərin düzgün müəyyənləşdirilməsi, cəsarət və qarşıya qoyulan məqsədə doğru inamla addımlamaq.

O günlərin dəyişən, rəngdən- rəngə keçən gah tragik, gah da tragikomik mahiyyət alan hadisələrinin fonunda Heydər Əliyevin bu çıxışı Azərbaycanın hüdudlarından kənarda demək olar ki, naməlum qaldı. Amma məhz bu çıxışda o özünün əsas məqsədlərini, prinsipial mövqeyini qısa şəkildə açıqlamışdı»…

Həmin məşhur çıxışında Heydər Əliyev demişdi…

«…Mən ömrümün qalan hissəsini, harada olursa- olsun, yalnız və yalnız Azərbaycan Respublikasının müstəqil dövlət kimi inkişafına həsr edəcəyəm. Bununla əlaqədar olaraq bildirmək istəyirəm ki, Azərbaycan Respublikası bundan sonra heç vaxt müstəqilliyini itirməyəcək, yenidən heç bir dövlətin tərkibinə daxil olmayacaq və heç bir başqa dövlətin əsarəti altına düşməyəcək. Bəzən belə şaiyələr gəzir ki, guya, keçmiş Sovetlər İttifaqının bərpa olunması və Azərbaycan respublikasının da oraya daxil olması ehtimalı var. Bu, boş xülyadan başqa bir şey deyil. Mən bu fikirləri qətiyyətlə rədd edirəm və bütün Azərbaycan vətəndaşlarını da bu fikirləri rədd etməyə çağırıram»…

Heydər Əliyev prezident seçilir. Və xalqa arxalanan lider Azərbaycanın dövlət müstəqilliyinin təmin olunması üçün, sözün əsl mənasında, «silahsız döyüş»lərə başlayır…

«Azərbaycan nefti dünya siyasətində» adlanan X fəsil belə başlanır…

«…Etiraf edək ki, biz bu fəslin başlığında Heydər Əliyevin formulunu təkrarlamışıq. Hələ 1994- cü ildə, o, Odlar yurdunun neft sənayesinin ən qədim zamanlardan bu günədək tarixini, onun ibrətlərini və perspektivlərini əhatə edən çoxcildli «Azərbaycan nefti dünya siyasətində» adlı toplu haqqında düşünürdü. Bu əsərin buraxılması o zaman Azərbaycan Dövlət Neft Şirkəti sədrinin birinci müavini İlham Əliyevə tapşırılmışdı. Bu gün demək olar ki, Azərbaycanın yeni neft siyasəti və onun tarixən araşdırılması paralel aparılmışdır. Və bu, Prezidentin siyasi, iqtisadi və sosial baxımdan heyrətamiz dərəcədə dəqiq düşünülmüş kəşfidir.

Keçmiş zamanlarda atəşpərəstlər Bakı neftinə səcdə etmişlər. XIX əsrin sonlarında bir naməlum uzaqgörən yazırdı: «Kiçicik məbədi işıqlandıran neft indi bütöv bir imperiyanın hüdudlarını işıqlandırır və vaxt gələcək ki, o, dünyanın yarısını işıqla və istiliklə təmin edəcək». Krallar və çarlar, prezidentlər və şeyxlər, bankirlər və avantüristlər neftə pərəstiş edirlər. Neftdən ötrü dövlətlər və siyasətçilər çarpışmış və çarpışmaqdadırlar»…

Neft məsələsi strateji məsələ idi…

Lakin…

«…Neft- qaz hasilatı idarələrindən demək olar ki, bütün mütəxəssisləri qovmuşdular. Savadsız «mübarizlər» elə hesab edirdilər ki, kabinetdə kresloya əyləşməklə, telefonla danışmaqla hər şey həll olunacaq, neft özü borulara axıb gələcək, onlar isə yalnız pul qazanacaqlar.

- Əgər respublika məhv olmaq istəmirsə, bu vəziyyəti yalnız neft sənayesinin köməyi ilə düzəltmək olar, - Heydər Əliyev mənə dedi.

Sonradan Azərbaycanın neft strategiyası adlandırılan planın ümumi cizgiləri yəqin ki, artıq onun fikrində hazır idi. İndi də həmsöhbətinin bu problemlər barədə nə düşündüyünü, xarici şirkətlərlə birgə müəssisələrin fəaliyyəti ilə bağlı nə fikirləşdiyini öyrənmək istəyirdi.

- Mən ona dedim ki, - həmin yaddaqalan günün söhbətini bütün detallarına qədər Natiq Əliyev xatirinə gətirir»…

Heydər Əliyev «strateji məsələ»ni Azərbaycan xalqının xeyrinə həll etməyi bacardı…

«…İndi isə təqvimdə 1994- cü ilin sentyabr ayını açaq. Məhz o zaman Azərbaycanda, başqa ölkələrin siyasi və işgüzar dairələrində Heydər Əliyevin irəli sürdüyü sərrast və yığcam «Əsrin müqaviləsi» ifadəsi işlədilməyə başlandı. Bu formulun məzmunu nə idi? Söhbət genişmiqyaslı beynəlxalq işbirliyindən, nəhəng neft layihəsindən gedirdi. Azərbaycan Dövlət Neft Şirkəti ilə beynəlxalq şirkətlər konsorsiumu arasında Xəzər dənizinin Azərbaycan sektorundakı neft yataqlarının müştərək işlədilməsi üzrə müqavilə bağlanırdı. Diqqət yetirək: «Əsrin müqaviləsi»nin təntənəli imzalanma mərasimi 1994- cü il sentyabrın 20- də

keçirildi, Heydər Əliyevin hakimiyyətə qayıdışından bir il sonra. Kontraktın ilkin imzalanma tarixi 1993- cü il iyulun 21- nə nəzərdə tutulurdu və o zaman prezident vəzifəsində olan Elçibəy artıq İngiltərə səfərinə hazırlaşırdı. Xatırladığımız kimi, gözlənilmədən o, marşrutunu dəyişməli olmuşdur.

Bəli, danışıqları Əliyevin sələfləri səriştəsiz və təmənnalı başlamışdılar. Onlar xarici şirkətlərlə ölkə üçün çox ağır, özləri üçünsə görünür «sərfəli» şərtlərlə sövdələşməyə hazırlaşırdılar. Bərbəzəkli sözlərlə «naxışlanmış» həmin variantların məğzini «topdansatış» adlandırmaq olardı. Amma unutmaq olmaz ki, söhbət müştərisi olmayan, kiflənmiş ayın- oyundan, cır- cındırdan yox, torpağın sərvətindən gedirdi»…

Və neft məsələsinin milli mənafelər naminə həlli Azərbaycanın beynəlxalq imicini də sürətlə (və inamla!) yüksəltdi…

XI fəsil «Günəş dənizdən doğur» adlanır…

«…Primakovla Pastuxova Əliyevin son ad günlərindən birində iştirak etmək də nəsib olmuşdu. Böyük ailə bir yerə toplaşmışdı.

- Bax onda mən Əliyevin necə ata, baba olduğunu gördüm, - deyə Pastuxov bir qədər kövrək tərzdə xatırlayır. O, eyni zamanda, həm tanıdığım adam idi, həm də yox. O, başdan- ayağa işıq saçırdı. Əliyevin ailəsi ilə keçirdiyim bu bir neçə saat yaddaşımda ən parlaq günlərdən biri kimi qalıb.

Pastuxov uşaqlıqdan poeziya vurğunu idi və həvəslə sevdiyi şeirləri əzbərdən söyləyirdi. Bu. Əliyevlə onu yaxın edən xarakterlərindən biri idi. Bir dəfə o, Azərbaycan Prezidentinin qəbul otağındakı kitab rəfinə göz gəzdirir.

- Baxıram, Səməd Vurğunun sizdə müxtəlif nəşrləri var. Ruscası da var, - kitablardan birini götürdüm və Heydər Əliyevdən xahiş etdim ki, qol çəksin.

Qol çəkdi və sonra soruşdu:

- Nəyə görə sizi Səməd Vurğun maraqlandırdı?

- Konstantin Simonovun onu necə qiymətləndirdiyini bildiyimə görə. Çox gözəl lirikası var… «Hərdən olur, bolşevik də Londona ayaq basır…» Sonra o təklif edir: Səməd, onlara bir- iki söz de, yediklərini burunlarından gətir!»

Əliyev ürəkdən güldü.

- Mən elə bilirdim ki, Vurğun yalnız əsl partiya şairi olub, - deyə Pastuxov etiraf etdi. – İnqilabdan, Oktyabrdan, 1 Maydan yazıb.

- Yəqin yalnız belə şeirləri, özü də çox pis tərcümə edib sizə tanıdıblar, - deyə Əliyev cavab verir. – Vurğun üçün Pasternak tapılmadı. Onun çox gözəl lirikası var. Bir qulaq asın… - Sonra o, bir- birinin ardınca, Azərbaycan dilində S.Vurğunun bir neçə şeirini oxudu. Musiqini hiss edirsiniz? Bəs Azərbaycan haqqındakı misraları necə?

*El bilir ki, sən mənimsən,*
*Yurdum, yuvam, məskənimsən.*
*Anam, doğma vətənimsən,*
*Ayrılarmı könül candan,*
*Azərbaycan! Azərbaycan!*

- Mən bu sətirlərin 1998- ci il oktyabrın 18- də necə gözəl səsləndiyini də xatırlayıram, - deyə Pastuxov onun fikrini sanki təsdiq etdi»…

XII fəsil «Prezident ili» adlanır…

Müəlliflərin fikrincə…

«…Heydər Əliyev ona görə ümummilli liderə çevrildi ki, onun əxlaqi keyfiyyətləri ilə siyasətçi və mütəfəkkir istedadı birləşirdi. «Hakimiyyətə qarşı müxalifətdə olmaq olar, amma xalqına, vətəninə, onun yüksək əxlaqi keyfiyyətlərinə qarşı çıxmaq yolverilməzdir», - deyən Heydər Əliyev dəfələrlə bu fikri öz əməlində də təsdiq edirdi. Alman filosofu Artur Şopenhauer insanın dahiliyini, onun dərketmə imkanlarının lazım olduğundan bir neçə dəfə artıq inkişaf etməsində görürdü. Beləliklə, dahilik intellektin fövqəladə böyüklüyüdür və böyük intellekt özünün tətbiqini, həqiqətin dərk olunan ümumi qanunlarına xidmət etməkdə görür, bununla da o, özünü bütün bəşəriyyətə xidmətə həsr edir. Normal intellekt isə ayrı- ayrı fərdlərə xidmət edir»…

«Heydər Əliyev» kitabının sonuncu – XIII fəsli «Dünyanın gözündə» adlanır…

«…Heydər Əliyevin son qərarı əslində Azərbaycana son borcu, son xidməti idi. Bu qərardan Azərbaycan dövlətinin taleyi asılı idi. Heydər Əliyev bu son borcunu da şərəflə yerinə yetirdi. Onun doğma xalqına ünvanladığı son müraciət Vətənə ləyaqətlə xidmətin son nümunəsi idi. Dəbdəbədən, ritorikadan uzaq, xalqın qavradığı dildə, Heydər Əliyevin üslubunda olan son dərəcə səmimi müraciət»...

Həmin tarixi müraciətin sonunda deyilirdi…

«…Əziz Azərbaycan vətəndaşları, əziz xalqım!

Mən öz mənalı həyatımın düz 60 ilini xalqımın bu günü və sabahı ilə yaşamışam. Bunun son on ili müstəqil Azərbaycan dövlətinə xidmətdə keçib. Bu sahədə görülən işlər sizə məlumdur, lakin mənim hələ tamamlanmamış çox perspektivli planlarım var. Son vaxtlar səhhətimdə yaranan bəzi problemlər mənə imkan vermir ki, bütün bu başladığım, nəticələrini aydın gördüyüm işləri tamalayım. Buna baxmayaraq, 2003- cü ilin 15 oktyabrında keçiriləcək prezident seçkilərində iştirak etmək üçün mənim də namizədliyim irəli sürülüb və qeydiyyata alınıb. Yüzminlərlə insan seçki kampaniyasına qoşularaq mənim təbliğatımı aparır. Fürsətdən istifadə edərək bu insanlara, namizədliyimi irəli sürən və dəstəkləyən Yeni Azərbaycan Partiyasının bütün üzvlərinə, digər ictimai- siyasi təşkilatların nümayəndələrinə, elm, təhsil və mədəniyyət xadimlərinə, ziyalılara və mənə dəstək verən bütün Azərbaycan xalqına dərin təşəkkürümü bildirirəm. Ümidvaram ki, tezliklə səhhətimi bərpa edərək Vətən dönəcək, xalqımla yenidən birlikdə olacağam. İndi isə öz namizədliyimi İlham Əliyevin xeyrinə geri götürürəm.

Üzümü sizə – həmvətənlərimə tutaraq, qarşıdan gələn prezident seçkilərində prezidentliyə namizəd, mənim siyasi varisim, Yeni Azərbaycan Partiyası sədrinin I müavini İlham Əliyevi dəstəkləməyə çağırıram. O, yüksək intellektli, praqmatik düşüncəli, müasir dünya siyasətini və iqtisadiyyatını gözəl bilən, enerjili və təşəbbüskar bir şəxsiyyətdir. Sizi əmin edirəm ki, həm İlham Əliyev, həm də Yeni Azərbaycan Partiyası bundan sonra da xalqımızın ən layiqli övladlarını öz ətrafında sıx birləşdirərək Azərbaycan dövlətinin inkişafı və xalqımızın firavanlığı yolunda çox işlər görəcəkdir. İnanıram ki, mənim axıra çatdıra bilmədiyim

taleyüklü məsələləri, planları, işləri sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm»…

Kitabın son fəsli bu cümlələrlə bitir…

«…2003- cü il oktyabrın 3- də respublikanın əksər qəzetləri unudulmaz Prezident Heydər Əliyevin bu müraciətini birinci səhifədə dərc etdilər. İlk təəssürat xalqı kövrəltdi. Onlar müraciəti Milli liderin vəsiyyəti kimi qəbul edib ona əməl etməyi özlərinə borc bildilər. Bir həqiqəti də anladılar ki, borc bildikləri bu əməl Azərbaycanın müstəqillyinin əbədiliyinə, iqtisadi tərəqqinin, demokratiyanın dönməzliyinə xidmət edəcək»…

Və kitabın «Epiloq»u bu cümlələrlə başlanır…

«…Deyirlər, qara xəbər yel qanadlı olur. Bu qara xəbər okeanı aşaraq gəlmişdi:

«Birləşmiş Ştatlardakı Klivlent xəstəxanasında Heydər Əlirza oğlu Əliyev dünyasını dəyişib».

O, dünyaya göz açanda adını Heydər qoymuşdular. Heydər müsəlman Şərqinin güc və qüvvət rəmzi sayılan, düzlük və müdrikliyi ilə seçilən müqəddəs Əlinin adlarından biridir. İnsanların taleyinin müəyyənləşməsində valideynlərin tərbiyəsi danılmazdır. Amma burada ad seçimi də müəyyən yer tutur. İnsanlar bütün ömürləri boyu adları ilə bağlı xüsusiyyətləri öz üzərlərində daşıyırlar.

Görəsən, işıqdan bir iz qalırmı? Əbədi olaraq sönən günəşi təsəvvür etmək çox çətindir, vaxt ötdükcə ulduzlar sönür, amma insanlar onun işığını hələ uzun illər boyu görürlər.

İşıqsız həyat yoxdur.

Heydər Əliyev Azərbaycanın günəşli səması altında dünyaya gəlmişdi. Bu işığı nə vaxtsa vətəninə, hər bir insana, doğmalarına paylamaq üçün qəlbini nura qərq etmişdi. Tale ona 80 illik bir ömür qismət etdi. Ancaq Əliyevin ulduzu Azərbaycanda hələ on və yüz illərlə parlayacaq»…

Ümummilli liderin parlaq (və təkrarsız!) obrazını (siyasi portretini) yaradan müəlliflərin xidməti ictimaiyyət tərəfindən yüksək qiymətləndirildi. Bu barədə

Viktor Andriyanovla Hüseynbala Mirələmovun birgə yazdıqları ikinci bir kitabın - «İlham Əliyev» kitabının ön sözündə deyilir ki…

«…Çoxlu sayda məktubların arasından yalnız birinə nəzər salaq. Bu yazının müəllifi tələbə Vladimir Krasnoslobotsev Azərbaycanda olarkən öz təəssüratını İnternetdə bölüşüb:

«Mənə elə gəlir ki, Azərbaycanın uğurlarında, vətəndaş müharibəsinin qarşısını alan, cəmiyyətin həyatında və iqtisadiyyatında qayda- qanun yaradan, respublika üçün sərfəli müqavilələrə imza atan Heydər Əliyev çox böyük rol oynayıb. Mən məsləhət görürəm ki, onun haqqında Viktor Andriyanovun və Hüseynbala Mirələmovun «Jizn zameçatelnıx lyudey» («Görkəmli adamların həyatı») seriyasından birgə yazdıqları «Heydər Əliyev» kitabını oxuyasınız. Son qırx il ərzində ölkənin bütün siyasi həyatı bu əsərdə öz əksini tapıb».

Dünya şöhrətli yazıçı Çingiz Aytmatovun bu kitabın müəlliflərindən birinə göndərdiyi teleqram da, etiraf edək ki, fərəh doğurdu:

«Əziz Hüseynbala, mən sizin rus yazıçısı Viktor Andriyanovla birgə yazdığınız «JZL» seriyasından «Heydər Əliyev» kitabını aldım. Həyatımız boyu həyatından ibrət götürməyə borclu olduğumuz dahi, görkəmli dövlət xadimi, türk dünyasının böyük və qüdrətli oğlu haqqında yaratdığınız çox dəyərli mənəvi abidə mənim qəlbimi qürur, iftixar hissilə doldurdu.

Bu nəhəng ədəbi, mənəvi abidə haqqında mən internet saytlarında görkəmli insanların ürək sözlərini oxumuşam. Siz başqa yazıçıların görə bilmədiyi işin öhdəsindən gəlmisiniz, fəxri bir vəzifəni yerinə yetirmisiniz. Bu missiyanı ləyaqətlə yerinə yetirdiyinizə görə sənə və rus yazıçısı Viktor Andriyanova dərin təşəkkürümü bildirirəm.

Mən çox istərdim ki, sizin əlinizi sıxım. Tezliklə görüşmək ümidilə.

Çingiz Aytmatov».

*

*     *

Viktor Andriyanovla Hüseynbala Mirələmovun «İlham Əliyev» kitabı (Bakı, 2007) «Kitabı açanda» adlı giriş sözü ilə başlanır…

«Bir dəfə Heydər Əliyevin istəkli nəvəsi balaca Heydərdən böyüyəndə nəçi olacağını soruşdular. Uşaq dərhal cavb verdi:

- Təyyarəçi!

Yaşlılar təəccüblə:

- Bəs nə üçün prezident yox, təyyarəçi? – dedilər.

Oğlanın cavabı yenə də kəsə oldu:

- Prezidentlərin işi çox ağırdı.

Babası heç zaman işinin ağırlığından şikayətlənməzdi. Hətta bu dünyadakı ən əziz adamlarına – həyat yoldaşına, qızına, oğluna belə bu barədə heç nə deməzdi. Onun atası da  qayğılarını özü çəkər, yaxınlarından kimsəni qayğılarına şərik etməzdi. Amma görünür, balaca Heydər öz körpə ürəyi ilə nə isə hiss eləmişdi ki, dilinə məhz belə gözlənilməz cavab gəlmişdi»…

Balaca Heydərin babası, onun da mənsub olduğu Azərbaycan xalqının ümummilli lideri, Prezident Heydər Əliyev vəfat etdi…

«…Xalq öz milli liderini – öz başçısını, İlham Əliyev isə atasını itirmişdi. Bu acı xəbəri o xaricdə – informasiya əlaqələri üzrə Beynəlxalq Sammitdə almışdı.

İndi o, təyyarənin trapına ayaq basmalı, borta qalxmalı və atasına yaxınlaşmalı idi.

Bu, onların təkbətək qaldıqları sonuncu on beş dəqiqə idi. Kim bilir bu dəqiqələrdə dünya şöhrətli atasını itirmiş oğul ürəyi nələr çəkirdi, bu dəqiqələr, anlar İlhamın yadına nələri salırdı? Yəqin ki, onu yalnız atasını, ya anasını sonuncu mənzilə yola salmış və bu hüznlü borcdan çıxmış insanlar başa düşərlər»…

Müəlliflər «Kitabı açanda»nı bitirirlər… Və bəri başdan kitabın məqsədini, məramını bildirirlər…

«…Sizin oxumağa başladığınız bu kitab Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə həsr olunur.

Siz elə bilməyin ki, konstitusiya normalarına, həmçinin şəxsi keyfiyyətlərinə görə bütün ölkələrdə prezident liderə çevrilir. İlham Əliyev gənc (postsovet məkanı tarixinin hesabatını aparsaq) dövlətin lideri adını, xalqın etimadını özü qazanıb. Çingiz Aytmatov demişkən, «qloballaşan dünyada lider etalonu»na çevrilib. O, öz xalqının övladıdır və həm də beynəlmiləlçidir, bəşəri, mənəvi- insani dəyərlərin tərəfdarıdır.

O, respublikada mövcud olan ənənəvi dəyərlər və dini institutların qayğısına qalmaqla, respublikada fəaliyyət göstərən konfessiyaların münasibətlərinin tolerantlığına çalışmaqla yanaşı, dünyəvi dövlətin dünyəvi başçısıdır.

Hər bir tarixi şəxsiyyət öz əsrini əks etdirir. Biz İlham Əliyevin prezidentlik fəaliyyətini, ömür yolunu xronoloji ardıcıllıqla izləməyə hazırlaşmırıq; bizim məqsədimiz – hekayətimizin qəhrəmanını həyatda olduğu kimi, əhatəli şəkildə Sizə çatdırmaqdır. Buna nail olmuşuqmu? Söz Sizindir. Hörmətli oxucu, Sizi bizim kitabı oxumağa dəvət edirik»…

«İlham Əliyev» kitabının I fəsli «Odlar diyarı» adlanır… O diyar ki, onun paytaxtında – Bakıda gələcyin prezidenti (və doğulduğu şəhəri yenidən qurub dünyanın ən gözəl şəhərlərindən birinə çevirən!) İlham Əliyev dünyaya gəlmişdi…

«…Pəncəyərə ay işığı düşür. Dekabr gecəsinin soyuq ulduzları parıldayır. Heydər və Zərifə Əliyevləri həm yeni il, həm də oğulları İlhamın dünyaya gəlməsi münasibətilə təbrik edirlər. Valideynləri sevindirərək körpəyə səadət diləyirlər, ümidləriniz gerçəkləşsin, özünü doğrultsun, - deyirlər.

Körpə Oğlaq bürcü altında doğulmuşdu; qədimlərdən gələn şairanə təxəyyülə görə bu bürc altında dünyaya gələnlər dini mahiyyət daşıyan mənəvi qüdrətə və təcrübəyə malik olurlar. Liderlik onlara vergi kimi verilir, uğurla ucalır, uzaqgörən olurlar ki, bu da rəqibləri məğlub etmək üçün mənəvi qüvvədir. «Oğlaqlar» ciddi işlərlə məşğul olurlar, onların natiqlik istedadı var, amma diqqət mərkəzində olmağı xoşlamırlar. Qırx bir yaşından sonra ziyalılıq zirvəsini fəth eləyirlər, ali məqsədlərinə çatırlar. Ulduz falını elm səviyyəsinə yüksəltməyəcəyik, amma Oğlaq bürcü altında dünyaya gələn böyük simaların bir qismini yada salmaq maraqlı olardı. Aristotel və Sokrat, Janna d 'Ark və Nyuton, Molyer və Monteskye,

Qriboyedov və Adam Mitskeviç, İohann Kepler, Anri Matiss, İqor Kurçatov, Osip Mandelştam, Mel Gibson…

İlham incəsənətə və mədəniyyətə, elmə, savada böyük hörmət bəslənilən bir mühitdə, ziyalı ailəsində böyüyüb.

Gələcək şəxsiyyətin hazırlıq məktəbi ailədir. Balaca «sualbaz»ın dünya ilə ilk tanışlığı, dünyanı dərk etməsi də burada başlayır. Ana laylaları, nənənin, babanın sehirli nağılları, ilk heyrət, ilk şadlıq, inciklik, kimisə tanıma – nəcabət, zəhmətsevərlik, xeyirxahlıq dərsi olur»…

İlham Əliyev vaxtından bir il əvvəl məktəbə getmək istədi… Və getdi… Özü də rus bölməsinə…

«…O ki, qaldı ana dili məsələsinə, onu necə deyərlər, körpə ana südü ilə bir yerdə beşik nəğmələrində «Qızıl gülün içində, şirin yuxu tapa- tapa» içir, evdə eşitdiyi doğma səslərin, şənliklərdə qulağı çalan müğamlarda oxunan qəzəllərin ahəngindən əxz eləyir, qığılcım saçan, kövrək mahnılardan mənimsəyir: «dərdin alım», «qadan- balan mənə gəlsin» kimi oxşamalardan, «biri var idi, biri yox idi», «az getdilər, üz getdilər, dərə- təpə, düz getdilər» kimi nağıl girişlərindən öyrənir.

Çoxlu dillərə meydan olan bu mehriban şəhərdə, hətta rus dili də Azərbaycan dilinin «təcavüzünə» məruz qalıb, Bakıda işlənən rus dilində Azərbaycan dilinə məxsus ahəng yaranıb; burada «poçemu», «pa- açemu» kimi uzanır, «xoroşo» sözü də uzanıb olur: «xa- araşo», hətta Azərbaycan dilinin təsiri ilə heç bir izaha gəlməyən, başa düşülməyən ədatlar da meydana gəlir: «poydem, da…», «ladno, da…»

Ayrı- ayrı millətlərin nümayəndələri olan bütün bakılılar rus dilində ünsiyyət saxlayırdılar, hələ çoxları Azərbaycan dilini də bilirdi»…

«Moskva, Moskva…» adlanan II fəsildə İlham Əliyevin orta məktəbi bitirib Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutuna daxil olmasından, uğurla təhsil almasından söhbət gedir.

«Kreml səmasında yeni ulduz» başlıqlı III fəsil belə başlayır…

«…1982- ci ili Əliyevlər ailəsi üçün yekunlaşdırma və yeni başlanğıclar ili adlandırmaq olar.

İlham institutu bitirib aspiranturaya daxil oldu. Yuxarı kurslarda o artıq öz seçimini etmişdi»…

Və «Seçim» adlanan növbəti – IV fəsil də həmin mövzunu davam etdirir…

«MDBMİ- nin məzunları arasında söhbət gəzirdi ki, İlham səfirliyə təyinat alacaq, hətta iki ölkənin adını da hallandırırdılar – İngiltərə, Belçika… Belə təyinat xeyli nüfuzlu sayılırdı: Paris və London, Roma və Brüssel – gənc karyeristlərin ən əziz arzusu idi. Amma İlham Əliyev nüfuzlu ezamiyyətdən imtina elədi. Ata oğluna da, qızına da məsləhət gördü ki, ciddi şəkildə elmlə məşğul olsunlar. İlham doğma institutun aspiranturasına daxil oldu və parlaq şəkildə «Müasir mərhələdə Böyük Britaniyada anti- hərbi hərəkət və siyasi partiyaların ona münasibəti» mövzusunda dissertasiya müdafiə elədi… Tarix elmləri namizədi oldu.

Düşünmək olar ki, İlhamı Moskvada, atasının yanında saxlayan daha bir səbəb vardı. Belə şeylər barədə ailədə də həmişə söz açmırlar, üstəlik də kənardan müxtəlif variasiyalarla özgənin işinə qarışmaq əsla məqbul sayılmır. Amma hər halda bir müşahidəni bölüşək: ailə üzvləri də hiss eləyirdilər ki, Zərifə xanımın kefi yaxşı deyil, amma o çalışırdı ki, heç nəyi biruzə verməsin və İlhama məsləhət görürdü ki, ailə haqqında fikirləşsin»…

İlham Əliyev isə karyera seçimi ilə yanaşı ailə seçimini də vaxtında etmişdi…

«…Cənab Reyqan Sov. İKP MK Baş katibinin köməyi ilə «şər imperiyası»nı dağıdanda, MDBMİ- nin aspirantı İlham Əliyev dumanlı Albionun tarixinə baş vururdu. Nelsonun Trafalqar yaxınlığındakı döyüşündən, Viktoriya dövründən, Çerçilin Fulton nitqindən daha çox onu şəxsi işləri maraqlandırırdı. İngilis ledilərinin obrazı alagözlü, qələmqaşlı gözəl bir qızın şəkillərinin kölgəsində qalmışdı.

Bir dəfə kurs yoldaşlarından biri maraq göstərərək ondan soruşdu:

- Sən evlənmək haqqında nə düşünürsən?

İlham təbəssümünü gizlətməyə çalışaraq diplomatik cavab verdi:

- Bu məsələ ilə mənim anam məşğul olur»…

Və belə də oldu…

«…1982- ci ildə Zərifə xanım Mehribanın valideynlərindən, onların qızının İlhamla izdivaca girməsi haqqında razılıq aldı. Adətə görə belə hallarda şirniyyat stolu açırlar, şirin çay içirlər. İndi də belə oldu.

Bu həyəcanlı səhnəni təsəvvür edək. Təntənəli süfrə arxasında iki ana, iki nurlu qadın. Yeni ailə haqqında sakit söhbət… Zərifə xanım təklif edir ki, xeyir işi ləngitməsinlər, toyu yubatmasınlar. Sanki ürəyinə damıbmış ki, yer üzündə yaşamaq üçün ona ayrılmış zaman kəsiyi əriməyə başlayıb…

Toyu təvazökarcasına, cah- cəlalsız (Şərqdə tez- tez belə olur, yalnız Şəqdə yox), yalnız ən yaxınların iştirakı ilə etdilər»…

Çox keçmədi ki, xoşbəxt ailə dalbadal çətinliklərlə üzləşdi… Zərifə xanım vəfat etdi, Heydər Əliyev vaxtından əvvəl «təqaüdə» göndərildi, İlham Əliyevinsə doğma institutdakı müəllimlik fəaliyyətinə son verildi… Bütün bunlar azmış kimi Azərbaycana təzyiqlər, müdaxilələr başlandı…

V fəsil «Körpülər» adlanır…

Bu fəsildə göstərilir ki…

«…İlham Moskvada sahibkarlıqla məşğul olurdu. Onun yaratdığı kampaniyada çoxlu sayda azərbaycanlı çalışırdı, sonralar özlərini «Böyük demokratlar» sayan müxalifət nümayəndələri tezliklə biznesi də ona irad tutacaq, hətta böhtanlar deməkdən belə çəkinməyəcəklər.

«Mən Moskfada bizneslə məşğul olurdum və bununla fəxr edirəm, - İlham Əliyev cavab verdi. – Mən bunu heç zaman danmamışam. Yaradılmış, nizama salınmış bu kampaniya Moskvada açılmış ilk Azərbaycan ocağı idi. Bu öz yerində, bu kampaniyada Moskvada yaşayan azərbaycanlılar qazanırdılar. Mən o zaman da, bizneslə məşğul olmaqla, öz zəhmətimlə xalqıma xidmət etmişəm.

Bununla belə, Moskvada vəziyyət gündən- günə gərginləşirdi: Azərbaycana da qayıtmaq mümkün deyildi – Bakıdan təhdidlər eşidilirdi. Ona görə də Türkiyəyə yola düşdüm, Moskvada yaratdığım kampaniyaya oradan rəhbərlik etməyə başladım…»

«Mənim Türkiyəyə ilk gəlişim 1992- ci ildə baş tutdu, - on il sonra «Sabah» qəzetinə verdiyi müsahibəni İlham Əliyev belə xatırlayır. – O zaman atam Naxçıvanda Milli Məclisin sədri idi, amma mən Moskvada yaşayırdım. 1992- ci ildə gəldim, atamla görüşdüm. Naxçıvandan İstanbula öz maşınımla yola düşdüm. Türkiyəni də çox sevirəm, türk xalqını da»…

«Azərbaycanın neft açarları» adlı VI fəsildə Heydər Əliyev xalqın təkidli tələbi ilə hakimiyyətə gələndən sonra yürütdüyü neft siyasətindən bəhs edilir… O siyasətdən ki, onun formalaşmasında, eləcə də davam etdirilməsində İlham Əliyevin əvəzsiz xidmətləri olmuşdur…

VII fəsil «Strasburqda döyüş» adlanır ki, həmin fəsildə İlham Əliyevin AŞPA- da gənc Azərbaycan dövlətinin beynəlxalq nüfuzunu necə inamla qorumasından söhbət gedir.

Çoxlu hadisələrdən biri…

… «Azərbaycanın və məruzəçinin mövqeləri arasındakı əsas ziddiyyət bir məsələ ilə bağlıdır, - AŞPA sədrinin müavini və Büro üzvü İlham Əliyev öz çıxışında dedi. – Siyasi məhbus kimdi? Və ya kimi siyasi məhbus hesab etmək lazımdır? Əgər məsələnin mahiyyətinə varsaq, əgər bütün vəziyyətləri, bütün şəraiti, cənab Klerfaytın siyasi məhbus hesab etdiyi insanların bioqrafiyasını, destruktiv fəaliyyətini və məşğuliyyətini nəzərə alsaq, yaxından tanısan onun səmimiyyətinə qarşı şübhə yaranar, özü də böyük şübhə. Cənab Klerfaytın məruzəsində separatçılar, terrorçular, killerlər, təyyarə qaçıranlar siyasi məhbus kimi təqdim olunur».

Azərbaycan nümayəndəsi faktlarla sübut elədi ki, Avropa Şurası cinayətkarları siyasi məhbusa çevirir.

«Əgər killerləri – onlar Klerfaytın məruzəsində kifayət qədərdir – dustaqxanalardan buraxsalar, onlar yeni cinayətlər törədəcəklər. Onlar yenidən insan öldürməyə başlayacaqlar. Qurbanlar isə sizin ölkənin deyil, Azərbaycanın vətəndaşları olacaqlar. Elə əsas tərs- mütənasiblik də bundadır!

O ki qaldı meyar məsələsinə, bəli, bizim həmkarımız xorvatiyalı xanım meyarların müəyyənləşdirilməsinin vacibliyini qeyd etdi. Cənab Şvimmerin

ekspertləri bu meyarları müəyyənləşdirməyə cəhd ediblər. Bəs nə üçün biz tək Azərbaycan üçün müəyyənləşdirilməyən meyardan danışmırıq?

İndicə qeyd olunan meyar yalnız Azərbaycana aid edilibdir. Gəlin bütün ölkələrə şamil edilən meyardan danışaq, əgər həmin meyar əsas kimi götürülsə, onda ümumi meyar hüdudlarında siyasi məhbusları müəyyənləşdirmək olar.

…Nəhayət, sonuncu məsələ. Azərbaycana və Ermənistana müxtəlif standartlarla yanaşmaq lazım deyil. Bu iki ölkənin hər ikisi eyni zamanda Avropa Şurasına qəbul edilib. Emənistanda prezident seçkiləri zamanı ölüm hökmünün ləğvi barədə məsələnin müzakirəsi sonraya saxlanılmışdı. Assambleya bunu edib. Bizdə oxşar problem yarananda isə, bu, nədənsə baş vermir»…

Müəlliflər qeyd edirlər ki…

«…Assambleyanın kürsüsündən İlham Əliyev təmiz ingilis dilində danışır. Zala birbaşa, tərcüməçisiz və labüd fasilələrsiz ünsiyyət (ritmi və bəlkə də emosional enerjini pozan) auditoriyanın diqqətini cəlb etməyə əlavə imkanlar yaradır. Lakin bu o demək deyil ki, qulaq oxşayan xoş sözlər deyilməlidir… Hər bir deputatın arxasında onun ölkəsi, dövlətinin, xalqının maraqları durur. İlham Əliyevin arxasında isə Qarabağ yaralarını sağaltmağa ümid edən Azərbaycan»…

VII fəsil bitir…

«…Az bir müddət keçəndən sonra, 29 aprel 2004- cü ildə İlham Əliyev bu tribunadan Azərbaycan Respublikasının Prezidenti kimi çıxış edəcəkdi:

- Mən üç il ərzində AŞPA- nın üzvü olmuşam. Həyatımın bu dövrü mənim üçün bəlkə də ən vacib zaman kəsiyidir və bu dövr mənim gələcək fəaliyyətimdə, əlbəttə ki, bugünkü vəzifəmdə ciddi rol oynayıb.

AŞPA- nın sədri Piter Şider Azərbaycan Prezidentinə PA-nın fəxri üzvü medalını və diplomunu təqdim edərək dedi:

- Ən fəal deputat və nümayəndə heyəti rəhbəri, həmçinin AŞPA- nın ən fəal rəhbərlərindən biri və ən nəhayət, fəal dövlət başçısı kimi dəyərləndirdiyimiz Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevi yenidən bizimlə bir yerdə görəndə fərəh hissi keçiririk»…

VIII fəsil «Ata və oğul» adlanır…

«…İlham Əliyev «Vaşinqton post» qəzetinə verdiyi müsahibədə bildirir ki, baş nazir təyin olunması barədəki məsələni əvvəllər də atası ilə çözüblər: «amma qərarı ona görə indi verdi ki, belə fikirləşdi ki, bunu etməyin vaxtı gəlib çatıbdır. 20 gündən çoxdur ki, ölkədən kənardadır. Əlbəttə ki, hər şey nəzarət altındadır. Amma onun qərarı ilə razılaşmalıydım və mən etiraz etmədim… Mən həmin gün Ankarada, onun yanında idim… Dedi ki, sənə inanıram, inanıram ki, sən idarə edə biləcəksən. Məni bir qədər təriflədi, onun dediklərini təkrarlamaq istəmirəm, yəqin bu, təvazökarlıqdan uzaq olar. Amma mən dedim ki, heç vaxt onun gördüyü işi heçə endirməyə yol verməram. Dedim ki, indiyə qədər fəaliyyət göstərdiyim bütün sahələrdə, həm ölkə daxilində, həm də ölkə xaricində onun siyasətini davam etdirməyə çalışmışam və söz verdim ki, onun işi davam etdiriləcəkdir».

Beləliklə, kimin bəxti gətirib: İlhamın ata sarıdan, yoxsa Heydər Əliyevin oğul sarıdan? Hər ikisinin. Azərbaycanın»…

«Baş nazir təyin olunsun…» adlı IX fəsildə İlham Əliyevin baş nazir seçilməsindən söhbət gedir…

«…Azərbaycanın baş naziri İlham Əliyevin ünvanına teleqramlar və məktublar gəlməyə başladı. Onu Rusiyanın, Türkiyənin, Fransanın, Ukraynanın, Çinin, Pakistanın, Hindistanın, Bolqarıstanın, Hollandiyanın, İsrailin, Yaponiyanın dövlət başçıları, həmçinin AŞPA- nın sədri Piter Şider, Avropa Şurasının baş katibi Valter Şvimmer təbrik etdilər…

12 avqustda ABŞ Konqresi Nümayəndələr Palatasının elçisi İlham Əliyevə ABŞ prezidenti Corc Buşun məktubunu təqdim etdi. C.Buş yazırdı: «Sizin təyinatınız Amerika Birləşmiş Ştatları ilə Azərbaycan arasında genişlənən, möhkəm ikitərəfli əməkdaşlıq dövrünə təsadüf edir. Siz qarşıdakı seçkilərə hazırlaşan zaman Sizin ölkənin demokratik institutlarını möhkəmlətmək üçün Sizinlə, Sizin hökumətlə və Azərbaycan parlamenti ilə işi səbirsizliklə gözləyirik. Biz sizinlə əməkdaşlığı, həmçinin bizim ölkələrin yaxınlaşmasına dəstək verən sahələrdə, o cümlədən, terrorizmlə mübarizə və regionda stabillik, energetika və uzunmüddətli siyasi və iqtisadi islahatlar, sahəsində də davam etdiririk.

Sizin atanıza və Sizin ailənizə öz diqqətimizi və dualarımızı yetiririk. ABŞ - Azərbaycan əlaqələrinin qurulmasında Sizin atanız əsas rol oynayıb».

Azərbaycanın baş naziri, Buşa səmimi təbrikinə və xoş arzularına görə ürəkdən minnətdarlığını bildirdi. «Bu gün Azərbaycan ilə Amerika Birləşmiş Ştatları arasında əlaqələrin bütün sahələrdə genişlənməsi, yüksələn xətlə davam etməsi bizi sevindirir. Bir sıra mühüm sahələrdə, irimiqyaslı iqtisadi layihələrdə ölkələrimizin sıx əməkdaşlığı, birgə fəaliyyəti və qarşılıqlı səyləri nəticəsində əldə etdiyimiz uğurlar bu qəbildəndir…

Atam prezident Heydər Əliyevə, ailəmizə böyük diqqət və qayğınıza görə Sizə son dərəcə minnətdaram»…

X fəsil Azərbaycan xalqının ümummilli lideri, müasir Azərbaycan dövlətinin qurucusu Heydər Əliyevin məşhur sözlərilə «Mən ona özüm qədər inanıram» adlanır…

… «Yeni yüzilliyin müxtəlif dövlətlərdə yüksək vəziflərə yeni cavan siyasətçilərin gəlməsi ilə başlamsı çox yaxşıdır. Hazırda Siz Heydər Əliyevdən gözəl ölkə almısınız, onu atanız qoruyan kimi qoruyun. Qoy onun adı və müdrikliyi sizin əməlləri nurlandırsın», - «Gülüstan» sarayında təntənəli şam yeməyi zamanı Sergey Mironov İlham Əliyevə dedi: «Mən sizin hamınızı Azərbaycan xalqının bayramı münasibətilə təbrik edirəm. İlham Heydəroviç, mən bilirəm ki, Siz valideynlərinizdən çox şey götürmüsünüz. Ukraynanın baş naziri, İlham Əliyevə belə deyir. – Onlar Sizə İlham adını qoyanda, yəqin bunu düşünərək etmişlər. Düşünürəm ki, Siz öz xalqınızdan, dostlarınızdan və ailənizdən ilham alacaqsınız. Sizə sülh və bərəkət diləyirəm».

Prezident İlham Əliyev xarici qonaqları salamlayaraq dedi:

«Bu gün Respublika sarayında keçirilmiş andiçmə mərasimində iştirak etmək istəyən insanların hamısı orada iştirak edə bilmədilər. Bilirəm ki, bu gözəl salonda da vətəndaşlarımız iştirak etmək istəyirlər. Əlbəttə, buna imkan yoxdur. Eyni zamanda bilirəm ki, Azərbaycanın müxtəlif yerlərində – Bakıda, digər şəhərlərdə şənliklər keçirilir. Bu gün Bakının Azadlıq meydanında yüz minlərlə

insan elə bu vaxt yığışaraq bu günü qeyd edirlər, sevinirlər, bir- birlərini təbrik edirlər, bayram edirlər. Mənim üçün ən böyük xoşbəxtlik məhz bundadır.

Mən hər bir Azərbaycan vətəndaşı üçün prezident olacağam. Milliyyətindən, dinindən, siyasi əqidəsindən asılı olmayaraq, hər bir Azərbaycan vətəndaşının prezidenti olacağam…»

«Vidalaşma» adlanan IX fəsil Klivlenddən gələn «qara xəbər»lə başlayır…

Heydər Əliyevi ürəkdən sevən (və Heydər Əliyevin ürəkdən sevdiyi) xalq hüzn içərisindədir…

«…Xarici nümayəndələr vidalaşırlar – Türkiyə prezidenti Əhməd Sezər və baş nazir Rəcəb Tayyib Ərdoğan…

Qazaxstan prezidenti Nursultan Nazarbayev ayaq saxlayır və cənazənin qarşısında baş əyir.

Rusiya Federasiyasının prezidenti Vladimir Vladimoriviç Putin Bakıya uçmağı, çağdaş dünyanın görkəmli siyasətçisinin xatirəsi önündə baş əyməyi – həm öz adından, həm rusiyalılar, həm də rus xalqı adından başsağlığı verməyi özünə borc bildi.

Bakını tərk edəndə Putin jurnalistlərə müsahibəsində deyəcək: «Mən Heydər Əliyeviçə çox hörmət bəsləyirdim. Mən ona yalnız böyük hörmət yox, həm də məhəbbətlə yanaşırdım. O, qüdrətli dövlət xadimi idi. Siyasət qayası – mən bu ifadəni ona şamil edərdim. O, həmişə irəli baxmağı bacarırdı».

Dünyanın hər yerindən Bakıya başsağlığı teleqramları gəlirdi: Berlindən, Vaşinqtondan, Tokiodan, Pekindən.

Hüzn karvanı Prezident Sarayının yanından keçir…

Yəqin ki, okeanın o tayındakı o uzaq klinikada Əliyev dövlət başçısı postunda onu kimin əvəz edəcəyini bildi və üzündə sevinc təbəssümü parladı…

Heydər Əliyevin cənazəsi top altında birinci Fəxri Xiyabanda torpağa tapşırılır. Torpaq doğmadı. Və bu doğma torpaq onun son mənzili oldu. Və bu torpaq əsrlərlə Azərbaycan xalqının ziyarətgahı olacaq»…

Leyla Əliyeva isə öz kədərini «Elegiya» ilə ifadə etdi…

«Ulduzlar pillələr olsaydı bir an,

Ay da nur çiləsə yoluma, göyə
Üz tutub tezcə mən qalxardım haman,
Səni yer üzünə qaytarım deyə.

Eşitsəydi mənim səsimi külək,
Bilərdin: ağlaram mən için- için,
Necə sızıldayır qəlbim, o, kövrək,
Mehriban səsini eşitmək üçün.

Səsin qulağımda, ürəyimdədir,
Gözümün önündə durur surətin,
Həsrətin aramsız qəlbimi didir,
Sənsizliyə dözmək çətin, çox çətin.

Quşlar bircə anlıq göstərsəydi, mən
Göylərdəki yolu tutub gələrdim,
Sənə yetişməklə məni incidən
Həsrəti köksümdən silə bilərdim.

Sordum avazımış bənizli aydan,
Nədir dərdi onun, niyə qəmlidir?
Bu nə göz yaşıdır, soruşdum çaydan,
Nə üçün buludlar saçını didir?..»

«İlham Əliyev» kitabının XII fəslini müəlliflər «Ata vəsiyyəti ilə» adlandırmışlar… Və bu fəsildə dövlət idarəçiliyində Heydər Əliyev dərslərindən söhbət gedir… O dərslərdən ki, İlham Əliyev onları nəinki sonacan mənimsədi, eyni zamanda bütün gücü (və miqyası) ilə tətbiq etməyə başladı…

«Qızıl ürək» adlanan XIII fəsil xoşməramlı səfir Mehriban Əliyevanın böyük xidmətlərinə həsr olunmuşdur ki, həmin xidmətlər İlham Əliyevin gördüyü tarixi işləri tamamlayır…

XIV fəsil «Ən başlıca maraq», XV fəsil isə «Prezident ili» adlanır… Həmin fəsillərdə İlham Əliyevin Prezident olaraq fəaliyyətinin misilsiz (və müqayisəsiz!) uğurları ümumiləşdirilir…

Görülmüş (və görüləcək) işlərin miqyasını təsəvvür etmək üçün müəlliflər Prezidentin öz sözlərinə də istinad edirlər…

… «Mən qürur hissi ilə deyə bilərəm ki, bu gün Azərbaycan, sözün əsl mənasında, müstəqil siyasət aparır. Bu siyasət Azərbaycan xalqının milli maraqlarına cavab verir. Bu siyasət Azərbaycanı regionda lider dövlətə çevirir. Bu siyasət gənc, müstəqil ölkə kimi Azərbaycanı dünyada tanıdır. Ümid edirəm ki, görülən bütün işlər və görüləcək işlər bizim gücümüzü daha da artıracaqdır. Azərbaycan öz dövlət müstəqilliyini möhkəmləndirəcək, Azərbaycan regionda daha da möhkəm yerini tutacaq və Azərbaycan xalqı, Azərbaycan vətəndaşları daha da yaxşı, rahat yaşayacaqlar, sülh, əmin- amanlıq, firavanlıq şəraitində yaşayacaqlar. Mənim məqsədim budur. Mənim başqa amalım yoxdur. Mən xalq üçün işləyirəm, xalq üçün çalışıram, xalqa xidmət edirəm…»

Bu sözlərin arxasında isə əzm, iradə və istedad dayanır… Yenə də müqayisəsiz…

Kitab «Əsrin çağırışları» adlı XVI fəsillə sona çatır…

«…Xalqlar ən ali milli maraqlarına uyğun öz yollarını seçirlər. Azərbaycan müstəqillik yolunu seçib. Və bu yolda, Heydər Əliyevin sözləri ilə desək, neft və qazla bağlı Xəzər dənizinin imkanlarından istifadə etməyin yeni tarixini yaradır. Sonra o deyirdi: «Mən çox şadam ki, biz bu tarixi yaradanlardan biriyik. Bizim gördüyümüz işin böyük gələcəyi var. Bu tarix bizdən sonra da yazılacaq, davam edəcək».

Tarix dönə- dönə öyrədir: o ölkələr tərəqqi edir ki, lideri xalqına arxalanır, xalqı üçün yaşayır. Azərbaycan xalqının dahi Ümummilli lideri Heydər Əliyevin uzaqgörən seçimi də belə idi. Xalqın istəyi ilə o, dövlətin idarə sükanını mənəvi silahdaşı, siyasi varisi oğlu İlhama etibar etdi. İlham Əliyev həmvətənlərinin hörmət və məhəbbətini qazandı, dünya onu qəbul etdi, tanıdı. Prezidentliyin dörd ili, ümumiyyətlə, götürdükdə, hətta bir insanın tərcümeyi- halında böyük müddət

deyil; ondakı ola ölkənin həyatında. Amma diqqət edəndə, görürsən ki, bu illər ərzində nə qədər çox iş görülüb! Günü- gündən yeniləşən, müstəqil Azərbaycanda hələ nə qədər də görüləsi işlər var!

Dövlətin getdiyi yolu çox vaxt sürətli hərəkətlə müqayisə edirlər: yeni üfüqlərə gedən gəminin və ya səmaya tuşlanmış, anbaan yüksələn təyyarənin hərəkəti ilə… İşıqlı gələcəyə doğru irəliləyən «bizim sovet parovozu» haqqında bir zaman çox dəbdə olan bir mahnı vardı. Həmin mahnıda deyilirdi: «…Dayanacaq kommunadır!». Lakin əslində, xalqın həyat yolunda heç bir dayanacaq yoxdur. Qarşıda həmişə qayğılar var; yeni- yeni – gündəlik və perspektiv, ailə və dövlət qayğıları. Yeni dövrün, zamanın hayqırtısı, çağırışı eşidilir. İlham Əliyevin Azərbaycanı onlara necə və nə cavab verəcəyini bilir»…

Nəhayət, kitabın annotasiyasında deyilir…

«Molodaya qvardiya»nın yeni nəşriyyat layihəsi: «JZL. Bioqrafiya davam edir» seriyasında ilk dəfə xarici ölkələrin fəaliyyətdə olan liderləri sırasında İlham Əliyev təqdim olunur. Kitabın müəllifləri – yazıçılar – Viktor Andriyanov və Hüseynbala Mirələmov obyektiv, dəqiq sənədlərə istinad edərək öz qəhrəmanlarının ömür yolunu izləmişlər. Hər hansı böyük şəxsiyyət haqqında gəzən mifləri və əfsanələri, ilk dəfə çap olunan arxiv sənədlərinə və şəhadətlərə əsaslanaraq təkzib edirlər. Kitab göstərir ki, Azərbaycanın ümummilli lideri Heydər Əliyevin ləyaqətli davamçısı, dövlət xadimi İlham Əliyevin şəxsiyyəti zaman- zaman – uşaqlıq, gənclik, tələblik illərində formalaşmışdır. Kitabın qəhrəmanının bioqrafiyası Sovet və postsovet dönəminin geniş tarixi fonunda işıqlandırılmışdır».

«İlham Əliyev» kitabının hər yeni nəşrini, heç şübhəsiz, Azərbaycan Prezidentinin gördüyü böyük işlər (burada onun tez- tez söylədiyi bir fikri xatırlamamaq mümkün deyil: «Bizim siyasətimiz – bizim işimizdir»), liderlik etdiyi ölkənin müxtəlif sahələrdə qazandığı möhtəşəm qələbələr zənginləşdirəcəkdir.

*

* *

Hüseynbala Mirələmovun «Zərifə Əliyeva» kitabı (Bakı, 2013) maraqlı bir girişlə – «Dastanın əvvəli» ilə başlanır ki, buna «duvaqqapma» da deyirlər…

«…Dövlət təhlükəsizliyi zabiti, gənc Heydər Əliyevlə rastlaşanda Zərifə xanımın iyirmi beş yaşı var idi.

Onun tərcümeyi- halı Naxçıvanın uzaq Şahtaxtı kəndindən başlayır: 28 aprel 1923- cü ildə, Azərbaycanın sovetləşməsi günündə (bunu rəmzi təsadüf kimi də yozmaq olar) o dünyaya gəlmişdir. Sonra – məktəb, N.Nərimanov adına Azərbaycan Dövlət Tibb İnstitutu (həmin instituta bir zamanlar onun atası rəhbərlik etmişdi), Moskva Həkimlərin Təkmilləşdirilməsi İnstitutu.

İstedadlı təbib- alimin və gələcəyin görkəmli dövlət xadiminin şəxsi həyatının müqəddəratını həll edən tanışlıq 1948- ci ildə baş verdi. Məhz həmin vaxt böyük əfsanəvi məhəbbətə çevrilən qarşılıqlı rəğbət qığılcımları iki gənc qəlbdə işartı verməyə başladı… Və burada önəmli olan odur ki, bu rəğbətin sirli «kimyagərliyi» hər ikisinə gen- bolluqla nəsib olmuş nəhəng cazibənin – ağlın, istedadın və mənəvi saflığın cazibəsinin təsiri altında baş verirdi. Onları maddi qazanc və ya hesab birləşdirmirdi – bu iki qəlbin arasında mənəvi qəlb bağı var idi, həmin bağı onlar bütün həyatları boyu qorumuş və mən inanıram ki, elə indi də həmin bağla səmada bir- birinə bağlıdırlar…

Bu son dərəcə gözəl qadının həyat kitabını vərəqləyərkən, qeyri- adi olaraq Dostoyevskinin «İdiot» romanında knyaz Mışkinin ilk dəfə Anastasiya Filippovnanın portreti üzərindəki düşüncələri olan sətirlər yada düşür. Həqiqətən, gözəllik böyük qüvvədir, dünyanı çevirə bilər, lakin knyazın qeyd etdiyi yeganə bir şərtlə ki: «Bircə bunu bilmirəm ki, safdır, ya yox? Kaş, saf olaydı! Hər şey nicat tapardı!» bizim qəhrəmanımızın obrazında daxili və xarici gözəlliyin ahəngdar bir şəkildə vəhdəti vardır, bu da onun hər bir hərəkətində və arzusunda, dünyaya və insanlara münasibətində tam təzahür olunmuşdur»…

Müəllif dastan intonasiyası ilə başladığı əsərinin janrını müəyyən edir…

«…Ömrünün son anlarında Heydər Əliyev qızı Sevilə etiraf etmişdi ki, əgər onun anasına rast gəlməsəydi, heç vaxt ailə qurmayacaqdı…

Görüş, eşqin yaranması qədim zamanlardan məşhur süjetdir. Biz də bu süjeti qəhrəmanımızın müasirlərinin təəssürat və xatirələri ilə zənginləşdirərək, hadisələrin şərhi kimi kiçik bir rolu da müəllifin öhdəsinə qoyaraq davam etdirək.

1948- ci il. Gənc əks- kəşfiyyat zabiti Heydər Əliyev Leninqrada təhsil almağa gedir. Zərifə xanım Moskvada həkim- oftalmoloq kimi ixtisasını artırır. Zərifənin atası, artıq tanınmış dövlət rəhbəri Əziz Əliyev İctimai Elmlər Akdemiyasında təhsil alır və Azərbaycan KP MK- da işləyir. Gələcək ürəkaçan tonlarla təcəssüm olunurdu. Ölkə Böyük Qələbənin nuru ilə işıqlanmışdı. Qocalan rəhbər növbəti partiya qurultayında nikbin sözlər dedi: «Yoldaşlar, daha yaxşı, daha şən yaşamağa başlamışıq!» Əlbəttə, döyüş meydanlarından qayıtmış, ölüm-dirim savaşında faşizmi darmadağın etmiş, dinc əmək üçün, doğma ocaq üçün darıxmış, müharibənin vurduğu yaraları sağaltmağa, doğma şəhər və kəndlərini xarabazarlıqdan təmizləyib bərpa etməyə çalışan insanların ruh yüksəkliyi və həvəsi barədə danışmamaq olmaz…

Amma rejim üzünü göstərəcək. Sistemin təbiəti dəyişməmişdi. Bu, gənclərin – Zərifə Əliyevnın və adı Azərbaycanın tarixinə daxil olacaq sevgilisinin də həyatında özünü göstərəcəkdir. Lakin bütün bunlar sonra olacaq»…

Kitabın birinci fəsli «Hippokrat və oftolmologiya» adlanır…

Həmin fəsildə gənclik yoldaşlarının, tanışlarının Zərifə xanım haqqında xatirələri yer alır…

Xatirələrdən birində deyilir…

«…Bir dəfə evə gedəndə Kommunist küçəsindən düşüb Zevin küçəsinə döndüyümüz yerdə biz qəşəng bir gənc qadın gördük. O, qeyri- təbii şəkildə düz durmuş, başını dik tutub ehtiyatlı addımlarla divar boyu irəliləyirdi. Zərifə duruxdu və əsən əlləri ilə məndən tutaraq dedi: «Gördün? Gördün? O kordur…» Və bir az gözləyib əlavə etdi: «Bilirsən, mən çoxdandır həkim olmaq barədə düşünürəm. Axı, ailəmizdə hamı həkimdir – atam da, anam da, böyük bacım da, Tamerlan da. Mən göz həkimi olmağı qət etmişəm. İndi isə həyat mənim qərarımın son və qəti

nöqtəsini qoydu: mən insanlara ən mühüm, ən əvəzsiz olan bir neməti – işığı qaytarmaq istəyirəm…» Qəlbində kök salmış bu niyyət, bu arzu barədə Zərifə sonralar da dəfələrlə söhbət açırdı.

Dövlət imtahanları başlamışdı. Əlaçı şagirdlər də, zəiflər də həyəcanlanırdılar. İmtahan hamı üçün imtahandır. Suallara cavab verdikcə Zərifə hiss edirdi ki, professor Umnisə Musabəyovanın çöhrəsi necə işıqlanır. Gənc tələbə müxtəlif göz xəstəlikləri barədə, onların müalicəsi və profilaktikası barədə elə müfəssəl, ətraflı və həvəslə danışırdı ki, sanki uzun illər bu sahədə çalışmış və təcrübə toplamışdı…

İmtahanlardan sonra professor Zərifəni çağırdı və ona dedi: «Həkimlik, ümumiyyətlə, gözəl, nəcib peşədir. Amma tibb elmləri arasında ən nəcibi oftalmologiyadır. Mən sənin oftalmoloq olmanı istərdim»…

Və Zərifə Əliyeva oftalmoloq olur…

«Əvəzsiz insan» adlanan ikinci fəsildə Zərifə xanımın atası həkim, dövlət xadimi Əziz Əliyev xatırlanır… O Əziz Əliyev ki…

«…Sonralar xatırlayırdı: «Əla dərs davamiyyətinə görə mən təhsil haqqı ödəməkdən azad edilmişdim. Demək olar ki, ailəmizin vəziyyətinin ağırlığından bizim təhsil haqqını ödəmək gücümüz yox idi. Belə ki, atamın ailəni saxlamaq imkanı azalmışdı, mən şagirdlərlə məşğul olaraq axşamlar işləməyə başladım».

Əziz Əliyevin uşaqlıq dostu, sonralar həmkarlarından biri akademik Mustafa Topçubaşov memuarlarında yazırdı ki, Əziz qeyri- adi bir gənc idi, dərsdə, davranışda, ədəbdə, həlimlikdə və xeyirxahlıqda tayı- bərabəri yox idi: «Ola bilsin, tibbin atası Hippokrat öz andını belə insanlara baxaraq yazıb»…

Akademik Mustafa Topçubaşov onu da xatırlayırdı ki…

«…Çətinə düşən kimi yanına yüyürürdük. Əzizin yanında mən müxtəlif peşə və maraq sahibi olan çoxlu adama rast gəlirdim. Onun bu adamlarla necə ünsiyyət qurması məni heyrətə gətirirdi. Əzizin yüksək savada malik olduğundan heç kəs şübhələnmirdi, amma hansı ali məktəbi bitirdiyini müəyyən etmək çətin idi, adama elə gəlirdi ki, o bütün elmləri yaxşı bilir»…

Üçüncü fəsil «Səkkiz il dağlar ölkəsində» adlanır… Və bu fəsildə Əziz Əliyevin Dağıstanda gördüyü böyük işlərdən bəhs edilir…

Onlardan biri…

«…Xalq şairi Həmzət Sadasa xatırlayır ki, heç vaxt, heç kimdən Əziz Əliyevin yüksək mədəniyyətinə, xeyirxahlığına və geniş qəlbliliyinə kölgə salacaq bir söz, eyham belə eşitməmişdir. O, həqiqətən gözəl insan idi. 1944- cü ildə Əziz Əliyevin şəxsi təşəbbüsü ilə Dağıstanda Lenin ordeni ilə təltif olunmuş Həmzət Sadasanın yaradıcılıq fəaliyyətinin əlli illiyi qeyd olundu. «Atamı birinci məhz Əziz Əliyev təbrik etdi, - oğlu Rəsul Həmzətov xatırlayır. – Üzünü mənə tərəf tutaraq birdən dedi: «Rəsul, gəl biz səni Moskvaya, Qorki adına Ədəbiyyat İnstitutuna göndərək»… Beləcə, Əziz Əliyevin sayəsində gələcəyin məşhur şairinin böyük ədəbiyyata yolu belə başladı. Moskva ədəbi mühitinin, rus ədəbiyyatı ustaları ilə tanışlıq və dostluğun gənc Rəsul Həmzətovun həyatında və yaradıcılığının formalaşmasında nə qədər böyük rol oynadığı hamıya məlumdur.

Amma o zaman Əziz Məmmədkərim oğlunun təklifinə Rəsul belə ruhda cavab verdi ki, şair olmaq üçün Moskvaya getmək vacib deyil. «Süleyman Stalski institutu bitirmədiyi halda şeirlər yazırdı». Amma sonralar şair etiraf etdi ki, «hər şey mənim təsəvvür etdiyim kimi deyilmiş».

Əgər sənin barəndə, sənin gələcəyin barəsində başqaları düşünürsə, bu çox böyük xoşbəxtlikdir. Bu, ağır sınaq günlərində, hamının əlinə silah alıb düşmənlə vətən uğrunda vuruşduğu bir zamanda daha dəyərlidir…

Əziz Əliyevin şəxsiyyətinin cazibədarlığı nədə idi və Dağıstan xalqları onu niyə sevirdi? Burda heç sirr də yox idi, sadəcə o, Dağıstan xalqına qabaqkı illərdə topladığı təcrübəsini və müdrikliyini səxavətlə və təmənnasız olaraq verirdi»…

«İftira» adlanan dördüncü fəsil aşağıdakı cümlələrlə başlanır…

«…Əziz Əliyev gözəl və mehriban bir ailənin başçısı idi. Onun həyat yoldaşı Leyla xanım xeyirxahlıq və zəriflik mücəssəməsi idi. Bu mehriban, cazibədar və yaraşıqlı qadın altı uşaq anası idi: iki oğul- Tamerlan və Cəmil və dörd qız – Ləzifə, Zərifə, Dilarə, Gülarə. Onların dördü atasının yolu ilə getdi,

həkim oldu. Dilarə mühəndis rabitəçi peşəsini seçdi, kiçik Gülarə isə istedadlı pianoçu kimi tanındı.

Həyatın şanlı Dağıstan səhifələri arxada qalmışdır. İndi Əziz Əliyev Moskvada İctimai Elmlər Akademiyasının dinləyicisi, eyni zamanda ÜKP (b) MK aparatının əməkdaşıdır. O, ən görkəmli ittifaq dərəcəli partiya kadrları sırasına daxildir. 1950- ci ildə o, Bakıya məsul dövlət vəzifəsinə – Azərbaycan Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsinə dəvət edilir»…

Lakin onun…

«…Artan nüfuzuna aqressiv münasibət bəsləyən Bağırov onu siyasi səhnədən uzaqlaşdırmaq qərarına gəldi. Belə bir təcrübə isə «xozeyn»də nə qədər istəsən, vardı. Bu məkrli niyyətini həyata keçirmək üçün o, çoxdankı dostu və hamisi qüdrətli L.P.Beriyaya bel bağlayırdı. Onun iştirakı olmadan Əziz Əliyev kimi məşhur və parlaq bir liderin təmiz adını ləkələməyə Bağırovun cürəti çatmazdı…

Və budur, Respublika Kommunist Partiyası MK bürosunun 12 iyun 1951- ci il tarixli qərarı ilə M.C.Bağırov ilk zərbəsini endirir: «Qohumlarının və yaxınlarının həqiqi sosial vəziyyətini tərcümeyi- halda və digər sənədlərdə gizlətməklə partiyanı aldatdığına görə şiddətli töhmət elan olunsun»…

Və beləliklə, Əziz Əliyevin qarşısına keçilməz maneələr çıxır…

Həmin illərdə tale Zərifə xanımı Heydər Əliyevlə rastlaşdırır…

Və kitabın beşinci fəsli də «Zərifə və Heydər» adlanır…

«…1949- cu ildə Zərifə Əliyeva Bakıya qayıdır. Bir ildən sonra da – Heydər Əliyev. Ayrılıq onların hisslərini bir az da gücləndirmişdi və Heydər ailə qurmağı qərara alır.

Hər şey yaxşı idi, bircə ev məsələsi problem idi – dövlət təhlükəsizliyi zabiti qardaşları və anası ilə İçərişəhərdə yarımzirzəmi bir evdə yaşayırdı. Zərifə ilə Heydər tez- tez görüşürdülər. Və getdikcə qəlbən daha aydın şəkildə başa düşürdülər ki, onlar öz səadətlərini tapıblar. Xalq arasında belə bir deyim var: «Onların ulduzu qovuşub».

1952- ci ildə mənzil problemi həll olundu: Heydər Əliyev intizarla gözlənilən ikiotaqlı mənzili aldı. Amma… artıq oxucuya məlum olduğu kimi, Əziz Əliyevin ailəsinin üstündən rəzil M.C.Bağırovun «domokl qılıncı» asılmışdı…

İndi anlamaq, təsəvvür etmək çətindir, amma o illər elə illər idi ki, hakimiyyətin özbaşınalığı ilə nəinki insanın xidmətinə, yaradıcılıq və ya elmi karyerasına, hətta şəxsi həyatına istənilən anda son qoyula bilərdi. Öz taleyini Zərifənin taleyi ilə birləşdirməyi qərara almaqla Heydər Əliyev rejimin ən qüdrətli və nüfuzlu əlaltılarından biri olan M.C.Bağırova meydan oxuyurdu. Dövlət təhlükəsizliyi zabitinin belə bir addımının nəticələrini qabaqcadan tam dəqiqliyilə bilmək mümkün idi, lakin o, geri addım atmır. Heydər Əliyev sevdiyi qadının yanında olmaq hüququnu qorumağı qərara alır»…

Dünya paradokslarla dolu imiş… Ancaq «haqqın da bükülməz beli, dönməz üzü varmış» (Məhəmməd Hadi)…

«…Əziz Əliyev ədalətin bərqərar olduğu günədək yaşadı. O, 1956- cı ildə dünən ona zülm edən qəddar şəxsin məhkəmə prosesini gördü. M.C.Bağırovla birlikdə müttəhimlər kürsüsündə general Stepan Yemelyanov da əyləşmişdi. Rütbədən salınmış general iyirmi beş il həbs cəzası aldı. Yetmişinci illərdə cəzasını çəkib Bakıya qayıdan Yemelyanov mənzil probleminin həll olunması ilə bağlı kömək etməsi üçün Azərbaycan KP MK- nın birinci katibi Heydər Əliyevə müraciət etdi… Dünyanın işləri belədir… Ya da tarixin məhkəməsi adildir…

Heydərlə Zərifənin məhəbbəti isə qismətlərinə düşən sınaqlardan alnıaçıq çıxaraq onların ailəsini nurlandırdı. 1954- cü ilin noyabrında gənclər kəbin kəsdirdilər və bu yaxınlarda Heydər Əliyevin DTK-dan aldığı mənzildə sadə bir toy mərasimi keçirdilər.

Əziz Məmmədkərim oğlu Heydər Əliyevi birinci dəfə görərkən onun təkcə qabiliyyətli kürəkən yox, həm də gələcəyin parlaq dövlət xadimi olacağını uzaqgörənliklə bilmişdi: «Ay Leyla, bu Heydər çox böyük adam olacaq…» - Ailədə bu gənc və istedadlı zabitin görünməsi taleyin bir mərhəməti idi.

Dövlət təhlükəsizliyi əməkdaşı Heydər Əliyev bu ailənin sevimli qonağı olduğu zaman isə insan tanımaqda nəhəng bilik və təcrübəyə malik olan Əziz Əliyev təkrar etmişdi: «Bu oğlan əsl qızıl külçədir, onun parlaq gələcəy var».

Heydərlə Zərifə anlayırdılar ki, onların görüşü həyatın nadir hədiyyəsidir»…

«Xatirələr, xatirələr…» adlı altıncı, «…Yaxşılıq etməyi bacaran» adlı yeddinci, «Köklər» adlı səkkizinci və «Kondisionerlər və… oftalmoskop» adlı doqquzuncu fəsillər Zərifə xanımın öz valideynlərindən – ailəsindən aldığı xeyirxahlıq missiyası barədəki çoxsaylı xatirə - örnəklərdən bəhs edir…

Kitabın onuncu fəsli «Məhəbbət əfsanəsi» adlanır…

«…Oğlu İlhamın ailə sevinci Zərifə xanımı qanadlandırırdı, qaynana və gəlin münasibətlərində xüsusi istilik, zəriflik və həssaslıq var idi. Gənc gəlin, yenicə ailə həyatına qədəm qoymuş Mehriban xanım da müdrik ev sahibəsindən dərs alırdı, belə demək mümkündürsə, böyük məktəb keçirdi. Ümid edirəm ki, Mehriban Əliyevanın «İzvestiya» qəzetinin müxbiri Oleq Seqanova 31 may 2005-ci ildə verdiyi müsahibə oxucularımız üçün çox maraqlı olacaqdır:

*« – Siz ixtisasca həkim oftalmoloqsunuz. Sənətinizi unutmamısınız ki?»*

- Mən uzun müddət ixtisasım üzrə işləməmişəm, buna görə, təbii ki, çox şeyi unutmuşam. Oftalmologiya təbabətin elə bir sahəsidir ki, fasilə sevmir. Bir-iki ay fasilədən sonra buraxılanların bərpa olunmasını tələb edir.

- *Sizin peşə seçiminizə nə təsir etdi?*

- Anam şərqşünas alim idi. Amma o həkim olmaq istəyirmiş və orta məktəbi bitirdikdən sonra sənədlərini Tibb İnstitutuna verib. Lakin hansı səbəblərdənsə valideynləri bunun əleyhinə olublar və anamın fikrini dəyişdirə biliblər. Nəticədə, o, filoloq olub. Məhz anamın bu baş tutmamış arzusu mənim seçimimi müəyyən etdi. Həm də ixtisas seçimində mənə İlhamın anası – həkim oftalmoloq Zərifə xanımın böyük təsiri olmuşdur. Təəssüf ki, Zərifə xanımla bizim ünsiyyətimiz uzun çəkmədi. Biz 1983- cü ildə tanış olduq, 1985- ci ildə isə Zərifə xanım vəfat etdi. Bu istedadlı və gözəl qadının xatirələri hələ də mənimlədir»…

«Vidalaşma» adlanan on birinci fəsildə Müslüm Maqomayevdən belə bir xatirə verilir ki…

«…Müslüm Maqomayev xatırlayır: «Heydər Əliyev yoldaşına «Zəriş» deyirdi. Zərifə xanım onun ardınca daban- dabana gedərdi. Bizim yanımızda ona adı və atasının adı ilə müraciət edərdi: «Heydər Əliyeviç, bundan sizin üçün kifayət edər… Bundan sizə olmaz…» Bir dəfə belə bir hadisə olmuşdu. Mən bir məsələ barədə Heydər Əliyevlə danışmaq üçün Bakıya gəlmişdim. Çox da mühüm deyildi, amma mən məsələ barədə Heydər Əliyevlə danışacağıma söz vermişdim. Gələn kimi Rafael Allahverdiyevə zəng etdim və dedim: «Heydər Əliyevə deyin ki, mən Bakıdayam». – «Baş üstə».

Mən bir gün, iki gün, üç gün gözlədim, bir xəbər çıxmadı. Axırda Zərifə Əliyevaya zəng etdim ki, Moskvada təcili işlərim var, yubana bilmərəm, amma Heydər Əliyevlə cəmi beşcə dəqiqə danışmaq lazımdır. Bu işdə mənə bir kömək edə bilməzsinizmi?»

«O, hələ səni qəbul etməyib? Bir dəqiqə gözlə».

Yəqin mənim o biri tərəfdə hər şeyi eşitdiyimi unutmuşdu, o biri telefonda Heydər Əliyevə narazılıq etməyə başladı: «Heydər, oğlan zəhmət çəkib ordan bura gəlib, məgər sənin ona beş dəqiqə vaxt ayırmağa imkanın yoxdur?» Bu sözlər elə bir tonda deyilmişdi ki, mən onların bir- birinə nə qədər yaxın olduğunu anladım. Onun tez- tez istifadə etdiyi «Heydər Əliyeviç» ifadəsi isə kənar adamların yanında etiketə riayət etmək üçün idi.

Zərifə xanım şənliyi, zarafatcıllığı sayəsində məclisin canı olardı. Ağıllı və həyatsevən idi, yaxşı musiqi duyumu var idi, qəşəng royal çalardı. Həkim olmasaydı, siyasətçi arvadı olmasaydı, yəqin ki, musiqiçi olardı»…

Zərifə xanımın qardaşı, akademik Cəmil Əliyev isə xatırlayır ki…

«…Onun ailə üzvlərinə – Sevilə, İlhama, nəvələrinə (Leylaya, Arzuya) qarşı çox həssas, son dərəcə incə münasibəti var idi. Xəstəliyinin şiddətləndiyi o ağır günlər kino lenti kimi gözümün qabağından keçir. Hamını sakitləşdirirdi: «Mən yaxşıyam, özümü lap yaxşı hiss edirəm, narahat olmayın. İlham, Sevil, Mahmud gedin, işinizlə məşğul olun, işinizdən qalmayın. Mənə görə ürəyinizi sıxmayın…» Yaxınları, qohumları baş çəkməyə gələndə onları sağlam olduğuna inandırmağa çalışırdı, yatağından qalxır, otururdu. Bir həkim kimi, mən bilirəm ki bu, onun

üçün nə demək idi. Heç vaxt yadımdan çıxmaz… bacımın zəif, sakit, amma əvvəlki mehribanlığını itirməmiş səslə dediyi son sözləri indiyə qədər qulaqlarımdadır…

O, günü- gündən göz qabağında şam kimi, sakit ulduz kimi əriyirdi. Mənim bacım Zərifə sönürdü. O, yazda dünyaya gəlmişdi və doğum gününə bir ay qalmış sonsuz dərəcədə çox sevdiyi insanlardan ayrılaraq gözlərini əbədi olaraq yumdu…

Hamımız hiss edirdik ki, dünyada onun üçün ayrılmış vaxt başa çatmaq üzrədir, o, son günlərini, saatlarını yaşayır. Yazda dünyaya gəlmiş bacım sevdiyi çiçəklərin əhatəsində idi… Mənə elə gəlir ki, o özü də bu dünyaya haradansa, güllərlə, nərgizlərin ətri ilə dolu, son dərəcə gözəl və təsvirə sığışmayan bir aləmdən gəlmişdi… Və o yaz günü – 15 aprel 1985- ci ildə bacım, Azərbaycan güllərinin əhatəsində Moskva qəbrstanlığında əbədi olaraq həmin gülər və çiçəklər səltənətinə geri döndü»…

On ikinci fəsil «İnsanlar üçün miras qoyulmuş nur» adlanır. Və həmin fəsildə göstərilir ki…

«…Mən xəstələrin üzlərindən görürdüm ki, Zərifə xanım onları necə sakitləşdirir, necə ürək- dirək verir, çəkdikləri əzabı unutdurmağa çalışır. Çox güman ki, bir çox pasientin sağalmasında təkcə terapiya yox, onun məntiqinin gücü də, dəlillərin inamlılığı da böyük rol oynamışdır. Onun nadir inandırma qabiliyyəti var idi, ən çətin məqamda o, xəstəni ayağa duracağına inandıra bilirdi. Mən bunu öz üzərimdə sınaqdan keçirmişəm…

İnsanlar onun yanına cürbəcür xahişlərlə gəlirdilər. Onun necə səbrlə dinlədiyi, gücü çatdıqda kömək etdiyi, heç kəsə qarşı, xüsusilə də yardıma ehtiyacı olanlara qarşı laqeyd qalmadığı mənim yaxşı yadımdadır. Qonşuların qəddarcasına incitdiyi yaşlı bir xadiməmiz vardı. Zərifə Əliyeva həmin qonşuları yanına çağırdı və çox incə şəkildə o qadını bir daha incitməmələrini onlardan xahiş etdi. Sonra həmin qadın Zərifə xanıma təşəkkür etməyə gəlmişdi. Söz- söhbətdən, əziyyətlərdən zinhara gəlmiş qadının üzü gülürdü, özünü yenə də insan hiss edirdi.

Zərifə xanım həmişə tələsirdi, elə bil taleyin ona qarşı simiclik etdiyini və ömrünün az qaldığını hiss edir, buna görə də hələ görülməli çox iş olduğunu

düşünürdü. Həqiqətən də, o, istər elm sahəsində, istərsə də praktik həkimlik fəaliyyətində zirvələri qət etmişdi. Zərifə Əliyeva çox gözəl pedaqoq idi, öz bilik və təcrübəsini həvəslə bölüşürdü. Görmə orqanının patologiyasına həsr olunmuş mühazirələri xüsusilə məzmunlu idi, daim tədrisin əyaniliyinə çalışaraq həmin mühazirələrə çox diqqət verirdi»…

(P.Məlikaslanova).

İlham Əliyevin 1995- ci ildə «Günay» qəzetinə müsahibəsindən…

*« - Siz dediniz ki, məktəbə altı yaşında getmisiniz. Onda sizi məktəbə kim apardı, əlinizdən kim tutdu?*

- Anam.

- *Zərifə xanım xatirənizdə necə qalıb?*

- Ən əziz adam kimi. O, vəfat edəndən sonra istər mənim həyatım, istərsə də ailəmizin həyatı dəyişdi. Yəni mən daha qabakı kimi, onun sağ olduğu vaxtlardakı kimi gülə bilmirəm. Vəfatından on ildən çox keçsə də, indi də həyatımda sevindirici bir şey olanda deyirəm ki, o da kaş buna sevinə biləydi. O, vəfat edəndə mənim böyük qızımın bir yaşı var idi. Mənim qızlarımın nənələrini görməmələri onların tərbiyəsi üçün böyük itkidir…»

On ikinci fəsil aşağıdakı sətirlərlə bitir…

«…Fikirləri bizim hekayətimizdə təqdim edilən N.Şulpina gözəl elm xadimi və parlaq şəxsiyyət barədə rusiyalı həmkarlarının fikrini aşağıdakı sözlərlə tamamlayır: «Zərifə Əliyeva bizim gözümüzün nuru, geniş profilli alim idi, o, Azərbaycanın səhiyyə kadrlarının ocağı idi… Xalqının xoşbəxtliyi, tələbə və pasientlərinin sevgisi və təşəkkürü onun var- dövlətidir. Biz onu sevmişik, sevirik və ömrümüzün sonuna qədər də sevəcəyik».

1993- cü ilin iyununda Heydər Əliyev xalqın tələbi ilə Naxçıvandan Bakıya dəvət olundu və ikinci dəfə – artıq müstəqil, suveren Azərbaycanın rəhbərliyinə gətirildi.

Bir ildən sonra Zərifə Əliyevanın nəşi Moskvadan Bakıya gətirildi. Heykəltəraş Ömər Eldarov tərəfindən doğma torpağındakı son mənzili üzərində yaradılmış ağ mərmərdən olan «Elegiya» və Zərifə xanımın tunc heykəli onun

parlaq obrazını – ana, alim, həyat yoldaşı, gözəl Azərbaycan qadını obrazını canlandırır»…

On üçüncü fəsil «Unudulmaz» adlanır…

Və burada Heydər Əliyevin 28 aprel 2001- ci ildə Zərifə xanımın xatirəsinə həsr olunmuş gecədəki çıxışı xatırlanır…

«…Bəlkə də, mənim qədər onu tanıyan, onu hiss edən başqa bir insan yoxdur. Əlbəttə, valideynləri ona həyat verib boya- başa çatdırıblar, təhsil veriblər, amma birgə həyatımızdan sonra mənim onun haqqında düşüncələrim onun haqqında deyilənlərdən qat- qat genişdir. Lakin mən burada heç nə dilə gətirmək istəmirəm. Onlar hamısı mənim qəlbimdə, dünyasını dəyişmiş insanı tanıyanların qəlbində yaşayır. Siz isə, əziz incəsənət ustaları, elm xadimləri, Zərifə xanımla bağlı mənim qəlbimdəki duyğuları oyatdınız. Belə fikirləşirəm ki, zəhmət çəkib bu məclisdə iştirak etməyə və bununla da Zərifə xanımın necə gözəl insan olduğunu bir daha təsdiq etmək üçün gəlmiş insanları da həyəcanlandırdınız. Siz onun haqqında çox söz dediniz, hələ çox söz də demək olar. Amma o, mənim üçün ilk növbədə böyük qəlbli insan idi. Zərifə xanım mənim qəlbimdə sadiq bir həyat yoldaşı kimi, mənim ailəmin əziyyətini çəkmiş, övladlarımı, nəvələrimi böyütmüş sevən bir ana kimi, fədakar bir insan kimi yaşayır.

…Bu günü ailədə, yalnız ailə daxilində həmişə qeyd edirik. Bunu xüsusi olaraq, qeyd etmək istəyirəm. Çünki ailəmizdə dəbdəbəli qonaqlıqlar, geniş ad günü mərasimləri keçirmək adəti olmayıb. Yəqin ki bu, Zərifə xanımın xarakterindən, həm də mənim xarakterimdən irəli gəlirdi.

Amma bu gün onun ad günüdür. Allahın qisməti belə imiş, o, apreldə dünyaya gəlmişdi, apreldə də dünyadan getdi»…

«Nurun davamı» adlı on dördüncü fəsil Mehriban xanım Əliyevaya həsr olunmuşdur… O Mehriban xanıma ki…

«…Doğma xalqının ləyaqətli qızı obrazının – gözəl ananın, sevilən və sevən həyat yoldaşının, mədəniyyət qoruyucusunun, böyüyən nəslin qayğısını çəkən qadının təcəssümüdür, onun həyatı, mənəvi və vətəndaşlıq nümunəsi yüksək ailə

ənənələrinin canlı təzahürüdür, unudulmaz Zərifə xanım Əliyevanın vəsiyyətlərinin təzahürüdür. Nurun davamıdır»…

«İlham Əliyev: O həmişə mənim qəlbimdədir» adlanan on beşinci fəsildə Azərbaycan Prezidenti İlham Əliyevin öz sevimli anası haqqındakı sözləri xatırlanır…

«…Zərifə xanımın yüksək ailə missiyasını davam etdirmək Mehriban xanımın payına düşüb və o, öz vəzifəsinin öhdəsindən ustalıqla gəlir.

Yenə də İlham Əliyevi dinləyək: «Anamın həyat fəlsəfəsinin köklərini hər şeydən əvvəl onun uşaqlığında axtarmaq lazımdır. O, bizə tez- tez deyərdi ki, uşaqlıq insan həyatında fövqəladə dərəcədə mühüm dövrdür və onu heç nə əvəz edə bilməz. Uşaqlıq elə bir dünyadır ki, insan ora həmişə boylanır, xatirələrin köhlən atına minib o məmləkətə yollanır. İnsan xeyirxahlığı və ürəyiyananlığı uşaqlıqda öyrənir. Onun çox xoşbəxt uşaqlığı keçib, uşaqlığı onun yaddaşında sevgi ilə dolu bir dövr kimi, ən əziz xatirələrin mənbəyi kimi qalmışdır.

Anamın ailəsi həmin dövrün ən ziyalı təbəqəsinə mənsub olub. Uşaqların yanında edilən söhbətlər əksər hallarda cəmiyyətin mənəvi həyatının bir çox tərəfini əhatə edirdi. Bu ailədə uşaqların tərbiyəsinə xüsusi əhəmiyyət verilmişdir. Dil və musiqi öyrətməkdən əlavə, onlara daxili inkişafa cəhd də öyrədilmişdir.

Atası Əziz Əliyevin qeyri- adi həyatı Zərifə xanım üçün doğma xalqının tarixinin bir hissəsi idi. Həkim peşəsinin etikasına həsr olunmuş kitabının fəsillərindən birinə anam «Fədakar insanlar günəş kimi lazımdır» adını vermişdi. Bu frazaya müraciət onun rus mədəniyyətinə münasibəti ilə bağlı idi. Bütün həyatı boyu o, Çexovu və Raxmaninovu sevmişdi. Əgər bir həkim olaraq onun üçün cəmiyyətə Çexov baxışı çox yaxın idisə, Raxmaninovun musiqisi anama daxili hüzur verirdi, boş vurnuxmalardan təmizləyirdi, öz- özü ilə harmoniya yaradırdı.

Ailədə nənəm Leyla xanımın təsiri çox güclü hiss olunurdu. Zərifə xanım ondan çox şey öyrənmişdi. Adama elə gəlirdi ki, o, hər şeyi etməyi bacarır: əla kulinar kimi yemək bişirir, elmi işlə məşğul olur, şövqlə oxuyur, incə və sadə olmağı bacarırdı.

Həyat Zərifə xanımı elə bir insanla rastlaşdırdı ki, bu görüş nəticəsində onun bütün həyatı dəyişdi. Bir yerdə olmaq üçün daha hansı sınaqlardan keçmədilər – hakimiyyətin qəzəbinə gəlmiş siyasi xadimin qızı və böyük ümidlər verən dövlət təhlükəsizliyi sisteminin gənc əməkdaşlarından biri! Bu, onların «şəxsi sirridir».

Bizimlə keçirdiyi son günlər, artıq o özü də bilirdi ki, həyatı sona doğrudur, ömrü tükənir, bütün həkimlər kimi özünə qarşı da açıq idi və heç nəyi gizlətmirdi. Qəlbi həmişəki kimi nurlu idi. Ölüm haqqında fikirlər onu qorxutmurdu. Daha çox tərk edib gedəcəyi insanlar üçün nigaran olurdu. Gücü günü- gündən tükənirdi. Bütün həyatını keçirdiyi dilsiz bir qürurla əriyirdi. Bü ölüm özü belə yaşadığı həyat kimi adamda hörmət hissi yaradırdı. O, gözəl anlayırdı ki, əbədiyyətin qarşısında bütün xırda- xuruş, fani, ötəri şeylər geri çəkilir, yalnız xeyir əməllər qalır. Məhz bu, onu sakitləşdirirdi.

Anam əsl alim idi. Təbabətin bütün sirlərini öyrənməyə çalışırdı. Üstəlik, mənimlə və Sevillə məşğul olmağa, bizi layiqli Azərbaycan vətəndaşı kimi yetişdirməyə, böyütməyə də vaxt tapırdı. O, həmişə mənim qəlbimdədir»…

«Zərifə Əliyeva» kitabının sonuncu fəsli «Vəzifə – Qismət – Həyat» adlanır ki, bu fəsil aşağıdakı şəkildə bitir…

«…Dahi mütəfəkkir Hegel bir zaman insanın özü qarşısında, ailəsi qarşısında, dövləti qarşısında, digər insanlar qarşısında borcu barədə yazmışdır. Daxili borcu hiss etmək, ona riayət etmək, filosofun fikrincə, insanı insan edir, gündəlik qayğılar və işlər arasında ucaldır. Zərifə xanım dünya həyatından payına düşən illər ərzində bu çətin və ail vəzifəni yerinə yetirməyin ən gözəl nümunəsi olmuşdur…

*Son məktub*

«Mənə görə narahat olma, uşaqlara yaxşı bax. Unutma ki, mən səni sevirəm…

Hüseynbala Mirələmovun «Zərifə Əliyeva» kitabı «Əbədiyyət dastanı» ilə başa çatır…

«…Əliyevlər ailəsinin qapısından gəlin kimi daxil olan Zərifə xanım hələ onda zəngin insani keyfiyyətlərə malik idi. Təvazökarlıq, intellekt, ailəyə sədaqət,

milli qürur, həyat yoldaşına olan tükənməz məhəbbət, sarsılmazlıq və sonsuz vətən sevgisi onun qəlb xəzinəsinin ən saf cəvahirlərindən idi.

Bu ailə böyük sevgi üzərində qurulmuşdu. Təsdiq etmək lazımdır ki, Heydər Əliyev kimi iradəli bir şəxsiyyətin məhəbbətinə layiq olmaq təkcə xoşbəxtlik deyil, həm də böyük bir məsuliyyətdir. Belə bir şey hər qadına nəsib olmur. Yalnız seçilmiş bir qadın belə bir şəxsin sevgisinə layiq ola bilərdi! Ömrünün sonlarına yaxın Heydər Əliyev Zərifə xanıma bəslədiyi duyğular haqqında böyük məhəbbətlə söz açır, onun vaxtsız vəfatını böyük hüznlə xatırlayırdı. Onların bu qarşılıqlı məhəbbəti cəsarətlə deyə bilərik ki, müqəddəs ailənin yaranmasının səbəbi olmuşdu. Ona görə müqəddəs ki, bütün millət üçün nümunə və fəxrdir!

Zərifə xanım heç vaxt Heydər Əliyev şəxsiyyətinin arxasında gizlənməmişdir. Əksinə, öz xarakteri ilə, çalışqanlığı, yorulmadan işləməyi ilə, ağlı, iradəsi və xeyirxahlığı ilə o özünün canlı heykəlini ucaldırdı»…

Və annotasiya…

«Zərifə Əliyeva (1923- 1985) Azərbaycan KP MK- nın birinci katibi (1993-cü ildən prezidenti) Heydər Əliyevin həyat yoldaşı, respublikanın bugünkü prezidenti İlham Əliyevin anası olmuşdur. Lakin o, təkcə bununla tanınmır və təkcə buna görə bütün ölkədə sadə fəhlə və qulluqçudan dövlət və partiya xadimlərinə, elmi və yaradıcı ziyalılara qədər hamının sevimlisi deyildi. Onun bütün həyatı insanlara xidmət etməyə həsr olunmuşdu; görkəmli alim- oftalmoloq, tibb elmləri doktoru, akademik, gözəl alim – və eyni zamanda həssas və qayğıkeş pedaqoq, müəllim, müdrik rəhbər. Bu gözəl qadının həyat yolu haqqında hekayə arxiv materialları, onu yaxından tanıyan insanların xatirələri əsasında qurulmuş və qəhrəmanın obrazını tam açmağa kömək edən fotoşəkillərlə tamamlanmışdır».

*

*     *

Hüseynbala Mirələmovun Mehriban xanım Əliyevaya həsr olunmuş kitabı «Missiya» (Bakı, 2014) adlanır…

Kitaba «Ön söz» yazmış Şeyxülislam Allahşükür Paşazadə göstərir ki…

«…Mehriban xanım Əliyevanın yerinə yetirdiyi ictimai, siyasi və mədəni missiya tarixi fenomendir və bir Şeyxülislam kimi mənim üçün çox önəmlidir ki, qloballaşan dünyamızda müsəlman qadını haqqında yanlış düşüncəni ortadan qaldıran, qadını islami dəyərlərdəki ucalıq zirvəsinə yetirən qüvvə, Allahın bir neməti olaraq bizim birinci xanımımızda cəmləşmişdir. Onun rəhbərlik etdiyi Heydər Əliyev Fondunun müqəddəs məkanların tikintisi və bərpası, müsəlman ziyarətgahları ilə yanaşı xristian və yəhudi dini abidələrinin abadlaşdırılması sahəsində gördüyü işlər bir azəri xanımın dünyaya bəyan etdiyi yüksək tolerantlığın nümayişidir. Mehriban xanım bu gün dünyamızın xilası kimi görünən tolerantlığı, millətlər və dinlər arası dialoqu, multikulturalizm prinsiplərini daima diqqət mərkəzində saxlamaqla Azərbaycanın beynəlxalq nüfuzuna yenilməz zəfər qazandırır.

Böyük və nəcabətli ailə ocağının qızı, gəlini, xanımı və anası olan Mehriban xanım Əliyevanın timsalında biz Azərbaycanın bu gününün və sabahının ucalığını təmin edən möhtərəm Prezidentimiz Zati- aliləri İlham Əliyevin fədakar yardımçısını görürük. Əslində Mehriban xanım öz nümunəsi ilə ən böyük nailiyyətimiz olan müstəqillik tariximizin yaradıcısı və qurucusu Heydər Əliyevin ənənələrini qoruyan və inkişaf etdirən ictimai xadim zirvəsini xalqın könlündə fəth etmişdir»…

Və əlavə edir…

«…Tarixi dəyərləndirmək – özü də bir tarixdir. Şadam ki, Mehriban xanım haqqında kitab yazmaq fikri uzun illərdən bəri tanıdığım qələm sahibi, millət vəkili Hüseynbala Mirələmova nəsib olmuşdur. Mehriban xanım Əliyeva kimi bir şəxsiyyət haqqında kitab yazmaq- onun tarixi missiyasını dərk etmək deməkdir. Əminəm ki, xalqımızın, dövlətmizin yüksək nüfuzu və tərəqqisi naminə bu qədər layiqli işlər görən, təqdirəlayiq fəaliyyət göstərən nəcib insanları Allah- taala özünün kəraməti ilə, tarix isə əbədi minnətdarlıq yaddaşı ilə mükafatlandıracaqdır.

Vəssalamu əleyküm və rəhmətullahi bərəkatuh!..»

Kitaba «Müəllifdən» adlanan ikinci bir ön söz də verilmişdir.

Həmin ön sözə Andre Moruanın «Dünayaya gəlməkdə  insanın məqsədi özünə əbədi şöhrət qazanmaqda deyil, ömrün hər gününün kiçik bir əbədiyyətə çevirməkdədir» sözlərini epiqraf gətirən müəllif söhbəti böyük tarixi şəxsiyyətlərin ilahidən gələn missiyası ilə başlayır…

Və göstərir ki…

«…Bir missiya da var – Heydər Əliyev  missiyası.

…O, üzərinə düşən tarixi bir missiyanı bu qüdrətin işığında şərəflə yerinə yetirdi. Müstəqil Azərbaycan dövlətini qurub yaratdı. Milli dövlətçiliyimizin əsaslarını möhkəmləndirdi.  Azərbaycanı dünyaya çıxardı.

Müstəqilliyinin daimiliyi, əbədiliyi, dönməzliyi təmin olunmuş milli dövlətimizi əmin əllərə tapşırdı. Azərbaycanın işıqlı  gələcəyi naminə başa çatdıra bilmədiyi işləri müqəddəs missiyanın  davamı kimi mənəvi irsinin varisi – Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə həvalə etdi.

İlham Əliyev isə belə bir inamın, güvənin gücü ilə tarixin ən qüdrətli Azərbaycanını yaratdı. Bu da yeni bir missiyadır və əzmlə davam etdirilən bu missiya Azərbaycanı hər gün ümidlərimizdəki xoşbəxt günlərinə doğru bir addım da yaxınlaşdırır. Bir zamankı  arzularımızı addım- addım gerçəyə qovuşdurur.

Müasir tariximizin yaradıcılarından olan bir şəxsiyyətin  missiyası da böyük maraq doğurur. Mehriban xanım Əliyevanın missiyası»…

«Missiya» kitabının birinci fəsli «Məhəbbət artırar» adlanır… Və bu fəsildə adın semantikasına gedildikdən sonra deyilir…

«…Mehriban sözünün daşıdığı mənalar, Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti, YUNESKO  və İSESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban xanım Əliyevanın ictimai obrazına çox uyğun gəlir.

Və əgər son onillikdə Azərbaycan ailələrində yeni dünyaya gəlmiş qız övladlarına qoyulan adların statistikasını nəzərdən keçirəsi olsaq, Mehriban adının Azərbaycan insanlarının qəlbinə necə doğmalıqla nüfuz etdiyini, öz ilkin mənalarından  əlavə həm də mərhəmət, xeyirxahlıq, nəciblik, arzu, ümid məzmunu ilə assosiasiya olunduğunu görəcəyik.

Bu, əsərimizin qəhrəmanının öz həyat və fəaliyyət tarixi ilə valideynlərinin bir zamanlar ona yaraşdırdıqları Mehriban adına qazandırdığı yeni taledir»…

«Şəcərə» adlanan ikinci fəsildə Mehriban xanım Əliyevanın şəcərəsindən danışılır… Və onun babaları böyük ədib – «ən böyük əsərim mənim ailəmdir» deyən professor Mir Cəlal və jurnalist, professor Nəsir İmanquliyev xatırlanırlar.

Müəllif göstərir ki…

«…1982- ci ildə İlham Əliyevlə Mehriban xanım Əliyevanın ömür yollarının qoşalaşmasına həm Azərbaycanın birinci şəxsi Heydər Əliyev və həkim- akademik Zərifə xanım Əliyevanın, həm də fizik- akademik Arif Paşayev və şərqşünas- professor Aida xanım İmanquliyeva ailələrinin razılığı, təmiz soy- kökə, yüksək ictimai nüfuza malik iki ziyalı nəslin izdivacına taleyin özünün verdiyi xeyir- dua idi»…

Mir Cəlal müəllim mənim sevimli müəllimim olub, Nəsir müəllimi də, təbii ki, yaxşı tanıyırdım…

Sən demə, «Missiya» müəllifi Hüseynbala Mirələmov Nəsir İmanquliyevi daha yaxşı tanıyırmış…

«…Taleyin xoş qismətindən həmin illərdə ustad sənətkarla işləmək, onun söz yaradıcılığı ilə yaxından tanış olmaq imkanı əldə etmişəm. Nəsir müəllimlə tanış olduğum günü yaxşı xatırlayıram. 1965- ci ilin oktyabr ayı idi. O vaxt Azərbaycan Politexnik İnstitutunun birinci kursunda oxuyurdum. Orta məktəbin üçüncü sinfindən ştatdankənar əməkdaşlıq etdiyim «Azərbaycan pioneri» qəzeti redaksiyasına ilk dəfə idi ki, baş çəkirdim.

Katibə qız daxili telefonla baş redaktor Əmrah Əmrahova gəldiyimi bildirdi. Çox həyəcanlı idim. İçəri daxil olanda Əmrah müəllimin yanında ucaboylu, nurani bir kişini görüb bir az da həyəcanlandım. Görüşdük. Əmrah müəllim mənimlə hal- əhval tutandan sonra ucaboylu kişiylə tanış etdi: «Bakı» və «Baku» qəzetlərinin baş redaktoru Nəsir İmanquliyevdir», - dedi və mənim ona texniki ali məktəb tələbəsi olduğumu, həm də kiçik hekayələr yazdığımı bildirdi.

Nəsir müəllim mənimlə mehriban görüşdü və xoş təbəssümlə bildirdi ki, dünyanın bir çox görkəmli yazıçıları qeyri- humanitar ixtisasların sahibləridir: Dostayevski, Çexov, Aytmatov…

Nəsir müəllimlə tanışlıq ilk gündən məndə xoş təəssürat yaratdı.

Hər dəfə «Bakı» qəzeti redaksiyasına gedib onunla görüşəndə, ağıllı məsləhətlərini, tövsiyyələrini dinləyəndə mənim iç dünyam zənginləşir, ondan müsbət enerji alırdım.

…Aradan illər ötdü. Ali məktəbi bitirib istehsalatda çalışdım. Nəsir müəllimlə Lənkəranda, dostum, elmlər doktoru Əyyub İsgəndərovun evində dəfələrlə görüşəcəyimi heç ağlıma gətirməzdim. Onlar çox yaxşı dost idilər. Allah hər ikisinə qəni- qəni rəhmət eləsin!

Nəsir müəllim xatirimdə həm görkəmli pedaqoq, mübariz jurnalist, həm də xeyirxah, müdrik, ağsaqqal bir şəxsiyyət kimi yaşayır. Redaktoru olduğu «Bakı» qəzeti sözün əsl mənasında böyük institut idi»…

İkinci fəsil bu sözlərlə bitir…

«…Xoşbəxtliyi əqli kamillikdə, təmizlikdə, halal zəhmətdə axtaran Nəsir müəllimlə Gövhər xanımın ailəsi möhkəm təməl üzərində qurulmuşdu. Nizami küçəsindəki 66 nömrəli binada onların birgə ömür sürdükləri mənzil isti bir ocaq, qapısı daim köməyə möhtac insanlara açıq olan ümid, pənah yeri, əsl xoşbəxtlik ünvanı idi…

---

…«Vağzalı»nın həzin ahəngi ilə bu ünvandan bir gəlin köçdü…

Bu mənzildə yaşanmış xoşbəxtliyin, bu ocağın işığının, hərarətinin, mənəvi ruhunun bir parçası böyüklərin xeyir- duası ilə gələcəyə doğru uğurlanan iki gəncin sanki bir də heç zaman ayrılmayacaqmış kimi bir- birindən tutuşmuş əllərində başqa bir ünvana, başqa bir ocağa daşındı»…

Üçüncü fəsil «Ata və ana haqqı» adlanır…

Görkəmli şərqşünas alim Aida İmanquliyevanın – Mehriban xanımın anasının obrazı canlandırılır…

Və Mehriban xanım xatırlayır…

«…O, hədsiz dərəcədə mehriban və kifayət qədər qapalı qadın idi. Anam məndə yüksək məsuliyyət hissini formalaşdırmağı bacarıb… Aida xanım unudulmaz bir şəxsiyyət idi. O, qısa, amma çox parlaq və xoşbəxt həyat yaşamışdır. Azərbaycan qadınına xas olan ən gözəl xüsusiyyətləri özündə cəmləşdirmişdi. Yüksək savadlı, ziyalı, vətənpərvər, prinsipial bir alim, eyni zamanda çox zərif, çox gözəl, bütün sevgisini ailəsinə bağışlayan, hər zaman ürəkdən kömək göstərməyə hazır olan bir qadın idi»…

Müəllif göstərir ki, Aida xanım yalnız şərqşünas- filoloq deyildi, onun elə əsərləri, mülahizələri vardır ki, bütövlükdə fəlsəfi məzmun daşıyır və bugün çox aktual olan Şərq- Qərb dialoqunun miqyasını genişləndirmək, koordinasiya etmək üçün olduqca zəruridir.

«…O, hələ yaşadığı zamanın şərtləri çərçivəsində bu gün bütün dünyada Qərblə Şərqin təmas nöqtəsi, sivilizasiyalararası dialoq məkanı kimi tanınan Azərbaycanın mənəvi modelinə çevrilməyi bacarmışdı. Müasirləri haqlı olaraq Aida İmanquliyevanın bu gün Azərbaycanın köksündə möhtəşəm bir reallığa çevrilən qədim «İpək yolu»nü öz qələmi ilə çəkdiyini qeyd edirlər. Onun əsərlərindən aydın görünən bu yol, Qərblə Şərqi birləşdirən ədəbi- fəlsəfi fikir sistemi, özlüyündə həm dünya mədəniyyətinin, ümumbəşəri mənəvi dəyərlərin öyrənilməsi, həm də və ən başlıcası isə milli özünüdərkin ifadəsi kimi qiymətlidir.

Aida xanım hələ ötən əsrin 70- ci illərində sərhədlərin qapalı olduğu, sovet ideologiyasının at oynatdığı dövrdə Ulu Öndər Heydər Əliyevin xalqın mənəvi ruhunun mühafizəsi üçün böyük fədakarlıqla yaratdığı imkanlardan bərələnərək vətəndaş ziyalı, qüdrətli alim kimi öz sözünü demiş, insanları, dövlətləri İpək Yoluna səsləmişdi»…

Aida xanım intellektual olduğu qədər də gözəl idi. Və böyük Əkrəm Cəfər bu gözəlliyi belə mədh eləmişdi…

*«...Aida baxarsa axar bir suya,*
*O su dəyişilib gülab olacaq.*
*Aidanın əksi düşsə güzgüyə,*

*Güzgünün qucağı güllə dolacaq.*

*O, Həvva olsaydı, cənnətdə İblis*
*Adəmə yüz kərə səcdə edərdi.*
*Züleyxa olsaydı, bütün cavanlar*
*Yusifə dönərdi, Misrə gedərdi.*

*Mən ona səadət diləkçisiyəm,*
*Ensin ayağına elmin meracı.*
*Diləyim budur ki, ölməyim, görüm*
*Mən onun başında doktorluq tacı».*

Müəllif akademik Rafael Hüseynovun xatirələrini yada salır…

«…Rafael Hüseynov xatırlayır ki, «Əkrəm müəllim bu şeiri oxumuşdu və sonra da əlavə etmişdi ki, bax, rübai dörd misradır, Aidanın da adı dörd hərfdən ibarətdir, həyat yoldaşı, dostum Mir Cəlalın oğlu Arifin də adı dörd hərfdir. İki balaları var – ailələri də dörd nəfərdir. Elə bil Allah rübailiyi hər cəhətdən Aidanın alnına yazıb.

1905- ci ildə doğulmuş Əkrəm müəllim 86 illik uzun ömür yaşadı, şeirində arzuladığı günə, Aida xanım İmanquliyevanın 1989- cu ildə doktorluq dissertasiyası müdafiə edərək layiq olduğu yüksək elmi dərəcəni də almasına şahid oldu.

Heyiflər ki, Aida xanımın özünün ömründəki rübai bütövlüyü başacan davam etmədi.

Rübainin bir misrası erkən düşdü. Aida xanımı insafsızca vaxtsız itirdik.

Hələ yaşamalı illərsə qarşıda idi, vur- tut 52 yaşı vardı…»

Mehriban xanımın atası akademik Arif Paşayev böyük fizikdir…

«…İstəsəydi, məhz ədəbiyyat sahəsində atasının böyük nüfuzu altında kölgələnib, zəhmətsiz- əziyyətsiz, öz həyatını rahatca qura bilərdi.

Amma o, yolların ən çətinini seçdi.

Çünki özü üçün ən vacib saydıqlarını, elmi tədqiqata irsi sevgisini, kitabların səhifələrindən gələn özünəməxsus qoxunun məftunluğunu, kitabxananın sakitliyindəki mənəvi rahatlığı atasından əxz edə bilmişdi.

Özü illər sonra xatirələrə dalanda deyəcəkdi:

- Bəlkə də gənclik illərində «niyə», «nə səbəbə» sözlərini anlamırdım, amma lap uşaqlıqdan marağımın filologiyadan kənarda olduğuna məndə əminlik yaranmışdı. Kim bilir, bəlkə də bu, zamanın təsirindən idi. Bizim dövrün gəncləri dünyanın yaranma sirlərini kəşf etməyə can atırdılar. Nə olur, olsun XX əsr texnika əsri idi. Məşhur mahnının sözlərində deyildiyi kimi: Biz nağılı həqiqətə çevirmək üçün doğulmuşuq. Hamımız atom nüvəsi, kosmosun və yerin dərin qatları barədə düşünür, bu barədə daha çox məlumat əldə etməyə çalışırdıq. Biz bütün varlığımızla elmin, zəkanın qüdrətinə inanırdıq…

Fiziklər cəmiyyətdə demək olar ki, «fövqəlqüvvə», «mələk» kimi qəbul edilirdilər. Bizdə böyük ruh yüksəkliyi vardı, özümüzə o qədər inanırdıq ki, istənilən çətinlik bizi sarsıtmır, əksinə, daha da əzmkar edirdi. Bir sözlə, orta məktəb illərində qəbul etdiyim qərar məni elmə gətirdi»…

Arif müəllim öz istedadı, zəhmətilə çoxlu beynəlxalq mükafatlara layiq görülmüşdür…

Müəllif yazır…

«…Amma fikrimcə, mükafatların ən böyüyü həyatın verdikləridir…

Ömrünün 80- ci ucalığında Arif müəllimin dilindən qopan bu iki cümlədir: «Qızlarımla qürur duyuram. Bütün həyatım boyu onlar mənə sevinc bəxş ediblər»…

1962- ci ildə ilk övladının dünyaya gəlişi ilə həyat onların gözündə büsbütün dəyişmişdi. «Nərgiz doğulan kimi həyat yoldaşım və mən sanki bir başqa insana çevrildik: o, balaca bir möcüzə idi. Çox gözəl və olduqca müstəqil bir möcüzə. Beş yaşında artıq onun humanitar təmayüllü olması açıq- aydın görünürdü».

Dünyaya gəlişi ilə Arif müəllimin və Aida xanımın gözündə dünyanı balaca bir möcüzəyə çevirən Nərgiz Arif qızı Paşayeva 1983- cü ildə Bakı Dövlət Universitetinin filologiya fakültəsini bitirdi. 1986- cı ildə «M.Sabirin novatorluğu»

mövzusunda namizədlik dissertasiyası müdafiə edərək filologiya elmləri namizədi, 2004- cü ildə «Müasir Azərbaycan ədəbiyyatında insanın bədii- estetik dərki» (xalq yazıçısı Elçinin yaradıcılığı əsasında) mövzusunda doktorluq dissertasiyası müdafiə edərək filologiya elmləri doktoru alimlik dərəcəsi aldı»…

Kitabın «Sevgidə birləşən ömürlər» adlı dördüncü fəsli ümummilli lider Heydər Əliyevin tərcümeyi- halının (və bu tərcümeyi- halda ehtiva olunmuş tarixi xidmətlərin) xatırlanmasıyla başlayır… Və göstərilir ki, Heydər Əliyev də böyük bir sevgidən yaranmış ailənin başçısı idi…

Beşinci fəsil «Ailə» adlanır ki, burada söhbət İlham Əliyevlə Mehriban Əliyevanın tanış olmalarından, valideynlərinin razılığı, xeyir- duası ilə ailə qurmalarından gedir…

«…O, artıq tanınmış ailənin gəlini idi. Tale bu statusu gələcək dövlət başçısının həyat yoldaşı – ölkənin birinci xanımı, övladlarının anası kimi zaman-zaman yenidən müəyyənləşdirəcəkdi. Amma ağ xalatla vidalaşmamaq da olardı. Göz xəstəlikləri olan insanların müalicəsini, zülmətlə döyüşü, dünyanın ən qiymətli sərvətini – dünya işığını onlara qaytarmaq missiyasını davam etdirmək olardı. Zatən, gənc Mehribanın özünə örnək saydığı Zərifə Əliyeva ömrü boyu bu missiya ilə məşğul olmuşdu. Daşıdığı ictimai statuslar ona maneəçilik törətməmişdi.

Amma tale Mehriban Əliyevanın missiyasını başqa səmtlərə doğru istiqamətləndirdi. Onun gəlin olduğu həmin ailədən dövlət qayğılarının güclü cərəyanları keçirdi, burada ictimai nəbz, millətin arzuları, ümidləri və nigaranlıqları daha aydın duyulurdu.

Görünür, elə bu duyğu da 21 yaşlı Mehribana həyatda öz yerini müəyyənləşdirməyə kömək etdi. Azərbaycanın birinci xanımının ictimai fəaliyyəti bu duyğudan başlandı»…

Gənc ailə böyük sınaqlardan keçdi…

Sınaq isə Tanrıdan gəlir…

«…Onlar Tanrının nəsib etdiyi ömürü məsuliyyətlə, təvazökarlıqla və şükranlıqla yaşayırlar…

…Onlar biri- birlərinə olduqca bağlıdırlar…

Onlar xoşbəxtdirlər…

Onların da qayğıları, sevincləri və kədərləri, böyük arzuları var…

Bu ocağı alovlandıran ata- ana məhəbbəti, bacı- qardaş sevgisidir…

Bu ocağın istisini artıran, şöləsini rövnəqləndirən isə Anadır…

Ataya dayaq, övlada örnək olan ANA…

Elə Mehriban xanım üçün də daşıdığı missiyalar içində ən dəyərlisi məhz ailəsindəki mövqeyidir…

… Amma bu ailənin bir özəlliyi də var: onlar özlərini böyük ailədən – xalqdan kənarda təsəvvür etmirlər.

Xalqın dərdi- sərini qayğı kimi, çətinliyini isə problem tək qəbul edirlər və dərhal da onların həllinə yardımçı olurlar.

Onların hər biri ümid, mərhəmət ünvanına çevrilib.

Həmişə xalqın yanındadırlar, xalq da daim onların yanında»…

«Birinci xanım» adlanan altıncı fəslə, belə bir epiqraf verilmişdir…

«Birinci xanım prezident üçün ən yaxşı partiyadır» (Amerika aforizmi).

Əlbəttə, «birinci xanım (First lady)» və ya «birinci xanımlıq» ənənəsi Qərbdən, ilk növbədə Amerika Birləşmiş Ştatlarından gəlir.

«…Sıravi amerikalı belə düşünürdü ki, onun səs verib öz taleyini etibar etdiyi prezidentin şəxsi həyatının əsas hissəsi olan birinci xanımın mənəvi keyfiyyətləri, sosial maraqları, etiqadları prezidentə təsir göstərə bilər. Ona görə də seçki kampaniyalarında birinci xanımların ictimai obrazı önəmli bir amil kimi mütləq nəzərə alınırdı və elə indi də nəzərə alınır.

Tədricən Qərbin aparıcı ölkələrinin siyasi həyatında zəngin ənənə yaradan birinci xanımların qatıldıqları siyasi- ictimai layihələr bu cəmiyyətlərdə qadın fəallığı ənənələrinin güclənməsinə, ölkə həyatında qadınların rolunun artmasına mühüm təsir göstərirdi.

Bu gün də Qərb cəmiyyətlərini təmsil edən birinci xanımlar qarşısında ənənələrin formalaşdırdığı üç vacib şərt var: mədəni dəyərlərə hamilik, cəmiyyətin

əhval- ruhiyyəsindən və problemlərindən agahlıq, ən əsası isə yüksək zövq sahibi olmaq»…

Cəsarətlə demək olar ki, Azərbaycanda, eləcə də bir sıra həmhüdud ölkələrdə həmin ənənəni məhz Mehriban xanım Əliyeva yaradıb formalaşdırdı.

Burada Qərb mədəniyyətinin təsiri nə qədər əhəmiyyətli olsa da, müəllif «Dədə Qorqud» eposundan bəri Azərbaycan tarixində qadının dövlət idarəçiliyindəki roluna verilən yüksək qiymətdən də bəhs etməkdə tamamilə haqlıdır… Və müəllif onda da haqlıdır ki…

«…Zərifə xanım Əliyeva bir sıra protokol tədbirlərində, səfərlərdə, görüşlərdə, qəbullarda, dövrün qaydalarına uyğun olaraq, adətən, Heydər Əliyevin yanında görünməzdi. Amma mədəni- kütləvi tədbirlərdə, teatr tamaşalarında, konsertlərdə, elm, mədəniyyət, incəsənət təmsilçiləri ilə görüşlərdə cəmiyyət onları qoşa görməyə adət etmişdi. Belə mühitlərdə Heydər Əliyevin xarizması, əsl lider obrazı ilə Zərifə xanım Əliyevanın ana, alim şəxsiyyəti bir- birini tamamlayırdı.

O illərdə Zərifə xanımın birinci xanımlığı hər hansı protokol tələblərini çox-çox aşaraq birinci şəxslə elm adamları, birinci şəxslə mədəniyyət, incəsənət xadimləri, birinci şəxslə – sadə insanlar, küll halında isə birinci şəxslə xalq arasında körpüyə çevrilmişdi…

………………………………………………………………………………

… Mehriban xanımın özəlliyi budur ki, O, Zərifə xanımdan əxz etdiyi bu nəcib mənəvi mirası etibarlı, səmərəli və inamlı tərzdə davam etdirir. Azərbaycanın müstəqilliyi illərində, ölkəmizin ən qüdrətli dönəmində Azərbaycanda birinci xanımlıq ənənələrini formalaşdırır və bu ənənələri milli dövlətçilik irsimizə çevirir»…

Məlum olduğu kimi…

«…Mehriban xanım Əliyevanın Azərbaycanın birinci xanımı kimi 2003- cü ilin oktyabrında keçirilmiş prezident seçkisinə hazırlıq kampaniyası dövründə başlanan tarixi missiyası isə Prezident İlham Əliyevin rəhbərliyi dönəmində Azərbaycanı gözləyən xoşbəxt gələcəyə doğru qapı açdı. Tanrının insana ziynət

kimi əta etdiyi hissləri – sevgini, mərhəməti, humanizmi həyatımızın əsas dəyərlərinə çevirdi.

O öz missiyasının icrasına başlayanda Qərb cəmiyyətlərindən fərqli olaraq Azərbaycanda Birinci Xanım statusu daşıyan şəxsin davranış normaları, yerinə yetirməli olduğu vəzifələrlə bağlı istinad ediləsi sistemli qaydalar, komplekslər mövcud deyildi. Ümumiyyətlə, dünyanın heç bir yerində Birinci Xanım statusunda necə davranmağın qaydalarını öyrədən universitetlər, təhsil mərkəzləri yoxdur»…

Müəllif yeri gəldikcə Birinci xanımın müsahibələrinə istinad edir.

O isə deyir…

«…Azərbaycan Prezientinin xanımı olmaq onun mənəvi dünyasında, demək olar ki, heç nəyi dəyişməyib. Ən çox dəyişənsə, gündən- günə artan məsuliyyətdir: *«Mən uşaqlıqdan daim kütləvilik elementi olan mühitdə böyümüşəm. Əgər nəzərə alsaq ki, Heydər Əliyevin ailəsinin üzvü olanda birinci kursda oxuyurdum, deməli, 20 ildən artıq bir müddətdə bir çox amillər formalaşmış davranış tipini şərtləndirmişdir. Odur ki, xüsusi dəyişikliklərin baş verdiyini demək mənim üçün çətindir.*

*Dəyişən başqa şeydir – məndən kənarda olan nə isə dəyişmişdir. Məsələn, ömür boyu mənim həyat amalım belə olmuşdur ki, etmək istədiyin yaxşılığı heç vəchlə gözə çarpdırmaq olmaz. İndi mən bundan, demək olar ki, məhrumam. Birinci xanım statusunda mən elə bir xeyriyyə aksiyası keçirə bilmirəm ki, o, ictimaiyyətin diqqətini cəlb etməsin. Bu, kütləvilik amili məni sıxsa da, yaşayışıma bəzi yeniliklər gətirir və mən bunu olduğu kimi qəbul edirəm. Bu isə özünü göstərməkdən tamamilə uzaq adam kimi mənə kifayət qədər çətin olur».*

Onun üçün insana xas ən üstün keyfiyyət saflıq, mənlik hissi, səmimilik, xeyirxahlıq, ağıl və peşəkarlıqdır. Sünilik çaları olan hər hansı bir ifadə Mehriban xanım üçün qəbuledilməzdir. Müasir həyatın insana verdiyi yeni- yeni bilik, bacarıq və imkanlar müqabilində bəzən onun mənəvi tamlığını tapdalaması onda həmişə təəssüf doğuran məqamdır: «*Uğurun, firavanlığın arxasınca qaçmaq, bunlara nəyin bahasına olursa olsun, nail olmaq istəyi insanları tanınmaz dərəcədə dəyişir, bu da məyusluq gətirir. Düzdür illər ötdükcə mən insanların*

*zəifliklərinə və bir çox şeylərə daha dözümlü yanaşmağa başlamışam. Lakin özüm üçün yolverilməz saydığım şeylərə görə, başqalarını da bağışlaya bilmərəm. Xoşbəxtlikdən məni həm ailəmdə, həm də peşəkar fəaliyyətimdə yalnız parlaq, pozitiv, səmimi və xeyirxah insanlar əhatə edir. Onlarla ünsiyyət həmişə sevinc gətirir».*

Bu epizodların üzərinə Azərbaycanın birinci xanımının həyat devizini də əlavə etsək, yəqin ki, gözlərimiz önündə Mehriban xanım Əliyevanın tam və bitkin portreti canlanar.

Onun həyat devizi isə belədir: «Həmişə öz ləyaqətimi saxlamaq, özümə və prinsiplərimə sadiq olmaq»...

Yeddinci fəsil «Sülhün səfiri» adlanır… Və bu fəsildə Mehriban xanım Əliyevanın xüsusilə Azərbaycan Mədəniyyətinin Dostları Fondu fəaliyyətə başladığı dövrdən etibarən Azərbaycan mədəniyyətinin dünyada, eləcə də dünya mədəniyyətinin Azərbaycanda yayılması, təbliği, tanıdılması sahəsində gördüyü həqiqətən miqyassız, ölçüyəgəlməz işlərdən bəhs edilir.

Müəllif, tamamilə təbii olaraq, Birinci xanımın Azərbaycan müğam sənətinin dünyada tanıdılmasındakı xidmətlərinə geniş yer verir…

«…Mehriban xanım öz layihələri ilə, Azərbaycanı gələcəyin dəyərlərinin yaradılması prosesinin fəal iştirakçısına çevirdi.

«Qarabağ xanəndələri…»

Onun bu istiqamətdə düşüncədən reallığa çevirdiyi ilk layihələrdən biri belə adlanırdı. Nəfis tərtibatla dinləyicilərin ixtiyarına verilmiş «Qarabağ xanəndələri» albomunun təqdimat mərasimində Mehriban xanım deyirdi: *«Mən inanıram ki, bu albomla tanış olanda hiss etmisiniz ki, biz onu nə qədər məsuliyyətlə, digər tərəfdən də böyük məhəbbətlə hazırlamışıq. Heç də təsadüfi deyil ki, bizim ilk layihəmiz Qarabağ xanəndələrinə həsr olunmuşdur. Biz Qarabağ torpağının acısını, Azərbaycanın haqq səsini müğam vasitəsilə bütün dünyaya çatdırırıq».*

Bu təkcə, Azərbaycan müğamının təbliğinə yönələn bir addım deyildi. Həm də müğamın gücündən mədəniyyət diplomatiyasında istifadəyə, muğamın ezazkar

dili ilə Azərbaycan həqiqətlərinin dünyaya çatdırılmasına doğru məqsədyönlü cəhd idi»…

Müəllif əlavə edir…

… «Qarabağ xanəndələri» mədəniyyətin sərhədlərini adlayaraq həm də siyasi bir hadisəyə çevrildi.

Mehriban xanımın özünün də söylədiyi kimi, sırf musiqi layihəsindən yetərincə əhəmiyyətli siyasi layihə yarandı: *«Balaca muğam ifaçılarını, adətən, «Qarabağ bülbülləri» adlandırırlar.*

*Bu gün Qarabağın sakinləri olan məcburi köçkünlərin düşərgələrində böyüyən uşaqlar daha muğam oxumurlar, onların arasında belə Qarabağ bülbülləri son dərəcə azdır. Oxumaq üçün onlara Qarabağ dağları, Qarabağ təbiəti, Qarabağ torpağı lazımdır.*

*Azərbaycan mədəniyyətinin Üzeyir Hacıbəyov və Bülbül kimi belə böyük korifeylərinin Şuşada doğulduqlarını demək kifayətdir. Bax beləcə, sırf musiqi layihəsindən siyasi layihə yarandı»…*

… Mehriban xanım Əliyeva 2004- cü ilin yayında YUNESKO- nun xoşməramlı səfiri seçildi…

«…Həmin ilin 9 sentyabrında Paris şəhərində bu ad təntənəli şəkildə Ona – Azərbaycan qadınına təqdim olundu.

Mehriban xanım Əliyevanın belə yüksək statusa layiq görülməsi bir neçə amillə əsaslandırılırdı.

…Onun YUNESKO tərəfindən dəstəklənən əsas məsələlərə şəxsi marağı…

Media sahəsində malik olduğu populyarlıq…

Karyera və ictimai nüfuzu ilə cəmiyyətin daha ədalətli dünya naminə köməyinə böyük inam…

Mehriban xanım Əliyeva qısa zamanda bu inamı, ümidi nəinki doğruldacaq, YUNESKO- nun xoşməramlı səfiri olmağın meyarlarını, ən parlaq nümunəsini yaradacaqdı.

Xoşməramlı səfir olmaq – Vətən qarşısında, dünya qarşısındakı məsuliyyətdir. İnsanın Yer üzündə tarixin özü tərəfindən müəyyən edilmiş taleyidir»…

Şərqlə Qərbin təmas nöqtəsində yerləşən Azərbaycanda, ümumən Cənubi Qafqazda Mehriban xanım Qərb və Şərq mədəniyyətlərinin dayanmaqda olan tarixi dialoqunu, sözün həqiqi mənasında, canlandırdı…

«…2004- cü ildən, mahiyyət etibarilə Qərb dəyərlərinin ifadəçisi kimi çıxış edən YUNESKO- nun xoşməramlı səfiri statusunu daşımaqla bahəm 2006- cı ilin noyabrından İslam Elm, Təhsil və Mədəniyyət Təşkilatının (İSESKO)- nun da eyni statusuna layiq görüldü.

Mehriban xanım Əliyeva İSESKO- nun mövcudluğu tarixində bu yüksək vəzifə ilə şərəfləndirilən 3 xoşməramlı səfirdən biridir.

Azərbaycanın birinci xanımı İSESKO- nun ilk qadın xoşməramlı səfiridir.

…Və Mehriban Əliyeva şəxsiyyəti eyni vaxtda həm Qərbin, həm də Şərqin mənəviyyat, barış elçisi missiyasını yerinə yetirən, bu iki fikir dünyası arasındakı dialoqu, anlaşmanı ilk növbədə öz mənəvi aləmində, qəlbində, zəkasında quran bir ilkdir.

Azərbaycan qadını bu iki dünyanı bir araya gətirməyi bacardı.

Bu iki aləm arasındakı gah birləşən, gah kəsişən, əsrlər boyu böyük düha sahiblərinin fikirlərini məşğul edən mübhəmlərin sirrini çözdü.

Mehriban xanı Əliyevanın məzmunu, fəlsəfəsi ilə həm Şərqə, həm də Qərbə üz tutub xitab edən nəcib əməllərinin hündürlüyündən baxdıqda məlum oldu ki, dünyada Şərq də, Qərb də şərti anlayışlardır və bu iki şərtiliyin tam ortasında yeganə qeyri- şərti olan yalnız bir gerçəklik, bir mütləq həqiqət var: insan ideyası.

Mehriban xanım həyatda ən böyük idyeanın məhz insan ideyası olduğunu hər kəsə anlatdı»…

2004- cü ildə – ümummilli lider Heydər Əliyevin vəfatından bir neçə ay sonra Mehriban xanımın təşəbbüsü və rəhbərliyi ilə Bakıda Heydər Əliyev Fondu yaradıldı… Kitabın «Mənəviyyat məbədi» adlanan səkkizinci fəsli həmin «Məbəd»in fəaliyyətinə həsr olunmuşdur…

Heydər Əliyev Müstəqil Azərbaycanın qurucusudur…

«…Müstəqil Azərbaycan dövləti isə Heydər Əliyevin cismani yoxluğunda da ayaqdadır, güclüdür, qüdrətlidir. Çünki bu dövləti qurub yaratmış insanın ideyaları yaşayır.

Azərbaycan dövlətinin bu günkü uğurları məhz Heydər Əliyev ideyalarına söykənir, bu ideyalar üzərində qərar tutur.

Təsadüfi deyil ki, Azərbaycan Prezidenti İlham Əliyev də özünü bu ideyaların davamçısı sayır.

Özünü məhz bu cür təqdim edir.

Heydər Əliyev ideyalarına istinad edərək sosial- iqtisadi islahatlar kursunu, hüquqi dövlət, vətəndaş cəmiyyəti quruculuğu proseslərini əzmlə irəli aparır»…

Heydər Əliyev Fondu Mehriban xanımın rəhbərliyilə öz üzərinə bu sahədə indiyə qədər təsəvvür edilməsi mümkün olmayan bir məsuliyyət götürdü…

«…Heydər Əliyevin nələr düşündüyünü, nələr hiss etdiyini, nələr planlaşdırdığını, İlham Əliyev qədər Mehriban Əliyeva da bilirdi, duyurdu, hiss edirdi.

Ona görə də indi bu sözləri heç bir mübaliğəyə varmadan yazıram: Heydər Əliyevin, əslində iki davamçısı var. Milli dövlətçilik ideyalarının həyata keçirilməsi, milli dövlətmizin gələcəyi ilə bağlı arzuların reallığa çevrilməsi baxımından bu missiya Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin üzərinə düşür.

Mənəvi sahədə isə Heydər Əliyev irsini Azərbaycan Prezidenti ilə birgə, həm də Mehriban xanım Əliyeva davam etdirir.

Və bu davamçılıq onun yaratdığı Fonda seçilmiş adla birgə bu qurum üçün müəyyən edilmiş fəaliyyət istiqamətlərində də öz əksini tapır.

Heydər Əliyevin adını daşıyan bu qurumun – Heydər Əliyev Fondunun məramı, məqsədi aydındır:

- Heydər Əliyevin ölkənin sosial- iqtisadi, mədəni tərəqqisi, sivil dünya birliyinə inteqrasiyası, xalqın maddi rifahının yaxşılaşması naminə müəyyən

etdiyi, işləyib hazırladığı siyasətin öyrənilməsinə, təbliğinə və bu ideyaların həyata keçirilməsinə dəstək vermək;

- Azərbaycanın tərəqqisi və xalqımızın rifahı naminə ümummilli lider Heydər Əliyevin zəngin irsindən bəhrələnərək bu işə xidmət edən genişmiqyaslı proqram və layihələrin reallaşmasına kömək etmək;

- elm, təhsil, mədəniyyət, səhiyyə, idman, ekoloji sahələrə aid proqram və layihələr hazırlayıb həyata keçirmək;

- respublikanın və xarici ölkələrin fondları, QHT- ləri, ictimai təşkilatları ilə əməkdaşlığı genişləndirmək, onlarla birgə layihələr həyata keçirmək;

- yerli əhəmiyyətli sosial problemlərin həllinə yardımçı olmaq, xüsusi qayğıya ehtiyacı olan insanlara kömək göstərmək;

- insanların yaradıcı potensialının, bilik və bacarıqlarının aşkara çıxarılmasına, qabiliyyətlərini göstərməsinə, inkişaf etdirməsinə yardım etmək;

- Azərbaycan mədəniyyətinin geniş təbliği, sağlam mənəvi dəyərlərin qorunması ilə bağlı aparılan işlərə kömək etmək;

- uşaq və gənclərin hərtərəfli biliklərə malik vətəndaş kimi yetiqşdirilməsi işinə xidmət etmək;

- Azərbaycan Respublikasının beynəlxalq nüfuzunun artırılması ilə bağlı tədbirlərin həyata keçirilməsinə yardım göstərmək;

- Azərbaycan həqiqətlərini dünya ictimaiyyətinə çatdırmaq;

- respublikanın və xarici ölkələrin təhsil müəssisələri ilə əməkdaşlıq etmək;

- elmi tədqiqatların aparılmasına yardım göstərmək;

- xarici ölkələrin tanınmış elmi- tədqiqat mərkəzləri ilə alimlərin mübadiləsini təşkil etmək, ölkənin yaradıcı və elmi potensialının artırılmasına kömək etmək;

- uşaq müəssisələrinin infrastrukturlarını inkişaf etdirmək;

- səhiyyə və tibbi təsisatları inkişaf etdirmək;

- ekologiya sahəsində mühüm tədqiqatları dəstəkləmək, sağlam həyat tərzini təbliğ etmək;

- Azərbaycan Respublikasının ərazisində və xaricdə aktual mövzulara dair konfrans və seminarlar təşkil etmək;

- uşaqların, yaradıcı gənclərin, incəsənət xadimlərinin sərgilərini təşkil etmək;

- dini tolerantlığın bərqərar olmasına, vətəndaş cəmiyyəti quruculuğuna, qloballaşan dünyaya inteqrasiya prosesində milli- mənəvi dəyərlərin qorunub saxlanılmasına dəstək vermək.

…Və bunların heç biri sadəcə kağız üzərində öz əksini tapan, göstəri xatirinə bəlağətli sözlərdə, gurultulu nitqlərdə ifadə olunan formal məsələlər deyil.

Diqqət etdikdə, 2004- cü ildən bəri Heydər Əliyev Fondunun gördüyü işləri incələdikdə bu məqsədlərin hər birinin arxasında real işin, əməlin dayandığını, nəticələrin pöhrələndiyini görəcəksən»…

Heydər Əliyev Fondunun təhsil sahəsində gördüyü işlər barədə müəllif yazır…

«…Azərbaycan dövlətinin təhsilimizin inkişafı istiqamətində həyata keçirdiyi tədbirlərlə bir arada, nə aşağı, nə yuxarı, elə dövlətin gördüyü işlər qədər Heydər Əliyev Fondunun fəaliyyətini də xüsusi qeyd etməliyəm.

…Hər kəs üçün bərabər təhsil imkanları yaradılmalıdır!..

Gənc nəsil zəruri biliklərə yiyələnməlidir!..

Azərbaycan təhsili beynəlxalq təhsil sisteminin bir parçasına çevrilməlidir!..

Bu üç məramı Heydər Əliyev Fondu özünün təhsil sahəsində gələcəyə yönəlik aydın fəaliyyət istiqaməti kimi müəyyənləşdirib.

Adətən, cəmiyyətdəki hansısa ictimai məzmunlu problemlər haqqında söhbət düşərkən, tez- tez istifadə etdiyimiz ümumi bir məntiqi hökm var: «Hər şey məktəbdən başlanmalıdır».

Heydər Əliyev Fondu da, Fondun rəhbəri Mehriban xanım Əliyeva da sözün əsl mənasında birinci məktəbdən başladı. Onun irəli sürdüyü «Yeniləşən Azərbaycana yeni məktəb layihəsi» Azərbaycanın ictimai gündəmini müəyyən edən sosial çağırış kimi əks- səda yaratdı.

Qısa zamanda özünə böyük tərəfdarlar ordusu topladı, bu çağırış…

Hamı bu nəcib niyyətin niyyətdən gerçəkliyə dönüşməsindən ötrü cani-dildən işə girişdi. Sabah övladlarının təhsil alacağı, yaxud müəllim kimi dərs deyəcəyi yeni Azərbaycan məktəblərinin tikilib qurulması prosesində hamı bir işin qulpundan yapışmağa can atdı.

Az zamanda Azərbaycanın ucqar kəndlərində, şəhər və qəsəbələrində ağ daşdan səliqə ilə inşa olunmuş, iri pəncərəli, rəngli taxtapuşlu məktəb binaları dikəldi.

Bunlar yeniləşən Azərbaycanımızın yeni məktəbləri idi»…

Ən böyük işlərdən biri də uşaq evləri şəbəkəsinin genişləndirilməsi, şəraitin yaxşılaşdırılması idi… Və Mehriban xanım bu sahədə də böyük bir ənənənin əsaslarını yaratdı…

Doqquzuncu fəsil «Ümid qapısı» adlanır…

Müəllif tamamilə doğru olaraq yazır…

«…İnsanların sağlamlıq hüququ dünyanın bütün demokratik ölkələrinin konstitusiyalarında təsbit olunmuş əsas hüquqlardandır. Amma insanların sağlamlıq hüququnun təmin olunması bir tək dövlət institutlarının öhdəsindən gələcəyi iş də deyil. Burada ümumən ictimaiyyətin də üzərinə böyük məsuliyyət düşür.

Adətən, biri xəstə düşəndə doğmalarını yanında görür. Ona qəlbi yanan, dərdlərinə yaxın olan hər kəs bir neçə dəqiqəlik ziyarəti ilə də olsa, kiçicik bir sovqatı ilə də olsa, lap adicə bir isti kəlməsi ilə də olsa ona mənəvi dəstək verməyə can atır. Bu, bizim milli mentalitetimizin məmnunluq bəxş edən son dərəcə qiymətli məqamıdır.

Və bu bir insanın sağlamlığına ictimai dəstəyin ifadəsidir. Bu dəstəyin el arasında böyük nüfuza malik ictimai təsisatın əsas fəaliyyət qayəsinə çevrilməsi isə o təsisatın aid olduğu cəmiyyətin şansıdır. O cəmiyyətdə yaşayan insanların yararıdır.

Mehriban xanım Əliyeva sağlamlıq problemləri olan insanlara kömək göstərilməsini rəhbərlik etdiyi Heydər Əliyev Fondunun əsas fəaliyyət istiqamətlərindən biri kimi müəyyənləşdirib. Fondun bu sahədə gördüyü işlər

yalnız səhhətində problem yaranmış hansısa vətəndaşımızın müalicəsinə kömək göstərilməsi, kiməsə dava- dərman alınması və ya bir başqasının Azərbaycanda dəvası tapılmayan ağır bir dərddən qurtuluşu üçün xarici ölkələrin xəstəxanalarına göndərilməsi ilə əhəmiyyətli deyil»…

Və əlavə edir…

«…Əlbəttə, hətta cəmi bircə insanın da həyata qayıtmasının, dünyadan əlini üzmüş bir kəsin qəlbində ümid işığı yandırılmasının savabı yerə- göyə sığmaz. Heydər Əliyev Fondu, Mehriban xanım Əliyeva illərdir ki, bu işi görür. Bu Fond dərdləri, ağrı- acıları ilə baş- başa qalmış insanlar üçün illərdir ki, pənah ünvanı tək ucalır. On minlərlə insana ümid bəxş edir, mərhəmət işığı ilə onları yenidən həyata tutundurur.

Özlüyündə bunun dəyərini, qiymətini sözlə ifadə etmək mümkünsüzdür. Amma mənimçün daha qiymətli olanı Mehriban xanımın bununla insanlara təlqin etdiyi mənəvi dəyərlərdir. Heydər Əliyev Fondu bu məqamda da xalqımızın milli düşüncə sistemində xüsusi yer tutan dəyərlərə tapınır.

Mərhəmətə, insanpərvərliyə, xeyirxahlığa üz tutur. Cəmiyyətin mənəvi cəhətdən saflaşdırılmasına, mənəvi dünyamızın yad təsirlərdən qorunmasına dəstək olur. Bunlar elə dəyərlərdir ki, onları tarix boyu qazandığımız ən qiymətli sərvət gözündə görə bilərik»…

Mehriban xanım eyni zamanda cəmiyyətin- insanlığın milli- mədəni (mənəvi) sağlamlığı, rahatlığı üçün də geniş miqyasda çalışan, nüfuzlu ictimai-siyasi xadimdir…

«… Bakıda keçirilən Beynəlxalq Humanitar Forumlarla müxtəlif ölkələrin dövlət siyasətində multikulturalizmin mövqe və imkanlarının bir daha təhlilini təşviq edir və bu təşəbbüslər böyük uğur qazanır.

Bütün bu nailiyyətlərin əldə olunmasında, bəşəriyyət üçün müstəsna əhəmiyyət kəsb edən bu cür təşəbbüslərin irəli sürülməsi və uğurla reallaşmasında, heç şübhəsiz ki, Azərbaycan Prezidenti İlham Əliyevlə yanaşı, Mehriban xanım Əliyevanın da müstəsna xidmətləri var.

Bu məqama xarici mətbuat da xüsusi diqqət yetirir.

Amerika Birləşmiş Ştatlarının nüfuzlu «Washington Times» qəzetində Mehriban xanım Əliyeva haqqında dərc edilmiş məqalədə yazılır: «Azərbaycanın birinci xanımı Mehriban Əliyeva müsəlman dünyası qadınları üçün ən yaxşı nümunədir!..»

Və …

«… Heydər Əliyev Fondunun həyata keçirdiyi layihələrdən biri belə adlanır: «Tolerantlığın ünvanı – Azərbaycan»…

Layihə çərçivəsində Bakıdakı Pravoslav kilsəsində təmir- bərpa işləri aparılıb.

«Or- Avner» Beynəlxalq Fondu ilə birgə Bakıda yaşayan yəhudi uşaqları üçün 600 yerlik təhsil mərkəzi inşa edilib.

Binə qəsəbəsindəki Möhsün Səlim məscidi, Gəncə şəhərindəki Həzrəti Zeynəb məscidi, Buzovna qəsəbəsindəki Cümə məscidi yenidən qurulub.

2008- ci ildə Heydər Əliyev Fondu və Roma Katolik dini icması arasında anlaşma memorandumu imzalanıb və bu memorandum çərçivəsində yetərincə işlər görülüb.

Sovet dövründə uçurulub dağıdılmış, diqqətdən kənarda qalmış müqəddəs məkanların – məscidlərin, kilsələrin, sinaqoqların yenidən bərpası, abadlaşdırılması ulu öndər Heydər Əliyevin formalaşdırdığı xoş ənənələrin davamıdır həm də…

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev öz çıxışlarından birində belə deyirdi: «Heydər Əliyev Fondu sübut etdi ki, əgər istək olarsa, əgər iradə olarsa və əgər xoş niyyət olarsa, istənilən sahədə istənilən məsələ həll oluna bilər. Bu fondun çoxşaxəli fəaliyyətini əgər bir sözlə xarakterizə etmək mümkündürsə, mən «Xoş niyyət» deyərdim. Çünki bütün sahələrdə biz bunu görürük»…

Onuncu fəsil «Azərbaycan adına» adlanır…

«…Heydər Əliyev Fondu öz fəaliyyətinin bəlli bir istiqamətini bütün dünyada Azərbaycanın sözünü deyənlərin, ölkəmizin dostlarının sayının getdikcə artırılmasına yönəldib.

Fond dünyanın aparıcı beynəlxalq təşkilatarı ilə əməkdaşlıq əlaqələrini ildən- ilə genişləndirir. BMT- nin İnkişaf Proqramı, Əhali Fondu, YUNESKO, İSESKO, ABŞ-ın «Vital Voice» qeyri- hökümət humanitar təşkilatı, «Save the children» təşkilatı və digər nüfuzlu qurumlarla birgə layihələr reallaşdırır.

YUNİSEF, BMT- nın Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı kimi qurumlarla görülən işlərin də xoş sədası eşidilir.

ABŞ, Rusiya, Rumıniya, Türkiyə…

Bunlar, bu kitabın yazıldığı anlarda Heydər Əliyev Fondunun nümayəndəliklərinin fəaliyyət göstərdiyi ölkələrdir.

Bu ölkələrin hər birində Fond sosial- humanitar layihələr həyata keçirir, Azərbaycan adına görülən işlərlə Azərbaycanı tanıdır, o ölkələrin cəmiyyətlərində Azərbaycana rəğbət oyadır

Fond ilk nümayəndəliyini Rusiyada açıb»…

Mehriban xanımla yanaşı qızı Leyla xanım Əliyeva da bu sahədə artıq tarixə düşmüş işlər görmüş… Və görməkdədir…

Xüsusilə rəhbərlik etdiyi Rusiyanın Azərbaycanlı Gənclər Təşkilatının fəaliyyəti təqdirə layiqdir…

«… Bu təşkilatın reallaşdırdığı ən mühüm layihələrdən biri «Xocalıya ədalət» beynəlxalq kampaniyasıdır. Kampaniyanın məqsədi Xocalı fəciəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılmasıdır. Bu faciənin Azərbaycan xalqına qarşı soyqırım aktı kimi tanınmasıdır.

«Xocalıya ədalət» beynəlxalq kampaniyasının təşəbbüskarı Leyla xanım Əliyevadır.

Bu kampaniya boyu dünyanın hər yerindən yüz minlərlə imza toplanıb. Avropanın, Asiyanın, Afrikanın, Şimali və Cənubi Amerikanın müxtəlif ölkələrində faciə ilə əlaqədar tədbirlər keçirilib. Müxtəlif ölkələrin parlamentləri, dövlət qurumları qarşısında etiraz aksiyaları, piketlər keçirilib. Seminarlar, konfranslar təşkil edilib, kitablar nəşr olunub, filmlər çəkilib.

«Xocalıya ədalət» kampaniyası sayəsində Pakistan, Meksika, Çexiya, Kolumbiya,Bosniya və Herseqovina parlamentləri Xocalı faciəsini soyqırım və Azərbaycana qarşı cinayət aktı kimi tanıyıblar.

Bundan başqa ABŞ- ın çoxsaylı ştatları da bu soyqırımı tanıyıb.

Əlbəttə, bu işlər həlak olmuş insanları yenidən həyata qaytaran, sağ qalmış xocalıların yarasını sağaldan deyil.

Amma bütün bunlar təkcə Azərbaycan xalqına qarşı deyil, ümumilikdə bəşəriyyətə qarşı törədilmiş Xocalı soyqırımı kimi dəhşətli cinayətlərin bir daha təkrarlanmaması üçün lazımdır.

Həm də çox lazımdır»…

«Duyğuların ritmi» adlanan on birinci fəsil Mehriban xanım Əliyevanın Azərbaycanda idmanın inkişafına sərf etdiyi məhsuldar (və miqyaslı) xidmətindən danışır…

«…Azərbaycan Gimnastika Federasiyasına rəhbərlik etməyə razılıq verərkən Onun qarşıya qoyduğu məqsədlər yetərincə aydın və konkret idi – gimnastikanı ölkəmizdə perspektivli, populyar bir idman növünə çevirmək.

İşə, ən birinci, həmfikir məşqçilər və inzibatçılar komandası yaratmaqdan başladı. Həqiqətən, nəticə eldə etmək əzmində olan insanları ətrafına topladı. Bu sahənin peşəkarlarını cəlb etdi.

Və nəticə özünü gecikmədən hiss etdirdi…

Qısa müddət ərzində həm ölkə daxilində, həm də dünyada Azərbaycan gimnastikasına münasibət köklü surətdə dəyişdi. Yalnız kağız üzərində mövcud olan birləşmiş federasiya daim fəaliyyət göstərən, səlahiyyətli və səmərəli qərargaha çevrildi.

Federasiya idman gimnastikasının və bədii gimnastikanın, akrobatikanın, tamblinqin inkişafı, onların geniş yayılması və gündəlik idman həyatına tətbiqi sahəsində bütün işlərə başçılıq edərək, gimnastikamızın gələcəyinin təmin olunması üçün lazımi xətt müəyyənləşdirdi.

Ölkə daxilində bu sahədə vəziyyəti müsbət səmtə doğru dəyişdikdən sonra indi yüksək səviyyəli beynəlxalq yarışların keçirilməsi barədə də məsələlər qaldırmaq olardı»…

Həmin məsələlər qaldırıldı… Və böyük uğurlar qazanıldı…

Mehriban xanım Əliyeva (və ümumən Azərbaycan) daha bir mötəbər beynəlxalq idman forumunun keçirilməsinə rəhbərlik (və ev sahibliyi) etməli oldu…

«…Avropa Olimpiya Komitəsinin 8 dekabr 2012- ci ildə Romada keçirilmiş 41- ci Baş Assambleyasında Azərbaycan tarixi üçün son dərəcə əhəmiyyətli bir hadisə baş verdi.

Komitə ilk Avropa Olimpiya Oyunlarının 2015- ci ilin iyununda Azərbaycanın paytaxtı Bakı şəhərində keçirilməsini qərara aldı.

Avropa Olimpiya Komitəsinin bu tarixi qərarı dünya olimpiya hərəkatında öz yeri olan ölkə kimi Azərbaycanın nüfuzunun etirafı idi.

Belə tədbirlərin keçirilməsi zamanı bir neçə mühüm ictimai- sosial faktor mütləq nəzərə alınır. Bunlar, Olimpiya Oyunlarının keçiriləcəyi ölkənin siyasi sabitlik göstəriciləridir, sosial şəraitidir, iqtisadi imkanlarıdır, lazımi idman infrastrukturunun mövcudluğudur.

Bu tarixi qərarla Azərbaycanın cəmiyyətdəki ictimai- siyasi sabitliyə, sosial-iqtisadi inkişafına, müvafiq imkanlarına görə Avropanın ən öncül ölkələri sırasında qərar tutduğu bir daha təsdiqlənmiş oldu»…

«Millətin vəkili» adlanan on ikinci fəsildə Mehriban xanım Əliyevanın millət vəkili olaraq çoxşaxəli ictimai- siyasi fəaliyyəti araşdırılır…

«…2005- ci ilin parlament seçkiləri ərəfəsində Mehriban xanım Əliyevanın Azərbaycan Respublikasının Milli Məclisinin deputatı seçilməsi səsvermə hüququna malik hər bir ölkə vətəndaşının arzusu, istəyi idi.

Hər bir Azərbaycan seçicisi Mehriban xanımı məhz onun yaşadığı ərazinin, təmsil etdiyi seçki dairəsinin deputatı kimi görməyi arzulayırdı. O, Prezidenti Azərbaycanın regionlarına səfərləri zamanı müşayiət edərkən insanlar bu arzularını birinci xanıma yetirirdilər.

Amma seçki qanunvericiliyi elədir ki, deputatlığa iddialı hər kəsin namizədliyi ancaq konkret bir seçki dairəsindən verilə bilər.

Mehriban xanım Əliyevanın təmsil olunduğu Yeni Azərbaycan Partiyası da özünün vahid siyahısında Mehriban xanım Əliyevanın namizədliyini 14 saylı Xəzər ikinci seçki dairəsindən irəli sürdü.

Azərbaycandakı digər seçki dairələrinin seçicilərinin ölkənin birinci xanımını parlamentdə onların yaşadığı ərazinin deputatı kimi görmək arzuları rəsmən reallaşmasa da, bu arzu başqa formada gerçəyə çevrildi.

Mehriban xanım Əliyeva təkcə bir seçki dairəsinin deyil, bütün Azərbaycanın, bütün Azərbaycan millətinin vəkili oldu»…

Mehriban xanımın millət vəkili olaraq fəaliyyəti ölkə daxilində olduğu kimi ölkə xaricində – beynəlxalq aləmdə də böyük örnəkdir…

«…2005- 2010- cu illərdə Mehriban xanım Əliyeva Azərbaycan- Amerika kimi çox vacib bir Parlamentlərarası Dostluq Qrupuna rəhbərlik edirdi.

2006- cı ildə ABŞ- a səfəri zamanı bu ölkənin ictimai- siyasi xadimləri ilə görüşündə Azərbaycan qadınlarının seçib- seçilmək haqqını nəinki Müsəlman Şərqi, hətta Birləşmiş Ştatların qadınlarından əvvəl 1918- ci ildə Müstəqil Azərbaycan Xalq Cümhuriyyəti dövründə əldə etdiyini xüsusi vurğulayan Mehriban Əliyeva o görüşlərdə yaratdığı müsbət təəssüratla Azərbaycan qadınının adını ucalara yüksəltdi.

Onun ABŞ- da keçirdiyi görüşlər iki ölkə arasında əlaqələrin və əməkdaşlığın daha da genişlənməsi, Amerikanın Azərbaycanı daha yaxından tanıması, Azərbaycan həqiqətlərinin, mədəniyyətinin daha geniş təbliğ olunması baxımından mühüm nəticələrlə əlamətdar oldu.

İndi isə Mehriban xanım Əliyeva Azərbaycan- Fransa parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəridir. Onun Avropa ölkələrindəki yüksək nüfuzu Azərbaycanın Avropa məkanına inteqrasiya prosesinə böyük töhfədir»…

Mehriban xanımın ali- humanist məramlı bir xidməti də onda oldu ki, amnistiya təşəbbüsləri ilə çıxış etdi…

Müəllif bu məsələ ilə bağlı olaraq yazır…

«…Mən lap ən xırda bir cinayət də olsa törətmiş kəsin cəzasız qalmasına əsla tərəfdar deyiləm. Amma unutmayaq ki, Tanrının xəlq etdiyi hər bir bəndənin nə zamansa yaxşı biri olmaq şansı da var.

İnsan olaraq bizim ali missiyamız başqalarının bu şansını tanımaqdır.

Viktor Hüqonun «Səfillər» əsərində təsvir etdiyi Yepiskop onun gümüş çəngəl büçaqlarını oğurlamış Jan Valjanı polislərin əlindən alıb üstəlik gümüş şamdanlarını da ona bağışlarkən keçmiş katorqa məhbusuna son olaraq bu kəlmələri söyləmişdi:

«Qardaşım, siz artıq şərə tabe deyilsiniz, xeyirin ixtiyarındasınız. Mən sizin ruhunuzu satın alıram. Mən sizin ruhunuzu qara fikirlərdən və zülmət dünyasından xilas edib Allaha tapşırıram».

Mehriban xanım Əliyevanın amnistiya təşəbbüsləri ilə minlərlə məhbusun azadlığa buraxılması da onların ruhunun qurtuluşudur.

Şərin yoldan çıxardığı insan ruhlarının mərhəmət işığında qaranlıqlardan xilası və Allaha əmanət edilməsidir…

Budur, Mehriban Əliyevanın missiyası»…

Kitabın sonuncu – on üçüncü fəsli «Ana» adlanır… Və bu fəslə Həzrəti Məhəmmədin - peyğəmbərimizin aşağıdakı müqəddəs sözləri epiqraf gətirilir ki…

«Heç bir ata- ana övladına gözəl tərbiyədən daha yaxşı bir miras qoya bilməz»…

«…Mehriban xanım dünyaya üç övlad gətirib…

Prezidentimizə üç övlad, müstəqil dövlətmizə üç dəyərli vətəndaş bəxş edib…

Övladlarını milli ruhda tərbiyələndirib. Dünya bu övladlar üçün Azərbaycan sözünün doğmalığından, Azərbaycan dilinin saflığından, Azərbaycan təfəkkürünün işığından başlanıb.

Mehriban xanım övladlarını sadəlik zinəti ilə bəzəyib…

Öz təvazökarlığını onlara bəxşiş verib…

Bu kitabın qələmə alındığı günlərdə Mehriban xanımın qız övladları Arzu və Leyla sosial şəbəkələrdə anaları ilə, bir- birləri ilə münasibətləri, geyim tərzləri, ümumi zövqləri barədə düşüncələrini paylaşmışdılar.

*«Mən bacıma və qardaşıma çox bağlıyam. Əminliklə deyə bilərəm ki, Arzu mənim hər şeyimdir. Bizim qədər bir- birinə yaxın olan bacılar tanımıram. Arzu həmişə köməyə çatmağa, özünü və vaxtını yaxınlarına fəda etməyə hazırdır. Ailə içində biz onu «sehrli çubuq» adlandırırıq. Arzu həm də mənim «sehrli çubuğum»dur.*

Bir ailədəki qarşılıqlı sevgi, hörmət ruhunu əks etdirən bu kəlmələr Leyla xanıma məxsusdur.

Arzu Əliyeva isə belə yazırdı: «Biz harasa ailəlikcə gedəndə birlikdə hazırlaşırıq, bir- birimizdən məsləhətlər alırıq. Adətən, mən fərqlənməyə çalışıram. Bu o qədər də asan olmur. Bununla belə həmişə konservativ tərzə üstünlük verirəm – super hitlər və qıcıqlandırıcı geyimlər mənlik deyil. Anam bizim üçün paltar seçməyi bacarır. Hətta biz yanında olmasaq belə, o, seçdiyinin bizə yaraşıb-yaraşmayacağını bilir və heç vaxt yanılmır. Bacımla birlikdə ilk tərz dərslərini lap uşaqkən anamı müşahidə edə- edə öyrənmişik. O, geyinib bəzənəndə, saçlarını darayanda biz oturub baxırdıq. Anam bizə xüsusi məsləhətlər verməyib, amma böyüdükcə istər- istəməz onun tərzini təkrarlamağa başladıq»…

Yazıçı – müəllif qeyd edir ki, Mehriban xanım…

«…Oğlu Heydərdə babasına xas cəhətləri seyr etməkdən bir ana kimi məmnundur. Bu cəhətlər məqsədyönlülük və daxili özünüidarəetmə, emosional təmkinlilik və bununla yanaşı dərin səmimilikdir.

Oğlu ilə təmasın bütün gün ərzində yığılmış yorğunluğunu aradan götürdüyünü deyir…

Çox ümid edir ki, gələcəkdə oğlu babası kimi mətin iradə və ruh yüksəkliyinə malik olacaq.

«Onu gələcəkdə kim görmək istərdiniz?» - İllər əvvəl jurnalist marağı ilə Mehriban xanıma ünvanlanan belə bir suala cavab konkret olmuşdu: «Vətənin

layiqli vətəndaşı. Seçəcəyi fəaliyyət sahəsinin peşəkarı. Xoşbəxt ata- həyat yoldaşı»…

Kitabın sonuncu fəslində tamamilə doğru olaraq göstərilir ki…

«…Mehriban xanım dünyaya gətirib boya- başa çatdırdığı üç övladın harada olmalarından asılı olmayaraq Azərbaycan üçün, dünya üçün, bəşəriyyət üçün xeyirli övladlar olacaqlarından əmindir.

Çünki onlara ən böyük sərvət kimi insanlara sevgi, mərhəmət, humanizm hisslərini bağışlayıb…

Birinci xanımın mərhəmət möhtacı olan insanlarla, qocalarla, əlillərlə, kimsəsiz, xəstə körpələrlə görüşlərində daim Onu müşayiət edən övladlarının davranışlarına heç diqqət yetirmisinizmi?!

Prezident övladlarının dövlətdən başqa bir həyanı olmayan binəsiblərə doğru uzanan əllərini görmüsünüzmü?!

Hətta sıradan bir ailənin nümayəndəsi də o kimsəsiz körpələri Prezident övladlarının səmimiyyəti, sevgisi ilə bağrına basıb əzizləmək üçün nə qədər böyük ürəyə sahib olmalıdır?!

Mehriban xanımın, Onun övladlarının insanlara sevgisinin ölçüsü, hüdudu yoxdur…

Həm də Mehriban xanım Əliyeva təkcə bu üç övladın – Leylanın, Arzunun, Heydərin anası deyil.

Onun köməyinə, mərhəmətinə, sevgisinə ehtiyac duyan minlərin, on minlərin anasıdır»…

«Missiya»nın «Son söz»ü (və ümumiyyətlə kitab) oxucuya müraciətlə yekunlaşır…

«…Əziz oxucum!

Əgər diqqət etdinsə, mən görülən işlərin heç biri haqqında keçmiş zamanda danışmadım. Bütün bunlar haqqında başa çatmış işlər kimi söhbət açmadım.

Çünki Mehriban xanımın görməkdə davam etdiyi və görməli olduğu işlər hələ o qədər çoxdur ki…

Sabaha ünvanlanmış yazıçı təxəyyülüm mənə qarşıda bu kitabda təsvir etməyə çalışdığım keçmişdən daha parlaq, daha zəngin bir gələcəyin gözlədiyini söyləyir…

Bu, həm də Mehriban xanım Əliyevanın 50 illik yubileyi ilə bağlı, sadəcə bir hesabat idi…

Həyat və fəaliyyətsə öz axarındadır…

Deməli, mən Mehriban xanım haqqında son sözü deyil, hələ ilk sözü deyə bildim…

Missiya davam edir»…

# VI. Yazıçının dil- üslub texnologiyaları

Yazıçı üçün dil- üslub imkanlarının zənginliyi, rəngarəngliyi və mükəmməlliyi – mövzu axtarışları (və seçimi), ideya- məzmun yeniliyi, aktuallığı və təsirliliyi, süjet- kompozisiya ritmikliyi, simmetrikliyi və təravətliliyi qədər əhəmiyyətlidir.

Və Hüseynbala Mirələmov istər nəsrdə, istər dramaturgiyada, istərsə də publisistikada Azərbaycan ədəbi- bədii dilinin potensial imkanlarını kifayət qədər böyük istedadla, sənətkarlıqla üzə çıxaran yazıçıdır. O, xalq (epos) dilinin dərinliklərinə enməyi bacardığı kimi müasir bədii- kommunikativ münasibətlər səviyyəsinə də yüksələ, ümumiyyətlə, mükəmməl dil- üslub təcrübəsi nümayiş etdirə bilir ki, bu da, artıq qeyd etdik ki, hər bir yazıçının ədəbi tərcümeyi- halı üçün olduqca mühüm göstəricidir.

*

* *

Huüseynbala Mirələmov, hər şeydən əvvəl, təsvir- təfərrüat ustasıdır…

Onun əsərlərində hadisələr, əhvali- ruhiyyələr, hətta vaxtaşırı dəyişən daxili yaşantılar belə bütün təfsilatı ilə təsvir olunur…

Məcburən doğma vətənindən didərgin düşən, yolda düşmən güllәsinin- mərmisinin sinəsini parçaladığı anasını soyuq qış günü torpağa tapşırmalı olan övladın –Vətənin həyəcanlarını yazıçı belə təsvir edir:

«…Anasının başını qolunun üstünə almışdı. Əslində, özü anasının qolunun üstündəydi. Yaxşı nənənin taqəti isə get- gedə tükənir, gözlərinin işığı azalır, ayaqları soyumağa başlayırdı.

…Vətənin yanaqlarından üzüaşağı axan damcılar anasının sifətinə düşürdü. Ay ıışığında bu gümüşü, bu ayna damcılar par- par parıldayırdı, işıq saçırdı. O, gümüşü və ayna damcıların üstündə öz şəklini gördü. Yazıq və mağmun görkəmdəydi. Kənddə- kəsəkdə qolu qatlanmayan, sözünün qüdrəti qılınc kimi

kəskin Vətən, səni bu günə kim saldı? Anası gözünü açıb, oğluna baxırdı. O isə cavab verə bilmədiyi bu sualı anasının gözlərindən oxumuşdu.

Vətən təkliyin, kimsəsizliyin burulğanına düşmüşdü, burada boğulurdu. O, haray salmaq, dost dediyi, qardaş adlandırdığı, arxa- dayaq bildiyi adamları ətrafında görmək istəyirdi. Ancaq səsi, ünü heç kimə çatmırdı, elə içindəcə qırılıb qalırdı.

Ananın gözlərində həyat işığı əbədi söndü. Kirpikləri tərpənmədi. Ay işığında oğlunun əksini gözlərinə hopdurub, özü ilə Allahın dərgahına apardı. Vətən sol əli ilə anasının gözlərini sığadı.

Hər dəqiqənin bir hökmü var. Vətən bir az əvvəl fikirləşirdi ki, yaralı anasını hara, necə aparsın? İndi də başqa bir hiss varlığına hakim kəsildi: «Anasının meyitini burada necə qoysun?»

Anasını heyi kəsilmiş qolları arasına alan Vətən dizlərinə güc verib, ayayğa qalxdı.

Bu həmin anası deyildimi; bir şad xəbərin muştuluğuna onu qucağına alıb, quş kimi fırladardı. İndi bu ağırlıq hardandır belə? İkicə addım atmışdı ki, qəfil partlayışdan səndələdi. Müvazinətini saxlaya bilməyib, yaxınlıqdakı çalaya düşdü. Bu, bir az əvvəl partlayan mərminin açdığı çalaydı. Vətənə elə gəldi ki, yaralandı. Hərəkət etmək, qalxmaq, durmaq, əyilmək istəyirdi. Ancaq şüuru dumanlıydı. Hərəkətləri ağlına tabe olmurdu. Bu vəziyyətdə xeyli qaldı. Axır ki, ara sakitləşdi. Vətən özünə gəldi. Anasını çətinliklə çalaya uzadıb, üzü qibləyə çevirdi. Bu zaman o, hiss etdi ki, anası belinə nəsə dolayıb. Əvvəlcə elə bildi ki, soyuqdan qorunmaq üçün isti parçadır. On metrlik humayın ağını görəndə, «məndən oğul olmaz», - özünü qınadı. Çıxılmaz suallar qarşısında qaldı. Bəs meyiti harada yuyum? Kəfənləməyi də bilmirəm. Oğul olsam da, qadını kişinin yuması günah sayılır axı?! Qəflətən atasının səsini eşitdi: «Şəhid yuyulmasa da, kəfənə bükülməsə də, yeri Allah dərgahı, cənnətdi, ay oğul.»

Aydın səmada ay da ahəstə- ahəstə süzür, «kölgə adam»lar da ahəstə- ahəstə yerini dəyişirdi»… («Xəcalət povesti»).

Eyni dərəcədə mükəmməl təsvir adi bir məişət məsələsində də özünü bütün təfərrüatı ilə göstərir…

«Avtobus adamla dolu idi. Sürücü oturacaqların arasına qoyduğu taxta stullarda çoxlu biletsiz sərnişin əyləşdirmişdi. Avtobus ağır- ağır irəlilədikcə çölün istisi açıq pəncərədən içəri dolur və adamların üz- gözünü yandırırdı. Şakirə bir an elə gəldi ki, bu sıxıntılı və bürkülü yol heç vaxt qurtarmayacaq…

…Bir azdan avtobus sanki daha da ağırlaşmış halda nərildəyə- nərildəyə sərin havası artıq yavaş- yavaş hiss olunan dağ rayonuna doğru üz tutdu» («Hesab çatıb» hekayəsi).

Hüseynbala Mirələmovun bədii dilində təbiət təsvirləri özünün dolğunluğu, ecazkarlığı və təbiətin ilahi gözəlliyi qarşısında mistik bir heyranlıq duyğuları ifadə etməsilə seçilib yadda qalır…

«Bu il yaz tez gəlmişdi. Torpağın sinəsi qızmış, yaz otu köpəsiyib qalxmışdı. Yaz günəşinin şüaları altında yaşıllıq nazlanırdı. Günəşlə torpaq arasında məhəbbətin, sevginin bəhrəsi idi bu yaşıllıq. Bu da təbiətin bir möcüzəsidir: Bir əl içi boyda yerdən müxtəlif rəngə çalan çiçəklər aça bilir. Burda qan qırmızı lalələr də var, çəhrayı rəngə çalan çilikbürnü çiçəkləri də. Hələ gömgöy ortasında qırmızı xalı olan zanbağa bənzər çiçək»…

Yazıçı əlavə edir:

«Məftun həmin çiçəyin adını yadına salmaq istədi. Nədənsə xatırlaya bilmədi. Daşların arasında cincilim vardı. Bunun adını bilirdi. Cincilimə bənzər otaq bəzək bitkisi var. Elmi adı tradeskansiyadır. Qızlar ona «xanım sallandı» deyirlər. Məftun düşündü ki, ad mahiyyətə uyğun olmalıdır. O öz adını yada saldı. Kim qoymuşdu bu adı? Atası, ya anası?.. Hər halda valideynləri öz arzularını bu adda görmək istəmişdilər. Bir də ki öz adına yaraşmayanlar azdırmı? Məftunun içindən bir təəssüf keçdi»… («Qayada çiçək» hekayəsi).

Hüseynbala Mirələmovun təsvir- təfərrütlarında bir ssenari (rejissor) dəqiqliyi, konkretliyi müşahidə edilir. Hətta tarixdən yazanda da hadisələri bugünkü əyaniliyilə «görür»…

«…Özbəklər evləri talan edir, qoyun- quzunu, ilxını, mal- qaranı bir sözlə, gözlərinə nə dəyirdisə, hamısını yığıb- yığışdırır və ev əhli ilə bərabər Məşriq tərəfə aparırdılar. Doğma ata- baba ocağından kənar düşənlərin həyət- bacalarında ancaq zəncirlənmiş itlər, bir də ələ keçməyən toyuq- cücələr qalırdı. Zingildəyə- zingildəyə zəncirdə vurnuxan itlər gedənlərin arxasınca baxır, basqın zamanı perik düşüb kol- kosa doluşan toyuq- cücələr isə yavaş- yavaş gizləndikləri yerdən çıxırdılar.

Ellər- obalar susuz dəyirmana bənzəyirdi.

Özbəklər Əbivərdlə bərabər Xabuşanın özündən və kəndlərindən əsir götürdükləri insanları sürü kimi qabaqlarına qatıb aparırdılar. Dəli- dolu cavanlardan müqavimət göstərib, vuruşa- vuruşa ölənlər də vardı.

Dam- daxmalarda, çiy kərpicdən tikilmiş evlərdə ancaq ixtiyar və xəstələr qalmışdı. Onların ümidsiz yalvarışlarına, ah- naləsinə məhəl qoyan yox idi»… («Sonuncu fateh» romanı).

Yazıçının təsvir- təfərrüatlarında etnoqrafik məlumatlılıq peşəkarlıq səviyyəsindədir…

«…Çardağın arxa tərəfində bir hissəsi yanmış hananın yan ağacını görəndə sanki onu ildırım vurdu. Anası Fatmanın xalılar- xalçalar, fərşlər, palazlar, kilimlər toxuduğu hana indi harda, hansı şəraitdə olduğunu ona unutdurdu. Uşaqlıq illərində uzun qış gecələri bacı- qardaşları ilə birlikdə müxtəlif rəngli yun iplərdən yeyin- yeyin ilmələr vurduqlarını, kirgidi, həvəni yaşlarına uyğun olmayan aramla çaldıqlarını, arğacları ərişlərin arasından ustalıqla keçirdiklərini, çeşnidə heç bir yanlışlığa yol vermədiklərini xatırladı. Xalının son dönəsinin başa çatdığı, anasının bismillah deyib, qayçı ilə ərişləri kəsib onu endirməsi gözlərinin qabağına gəldi.

Fatma xalanın yağı daşsaydı, dünya alt- üst olsaydı, hananı kəsməmiş əlini başqa işə vurmazdı. «Hana çarmıxa çəkilmiş insan kimidi. Onu darda qoymaq günahdı», - deyərdi. Qonum- qonşudakı gəlinlər, qızlar həmin gün yağışardılar bu nurani, çöhrəsindən xeyirxahlıq, gözlərindən məhəbbət yağan, əli həmişə imkansızların, kimsəsiz yetim- yesirin üstündə olan Fatma arvadın başına. Hana kəsilən günü Kor Qurbanını evində xəngəl, xaşıl qonaqlığı olar, qonaq ehtiyatı da

ortaya tökülərdi. Uşaqlar bütün gecəni yorğan altına girməz, dardan təzə endirilən gəbənin üstündə heydən kəsilənə qədər oynayar, sonra elə o təzə xalçanın, kilimin üstündəcə mışıl- mışıl yatardılar.

Sübh tezdən, yuxudan kimsə oyanmamışdan Fatma xala təzə gəbəni eyvanın taxta sürahısının üstə sərər, çırpıb tozunu alar, günəşin doğmasını gözləyərdi. «Günəşin qızıl, qırmızı telləri birinci onun üstünə düşməlidi. Onda rəngi yüz illər keçsə belə, solmaz, saralmaz», - deyərdi»… («Yanan qar» romanı).

Toponimiya ilə etnoqrafiyanın (təbiətin!) bu səviyyədə əlaqəsi (təması!), heç şübhəsiz, istedad hadisəsidir…

«…Qarabağda çaylar leysan yağışları yağandan yağana bulanır. Qarqar kükrəyib məcrasını aşmışdı. Qarşısına çıxan daş- qayanı, köklü- budaqlı ağacları Aran düzlərinə qədər gətirir, qəzəbi soyuyanda gərəksiz bir şey kimi küdrülərə söykəyir, sonra da ərincək- ərincək yoluna davam edirdi. Bu çaya Qırxqızın, Sarıbabanın, Meydanın və Kirsin şərikli övladı deyənlər haqlı idilər. Kirsin qarı azalanda Qırxqız harayına yetişir, Meydanda il quraq keçəndə Sarıbaba səxavətini əsirgəmirdi. Bu səbəbdən Qarqarın suları heç vaxt biryolluq qurumur, Şelli, Qaradağlı, Muğanlı bağlarındakı ağaclara can verirdi. Ağdamın meyvələrinin ətirli, dadlı, dərdlərə dərman olmasının sirrini Qarqarın göz yaşı kimi duru, sərin suyunda görürdülər.

Meydandan başqa Kirs, Sarıbaba, Qırxqız dağları öz sularını Həkəri, Qarqar çayları arasında dədə malı kimi tən yarıya bölür, hər iki çayı eyni istəklə əzizləyirdilər. Bir tərəfi Daşaltıdan, digər ucu Daşbulaqdan başlayan tut bağları Qara qayanın dibinə, ordan da qədim Lənbərana uzanıb gedirdi. Xocalı tutunun öz dadı, Xəlfəli tutunun özgə bir tamı var idi. Tut ağacından düzəldilmiş tarın, kamanın misli- bərabəri omurdu»… («Yanan qar» romanı).

Yazıçı sanki hadisəni düşünüb təsvir eləmir, min illərin yaradıcılıq təcrübəsindən gələn bir inersiya ilə dastan danışır…

«…Aylı gecədə Bəylikdə gözə dəyəsi nə qalmışdı ki? Divarlar qaralıb kösövə dönmüş, ağacların yarpaqları evlərin, tövlələrin alovunda qarsalanıb payızın son günlərindəki rəngini almışdı. Evinin kül olmuş yerinə, kəsilib doğranmış bağına çatanda, səmənd atın belindən düşdü. At çərləməsin deyə cilovundan tutub, o tərəf- bu tərəfə gəzdirdi. Halına, xasiyyətinə bələd olmasa da, dar ayaqda onu yolda qoymayan səməndin gözlərindən öpdü və astadan:

- Qeyrətinə qurban olum, - dedi.

Sonra səmənd atı yanmış ağaclardan birinin kötüyünə bağladı. Ətrafa diqqətlə göz yetirdi. Səssizlik, sanki son ümidinin qəsdinə durubmuş kimi, hələm-hələm ərimədi.

Atın miniləsi halı qalmamışdı. Bəy Kamran piyada qəbirstanlığa doğru getdi. Ziyarətgahdakı palıda çatanda fit çaldı. Cavab Bənəkdən gəldi.astadan ulayıb özünü atdı Bəy Kamranın ayaqları altına. Vəfalı it sığınacaqda dözməmiş, kəmsiyi çeynəyib qırmış və özünü Bəxtiyara yetirmişdi»… («Yanan qar» romanı).

Və yaxud…

«…Kotan qayanın qoynuna, qoltuğuna sığınıb uyuyan duman sanki bir himə bənd imiş; günün günorta çağı dağların boynuna sarıldı. Adətən yazın sonu payızın isə ilk aylarında dağlardan əskik olmayan, hər gəlişi ilə ən çox şehdərən otlarını sevindirən təbiətin ağ örpəyi bu dəfə nə bir çiçəyin, nə də bir otun gözünü nəmləndirdi. Allahın möcüzələr göstərdiyinə inanan Bəy Kamran yayın istisində qəflətən peyda olan dumanın bir sehr, bir sirr, bir lütf olduğunu anladı. Deməli, böyük yaradan onu bəladan hifz eləmək istəyirdi.

Duman sıldırımın sinəsindən keçən cığırın vahiməsini yığmışdı bəyaz örpəyinin arasına. Artıq sonsuz uçurumlar, yuxarıdan salxım- salxım sallanan qayalar görünmürdü. Nabələd at cığırda xoflanıb eləmədən sərrast gedirdi. Bəy Kamran cığırın sonunda, daşdan süzülən kiçik şəlalənin yanında atın cilovunu çəkdi. Yerə düşüb əl- üzünü yudu. At da kiçik çeşmədən doyunca içdi. Burdan o yana, hər addımbaşı təhlükəylə üzləşə biləcəyini düşünən Bəy Kamran günün əyilməsini gözlədi.

Dağ keçilərinin min illərdən bəri dırnaqları ilə daşları döyüb açdıqları cığırla başqa bir canlının getməsinin çətin olduğunu yaxşı bilən Bəy Kamran səmənd atın cilovunu yəhərin qaşına keçirdi. Qarakötük ermənilərindən aldığı  qara qundaqlı avtomatı ayağa verdi. Beşaçılanı da yəhərin tapqırından açıb çiyninə aşırdı. Hacışirin aşırımına çatanda xəfif külək başladı. Neçə saat əvvəl dağlarla qolboyun olmağa  tələsən duman ondan doymuş kimi büküm- büküm büküldü, bir əlçim yuna çevrilib didildi, pərən- pərən olub dörd bir yana dağıldı»… («Yanan qar» romanı).

Və yaxud da…

«…Və elə bu an gözləri ayaq altında qalmış qan rəngli lalələri gördü; bəs bunların qırmızılığı hardandı? Rəhmətlik babası deyərdi ki, bunlar adi çiçək deyil. Uluların, müqəddəs babaların qanı ilə suvarılan yaddaşın, közərmiş yaraların yanar xatirəsidir. Lalənin ətri olmur. Laləni sevgililər  bir- birinə bağışlamırlar. Ona görə ki, saplağından üzülən lalə  - bu yanar xatirə, bu qəmli nəğmə dərhal sönür, dərhal solur. Ləçəkləri bircə- bircə qopub tökülür, göz yaşları kimi damla- damla səpələnir yerə. Lalə dağlar gülüdü. Qanlı laləni səpən də, becərən də dağlardı. Onu heç vaxt ayaqlamaq olmaz. Ruh tutar adamı.

Bir anın içində Süleymanın beynində bitdi qanlı lalə. Sədr olduğu vaxtlarda lalələr solmayana qədər bir adamı zəmilərə buraxmazdı. Biçənəklərin  sonuncu taləsi köçüb gedəndən sonra biçin başlayardı. Dynyada ən çox sevdiyi, kövrəldiyi mahnı da Rəşid Behbudovun məlahətlə oxuduğu «Lalələr» mahnısıydı.

Ayağının altında qalıb əzilmiş lalələri sığallayıb dikəltdi. Hələ açılmamış, bozumtul rəngə çalan qönçələrin içində bükülüb bir- birinə sarılmış qatbaqat ləçəklərin gülabı əlini islatdı. Gözünün önünə tutub baxanda ovcunun içindəki ağappaq süd şirəsini gördü. Süleyman əlli dörd illik ömründə lalələrin boylu olduğunu, işıqlığa gətirəcəyi qan rəngli qönçələri südlə böyüdüb bəslədiyini yalnız indi, səhərin bu bakirə çağında anladı. Babasının sözünü təzədən yada salıb üşəndi. Görəsən, tapdayıb əzdiyim qönçələr kimin qanını içib, cücərib? Süleymana görə, az qala yüz ildi qonşu əclaflığı, erməni xəyanəti bu yerin lalələrinə qan içirdir» («Yanan qar» romanı).

Hüseynbala Mirələmovun təsvir- təfərrüatları romantik olduğu qədər də realistdir… Və hətta prozaik olmaq səviyyəsində realistdir…

«…Möhnət Rusiyanın əksər şəhərlərində «tolkuçka»lar görmüşdü. Amma Bakı «tolkuçka»sı başqa bir aləm idi. Hər kəs özünə göy, yaşıl, sarımtıl rəngli çadırlarda mağaza düzəltmiş, gözünə görünən, əlinə gələn nə vardısa, alıb qalaqlamışdı içinə.

Son günlər yağıntılı keçdiyindən «tolkuçka»da, demək olar ki, selin- suyun əlindən ayaq basmağa yer qalmamışdı. Yan- yana düzülmüş iri mişar daşları həm küçə, həm də səki rolunu oynayırdı. Satıcılar ayaqlarının altına dəmir, taxta parçaları düzmüş, həm müştərilərin ayağının islanmaması, həm də içəri səliqəli görsənsin deyə döşəmənin üstünə qalın karton təbəqələr döşəmişdilər.

Möhnət hər ehtimala qarşı yan, arxa ciblərindəki pulların hamısını pencəyinin qoltuq cibinə qoyub ağzını düymələdi. Şalvar cibində Sergeyin verdiyi dollarlardan bir şax yüzlük saxladı. Hər addımbaşı «dollar, rus rublu dəyişirəm» - deyə çağıran oğlanlardan birinə yaxınlaşdı.

- Xırdala bunu, qaqaş.

- Hamısını?

- Bəli.

- Saxta- zad döyül ki?

- Mən saxta adama oxşayıram ki, pulum da saxta olsun?

- Xətrüvə nöşün dəyir, qərdeşim? Biz burda gündə hər cür sifətə rast gəlirik.

- Mən onlardan deyiləm»… («Yanan qar» romanı).

Yazıçı təsvirlərində sadəlövh olmaqdan çəkinmir; nə qədər mümkündürsə o qədər xalq dilinin (və təfəkkürünün!) dərinliklərinə enir, hətta bəzən Əli Vəliyev, Süleyman Rəhimov, İlyas Əfəndiyevin keçən əsrin 30- cu, 40- cı, 50- ci illərində təcrübəsini verdiyi bir dil- üslub təəssüratı nümayiş etdirməkdən belə çəkinmir…

«…Göl yeri deyilən çökəyə çatanda qulağına kişnərti səsi gəldi. Boz atın cilovunu çəkib dinşədi. Dağ pələngləri də hərdən at kimi fınxırır. Hər ehtimala qarşı beşaçılanı ayağa verdi. Atı irəli dəhmərlədi. Yalın aşırımında iyirmiyə yaxın at otlayırdı. Yaxına getdi. Bəlkə Bəyliyin atlarıdı? Bu an ilxının içindən Kəhər at

ona tərəf şığıdı. Boz at dərhal kişnədi. Bəy Kamran  ayğırların qapışmağını çox görmüş, bəzən saatlarla tamaşasında durmuşdu. Kəhər qulaqlarını geri yapıxdırıb, ağzını gen açmışdı. Bəy kamran qışqırdı:

- Dayan, çər dəymiş!

Kəhər insan səsinə bənd imiş kimi qabaq ayaqlarını yerə dirəyib, yamacın şehli otları üstündə xeyli sürüşdü və yambızları ilə göylükdə şırım açdı. Bəy Kamran qamçını havada hərləyib Boz atın cilovunu boşaltdı, zəndlə baxıb bunların Bəylik atları olmadığını anışdırdı, çönüb getmək istədi, tez də fikrindən daşındı: « İlxını  qoyub gedə  bilmərəm. Yerindən oynada bilsəm, Kəlbəcər tərəfə aşırmaq olar» - düşündü. Barmaqlarını qoşalayıb dodaqları arasında bükülmüş dilinin üstünə sıxıb ucadan fişqırıq çaldı. İlxı yerindən oynayıb Çiçəkli dağına səmt götürdü. Bəy Kamran Boz atın yalından su axana, sinəsi, paçasının arası köpüklənənə qədər ilxının arxasınca çapdı. Sonra cilovu dartıb atın yolunu dəyişdi. Buradan Səbətkeçməzə, mənzilbaşına iki saata yetişə bilərdi. Boz atı yedəkləyib üzü enişə getdi. Dərədən ötəndən sonra sərt yoxuş başladı. Yorulmuşdu deyin piyada getməyə taqəti çatmadı. Yenidən ayağını üzəngiyə basıb Boz atın belinə qalxdı»…(«Yanan qar» romanı).

Məsələ burasındadır ki, Hüseynbala Mirələmovun bədii təsvirləri yalnız təsvir  naminə deyil, burada insan psixologiyasını, ən azından konkret vəziyyətdəki ovqatının ifadəsinə hesablanmış  taktiki estetik  manevrlər, həyat-təbiət  paralelizmi kontekstində situativ interpretasiyalar, təbiət hadisələrində modelləşmiş (gizlənmiş) canlı  insan həyatı var…

«…Qəfil güclü cənub küləyi başladı. Nəhəng ümman təlatümə gəldi. Şappıltı ilə qayalıqlara dəyən dalğaların boğuq səsi adamı vahiməyə salırdı. Dəniz nəhəng, canlı əjdahaya dönüb nərildəyir, nəfəs alır, qəzəbini fırtınanın gurultulu dili ilə bildirirdi. Qurban istəyirdi dəniz… Bayaqdan bəri dənizin üzərində  hansısa istəyin təsiri altında aldanıb qalan qağayıların  çığırtıları da artıq yox olmuşdu. Bir qədər aralıda, balıqçı komasının kiçik pəncərəsindən gələn işıq yanıb- sönürdü. Dəli xəzri vəhşi bir sürətlə komanın dəlmə- deşiklərindən vurub keçir, təklay balaca pəncərədən asılmış kətan pərdəni sağa- sola yellədirdi…

…Səhər yuxudan oyananda, Fənayəni yanında görməmişdi. Dəniz geyimini əyninə keçirib məxsusi çimərliyə sarı getmişdi və görmüşdü ki… Çimərlik taxtına uzanıb dincələn, sol ayağını düppədüz, tərpənməz uzadaraq, o biri ayağını dizdən büküb nazik belinə tərəf yığan dəniz mələyi, su pərisi Fənayə…

Haris, sanki bu əfsanəvi görüntünün qarşısında donmuşdu, bacardığı şey yalnız qıza heyran- heyran tamaşa etməkdi. «İlahi, bu nə möcüzədi, bu nə gözəllikdi?!..»

Elə bu an günəş də qəfildən peyda oldu. Kəpənək qanadı kimi zərif, tül pərdənin arxasından çıxırmış kimi mübarək üzünü göstərdi. Əlçimə dönmüş bəyaz, pəmbə buludlar bir göz qırpımında dağılıb getdi. Nəhəng kürəşəkilli günəş, yerində gərnəşdi, boy göstərdi, gözlərini qıyaraq yerə – arxası üstə uzanıb dincələn, sol ayağını düppədüz, tərpənməz uzadaraq, o birisini dizdən büküb nazik belinə tərəf yığan dəniz mələyi, su pərisi Fənayəyə baxdı. Buna bəlkə də «baxmaq» demək olmazdı, məftun- məftun tamaşa elədi. Su pərisi öz gözəlliyi ilə günəşin varlığını sehrlədi, ofsunladı»… («Gəlinlik paltarı» romanı).

Yazıçı tarixdən gələn (artıq normativləşmiş, daha doğrusu, motivlənmiş!) səsə, rəngə olduqca həssasdır… Və o, həmin normativləşmiş və ya motivlənmiş hadisəni son dərəcə emosionallıqla stilizasiya edərək bədii mətnin fakturasına çevirə bilir…

… «Vağzalı» çalınırdı… Allah bilir, bu ecazkar musiqi nə zamandan yaranmışdı? Məlum olan bu idi ki, həmin anlar «Vağzalı» yaz mehi kimi qanadlanıb uçur, insanları indiyəcən yaşamadıqları, bilmədikləri yeni duyğular dünyasına qovuşdururdu. Sanki yeniyetmələri böyüdür, cavanların ruhunu bədənindən oynadır, yaşlıları yaşanmış illərin o tayında qalan bal kimi şirin, əlçatmaz gənclik çağlarına aparır, ən əziz xatirələri cana gətirirdi. Bəlkə elə buna görə də bu dəqiqələrdə Sərrafla Sadiqənin toyunda əl- qol ata- ata oynayanlar «Vağzalı»nın bitməsini istəmirdilər, heç istəmirdilər. Musiqinin sehri Həyatın onsuz da səliqə- səhmanlı həyətini başdan- başa nura qərq etmişdi. Ağaclardan asılmış elektrik lampalarının işığı ilə göy üzündə bax, elə bu günün gəlini Sadiqə kimi alışıb- yanan Ayın gümüşü şəfəqləri sonsuz məhəbbətlə bir- birinə

qovuşmuşdu. Və bu aydınlıq içində adamların mehribanlığı, xoş niyyəti, sevinc dolu baxışları, gülər üzləri Həyatın – əziyyətli həyat yaşasa da, cavanlığını, təravətini qoruyub saxlamış ananın qəlbində əsrarəngiz duyğular oyadırdı»… («Gəlinlik paltarı» romanı).

Hüseynbala Mirələmovun hekayə, povest, roman və dram əsərlərində bədii təsvir və ifadə vasitələri bol olduğu qədər də, əsasən, özünəməxsusdur, kifayət qədər orijinal, təravətlidir. Məsələn:

1.«… Zaman onu kəlbətin kimi sıxmış, həyatın haqsızlıqları vücudunu müstük kimi sümürmüş, belini bükmüşdü» («Xəcalət» povesti).

2.«… Körpə ağacı bir yerdən çıxarıb başqa yerdə basdırırsan, əvvəlki boy atmağından dayanır. Nə qədər qulluq edirsən, başına pərvanə kimi dolanırsan, suyunu verirsən, gübrəsini çatdırırsan, yenə faydası olmur. İnsan da torpaqda bitən ağaca bənzəyir. Harda doğulubsa, harda bitibsə, həmişə o yerə sarı dartınır. Çünki qürbət məmləkət gəzmək, görmək üçündür, ölmək üçün yox…

Bu sözləri o vaxt baban qürbətdə can üstə olanda demişdi. Vəsiyyət eləmişdi ki, çalışın, qayıdın kəndinizə»… («Xəcalət» povesti).

3. «…Vətənin canı yaxın təpənin üstündə dayanıb, alacalanmış gözləri ilə ona baxan babalarının, həyatının şirin çağlarını birgə yaşadıqları Fərqanənin sim kimi qırılmaqda olan ümidlərinin yanındaydı» («Xəcalət» povesti).

4. «… Bir əl maşının pəncərəsinə sarı uzandı. Ötəri baxdım, iyirmi iki-iyirmi üç yaşlarında cavan bir gəlin idi. Onun qaranquş yuvası kimi bapbalaca ovcunun içində dəmir qəpiklər vardı»… («Qaraçı gözəli Dorito» hekayəsi).

5. «… Belə havalarda dənizkənarı bulvarda səhərlər adam az olurdu. Son illərdə əkilmiş yamyaşıl evkalipt ağacları şəhərə yenicə gəlmiş turistlərə bənzəyirdi.

Dəniz limanındakı gəmilər nəhəng beşikləri xatırladırdı»… («Tənha lalə» povesti).

6. «… Həyat səhnəsində baş rejissordan axmaq rol almış aktyor kimi taleyinə boyun əyib qıpqırmızı pörtmüşdü»… («Qumru yumurtaları» povesti).

7. «… Boy- buxunundan, maşallah, lap manikenlərə oxşayır, - dedi və qısa ayaqları şaxələnmiş ağac kökünü xatırladan girdə masanın üzərindəki narıncı qutudan götürdüyü nazik, uzunsov siqareti damağına qoydu»… («Qumru yumurtaları» povesti).

8. «… Dünya – içində böyük çirkablar daşıyan gəmidir, biz də onun sərnişinləri… («Qumru yumurtaları» povesti).

9. «… Heyvan bədənini tük örtüyü basdığı kimi, ağacları da soyuqdan-sazaqdan qoruyan mamır min illik ağacların əynində qalın çoban yapıncısına bənzəyirdi və meşənin yaşıl ağacları bu paltardaca ayaq üstə mışıl- mışıl yatmışdı»… («Həyat eşqi» pvesti).

10. «… Saraylarda olan söz söhbətlər nə dərə- təpə tanıyır, nə də uşaq-böyük, pis xəstəlik kimi aləmə yayılır. Nəyin düz, nəyin yalan olduğunu bilmir adam»… («Sonuncu fateh» romanı) və s.

Yazıçının dilində türk epos dilinin kökü çox- çox qədimlərdə olan tanış intonasiyası səslənir:

« - Ə, nə danışırsan, kim qaçır, hara qaçır?

Yekəqarın, yastısifət Əkbər kinayə ilə onun üzünə baxaraq dedi:

- Hamı qaçır, özü də hara gəldi. Ermənilər kəndin yuxarısındakı evlərin hamısına od vurublar. Sənə dedim, qoyunları sat! Sözümə baxmadın. İndi görüm onları necə aparacaqsan, hara aparacaqsan?

Maşallah qəzəbindən bığlarını çeynəyib, sərt və kinayə ilə cavab verdi:

- Ə, nə sürü? Düşmən qapını kəsdiribdir… Sən dədənin qəbrinin dərdini çək…

Maşallahın yüz əlliyə qədər qoyunu var idi. Səkkiz inəyi yanı buzovlu, üç camışı yanı balalı idi. Kəhər madyanı erkək bir kürük doğmuşdu. Bütün bunları yadına saldığı üçün özünü qınadı. Bir anlıq illərdən bəri tikib- qurduğu aynabəndli evini, həyətindəki meyvə ağaclarını, babalarının, qardaşlarının məzarlarını, kəndin axar- baxarlı örüşlərini, əkin- biçin sahələrini, Qaragölü, İşıqlı dağını, Çalbayırı, Pəri çınqılını gözləri önünə gətirdi. Yanaqlarından süzülən duzlu su dodaqlarını isladanda hiss etdi ki, ağlayır.

Maşallah həyətdən çıxanda gördü ki, yamac boyu sıralanmış evlərin hamısında adamlar əl- ayağa düşüblər. Kimi arabasını, kimi at və ulağını yükləyir»… («Maşallahın paneli» hekayəsi).

Yazıçı atalar sözlərinə, demək olar ki, ardıcıl şəkildə müraciət edir…

Elə olur ki, atalar sözləri müsbət qəhrəmanın dilində bir, mənfi qəhrəmanın dilində başqa məna- təəssürat verir…

« - Qızım, «Palaza bürün, elnən sürün» - deyiblər. Və bir də «El hara, sən də ora» - söyləyiblər. Bir qədər təmkinli və səbrli ol. Hər şeydən ötrü coşub- daşma. Bir iş görəndə yaxşı- yaxşı düşün. – Bu sözləri ertəsi gün Əminə xala öz ciyərparası Xatirəyə dedi.

Xatirə müəllimənin eyni açıldı, kefi duruldu, Əminə xala gülümsəyə-gülümsəyə:

- Ana, bilirəm, Vəsilənin məsələsində hələ də məni günahkar hesab edirsən, - dedi.

- Yox, qızım. Amma bilirsən ki, başından bir tük əskik olsa»… («Coğrafiya çubuğu» povesti).

Halbuki həmin atalar sözləri başqa bir qəhrəmanın – məktəb direktorunun dilində tamamilə köhnəliyin, ətalətin təsdiqi kimi səslənir…

Hüseynbala Mirələmovun bədii təfəkküründə aydın cizgiləri, təfərrüatı ilə seçilən bir ad həssaslığı mövcuddur ki, bu həssaslıq əsərlərinin adından başlayıb qəhrəmanlarının adlarına qədər davam edir.

Ad insanın xarakterini təyin edir…

«… O vaxtlar professor Əzazilli ilə ilk dəfə qarşılaşanda o da belə qətiyyətli danışmışdı. Amma Əzazilli onun inamını qırmaq, guya hələ uşaq olduğunu gözünə soxmaq istəmişdi. Əsmər Sultanlı isə geri çəkilməmiş, fikrini konsiliumda açıq demişdi. Professorun etirazlarına baxmayaraq bildirmişdi ki, o, yalnız öz mövqeyini müdafiə etmək məqsədi güdmür, həm də xəstənin taleyi üçün narahatlığını diqqətə çatdırmaq istəyir»… («Tənha lalə» povesti).

Yaxud…

«… Demək olar ki, əksəriyyət bu qadının qəribə adını ilk dəfə eşidərkən heyrətlənirdi. Əslində isə təəccüblənmək üçün əsaslı səbəb yox idi.

Zinayənin özünün dediyinə görə, adının birinci hissəsini anasının, ikinci hissəsini isə atasının adından götürüblər: Zinaida və Yəmən. Qızına adı özü qoyub, guya ki, yaraşdırıb; Ziyanə- Fənayə»…(«Gəlinlik paltarı» romanı).

Hüseynbala Mirələmovun qəhrəmanları insan adlarının mistikasına inanırlar…

«…Vətənin Didar adlı bacısı, Qəmxar adlı qardaşı körpəliyin məsumluğu çöhrələrindən çəkilməmiş tələf olmuşdular. Ötərxan kişi nəvələrinə həmin adları verməklə əzizlərinin ruhlarını ədədiləşdirmişdi.

Vətən bəlkə indiyəcən fərqinə varmamışdı ki, hər adın arxasında bir tarix var. Sən demə, bəzi adların doğuluşu da, yaranışı da yaşanmış əzablar, insanın məruz qaldığı iztirablardır»… («Xəcalət» povesti).

Yazıçı insan adlarının uydurma «yekəxanalığ»ında onların cılız təbiətini görür…

«…Beləliklə, yarım saata «İstiqbal» qəzetinin kollektivi yığışdı. Sonra baş redaktor balacaboy Kərim Cavidan hamını iclasa çağırdı. Nitqi o qədər qüsurlu idi ki, heç nə başa düşmək olmurdu… Yenə, həmişəki kimi, qəzetin ümumi səviyyəsini bir kənara qoyub məşhur mübahisəçi Cəbrayıl Əflak başını yellədə-yellədə Azərbaycandakı bütün bəlaların başında beynəlxalq sionizmin durduğunu iddia edir, siyasi liderlərin fikrini öyrənməyin vacibliyindən danışır. Girdəsifət, ağbəniz Kamal Səməndər qızara- qızara,- əşi, beynəlxalq sionizmin bura nə dəxli, - dedi…

Xülasə, mübahisə uzandı. Kərim Cavidan əlindəki ruçkanı mizə çırparaq güclə sakitlik yaratdı» («Yeni həyat» hekayəsi).

Hüseynbala Mirələmovun əsərlərində yer adlarının mənasını (etimologiyasını) elmi- bədii məntiqlə izah etmək marağı güclüdür:

«…Kürəkçi kəndi bütün gözəlliyi ilə Xatirə müəllimənin gözləri önündə canlanmışdı.

Cah- calalına, yaraşığına və təbii gözəlliyinə görə seçilən bu kənd düzənlərin qurtardığı və silsilə dağların başladığı yerdə salınmışdı. Bəs «Kürəkçi» sözünün mənası nə idi? Nə qocalar, nə də cavanlar bu haqda heç nə bilmirdilər. Kəndin ən qədim məhəlləsi Qalayçılar adlanırdı, deyilənə görə, bir vaxtlar burada yaşamış qalayçılar bütün ətraf obalarda məşhur imişlər. Onlar pas atmış, paxır tutmuş qab-qacağı camaatdan yığır, qalaylayır və heç vaxt zəhmətlərinin müqabilində kimdənsə nəsə istəmirdilər. Buğdadan, arpadan, undan, kartofdan, soğandan, meyvədən – kimin nəyə gümanı çatırdısa – gətirib verirdi. Qalayçılar da Allahlarına şükür edirdilər… Bir rəvayətdə isə, «Kürəkçi» sözünün «körük» və ya «kürə» sözlərindən əmələ gəldiyi söylənilirdi. Deyilənə görə, bu sözlər sonradan dəyişikliyə uğraya- uğraya bu hala düşmüşdü. Bu fərziyyənin müəllifi tarix müəllimi, Kürəkçi kəndinin məktəbinin adlı- sanlı pedaqoq- etnoqrafı Kamil Adilbəyli idi»… («Coğrafiya çubuğu» povesti).

Və bu maraq o səviyyəyə qalxır ki, yazıçı yer adının etimoloji dərinliyinə enir, əfsanələrdə, əsatirlərdə, ümumən mifologiyada «gizlənmiş» tarixi ortaya çıxarmağa, onu (etimologiyanı!) əsərin ideya- məzmununa təsir edəcək bir səviyyədə təqdim etməyə çalışır… Və buna nail olur…

«- Ətəyində dayandığımız dağın adı Bağrıqandır – bunu Vətən dedi.

- Nə qəribə adı var, - Murad həmin adı dodaqaltı təkrarladı, - Bağrıqan. Görəsən, kimin bağrı burada qana dönüb?

Şair Mahmudəli bir az kənara çəkilib, əlini zirvəyə sarı uzatdı. Murad uca zirvəyə tərəf boylandı. Dağ saç- saqqal basmış ixtiyar qocaya bənzəyirdi. Bu nəhəng cüssəli qocanın sinəsi qırmızıya bələnmişdi. Axşam günəşinin batmaqda olan qızılı şüaları dağın siənsinə sanki alqırmızı rəng qatmışdı.

- Əsrin əvvəllərində baş vermiş hadisə ilə bağlıdır dağın adı. - Mahmudəli ağır bir əhvalat danışırmış kimi, dərindən nəfəs aldı. – Bunu mənə həmin qanlı hadisələrin şahidi olmuş kəndimizin yaşlı sakini danışıb.

…Bir gün ətrafda yaşayan ermənilər xosunlaşıb, bütün bənd- bərəni kəsirlər? «Biz neçə illərdir köçüb, burada yaşayırıq, bura bizim dədə- baba yurdumuz

kimidir. Ancaq hələ də bizim deyil. Biz axır ki, bu dağın bizə məxsus olduğunu sübut etməliyik».

Yağı dağın ətəyindən keçən yollara pusqu düzür. Buradan keçənlərin əl-qollarını bağlayıb, sıx meşənin ortasındakı talaya gətirirlər.

Quldurbaşı ətrafdakılara deyir: - Elə bir cəza növü tapmalıyıq ki, bu türklər onu heç vaxt yaddan çıxarmasınlar, ermənin kimliyini bilsinlər.

Qoyun- qoltuğunda yer verdiyi adamların bu gün belə namərdlik edəcəyini ağlına gətirməyən bu dağın dədə- baba sahibləri öz səhvlərinin cəzasını çəkir. Cəzanın üslulu isə ermənisayağı olur: «Adamları soyundurub, yerə uzandırır, dərilərindən bir parça kəsib, əydikləri ağac budağına bağlayır, sonra da budağı buraxırdılar. Bu zaman dəri bədəndən zoğ- zoğ qopur, insanların ah- naləsi bütün dağları başına götürürmüş. Ağrının şiddətindən dəli- divanə olmuş insanlar üz tütüb dağa sarı qaçır, arxalarınca fışqıran qan iz salırmış. Az keçməmiş bu qədər insanın zillət və əzabının şahidi olmuş dağın köksü qıpqırmızı qan rənginə çalır».

… O gündən bu dağın adı «Bağrıqan» qalır. Deyirlər ki, o vaxtdan bəri Bağrıqan dağının sinəsi səhər- axşam qıpqırmızı görünür. Günahsız insanların belə işgəncə ilə cəzalandırılması ağlasığmazdır, amma faktdır» («Xəcalət» povesti).

Hüseynbala Mirələmovun güclü (eyni zamanda zərif!) yumor hissi (istedadı!) var… Məsələn, «Təmizlənmə» povestinin qəhrəmanı Göyüş müəllimin kənddən Bakıya gələrkən və Bakıdan gedərkən avtobus vağzalında qarşılaşdığı (Göyüş müəllim Bakıya gələrkən bir ovqatda idi, gedərkən tamam başqa ovqatda) hadisə- vəziyyətləri müqaiysə edək:

Xoş əhval- ruhiyyə ilə Bakıya gələrkən…

«…Vağzal tünlük idi və nədənsə, birdən- birə Göyüşün yadına «İt yiyəsini tanımır» ifadəsi düşdü, tez əlini pencəyinin sol cibinə saldı, pulun orda olub-olmadığını yoxladı, arxayın olandan sonra yolun sağ tərəfinə keçdi, elə bu vaxt yaxınlıqdakı bapbalaca köşkdən hansısa meyxanaçının avazla oxuduğu sözlər eşidildi:

*Salam, alə kəndçi bala,*

*Kənddə ineyler necədü?*

Göyüş gülümsədi və fikirləşdi ki, şəhərlilərin kəndlilər haqıqnda yazdıqları bu üzdəniraq «dostluq» şarjını oxutmaq üçün vağzal elə ən münasib yerdir. Qeyri- ixtiyari dilləndi:

- Yakçıdu, ələ, ineylər yakçıdu, başın haqqı, hər biri ildə on iki bala verir»…

O qədər də xoş olmayan əhvali- ruhiyyə ilə Bakıdan gedərkən…

«…Çar- naçar üz tutdu vağzala sarı. Balaca köşkdəki maqnitafonda yenə myexana oxudurdular:

*Salam, alə, kəndçi bala,*

*Kənddə ineylər necədü?..*

Göyüş qeyri- ixtiyari gülümsündü:

- Yakçıdu, başın haqqı, hər biri ildə on iki bala verir» («Təmizlənmə» povesti).

Hüseynbala Mirələmovun bədii dilində aydın cizgiləri ilə seçilən publisistik məqamlar, bədii intonasiyasında publisistik notlar olduğu kimi publisistik dilində də güclü (və təbii!) bir bədiilik mövcuddur.

Qarabağ mövzusuna həsr olunmuş «Xəcalət» povestinin mətninə (və dil- üslubuna) publisistik nitqi mövzunun özü gətirir:

«…İttifaqda ən zərərli istehsal müəssisələri mikoyanların fitvası ilə Bakı, Sumqayıt şəhərlərində salınıb. Heydər Əliyev olmasaydı, bu bəlalar hələ 60- cı illərdə başımıza gələrdi. Moskvada yüksək vəzifə tutan ermənilərin, onların təsiri altına düşən rusların xalqımıza qarşı yeritdiyi sərt şovinist siyasətinin qarşısında o idi mətanətlə dayanan: Hərbi məktəblər açdı, cavanlarımızın Moskvada, Leninqradda, Kiyevdə, Xarkovda və başqa şəhərlərdə təhsil almasına şərait yaratdı. Mərkəzdə öz sözü, prinsipial mövqeyi olması erməniləri tısbağa kimi qınlarına çəkilməyə məcbur etdi. O, Moskvadan gedən kimi əl- qolları açıldı.

Şübhə yoxdur ki, qonşuluqda yaşayan xalqlar bir- birinin folklorundan, ədəbiyyatından, mədəniyyət və incəsənətindən, mətbəxindən, adət və ənənələrindən bəhrələnməlidir. Amma day, bunlar kimi yox. Qəhrəmanlıq dastanımız «Koroğlu»nu öz adlarına çıxmaq istəyirlər. «Sarı gəlini» hansı erməni

ifa edə bilər? «Möminə Xatun» məqbərəsini, «Çıraqqala»nı, «Qız qalası»nı, Şuşa qalasını inşa edənlərin adını erməniyəmi qoymaq olar? Əlbəttə, şovinist erməni xislətini dərk eləyənlər də var. Bəstəkar Aram Xaçaturyan haqqında eşitmisənmi? «Spartak» baletini qədim «Cəngi»mizin notları əsasında yazıb. Aəzrbyacan musiqisindən yetərincə bəhrələndiyini etiraf edib. Day, Zori Balayanlar kimi ağına-bozuna baxmadan hər şeyi erməniləşdirməyib.

Dağlıq Qarabağ Muxtar Vilayətində yaşayan ermənilər doğrudan da süd gölündədirlər. O günü Nazirlər Sovetində keçirilən iclasda Respublika Statistika Komitəsinin sədri maraqlı faktlar açıqladı. Məlum oldu ki, vilayət üzrə adambaşına düşən real gəlir ümumilikdə Azərbaycanda olduğundan qat- qat artıqdır. Mədəni, sosial sahələrdə də ermənilərə üstün şərait yaradılmışdır. Deməli, əsas məqsədləri sosial tələblər deyil, Qarabağı Ermənistana birləşdirməkdir. İstəyirlər ki, torpaqlarımızı işğal etməklə «Böyük Emənistan» dövləti yaratsınlar. Bu səbəbdən də quduzlaşmış canavara dönüblər. Həyasızlığa bax ki, Ermənistan Ali Sovetinin sessiyası Dağlıq Qarabağın Ermənistana birləşdirilməsi barədə qərar qəbul edib».

Hüseynbala Mirələmovun bədii dili üçün səciyyəvi olan hadisələrdən biri sual cümlələrinin həm çoxluğu, həm də həmin cümlələrin estetik enerjisinin zənginliyidir.

«…Əsmər çöhrəsinə doyunca baxa bilmədim. İşıqforun yaşıl işığı yandığı üçün maşını yerindən tərpətməli oldum.

Bu işə mat qalmışdım. Avtomobili idarə edə- edə özümdən israrla soruşurdum: «Necə ola bilər ki, bu cür qənirsiz bir gözəl dilənsin? Onu əl açmağa vadar edən nədir? Bəlkə ərindən ayrılıb, tək- tənhadır, kimsəsizdir? Bəlkə xəstəsi var? Bəlkə…»

Qəribədir, elə bil sehrə düşüb ofsunlanmışdım; səhər tezdən küçədə, üstəlik belə bir havada dilənən bu qadını görmək, onunla tanış olmaq, söhbət etmək istəyirdim. Nə idi məni buna sövq edən? Yazıçı marağı, yoxsa dincliyimə qənim kəsilən gözəlliyi? Məftunluq duyğusu, yoxsa mərhəmət hissi? Heç özüm də bilmirdim»… («Qaraçı gözəli Dorita» hekayəsi).

Yaxud…

«…Eh, Xəzər, Xəzər, bu qəfil külək haradan qalxdı, başın üstündə hansı fırtınalar qopdu? Necə oldu sən yoxa çıxdın? Ömrümün sonunacan bir xəbər çıxmasa da, səni gözləyəcək, səni axtaracaq, səni tapacağam. – Xatirə özünü qınadı. «Mən Xəzəri gözləyəcəmsə… ondan bir xəbər çıxmayınca tərəddüdlərə yol verməyəcəmsə, onda Əsmər Sultanlı ilə nə üçün məsləhətləşməliyəm? Birdən Allah eləməmiş, Əsmər xanım da elə anam kimi «Unut getsin, belə xəbərsiz-ətərsiz çıxıb getmiş oğlan hətta evlənmiş olsaydınız belə, nə vaxtsa səni yarı yolda qoyardı» desə… Yox, yox, Əsmər xanım qətiyyən belə deməz. O, çoxlarından fərqli olaraq adamın gözünün içinə baxan kimi daxilində nələr baş verdiyini açıq-aşkar görür.

Görəsən, Əsmər xanım necə? Özünü xoşbəxt hesab edirmi? Axı o, şəxsi həyatı haqqında heç kimə heç nə demir. Görəsən, Əsmər xanımın da taleyində mənim kimi gərgin anları olubmu? Bəlkə də olmayıb. Hamı elə bilir Əsmər xanım dünyanın ən xoşbəxt qadınıdır. Mən də belə hesab edirəm. Amma nə bilmək olar. Bəlkə Əsmər xanımın elə dərdi, qayğısı var ki, mən qəlbimi açanda onun dərdinin üstünə dərd gətirəcəyəm? Bəlkə heç deməyim, özü yıxılan ağlamaz, deyiblər. Sinəmdə ağır daş kimi saxlayım bu ağrını? Axı nə vaxtacan? Bəlkə də Əsmər xanım mənə ağlıma gəlməyən ağıllı məsləhət verəcək. Ondan heç nə gizlətməməliyəm»… («Tənha lalə» povesti).

Hüseynbala Mirələmovun qəhrəmanları öz hisslərini, düşüncələrini daha çox daxili mükalimələrlə ifadə edirlər…

«…Xatirəni məngənə kimi sıxan gümanlar bezdirmişdi. Fikirlər, yozumlar beynində bir- birinə qarışmışdı. Bəlkə başında bir qəza var? Bəlkə anam Xəzərin mobil telefonuna zəng edib onun qəlbinə toxunan bir söz deyib? Axı belə olsaydı, Xəzər bunu mənə deyərdi. Xəzəri qınamalı deyil. Aradan neçə ay keçib. Mən Xəzərə öz münasibətimi bildirməmişəm. Bəlkə Xəzər çəkinib bir söz deməyib. Axı o, mənim hər bir hərəkətimdən, danışığımdan, gülüşümdən hər şeyi başa düşürdü. İşə gələndə, işdən çıxanda yolboyu onun daxili aləmində nələrin baş verdiyini, hansı həyəcanları yaşadığını hiss edirdim. Yox, anam düz demir. Heç işdəki rəfiqələrim də bu məsələdə düz fikir söyləmirlər. Doğrudur, onların: «Ay qız,

Xatirə, haradadır o nazik, qarabəniz oğlan?» «Bəlkə gedib özünü formaya salmağa? Yaman arıq- arğaz idi» - atmacaları, köntöy sözləri qəlbini yaralayırdı»… («Tənha lalə» povesti).

Hüseynbala Mirələmovun dilində həmcins üzvlərdən, sintaktik paralellərdən geniş (və məharətlə) istifadə olunur…

«…Gündüzlərin canüzücü səssizliyindən qulaqları batırdı. Quşların cəhcəhindən, böcəklərin, cırcırama və ilbizlərin sanki uzaq dünyalardan gələn xorabənzər qarışıq səslərindən başqa heç nə eşidilmirdi. Hərdən adsız, ünvansız çeşmələrin, çayların şırnasının şırıltısı bu səslərin içindən aydınca solo kimi seçilirdi. Düzünə qalsa, o elə bu səslərin ölüsüydü və bu qeyri- adi səslərin yaratdığı harmoniya gah ovqatını təlx edir, gah da kefini axar şəffaf sular kimi duruldurdu. Çünki bu səslər – solmayan rənglər, naxışlar min illər əvvəl toxunmuş xalının çeşnisi kimiydi və bu xalı milyon illəri keçib gəlmiş uzun bir zamanın dizini qatlamışdı. Suyun şırıltısı, quşların pırıltısı, yarpaqların xışıltısı, küləyin vıyıltısı – bir sözlə, təbiətdə nə qədər qədim əsrarəngiz səslər, gümültü, pıçıltı vardısa, hamısı onun ruhuna hopur, həyatverici qan kimi damarlarına axırdı.

O, ömrünü, həyatını puç etdiyini, fənaya uğratdığını artıq dərk edirdi. Axı o istəsəydi, on il bundan qabaq da bura gəlib məskən sala bilərdi. Quşlarla, ağaclarla, böcəklərlə, çaylardakı pullu- naxışlı balıqlarla asanca dil tapa bilərdə»… («Xəcalət» povesti).

Hüseynbala Mirələmovun yazıçı dili onun bədii təfəkkürünün zənginliyinin təbii göstəricisidir.